www.vivo-book.com

Mixail Bulqakov

Master və Marqarita

(roman)



Birinci hissə

... Axı sən kimsən?

– Mən daim pislik arzulayan və daim yaxşılıq edən qüdrətin bir hissəsiyəm.

Gete, "Faust"

I fəsil

TANIMADIĞINIZ ADAMDAN UZAQ DURUN

Yazın isti bir qürub çağı Patriarx gölünün qırağında iki adam göründü. Əynində parusindən boz yay köynəyi olan, qara saçları ortadan dazlaşmış qırx yaşlarında tösmərək kişi şlyapasını əlində piroq kimi tutmuşdu, təmiz qırxılmış sifətində buynuz sağanaqlı iri qara eynəyi ilk baxışdan gözə dəyirdi. Dama-dama kepkasını boynunun dalına itələmiş enlikürək, kəkilli kürən gənc ətəyiuzun, enli köynək, əzik ağ şalvar və qara çəkələk geyinmişdi.

Bunlar Moskvanın qısaca Massolit adlanan çox böyük ədəbi cəmiyyətlərindən birinin sədri və qalın bədii jurnalın redaktoru Mixail Aleksandroviç Berlioz, bir də onun Bezdomnı ləqəbi ilə yazıb-yaradan gənc yoldaşı şair İvan Nikolayeviç Ponıryov idi.

Azca yaşıllaşmış cökə ağacının kölgəsinə çatan kimi yazıçılar tez-tələsik özlərini üstünə "Pivə və sular" yazılmış ala-bəzək köşkə verdilər.

Bu yerdə həmin dəhşətli may axşamının ilk qəribəliyini qeyd etmək lazımdır. Nəinki köşkün ətrafında, Kiçik Bronnaya küçəsinə paralel xiyabanda da kimsə gözə dəymirdi. Nəfəs almağa belə hal qalmadığı, günəşin Moskvanı yaxıb-yandırıb, buludsuz havada Sadovaya dairəsinin arxasına endiyi həmin vaxtda cökə ağacının altında heç kim yox idi, skamyada heç kim oturmamışdı – xiyaban bomboş idi.

–Narzan verin, – Berlioz dedi.

–Narzan yoxdur, – köşkdəki qadın nəyə görəsə incik cavab verdi.

–Pivə var? – Bezdomnı boğuq səslə soruşdu.

–Pivəni axşam gətirəcəklər, – qadın cavab verdi.

–Bəs nə var? – Berlioz xəbər aldı.

–Ərik şirəsi, ancaq ilıqdır, – qadın dedi.

–Di verin, verin, verin!..

Ərik şirəsindən sarı köpük qalxdı və havadan dəlləkxana qoxusu gəldi. İçən kimi ədibləri hıçqırıq tutdu, hesabı ödəyib, üzləri gölə, arxaları Bronnaya küçəsinə tərəf skamyada oturdular.

Bu zaman təkcə Berlioza dəxli olan ikinci qəribəlik baş verdi. Hıçqırığı qəfil kəsdi, ürəyi çırpınıb harasa yuvarlandı, sonra qayıtdı, ancaq küt sancıyla. Bundan başqa, onu heç nədən elə möhkəm qorxu sardı ki, həmin dəqiqə dabanına tüpürüb Patriarx gölündən qaçmaq istədi. Berlioz nədən qorxduğunu anlamadan qüssə ilə ətrafına baxdı. Rəngi ağarmışdı, alnını dəsmalla silib düşündü: "Nə oldu mənə? Heç vaxt belə şey olmayıb... ürəyim şıltaqlıq eləyir... yorulmuşam. Deyəsən, hər şeyi atıb Kislovodska getməyin vaxtıdır..."

Bu yerdə bürkülü hava onun qarşısında qatılaşdı və həmin havadan çox qəribə görünüşlü şəffaf adam əmələ

gəldi: balaca başında günlüklü jokey papağı, əynində dar, dama-dama yüngül pencək... Boyu bir sajın, dəhşətli dərəcədə arıq, çiyinləri ensiz adamın sifətində isə, nəzərinizə çatdırım ki, istehza var idi.

Berliozun həyatı elə qurulmuşdu ki, qeyri-adi hadisələrə öyrəşməmişdi. Daha da ağarıb, gözlərini bərəldərək təşvişlə düşündü: "Belə şey ola bilməz!.."

Ancaq təəssüflər olsun ki, beləydi, bu tərəfindən o tərəfi görünən uzun adam torpağa toxunmadan onun qarşısında sola-sağa yırğalanırdı.

Berlioz dəhşətdən gözlərini yumdu. Gözünü açanda isə gördü ki, hər şey qurtarıb, ilğım itib, dama-dama paltarlı yoxa çıxıb, ürəyindəki sancı da onunla bir yerdə.

– Tfu, lənət şeytana, – redaktor dedi, – bilirsən, İvan, istidən az qaldı ürəyim yatsın! Hətta qarabasmaya oxşar da nəsə oldu, – o gülümsəməyə çalışdı, ancaq gözlərindən hələ də qorxu çəkilməmişdi, əlləri titrəyirdi. Bununla belə, get-gedə sakitləşdi, dəsmalla üzünü yelləyib, kifayət qədər gümrah səslə: "Hə, deməli..." – deyib, hərdən ərik şirəsindən içərək yarımçıq söhbətinə qayıtdı.

Sonradan biləcəyiniz kimi, söhbət İsa Məsihdən gedirdi. Məsələ belə idi: redaktor jurnalın növbəti nömrəsi üçün şairə din əleyhinə böyük poema sifariş vermişdi. İvan Nikolayeviç bu poemanı yazdı, özü də çox qısa müddətə, ancaq təəssüf ki, poema redaktoru heç cür qane etmirdi. Bezdomnı öz poemasının baş qəhrəmanını, yəni İsanı qara boyalarla təsvir etmişdi, bununla belə, redaktorun fikrincə, poemanı büsbütün təzədən yazmaq lazımdı. Ona görə də başlıca səhvini göstərmək üçün indi şairə İsa haqqında mühazirəyə oxşar bir şey oxuyurdu. İvan Nikolayeviçi məhz nəyin pis vəziyyətdə qoyduğunu demək çətindi – təxəyyülün gücü, yoxsa yazmaq istədiyi məsələnin mahiyyətindən xəbərsizliyi – ancaq onun təsvir etdiyi xoşagələn personaj olmasa da, tamamilə canlı çıxmışdı. Berlioz isə şairə sübut etmək istəyirdi ki, əsas məsələ İsanın necəliyində – yaxşı, ya pis olmasında deyil, ondadır ki, İsa adlı şəxsiyyət, ümumiyyətlə, yaşamayıb və onun haqqındakı bütün hekayətlər – bəsit uydurmalar, çox adi əfsanələrdir.

Qeyd etmək lazımdır ki, redaktor oxumuş adam idi və öz söhbətlərində çox məharətlə qədim tarixçilərə, məsələn,

İsanın varlığı barədə bir kəlmə də yazmayan tanınmış isgəndəriyyəli Filona, əla təhsil almış İosif Flaviyə istinad edirdi. Mixail Aleksandroviç dərin bilik nümayiş etdirib hətta Tatsitin məşhur "Salnamələr"inin on beşinci kitabının 44-cü fəslində İsanın edamından bəhs edilən yerin çox sonralar quraşdırılıb oraya əlavə olunduğunu da dedi.

Redaktorun söylədikləri şair üçün təzə olduğundan oynaq, yaşıl gözlərini ona zilləyib, hərdən hıçqırdığına görə pıçıltı ilə ərik şirəsini söyərək, diqqətlə Mixail Aleksandroviçə qulaq asırdı.

– Şərqdə elə bir din yoxdur ki, – Berlioz deyirdi, – bakirə qız dünyaya Allah gətirməsin. Xristianlar da təzə bir şey fikirləşə bilməyib bu yolla getdilər, əslində, həyatda olmayan İsanı yaratdılar. Bax, əsas diqqəti buna yönəltmək lazımdır...

Berliozun uca tenoru boş xiyabana yayılırdı və Mixail Aleksandroviç yalnız çox elmli adamların boynunu sındırmaqdan qorxmayıb baş vurduğu dərinliklərə cumduqca şair Yerin və Göyün oğlu, Misirin mərhəmətli allahı Osiris, Finikiya allahları Fammuz, Marduk və hətta nə

zamansa Meksikada asteklərin tapındığı, az tanınan zəhmli Vitsliputsli haqqında bir çox faydalı və maraqlı şeylər öyrəndi.

Və elə Mixail Aleksandroviç asteklərin Vitsliputslinin fiqurunu xəmirdən necə yapdıqlarını şairə danışırdı ki, xiyabanda ilk adam göründü.

Sonradan, açığını desək, artıq iş-işdən keçmişdi, müxtəlif müəssisələr bu adamın görkəmi ilə bağlı öz məlumatlarını təqdim etdilər. Onları tutuşduranda heyrətlənməyə bilmirsən. Birində deyilirdi ki, bu adamın boyu balaca, dişləri qızıl və sağ ayağı axsaq olub. O birində adamın çox iri, dişlərinin platin qapaqlı olduğu, sol ayağının axsadığı bildirilirdi. Üçüncüdə qısaca xəbər verilirdi ki, onun heç bir xüsusi əlaməti olmayıb.

Etiraf etməyə məcburuq ki, bu məlumatların heç biri həqiqətəuyğun deyil.

Ən əvvəl: təsvir olunanın heç bir ayağı axsamırdı, boydan nə balaca, nə də nəhəngdi, sadəcə, hündürdü. Dişlərinə gəlincə, soldakı dişləri platin qapaqlı, sağ tərəfdəkilər isə qızıldı. Əynində bahalı boz xarici kostyum,

ayağında kostyumu rəngdə tufli vardı. Boz beretini qulağının üstünə basmışdı, qoltuğuna vurduğu əlağacının qara ucluğu pudel başı formasında yonulmuşdu. Yaşı qırxdan bir az çox olardı. Ağzı əyri idi. Sifəti təmiz qırxılmışdı. Qarayanızdı. Sağ gözü qara, sol gözü, nədənsə, yaşıl idi. Qara qaşlarının biri o birindən hündürdü. Bir sözlə, əcnəbi.

Redaktorla şairin əyləşdiyi skamyanın yanından ötəndə əcnəbi onları çəp-çəp süzüb dayandı və qəfil dostlardan iki addım aralıdakı skamyada oturdu.

"Almandır", – Berlioz fikirləşdi.

"İngilisdir", – Bezdomnı fıkirləşdi, – "gör ha, əlcəkdə isti deyil ona".

Əcnəbi isə gölü kvadrat şəklində dövrələmiş hündür binalara göz gəzdirdi, hiss olunurdu ki, bu yerləri ilk dəfədir görür və buralar onun marağına səbəb olub.

O, nəzərlərini Mixail Aleksandroviçdən həmişəlik uzaqlaşan günəşi şüşələrində sındıraraq göz qamaşdıran yuxarı mərtəbələrə dikdi, sonra baxışlarını axşamqabağı şüşələrin artıq qaralmağa başladığı aşağılara sürüşdürdü,

nəyəsə təkəbbürlə gülümsədi, gözlərini qıydı, əllərini əlağacına, çənəsini isə əlinə söykədi.

–İvan, – Berlioz deyirdi, – sən, misal üçün, Allahın oğlu İsanın doğulmasını çox yaxşı, satirik təsvir eləmisən, ancaq məsələ bundadır ki, hələ İsaya qədər bir yığın allah oğlu doğulmuşdu; götürək elə frikiyalı Adonisi, finikiyalı Attisi, iranlı Mitranı, sözün kəsəsi, onların heç biri doğulmayıb, heç biri də olmayıb, o cümlədən İsa. Gərək sən doğuşdan, falçıların gəlişi səhnələrindənsə bu doğuş barəsindəki cəfəng şayiələri qələmə alaydın... Ancaq sənin yazından belə çıxır ki, o, doğrudan da, anadan olub!..

Bu yerdə Bezdomnı nəfəsini çəkib ona əziyyət verən hıçqırığı saxlamağa cəhd etdi, ona görə daha bərk və ağrılı hıçqırdı. Elə bu vaxt Berlioz söhbətini kəsdi, çünki əcnəbi ayağa durub onlara tərəf yönəldi.

Hər ikisi ona təəccüblə baxdı.

–Xahiş edirəm, məni bağışlayasınız, – yaxınlaşan adam aksentlə, amma sözləri təhrif etmədən dedi, – sizinlə tanış olmadığıma görə cəsarət edirəm... ancaq sizin elmi söhbətinizin mövzusu o qədər maraqlıdır ki...

O, nəzakətlə beretini çıxartdı və dostların ayağa qalxıb təzim etməkdən ayrı əlacı qalmadı.

"Yox, yəqin, fransızdır..." – Berlioz fikirləşdi.

"Polyakdır?.." – Bezdomnı fikirləşdi.

Əlavə etmək lazımdır ki, ağzını açan andan əcnəbi haqqında şairdə çox pis təəssürat yarandı. Berliozun isə ürəyinə yatdı, daha doğrusu... necə deyərlər, onda, elə bil, maraq oyatdı.

– İcazə verərsinizmi əyləşim? – Əcnəbi nəzakətlə xahiş etdi və dostlar qeyri-ixtiyari kənara çəkilincə, cəld onların arasında oturdu, o dəqiqə də söhbətə girişdi.

–Əgər yanılmıramsa, siz buyurdunuz ki, İsa dünyada olmayıb? – Əcnəbi yaşıl sol gözü ilə Berliozu süzdü.

–Yox, siz yanılmamısınız, – Berlioz nəzakətlə cavab verdi, – mən məhz bunu deyirdim.

–Ah, necə də maraqlıdır! – əcnəbi ucadan dedi.

"Nə lazımdır e, buna?" – Bezdomnı sifətini turşutdu.

–Siz də həmsöhbətinizin fikri ilə razısınız? – naməlum şəxs sağa dönüb Bezdomnıdan xəbər aldı.

O, ibarəli, qəliz danışmağı xoşladığından:

–Yüzə yüz! – deyə təsdiqlədi.

–Heyrətamizdir! – çağırılmamış həmsöhbət nəyə görəsə oğrun-oğrun ətrafına boylanıb səsini qısdı: – Zəhlənizi tökdüyümə görə üzr istəyirəm, ancaq mən belə başa düşdüm ki, siz hələ, üstəlik, Allaha da inanmırsınız?

–O, qorxduğunu göstərib əlavə etdi: – And içirəm, heç kəsə deməyəcəyəm.

–Bəli, biz Allaha inanmırıq, – Berlioz əcnəbinin ürkməyinə gülümsədi, – özü də bu barədə tam sərbəst danışmaq olar.

Əcnəbi skamyanın söykənəcəyinə yayxanıb, təəccübdən, az qala, qışqırdı:

–Siz ateistsiniz?!

–Bəli, biz ateistik, – Berlioz gülümsəyərək cavab verdi, Bezdomnı isə hirsli-hirsli düşündü: "Qır-saqqız olub ha, əcnəbi qaz!"

–Ah, necə gözəldir! – qəribə əcnəbi ucadan deyib, gah bu, gah da o biri ədibə baxdı.

–Bizim ölkədə ateizm heç kimi təəccübləndirmir.

–Berlioz diplomatcasına nəzakətlə dedi, – bizim əhalinin əksəriyyəti şüurlu surətdə çoxdandır Allah haqqında nağıllara inanmır.

Bu yerdə əcnəbi belə bir hoqqa çıxartdı: ayağa qalxıb heyrətlənmiş redaktorun əlini sıxdı:

–İcazə verin, sizə səmimi-qəlbdən minnətdarlığımı bildirim!

–Nəyə görə siz ona minnətdarlıq edirsiniz? – Bezdomnı gözlərini döyərək soruşdu.

–Bir səyahətçi kimi mənə xeyli maraqlı olan mühüm məlumata görə, – qəribə əcnəbi barmağını mənalı şəkildə qaldırıb izah etdi.

Mühüm məlumat, görünür, doğrudan da, səyahətçiyə güclü təsir bağışlamışdı, çünki o, ətrafındakı binaları qorxa-qorxa süzdü, elə bil, hər pəncərədə ateist görəcəyindən ehtiyatlanırdı.

"Yox, o, ingilisdir..." – Berlioz fikirləşdi, Bezdomnı isə: "Çox maraqlıdır, bu, rus dilini haradan belə öyrənə bilib!" – deyə düşündü və yenə sifətini turşutdu.

–Ancaq icazənizlə soruşum, – xarici qonaq narahat düşüncələrdən sonra dilləndi, – bəs onda Allahın varlığını təsdiqləyən o beş sübutu neyləyək?

–Əfsus, – Berlioz təəssüfləndi, – bu sübutların heç biri heç nəyə yaramır və bəşəriyyət onları çoxdan arxivə verib. Razılaşın ki, elmi cəhətdən Allahın varlığını təsdiqləyən heç bir sübut ola bilməz.

Əhsən, – əcnəbi qışqırdı, – əhsən! Siz narahat qoca İmmanuilin bu barədəki fikirlərini büsbütün təkrar etdiniz. Ancaq məzəlisi budur: o, beş sübutun hamısını yerləyeksan elədi, sonra isə özünə gülürmüş kimi, öz altıncı sübutunu yaratdı!

–Kantın sübutu da, – savadh redaktor nəzakətlə gülümsəyərək etiraz etdi, – inandırıcı deyil. Şiller nahaq yerə deməyib ki, Kantın bu məsələ ilə bağlı mühakiməsi ancaq qulları razı sala bilər, Ştraus isə, sadəcə, bu sübutlara gülüb.

Berlioz danışa-danışa fikirləşirdi: "Axı bu kimdir? Rus dilində niyə belə yaxşı danışır?"

–Belə sübutlarına görə bu Kantı tutub üçilliyə basasan Solovkiyə! – tamamilə gözlənilmədən İvan Nikolayeviç guruldadı.

– İvan! – Berlioz pərt halda pıçıldadı.

Ancaq Kantı Solovkiyə göndərmək təklifi əcnəbini nəinki heyrətləndirdi, əksinə, hətta vəcdə gətirdi.

–Elədir ki var, – o qışqırdı və Berlioza baxan yaşıl sol gözü parıldadı, onun yeri elə oradır! Axı mən o zaman səhər yeməyində ona demişdim: "Professor, özünüz bilərsiniz, ancaq fikirləriniz nəsə dolaşıqdır! Bəlkə də, ağıllıdır, ancaq həddindən artıq anlaşılmazdır! Sizi məsxərəyə qoyacaqlar!"

Berliozun gözləri bərəldi. "Səhər yeməyində... Kanta? Bu nə sayıqlayır?"

–Ancaq, – əcnəbi Berliozun heyrətinə fikir vermədən, üzünü şairə tutaraq davam etdi, – Solovkiyə göndərmək o səbəbdən mümkün deyil ki, o, yüz ildən artıqdır Solovkidən daha uzaq yerdədir və sizi inandırıram, onu həmin yerdən heç vəchlə çıxarmaq olmaz!

– Təəssüf! – davakar şair söyləndi.

–Mən də təəssüflənirəm! – Naməlum şəxs onunla razılaşdı və gözlərini parıldadaraq sözünə davam etdi,

–Ancaq məni belə bir məsələ narahat edir: əgər Allah yoxdursa, sual olunur, insan həyatını və ümumiyyətlə, dünyanın qaydalarını kim nizamlayır?

–Elə insan özü nizamlayır, – boynumuza alaq ki, çox da aydın olmayan bu suala Bezdomnı acıqlı cavab verməyə tələsdi.

–Bağışlayın, – naməlum şəxs mülayimcəsinə cavab verdi, – idarə etmək üçün gərək, heç olmasa, müəyyən bir müddətə dəqiq planın ola. İcazənizlə soruşum, insan necə idarə edə bilər ki, gülməli dərəcədə qısa bir müddət üçün, deyək, min il üçün plan qurmaq imkanına malik olmadığı bir yana, hətta öz sabahkı gününə belə cavabdeh deyil? Həqiqətən də, – bu yerdə əcnəbi Berlioza tərəf döndü, – təsəvvür edin, misal üçün, siz başlayırsınız özünüzü, başqalarını idarə etməyə, əmrlər verməyə, necə deyərlər, get-gedə işə alışırsınız və birdən sizdə... öhö... öhö... ağciyər sarkoması peyda olur... – bu yerdə əcnəbi şirin-şirin gülümsədi, sanki, ağciyər sarkoması haqqındakı fikir ona

ləzzət verdi, – bəli, sarkoma, – pişik kimi gözlərini qıyıb təkrar etdi, – və budur, sizin idarə etməyiniz sona çatdı! Öz həyatınızdan savayı daha sizi heç nə maraqlandırmır. Qohumlarınız başlayır sizə yalan söyləməyə, siz narahatlıq hiss edib bilikli həkimlərin, sonra şarlatanların, olur ki, falçıların üstünə qaçırsınız. Birinci və ikinci kimi, üçüncü də tamamilə mənasızdır, özünüz başa düşürsünüz. Və bütün bunlar faciə ilə bitir: bir az əvvəl nəyi isə idarə etdiyini güman edən şəxs qəfil taxta qutuda hərəkətsiz uzanası olur və yaxınları anlayanda ki bu uzanandan daha heç bir xeyir yoxdur, onu sobada yandırırlar. Hələ bundan da pisi olur: kimsə yığışır ki, getsin Kislovodska, – əcnəbi bu yerdə Berliozu süzdü, – deyirsən adi bir işdir, ancaq bunu da eləyə bilmir, çünki nəyə görəsə qəfildən ayağı sürüşür, düşür tramvayın altına! Doğrudanmı, siz deyəcəksiniz, o, özünü belə idarə edib? Düşünmək doğru olmazmı ki, kimsə onu idarə eləyib? – Naməlum şəxs qəribə tərzdə güldü.

Berlioz sarkoma və tramvay haqqındakı söhbətə çox böyük maraqla qulaq asırdı və hansısa narahat fikirlər ona

əzab verməyə başladı: "O, əcnəbi deyil! O, əcnəbi deyil... o, çox qəribə adamdır... di yaxşı, axı o kimdir?"

–Görürəm, papiros çəkmək istəyirsiniz, – naməlum şəxs birdən Bezdomnıya müraciət etdi, – hansına üstünlük verirsiniz?

–Nədir, sizdə hər cürü var? – papirosu qurtaran şair qaşqabaqla soruşdu.

–Hansına üstünlük verirsiniz? – yad adam təkrar etdi.

–Tutaq ki, "Bizim marka"ya, – Bezdomnı acıqla cavab verdi.

Yad adam cibindən dərhal portsiqar çıxarıb, Bezdomnıya təklif etdi:

–"Bizim marka".

Redaktoru və şairi portsiqarda məhz "Bizim marka"nın olmasından çox, portsiqarın özü heyrətləndirdi. Qutu çox iri idi, saf qızıldandı və açanda qapağındakı göy və ağ brilyant üçbucaq şəklində bərq vurdu.

Bu yerdə ədiblərin hərəsi bir cür fikirləşdi. Berlioz: "Yox, xaricidir", Bezdomnı isə: "Bir buna bax ha!"

Şairlə portsiqar sahibi papiros yandırdılar. Berlioz isə çəkən olmadığı üçün imtina etdi.

"Ona belə etiraz etmək lazımdır", – Berlioz qərara aldı, – "bəli, insan müvəqqətidir, heç kim bunun əksini demir. Ancaq məsələ belədir ki..."

Di gəl, o, bu sözləri deməyə macal tapmamış, əcnəbi danışmağa başladı:

–Bəli, insan müvəqqətidir, ancaq bu, dərdin yarısıdır. Pis odur ki, onun hərdən qəfil ölməyi də var, bax, məsələ bundadır! O hətta bu axşam nə edəcəyini də deyə bilməz.

"Məsələyə bu cür yanaşmanın özü mənasızdır..." – Berlioz düşünüb etiraz etdi:

–Bunu artıq şişirdirsiniz, bu axşam nə edəcəyim mənə az-çox aydındır. Əgər Bronnıda başıma kərpic düşməsə...

–Heç nədən, – naməlum şəxs onun sözünü ağzında qoydu, – heç kimin heç vaxt başına kərpic düşmür. O cümlədən, inanın ki, sizi belə bir təhlükə gözləmir. Siz başqa cür öləcəksiniz.

–Siz dəqiq bilirsiniz, – Berlioz tamamilə təbii olaraq kinayə ilə soruşdu. O, doğrudan da, mənasız söhbətə girişmişdi, – bəlkə, mənə də deyəsiniz?

–Həvəslə, – yad adam cavab verdi. O, Berliozu başdan-ayağa süzdü, sanki, ona kostyum tikməyə hazırlaşırdı, sonra pıçıldadı: "Bir, iki... Merkuri ikinci binanın üstündədir... ay batdı... altı – bədbəxtlik... axşam – yeddi..." – və sevinə-sevinə ucadan elan etdi: – Sizin başınızı kəsəcəklər!

Bezdomnı gözlərini heyrətlə, kinlə bu həyasız naməlum şəxsə dikmişdi, Berlioz isə zorla gülümsədi:

–Bəs kim? Düşmənlər? Müdaxiləçilər?

–Yox, – həmsöhbəti dedi, – rus qadını, komsomolçu.

–Hm... – naməlum şəxsin zarafatından əsəbiləşən Berlioz mızıldadı, – məni bağışlayın, bu inandırıcı deyil.

–Xahiş edirəm, məni də bağışlayasınız, – əcnəbi cavab verdi, – ancaq belədir. Hə, istərdim sizdən soruşam, əgər sirr deyilsə, bu axşam nə edəcəksiniz?

–Sirr deyil. İndi mən Sadovıdakı evimə gedəcəyəm, axşam saat onda Massolitdə iclasdır, mən də bu iclasa sədrlik edəcəyəm.

–Yox, bu heç cür ola bilməz, – əcnəbi qətiyyətlə etiraz etdi.

–Nə üçün?

–Çünki, – əcnəbi qara quşların axşamın sərinliyini duyub səssizcə süzdüyü göyə baxdı, – Annuşka artıq günəbaxan yağını alıb, alıb nədir, hətta dağıdıb da. Ona görə də iclas baş tutmayacaq.

Bu zaman, tamamilə aydındır ki, cökə ağacının altına sükut çökdü.

–Bağışlayın, – pauzadan sonra Berlioz ağzına gələni çərənləyən əcnəbiyə baxdı, – nə günəbaxan yağı, hansı Annuşka?

–Nə günəbaxan yağı? – Bezdomnı qəfil dilləndi, görünür, çağırılmamış həmsöhbətinə müharibə elan etmək qərarına gəlmişdi, – vətəndaş, siz haçansa ruhi xəstələr üçün müalicəxanada olmusunuz?

–İvan!.. – Mixail Aleksandroviç astadan dedi.

Ancaq əcnəbi azacıq da olsa, incimədi və ürəkdən güldü.

–Olmuşam, olmuşam, özü də dəfələrlə, – o, gülməyən gözlərini şairdən çəkmədən, gülə-gülə ucadan dedi, – mən haralarda olmamışam! Ancaq heyif ki, şizofreniyanın nə olduğunu professordan soruşmamışam. Bunu siz onun özündən öyrənərsiniz, İvan Nikolayeviç!

–Mənim adımı haradan bilirsiniz?

–Əfv edin, İvan Nikolayeviç, axı sizi kim tanımır? – Bu yerdə əcnəbi cibindən "Literaturnaya qazeta"nın dünənki sayını çıxartdı və İvan Nikolayeviç ilk səhifədə öz şəklini, onun altında isə şeirlərini gördü. Hələ dünən şöhrətinin və məşhurluğunun sübutuna sevinən şair bu dəfə fərəh hissi keçirmədi.

–Üzr istəyirəm, – onun sifəti tutulmuşdu, – siz bir dəqiqə gözləyərsinizmi? Yoldaşıma bir-iki kəlmə sözüm var.

–Ah, məmnuniyyətlə! – naməlum şəxs dedi. – Cökənin altı elə yaxşıdır ki... mən isə, yeri gəlmişkən, heç hara tələsmirəm.

–Mişa, məsələ belədir, – şair Berliozu kənara çəkib pıçıldadı, – o, turist-zad deyil, casusdur, biz tərəfə keçmiş rus mühaciridir. Ondan sənədlərini istə, yoxsa əkiləcək...

–Belə olar ki? – Berlioz həyəcanla pıçıldayıb fikirləşdi: "Axı düz deyir!"

–Sən mənə inan, – şair onun qulağına pıçıldadı, – özünü gicliyə vurub ki, nələrsə öyrənsin. Görürsən, rus dilində nə qırıldadır, – şair danışa-danışa göz qoyurdu ki, əcnəbi qaçmasın, – gedək, onu tutaq, yoxsa aradan çıxacaq...

Və Berliozun qolundan tutub skamyaya sarı çəkdi.

Naməlum şəxs oturmamışdı, əlində tünd-boz cildli nəsə bir kitabça, yaşıl kağızdan qalın zərf və vizit vərəqəsi tutmuşdu.

–Bağışlayın ki, mübahisəyə başım qarışdığından özümü təqdim etmədim. Bu, mənim vizit vərəqəm, bu pasport və məsləhətçi kimi Moskvaya dəvətnamə, – əcnəbi hər iki ədibi diqqətlə süzərək dedi.

Onlar pərt oldular. "Lənət şeytana, hər şeyi eşidib..."

–Berlioz fikirləşib, nəzakətli jestlə göstərdi ki, sənədlərə ehtiyac yoxdur. Əcnəbi onları redaktorun əlinə

dürtdüyü vaxt şair macal tapıb vizit vərəqəsinə xarici hərflərlə yazılmış "professor" sözünü və soyadının baş hərfini – "V"-ni oxuya bildi.

–Çox xoşdur, – redaktor utancaqlıqla mızıldandı və əcnəbi sənədləri cibinə qoydu.

Münasibətlər beləcə bərpa olundu və hər üçü təzədən skamyada oturdu.

–Siz buraya məsləhətçi kimi dəvət olunmusunuz, professor? – Berlioz soruşdu.

–Bəli, məsləhətçi kimi.

–Siz almansınız? – Bezdomnı xəbər aldı.

–Mən?.. – professor bir daha soruşub, qəfil fikrə getdi. – Bəli, əlbəttə, almanam... – o dedi.

–Rus dilində gözəl danışırsınız, – Bezdomnı bildirdi.

–Ah, mən, ümumiyyətlə, poliqlotam, çox dil bilirəm, – professor cavab verdi.

–Bəs sizin ixtisasınız nədir? – Berlioz xəbər aldı.

–Mən magiya üzrə mütəxəssisəm.

"Əcəb işdir!.." – ani olaraq Mixail Aleksandroviçin fikrindən keçdi.

–Sizi... sizi bu ixtisas üzrə bura dəvət ediblər? – o kəkələdi.

–Bəli, bu ixtisas üzrə, – professor təsdiqləyib sözünə aydınlıq gətirdi: – Buradakı Dövlət kitabxanasında cadugər Herbert Avrilakskinin onuncu əsrə aid əlyazmaları tapılıb. Onları tədqiq etmək üçün çağırılmışam. Mən dünyada yeganə mütəxəssisəm.

–A-a! Siz tarixçisiniz? – Berlioz ürək rahatlığı və hörmətlə soruşdu.

–Tarixçiyəm, – alim təsdiqlədi və heç nəyə dəxli olmadan əlavə etdi, – bu axşam Patriarx gölünün kənarında çox maraqlı əhvalat baş verəcək!

Redaktor və şair yenə xeyli təəccübləndilər, professor isə hər ikisini özünə sarı çəkib pıçıldadı:

–Nəzərə alın ki, İsa həyatda olub.

–Bilirsiniz, professor, – Berlioz zorla gülümsədi, – biz sizin dərin biliyinizə hörmət edirik, ancaq bu məsələdə başqa nöqteyi-nəzərin tərəfdarıyıq.

–Heç bir nöqteyi-nəzər lazım deyil, – qəribə professor cavab verdi, – sadəcə, o yaşayıb, vəssalam.

–Axı nəsə bir dəlil-sübut lazımdır... – Berliozun sözü yarımçıq qaldı.

–Heç bir sübut lazım deyil, – professorun aksenti, nədənsə, yoxa çıxmışdı və o, astadan dedi: – Hər şey sadədir: qan-qırmızı astarlı ağ plaşda...

II fəsil
PONTİ PİLAT

Yaz ayı nisanın on dördündə səhər tezdən İudeyanın prokuratoru Ponti Pilat qan-qırmızı astarlı ağ plaşda, əyri ayaqlarını sürüyə-sürüyə Böyük İrodun sarayının iki qanadını birləşdirən üstüörtülü sütunların arasına daxil oldu.

Prokuratorun dünyada ən çox gül yağının qoxusundan zəhləsi gedirdi, indi də hər şey nəhs gündən xəbər verirdi, çünki bu qoxu onu lap ertədən izləməyə başlamışdı. Prokuratora elə gəlirdi ki, bağdakı sərv ağacları, palmalar gül yağı qoxuyur, mühafizəçilərin dəri geyimlərinin və özlərinin tər iyinə də lənətəgəlmiş gül yağı qarışıb.

Prokuratorla birlikdə Yerşalaimə gələn Onikinci İldırımsürətli legionun birinci koqortası[1] yerləşən sarayın arxasındakı fligellərdən qalxan tüstü bağın yuxarı meydançasından ötüb sütunları bürümüşdü və kenturiyalardakı[2] kaşevarların[3] nahar hazırlamağa başladığını göstərən acı tüstüyə də yenə həmin gül yağının qoxusu hopmuşdu.

"Ey allahlar, allahlar, nəyə görə siz məni cəzalandırırsınız?.. Hə, şübhə yoxdur! Bu odur, yenə odur, başın tən yarısını ağrıdan dəhşətli, məğlubedilməz hemikraniya[4] xəstəliyi. Onun dərmanı, əlacı yoxdur. Çalışım başımı tərpətməyim..."

Fəvvarənin böyründəki mozaikalı döşəməyə kreslo qoyulmuşdu və prokurator heç kimə baxmadan oturub əlini yana açdı. Katib perqament parçasını ehtiramla onun ovcuna

---

[1] Koqorta – qədim Romada piyada qoşun hissəsi, legionun onda biri

[2] Kenturiya – hərbi bölmə, ilk vaxtlar yüz nəfərdən ibarət olub.

[3] Kaşevar – hərbi hissədə aşpaz

[4] Hemikraniya – şiddətli başağrısı ilə müşayiət olunan xəstəlik – miqren

qoydu. Prokurator ağrıdan üzünü turşudub, yazıya ötəri göz gəzdirdi, perqamenti katibə verib zorla dilləndi:

–Qalileyadan olan məhkumdur? İşi tetrarxa[5] göndərmisiniz?

–Bəli, prokurator, – katib cavab verdi.

–Bəs nə deyir?

–O, rəy verməkdən imtina edib, Sinedrionun[6] ölüm hökmünü sizin təsdiqinizə yollayıb.

Prokuratorun yanağı səyridi və o, astadan dedi:

–Müttəhimi gətirin.

O saat iki legioner bağın meydançasından, təxminən, iyirmi yeddi yaşında bir adamı sütunların altındakı eyvana, prokuratorun kreslosunun qarşısına gətirdi. Bu adamın əynindəki köhnə mavi xiton cırıq-cırıq idi. Başındakı ağ örtük alnından qayışla sıxılmış, əlləri arxadan bağlanmışdı. Sol gözünün altında iri qançırvar idi, ağzının cızılmış

[5] Tetrarx – qədim Romada əyalət hökmdarı

[6] Sinedrion – qədim İsraildə məclis, şura, divan

kənarında qan qurumuşdu. Gətirilən adam həyəcanla, maraqla prokuratora baxırdı.

O isə bir az susandan sonra arami dilində astadan soruşdu:

–Yerşalaim məbədini dağıtmaq üçün camaatı qızışdıran sən idin?

Prokurator daş kimi oturmuşdu, yalnız sözləri deyəndə dodaqları azca tərpənirdi. Dəhşətli ağrıdan partlayan başını tərpətməyə qorxurdu.

Əlləri bağlı adam bir qədər qabağa əyilib danışmağa başladı:

–Xeyirxah insan! İnan mənə...

Ancaq prokurator yenə əvvəlki kimi tərpənmədən, səsini qaldırmadan onun sözünü ağzında qoydu:

–Sən məni xeyirxah insan adlandırırsan? Səhv edirsən. Yerşalaimdə hamı pıçıldaşır ki, mən qəddar yırtıcıyam, bu da tamamilə doğrudur, – həmin yeknəsəq səslə əlavə etdi: – Kenturion Siçovulqıranı yanıma çağırın.

Əlahiddə kenturiyaya komandanlıq edən Siçovulqıran ləqəbli kenturion Mark prokuratorun qarşısında dayananda hamıya elə gəldi ki, eyvana qaranlıq çökdü.

Siçovulqıran legionun ən uzun əsgərindən də bir baş hündürdü və kürəyi o qədər enliydi ki, hələ yüksəyə qalxmamış günəşin qarşısını büsbütün kəsdi.

Prokurator kenturiona latın dilində dedi:

–Cinayətkar məni xeyirxah insan adlandırır. Onu birdəqiqəliyə buradan apar, mənimlə necə danışmaq lazım olduğunu ona başa sal. Ancaq şikəst eləmə.

Hərəkətsiz oturan prokuratordan başqa hamının baxışı, əlinin işarəsiylə məhbusa arxasınca gəlməyi tapşıran Mark Siçovulqırana dikilmişdi.

Ümumiyyətlə, Mark Siçovulqıran harada peyda olurolsun, boy-buxununa görə hamının baxışı ona dikilirdi, onu ilk dəfə görənlər isə həm də kenturionun eybəcər hala düşmüş sifətindən gözlərini çəkə bilmirdilər: alman toppuzu nə zamansa onun burnunu xurd-xəşil eləmişdi.

Mozaikalı döşəmədə Markın ağır çəkmələri taqqıldadı, əlləri bağlı məhbus sakitcə onun arxasınca getdi. Sütunların

arasına sükut çökdü, eyvanın böyründəki bağda quruldayan göyərçinlərin səsi eşidildi, bir də fəvvarədən axan su öz sirli, həzin mahnısını oxuyurdu.

Prokurator istədi qalxsın, gicgahlarını fəvvarənin altına tutub, beləcə donub-qalsın. Ancaq bilirdi ki, bu da ona kömək etməyəcək.

Siçovulqıran məhbusu sütunların altından bağa aparıb, tunc heykəlin yanında dayanmış legionerin əlindən qırmancı aldı, yüngülcə qolaylanıb, məhbusun kürəyinə çəkdi. Kenturionun zərbəsi yüngül olsa da, əlləri bağlı məhbusun ayağı yerdən üzüldü, havası çatmadı, rəngi qaçdı, gözləri axdı. Mark sol əliylə onu boş torba kimi asanca göyə qaldırıb, ayaqları üstə yerə qoydu və arami sözlərinin qol-qabırğasını sındıra-sındıra burnunda mızıldandı.

–Roma prokuratoruna igemon[7] de. Başqa söz demə. Düz dayan. Məni başa düşdün, ya səni vurum?

[7] İgemon – canişin, sərdar, başçı (yun.)

Məhbus səndirləsə də, özünü düzəltdi, rəngi üzünə qayıtdı, nəfəsini dərib xırıltılı səslə cavab verdi:

–Səni başa düşdüm. Məni vurma.

Bir dəqiqə sonra o, yenə prokuratorun qarşısında dayanmışdı.

Boğuq xəstə səs dedi:

–Adın?

–Mənim? – məhbus tezcə dilləndi, bütün varlığı ilə göstərməyə çalışdı ki, onu bir daha qəzəbləndirməmək üçün ağıllı-başlı cavab verməyə hazırdır.

Prokurator astadan dedi:

–Mənim adım mənə məlumdur. Özünü olduğundan da gic göstərməyə çalışma. Adın?

–İeşua, – məhbus tələsik dilləndi.

–Ayaman var?

–Qa-Nosri.

–Əslin haradandır?

–Qamala şəhərindən, – məhbus başıyla göstərdi ki, orada, uzaqlarda, ondan sağ tərəfdə, şimalda Qamala şəhəri var.

–Damarında hansı qan axır?

–Dəqiq bilmirəm, – məhbus tez cavab verdi, – valideynlərimi xatırlamıram. Mənə deyiblər ki, atam suriyalı olub...

–Daimi yaşayış yerin var?

–Daimi yaşayış yerim yoxdur, – məhbus sıxılaraq dedi, – şəhər-şəhər gəzirəm.

–Bunu bir sözlə də ifadə etmək olar – avara, – prokurator sözünə davam elədi: – Doğmaların var?

–Heç kimim yoxdur. Dünyada təkəm.

–Savadın var?

–Bəli.

–Arami dilindən başqa dil bilirsən?

–Bilirəm. Yunan dilini.

Şişmiş göz qapağı qalxdı, əzabdan dumanlanmış göz məhbusa dikildi. Bir gözü açılmamışdı.

Pilat yunan dilində danışdı:

–Demək, sən məbədi uçurmaq istəyirdin, xalqı da buna çağırırdın?

Bu yerdə məhbus yenə dirçəldi, gözlərindən qorxu çəkildi və o, yunan dilində dedi:

–Mən, xey... – az qala, çaşdığına görə məhbusun gözlərində qorxu yanıb-söndü, – igemon, mən heç vaxt məbəd uçurmaq fikrində olmamışam, heç kimi də bu mənasız hərəkətə təhrik etməmişəm.

Alçaq masanın üstünə əyilib, məhbusun verdiyi ifadəni yazan katibin sifətindən təəccüb oxundu. O, başını qaldırıb, dərhal da perqamentə sarı əydi.

–Bayramlarda bu şəhərə cürbəcür adamlar gəlir. Onların arasında sehrbazlar, münəccimlər, falçılar, qatillər olur, – prokurator yeknəsəq səslə dedi, – ancaq yalançılar da olur. Məsələn, sən yalançısan. Aydınca yazılıb: məbədi uçurmağa təhrik edirdi. Adamlar belə şahidlik edir.

–İgemon, bu xeyirxah adamlar, – məhbus tez-tez danışmağa başladı, – heç nə öyrənməyiblər və dediklərimin hamısını dolaşıq salıblar. Mən, ümumiyyətlə, bu dolaşıqlığın hələ çox uzun zaman davam edəcəyindən qorxuram. Hamısı da ona görədir ki, mənim dediklərimi o, düzgün yazmır.

Sükut çökdü. Artıq hər iki xəstə göz məhbusa baxırdı.

–Sonuncu dəfə təkrar edirəm: özünü dəli yerinə qoyma, quldur, – Pilat yumşaq, yeknəsəq səslə dedi, – sənin barəndə az yazılıb, ancaq yazılanlar səni asmaq üçün kifayətdir.

–Yox, yox, igemon, – məhbus onu inandırmağa çalışdı, – bir nəfər əlində keçi dərisindən perqament arxamca gəzib elə hey yazır. Bir dəfə bu perqamentə baxanda dəhşətə gəldim. Orada yazılanların heç birini mən deməmişəm. Ona yalvardım: Allah xatirinə, öz perqamentini yandır! Ancaq onu əlimdən qapıb qaçdı.

–Kim? – Pilat candərdi soruşdu və gicgahını sıxdı.

–Levi Matvey, – məhbus həvəslə bildirdi, – o, vergiyığan olub, ilk dəfə onunla Viffaqiyaya gedən yolda, əncir bağlarının yanında görüşüb söhbət elədim. Əvvəl-əvvəl mənə düşmən kimi yanaşdı, hətta məni təhqir etdi, daha doğrusu, elə bildi, it adlandırmaqla məni təhqir edir, – bu yerdə məhbus gülümsədi, – mən şəxsən bu heyvanda pis bir şey görmürəm ki, həmin sözdən də inciyəm.

Katib yazmağı dayandırıb, altdan-altdan təəccüblə məhbusa yox, prokuratora baxdı.

– ... ancaq mənə qulaq asdıqca yumşalmağa başladı, – İeşua sözünə davam etdi, – nəhayət, pullarını yola atıb dedi ki, mənimlə gedəcək...

Pilat saralmış dişlərini göstərib, bir yanağı ilə gülümsədi və bütün bədəniylə katibə san dönüb dedi:

–Ey Yerşalaim şəhəri! Burada nələr eşitmirsən. Eşitdinizmi, vergiyığan pullarını yola atıb!

Nə cavab verəcəyini bilmədiyindən katib də Pilatın təbəssümünü yamsıladı.

–O dedi ki, daha pula nifrət edir, – İeşua Levi Matveyin qəribə hərəkətini izah elədi. – Həmin vaxtdan mənim yol yoldaşım oldu.

Hələ də acı-acı gülümsəyən prokurator məhbusa, sonra sağ tərəfdə, lap aşağılarda uzanan hippodromun at heykəllərinin başı üstündən durmadan yüksələn günəşə baxdı və dözülməz əzab içində fikirləşdi ki, vur-tut ikicə kəlmə: "Asın onu" deyib, bu qəribə qulduru eyvandan qovmaq ən canqurtaran işdir. Mühafizə dəstəsini də qovsun, sütunların altından sarayın içinə getsin, tapşırsın ki, otağı qaranlıq eləsinlər, yatağa yıxılıb soyuq su istəsin, yazıq səslə

iti Banqanı çağırsın, ona Hemikraniyadan şikayətlənsin. Prokuratorun ağrıyan başından bir anlığa zəhər haqqında şirniklendirici fikir də keçdi.

O, dumanlı baxışlarla məhbusu süzdü, bir müddət susub, səhər-səhər insafsızcasına yandırıb-yaxan Yerşalaim günəşinin altında döyülməkdən sifəti əldən çıxmış məhbusun nə üçün onun qarşısında dayandığını və hələ nə qədər bu adama heç kimə lazım olmayan suallar verəcəyini əzabla düşündü.

–Levi Matvey? – xəstə xırıltılı səslə soruşub gözlərini yumdu.

–Bəli, Levi Matvey, – ona işgəncə verən zil səsi eşitdi.

–Bəs bazardakı camaata məbəd haqqında axı nə deyirdin?

Cavab verən adamın səsi, sanki, Pilatın gicgahını deşirdi, ona son dərəcə əzab verirdi və bu səs deyirdi:

–İgemon, mən deyirdim, köhnə inamın məbədi uçacaq və həqiqətin yeni məbədi qurulacaq. Belə deyirdim ki, anlasınlar.

–Avara, axı sən nə üçün haqqında təsəvvürün belə olmayan həqiqətdən danışıb, bazar camaatını çaşdırırdın? Nədir həqiqət?

Bu yerdə prokurator fikirləşdi: "Ey mənim allahlarım! Mən ondan məhkəmədə lazım olmayan şeylər soruşuram... Ağlım daha sözümə baxmır..." Və tünd maye dolu kasa yenə gözünün qabağına gəldi. "Zəhər verin mənə, zəhər..."

Yenə həmin səsi eşitdi:

–Hər şeydən əvvəl, həqiqət odur ki, sənin başın ağrıyır və elə möhkəm ağrıyır ki, ürəksiz də olsa, ölüm haqqında fikirləşirsən. Nəinki mənimlə danışmaq, mənə baxmaq belə sənin üçün çətindir. Mən indi qeyri-ixtiyari sənin cəlladına dönmüşəm, bu da məni kədərləndirir. Sən nə barədəsə düşünə də bilmirsən, yalnız itini arzulayırsan, görünür, bağlı olduğun yeganə varlıqdır. Ancaq əzabların indi qurtaracaq, başının ağrısı kəsəcək.

Katib gözlərini bərəldib məhbusa baxırdı və deyilənləri daha yazmırdı.

Pilat əzab dolu gözlərini məhbusa dikdi və gördü ki, günəş artıq hippodromun üstündə xeyli yüksəkdə dayanıb,

gün işığı sütunların arasına düşərək, İeşuanın əyilmiş səndəllərinə doğru sürünür, o isə gün işığından kənara çəkilir.

Prokurator kreslodan qalxıb başını əlləri ilə sıxdı və qırxılmış sarımtıl sifətində dəhşət ifadə olundu. Ancaq o saat da ağrısını boğub, yenə kresloya çökdü.

Məhbus isə hələ danışırdı, ancaq katib artıq heç nə yazmırdı, boğazını qaz kimi uzadıb, ağzından söz qaçırmamağa çalışırdı.

–Budur, hər şey qurtardı, – məhbus dostcasına Pilata baxa-baxa dedi, – mən buna son dərəcə şadam. İgemon, sənə məsləhət görərdim, saraydan çıxıb piyada bu ətrafda, heç olmasa, Yeleon dağındakı bağda gəzəsən. Tufan qalxacaq, – məhbus günəşə baxıb gözlərini qıydı, – gec, axşama yaxın. Gəzinti sənə çox fayda verərdi, mənsə məmnuniyyətlə səni müşayiət edərdim. Başıma yeni fikirlər gəlib, güman edirəm, sənin üçün də maraqlı olar, həvəslə onları sənlə bölüşərdim, üstəlik də, sən çox ağıllı adam təsiri bağışlayırsan.

Katib meyit kimi ağardı və perqament bükülüsünü əlindən döşəməyə saldı.

–Bədbəxtlik ondadır ki, – heç kimin sözünü kəsmədiyi əl-qolu bağlı məhbus davam etdi, – sən həddindən çox qapalısan və adamlara olan inamını büsbütün itirmisən. Razılaş ki, bütün mehrini itə salmaq olmaz. İgemon, sənin həyatın kasıbdır, – danışan adam bu yerdə gülümsəməyə cəsarət etdi.

Katib indi ancaq bir şey haqqında fikirləşirdi, öz qulaqlarına inansın, ya inanmasın. İnanmaq lazım gəlirdi. Onda çalışdı ki, məhbusun görünməmiş ədəbsizliyi qarşısında özündən tez çıxan prokuratorun qəzəbinin məhz hansı əcaib şəkildə olacağını təsəvvür eləsin. Prokuratoru yaxşı tanısa belə, katib bunu da təsəvvür edə bilmədi.

Bu vaxt prokuratorun üzgün, xırıltılı səsi eşidildi. O, latın dilində:

–Onun qollarını açın, – dedi.

Mühafizə dəstəsindəki legionerlərdən biri nizəni yerə vurub, başqasına verdi, yaxınlaşıb məhbusun əlini açdı.

Katib perqament bükülüsünü yerdən qaldırdı, qərara aldı ki, hələ heç nə yazmasın, heç nəyə də təəccüblənməsin.

–Boynuna al, – Pilat yunanca astadan soruşdu, – sən böyük həkimsən?

–Yox, prokurator, mən həkim deyiləm, – məhbus əzilmiş, şişib qızarmış biləklərini ləzzətlə sığalladı.

Pilatın sərt baxışları məhbusa sancılmışdı, artıq bu baxışlar dumanlı deyildi, onlarda hamıya tanış olan qığılcımlar əmələ gəlmişdi.

–Bayaq heç soruşmadım, – Pilat dedi, – bəlkə, latın dilini də bilirsən?

–Bəli, bilirəm, – məhbus cavab verdi.

Pilatın sarımtıl üzünə qızartı çökdü və o, latınca soruşdu:

–Nədən bildin ki, mən itimi çağırmaq istəyirəm?

–Çox sadəcə, – məhbus latınca cavab verdi, – sən əlini havada gəzdirdin, – məhbus Pilatın jestini təkrar etdi, – elə bil, sığallamaq istəyirdin, dodaqların da...

–Hə, – Pilat dedi.

Susdular, sonra Pilat yunanca soruşdu:

–Demək, həkimsən?

–Yox, yox, – məhbus tələsik cavab verdi, – mənə inan, həkim deyiləm.

–Di yaxşı. Əgər bunu sirr saxlamaq istəyirsənsə, saxla. Bunun işə dəxli yoxdur. Sən israr edirsən ki, məbədi dağıtmağa... yandırmağa, ya hər hansı bir yolla uçurmağa kimsəni təhrik etməmisən?

–İgemon, mən yenə deyirəm, heç kimi bu cür hərəkətə çağırmamışam. Məgər mən ağıldankəm adama oxşayıram?

–Sən ağıldankəmə oxşamırsan, – prokurator astadan dedi və sifətində nəsə qorxunc bir təbəssüm göründü, – and iç ki, belə şey olmayıb.

–Sən nəyə and içməyimi istəyirsən? – əlləri açılmış məhbus həvəslə soruşdu.

–Heç olmasa, öz canına and iç, – prokurator dedi, – ona and içməyin əsl vaxtıdır, çünki həyatın tükdən asılıdır, bunu bil.

–Yoxsa elə bilirsən onu sən asmısan, igemon? – məhbus soruşdu. – Əgər belədirsə, çox səhv edirsən.

Pilat diksindi və acıqla dedi:

–Mən bu tükü kəsə bilərəm.

–Elə buna görə də səhv edirsən, – məhbus əlilə gündən daldalanaraq işıqlı bir təbəssümlə etiraz elədi, – razılaş ki, o tükü yalnız onu asan kəsə bilər.

–Belə, belə, – Pilat gülümsədi, – indi mən heç şübhə etmirəm ki, Yerşalaimdəki veyllərin hamısı qarabaqara sənin arxanca gəzirmiş. Bilmirəm sənə kim dil verib, ancaq yaxşı dil verib. Yeri gəlmişkən, doğrudurmu ki, sən Yerşalaimə Suz darvazasından eşşək belində girmisən, dalınca düşən qara camaat da səni peyğəmbər kimi salamlayırmış? – Bu yerdə prokurator perqament bükülüsünü göstərdi.

Məhbus təəccüblə prokuratora baxdı.

–Mənim eşşəyim yoxdur, igemon, – o dedi. – Doğrudur, mən Yerşalaimə Suz darvazasından keçib gəlmişəm, ancaq piyada, təkcə Levi Matveyin müşayiətilə. Heç kim də məni salamlamayıb, çünki o vaxt Yerşalaimdə məni kimsə tanımırdı.

–Sən bu adamları tanıyırsanmı, – gözünü məhbusdan çəkmədən Pilat sözünə davam etdi, – biri Dismas, o biri Hestas, üçüncüsü Var-Ravvan?

–Mən bu xeyirxah insanları tanımıram, – məhbus cavab verdi.

–Doğru deyirsən?

–Doğru deyirəm.

–İndi mənə de görüm, "xeyirxah insanlar" sözünü niyə çox işlədirsən? Nədir, sən hamını belə adlandırırsan?

–Hamını, – məhbus cavab verdi, – dünyada pis insan yoxdur.

–İlk dəfədir bunu eşidirəm, – Pilat gülümsədi, – bəlkə də, mən həyatı yaxşı bilmirəm! Daha yazma, – onsuz da, heç nə yazmayan katibə dedi və məhbusla danışmağa davam etdi, – bunu hansısa yunan kitabından oxumusan?

–Yox, öz ağlımla bu nəticəyə gəlmişəm.

–Bunu da təbliğ edirsən?

–Bəli.

–Yaxşı, misal üçün, kenturion Mark, ona Siçovulqıran ləqəbi veriblər, xeyirxah insandır?

–Bəli, – məhbus cavab verdi, – doğrudur, o, bədbəxt adamdır. Xeyirxah insanlar onu eybəcər hala salandan sonra qəddar və sərt olub. Maraqlıdır, kim onu eybəcər hala salıb?

–Həvəslə danışa bilərəm, – Pilat dedi, – çünki mən bunun şahidi olmuşam. İtlər ayının üstünə tökülüşdüyü kimi, xeyirxah insanlar onun üstünə tökülüşdülər. Almanlar onun boynundan, əllərindən, ayaqlarından yapışdılar. Piyada manipul (Qədim Romada iki kenturiyadan ibarət qoşun hissəsi) mühasirəyə düşmüşdü və əgər mənim komandanlıq etdiyim süvari turma[8] cinahdan yarıb keçməsəydi, sən, filosof, indi Siçovulqıranla danışası olmayacaqdın. Bu hadisə İdistavizo yaxınlığındakı Qız vadisində döyüşdə olub.

–Əgər mən onunla söhbət etsəydim, – məhbus birdən xəyalpərəstliklə dedi, – əminəm ki, o, büsbütün dəyişərdi.

–Güman edirəm, – Pilat dedi, – əgər legionun zabit və əsgərlərindən hər hansı biriylə danışmaq fikrinə düşsən,

---

[8]Turma – Qədim Romada atlı qoşun hissəsi

legionun leqatı[9] buna çətin ki, sevinsin. Amma hamımızın xoşbəxtliyindən belə bir iş baş verməyəcək, özü də bunun qayğısına qalanlardan birincisi mən olacağam.

Bu vaxt bir qaranquş süzüb sütunların arasına girdi, qızıl suyuna çəkilmiş tavanın altında dövrə vurub aşağı endi, qanadı az qaldı taxçadakı mis heykəlin sifətinə toxunsun və sütunun kapitelinin[10] arxasında yoxa çıxdı. Görünür, orada yuva qurmaq fikrinə düşmüşdü.

Qaranquşun uçduğu müddətdə başı artıq ayazımış, aydınlaşmış prokurator nə edəcəyini düşünüb-daşındı: igemon Qa-Nosri ləqəbli səfil filosof İeşuanın işini araşdırıb, onda cinayət tərkibi tapmadı. O cümlədən bu yaxınlarda Yerşalaimdə baş verən iğtişaşlarla İeşuanın hərəkətləri arasında heç bir əlaqə aşkar etmədi. Demə, səfil filosof ruhi xəstəymiş. Bu səbəbdən Kiçik Sinedrion tərəfindən Qa-Nosriyə çıxarılmış ölüm hökmünü təsdiq etmir. Ancaq Qa-Nosrinin ağılsız, əsassız çıxışlarının Yerşalaimdə

---

[9]Leqat – Roma senatının sərkərdəsi

[10]Kapitel – sütunun yuxarı hissəsi (lat. caput – "baş")

çaxnaşmaya səbəb ola biləcəyini nəzərə alıb, prokurator İeşuanı buradan uzaqlaşdırır və onu Aralıq dənizindəki Straton Qeysəriyyəsində, yəni məhz prokuratorun iqamətgahı olan yerdə həbsə saldırır.

Bunu katibə diktə etmək qalırdı.

Qaranquşun qanadları igemonun başı üstündə pırıldadı, quş özünü fəvvarənin kasasına vurub, bayıra uçdu. Prokurator gözünü qaldırıb məhbusa baxdı və onun yanında tozun sütun kimi göyə qalxdığını gördü.

–Onun haqqında olanlar qurtardı? – Pilat katibdən soruşdu.

–Təəssüf ki, yox, – katib qəfil dillənib o biri perqament parçasını Pilata uzatdı.

–Daha nə yazılıb? – Pilat sifətini turşutdu.

Veriləni oxuyandan sonra onun sifəti lap dəyişdi. Boynuna, üzünə qanmı axdı, yoxsa başqa nəsə baş verdi, dərisi sarımtıllığını itirib bozardı, gözləri, sanki, çuxura düşdü.

Yəqin, gicgahını zoqquldadan da həmin qandı, ancaq prokuratorun gözlərinə nəsə olmuşdu. Ona elə gəldi

məhbusun başı harasa yoxa çıxdı, əvəzinə başqa baş peyda oldu. Bu daz başa qızıl tac qoyulmuşdu, alnında dərini yara etmiş və məlhəm çəkilmiş yumru xora var idi, dişsiz ağzı büzüşmüş, alt dodağı sallanmışdı. Pilata elə gəldi ki, eyvanın çəhrayı sütunları, aşağıda, bağın arxasında Yerşalaimin uzaqdan görünən damları yoxa çıxdı və hər şey Kaprey bağlarının sıx yaşıllığı içində itib-batdı. Qulaqlarına da nəsə olmuşdu – uzaqlarda çalınan şeypurların vahiməli səsi gəldi və kiminsə burnunda təkəbbürlə uzada-uzada dediyi sözlər aydınca eşidildi: "Əlahəzrətin ləyaqətinin toxunulmazlığı haqqında qanuna görə..."

Bir-birinə bağlanmayan qeyri-adi qısa fikirlər beynindən ötüb-keçdi: "Həlak oldu", "Həlak oldular!.." Və bunların arasında ən cəfəngi kiminsə mütləq – kimin?! – ölümsüzlüyə qovuşacağı fikri idi və həm də ölümsüzlük fikri, nədənsə, sonsuz kədər oyadırdı.

Pilat qarabasmadan canını güclə qurtardı, baxışlarını eyvanda dolandırdı və yenə qarşısında dayanmış məhbusa baxdı.

–Qulaq as, Qa-Nosri, – prokurator İeşuanı qəribə nəzərlə süzdü, onun sifəti acıqlı, gözləri narahat idi, – sən haçansa böyük qeysər haqqında nəsə demisən? Cavab ver! Demisən?.. Yoxsa... demə...misən? – Pilat "demə" sözünü məhkəmədə lazım olduğundan bir az çox uzatdı və baxışıyla İeşuaya, sanki, hansı fikri isə aşılamağa çalışdı.

–Həqiqəti demək həm asan, həm də xoşdur, – məhbus dilləndi.

–Mənə dəxli yoxdur, – Pilat boğuq, acıqlı səslə dedi, – həqiqəti demək sənin üçün xoşdur, ya xoş deyil. Ancaq sən həqiqəti deməli olacaqsan. Əgər nəinki qaçılmaz, həm də əzablı ölüm istəmirsənsə, danışmamışdan hər sözünü ölç-biç.

İudeyanın prokuratoruna nə olduğunu heç kim bilmədi, ancaq o, gün işığından daldalanırmış kimi əlini qaldırmağı özünə rəva gördü və həmin əlini qalxan edib, məhbusa baxışıyla nəsə işarə etməyə çalışdı.

–Di cavab ver, – o dedi, – kiriaflı İudanı tanıyırsanmı və əgər qeysər haqqında danışmısansa, ona məhz nə danışmısan?

–Əhvalat belə olub, – məhbus həvəslə danışmağa başladı, – dünən axşam mən məbədin yanında özünü Kiriaf şəhərindən olan İuda kimi qələmə verən bir gənclə tanış oldum. O, məni Aşağı Şəhərdəki evinə qonaq apardı...

–Xeyirxah insandır? – Pilatın gözlərində iblisanə bir təbəssüm yanıb-söndü.

–Çox xeyirxah və hər şeyi bilməyə can atan adamdır, məhbus təsdiqlədi. – O, mənim fikirlərimə çox böyük maraq göstərdi, məni xoş üzlə qəbul elədi...

– Məşəllər yandırdı... – Pilat məhbusun ədasıyla acıqlı-acıqlı dedi, bu vaxt gözləri parıldayırdı.

–Bəli, – prokuratorun məlumatlılığına İeşua bir az təəccübləndi, – dövlət hakimiyyəti haqqında fikrimi söyləməyi xahiş etdi. Bu məsələ onu çox maraqlandırırdı.

–Bəs sən nə dedin? – Pilat soruşdu, – yoxsa nə cavab verdiyini unutduğunu söyləyəcəksən? – artıq Pilatın səsində ümidsizlik var idi.

–Başqa şeylərdən əlavə dedim ki, – məhbus bildirdi, – hər bir hakimiyyət insanlar üzərində zorakılıq alətidir, vaxt gələcək nə qeysərlərin, nə də başqalarının hakimiyyəti

olacaq. İnsan həqiqət və ədalət səltənətinə köçəcək, orada heç bir hakimiyyətə ehtiyac qalmayacaq.

–Sonra!

–Sonra heç nə, – məhbus dedi, – bu yerdə adamlar içəri doluşub əl-qolumu bağladılar və məni həbsxanaya apardılar.

Katib bir kəlmə də olsun buraxmamağa çalışaraq, sözləri tələsik perqamentə yazırdı.

–Dünyada insanlar üçün imperator Tiverinin hakimiyyətindən böyük və adil hakimiyyət olmayıb, yoxdur, olmayacaq da! – Pilatın kallaşmış xəstə səsi guruldadı.

Prokurator, nədənsə, katibə və mühafizəçilərə nifrətlə baxırdı.

–Ağılsız cinayətkar, onun haqqında fikir söyləmək sənin işin deyil! – Bu yerdə Pilat qışqırdı: – Mühafizəçilər eyvandan çıxarılsın! – Və katibə sarı dönüb əlavə etdi:

–Məni cinayətkarla tək qoy, bu, dövlət məsələsidir.

Mühafizəçilər nizələrini qaldırıb, nallı çəkmələrini ahəngdar şəkildə yerə vura-vura eyvandan bağa çıxdılar, katib də onların arxasınca getdi.

Eyvandakı sükutu bir müddət yalnız fəvvarənin səsi pozdu. Pilat xırda borularla qalxan suyun kasaya necə dolub daşdığına, necə şırıltıyla töküldüyünə baxdı.

İlk olaraq məhbus dilləndi:

–Mən görürəm ki, kiriaflı gənclə danışdığıma görə nəsə bədbəxtlik baş verib. İgemon, hiss edirəm ki, ona fəlakət üz verəcək və mənim ona çox yazığım gəlir.

Düşünürəm ki, – prokurator qəribə tərzdə gülümsədi, – sənin dünyada kiriaflı İudadan daha artıq yazığın gələsi bir adam da var, onu İudadan betər fəlakət gözləyir. Demək, öz əqidəsinə sadiq olan soyuqqanlı cəllad MarkSiçovulqıran, səni, gördüyüm kimi, – prokurator İeşuanın eybəcər hala salınmış sifətini göstərdi, – moizələrinə görə döyən adamlar, dörd əsgəri öz əlaltılarıyla öldürən quldur Dismas və quldur Hestas, nəhayət, murdar satqın İuda – onların hamısı xeyirxah insandır?

–Bəli, – məhbus cavab verdi.

–Və həqiqət səltənəti bərqərar olacaq?

–Olacaq, igemon, – İeşua inamla cavab verdi.

–Heç vaxt olmayacaq! – Pilat qəfil elə dəhşətli səslə bağırdı ki, İeşua səndələdi. Çox illər əvvəl Qız vadisində Pilat öz atlılarına bu cür qışqırmışdı: "Doğra onları! Doğra onları! Nəhəng Siçovulqıran ələ keçib!" Əmr verməkdən kallaşmış səsini bir az da qaldırıb sözləri elə dedi ki, onu bağda da eşitsinlər: – Cinayətkar! Cinayətkar! Cinayətkar!

Sonra astadan soruşdu:

–İeşua Ga-Nosri, allahlardan hansına inanırsan?

–Allah təkdir, – İeşua cavab verdi, – mən ona inanıram.

–Dua elə ona! Möhkəm dua elə! Ancaq, – bu yerdə Pilatın səsi batdı, – bu da kömək etməyəcək. Arvadın var?

–Pilat, nədənsə, qüssə ilə soruşdu, ona nə olduğunu özü də anlamırdı.

–Yox, təkəm.

–Mənfur şəhər, – prokurator nəyə görəsə mızıldandı, üşüyürmüş kimi büzüşdü, əllərini bir-birinə sürtdü, – əgər səni kiriaflı İuda ilə görüşdən əvvəl öldürsəydilər, doğrusu, daha yaxşı olardı.

–Sən məni burax, igemon, – gözlənilmədən məhbus xahiş etdi və səsində həyəcan hiss olundu, – görürəm ki, məni öldürmək istəyirlər.

Pilatın sifəti səyridi, o, qan sağılmış gözlərini İeşuaya dikdi.

–Bədbəxt, sən güman edirsən ki, Roma prokuratoru sənin dediklərini söyləyən adamı buraxar? Ey allahlar, allahlar! Yoxsa istəyirsən sənin yerini mən tutum? Mən sənin fikirlərini bölüşmürəm. Mənə qulaq as: əgər bu andan sonra sən bircə kəlmə söz desən, kiminləsə danışsan, özünü məndən gözlə! Təkrar edirəm: özünü məndən gözlə.

–İgemon...

– Sus! – Pilat bağırdı, yenə eyvana girən qaranquşu hirsli baxışlarla izlədi. – Yanıma! – Pilat qışqırdı.

Katib və mühafizəçilər öz yerlərini tutdular, sonra Pilat elan etdi ki, Kiçik Sinedrionun yığıncağında cinayətkar İeşua Qa-Nosriyə çıxarılmış ölüm hökmünü təsdiq edir və katib Pilatın dediklərini yazdı.

Bir dəqiqə sonra Mark Siçovulqıran prokuratorun qarşısında dayanmışdı. Prokurator əmr etdi ki, cinayətkarı

məxfi xidmətin rəisinə təhvil versin, həmçinin ona prokuratorun tapşırığını çatdırsın: İeşua Qa-Nosri başqa məhkumlardan ayrı saxlansın, İeşua ilə nə haqdasa danışmaq, onun hər hansı sualına cavab vermək məxfi xidmət dəstəsinə qadağan olunur və bu qadağanı pozan ağır cəza alacaq.

Markın işarəsiylə mühafizə dəstəsi İeşuanı dövrəyə alıb eyvandan çıxardı.

Sonra sinəsində gümüş şir başları parıldayan, dəbilqəsinə qartal lələkləri, qılıncının çiyin qayışına qızıl lövhəciklər bərkidilən, dizinə qədər qaytanla bağlı ayaqqabılarına üçqat altlıq vurulmuş, qıpqırmızı plaşını sol çiyninə atmış boy-buxunlu, sarısaqqal, yaraşıqlı kişi prokuratorun qarşısında dayandı. Bu, legiona komandanlıq edən leqat idi. Prokurator ondan sebastiyalıların koqortasının indi harada yerləşdiyini soruşdu. Leqat məlumat verdi ki, sebastiyalılar cinayətkarlara çıxarılmış hökmün xalqa elan olunacağı hippodromun qarşısındakı meydanı mühafizə edirlər.

Prokurator tapşırıq verdi ki, leqat Roma koqortasından iki kenturiya ayırsın. Onlardan biri Siçovulqıranın başçılığı ilə cinayətkarları, edam üçün lazım olan alətlər yüklənmiş arabaları və cəlladları Keçəl Dağa müşayiət etsin, oraya çatandan sonra yuxarıdakı mühafizə dəstəsinə qoşulsun. O biri isə elə indi Keçəl Dağa göndərilsin və dərhal orada mühafizəni təşkil etsin. Bu məqsədlə, yəni Dağın mühafizəsi üçün prokurator leqatdan yardımçı süvari alayı – Suriya alasını[11]da göndərməyi xahiş etdi.

Leqat eyvandan çıxdıqdan sonra prokurator katibə əmr etdi ki, Sinedrionun prezidentini, iki üzvünü və Yerşalaim məbədlərinin mühafizə rəisini saraya çağırsın, ancaq elə etsin ki, bu adamlarla keçirəcəyi iclasa qədər prezidentlə təklikdə danışa bilsin.

Prokuratorun əmri tez və dəqiq yerinə yetirildi. Son günlər Yerşalaimi nəsə qeyri-adi bir acıqla yandırıb-yaxan günəş hələ ən yüksək nöqtəyə çatmamış bağın yuxarı terrasında, pilləkəni qoruyan iki ağ mərmər şirin yanında

[11]Ala – qədim Romada 500-1000 nəfərlik süvari dəstə

prokuratorla Sinedrion prezidentinin vəzifəsini icra edən, İudeyanın baş ruhanisi İosif Kaifa qarşılaşdı.

Bağda sakitlik idi. Ancaq sütunların arasından nəhəng fil ayaqlı palmalar bitən, günəşin yandırıb-yaxdığı bağın yuxarı meydançasına çıxanda asma körpüləri, qalaları və ən başlıcası, heç bir təsvirə gəlməyən, dam əvəzinə son dərəcə iri qızıl pulcuqlarla örtülmüş mərmər yığınından ibarət məbədiylə nifrət bəslədiyi bütün Yerşalaim şəhəri prokuratorun gözü qarşısında açıldı, – iti qulaqları çox uzaqlardan, saray bağının aşağı terrasını şəhər meydanından ayıran daş hasarın yanından qalxan, hərdən ah-naləyə bənzəyən səsləri aldı.

Prokurator artıq meydana Yerşalaimdəki son iğtişaşlardan həyəcanlanmış xeyli şəhər sakininin yığışdığını, bu kütlənin hökmün çıxarılmasını səbirsizliklə gözlədiyini, orada qışqıranların isə susatanlar olduğunu başa düşdü.

Prokurator əvvəlcə dözülməz bürküdən daldalanmaq üçün baş ruhanini eyvana dəvət etdi, ancaq Kaifa nəzakətlə üzr istəyib, bunu edə bilməyəcəyini söylədi. Pilat plaşın

başlığını dazlaşan başına örtüb, əsas məsələyə keçdi. Söhbət yunan dilində gedirdi.

Pilat dedi ki, İeşua Qa-Nosrinin işini araşdırıb və ölüm hökmünü təsdiqləyib.

Beləliklə, bu gün həyata keçirilməsi edama üç quldur: Dismas, Hestas, Var-Ravvan və bundan əlavə, İeşua Qa-Nosri məhkum edilib. Xalqı qeysər əleyhinə qiyama çağırmaq fikrinə düşən ilk ikisi Roma hökuməti tərəfindən döyüşlə ələ keçirilib və prokuratorun nəzarətindədir, deməli, burada onlardan söhbət gedə bilməz. Sonuncular– Var-Ravvanla, Qa-Nosrini isə yerli hakimiyyət tutub və onlar Sinedrion tərəfindən məhkum edilib. Qanuna və adətə görə, bu iki cinayətkardan birini bu gün girən böyük Pasxa bayramı münasibətilə azadlığa buraxmaq lazım gələcək.

İndi prokurator bilmək istəyir, Sinedrion bu iki cinayətkardan hansını azad etmək fikrindədir: Var-Ravvanı, ya Qa-Nosrini.

Kaifa sualın ona aydın olduğunu göstərmək üçün başını tərpətdi və cavab verdi:

–Sinedrion Var-Ravvanın buraxılmasını xahiş edir.

Baş ruhaninin ona məhz bu cavabı verəcəyini prokurator yaxşı bilirdi, ancaq özünü elə aparmalı idi ki, guya, belə cavab onu heyrətləndirib.

Pilat bunu böyük məharətlə etdi. Qaşlarını təkəbbürlə qaldırıb, heyrətlə baş ruhaninin düz gözlərinə baxdı.

–Boynuma alıram ki, bu cavab məni heyrətləndirdi, – prokurator mülayimcəsinə dedi, – burada nəsə bir anlaşılmazlıq olduğundan ehtiyatlanıram.

Pilat fikrini izah etdi. Baş ruhaniyə yaxşı məlumdur ki, Roma hakimiyyəti yerli ruhani hakimiyyətinin hüquqlarına həmişə hörmətlə yanaşır, ancaq bu məsələdə səhv göz qabağındadır. Və bu səhvin aradan qaldırılmasında, əlbəttə, Roma hakimiyyəti maraqlıdır.

Əslində, Var-Ravvanın və Qa-Nosrinin cinayətləri ağırlığına görə müqayisə edilməzdir. Əgər ikinci şəxs açıq-aşkar dəlidirsə, cəfəng çıxışlarıyla Yerşalaimdə və digər yerlərdə xalqı həyəcanlandırdığı üçün günahkardırsa, birincinin günahı daha ağırdır. Birbaşa qiyama çağırmağı azmış kimi, üstəlik, onu tutmaq istəyən keşikçini də öldürüb. Var-Ravvan daha təhlükəlidir, nəinki Qa-Nosri.

Bütün deyilənlərin müqabilində prokurator xahiş edir ki, baş ruhani qərarı dəyişsin, iki cinayətkardan daha az ziyanlısını azad etsin, o da, şübhəsiz, Qa-Nosridir. Bəs indi sözü nədir?..

Kaifa düz Pilatın gözünün içinə baxdı, astadan, ancaq qətiyyətlə dedi ki, Sinedrion işlə çox diqqətlə tanış olub və Var-Ravvanı azad etmək fikrində olduğunu ikinci dəfə söyləyir.

–Necə? Hətta mənim xahişimdən sonra da? Roma hakimiyyətinin adından danışan şəxsin xahişindən sonra? Baş ruhani, üçüncü dəfə təkrar et.

–Biz üçüncü dəfə də bildiririk ki, Var-Ravvanı azad edirik, – Kaifa sakitcə cavab verdi.

Hər şey bitmişdi və daha danışılası heç nə qalmamışdı. Qa-Nosri həmişəlik gedirdi, prokuratorun dəhşətli ağrılarını sağaldan olmayacaqdı; ölümdən savayı bu ağrının əlacı yoxdur. Ancaq indi Pilatı heyrətləndirən bu fikir deyildi. Bayaq eyvanda hiss etdiyi anlaşılmaz qüssə onun bütün varlığına hakim kəsilmişdi. Çalışdı qüssənin səbəbini özü üçün aydınlaşdırsın, ancaq bunun səbəbi də qəribə idi:

prokuratora elə gəldi ki, məhbusa nəyisə deməyib, ya nəyəsə qulaq asmayıb.

Pilat bu fikri özündən qovdu və bu fikir gəldiyi kimi də bir anda uçub-getdi. O, uçub-getdi, ancaq qüssənin səbəbi izah olunmamış qaldı, çünki ildırım kimi çaxan başqa fikir də onu izah edə bilməzdi: "Ölümsüzlük... ölümsüzlüyə qovuşdu..." Kim ölümsüzlüyə qovuşdu? Prokurator bunu başa düşmədi, ancaq bu müəmmalı ölümsüzlük haqqındakı fikir günün altında onu üşütdü.

– Yaxşı, – Pilat dedi, – qoy belə olsun.

Bu yerdə o, ətrafına göz gəzdirib, baş vermiş dəyişikliyə heyrətləndi. Qızılgüllərin çoxluğundan əyilmiş kollar, yuxarıdakı terrası dövrələmiş sərv ağacları, nar ağacları, yaşıllığın arasındakı ağ heykəllər, elə yaşıllığın özü də yoxa çıxmışdı. Bunların yerini içində yosunlar yırğalanan qıpqırmızı xılt tutmuşdu, bu xılt harasa axıb gedir, Pilatı da özü ilə aparırdı. Acizliyinə, gücsüzlüyünə görə o, indi qəzəbdən boğulurdu.

– Canım sıxıldı, – Pilat dedi, – canım sıxıldı!

O, tərli, soyuq əliylə plaşın yaxasındakı toqqanı dartdı və plaş quma düşdü.

–Bu gün bürküdür, haradasa tufan qalxıb,– prokuratorun qızarmış sifətindən gözünü çəkmədən və qarşıdan gələn bütün məşəqqətləri hiss edərək Kaifa dilləndi. "Ah, bu ilin nisan ayı necə dəhşətlidir!"

–Bürküdən yox, – Pilat dedi, – sənlə bir yerdə olduğuma görə sıxıldım, Kaifa, – Pilat gözlərini qıyıb gülümsədi, – özünü gözlə, baş ruhani.

Baş ruhaninin gözləri parıldadı və heyrətləndiyini büruzə verməkdə prokuratordan heç də geri qalmadı.

–Mən nə eşidirəm, prokurator? – Kaifa təkəbbürlə və sakit tərzdə cavab verdi. – Özün təsdiq etdiyin hökmə görə məni hədələyirsən? Belə şey ola bilərmi? Roma prokuratorunun nəsə deməmişdən əvvəl sözləri ölçüb-biçdiyinə adət etmişik. Bizi kimsə eşitmədi ki, igemon?

Pilat donuq gözləriylə baş ruhaniyə baxdı və hirsindən gülümsədi.

–Bu nə sözdür, baş ruhani! Axı bizi indi burada kim eşidə bilər? Məgər mən bu gün edam olunacaq gənc

divanəyə oxşayıram? Mən uşağammı, Kaifa? Harada nə dediyimi bilirəm. Bağ, saray mühafizə olunur, siçan keçəsi deşik də yoxdur! Siçan nədir, hətta o da, adı nədir... Kiriaf şəhərindən olan? Yeri gəlmişkən, sən onu tanıyırsanmı, baş ruhani? Hə... əgər eləsi buraya girsə, çox peşman olar, buna, yəqin, inanarsan? Yadında saxla, baş ruhani, bundan sonra sənə rahatlıq yoxdur! Nə sənə, nə sənin xalqına, – və Pilat sağ tərəfi, uzaqda, yüksəklikdə parıldayan məbədi göstərdi, – bunu mən sənə deyirəm – pontiyalı Pilat, Qızıl Nizəli atlı!

–Bilirəm, bilirəm! – qarasaqqal Kaifa çəkinmədən dedi və gözləri parıldadı. O, əllərini göyə qaldırıb sözünə davam etdi:– Yəhudi xalqı sənin ona nifrət bəslədiyini bilir, sən ona çox əzablar çəkdirmisən, ancaq onu məhv edə bilməyəcəksən! Onu Allah qoruyacaq! Bizi eşidərlər, qüdrətli qeysər eşidər, bizi qənimimiz Pilatdan qoruyar!

–Heç də yox! – Pilat qışqırdı və hər dediyi sözlə o get-gedə yüngülləşirdi: daha riyakarlıq etməyə, sözləri seçməyə ehtiyac yox idi. – Məndən qeysərə çox şikayət etmisən, indi növbə mənimdir, Kaifa! İndi xəbər məndən gedəcək, özü də nə Antioxiya canişininə, nə də Romaya, birbaş Kapreyə,

imperatorun özünə xəbər gedəcək ki, siz Yerşalaimdəki məlum qiyamçıları necə qoruyursunuz. Mən onda Yerşalaimi Süleyman gölünün suyu ilə suvarmayacağam, ancaq sizin xeyriniz üçün belə istəyirdim! Su ilə yox! Yadına sal, sizə görə imperatorun monoqramması olan qalxanları divardan çıxardım, ordunun yerini dəyişdirdim, sizə görə özüm gələsi oldum ki, burada nələrin baş verdiyini görüm! Mənim sözlərimi yadında saxla, baş ruhani. Onda Yerşalaim bir koqortayla canını qurtarmayacaq, yox! Şəhər divarının qarşısına Fulminatın bütöv bir legionu gələcək, ərəb atlı qoşunu gələcək, onda sən acı gözyaşı axıdanların səsini, iniltilərini eşidəcəksən! Sən onda xilas etdiyin Var-Ravvanı xatırlayacaqsan və ziyansız moizələrinə görə filosofu ölümə göndərdiyinə peşman olacaqsan!

Baş ruhaninin sifəti ləkələrlə örtüldü, gözləri parıldadı. O, prokurator kimi hirsindən gülümsədi.

–Prokurator, indi dediklərinə sən özün inanırsanmı? Yox, inanmırsan! Xalqı yolundan azdıran adam, sən Yerşalaimə sülh, əmin-amanlıq gətirməmisən, sən bunu gözəl bilirsən, süvari. Sən onu buraxmaq istəyirdin ki,

xalqın arasına qarışıqlıq salsın, etiqadını təhqir etsin və xalqı Roma qılıncının üstünə aparsın! Ancaq mən – İudeyanın baş ruhanisi nə qədər ki sağam, dinimizin təhqir olunmasına imkan verməyəcəyəm və xalqı müdafiə edəcəyəm! Eşidirsənmi, Pilat? – Kaifa hiddətlə əlini qaldırdı: – Bunu nəzərə al, prokurator!

Kaifa susdu və prokurator dənizin uğultusu kimi yenə Böyük İrodun darvazasına lap yaxınlaşan hay-küyü eşitdi. Bu uğultu aşağıdan prokuratorun ayaqlarına, sifətinə doğru qabardı. Arxa tərəfdən, sarayın dalından isə şeypurların həyəcanlı siqnalları, yüzlərlə ayağın ağır tappıltısı, dəmirlərin cingiltisi eşidildi. Prokurator başa düşdü ki, onun əmrinə uyğun olaraq Roma piyada qoşunu qiyamçıları və quldurları dəhşətə salan ölümqabağı parada çıxmaq üçün artıq hərəkətə gəlib.

–Eşidirsənmi, prokurator? – baş ruhani astadan təkrar etdi. – Doğrudanmı, sən deyəcəksən ki, bütün bunların baiskarı, – baş ruhani bu yerdə hər iki əlini qaldırdı və qara başlıq Kaifanın başından sürüşdü, – miskin quldur Var-Ravvandır?

Prokurator biləyinin arxası ilə soyuq, tərli alnını silib yerə, sonra gözünü qıyıb göyə baxdı, gördü ki, qaynar kürə düz başının üstündədir, Kaifanın kölgəsi isə lap kiçilərək şirin quyruğuna sığınıb və soyuqqanlıqla astadan dedi:

–Günorta yaxınlaşır. Başımız söhbətə qarışıb, işimizi isə davam etdirməliyik.

Baş ruhanidən nəzakətlə üzr istəyib, sonuncu qısa iclas üçün lazım olan başqa adamları çağırana qədər ondan maqnoliyanın kölgəsində oturub gözləməyi xahiş etdi, sonra edamla bağlı bir sərəncam da verəcəkdi.

Kaifa əlini ürəyinin üstünə qoyub hörmətlə təzim etdi və bağda qaldı, Pilat isə eyvana qayıtdı. Onu gözləyən katibə tapşırdı ki, legionun leqatını, koqorta tribununu[12], həmçinin bağın aşağısındakı terrasda, fəvvarəli dairəvi köşkdə dəvət gözləyən Sinedrionun iki üzvünü və məbəd keşikçilərinin rəisini bağa dəvət etsin. Pilat bu saat qayıdacağını deyib saraya keçdi.

[12] Tribun – burada: atlı qoşunun komandiri

Katib iclası toplayana qədər prokurator tünd pəncərə pərdələrinin günəşdən qoruduğu otaqda, gün işığı onu narahat etməsə də, sifətinin yarısı başlıqla örtülmüş bir nəfərlə görüşdü. Görüş çox qısa oldu. Prokurator bu adama astadan bir neçə söz dedi, sonra o getdi, Pilat isə sütunların arasından keçib bağa qayıtdı.

Orada görmək istədiyi adamların hamısına prokurator təntənəli və soyuq tərzdə elan etdi ki, İeşua Qa-Nosri barədə çıxarılmış ölüm hökmünü təsdiq edir və Sinedrio-nun üzvlərindən rəsmi şəkildə xəbər aldı ki, cinayətkarlardan hansının sağ qalmasını məsləhət bilirlər. Bunun Var-Ravvan olduğu cavabını alan prokurator:

– Çox yaxşı, – dedi, katibə tapşırdı ki, bunu protokola qeyd etsin və katibin qumdan qaldırdığı toqqanı əlində sıxıb, təntənəli şəkildə dedi: – Vaxtdır!

İştirakçıların hamısı enli mərmər pilləkənlə, bihuşedici ətir saçan qızılgül kollarının arasıyla aşağı, saray divarına, sonunda Yerşalaimin cıdır meydanının sütunlar və heykəlləri görünən daş döşənmiş böyük, hamar meydana çıxaran darvazaya tərəf getdilər.

Dəstə yalnız bağdan meydana çıxıb geniş daş eşafota qalxanda Pilat qıyılmış gözləriylə yuxarıdan-aşağı meydanı süzüb, vəziyyəti anlaya bildi. İndicə keçdiyi, yəni saray divarından daş eşafota qədər olan sahə boş idi, ancaq önündəki meydanı Pilat artıq görmürdü – onu kütlə tutmuşdu. Əgər üç cərgə düzülmüş sebastiyalı əsgərlər Pilatdan sol tərəfi və itureyalı yardımçı koqortanın əsgərləri sağ tərəfi saxlamasaydı, kütlə daş eşafotun özünü də, boş sahəni də doldurardı.

Pilat lazımsız toqqanı qeyri-ixtiyari ovcunda sıxaraq, gözlərini qıyıb daş eşafota qalxdı. Prokurator gün düşdüyünə görə gözlərini qıymamışdı, yox! Nə üçünsə məhkumları görmək istəmirdi, ancaq indi onun arxasınca edam meydançasına çıxarılacaqlarını da gözəl bilirdi.

Qıpqırmızı astarlı ağ plaş insan dənizi üzərindəki sıldırımda görünən kimi səs dalğası Pilatı vurdu: "Ha-a-a..." Haradasa uzaqda, hippodromun dərinliklərindən doğulan bu zəif səs sonra gurultuya çevrildi və bir neçə saniyə davam edib sönməyə başladı. "Məni gördülər", – prokurator düşündü. Səs dalğası sönməyə macal tapmamış birdən yenə

artmağa başladı və əvvəlkindən yüksəyə qalxdı, ikinci dalğada, dəniz kükrəyəndə köpük üzə çıxdığı kimi, fit səsləri ucaldı və gurultunun içindən qadın iniltiləri eşidildi. "Məhkumları da edam meydançasına çıxardılar... – Pilat fikirləşdi, – inilti də ona görədir ki, izdiham qabağa yeriyəndə bir neçə qadın ayaq altında qaldı".

O, bir müddət gözlədi, çünki izdiham öz içindəkiləri püskürüb sakitləşməyincə, onu heç bir qüvvəylə susdurmaq mümkün olmayacağını bilirdi.

Həmin an yetişəndə prokurator sağ əlini yuxarı qaldırdı və səs-küy tamam yatdı.

Onda Pilat isti havanı bacardığı qədər sinəsinə yığıb qışqırdı və onun səsi minlərlə adamın başı üstündə dalğalandı:

–Qeysər imperator adından!

Kəsik-kəsik bağırtılardan qulaqları batdı – koqortalardakı əsgərlər nizə və bayraqlarını yuxan ataraq hayqırdılar:

–Yaşasın qeysər!

Pilat başını qaldırıb günəşə baxdı. Gözlərində yaşıl alov oynadı, bu alov beynini qaynatdı və xırıltılı arami sözləri ətrafa yayıldı.

–Yerşalaimdə adam öldürdüyünə, qiyama çağırışa, qanun və etiqadımızı təhqir etdiyinə görə həbs olunmuş dörd cinayətkar rüsvayçı edama – dar ağacından asılmağa məhkum edilib. Bu edam indi Keçəl Dağda olacaq! Cinayətkarların adı – Dismas, Hestas, Var-Ravvan və Qa-Nosridir. Budur, onlar sizin qarşınızdadır!

Pilat cinayətkarları görməsə də, əliylə sağ tərəfi göstərdi, çünki onların harada lazımsa, orada olduqlarını bilirdi.

İzdiham heyrətdən, ya rahatlandığına görə uğuldadı. Uğultu yatanda Pilat sözünə davam etdi:

–Ancaq onların yalnız üçü edam olunacaq, çünki qanuna və adətə görə, Pasxa bayramı münasibətilə məhkumlardan birinin mənfur həyatını, Kiçik Sinedrionun seçimi və Roma hakimiyyətinin təsdiqiylə, alicənab qeysər imperator onun özünə qaytaracaq!

Pilat sözləri qışqırdıqca uğultunun dərin sükutla əvəz olunduğunu hiss edirdi. Artıq heç bir səs-səmir eşidilmirdi, hətta elə bir an gəlib çatdı ki, Pilat, ümumiyyətlə, ətrafda hər şeyin yoxa çıxdığını düşündü. Nifrət bəslədiyi şəhər ölmüşdü, bircə o, günün altında üzünü göyə tutub qalmışdı. Pilat bir az susub, sonra qışqırdı:

–İndi sizin qarşınızda azadlığa buraxılacaq adamın adı...

Ad çəkməmişdən əvvəl heç nəyi unutmadığına əminolmaq üçün yenə gözlədi, çünki həmin xoşbəxtin adını çəkəndən sonra ölü şəhərin diriləcəyini və başqa sözlərin eşidilməyəcəyini bilirdi.

"Qurtardımı? – Pilat öz-özünə pıçıldadı.– Qurtardı. Ad!"

Və "r" hərfini uzadıb, sükut çökmüş şəhərə qışqırdı:

–Var-Ravvan!

Bu zaman ona elə gəldi ki, günəş başı üstündə cingiltiylə çilikləndi və qulaqlarına od doldu. Bu odda bağırtı, çığırtı, inilti, qəhqəhə və fit səsləri qaynayırdı.

Pilat çönüb, büdrəməmək üçün ayağı altındakı ala-bəzək taxta döşəmədən savayı heç hara baxmadan edam meydançasıyla geriyə, pilləkənə sarı getdi. O bilirdi ki, indi edam meydançasına bürünc pullar, xurmalar dolu kimi yağır, izdiham çaxnaşır, adamlar bir-birini itələyir, bir-birinin belinə dırmaşırlar ki, möcüzəni – artıq ölümün pəncəsində olan adamın necə qurtulduğunu öz gözləriylə görsünlər! Legionerlər istintaq zamanı burulmuş qollarından kəndiri açanda ağrının şiddətindən üz-gözünü qırışdırıb ufuldasa da, məhbusun mənasız, gic bir təbəssümlə necə gülümsədiyini görsünlər.

O bilirdi, elə bu vaxt mühafizəçilər qolları bağlı üç nəfəri artıq yan pilləkənlərlə düşürürlər ki, onları qərbə, şəhər kənarına, Keçəl Dağa aparan yola çıxarsınlar. Yalnız edam meydançasının arxasında Pilat təhlükəsiz olduğuna inandığından başını qaldırdı – məhkumları daha görə bilməzdi.

İzdihamın get-gedə səngiyən uğultusunu prokuratorun edam meydançasından dediklərini indi arami və yunan dilində təkrar edən carçıların qışqırıqları batırmışdı. Bundan

başqa, o, at ayaqlarının zəif tappıltısını və şeypurun qısa, şən səsini eşitdi. Bazardan hippodrom meydanına çıxan küçənin damlarındakı uşaqların qulaqdeşən fışqırıqları və "ehtiyatlı ol!" bağırtıları da bu səslərə qarışdı.

Meydanın boşaldılmış sahəsində tək dayanmış əsgər əlindəki bayrağı həyəcanla qaldıranda prokurator, legionun leqatı, katib və mühafizəçilər dayandılar.

Süvari ala insan yığnağından yan ötüb, tənəklərin dırmaşdığı daş hasarlı döngəyə burularaq, kəsə yolla Keçəl Dağa çapmaq üçün löhrəm yerişlə meydana girdi.

Süvari alanın uşaq kimi balaca, mulat kimi qara suriyalı komandiri çaparaq Pilatla bərabərləşəndə nəsə çımxırıb, qılıncını qınından çıxardı. Tərə batmış qara at kənara sıçrayıb şahə qalxdı. Sırayla üç-üç düzülmüş atlar toz-duman qaldırıb onun arxasınca çapdılar; bambuq mizraqların yüngül ucları atılıb-düşürdü. Dişləri şən-şən ağarıb parıldayan, ağ çalma altında lap qara görünən sifətlər prokuratorun yanından ötüb-keçdilər.

Süvari ala tozu göyə qaldırıb döngəyə girdi və çiynindəki şeypur gün işığında parıldayan sonuncu əsgər

Pilatın yanından çapıb keçdi. Pilat əliylə tozdan qorunaraq, narazılıqla sifətini qırışdırıb saray bağının darvazasına tərəf getdi. Leqat, katib və mühafizəçilər də onun arxasınca hərəkət etdilər.

Səhər saat ona az qalmışdı.

III fəsil.
YEDDİNCİ SÜBUT

– Bəli, səhər saat ona az qalmışdı, möhtərəm İvan Nikolayeviç, – professor dedi.

Şair yenicə yuxudan oyanmış adam kimi əlini üzünə çəkdi və gördü ki, Patriarx gölündə axşamdır.

Gölün suyu qaralmışdı, üzən qayığın avarlarının şappıltısı və qayıqdakı qadının gülüşü eşidilirdi. Bizim həmsöhbətlərin oturduğu yerdən başqa, xiyabanın qalan üç tərəfindəki skamyalarda artıq əyləşənlər vardı.

Moskva səması, elə bil, solmuşdu, yüksəkdəki dəyirmi ay tamamilə aydın görünürdü, ancaq hələ qızılı yox, ağ idi.

Nəfəs almaq asanlaşmışdı və cökə ağacının altında səslər axşama xas yumşaqlıqla səslənirdi.

"Onun əməlli-başlı bir hekayə quraşdırdığından necə xəbərim olmayıb?.." – Bezdomnı heyrətlə fikirləşdi, – gör ha, artıq axşam da düşüb! Ancaq bəlkə, bunları heç o danışmayıb, sadəcə, mən yatıb yuxuda görmüşəm?"

Ancaq hər halda, professorun danışdığını ehtimal etmək lazımdı, yoxsa düşünməli olacaqdı ki, eyni şey Berliozun da yuxusuna girib, çünki o, əcnəbinin sifətinə diqqətlə baxaraq dedi:

–Professor, sizin hekayəniz İncildəki hekayətlərə qətiyyən uyğun gəlməsə də, çox maraqlıdır.

– Əfv edərsiniz, – professor təkəbbürlə gülümsədi, – heç kim də olmasa, siz gərək biləsiniz ki, İncillərdə yazılanların heç biri, əslində, baş verməyib və biz əgər İncilə tarixi mənbə kimi istinad etsək... – o, yenə gülümsədi və Berlioz duruxdu, çünki o, təxminən, eyni sözləri Bronnı küçəsi ilə Patriarx gölünə tərəf gələndə Bezdomnıya demişdi.

–Elədir, – Berlioz qeyd etdi, – ancaq qorxuram ki, sizin bizə danışdıqlarınızın da, həqiqətən, baş verdiyini heç kim təsdiqləyə bilməsin.

–Heç də yox! Bunu təsdiq edən tapılar! – professor sözləri düzgün tələffüz etmədən, çox əminliklə dedi və qəfil hər iki dostu işarəylə yaxına çağırdı.

İkisi də ona tərəf əyildi və o, bu dəfə tamamilə aksentsiz danışdı, özü də nəyə görəsə bu aksent gah itir, gah peyda olurdu.

–Məsələ belədir ki... – bu yerdə professor qorxa-qorxa ətrafına boylanıb pıçıltıyla dedi, – mən şəxsən orada olmuşam. Eyvanda da Ponti Pilatın yanında idim, bağda Kaifa ilə danışanda da, edam meydançasında da... Ancaq gizlicə, necə deyərlər, inkoqnito[13], ona görə də sizdən xahiş edirəm, heç kimə bir kəlmə deməyin, sirr kimi saxlayın!.. Sss!

Sükut çökdü və Berliozun rəngi qaçdı.

[13]İnkoqnito – kim olduğunu hamıdan gizli tutaraq

–Siz... siz neçə vaxtdır Moskvadasınız? – o, titrək səslə soruşdu.

–Mən elə bu dəqiqə Moskvaya gəlmişəm, – professor çaşqınlıqla cavab verdi və onun gözlərinin içinə əməlli-başlı baxmaq fikri yalnız indi dostların ağlına gəldi və əmin oldular ki, onun yaşıl sol gözündən dəlilik yağır, sağ gözü isə bomboş qara deşikdir.

"Budur ha, hər şey aydın oldu! " – Berlioz təşvişlə düşündü. – "Dəli alman gəlib, ya indicə Patriarx gölündə havalanıb. Belə-belə işlər!"

Bəli, doğrudan da, hər şey aydınlaşdı: mərhum filosof Kantın yanında anlaşılmaz səhər yeməyi də, günəbaxan yağı ilə Annuşka haqqında gic-gici söhbət də – professor dəli imiş.

Berlioz nə etmək lazım olduğunu o saat anladı. Özünü skamyanın söykənəcəyinə yıxıb, professorun arxasından Bezdomnıya göz vurdu – yəni mübahisə etmə, ancaq karıxmış şair bu işarələri başa düşmədi.

–Bəli, bəli, bəli, – Berlioz həyəcanla dedi, – ümumiyyətlə, hər şey mümkündür! Hətta çox mümkündür,

Ponti Pilat da, eyvan da, qalan şeylər də... Bəs siz tək gəlmisiniz, ya həyat yoldaşınızla?

–Tək, tək, mən həmişə təkəm, – professor acı-acı dilləndi.

–Bəs sizin yükünüz hanı, professor? – Berlioz hiyləgərcəsinə soruşdu, – "Metropol"dadır? Siz harada qalırsınız?

–Mən? Heç harada, – ağlı çaşmış alman yaşıl gözünü qüssə və heyrətlə Patriarx gölündə dolandırdı.

–Necə? Bəs... siz harada yaşayacaqsınız?

–Sizin mənzildə, – dəli qəfil sırtıqcasına cavab verib göz vurdu.

–Mən... mən çox şadam, – Berlioz mızıldandı, – ancaq düzü, sizin üçün rahat olmaz... "Metropol"da isə əla otaqlar var, birinci dərəcəli mehmanxanadır...

–Bəs şeytan da yoxdur? – xəstə birdən sevincək halda İvan Nikolayeviçdən soruşdu.

–Şeytan da...

–Mübahisə etmə! – Berlioz professorun arxasından göz-qaş eləyə-eləyə pıçıldadı.

–Heç bir şeytan-zad yoxdur! – durduğu yerdə cəncələ düşmüş İvan Nikolayeviç ağzına gələni qışqırdı, – azara düşmüşük də! Özünüzü dəli yerinə qoymayın.

Dəli bu yerdə elə şaqqanaq çəkdi ki, altında oturduqları cökə ağacından sərçə pırıldayıb uçdu.

–Doğrusu, çox maraqlıdır, – professor bədənini əsdirə-əsdirə güldü, – sizdə bu nə olan şeydir, nəyə əl atırsan, yoxdur! – o, gülməyini qəfil kəsdi, bu da ruhi xəstələrdəbaşa düşüləndir, gülüşdən sonra ovqatı tamam dəyişdi – əsəbiliklə qışqırdı: – Yəni elə doğrudan da yoxdur?

–Sakit olun, sakit olun, professor, – Berlioz xəstəni həyəcanlandırmaqdan qorxub donquldandı, – siz yoldaş Bezdomnıyla bir dəqiqə burada oturun, mən qaçıb tindən zəng vurum, sonra sizi istədiyiniz yerə yola salarıq. Axı siz şəhəri tanımırsınız...

Berliozun planını düzgün saymaq olardı: yaxınlıqdakı avtomat telefona qaçıb, xarici turistlər bürosuna xəbər verəcəkdi ki, bəs xaricdən gələn məsləhətçi Patriarx gölünün kənarında oturub, halı da açıq-aşkar qeyri-normaldır. Mütləq

tədbir görmək lazımdır, yoxsa xoşagəlməz vəziyyət yarana bilər.

–Zəng eləmək? Nə olar, zəng eləyin, – xəstə kədərli-kədərli razılaşdı və birdən qızğıncasına xahiş etdi: – Ancaq vidalaşmazdan əvvəl sizə yalvarıram, heç olmasa, şeytanın mövcudluğuna inanın! Sizdən başqa heç nə təvəqqe etmirəm. Nəzərə alın ki, bunu təsdiq edən yeddinci, özü də çox möhkəm sübut var! O, indi sizə təqdim olunacaq.

–Yaxşı, yaxşı, – Berlioz yalançı mehribanlıqla dedi və dəli almana keşik çəkmək fikrindən heç də məmnun olmayan kefi pozulmuş şairə göz vurub, Patriarx gölündən Bronnı ilə Yermolayevski küçəsinin kəsişdiyi yerə cumdu.

Professor isə, elə bil, o saat sağaldı və kefi duruldu.

–Mixail Aleksandroviç! – Berliozun arxasınca çağırdı.

O səksəndi, geriyə baxdı, ancaq özünü bu fikirlə sakitləşdirdi ki, onun adı və soyadı da professora hansısa qəzetdən məlumdur. Professor isə əlini ağzına tutub qışqırdı:

–Əgər istəyirsinizsə, tapşıra bilərəm, Kiyevdəki dayınıza indi teleqram vursunlar?

Berlioz yenə diksindi. Kiyevdə dayısı yaşadığını bu dəli haradan bilir? Axı bu haqda qəzetlərdə, yəqin ki, heç nə yazılmayıb. Aha, bəlkə, Bezdomnı düz deyir? Ola bilsin, sənədləri saxtadır? Ax, nə qəribə tipdir. Zəng vurmaq, zəng vurmaq! Elə indi zəng vurmaq! Kimliyini tez aydınlaşdırarlar!

Berlioz daha heç nəyə qulaq asmayıb, qaça-qaça uzaqlaşdı.

Bu vaxt düz Bronnıya çıxan yerdə, bayaq gün işığında bürküdən əmələ gəlmiş həmin adam skamyadan durub redaktorun qabağına gəldi. Ancaq indi o, xəyal deyildi, adi canlı adam idi və yenicə düşən qaranlıqda Berlioz onun bığlarının toyuq tükünə oxşadığını sezdi; balaca, kinayəli, kefli gözləri vardı, dama-dama şalvarını isə o qədər yuxarı çəkmişdi ki, çirkli ağ corabları görünürdü.

Mixail Aleksandroviç az qaldı geri çəkilsin, ancaq özünə ürək-dirək verdi ki, bu, axmaq bir təsadüfdür və ümumiyyətlə, indi bu haqda düşünməyin yeri deyil.

– Turniketi axtarırsınız, vətəndaş? – dama-dama şalvarlı xırıltılı səslə soruşdu, – bura buyurun! Düz gedin,

lazım olan yerə çıxacaqsınız. Yolu göstərdiyimə görə sizdən keçmiş regentə yarım şüşənin haqq-hesabı çatır... üstünü düzəltmək üçün! – O, əzilib büzülə-büzülə öz jokey papağını çıxarıb yellədi.

Berlioz bu əzilib-büzülən dilənçi regentə qulaq asmayaraq, qaçıb turniketdən tutdu. Onu döndərib ayağını relsə qoymuşdu ki, qırmızı və ağ işıq sifətinə düşdü: şüşə qutuda "Tramvaydan qorun" sözləri işıqlandı.

O saat da Yermoloyevskdən Bronnıya çəkilmiş yeni xətdə tramvay göründü. Dönüb düz yola çıxan kimi qəfil onun içi işıqlandı və uğuldayıb sürətini artırdı.

Təhlükəsiz yerdə dursa da, Berlioz ehtiyatlı tərpənib çəpərin arxasına qayıtmaq qərarına gəldi, fırlanğıcdan tutaraq ayağını bir addım geri qoydu. Elə həmin an da əli sürüşdü, buz üstündəymiş kimi, ayağı relslərə doğru maili döşənmiş çaydaşlarından qopdu, o biri ayağı göyə qalxdı və Berliozu, elə bil, relslərin üstünə atdılar.

Berlioz nədənsə tutmağa çalışaraq arxası üstə yıxıldı, peysəri yüngülcə çaydaşına dəydi və yüksəklikdə, ancaq solda, ya sağda – bunu artıq bilmədi – qızılı ayı görməyə

macal tapdı. O, yanı üstə çönüb ayaqlarını cəld hərəkətlə qamına yığdı və dönərək, qarşısıalınmaz bir sürətlə üstünə şığıyan vaqonda bələdçinin dəhşətdən ağarmış sifətini və al-qırmızı sarğısını gördü. Berlioz qışqırmadı, ancaq ətrafdakı qadınların çığırtısı küçəni başına götürdü. Bələdçi qadın elektrik əyləcini çəkdi, vaqonun burnu yerə gəldi, sonra irəli sıçradı, pəncərənin şüşələri çiliklənib töküldü. Bu zaman Berliozun beynində kimsə ümidsizliklə qışqırdı – "Doğrudanmı?.." Bir daha və son dəfə ay göründü, ancaq parçalanıb dağıldı, sonra isə qaranlıq çökdü.

Tramvay Berliozun üstündən keçdi və xiyabanın dəmir çəpərinin altından çaydaşları döşənmiş enişə nəsə yumru bir şey düşdü. O, enişdən üzüaşağı yuvarlanıb, Bronnının çaydaşlarına dəyə-dəyə diyirləndi.

Bu, Berliozun kəsik başı idi.

IV fəsil

TƏQİB

Əsəbi qadın qışqırıqları sakitləşdi, milis fitinin səsi qulaqları deşdi, iki sanitar maşını: biri başsız bədənlə kəsilmiş başı meyitxanaya, o biri şüşə qırıqlarından yaralanmış gözəl bələdçi qadını xəstəxanaya götürüb apardı, ağ önlüklü dalandarlar şüşə parçalarını yığdılar, qan gölməçəsinin üstünə qum tökdülər, turniketə qədər qaça bilməyən İvan Nikolayeviç isə skamyaya necə yıxılmışdısa, eləcə də sərələnib qalmışdı.

Bir neçə dəfə qalxmağa cəhd göstərsə də, ayaqları sözünə qulaq asmadı – Bezdomnını, elə bil, iflic vurmuşdu.

İlk çığırtıları eşidib başın küçəylə diyirləndiyini görən kimi, şair turniketə sarı qaçmağa başladı. Gördüyündən ağlı elə çaşdı ki, skamyaya yıxılıb, əlini qan çıxana qədər dişlədi. Əlbəttə, dəli almanı unutmuşdu və bircə şeyi anlamağa çalışırdı: axı necə olur, indicə Berliozla danışırdı, bir dəqiqə sonra isə baş...

Həyəcanlanmış adamlar bərkdən danışa-danışa şairin yanından keçib xiyabanla qaçırdılar, ancaq İvan Nikolayeviç onları eşitmirdi.

İki qadın qəfil onun böyründə toqquşdu və uzunburun, başıaçıq qadın şairin lap qulağının dibində o biri qadına qışqıra-qışqıra dedi:

– Annuşka, bizim Annuşka! Sadovıdakı! Bu, onun işidir! Dükandan aldığı litrlik günəbaxan yağı fırlanğıca dəyib dağıldı! Yubkası tamam batdı... Bayaqdan söylənirdi. Bu bədbəxtin də, yəqin, ayağı sürüşüb, yıxılıb relslərin üstünə...

Qadının qışqıra-qışqıra dediyi sözlərdən İvan Nikolayeviçin keyləşmiş başında bircə söz ilişib qaldı: "Annuşka..."

–Annuşka... Annuşka?.. – şair həyəcanlı halda ətrafına boylandı, – bağışlayın, bağışlayın...

"Annuşka" sözünə "günəbaxan yağı", sonra isə, nədənsə, "Fonti Pilat" sözü bağlandı. "Pilat"ı şair bir kənara atdı, "Annuşka" sözündən başlayıb kələfin ucunu tutaraq, çox tez gedib dəli professora çıxdı.

Bağışlayacaqsınız! Axı o dedi ki, iclas olmayacaq, çünki Annuşka yağı dağıdıb. Zəhmət çəkməyin, olmayacaq! Hələ bu harasıdır: açıqca dedi ki, Berliozun başını qadın

kəsəcək! Hə, hə, hə! Axı bələdçi qadın idi! Bu nə deməkdir? Hə?

Bir damcı da şübhə qalmadı ki, bu müəmmalı məsləhətçi Berliozun dəhşətli ölümünü bütün təfərrüatıyla əvvəlcədən bilirmiş. Bu yerdə şairin beynindən iki fikir keçdi. Birinci: "O heç də dəli deyil! Belə düşünmək axmaqlıqdır!" və ikinci: "Bunların hamısını elə özü düzüb-qoşmayıb ki?!"

Ancaq icazənizlə soruşaq: necə?!

–Yo...o...x! Biz bunu ayırd edərik!

İvan Nikolayeviç bütün gücünü toplayıb skamyadan qalxdı və geriyə, professorla danışdığı yerə qaçdı. Xoşbəxtlikdən, məlum oldu ki, o, hələ getməyib.

Bronnıda artıq fənərlər yanırdı, Patriarx gölünə isə qızılı ay işıq saçırdı və həmişə aldadıcı olan ay işığında İvan Nikolayeviçə elə gəldi ki, professorun qoltuğunda tutduğu əlağacı deyil, qılıncdır.

İstefada olan sırtıq regent İvan Nikolayeviçin bir az əvvəl oturduğu yerdə əyləşmişdi. İndi o, burnuna bir şüşəsi heç olmayan, o biri şüşəsi çat olan lazımsız gözlük

keçirmişdi. Buna görə dama-dama paltarlı vətəndaş Berlioza relslərə tərəf gedən yolu göstərdiyi vaxtdakından da idbar idi.

İvan ürəyi əsə-əsə professora yaxınlaşdı və onun üzünə baxıb əmin oldu ki, bu sifətdə heç bir dəlilik əlaməti yoxdur, heç olmayıb da.

–Etiraf edin, siz kimsiniz? – İvan boğuq səslə soruşdu.

Əcnəbi qaşqabağını tökdü, elə baxdı, guya, şairi ilkdəfədir görür və kinli-kinli cavab verdi:

–Rus dili... başa düşmür...

–Onlar başa düşmürlər! – əcnəbinin dediyini izah etməyi ondan xahiş eləyən olmasa da, skamyada oturmuş regent söhbətə qarışdı.

–Özünüzü bicliyə qoymayın! – İvan hirslə dedi və canına dəhşətli qorxu doldu, – indicə rus dilində gözəl danışırdınız. Siz nə almansınız, nə də professor. Siz qatil və şpionsunuz! Sənədlərinizi! – İvan qəzəblə qışqırdı.

Müəmmalı professor, onsuz da, əyri olan ağzını iyrənirmiş kimi bir az da əyib çiyinlərini çəkdi.

–Vətəndaş! – İyrənc regent yenə özünü araya soxdu, – siz əcnəbini niyə narahat edirsiniz? Buna görə bütün ciddiyyətiylə cavab verməli olacaqsınız! – Şübhəli professor isə təkəbbürlü görkəm alaraq dönüb İvandan uzaqlaşdı.

İvan çaşıb-qalmışdı. Boğula-boğula regentə üz tutdu:

–Ey, vətəndaş, cinayətkarı tutmağa kömək edin! Bu, sizin borcunuzdur.

Regent cəld yerindən sıçrayıb bağırdı:

–Kimdir cinayətkar? Hanı o? Əcnəbi cinayətkardır?

–Regentin gözləri sevinclə parıldadı, – budur? Əgər o, cinayətkardırsa, ilk növbədə qışqırmaq lazımdır: "Qarovul!" Yoxsa çıxıb gedəcək. Haydı, bir yerdə! Xorla! – və regent ağzını açdı.

Karıxmış İvan baməzə regentə qulaq asıb "qarovul" qışqırdı, ancaq regent ona kələk gəlib heç nə qışqırmadı.

İvanın tək, xırıltılı qışqırığı yaxşı nəticə vermədi. İki qız diksinib kənara sıçradı və o, "sərxoş!" sözünü eşitdi.

–Aha, sən də onunla əlbirsən? – İvan hirslə çığırdı, – nədir, məni dolayırsan? Burax!

İvan sağa atıldı, regent də sağa atıldı! İvan sola atıldı, bu əclaf da özünü həmin tərəfə verdi.

–Sən qəsdən əl-ayağıma dolaşırsan? – İvan vəhşi kimi bağırdı, – mən sənin özünü milisə təhvil verəcəyəm!

İvan bu əbləhin yaxasından yapışmaq istədi, ancaq əli boşa çıxdı. Regent, elə bil, yerə batdı.

İvan "ah!" deyib qaldı; uzaqlara nəzər saldı və nifrət etdiyi naməlum şəxsi gördü. Həmin adam artıq Patriarx döngəsinə açılan çıxışın qarşısında idi, həm də tək deyildi. Şübhəli regent də ona qoşulmağa macal tapmışdı. Ancaq bu hələ harasıdır: dəstənin üçüncüsü axta donuz kimi nəhəng, his və ya zağca kimi qara, süvari kimi eşmə bığlı, haradansa peyda olmuş pişik idi. Üçlük Patriarx döngəsinə üz qoyub yola düzəldi, özü də pişik dal ayaqları üstə yeriyirdi.

İvan yaramazların arxasınca götürüldü və o saat da anladı ki, onlara çatmaq çox çətin olacaq.

Üçlük bir andaca döngəni burulub, Spiridonovkaya çıxdı. İvan addımlarını nə qədər yeyinlətsə də, təqib elədiklərilə arası heç azalmadı. Şair bir də özünə gəldi ki, Spiridonovkadan sonra Nikitski qapısına çatıb. Burada onun

vəziyyəti pisləşdi. Tünlükdə İvan kiminləsə toqquşub söyüldü. üstəlik də, yaramazlar burada quldurların xoşladığı fəndi işlətdilər – müxtəlif tərəflərə səpələndilər.

Regent cəld Arbat meydanı ilə şütüyən avtobusa sıçrayıb aradan çıxdı. Təqib elədiklərindən birini itirən İvan diqqətini pişikdə cəmləşdirdi və gördü ki, bu qəribə pişik dayanacaqdakı motorlu "A" vaqonunun ayaq yerinə qalxaraq, bir qadını çığırda-çığırda həyasızcasına yerə saldı, tutacaqdan yapışıb, bürküyə görə açıq olan pəncərədən hətta konduktor qadına ikişahılıq da verməyə cəhd elədi.

Pişiyin hərəkəti İvanı elə heyrətləndirdi ki, tindəki ərzaq dükanının yanında quruyub qaldı, ancaq konduktorun hərəkəti onu lap mat qoydu. Tramvaya soxulmaq istəyən pişiyi görən kimi konduktor hirsindən əsə-əsə qışqırdı:

– Pişiklərə olmaz! Pişiklərə qadağandır! Pişt! Düş, yoxsa milis çağıracağam!

Konduktor qadını, sərnişinləri məsələnin mahiyyəti – pişiyin tramvaya təpilməsi, bu hələ bir yana qalsın, üstəlik, onun pul vermək istəməsi də heyrətləndirmədi.

Pişik nəinki pul vermək qabiliyyəti olan, demə, həm də intizamlı heyvan imiş. Konduktor qadın üstünə bircə dəfə qışqıran kimi özünü yığışdırıb, dayanacaqda ayaq qoyulan yerdən düşdü və ikişahılıqla bığlarını sığalladı. Ancaq elə ki konduktor kəndiri çəkdi, tramvay tərpəndi, pişik tramvaydan qovulan, ancaq nə cür olur-olsun, getməli olan adam kimi hərəkət etdi. Vaqonun üçünü də ötürüb, sonuncunun arxasına tullandı, pəncəsi ilə hansısa çıxıntıdan yapışdı və bu yolla ikişahılığa qənaət etdi.

Murdar pişiyə başı qarışdığından İvan az qalmışdı bu üçlükdən ən əsasını – professoru gözdən qaçırsın. Ancaq xoşbəxtlikdən, o, aradan çıxa bilməmişdi. Böyük Nikitskinin, ya Qertsenin başlanğıcındakı basabasda İvan boz bereti gördü. Bir göz qırpımında özü də artıq orada idi. Di gəl, yenə bəxti gətirmədi. Şair addımlarını da yeyinlətdi, yoldan keçənləri itələyə-itələyə qaçdı da, ancaq professora bir santimetr də yaxınlaşa bilmədi.

İvan nə qədər pərt olsa da, onu təqibin misli görünməmiş sürəti heyrətləndirirdi. Nikitski qapısından sonra heç iyirmi saniyə keçmədi ki, Arbat meydanının

işıqları İvan Nikolayeviçin gözünü qamaşdırdı. Bir neçə saniyə də ötdü və əyri-üyrü səkiləri olan hansısa qaranlıq dalanda İvan Nikolayeviç üzü üstə yerə gəlib dizini əzdi. Yenə işıqlı magistral – Kropotkina küçəsi, sonra dalan, sonra Ostojenko və yenə xəsisliklə işıqlandırılmış cansıxıcı, iyrənc dalan. Və elə burada İvan Nikolayeviç ona lazım olan adamı tamam gözdən itirdi. Professor yoxa çıxmışdı.

İvan Nikolayeviç karıxdı, ancaq bu çox çəkmədi, çünki birdən ağlına gəldi ki, professor mütləq 13 №-li evdə və mütləq 47 №-li mənzildə olmalıdır.

İvan Nikolayeviç küçə qapısından soxulub, ikinci mərtəbəyə çıxdı, dərhal həmin mənzili tapdı və tələsik zəngi basdı. Çox gözləmədi: İvanın üzünə qapını beş yaşlarında bir qız uşağı açdı və gələn adamdan heç nə soruşmadan tez harasa getdi.

Çox iri, bərbad, səliqəsiz girəcəkdə çirkdən qaralmış hündür tavandan asılan kiçik kömür lampasının zəif işıqlandırdığı divardan təkərsiz velosiped asılmışdı, küncə böyük sandıq qoyulmuşdu, asılqanın üstündəki taxçadan qış

papağının uzun qulaqları sallanırdı. Otaqların birindən radioda bərkdən, hirslə şeir deyən kişi səsi eşidilirdi.

Yad mühit İvan Nikolayeviçi heç də çaşdırmadı və birbaşa dəhlizə soxulub, gedə-gedə düşündü: "O, əlbəttə, vanna otağında gizlənib". Dəhliz qaranlıq idi. İvan divara toxunub, qapının aşağısından gələn zəif işıq zolağını gördü, qapının dəstəyini gözəyarı axtarıb ehmalca dartdı. Qarmaq geri sıçradı və İvan məhz vanna otağına düşdü, fikirləşdi ki, bəxti gətirib. Ancaq bəxti o qədər də gətirməmişdi! İvanı nəm, isti hava vurdu, kolonkada közərən kömürün işığında divardan asılmış təknə və minası büsbütün tökülüb qara ləkələrlə örtülmüş vannanı gördü. Həmin bu vannada sabunlu və əlində hamam lifi olan lüt qadın dayanmışdı. O, uzağı pis gördüyündən gözünü qıyıb, içəri soxulmuş İvana baxdı və yəqin, çox zəif işıqda yanılıb astadan sevincək dedi:

–Kiryuşa! Nə avaralanırsan! Dəli olmusan-nədir?.. Fyodor İvanoviç indicə qayıdacaq. Tez ol, itil buradan! – və əlindəki hamam lifini İvana sarı atdı.

Anlaşılmazlıq göz qabağında idi, bunda da, əlbəttə, İvan Nikolayeviç günahkardı. Ancaq o, bunu boynuna almaq istəmədi və tənə ilə: "Ax, pozğun!.." – deyib, nəyə görəsə mətbəxə girdi. Mətbəxdə heç kim yox idi, yarıqaranlıqda pilətənin üstünə on dənəyə yaxın sönmüş primus düzülmüşdü. İllərlə silinməyən toz basmış pəncərədən süzülən ay işığı vur-tut kiçik, şüşəli qutusundan bir cüt nikah şamının ucu görünən, tozun və hörümçək torunun içində unudulub qalan ikonanın asıldığı küncü xəsisliklə işıqlandırırdı. Böyük ikonanın altına balaca kağız ikona sancaqlanmışdı.

Məlum deyil, İvanın haradan ağlına gəldi, ancaq dal qapıya tərəf qaçmazdan əvvəl o, şamlardan birini və kağız ikonanı götürdü. Bayaq vanna otağında gördüyündən pərtləşərək, həyasız Kiryuşanın kimliyini və bu iyrənc qulaqlı papağın onunmu olduğunu özlüyündə aydınlaşdırmağa çalışaraq, götürdüyü əşyalarla bir yerdə, donquldana-donquldana yad mənzili tərk etdi.

Boş, cansıxıcı dalanda qaçağı tapmaq üçün şair boylandı, ancaq o heç harada gözə dəymirdi. Onda İvan əminliklə dedi:

–Əlbəttə, o, Moskva çayındadır! İrəli!

Yəqin, İvan Nikolayeviçdən soruşmaq lazım idi ki, niyə o, professorun başqa yerdə yox, məhz Moskva çayında olduğunu güman edir. Ancaq dərd orasında idi ki, soruşmağa adam yoxdu. Lənətə gəlmiş dalan tamamilə kimsəsizdi.

Çox az keçmiş İvan Nikolayeviç Moskva çayına enən mərmər pilləkənlərdə göründü.

Əynindəki paltarları soyunub cırıq, büzməli ağ köynəyin, qaytanı açılmış, ağız-burnu əyilmiş bir cüt çəkmənin böyründə eşmə çəkən xoşsifət bir saqqallıya tapşırdı. Qızışmaq üçün əl-qolunu oynadıb, suya baş vurdu. Su elə soyuq idi, az qaldı nəfəsi kəsilsin, hətta fikrindən keçdi ki, yəqin, suyun üzünə çıxa bilməyəcək. Ancaq çıxa bildi və gözləri qorxudan böyümüş halda tövşüyə-tövşüyə, fınxıra-fınxıra neft qoxuyan qara suda, əyri-üyrü xətt üzrə düzülmüş sahil fənərlərinin arasıyla üzməyə başladı.

İvan pilləkənləri dırmaşıb, paltarlarını saqqallıya tapşırdığı yerə çatanda aydın oldu ki, nəinki paltarları, saqqallının özü də yoxa çıxıb. Paltarlarını qoyduğu yerdə zolaqlı alt tumanı, cırıq köynək, şam, kağız ikona və bir qutu kibrit qalmışdı. İvan hirsindən kiməsə yumruq qıcayıb, olub-qalanı əyninə keçirdi.

Bu yerdə iki fikir onu narahat etməyə başladı: birinci, Massolitin həmişə üstündə gəzdirdiyi vəsiqəsinin itməyi, ikinci, bu görkəmdə Moskvada maneəsiz gəzə bilib-bilməyəcəyi. Hər halda, alt tumanında... Doğrusu, kimə nə dəxli, ancaq yenə sataşan, ilişən olmasa, yaxşıdır.

İvan alt tumanının qabağındakı düymələri qopartdı, fikirləşdi ki, bəlkə, onda yay şalvarına oxşaya, sonra ikonanı, şamı və kibriti götürüb öz-özünə:

– Qriboyedova! Heç şübhəsiz, oradadır, – deyərək yola düşdü.

Şəhər artıq öz gecə həyatını yaşayırdı. Kişilərin quru taxtanın, ya kisələrin üstünə sərələndiyi yük maşınları zəncirlərini cingildədə-cingildədə toz qopararaq şütüyüb keçirdi. Pəncərələrin hamısı açıq idi. Narıncı abajurlardan

işıq süzülürdü və hər pəncərədən, hər qapıdan, hər darvazadan, hər damdan, hər çardaqdan, zirzəmidən, həyətdən "Yevgeni Onegin" operasından polonezin gurultusu ətrafa yayılırdı.

İvan Nikolayeviçin əndişəsi tamamilə özünü doğrultdu: keçib-gedənlər dönüb təəssüflə onun arxasınca baxırdılar. Bu səbəbdən də qərara aldı ki, böyük küçələrdən çıxsın, tərslikdən heç cür şalvara oxşamaq istəməyən alt tuman barədə ayaqyalın adamı sorğu-suala tutacaq zəhlətökənlərin az ola biləcəyi dal küçələrlə keçib-getsin.

İvan elə də etdi və Arbat döngələrinin sirli şəbəkəsinə baş vurub, ətrafına boylana-boylana, işıqforlu dördyol ayrıclarından, səfirlik malikanələrinin yaraşıqlı darvazalarından yayınmaq üçün hərdən binaların küçə qapısında daldalana-daldalana divarların dibi ilə getməyə başladı.

Və bütün bu məşəqqətli yol boyu Tatyanaya öz sevgisindən oxuyan yoğun kişi səsini müşayiət edən orkestr ona, nədənsə, son dərəcə əzab verirdi.

V fəsil
QRİBOYEDOVDA QOPAN HƏNGAMƏ

Açıq-sarı rəngli ikimərtəbəli qədim ev bulvar dairəsində, naxışlı çuqun çəpərlə səkidən ayrılan baxımsız bağın dərinliyində yerləşirdi. Evin qarşısındakı kiçik meydança asfaltlanmışdı, qışda qarı kürüyüb təpə kimi oraya yığırdılar, yayda isə restoranın parusin örtüklü çox gözəl bir guşəsinə çevrilirdi.

Malikanəyə "Qriboyedovun evi" deyirdilər, çünki yazıçı Aleksandr Sergeyeviç Qriboyedovun xalası, guya, haçansa buranın sahibi olmuşdu. Sahibi olub-olmadığını dəqiq bilmirik. Hətta zənnimiz bizi aldatmırsa, Qriboyedovun, ümumiyyətlə, belə bir xalası olmayıb... İntəhası, ev belə adlanırdı. Üstəlik, bir Moskva gopçusu danışır ki, guya, bax, bu ikinci mərtəbədə, sütunlu dairəvi zalda görkəmli yazıçı taxtda yayxanmış həmin bu xalasına "Ağıldan bəla"dan parçalar oxuyurmuş. Bir yana qalanda, nə bilək, bəlkə də, oxuyub, bu elə də vacib deyil!

Vacib odur ki, hal-hazırda bu evin sahibi, bədbəxt Mixail Aleksandroviç Berliozun Patriarx gölünə gələnə qədər başçılıq etdiyi həmin Massolit idi.

Massolit üzvlərinin xeyir-duasıyla heç kim bu evi "Qriboyedov evi" adlandırmırdı, hamı, sadəcə, "Qriboyedov" deyirdi: "Dünən iki saat Qriboyedovda girinc olmuşam". – "Axın necə oldu?" – "Yaltaya bir aylıq putyovka qopartdım". – "Əhsən!" Yaxud: "Berliozun yanına get, o, bu gün dörddən beşə kimi Qriboyedovda qəbul eləyir..." və sair.

Massolit Qriboyedovda elə yerləşmişdi ki, ondan yaxşı və rahat təsəvvür etmək olmazdı. Qriboyedova daxil olan hər kəs ilk əvvəl istər-istəməz müxtəlif idman dərnəklərinin bildirişləri və Massolit üzvlərinin birlikdə, həmçinin tək çəkdirdiyi şəkillərlə tanış olurdu, bəzilərinin fotoşəkli ikinci mərtəbəyə qalxan pilləkənin divarından asılmışdı.

Həmin yuxarı mərtəbədə elə ilk otağın üstünə iri hərflərlə "Bağ-balıqçılıq bölməsi" yazılmışdı və qarmağa keçmiş dabanbalığı təsvir olunmuşdu.

2 №-li otağın üstündəki yazı çətin anlaşılırdı: "Birgünlük yaradıcılıq putyovkası. M.V. Podlojnıya müraciət edin".

Növbəti otağın üstünə qısa, ancaq ümumiyyətlə, anlaşılmaz bir şey yazılmışdı: "Perehqino". Sonra xalanın qoz ağacından düzəldilmiş qapılarının üstündəki yazılardan Qriboyedova təsadüfən gələn adamın gözləri alacalanırdı: "Kağız üçün növbəyə Poklevkina yazır", "Kassa", "Məzhəkə yazanların xüsusi hesablaşmaları..."

Lap aşağıdan, qapıçının yanından başlayan uzun növbəni yarıb, hər an kimlərinsə girib-çıxdığı qapının üstünə "Mənzil məsələləri" yazıldığını oxumaq olardı.

Mənzil məsələlərindən sonra yalı qalxan yapıncılı, çiyni tüfəngli bir atlının təsvir olunduğu plakat adamı uzaqdan çağırırdı. Aşağıda palma və eyvan görünürdü, eyvanda oturmuş kəkilli gənc əlində qələm, qartal baxışlarını yüksəklərə dikmişdi. Plakatın altında yazılmışdı: "Tamhəcmli yaradıcılıq ezamiyyəti – iki həftədən (hekayə-novella) bir ilə qədər (roman-trilogiya). Yalta, Suuk-Su, Borovoye, Tsixidziri, Maxindjauri, Leninqrad (Qış sarayı)".

Bu qapının ağzında da növbə idi, ancaq elə də yox, cəmi yüz əlli nəfər.

Sonra Qriboyedov evinin enən-qalxan, əyri-üyrü dəhlizlərinə uyğun olaraq, "Massolitin idarə heyəti", "Kassalar №2,3,4,5", "Redaksiya heyəti", "Massolitinsədri", "Bilyard otağı", müxtəlif yardımçı idarələr və ən nəhayət, xalanın öz dahi bacısı oğlunun komediyasından ləzzət aldığı sütunlu zal gəlirdi.

Qriboyedova qədəm basan hər bir kəs, əlbəttə, əgər küt deyildisə, bu xoşbəxtlərin – Massolit üzvlərinin necə yaxşı yaşadıqlarını dərhal başa düşürdü və paxıllıq içini didib parçalamağa başlayırdı. Niyə ona istedad bəxş etmədiyi üçün göylərə acı töhmətlər yağdırırdı, istedad yoxdusa, təbii ki, bütün Moskvada məşhur olan Massolitin bahalı dəri qoxusu verən, kənarları qızılı haşiyəli qəhvəyi üzvlük vəsiqəsi haqqında heç düşünməyə dəyməzdi.

Paxıllığa kimsə haqq qazandıra bilərmi? Bu, çox pis xüsusiyyətdir, ancaq hər halda, gələnləri də başa düşmək lazımdır. Axı onun üst mərtəbədə gördükləri hələ heç nədir. Xalanın evinin alt mərtəbəsi başdan-başa restoran idi, özü də

necə restoran! Çox düzgün olaraq Moskvada o ən yaxşı restoran sayılırdı. Yalnız ona görə yox ki, tağlı tavanını assuriya yallı bənövşəyi atlar bəzəyən böyük zalda yerləşirdi; yalnız ona görə yox ki, hər stola saçaqlı örtüyü olan lampa qoyulmuşdu; yalnız ona görə yox ki, hər yoldan ötən buraya soxula bilməzdi, həm də ona görə ki, Qriboyedovdakı ərzağın keyfiyyəti Moskvanın istənilən restoranını üstələyirdi və bu ərzaq heç də baha olmurdu, uyğun qiymətə verilirdi.

Ona görə bu doğru sətirlərin müəllifinin bir dəfə Qriboyedovun çuqun çəpəri yanında eşitdiyi söhbətdə də təəccüblü heç nə yoxdur:

–Amvrosi, bu gün harada şam eləyəcəksən?

–Bu nə sualdır, əzizim Foka, əlbəttə, burada! Arçibald Arçibaldoviç bu gün qulağıma pıçıldadı ki, məxsusi hazırlanmış soyutma suf balığı olacaq. Əla şeydir!

–Yaşamağı bacarırsan, Amvrosi! – arıq, üzgün, boynundan karbunkul asılmış Foka köks ötürərək qırmızı dodaqlı, qızılı saçlı, yumru yanaqlı yekəpər şair Amvrosiyə cavab verdi.

–Heç bir xüsusi bacarığım yoxdur, – Amvrosi etiraz etdi, – sadəcə, insan kimi yaşamaq istəyim var. Foka, sənin deməyindən belə çıxır ki, suf balığını "Kolizey"də də tapmaq olar. Ancaq "Kolizey'də suf balığının bir porsiyası on üç manat on beş qəpikdir, bizdə isə beş manat əlli qəpik! Bundan başqa, "Kolizey"dəki üç gündən qalma suf balığıdır və heç kim sənə zəmanət verə bilməz ki, Teatr döngəsindən soxulmuş ilk rastına çıxan gənc üzüm salxımını sifətinə çırpmayacaq. Yox, mən "Kolizey"ə getməyin qəti əleyhinəyəm, – dadlı yeməklərin vurğunu Amvrosinin səsi bulvarı başına götürmüşdü. – Məni dilə tutma, Foka!

–Səni dilə tutmuram, Amvrosi, – Foka mızıldadı. – Evdə də yemək olar.

–Ay rəhmətliyin oğlu, – Amvrosi elə dediyini deyirdi, – təsəvvür eləyirəm, ümumi mətbəxdə, adi qazanda soyutma suf balığını arvadın necə bişirər! Hi-hi-hi!.. Orevuar[14], Foka! – və oxuya-oxuya Amvrosi özünü parusin örtüklü eyvana saldı.

[14]Orevuar – əlvida (fr.)

Ay-hay... Doğrudur, olub, olub!.. Məşhur Qriboyedov yaşlı moskvalıların yaxşı yadındadır! Məxsusi hazırlanmış soyutma suf balığı nəmənədir ki! Heç nədir, əzizim Amvrosi! Bəs çökə balığı, gümüş qazanda bişən, içinə xərçəng boynu və təzə kürü doldurulmuş çökə balığı? Bəs piyalədə şampinyon püresiylə soyutma yumurta? Bəs qaratoyuğun döş əti xoşunuza gəlmirdi? Yerdombalanıyla? Genuyasayağı hazırlanmış bildirçin? Bir manat əlli qəpik! Hələ caz, hələ nəzakətli xidmət! Bəs iyulda, bütün ailə bağda, siz isə ədəbiyyatla bağlı vacib işlərə görə şəhərdən gedə bilmirsiniz, – eyvana sarmaşan qıvrım-qıvrım tənəyin kölgəsində, tərtəmiz süfrədə qızıl kimi parıldayan bir boşqab prentanyer şorbası? Yadınızdamı, Amvrosi? Axı soruşmaq nəyə lazım! Dodağınızdan görürəm ki, yadınızdadır. Sizin alabalıq, suf balığı nəmənədir ki! Bəs cüllüt, meşəcüllütü öz mövsümündə, bəs bildirçin? Boğazda qaynayan narzan?! Daha yetər, oxucum, fikrin yayınır! Arxamca!..

Berliozun Patriarx gölünün kənarında öldüyü həmin axşam saat on birin yarısında, Qriboyedovun üst mərtəbəsində ancaq bir otağın işığı yanırdı və orada iclasa

yığılan on iki ədəbiyyatçı Mixail Aleksandroviçi gözləməkdən yorulmuşdu.

Stulda, stolda, hətta otağın iki pəncərəsinin qabağında oturan Massolitin idarə heyətinin üzvləri bürküdən əməllicə əziyyət çəkirdi. Açıq pəncərədən bir udum sərin hava da gəlmirdi. Asfaltın gün ərzində yığdığı istini Moskva geri qaytarırdı və aydın idi ki, gecə rahatlıq gətirməyəcək. Xalanın evinin indi restoranın mətbəxi olan zirzəmisindən soğan qoxusu gəlirdi, hamı susamışdı, hamı əsəbi və hirsli idi.

Səliqəli geyinmiş, gözündən heç nə yayınmayan, eyni zamanda, hara baxdığı sezilməyən, sakit bir adam olan belletrist Beskudnikov saatını çıxartdı. Əqrəblər on birə yaxınlaşırdı. Beskudnikov barmağını siferblata toxundurub, onu qonşusuna, stolda oturub darıxdığından rezin altlı sarı ayaqqabılarını yellədən şair Dvubratskiyə göstərdi.

–Gör də, – Dvubratski donquldandı.

–Yəqin, oğlan Klyazmada ilişib qalıb, – moskvalı tacir ailəsində doğulub uşaqlıqdan yetim qalan, sonralar "Şturman Jorj" ləqəbi ilə yazıçılığa başlayıb, dəniz döyüşlərindən

hekayələr yazan Nastasya Lukinişna Nepremenova qalın səslə cavab verdi.

–Müsaidənizlə! – məşhur estrada məzhəkələrinin müəllifi Zaqrivov cəsarətlə dilləndi. – Burada bişməkdənsə, elə mən də eyvanda ləzzətlə çay içərdim. Axı iclas saat ona təyin olunub!

İndi Klyazmanın yeri məlum, – ədəbiyyatçıların bağ evlərinin yerləşdiyi Klyazmadakı Perelıqino qəsəbəsinin hamının ağrıyan yeri olduğunu bildiyindən, Şturman Jorj oturanları qıcıqlandırdı. – Yəqin, indi bülbüllər də cəh-cəh vurur. Mən nəyə görəsə şəhər kənarında həmişə yaxşı işləyirəm, xüsusən də yazda.

–Üçüncü ildir pul ödəyirəm ki, bazedov xəstəliyinə tutulmuş arvadımı bu cənnətə yollayam, di gəl, üfüqdə heç nə görünmür, – novellaçı İeronim Poprixin acı-acı dilləndi.

–Gərək bəxtin ola, – pəncərənin qabağında oturmuş Ababkov söz atdı.

Şturman Jorjun xırda gözlərində sevinc qığılcımları göründü və səsini yumşaldaraq dedi:

–Paxıllıq eləmək lazım deyil, yoldaşlar. Vur-tut iyirmi iki bağ evi var, yeddisi də hələ tikilir, biz isə Massolitdə üç min nəfərik.

–Üç min on bir, – küncdən kimsə düzəliş verdi.

–Bax, görürsünüz, – Şturman davam elədi,– neyləyəsən? Təbii ki, bağ evlərini ən istedadlılarımız alıb...

–Başda oturanlar! – ssenariçi Qluxaryov onun sözünü kəsdi.

Beskudnikov yalandan əsnəyib otaqdan çıxdı.

–Perehqinoda tək canına beş otağa yiyələnib, – Qluxaryov onun arxasınca dedi.

–Lavroviç altı otağa, – Deniskin qışqırdı, – yemək otağına da palıd ağacından üzlük vurulub!

–Eh, indi məsələ bunda deyil, – Ababkov zarıdı, – məsələ bundadır ki, saat on ikinin yarısıdır.

Hay-küy qalxdı, qiyama oxşar bir şey yetişirdi. Başladılar mənfur Perelıqinoya zəng vurmağa, başqa bağa, Lavroviçin bağına düşdülər, xəbər tutdular ki, Lavroviç çaya gedib, bu da qanlarını lap qaraltdı. Hər ehtimala qarşı 930

№-li ədəbiyyat komissiyasına zəng etdilər və əlbəttə, orada heç kimi tapmadılar.

–O, zəng də vura bilərdi! – Deniskin, Qluxaryov və Kvant qışqırışdılar.

Ax, nahaq da qışqırırdılar: Mixail Aleksandroviç heç yerə zəng vura bilməzdi. Qriboyedovdan çox-çox uzaqlarda, lampaların gur işıq saçdığı nəhəng zalda, bir az əvvəl hələ Mixail Aleksandroviç adlanan şəxsdən qalan şeylər üç sink stola qoyulmuşdu.

Birinciyə – qolları və döş qəfəsi sınmış, çılpaq, qanı qurumuş bədən, o birisinə – qabaq dişləri tökülmüş, gur işığın qamaşdırmadığı donuq gözlü baş, üçüncüyə isə bir yığın cır-cındır.

Başı bədənindən ayrılmış cəsədin yanında məhkəmə-tibb professoru, patoloqoanatom, onun prozektoru, istintaq müvəkkilləri və xəstə arvadının yanından çağırılmış, Mixail Aleksandroviç Berliozun Massolitdəki müavini – ədəbiyyatçı Jeldıbin dayanmışdı.

Jeldıbinin arxasınca gələn maşın ilk növbədə istintaq müvəkkilləriylə birlikdə onu ölənin mənzilinə apardı

(təxminən, gecəyarısı olardı), Berliozun kağızlarını möhürləyəndən sonra hamılıqla meyitxanaya getdilər.

İndi mərhumun yanında dayananlar məsləhətləşirdilər ki, necə etsələr yaxşı olar: kəsilmiş başı boyuna tiksinlər, yoxsa bədəni Qriboyedov zalına qoyub, sadəcə, mərhumun çənəsinə qədər örtük çəksinlər?

Bəli, Mixail Aleksandroviç heç yerə zəng eləyə bilməzdi və Deniskin, Qluxaryov, Kvantla Beskudnikov nahaqca özlərindən çıxıb qışqırırdılar. Düz gecəyarısı on iki ədəbiyyatçı hamılıqla üst mərtəbədən restorana düşdü. Burada yenə öz aralarında Mixail Aleksandroviçin qarasınca danışdılar: eyvandakı bütün stollar artıq tutulmuşdu və bu gözəl, ancaq bürkülü zallarda şam eləyəsi oldular.

Və düz gecəyarısı zalların birində nəsə guruldadı, cingildədi, səpələnib dağıldı. O saat da nazik kişi səsi musiqi sədaları altında bərkdən qışqırdı: "Alliluyyaü". Bu, çalmağa başlayan məşhur Qriboyedov cazı idi. Tər basmış sifətlər, sanki, işıqlandı, tavanda təsvir olunmuş atlar, elə bil, canlandı, lampaların işığı, sanki, artdı və birdən zənciri

qırıblarmış kimi hər iki zaldakılar rəqs eləməyə başladılar, onların arxasınca da eyvandakılar rəqsə qoşuldular.

Qluxaryov şairə Tamara Polumesyaçla oynayırdı, Kvant oynayırdı, romançı Jukolov sarı paltarlı bir kinoaktrisa ilə oynayırdı. Draqunski, Cerdakçidə oynayırdı, balaca Deniskin nəhəng Şturman Jorjla, gözəl-göyçək memar Şemeykina-Qall onu bərk-bərk qucaqlayan ağ kətan şalvarlı yad bir adamla oynayırdı. Özləri də, dəvət olunmuş moskvalılarla, gəlmələrlə oynayırdılar, kranştatlı yazıçı İohann, rostovlu, deyəsən, rejissordu, yanağı bənövşəyi dəmrovlu Vıtya Kuftik adlı birisi, Massolitin poeziya bölməsinin görkəmli nümayəndələri, daha dəqiqi, Pavianov, Boqoxulski, Sladki, Şpiçkin və Adelfina Buzdyak, saçlarını boks vurdurmuş, çiyinlərinə pambıq astar qoydurmuş, hansı sənət sahibi olduqları bilinməyən cavan oğlanlar oynayırdılar; saqqalına göy soğan yapışan qoca bir kişi əyninə bürüşmüş narıncı ipək paltar geyinmiş solğun bənizli qanmış qızla oynayırdı.

Ofisiantlar tər tökə-tökə pivə dolu parçları başları üstünə qaldırıb xırıltı və nifrətlə qışqırırdılar: "Bağışlayın,

vətəndaş!" Haradansa səsgücləndiriciylə əmr verirdilər: "Bir dənə Karski! İki Zubrik! Ağalar üçün Flyaka!" Nazik səs artıq oxumurdu, ulayırdı: "Alliluyya!" Cazdakı qızılı zinclərin səsi qabyuyanların mətbəxdə üzüaşağı axıtdığı boşqabların hay-küyünü hərdən batırırdı. Bir sözlə, cəhənnəm.

Və gecəyarısı həmin bu cəhənnəmdə əyninə frak geyinmiş, xəncər kimi sivri saqqallı qaragöz bir kişi qəfil eyvana çıxdı və şahanə baxışlarla öz səltənətini süzdü. Mistiklər deyərdilər, deyərdilər ki, bir vaxtlar qəşəng kişilər frak geyinməzdilər, bellərinə enli dəri qurşaq bağlayardılar, qurşaqdan tapançaların dəstəyi çıxardı, zil qara saçlarını isə al-qırmızı ipəklə çəkərdilər və üstündə kəllə şəkli olan, tabut kimi qara bayraq dalğalanan yelkənli gəmi onun komandası altında Qəraib dənizində üzərdi.

Ancaq yox, yox! Adamı yoldan çıxaran mistiklər özlərindən uydururlar, dünyada Qəraib deyilən dəniz yoxdur, orada cəsur dəniz quldurları üzmür və onları korvet qovmur, top mərmisinin tüstüsü dalğaların üstünə sərilmir. Heç nə yoxdur, heç olmayıb da! Budur, qurumuş cökə ağacı

var, dəmir çəpər var və onun arxasında bulvar... Vazada buz əriyir, qonşu stolda kiminsə qan sağılmış hirsli gözləri görünür və dəhşət, dəhşət... Ah, mənim allahlarım, mənim allahlarım, zəhər verin mənə, zəhər!

Və birdən stol arxasından səs qopdu: "Berlioz!" Dərhal caz susdu, elə bil, kimsə ona yumruğunu çırpdı. "Nə, nə, nə, nə?!" – "Berlioz!!!" Yerindən sıçrayan kim, qışqıran kim...

Bəli, Mixail Aleksandroviç haqqında dəhşətli xəbər hamını sarsıtdı. Kimsə vurnuxaraq qışqırırdı ki, gərək elə indi, elə buradaca kollektiv teleqram yazıb təcili yollasınlar.

Ancaq soruşuruq: nə teleqram və hara? Və nə üçün yollamaq? Doğrudan, axı hara? Yastılanmış peysərini indi prozektorun rezin əlcəkli əllərinin sıxdığı, boynunu professorun iynələdiyi adamın hansısa teleqram nəyinə lazımdır? Ölüb o və heç bir teleqram ona lazım deyil. Hər şey qurtarıb, teleqrafı boş yerə yükləməyək.

Bəli, ölüb, ölüb... Ancaq axı biz sağıq!

Bəli, hamı sarsılmışdı, ancaq yavaş-yavaş həyəcan səngidi, kimlərsə öz stoluna qayıtdı – əvvəl xəlvətcə, sonra açıq-aşkar – arağını içib üstündən ağzına yemək aldı.

Doğrudan da, toyuq kotleti heyifmi olsun? Mixail Aleksandroviçə necə köməyimiz dəyə bilər ki? Ac qalmaqlamı? Axı biz sağıq!

Təbii ki, royalın qapağı örtüldü, cazdakılar dağılışdı, bir neçə jurnalist nekroloq yazmaq üçün öz redaksiyasına getdi. Jeldıbinin meyitxanadan gəldiyi məlum oldu. O, mərhumun yuxarıdakı kabinetində əyləşdi. Həmin an da söz yayıldı ki, Berliozu elə o əvəz edəcək. Jeldıbin idarə heyətinin on iki üzvünün hamısını restorandan öz yanına çağırdı və Berliozun kabinetində keçirilən təcili iclasda sütunlu Qriboyedov zalının hazırlanması, cəsədin meyitxanadan bu zala gətirilməsi, oraya girişin açılması və bu kədərli hadisəylə bağlı başqa təxirəsalınmaz məsələlər müzakirə olundu.

Restoran isə yenidən həmişəki gecə həyatını yaşayırdı və bağlanana qədər, yəni səhər saat dördə qədər də yaşayacaqdı, əgər restorandakıları Berliozun ölüm xəbərindən daha artıq heyrətə salan tamamilə qeyri-adi bir hadisə baş verməsəydi.

İlk olaraq Qriboyedov evinin qapısı ağzında gözləyən faytonçular həyəcanlandılar. Onlardan biri qozlada dikəlib qışqırdı:

– Boy! Siz bir buna baxın!

Bu sözlərin arxasınca çuqun çəpərin yanında işartı peyda olub, eyvana yaxınlaşmağa başladı. Stol arxasında oturanlar dikəlib, diqqətlə baxdılar ki, işıqla bərabər restorana tərəf ağ kabus da addımlayır. Kabus sarmaşıqlı girişə çatanda hamı çökə balığının tikəsi çəngəldə, gözləri bərələ quruyub qalmışdı. Bu vaxt papiros çəkmək üçün restoranın asılqan otağından həyətə çıxan qapıçı papirosunu tapdalayıb kabusa tərəf getdi ki, onu restorana girməyə qoymasın, ancaq nəyə görəsə bunu etmədi, səfeh-səfeh gülümsəyərək dayandı.

Və kabus sarmaşıqlı girişdən keçib, maneəsiz-filansız eyvana girdi. Bu vaxt hamı gördü ki, o, kabus-zad deyil, tanınmış şair İvan Nikolayeviç Bezdomnıdır.

O, ayaqyalın və zolaqlı alt tumanında idi; əynindəki ağımsov köynək cırıq-cırıq olmuşdu; yaxasına ingilis sancağıyla kağız parçası – hansısa müqəddəsin solğun ikona

təsviri bənd edilmişdi. İvan Nikolayeviç əlində yanan nikah şamı tutmuşdu. Onun sağ yanağı təzəcə sıyrılmışdı. Eyvana ölçüyəgəlməz dərinlikdə sükut çökdü. Ofisiantlardan birinin əlindəki parçdan pivə axıb döşəməyə tökülürdü.

Şair şamı başının üstünə qaldırıb bərkdən dedi:

–Salam, dostlar! – sonra yaxındakı stolun altına baxıb qüssəylə dilləndi: – Yox, o, burada deyil!

İki səs eşidildi. Yoğun kişi səsi insafsızcasına dedi:

–Məsələ məlumdur. İçkidən sayıqlayır.

Qorxmuş qadın səsi isə:

–Necə olub ki, milis onu bu görkəmdə küçələrdən keçməyə qoyub? – dedi.

İvan Nikolayeviç bunu eşidib cavab verdi:

–İki dəfə saxlamaq istədilər, Skatertnidə, bir də burada, Bronnıda. Hasardan aşdım, görürsünüz də, yanağım sıyrılıb! – O, şamı qaldırıb qışqırdı: – Ədəbiyyatçı qardaşlar! (Batmış səsi gücləndi, nəfəsi od püskürdü.) Hamınız məni eşidin! O gəlib! Onu təcili tutun, yoxsa çox böyük bədbəxtliklər törədəcək!

–Nə? Nə? O nə dedi? Kim gəlib? – hər tərəfdən səslər eşidildi.

–Məsləhətçi! – İvan cavab verdi, – bu məsləhətçi indicə Patriarx gölündə Mişa Berliozu öldürdü.

Bu yerdə zaldakılar eyvana tökülüşdü, hamı İvanın əlindəki şamın işığına yığışdı.

–Üzr istəyirəm, üzr istəyirəm, dəqiq deyin, – İvan Nikolayeviçin qulağının dibində asta və nəzakətli bir səs eşidildi, – necə axı öldürüb? Kim öldürüb?

–Əcnəbi məsləhətçi, professor və şpion! – İvan döyükərək cavab verdi.

–Bəs soyadı necədir? – astadan qulağına pıçıldadılar.

–Bilsəydim, nə vardı ki! – İvan kədərli halda qışqırdı.

–Soyadını vizit kartında görə bilmədim... Təkcə birinci "V" hərfi yadımdadır, soyadı "V" ilə başlayır! Axı "V" ilə hansı soyad başlayır? – İvan alnını ovxalayıb öz-özündən soruşdu və birdən mızıldadı: –Ve, ve, ve! Va...va...Vaşner? Vaqner? Vayner? Veqner? Vinter? – İvanın saçı həyəcandan vız durmuşdu.

–Vulf? – bir qadın yazıq-yazıq dilləndi.

İvan hirsləndi.

–Axmaq! – Bu sözü deyən qadını gözləriylə axtarıb qışqırdı. – Vulfun nə dəxli var? Vulfun heç bir günahı yoxdur! Vo, vo... Yox! Bu cür xatırlaya bilmərəm! Bəs belə, vətəndaşlar: tez milisə zəng vurun, professoru tutmaq üçün pulemyotlu beş motosiklet göndərsinlər. Həm də demək yadınızdan çıxmasın, onun yanında ikisi də var: uzun, dama-dama paltarlı... gözlüyü çatlayıb... bir də kök qara pişik. Mən isə hələ Qriboyedovu axtaracağam... Hiss eləyirəm ki, o buradadır!

İvan əsəbilik keçirməyə başladı: ətrafındakıları itələdi, şamı yellədib üstünü muma batırdı, stolların altına baxdı. Bu vaxt kimsə dedi: "Həkim çağırın!" – və kiminsə buynuz sağanaqlı eynəyi, tərtəmiz qırxılmış ətli, mehriban kök sifəti İvanın qarşısında peyda oldu.

–Yoldaş Bezdomnı, – bu sifət təmtəraqlı səslə dedi, – sakitolun! Hamımızın sevimlisi Mixail Aleksandroviçin... yox, sadəcə, Mişa Berliozun ölümü sizə pis təsir edib. Hamımız bunu gözəl başa düşürük. Sizə

sakitlik lazımdır. İndi yoldaşlar sizi yatmağa aparar və hər şey yadınızdan çıxar...

–Sən, – İvan dişini qıcırdıb onun sözünü kəsdi, – başa düşürsən ki, professoru tutmaq lazımdır? Nə çərənləyib zəhləmi tökürsən?! Gic!

–Bağışlayın, yoldaş Bezdomnı, – bu işə baş qoşduğuna görə artıq peşman olmuş həmin şəxs pörtüb geri çəkildi.

–Yox, kimi də olsa, səni bağışlamaram, – İvan Nikolayeviç kinli-kinli dedi.

Sifəti əsəbdən əyildi, şamı tələsik sağ əlindən sol əlinə keçirib, qolunu gendən hərlədi və mərhəmətli şəxsin qulağının dibinə ilişdirdi.

Bu yerdə başa düşdülər ki, İvanı tutmaq lazımdır və onun üstünə tökülüşdülər. Şam söndü, yerə düşən eynək bir anda tapdandı. İvan hətta bulvardakıların diqqətini çəkən dəhşətli bir nərilti qoparıb müdafiə olunmağa başladı. Stolların üstündən tökülən qab-qacaq cingildədi, qadınlar qışqırışdı.

Ofisiantlar şairi dəsmalla bağladıqları vaxt soyunub-geyinmə otağında yelkənli gəmi komandiri ilə qapıçı arasında söhbət gedirdi.

–Sən görmədin ki, o, alt tumanındadır? – dəniz qulduru onun üstünə bozardı.

–Axı, Arçibald Arçibaldoviç, – qapıçı qorxa-qorxa cavab verdi, – əgər onlar Massolitin üzvüdürlərsə, mən necə buraxmaya bilərəm?

–Sən görmədin ki, o, alt tumanındadır? – dəniz qulduru təkrar etdi.

–Bağışlayın, Arçibald Arçibaldoviç, – qapıçı qızardı, – mən nə eləyə bilərəm? Başa düşürəm ki, eyvanda xanımlar əyləşib...

–Xanımların bu işə dəxli yoxdur, xanımların nə vecinə, – dəniz qulduru qapıçını gözləriylə yeyirdi, – ancaq milisin dəxli var! Adam alt tuman-köynəyində Moskvanın küçələriylə vur-tut bir halda gedə bilər, onda da milisin müşayiətilə və yalnız bir yerə – milis şöbəsinə! Sən isə əgər qapıçısansa, bilməlisən ki, bu cür adamı görəndə bir an belə gecikmədən fit çalmalısan. Eşidirsən?

Ağlı başından çıxmış qapıçı eyvandan gurultu, qab-qacaq səsi, qadınların qışqırtısını eşidirdi.

–Buna görə indi sənə nə cəza verək? – dəniz qulduru soruşdu.

Qapıçının sifəti yatalağa tutulmuş xəstənin sifəti kimi bomboz oldu, gözləri ölgünləşdi. Ona elə gəldi ki, dəniz quldurunun ortadan ayrılaraq daranmış qara saçları alovlanan ipək kimi işıldadı. Nişastalı yaxalı, frak yoxa çıxıb, qurşağından tapançanın dəstəyi göründü. Qapıçı özünü gəminin for-marsa-reyindən[15] asılmış təsəvvür etdi. Özünün bayıra çıxmış dilini, çiyninə düşmüş cansız başını öz gözləriylə gördü, hətta gəmiyə çırpılan dalğaların səsini eşitdi. Qapıçının dizləri qatlandı. Bu yerdə dəniz quldurunun ona rəhmi gəldi və sərt baxışlarını yumşaltdı.

–Bax ha, Nikolay! Axırıncı dəfə olsun. Restoranda boş yerə bizə belə qapıçı lazım deyil. Get kilsədə qarovulçu işlə. – Bunları deyib, komandir cəld, dəqiq və aydın əmrlər verdi:

[15]For-marsa-rey – gəminin burnu tərəfdən birinci dorağacındakı ikinci yelkənin asılması üçün üfüqi tir

– Bufetdən Panteleyi. Milisioneri. Protokol. Maşın. Psixiatriyaya. – Və əlavə etdi: – Fit ver!

On beş dəqiqə keçmiş təkcə restoranda yox, hətta bulvarda, pəncərəsi restoranın bağına baxan evlərdə son dərəcə heyrətlənmiş adamlar Panteleyin, qapıçının, milisin, ofisiantın və şair Ryuxinin kukla kimi bələnmiş bir gənci Qriboyedovun qapısından çıxardığını gördülər. Bu gənc göz yaşlarından boğula-boğula məhz Ryuxinə tüpürməyə çalışaraq bağırırdı:

–Alçaq!

Sifətindən zəhrimar yağan sürücü motoru işə saldı. Yaxınlıqdakı faytonçu atı cuşa gətirmək üçün yasəmən rəngli cilovu onun sağrısına vuraraq qışqırdı:

–Cıdır atım indi olaydı da! Mən onunla ruhi xəstəxanaya adam aparmışam!

Bu qeyri-adi hadisəni müzakirə edən adamların hay-həşiri ətrafı başına götürmüşdü; bir sözlə, hamının diqqətini çəkən bu murdar, iyrənc qalmaqal yalnız yük maşını Qriboyedovun qapısından bədbəxt İvan Nikolayeviçi,

milisioneri, Panteleyi və Ryuxini götürüb aparandan sonra sona çatdı.

VI fəsil
ŞİZOFRENİYA – BELƏCƏ DƏ DEMİŞDİLƏR

Moskva ətrafında, çay kənarında bu yaxınlarda tikilmiş məşhur psixiatriya klinikasının qəbul otağına ağ xalatlı, sivri saqqallı kişi daxil olanda gecə saat ikinin yarısı idi. Üç sanitar divanda oturan İvan Nikolayeviçdən gözünü çəkmirdi. Çox həyəcanlanmış şair Ryuxin də buradaydı. İvan Nikolayeviçin bağlandığı dəsmallar divanın üstünə atılmışdı. Onun əl-qolu açıq idi.

İçəri girən adamı görəndə Ryuxinin sifəti ağardı və öskürüb, çəkinə-çəkinə dedi:

–Salam, həkim.

Həkim Ryuxinə təzim etdi, ancaq gözü İvan Nikolayeviçdə idi.

O, qaşlarını çatıb acıqlı-acıqlı oturmuşdu, həkimi görəndə heç qımıldanmadı da.

–Həkim, – Ryuxin qorxa-qorxa İvan Nikolayeviçə baxıb, nədənsə, sirli-sirli pıçıldadı, – bu, tanınmış şair İvan Bezdomnıdır... bilirsiniz... biz içkidən əmələ gələn qarabasmadan ehtiyatlanırıq...

–Çox içirdi? – həkim dilucu soruşdu.

–Yox, içirdi, ancaq daha elə də yox ki...

–İçəndə gözünə tarakanlar, siçovullar, şeytanlar, küçə itləri görünmürdü ki, onları tutmaq üçün cummurdu ki?

–Yox, – Ryuxin diksindi, – mən onu dünən, bir də bu gün səhər görmüşdüm. O, tamamilə sağlam idi...

–Bəs niyə alt tuman-köynəyindədir? Yataqdan tutub gətirmisiniz?

–Həkim, o, restorana bu görkəmdə gəlib...

–Aha, aha, – həkim məmnunluqla dedi, – bəs üzü niyə cızılıb? Kiminləsə dalaşıb?

–Hasardan yıxılıb, sonra restoranda birini vurdu... yenə kimlərisə vurdu...

–Belə, belə, belə, – həkim İvana tərəf döndü, – salam!

–Salam, ziyankar! – İvan bərkdən acıqlı-acıqlı cavab verdi.

Ryuxin o qədər pərt oldu ki, başını qaldırıb nəzakətli həkimin üzünə baxmağa cəsarət etmədi. Ancaq o heç incimədi, adət elədiyi cəld hərəkətlə eynəyini çıxardı, xalatının ətəyini qaldırıb şalvarının dal cibinə qoydu, sonra İvandan soruşdu:

–Sizin neçə yaşınız var?

–Hamınız başımdan rədd olun! – İvan kobudcasına cavab verib, üzünü yana çevirdi.

–Siz axı niyə hirslənirsiniz? Məgər mən sizə xoşagəlməz bir söz dedim?

–Mənim iyirmi üç yaşım var, – İvan əsəbi halda dilləndi, – sizin hamınızdan şikayət edəcəyəm. Ən əsas da səndən, iylənmiş! – O, üzünü Ryuxinə tutdu.

–Bəs nəyə görə şikayət etmək istəyirsiniz?

–Çünki siz məni, sağlam adamı tutub güclə dəlixanaya gətirmisiniz! – İvan qəzəblə cavab verdi.

Bu yerdə Ryuxin diqqətlə İvana baxıb üşəndi: onun gözlərində dəlilikdən əsər-əlamət yoxdu. Qriboyedovdakı bulanıq gözlər əvvəlki kimi aydın idi.

"Vay dədə! – Ryuxin qorxa-qorxa düşündü, – o, əməlli-başlı normal adamdır. İşə bir bax! Doğrudan, axı biz onu niyə bura gətirmişik? Normal adamdır, təkcə sifəti cızılıb..."

–Siz, – həkim təkayaqlı ağ kətildə oturub sakitcə dedi, – dəlixanada deyilsiniz, klinikadasınız, əgər ehtiyac olmasa, sizi burada heç kim saxlamayacaq.

İvan Nikolayeviç onu inamsız-inamsız süzdü, ancaq bununla belə, donquldandı:

–Allaha şükür! Heç olmasa, giclərin içində bir normal adam tapıldı, giclərin də ən birincisi zırrama və fərsiz Saşkadır!

–Bu fərsiz Saşka kimdir? – həkim maraqlandı.

–Budur, bax, Ryuxin! – İvan çirkli barmağını Ryuxinə tuşladı.

Ryuxin hirsindən yanıb-yaxıldı.

"Halına yandığım üçün, – acı-acı düşündü, – bu da mənim sağolum! Doğrudan, elə yaramazın yekəsiymiş!"

–Öz psixologiyasına görə tipik qolçomaqdır, – İvan Nikolayeviç, görünür, Ryuxini ifşa etmək fikrinə düşmüşdü, – özü də proletar cildinə girmiş qolçomaqdır. Siz bir onun mənasız sifətinə baxın və bayramlara həsr etdiyi gurultulu şeirlərlə müqayisə edin! He-he-he... "Yandırın!" və "dalğalandırın", ancaq siz onun öz içində nə düşündüyünü bilsəniz, dəhşətə gələrsiniz! – İvan Nikolayeviç pis-pis güldü.

Ryuxin ağır-ağır nəfəs alırdı, qızarmışdı və bircə onu fikirləşirdi ki, qoynunda ilan bəsləyib, demə, əslində, kinli düşmənin qeydinə qalıb. İndi isə başqa əlac yoxdu: ruhi xəstəylə söyüşməyəcəkdi ki?!

–Bəs sizi niyə məhz buraya gətiriblər? – həkim Bezdomnıya diqqətlə qulaq asıb soruşdu.

–Bu sarsaqları görüm lənətə gəlsinlər! Tutub cırcındırla sarıyıb, yük maşınına basdılar!

–İcazənizlə sizdən soruşum, niyə restorana alt paltarında gəlmisiniz?

–Burada təəccüblü heç nə yoxdur, – İvan cavab verdi, – Moskva çayında çimməyə getmişdim, paltarlarımı çırpışdırdılar, bircə bu zibil qalmışdı! Moskvada çılpaq gəzməyəcəkdim ha! Olanı geyindim, çünki Qriboyedov restoranına tələsirdim.

Həkim sual dolu baxışlarını Ryuxinə dikdi, o isə qaşqabaqlı halda mızıldadı:

–Restoran belə adlanır.

–Aha, – həkim dedi, – niyə belə tələsirdiniz? Hansısa işgüzar görüşünüz var idi?

– Məsləhətçini tuturdum, – İvan Nikolayeviç səksəkəylə döyükdü.

–Hansı məsləhətçini?

–Siz Berliozu tanıyırsınız? – İvan mənalı-mənalı soruşdu.

–Bəstəkarı deyirsiniz?

İvan dilxor oldu.

–Bəstəkar nədir? Hə, bildim, amma yox! Bəstəkarla Mişa Berliozun soyadları eynidir!

Ryuxin danışmaq istəmirdi, ancaq izah eləyəsi oldu:

–Massolitin katibi Berlioz bu gün axşam Patriarx gölünün kənarında tramvayın altına düşüb.

–Bilmədiyin şeyi danışma! – İvan Ryuxinə acıqlandı, – orada sən yox, mən olmuşam! O, qəsdən Berliozu tramvayın altına saldı!

–İtələdi?

–"İtələmək" nədir? – hamının qanmazlığı İvanı lap əsəbiləşdirdi.– Beləsinə itələmək də lazım deyil! O, elə hoqqalar çıxarır, gəl görəsən! Berliozun tramvayın altına düşəcəyini o, əvvəlcədən bilirdi!

–Bəs sizdən başqa məsləhətçini görən olub?

–Bədbəxtlikdən, ancaq mənimlə Berlioz görüb.

–Belə. Bu qatili tutmaq üçün nə kimi tədbir gördünüz? – bu yerdə həkim kənardakı stolun arxasında oturan ağ xalatlı qadına sarı baxdı. Qadın bir vərəq çıxarıb, sütunlardakı boş yerləri doldurmağa başladı.

–Tədbir deyəndə... mətbəxdən şamı götürdüm...

–Bunu? – həkim qadının oturduğu stolun üstündəki ikonanın böyrünə qoyulan sınıq şamı barmağıyla göstərdi.

–Elə onu və ...

–Bəs ikona nəyə lazımdır?

–Hə, ikona... – İvan qızardı, – hər şeydən çox elə ikonadan qorxdu, – yenə barmağını Ryuxinə tuşladı, – məsələ belədir ki, o, məsləhətçi, o, sözün düzü... cin-şeytanla oturub-durur... onu elə-belə tutmaq olmaz.

Sanitarlar, nədənsə, farağat durub, gözlərini İvandan çəkmirdilər.

–Hə, – İvan sözünə davam etdi, – cin-şeytanla oturub-durur! Bu, danılmaz faktdır. O, şəxsən Ponti Pilatla söhbət eləyib. Mənə belə baxmaq lazım deyil! Düz deyirəm! Hər şeyi gördüm – eyvanı da, palmaları da. Bir sözlə, Ponti Pilatın yanında olub, buna mən başımla cavab verirəm.

–Belə, yaxşı...

–Hə, nəsə, ikonanı yaxama sancaqlayıb qaçdım...

Bu yerdə saat iki dəfə vurdu.

–Paho! – İvan qışqırıb divandan qalxdı, – saat ikidir, mənsə sizinlə boş yerə vaxt itirirəm! Bağışlayın, telefon hanı?

–Qoyun zəng vursun, – həkim sanitarlara əmr etdi.

İvan dəstəyi götürdü, qadın isə bu vaxt Ryuxindən yavaşca soruşdu:

–Evlidir?

–Subaydır, – Ryuxin qorxa-qorxa cavab verdi.

–Həmkarların üzvüdür?

–Bəli.

–Milisdir? – İvan dəstəyə qışqırdı, – milisdir? Yoldaş növbətçi, dərhal göstəriş verin ki, əcnəbi məsləhətçini tutmaq üçün pulemyotlu beş motosiklet göndərsinlər. Nə? Dalımca gəlin, özüm sizinlə gedərəm... Dəlixanadan şair Bezdomnıdır danışan... Sizin ünvan necədir? – Bezdomnı dəstəyi ovcu ilə qapayıb həkimə pıçıldadı, sonra yenə dəstəyə qışqırdı: – Eşidirsiniz? Allo!.. Biabırçılıqdır! – İvan birdən çığırıb dəstəyi divara çırpdı. Sonra həkimə sarı dönüb, ona əl verdi, soyuq tərzdə "hələlik" deyib, getməyə hazırlaşdı.

–Bağışlayın, siz hara getmək istəyirsiniz? – həkim İvanın gözünün içinə baxdı, – gecənin yarısı, alt paltarında... Siz özünüzü pis hiss edirsiniz, burada qalın!

–Buraxın deyirəm, – İvan qapının ağzını kəsən sanitarların üstünə çəmkirdi. – Buraxırsınız, ya yox? – şair qorxunc bir səslə bağırdı.

Ryuxini əsməcə tutdu, qadın isə masanın düyməsini basdı və stolun şüşəsinin üstünə parıltılı qutuyla bağlı ampula düşdü.

–Bəs belə?! – İvan tora düşmüş vəhşi heyvan kimi döyükdü, – di yaxşı! Əlvida... – və başını irəli verib, pərdəli pəncərəyə sarı tullandı. Zərbə səsi eşidildi, ancaq pərdənin arxasındakı sınmayan şüşə ona davam gətirdi və bir an sonra İvan sanitarların əlində çırpınırdı. O xırıldayır, dişləməyə çalışır, qışqırırdı:

–Gör özləri üçün necə şüşə düzəltdiriblər!.. Burax! Burax deyirəm!

Həkimin əlində şpris parıldadı, qadın cəld hərəkətlə nimdaş köynəyin qolunu cırdı və qadına xas olmayan zirəkliklə onun qolundan yapışdı. Efir qoxusu gəldi, İvan dörd adamın əlində haldan düşdü və həkim bundan istifadə edib iynəni onun qoluna batırdı. İvanı bir neçə saniyə də saxlayıb, divana oturtdular.

–Quldurlar! – İvan qışqırıb divandan sıçradı, ancaq onu yenə geri oturtdular. Əllərini çəkən kimi yenə sıçradı, amma bu dəfə özü oturdu. O, vəhşi kimi ətrafına baxaraq dillənmədi, sonra birdən əsnəyib, hirslə gülümsədi.

–Axır ki, damladınız, – deyərək bir də əsnədi, gözlənilmədən uzanıb, başını balınca qoydu, yanağını uşaq kimi yumruğuna söykədi, artıq sakit, yuxulu səslə mızıldadı: – Di lap yaxşı... bunların altını çəkəcəksiniz. Mən xəbərdarlıq etdim, qalanını özünüz bilərsiniz! Məni isə indi hər şeydən artıq Ponti Pilat maraqlandırır... Pilat... – bu vaxt gözləri yumuldu.

–Vanna, yüz on yeddinci otaqda tək qalsın, həm də növbətçi qoyun, – həkim eynəyini taxa-taxa göstəriş verdi. Bu yerdə Ryuxin yenə diksindi: ağ qapılar səssizcə açıldı, göy gecə lampasının işıqlandırdığı dəhliz göründü. Dəhlizdən rezin təkərli taxt gətirildi, sakitləşmiş İvanı taxta uzatdılar, taxt dəhlizə qayıtdı və qapılar bağlandı.

–Həkim, – sarsılmış Ryuxin pıçıltıyla soruşdu, – o, doğrudan, xəstədir?

–Əlbəttə, – həkim cavab verdi.

–Axı ona nə olub? – Ryuxin çəkinə-çəkinə soruşdu.

Yorğun həkim Ryuxini süzüb, həvəssiz dilləndi:

–Hərəkət və nitq oyanıqlığı... sayıqlama... görünür, mürəkkəb haldır... Ehtimal ki, şizofreniyadır. Üstəlik də, alkoqolizm...

Həkimin sözlərindən Ryuxin bir şey anlamadı, bircə onu başa düşdü ki, deyəsən, İvan Nikolayeviçin işi fırıqdır, köks ötürüb soruşdu:

–Niyə o, elə hansısa məsləhətçidən danışır?

–Yəqin, kimisə görüb, bu da onun xəstə təxəyyülünü oyadıb. Bəlkə də, qarabasmadır...

Bir neçə dəqiqədən sonra yük maşını Ryuxini Moskvaya aparırdı. Hava işıqlaşırdı, yol kənarlarındakı fənərlərin hələ söndürülməyən işıqları lazımsız və xoşagəlməz idi. Gecəni hədər yerə keçirdiyinə görə sürücü hirslənmişdi, var gücüylə qovduğu maşın döngələrdə az qalırdı yoldan çıxsın.

Budur, meşə də arxada qaldı, çay da harasa itdi, yük maşınının qarşısına hər cür şey çıxırdı: gözətçi budkaları olan hasarlar, odun qalaqları, hündür direklər, hansısa tirlər

və tirlərə keçirilmiş iri tağalaqlar, çınqıl topaları, kanalların şırımladığı torpaq – bir sözlə, hiss olunurdu ki, Moskva yaxındadır, döngəni burulan kimi üstünə gəlib səni ağuşuna alacaq.

Maşın Ryuxini silkələyir, atıb-tuturdu, üstündə oturduğu ağac parçası altından qaçırdı. Qabaqcadan trolleybusla getmiş milisionerlə Panteleyin tulladıqları restoran dəsmalları bir yerdə durmurdu. Ryuxin onları yığmaq istədi, ancaq nədənsə, hirslə donquldandı: "Cəhənnəm olsunlar! Deyəsən, elə, doğrudan da, səfehləmişəm..." – və təpiklə vurub, onlara baxmamağa çalışdı.

Ovqatı əməllicə pozulmuşdu. Xəstəxana onda ağır iz buraxmışdı. Ryuxin nəyin ona əzab verdiyini tapmağa çalışırdı. Yaddaşına həkk olunmuş göy lampalı dəhlizmi? Dünyada dəlilikdən betər bədbəxtliyin olmadığı fikrimi? Hə, hə, əlbəttə, bu da ona əzab verir. Ancaq bu axı ümumi fikirdir. Yenə nəsə var. Axı nədir o? İnciklikdir, elədir ki var.

Hə, hə, Bezdomnının onun üzünə dediyi ağır sözlər. Bədbəxtlik onda idi ki, bu sözlərdə həqiqət vardı.

Şair daha ətrafına baxmırdı, gözünü yük maşınının silkələnən çirkli döşəməsinə dikib, özünə əzab verə-verə sızıldamağa, nəsə mızıldamağa başladı.

Hə, şeirlər... Onun otuz iki yaşı var! Yaxşı, bəs sonra?

–Sonra ildə nə qədərsə şeir yazacaq. – Qocalana qədər?

–Hə, qocalana qədər. – Bu şeirlər ona nə verəcək? Şöhrət gətirəcək? "Cəfəngiyatdır! Heç olmasa, özünü aldatma. Pis şeir heç vaxt adama şöhrət gətirməz. Bəs bu şeirlər niyə pisdir? Həqiqəti, həqiqəti dedi! – Ryuxin özünə qarşı amansız idi. – Yazdıqlarımın heç birinə inanmıram!.."

Əsəbi, qanıqara şair yırğalandı, ayağı altındakı döşəmə daha silkələnmirdi. Ryuxin başını qaldırdı ki, artıq çoxdan Moskvadadır, üstəlik də, dan yeri ağarıb, buludlar qızılı rəngə boyanıb, onun yük maşını bulvara dönən yerdə, başqa maşınların cərgəsində tıxaca düşüb və yaxınlıqdakı postamentin üstündə duran metal insan başmı azca əyib laqeydliklə bulvara baxır.

Xəstələnmiş şairin başından qəribə fikirlər keçirdi. "Bəxtli olmağın əsl nümunəsidir... – bu yerdə Ryuxin dik ayağa durdu, əlini qaldırıb, nəyə görəsə acığını heç kimlə işi olmayan çuqun insanın üstünə tökdü, – həyatda hansı addımı atıbsa, başına nə gəlibsə, hər şey onun xeyrinə olub, hər şey ona şöhrət gətirib! Axı o nə edib? Anlaya bilmirəm... Bu sözlərdə fövqəladə nəsə var ki: "Tufan qarı sovurub?.." Başa düşmürəm!.. Bəxti gətirib, bəxti gətirib! – axır ki, Ryuxin acı bir nəticəyə gəldi və yük maşınının tərpəndiyini hiss etdi, – atəş açdı, ağqvardiyaçı atəş açıb budunu parçaladı və əbədiliyini təmin etdi..."

Maşınlar hərəkətə gəldi. Əməlli-başlı xəstələnən, hətta qocalan şair heç iki dəqiqə keçməmiş Qriboyedovun eyvanına daxil oldu. Eyvan artıq boşalmışdı. Küncdəki bir məclis yekunlaşmaq üzrə idi, araqçınlı tanış konferansye isə əlində bir qədəh "Abrau" məclisin mərkəzində vurnuxurdu.

Dəsmalla yüklənmiş Ryuxini Arçibald Arçibaldoviç çox mehriban qarşıladı, lənətə gəlmiş cır-cındırdan onun canını qurtardılar. Əgər Ryuxin klinikada və yük maşınında bu qədər əldən düşməsəydi, gördüklərini bir az da bəzəyib

danışmaqdan, yəqin, ləzzət alardı. Ancaq indi o halda deyildi, üstəlik, bir elə diqqətli olmasa da, yük maşınındakı işgəncədən sonra Ryuxin ilk dəfə indi dəniz quldurunun sifətinə zəndlə baxıb başa düşdü ki, o, Bezdomnı haqqında suallar versə də, hətta "ay-ay-ay!" desə də, əslində, Bezdomnının taleyinə tamamilə biganədir və ona bir damcı da ürəyi yanmır. "Əhsən! Düz də eləyir!" – Ryuxin hikkəylə düşündü və şizofreniya haqqında söhbətini yarımçıq kəsib xahiş etdi:

– Arçibald Arçibaldoviç, araq pis olmazdı...

Dəniz qulduru canıyananlıqla pıçıldadı:

– Anlayıram... bu dəqiqə... – və ofisianta əliylə işarə elədi.

On beş dəqiqə sonra Ryuxin tək-tənha oturub, başa düşərək və razılaşaraq ki, daha onun həyatında heç nəyi dəyişmək olmaz, ancaq unutmaq olar, balığın üstünə əyilib qədəhi qədəh dalınca boşaldırdı.

Başqaları kef eləyəndə şair gecəni hədər yerə xərcləmişdi və indi başa düşürdü ki, onu geri qaytarmaq mümkün deyil. Başını lampadan qaldırıb göyə baxmaq

kifayətdi ki, gecənin birdəfəlik əldən getdiyini anlayasan. Ofisiantlar stolların üstündən süfrələri tələsik yığışdırırdılar. Yatıb yuxularını almış pişiklər eyvanın böyür-başında qaçışırdı. Gün bütün ağırlığıyla şairin üstünə çökürdü.

VII fəsil
PİS MƏNZİL

Əgər səhərisi gün Styopa Lixodeyevə desəydilər: "Styopa, bu dəqiqə durmasan, səni güllələyəcəklər!" – Styopa halsız-halsız mızıldayardı: "Güllələyin, nə istəyirsiniz eləyin, ancaq durmayacağam".

Durmaq nədir, ona elə gəlirdi gözlərini də aça bilməz, çünki gözünü açan kimi ildırım çaxıb başını parça-parça edəcək. Başında zəng çalınırdı, yumulu gözlərinin içində

yaşıl haşiyəli qəhvəyi dairələr oynayırdı, üstəlik, ürəyi bulanırdı, həm də ona elə gəlirdi ki, ürəkbulanma hansısa patefonun zəhlətökən səsiylə bağlıdır.

Styopa nəsə xatırlamağa çalışırdı, ancaq bircə şey yadına düşürdü – deyəsən, dünən haradasa əlində salfet, dayanıb bir xanımı öpməyə çalışırdı, həm də vəd verirdi ki, sabah, düz günorta onlara gələcək. Xanım razı olmurdu: "Yox, yox, mən evdə olmayacağam!" – Styopa isə əl çəkmirdi: "Mənsə durub gələcəyəm!"

Hansı xanım idi, indi saat neçədir, hansı ayın hansı günüdür – Styopa qətiyyən bilmirdi və ən pisi də o idi ki, harada olduğunu anlamırdı. Heç olmasa, sonuncunu aydınlaşdırmaq üçün sol gözünün bitişmiş kirpiklərini araladı. Yarıqaranlıqda nəsə tutqun-tutqun işıldayırdı. Styopa, nəhayət, bədənnüma güzgünü tanıdı və başa düşdü ki, öz çarpayısında, daha doğrusu, zərgərin dul arvadının yataq otağındakı çarpayıda arxası üstə uzanıb. Bu vaxt başından elə ağrı qopdu ki, gözlərini yumub inildədi.

İzahat verək: Varyete teatrının direktoru Styopa Lixodeyev səhər tezdən Sadovaya küçəsində yerləşən böyük

altımərtəbə binada, rəhmətlik Berliozla tən böldükləri mənzildə oyanmışdı.

Demək lazımdır ki, 50 nömrəli bu mənzil pis də olmasa, hər halda, qəribə ad çıxarmışdı. Hələ iki il əvvəl onun sahibi zərgər de Fujerin dul qadını idi. Hörmətli və çox işgüzar bir qadın olan əlli yaşlı Anna Fransevna de Fujer beş otaqdan üçünü kirayəyə vermişdi: kirayəçilərdən birinin soyadı, deyəsən, Belomut idi, obirinin soyadı unudulub.

Və iki il əvvəl mənzildə müəmmalı hadisələr baş verməyə başladı: bu mənzildən adamlar izsiz-soraqsız yoxa çıxırdılar.

Bir bazar günü mənzilə milisioner təşrif buyurub, ikinci kirayənişini (soyadı unudulanı) dəhlizə çağırdı və dedi ki, ondan xahiş olunur, nəyəsə qol çəkmək üçün bir dəqiqəliyə milis şöbəsinə gəlsin. Kirayənişin Anna Fransevnanın sadiq və çoxdankı ev qulluqçusu Anfisaya tapşırdı ki, əgər ona zəng eləyən olsa, desin, on dəqiqədən sonra qayıdacaq və ağ əlcəkli nəzakətli milisionerlə birlikdə çıxıb getdi. Ancaq nəinki on dəqiqədən sonra, ümumiyyətlə, qayıdıb gəlmədi.

Ən təəccüblüsü o idi ki, görünür, onunla birlikdə milisioner də yoxa çıxmışdı.

Dindar, açığını desək, mövhumatçı Anfisa qanı çox qaralan Anna Fransevnanın birbaşa üzünə dedi ki, bu, cadugərlikdir və o, çox gözəl bilir kirayənişinlə milisioneri kim aparıb, ancaq gecə vaxtı demək istəmir. Cadugərlik də, məlum məsələdir ki, başlamağa bənddir, sonra onun qabağını almaq mümkün olmur. İkinci kirayənişin, deyəsən, bazar ertəsi yoxa çıxdı, çərşənbə axşamı isə Belomut, elə bil, yerə batdı, ancaq doğrusu, başqa şəraitdə. Həmişəki kimi səhər tezdən işə aparmaq üçün onun dalınca maşın gəldi, intəhası, maşın heç kimi geri qaytarmadı, onun özü də bir daha qayıtmadı.

Xanım Belomutun dərdini və keçirdiyi dəhşəti sözlə ifadə etmək mümkün deyil. Ancaq heyhat, hər ikisi çox uzun çəkmədi. Elə həmin gecə Anna Fransevna nəyə görəsə tələsik getdiyi bağ evindən Anfisa ilə geri qayıdanda artıq xanım Belomutu mənzildə tapmadı. Bu hələ harasıdır: ər-arvad Belomutların qaldığı hər iki otaq möhürlənmişdi.

İki günü birtəhər yola verdilər. Elə üçüncü gün, bütün bu müddət ərzində yuxusuzluqdan əziyyət çəkən Anna Fransevna yenə tələsik bağ evinə getdi... Onun qayıtmadığını deməyə lüzum yoxdur!

Tək qalıb doyunca ağlamış Anfisa gecə ikidə yatmaq üçün yerinə girdi. Sonra başına nə gəlib, məlum deyil, ancaq başqa mənzillərin sakinləri deyirdilər ki, guya, 50 nömrəli mənzildən bütün gecəni nəsə taqqıltı eşidilib və guya, səhərə kimi pəncərələrdən işıq gəlib. Səhər məlum olub ki, Anfisa da yoxdur!

Yoxa çıxanlar və lənətlənmiş mənzil barədə binada hələ uzun müddət cürbəcür əfsanələr dolaşdı, misal üçün, guya, bu arıq və dindar Anfisa Anna Fransevnanın iyirmi beş dənə iri brilyantını dəri kisəyə yığıb, öz qurumuş sinəsində gəzdirirmiş. Guya ki, Anna Fransevnanın tələsik getdiyi bağ evinin taxta çardağında həmin brilyantlardan və çarın dövründə kəsilmiş qızıl pullardan ibarət çox böyük xəzinə tapılıb... Buna oxşar başqa şeylər də danışırdılar. İntəhası, bilmədiyimiz şeyə zamin ola bilmərik.

Bütün bunlara baxmayaraq, mənzil boş və möhürlənmiş vəziyyətdə vur-tut bir həftə qaldı, sonra Berlioz və həmin bu Styopa arvadları ilə oraya köçdülər. Tamamilə təbiidir ki, lənətə gəlmiş mənzildə yerləşən kimi onların da başına olmazın işlər gəldi. Bircə ayın içində hər ikisinin arvadı yoxa çıxdı. Ancaq onlar izsiz-soraqsız qeyb olmadılar. Berliozun arvadı haqqında danışırdılar ki, guya, onu Xarkovda hansısa bir baletmeysterlə görüblər, Slyopanın arvadına isə, guya, Bojedomkada rast gəliblər, deyilənə görə, Varyetenin direktoru saysız-hesabsız tanışlarının köməyilə ona orada bir otaq təşkil edib, bu şərtlə ki, Sadovaya küçəsinə ayağı dəyməsin...

Styopa inildədi. Fikirləşdi, ev qulluqçusu Qrunyanı çağırıb, ondan piramidon istəsin, ancaq ağlı kəsdi ki, bu, axmaqlıqdır... Qrunyada piramidon deyilən şey, əlbəttə, yoxdur. Berliozu köməyə çağırmağa çalışdı, iki dəfə zarıdı: "Mişa... Mişa...", ancaq özünüz başa düşürsünüz ki, cavab gəlmədi. Mənzildə tam sükunət hökm sürürdü.

Styopa ayaq barmaqlarını tərpədib, corabla uzandığını başa düşdü, titrəyən əllərini buduna çəkdi ki, şalvarlı olub-olmadığını aydınlaşdırsın, ancaq aydınlaşdıra bilmədi.

Nəhayət, görəndə ki tək-tənhadır, heç kimdən kömək yoxdur, nəyin bahasına olur-olsun qalxmaq qərarına gəldi.

Styopa bir-birinə yapışan kirpiklərini aralayıb, saçları pırtlaşıq, şişkin sifətini qara tük basmış, gözləri axan, yaxası çirkli köynəkdə, qalstukda, alt tumanı və corabda adama oxşayan nəyinsə bədənnüma güzgüdə əks olunduğunu gördü.

Bədənnüma güzgüdə o, özünü belə gördü, güzgünün yanında isə qara paltarda, qara beretdə naməlum adam dayanmışdı.

Styopa çarpayıda oturub, qan sağılmış gözlərini naməlum adama zillədi.

Sükutu naməlum adam pozdu, alçaq, yoğun səslə və aksentlə dedi:

–Sabahınız xeyir, əziz Stepan Boqdanoviç!

Fasilə yarandı, sonra Styopa bütün gücünü toplayıb zorla dilləndi:

–Sizə nə lazımdır? – Öz səsini tanımadığına heyrətləndi. "Sizə" deyəndə səsi ciyildədi, "nə" boğuq çıxdı, "lazımdır" sözünü isə, ümumiyyətlə, düz-əməlli deyə bilmədi.

Naməlum adam dostcasına gülümsədi, cibindən çıxardığı, qapağında almaz üçbucaq olan iri qızıl saat on bir dəfə vurandan sonra dedi:

–On birdir! Düz bir saatdır oyanmağınızı gözləyirəm, çünki siz saat on üçün yanınızda mənə görüş təyin etmişdiniz. Bu da mən!

Styopa əlini çarpayının böyründəki stulun üstünə atılmış şalvara uzadıb pıçıldadı:

–Bağışlayın... – şalvarı geyinib, xırıltılı səslə soruşdu: – Xahiş edirəm, soyadınızı deyəsiniz.

Danışmaq onun üçün çətin idi. Hər sözü deyəndə, elə bil, kimsə beyninə iynə batırıb ona dəhşətli əzab verirdi.

–Necə? Siz mənim soyadımı da unutmusunuz? – naməlum adamgülümsədi.

–Üzr istəyirəm... – Styopa hiss etdi ki, xumarlığın yeni əlamətləri üzə çıxır: ona elə gəldi, ayağının altından döşəmə qaçdı və bu dəqiqə kəlləsi üstə cəhənnəmə vasil olacaq.

–Əzizim Stepan Boqdanoviç, – qonaq mənalı-mənalı gülümsədi, – piramidon sizə kömək eləməz. Köhnə qaydaya əməl edin – pazı pazla çıxararlar. Sizi həyata qaytaracaq yeganə şey acı, isti qəlyanaltıyla iki yüz qram araq ola bilər.

Styopa bic adam idi, nə qədər halsız olsa da, başa düşdü ki, əgər onu bu görkəmdə görüblərsə, hər şeyi etiraf etməlidir.

–Açığını desəm, – dilini zorla sürüdü, – dünən bir az...

–Artıq sözə ehtiyac yoxdur! – Qonaq kreslo ilə bir yerdə yana sürüşdü.

Styopanın gözləri bərələ qaldı: balaca stolun üstündəki məcməyiyə doğranmış ağ çörək, vazada sıxılmış qara kürü, bir boşqab göbələk turşusu, qazança və nəhayət, zərgər arvadının böyük qrafinində araq qoyulmuşdu. Qrafinin soyuqdan tərləməsi Styopanı xüsusilə heyrətləndirdi. Əslində, aydın idi – qrafin buz doldurulmuş vedrənin içinə salınmışdı. Bir sözlə, səliqəli, qabiliyyətli süfrə açılmışdı.

Yad adam Styopanın heyrətinin xəstəhallıq dərəcəsinə çatmasına imkan verməyib, ona cəld əlli qram araq süzdü.

–Bəs siz? – Styopa mızıldadı.

–Məmnuniyyətlə!

Styopa titrəyən əliylə qədəhi ağzına apardı, yad adam isə bir qurtuma öz qədəhini boşaltdı. Kürünü çeynəyə-çeynəyə Styopa zorla deyə bildi:

–Bəs siz... üstündən bir şey yemirsiniz?

–Minnətdaram, mən heç vaxt arağın üstündən yemirəm, – yad adam yenə hər ikisinə araq süzdü. Qazançanın qapağını açdılar – tomatlı sosiska idi.

Gözünün qabağındakı lənətə gəlmiş yaşıl dairələr yoxa çıxdı, sözləri artıq deyə bilirdi, ən başlıcası, Styopa nələrisə xatırladı. Elədir ki var, əhvalat dünən Sxodnada, məzhəkələr müəllifi Xustovun bağ evində baş vermişdi; Xustov oraya Styopanı taksiylə aparmışdı. "Metropol"un yanında taksini necə tutduqlarını da xatırladı, onlarla bir adam da olmuşdu, deyəsən, aktyordu... balaca çamadanda patefonu var idi. Hə, hə, hə, bağ evinə getmişdilər! O da yadına düşdü ki, patefonda itlər ulaşırdı. Təkcə Styopanın öpmək istədiyi

qadın məlum deyildi... Allah bilir, kimdir... deyəsən, radioda işləyir, bəlkə də, yox.

Dünənki gün beləcə yavaş-yavaş aydınlaşırdı, ancaq Styopanı daha çox bugünkü gün, xüsusən də yataq otağında, yad adamın qəlyanaltı və araqla peyda olması maraqlandırırdı. Bax bunu aydınlaşdırmaq heç də pis olmazdı!

–Hə, ümid edirəm ki, indi mənim soyadımı xatırladınız?

Ancaq Styopa yalnız günahkarcasına gülümsəyib əllərini yellətdi.

–Dayanın! Mənə elə gəlir ki, siz arağın üstündən portveyn içmisiniz! Əfv edin, məgər belə iş görərlər!

–Xahiş edirəm, aramızda qalsın, – Styopa yaltaqcasına dedi.

–Ah, əlbəttə, əlbəttə! Ancaq aydındır ki, Xustovun əvəzindən söz verə bilmərəm!

–Məgər siz Xustovu tanıyırsınız?

–Dünən sizin kabinetinizdə bu şəxsi ötəri gördüm, ancaq sifətinə bircə dəfə baxmaq kifayətdir ki, onun əclaf, aravuran, ikiüzlü, yaltaq olduğunu anlayasan.

"Tamamilə doğrudur!" – Xustovun xarakterinin belə düzgün, dəqiq, yığcam təsviri Styopanı heyrətləndirdi.

Hə, dünənki gün hissə-hissə tamamlanırdı, ancaq narahatlıq Varyetenin direktorundan hələ əl çəkməmişdi. Çünki dünənki gündə böyük bir boşluq var idi. Nə deyirsiniz deyin, bu beretli adamı Styopa dünən qətiyyən görməmişdi.

–Magiya professoru Voland, – Styopanın çətinə düşdüyünü görən qonaq dedi və hər şeyi yerli-yataqlı danışdı.

O, xaricdən Moskvaya dünən gündüz gəlib, dərhal da Styopanın yanına təşrif buyurub, Varyete ilə birlikdə qastrollara çıxmağı təklif edib. Styopa Moskva vilayətinin tamaşalar komissiyasına zəng vuraraq bu məsələni razılaşdırıb (rəngi ağaran Styopa gözlərini döydü), yeddi çıxış üçün professor Volandla müqavilə bağlayıb (Styopanın ağzı açıla qaldı), şərtləşiblər ki, Voland bu gün saat onda

bəzi detalları dəqiqləşdirmək üçün onun yanına gəlsin... Budur, Voland da gəlib!

Qapını üzünə Qrunya açıb; deyib ki, o özü indicə gəlib, burada müvəqqətidir, Berlioz evdə yoxdur, əgər qonaq Stepan Boqdanoviçi görmək istəyirsə, qoy özü yataq otağına keçsin. Stepan Boqdanoviç elə bərk yatır ki, onu oyatmağa cürət etmir. Stepan Boqdanoviçin nə halda olduğunu görən artist Qrunyanı araq, qəlyanaltı almaq üçün yaxınlıqdakı qastronoma, buz üçün isə aptekə göndərib və...

–İcazə verin, sizinlə hesablaşım, – qanı lap qaralan Styopa sızıldayıb, pul kisəsini axtarmağa başladı.

–Bu nə sözdür! – qastrolçu ona bu barədə danışmağa imkan vermədi.

Nəhayət, araq və qəlyanaltı məlum oldu, ancaq Styopa ağlamalı vəziyyətdə idi: o, müqavilə barədə qətiyyən heç nə xatırlamırdı və öldürsələr də, xeyri yoxdu, dünən bu Volandı görməmişdi. Hə, Xustov olmuşdu, Voland isə yox.

–İcazə verin, müqaviləyə baxım, – Styopa astadan xahiş etdi.

–Buyurun, buyurun...

Styopa kağıza göz gəzdirdi və quruyub qaldı. Hər şey yerli-yerində idi. Birincisi, Styopanın öz dəsti-xəttiylə çəkdiyi göz çıxaran qol! Yan tərəfdən maliyyə direktoru Rimskinin öz əliylə yazdığı çəpəki icazəsi ki, yeddi çıxışa görə artist Volanda çatası otuz beş min rubldan on min rubl ödənilsin. Üstəlik Volandın artıq on min aldığı barədə verdiyi qəbz də burada idi.

"Bu nə işdir belə?!" – bədbəxt Styopa fikirləşdi və başı hərləndi. Yoxsa zəhrimara qalmış yaddaş pozğunluğu başlayır?! Ancaq təbii ki, müqavilə təqdim olunduqdan sonra təəccübləndiyini göstərmək, sadəcə, ədəbsizlik olardı. Styopa qonaqdan bir dəqiqəliyə icazə istəyib, zəng vurmaqüçün elə corabla dəhlizə qaçdı. Qaça-qaça mətbəxə sarı qışqırdı: – Qrunya!

Ancaq heç kim cavab vermədi. Berliozun dəhlizin yanındakı kabinetinə tərəf baxanda donub-qaldı. Qapının dəstəyindəki kəndirdə surğuclu iri möhür var idi. "Salam əleyküm!" – içində kimsə qışqırdı. "Bircə bu çatmırdı!" – Styopanın beyni qarışdı, fikri min yerə getdi, heç biri də aparıb bir yana çıxarmadı. Bir yandan qara beretli, soyuq

araq və ağla sığmayan müqavilə ilə bağlı müəmma, bu azmış kimi, buyuracaqsınız, qapıda da möhür. Kimə desəniz ki Berlioz nəsə törədib – inanmaz, vallah, inanmaz! Ancaq bu da möhür! Hə...

Tərs kimi, jurnalda çap olunmaq üçün bu yaxınlarda Mixail Aleksandroviçə sırıdığı məqalə barədə xoşagəlməz fıkirlər də elə bu yerdə Styopanın beynindən keçdi. Öz aramızdır, sarsaq bir məqalə idi! Həm də vecsiz, verdikləri nə puldu ki...

Məqalə barədə fikirlərin arxasınca şübhəli bir söhbət yadına düşdü, səhv etmirdisə, bu söhbət aprelin iyirmi dördü axşamı elə burada, yemək otağında Mixail Aleksandroviçlə şam eləyərkən olmuşdu. Bir yana qalanda, əlbəttə, bu söhbəti sözün həqiqi mənasında şübhəli adlandırmaq olmazdı (Styopa belə söhbətə yol verməzdi), ancaq lazımsız bir mövzuya toxunmuşdular. Vətəndaşlar, o söhbətdən çox asanca yayınmaq da olardı. Çapa qədər, heç şübhəsiz, bu söhbət tamamilə boş şey sayıla bilərdi, di gəl çapdan sonra...

"Ah, Berlioz, Berlioz! – Styopa yanıb-yaxıldı. – Axı bu, ağıla sığmır!"

Ancaq kədərlənmək uzun sürmədi və Styopa Varyetenin maliyyə direktoru Rimskinin kabinetinin nömrəsini yığdı. Styopa naqolay vəziyyətdə qalmışdı: birinci müqavilə göstəriləndən sonra Styopanın onu yoxlamasından əcnəbi inciyə bilərdi, maliyyə direktoru ilə danışmağın özü də çox çətindi. Doğrudan da, axı necə soruşasan: "Mən dünən magiya professoru ilə otuz beş min rubl məbləğində müqavilə bağlamamışam ki?" Belə soruşmaq yaramaz!

– Bəli! – dəstəkdə Rimskinin sərt, xoşagəlməz səsi eşidildi.

–Salam, Qriqori Daniloviç, – Styopa astadan dedi, – Lixodeyevdir. Məsələ belədir... hm... hm... bu... artist Voland... mənim yanımdadır... Belə ki... soruşmaq istəyirdim, bu axşam üçün nə fikirləşmisiniz?

–Hə, cadugər? Afişalar indi hazır olacaq.

–Aha, – Styopa zəif səslə dedi, – di hələlik...

–Bəs siz tez gələcəksiniz? – Rimski soruşdu.

–Yarım saatdan sonra, – Styopa dəstəyi asıb, qıjıldayan başını əllərilə sıxdı. Ax, nə pis iş oldu! Onun yaddaşına axı nə olub, vətəndaşlar? Hə?

Dəhlizdə belə çox ləngimək yaxşı çıxmırdı və Styopa dərhal plan qurdu: nə yolla olur-olsun, bu qəribə yaddaşsızlığını gizlətsin, indi isə ilk növbədə əcnəbidən bicliklə öyrənsin ki, Styopaya həvalə edilən Varyetedə o, bu gün məhz nə göstərmək istəyir.

Styopa dəstəyi qoyub dönəndə tənbəl Qrunyaran çoxdan silmədiyi dəhlizdəki güzgüdə şüvül kimi uzun, eynəkli (ah, kaş İvan Nikolayeviç burada olaydı! Bu adamı o saat tanıyardı!) qəribə bir adamı aydınca gördü. O isə görünüb, həmin an da yoxa çıxdı. Styopa həyəcan içində dəhlizi diqqətlə gözdən keçirdi və ikinci dəfə diksindi, çünki güzgüdə bu dəfə iri qara pişik əks olunub, eləcə də yoxa çıxdı.

Styopanın ürəyi düşdü, o səndələdi.

"Bu nədir? – fikirləşdi, – yoxsa dəli oluram? Əksini gördüklərim haradan çıxdı?!" – O, dəhlizə tərəf qorxa-qorxa qışqırdı:

–Qrunya, bu nə pişikdir belə, burada gəzir? O, haradan gəlib? Ondan başqa yenə kimsə var?

–Narahat olmayın, Stepan Boqdanoviç, – Qrunyanın deyil, yataq otağından qonağın səsi eşidildi, – mənim pişiyimdir. Əsəbiləşməyin. Qrunya isə yoxdur, mən onu vətəninə, Voronejə göndərdim, çünki şikayətlənirdi ki, çoxdandır siz ona məzuniyyət vermirsiniz.

Bu sözlər o qədər gözlənilməz və mənasız idi ki, Styopa qulağının səsə düşdüyünü güman etdi. Çaşqınlıq içində cəld yataq otağına tərəf qaçdı və kandarda donub-qaldı. Saçları biz-biz oldu, alnını tər basdı.

Qonaq yataq otağında artıq tək deyildi, başının dəstəsi də burada idi. Dəhlizdə gözünə görünən həmin tip ikinci kresloda oturmuşdu. Onu indi aydın gördü: bığları quş tükünə bənzəyirdi, gözlüyünün şüşəsinin biri parıldayırdı, o biri isə şüşəsizdi. Ancaq yataq otağında bundan da betəri vardı: zərgər arvadının yumşaq kətilində ədəbsizcəsinə yayxanmış nəhəng qara pişik bir pəncəsində araq dolu stəkan, o birində macal tapıb turşuya qoyulmuş göbələyə batırdığı çəngəl tutmuşdu.

Yataq otağının, onsuz da, zəif olan işığı Styopanın gözlərində tamam sönməyə başladı. "Demək, beləcə dəli olurlar!" – düşündü və yıxılmamaq üçün qapıdan yapışdı.

–Görürəm bir az təəccüblənibsiniz, əzizim Stepan Boqdanoviç, – Voland dişi dişinə dəyən Styopaya dedi, – ancaq təəccüblü heç nə yoxdur. Bunlar mənim müşayiətçilərimdir.

Bu vaxt pişik arağı başına çəkdi və Styopanın əli qapıdan aşağı sürüşdü.

–Müşayiətçilərimə qalmaq üçün yer lazımdır,– Voland sözünə davam etdi, – deməli, bizlərdən hansımızsa bu mənzildə artığıq. Mənə elə gəlir ki, artıq olan məhz sizsiniz!

–Onlardır, onlardır! – dama-dama paltarlı uzundraz Styopa haqqında cəm halında danışaraq keçi kimi mələdi, – ümumiyyətlə, onlar son vaxtlar murdar işlərlə məşğuldurlar. Sərxoşluq edirlər, öz mövqelərindən sui-istifadə eləyib qadınları yoldan çıxarırlar, heç bir iş görmürlər, çünki heç nə bacarmırlar, onlara tapşırılan işdən başları çıxmır. Rəhbərliyin gözünə kül üfürürlər!

–Dövlət maşınını havayı yerə ora-bura qovurlar! – pişik də göbələyi çeynəyə-çeynəyə şər atdı.

Styopa döşəməyə yıxılıb taqətsiz əliylə qapını cırmaqlayanda mənzildə dördüncü və sonuncu hadisə baş verdi. Bədənnüma güzgünün içindən balaca, ancaq kürəyi xeyli enli, başında yumru şlyapa, ağzından çölə sallanmış köpək dişləri, onsuz da, iyrənc olan sir-sifətini lap eybəcər hala salan bir məxluq çıxdı. Üstəlik də, kürən idi.

–Mən, – təzə gələn söhbətə qoşuldu, – ümumiyyətlə, başa düşmürəm, bu adam necə direktor olub, – kürən get-gedə lap burnunda danışırdı, – mən arxiyerey[16] olduğum qədər o da direktordur!

–Sən arxiyereyə oxşamırsan, Azazello, – pişik öz boşqabına sosiska qoya-qoya dedi.

---

[16]Arxiyerey – xristian kilsə iyerarxiyasında: yepiskop, arxiyepiskop, mitropolit (yun. archiercus – baş keşiş)

–Mən də elə bunu deyirəm, – kürən burnunda danışaraq dedi və Volanda tərəf dönüb hörmətlə əlavə etdi: – Messir[17], icazə verin, onu Moskvadan rədd eləyim.

–Pişt!!! – pişik tüklərini qabardıb birdən bağırdı.

Yataq otağı Styopanın başına fırlandı, gicgahı qapıya dəydi və huşunu itirə-itirə fikirləşdi: "Mən ölürəm..."

Ancaq ölmədi. Gözlərini açıb özünü bir daşın üstündə oturan gördü. Ətrafında nəsə uğuldayırdı. Gözünü əməlli-başlı açanda gördü ki, uğuldayan dənizdir, hətta dalğalar, az qala, ayaqlarına çırpılır və sözün kəsəsi, dalğaqıranın lap ucunda oturub, ondan aşağıda mavi dəniz bərq vurur, arxada – dağların başında isə gözəl bir şəhər görünür.

Belə vəziyyətdə necə hərəkət edəcəyini bilmədiyindən Styopa dizləri əsə-əsə qalxıb, dalğaqıranın üstü ilə sahilə tərəf getdi.

Dalğaqıranda bir adam dayanıb, papiros çəkə-çəkə dənizə tüpürürdü. O, Styopaya mat-mat baxıb daha

[17]Messir – orta əsrlərdə İtaliyada adlı-sanlı feodallara hörmət əlaməti olaraq verilən ad; sonralar din xadimlərinin, hüquqşünasların adının qarşısında işlədilib.

tüpürmədi. Bu vaxt Styopa belə bir hoqqa çıxardı: papiros çəkən yad adamın qarşısında diz çöküb dedi:

–Yalvarıram, söyləyin, bu hansı şəhərdir?

–Yox bir! – daşqəlbli papirosçəkən çəmkirdi.

–Mən sərxoş deyiləm, – Styopa xırıldadı, – mən xəstəyəm, başıma nəsə bir iş gəlib, mən xəstəyəm... Haradayam? Bura hansı şəhərdir?

–Tutaq ki, Yaltadır...

Styopa astadan ah çəkib yanı üstə yıxıldı, başı dalğaqıranın gündən qızmış daşlarına dəydi.

VIII fəsil
PROFESSORLA ŞAİRİN QARŞIDURMASI

Yaltada Styopanın huşu başından çıxdığı vaxt, yəni gündüz saat on ikinin yarısında uzun sürən dərin yuxudan sonra İvan Nikolayeviç Bezdomnının huşu özünə qayıtdı. Bir müddət o, ağ pərdəsi arxasından günəşin hiss olunduğu, açıqrəngli metaldan qəribə dolabça qoyulmuş ağ divarlı yad otağa necə gəlib düşdüyünü anlamağa çalışdı.

İvan başını silkələyib ağrımadığına əmin oldu və xatırladı ki, müalicəxanadadır. Həmin fikir Berliozun ölümünü yada saldı, ancaq İvan indi elə də sarsıntı keçirmədi. Yuxudan sonra İvan Nikolayeviç sakitləşmişdi, düşüncəsi də aydınlaşmışdı. Təmiz, yumşaq, rahat yaylı çarpayıda bir müddət hərəkətsiz uzanan İvan yanındakı zəng düyməsini gördü. Lüzum olmadan əşyalara toxunmağa vərdiş etdiyindən düyməni basdı. O, zəng səsi eşidəcəyini, ya kiminsə gələcəyini gözlədiyi halda tamamilə başqa şey baş verdi. İvanın yatağının ayaq tərəfində üstünə "İçmək" yazılmış tutqun silindr işıqlandı. Bir müddətdən sonra silindr fırlanmağa başladı və nəhayət, "Dayə" sözü göründü. Aydın məsələdir ki, bu fəndgir silindr İvanı heyrətləndirdi. "Dayə" sözünü "Həkim çağırın" yazısı əvəz etdi.

–Hm... – silindrdən baş çıxara bilməyən İvan söyləndi. Bu yerdə təsadüfən bəxti gətirdi: "Feldşer qadın" yazısında İvan düyməni ikinci dəfə basdı. Silindr astaca cingildəyib dayandı və söndü. Ağ xalatlı, qəşəng, dolu bir qadın otağa daxil olub İvana dedi:

–Sabahınız xeyir!

Hazırkı şəraitdə salamlaşmağı yersiz saydığına görə İvan cavab vermədi. Doğrudan da, sağlam adamı müalicəxanaya salıblar, özlərini də elə aparırlar, guya, belə lazımdır!

Qadın isə halını pozmadan, sifətində mehriban ifadə, düyməni bir dəfə basmaqla pərdəni yuxarı çəkdi və döşəməyə qədər çatan seyrək barmaqlıqlar arasından içəri gün işığı doldu. Barmaqlığın arxası eyvan idi, o yanda qıvrıla-qıvrıla axan çay görünürdü, çayın qarşı sahilindəki şam meşəsi göz oxşayırdı.

–Buyurun, vanna qəbul edin, – qadının əlinin hərəkətilə daxili divar aralandı, vanna otağı və gözəl təchiz olunmuş tualet göründü.

İvan qadınla danışmamaq qərarına gəlsə də, parıldayan krandan suyun necə şırhaşırla vannaya axdığını görüb, özünü saxlaya bilmədi və kinayə ilə dedi:

–Gör ha! Elə bil, "Metropol"dur!

–Heç də yox, – qadın qürurla cavab verdi, – ondan qat-qat yaxşıdır. Belə avadanlıq heç xaricdə də yoxdur. Alimlər,

həkimlər xüsusi olaraq bizim klinikaya baxmağa gəlirlər. Bizdə hər gün əcnəbi turistlər olur.

"Turist" sözünü eşidən kimi İvan dünənki məsləhətçini xatırladı. Qaşqabağını sallayıb, acıqlı-acıqlı baxaraq dedi:

–Əcnəbi turistlər... Bu əcnəbi turistləri yaman xoşlayırsınız! Ancaq onların arasında hər cürəsi var. Misal üçün, mən dünən eləsiylə tanış oldum, heç tayı-bərabəri yoxdur!

Az qaldı Ponti Pilat haqqında danışsın, amma özünü saxladı, başa düşdü ki, bu söhbətin qadına heç bir dəxli yoxdur və qadının ona köməyi dəyə bilməz.

Vanna qəbul edən kişiyə nə lazımsa, demək olar, hamısı yuyunmuş İvana dərhal verildi: ütülü köynək, alt tumanı, corab. Ancaq bu hələ harasıdır: qadın dolabın qapısını açıb ondan soruşdu:

–Nə geyinmək istəyirsiniz – xalat, ya pijama?

Bu yeni mənzildə qalmağa məhkum olan İvan qadının zəhlətökənliyindən az qaldı əlini-əlinə şappıldatsın, ancaq dinməzcə barmağıyla pambıq parçadan tikilmiş al-qırmızı pijamanı göstərdi.

Sonra İvan Nikolayeviçi boş, səssiz dəhlizlə çox böyük bir kabinetə gətirdilər. Əla avadanlıqla təchiz olunmuş bu binadakı hər şeyə kinayə ilə yanaşmağı qərara alan İvan dərhal kabineti özlüyündə "fabrik-mətbəx" adlandırdı.

Buna əsas da vardı. Nikelli alətlərlə dolu kiçik və böyük şüşə dolablar yan-yana düzülmüşdü. Burada son dərəcə mürəkkəb quruluşlu kreslolar, parlaq qapaqlı şişman lampalar, çoxlu şüşə qab, qazla yanan odluqlar, elektrik məftilləri və heç kimə məlum olmayan cihazlar var idi.

Kabinetdə İvanı ağ xalat geyinmiş üç nəfər – iki qadın, bir kişi qarşıladı. Nələrsə soruşmaq məqsədilə onu ilk əvvəl küncdəki stolun arxasına apardılar. İvan vəziyyəti götür-qoy etməyə başladı. Qarşısında üç yol var idi. Birincisi onu lap şirnikdirirdi: bu lampaların, müəmmalı əşyaların üstünə atılıb, onları qırıb-dağıtsın, nahaq yerə saxlandığına bu yolla etirazını bildirsin. Ancaq bugünkü İvan dünənkindən xeyli fərqlənirdi və birinci yol ona şübhəli göründü: birdən onun əməlli-başlı dəli olduğuna inanarlar. Ona görə birinci yolu İvan rədd etdi. İkinci yol var idi: dərhal məsləhətçi və Ponti Pilat haqqında danışmaq. Di gəl, dünənki təcrübə göstərdi

ki, bu əhvalata inanmırlar, ya da onu başqa yerə yozurlar. Ona görə İvan bu yoldan da imtina edib, üçüncü yolu seçdi: təkəbbürlə susmaq.

Buna tamamilə əməl etmək olmadı: qaşqabaqla, xəsisliklə də olsa, bir çox suallara istər-istəməz cavab vermək məcburiyyətində qaldı.

İvandan keçmiş həyatı barədə, hətta on beş il əvvəl necə və nə vaxt skarlatinaya yoluxduğuna qədər, demək olar, hər şeyi soruşub öyrəndilər. Bütün bir səhifəni doldurub, o biri üzünə çevirdilər və ağ xalatlı qadın İvanın qohumları haqqında sorğu-suala keçdi. Əsl zəhlətökən iş başlandı: kim ölüb, nə vaxt və nədən, içəniydimi, zöhrəvi xəstəliklərə yoluxmuşdumu və bu yöndə cürbəcür suallar. Sonda dünən Patriarx gölündə baş verən əhvalatı danışmasını xahiş etdilər, ancaq çox da dərinə getmədilər, Ponti Pilat haqqında dediklərinə heyrətlənmədilər.

Sonra qadın İvanı kişiyə ötürdü, onun işi bambaşqa idi, o artıq heç nə soruşmadı. İvanın istiliyini ölçdü, nəbzini yoxladı, nəsə bir lampa ilə işıq salıb gözlərinə baxdı. Sonra başqa qadın kişinin köməyinə gəldi, İvanın belinə iynə

vurdular, ancaq ağrıyıb eləmədi, balaca çəkicin sapı ilə sinəsində xətlər çəkdilər, çəkiclə dizlərinə döyəclədilər, bu zərbələrdən də ayaqları tullanırdı, barmağından qan aldılar, qolunun bükəcəyinə iynə vurdular, biləklərinə rezin qolbaqlar keçirdilər.

İvan isə özlüyündə acı-acı gülümsəyirdi və hər şeyin necə axmaqcasına qəribə alındığını fikirləşirdi. İşə bir bax! Hamını naməlum məsləhətçidən gələ biləcək təhlükədən xəbərdar etmək istəyirdi, onu tutmağa çalışırdı, ancaq nəyə nail oldu: hansısa müəmmalı bir kabinetə düşdü ki, nə vaxtsa Voloqdada əyyaşlıq edən dayısı Fyodor haqqında cürbəcür cəfəngiyat danışsın. Axmaqlıq!

Nəhayət, İvandan əl çəkdilər. Onu yenə öz otağına qaytardılar, bir fincan qəhvə, iki dənə soyutma yumurta, ağ çörək və yağ verdilər.

İvan yeyib-içib qərara aldı ki, bu müəssisədəki böyüklərdən kiminsə gəlməsini gözləsin. Heç olmasa, ondan özünə qarşı ədalətli münasibətə, diqqətə nail olsun.

O gəlib çıxdı, özü də səhər yeməyindən az sonra. İvanın otağının qapısı qəfil açıldı və içəriyə ağ xalatlı xeyli adam

girdi. Hamıdan irəlidə qırx beş yaşlarında, üzü aktyorsayağı səliqə ilə qırxılmış, qəşəng, ancaq çox iti gözləri, nəzakətli davranışı olan bir adam gəlirdi. Bütün dəstə ona diqqət və hörmət göstərirdi, buna görə də onun gəlişi çox təmtəraqlı alındı. "Elə bil, Ponti Pilatdır!"

–İvan düşündü.

Bəli, şübhəsiz, bu, onların böyüyü idi. O, kətildə oturdu, qalanları ayaq üstə dayandı.

–Doktor Stravinski, – oturan adam özünü təqdim etdi və ona dostcasına nəzər saldı.

–Budur, Aleksandr Nikolayeviç, – səliqəli saqqalı olan bir nəfər astadan deyib, İvan haqqında hər iki tərəfi yazılıb doldurulmuş vərəqi başçıya uzatdı.

"Əməllicə şəxsi iş açıblar!" – İvan fikirləşdi. Başçıları isə öyrəncəli olduğundan vərəqə ötəri göz gəzdirib: "Aha, aha..." – deyə mızıldadı və ətrafındakılarla az tanış olan bir dildə qısa fikir mübadiləsi apardı.

"Pilat kimi latın dilində də danışır..." – İvan qüssə ilə düşündü. Bu vaxt eşitdiyi bir söz onu diksindirdi və əfsuslar ki, dünən Patriarx gölündə lənətə gəlmiş əcnəbinin dediyi,

bu gün isə professor Stravinskinin təkrar etdiyi söz – "şizofreniya" idi.

"Axı o, bunu da bilirdi!" – İvan həyəcanla fikirləşdi.

Başçı, görünür, ətrafındakıların dediyilə razılaşmağa, hər şeyə sevinməyə və bunu "çox gözəl, çox gözəl" sözləriylə bildirməyə adət etmişdi.

–Çox gözəl! – deyərək Stravinski vərəqi kiməsə qay–tardı və İvana müraciət etdi: – Siz şairsiniz?

–Şairəm, – İvan pərt halda dedi və ilk dəfə poeziyaya nəsə izaholunmaz nifrət hiss etdi, həmin an xatırladığı şeirləri də, nədənsə, heç xoşuna gəlmədi.

Üz-gözünü qırışdırıb, o da, öz növbəsində, Stravinskidən soruşdu:

–Siz professorsunuz?

Bunun cavabında Stravinski nəzakətlə başını tərpətdi.

–Mən sizinlə danışmalıyam, – İvan Nikolayeviç mənalı– mənalı dedi.

–Mən elə bunun üçün gəlmişəm, – Stravinski dilləndi.

–Məsələ belədir, – İvan hiss etdi ki, sözünü deməyin vaxtı çatıb, – mənə dəli paltarı geyindiriblər, heç kim məni eşitmək istəmir!..

–Əsla, biz sizi çox diqqətlə dinləyirik, – Stravinski onu sakitləşdirdi, – sizə dəli paltarı geyindirməyə də heç vəchlə imkan vermərik.

–Elə isə qulaq asın: dünən axşam mən Patriarx gölündə qəribə bir adamla rastlaşdım, əcnəbiydi, ya nə idisə, Berliozun öləcəyini əvvəlcədən bilirdi və Ponti Pilatı şəxsən görmüşdü.

Ətrafdakılar qımıldanmadan şairə dinməzcə qulaq asırdılar.

–Pilatı? İsa Məsihin dövründə yaşayan Pilatı? – Stravinski gözlərini qıyıb İvandan soruşdu.

–Özüdür ki, var.

–Aha, – Stravinski dedi, – Berlioz isə tramvayın altına düşüb ölüb?

–Bax, elə məhz onu tramvay Patriarx gölündən azca aralı gözümün qabağında doğradı, həm də bu müəmmalı adam...

–Ponti Pilatın tanışı? – adam anlamaqda, görünür, böyük fərasət sahibi olan Stravinski soruşdu.

–Məhz o, – Stravinskiyə göz qoyaraq İvan təsdiq etdi, – bax, o, əvvəlcədən dedi ki, Annuşka günəbaxan yağını dağıdıb... Berliozun da elə həmin yerdə ayağı sürüşdü! Buna necə baxırsınız? – öz söhbətiylə böyük təsir oyadacağına ümid edən İvan mənalı-mənalı soruşdu.

Ancaq elə bir təsir hiss olunmadı, Stravinski adi qaydada növbəti sualını verdi:

–Bu Annuşka kimdir?

Sual İvanı bir az dilxor elədi, sifəti səyridi.

–Əsas məsələ Annuşka deyil, – o, əsəbi-əsəbi dedi, – Allah bilir, o kimdir. Sadovıda yaşayan gicin biri. Əsas məsələ odur ki, başa düşürsünüz, həmin şəxs günəbaxan yağı barədə əvvəlcədən bilirdi. Məni başa düşürsünüz?

–Gözəl başa düşürəm, – Stravinski təmkinlə cavab verib, şairin dizinə toxundu, – həyəcanlanmayın, davam edin.

–Davam edirəm, – Stravinski kimi təmkinlə danışmağa çalışan İvan öz acı təcrübəsindən bilirdi ki, yalnız sakitliyini

saxlamaq ona kömək eləyə bilər, – bax, özünü yalandan məsləhətçi adlandıran bu qorxunc tip qeyri-adi gücə malikdir... Misal üçün, onu təqib edirsən, ancaq ona çata bilmirsən. Yanında da ikisi var, onlar da az aşın duzu deyillər: biri eynəyinin şüşələri sınıq uzundraz, o birisi tramvayda adam kimi gedən nəhəng pişik. Özü də, – heç kim sözünü kəsmədiyindən İvan get-gedə daha həvəslə və inamla danışırdı, – o, eyvanda şəxsən Ponti Pilatın yanında olub, buna şübhə yoxdur. Axı bütün bunlar nə deməkdir? Hə? Onu dərhal tutmaq lazımdır, yoxsa dəhşətli bəlalar törədəcək.

–Demək, siz çalışırsınız ki, onu həbs etsinlər? Sizi düzmü başa düşürəm? – Stravinski soruşdu.

"O, ağıllıdır, – İvan düşündü, – etiraf etmək lazımdır ki, intelligentlərin arasında da hərdən ağıllılar tapılır. Bunu danmaq olmaz!" – və cavab verdi:

–Tamamilə doğrudur! Necə də çalışmayım, bir özünüz fikirləşin! Məni isə zorla burada saxlayıblar, gözümə lampa soxurlar, vannada çimizdirirlər, Fedya dayı haqqında sorğu-

suala tuturlar!.. O isə çoxdan dünyadan köçüb! Tələb edirəm ki, məni dərhal buraxsınlar.

–Bəs belə... Çox gözəl, çox gözəl! – Stravinski dedi, – bax indi hər şey aydınlaşdı. Doğrudan da, sağlam adamı müalicəxanada saxlamağın nə mənası? Yaxşı. Mən sizi bu saat buradan buraxaram, əgər desəniz ki, normal adamsınız. Sübut etməyin, vur-tut deyin. Beləliklə, siz normal adamsınız?

Bu yerdə tam sükut çökdü, səhər tezdən İvana qulluq edən kök qadın ehtiramla professora baxdı, İvan isə bir daha düşündü: "Çox ağıllıdır".

Professorun təklifi onun xoşuna gəldi, intəhası, cavab verməmişdən əvvəl alnını qırışdırıb bir xeyli fikirləşdi, sonra qətiyyətlə:

–Mən normal adamam, – dedi.

–Di çox gözəl, – Stravinski yüngülləşən kimi oldu, – əgər belədirsə, gəlin məntiqlə düşünək. Götürək sizin dünənki gününüzü, – bu yerdə o, geriyə qanrıldı və İvan barədə yazılmış vərəqi tez ona verdilər. – Özünü sizə Ponti Pilatın tanışı kimi təqdim edən naməlum adamı axtaran

zaman dünən bu hərəkətlərə yol vermisiniz, – Stravinski gah vərəqə, gah İvana baxa-baxa uzun barmaqlarını qatlamağa başladı, – ikonanı sinənizə vurmusunuz. Olub?

–Olub, – İvan tutqun halda razılaşdı.

–Hasardan yıxılıb üzünüzü yaralamısınız. Elədir? Əlinizdə yanan şam, bircə alt paltarında restorana girmisiniz və restoranda kimisə döymüsünüz. Sizi buraya əl-qolu bağlı gətiriblər. Bura düşəndən sonra milisə zəng vurub, pulemyot göndərilməsini xahiş etmisiniz, sonra pəncərədən tullanmağa cəhd göstərmisiniz. Elədir? Soruşulur: bu cür hərəkət etməklə kimisə tutmaq, ya həbs etmək mümkündürmü? Əgər siz normal adamsınızsa, özünüz cavab verərsiniz: heç vəchlə. Siz buradan getmək istəyirsiniz? Buyurun. Ancaq icazənizlə soruşum, buradan hara gedəcəksiniz?

–Əlbəttə, milisə, – professorun baxışlarından özünü bir az itirən İvan artıq elə də qətiyyətlə cavab vermədi.

–Birbaş buradan?

–Aha.

–Evə baş çəkməyəcəksiniz? – Stravinski tez soruşdu.

–Getməyə vaxt var! Mən evə gedincə o aradan çıxar!

–Belə. Bəs siz milisdə ilk növbədə nədən danışacaqsınız?

–Ponti Pilat haqqında, – İvan Nikolayeviçin fikri uzaqlara getdi.

–Di çox gözəl! – Stravinski, axır ki, təslim oldu, saqqallıya üzünü tutub əmr etdi: – Fyodor Vasilyeviç, lütfən, vətəndaş Bezdomnını buraxın getsin şəhərə. Ancaq onun otağına heç kimi yerləşdirməyin, yataq ağlarını da dəyişməyə dəyməz. İki saatdan sonra vətəndaş Bezdomnı yenə buraya qayıdacaq. Bəs belə, – o, şairə müraciətlə dedi, – sizə uğurlar diləmirəm, çünki bu gedişin uğurlu olacağına bir damcı da inanmıram. Tezliklə görüşənədək! – Və ayağa durdu, başına yığışmış dəstəsi də hərəkətə gəldi.

–Nəyə görə mən yenə buraya qayıdacağam? – İvan narahatlıqla soruşdu.

Stravinski, elə bil, bu sualı gözləyirdi; tələsik oturdu.

–Ona görə ki, alt paltarında milisə gedib, Ponti Pilatı şəxsən tanıyan adamla görüşdüyünüzü deyən kimi, sizi

dərhal buraya gətirəcəklər və yenə həmin otaqda qalmalı olacaqsınız.

–Alt paltarının buna nə dəxli? – İvan çaşqınlıqla döyükdü.

–Əsasən Ponti Pilatın dəxli var. Ancaq elə alt paltarının da. Axı dövlətin verdiyi dəyişəyi əyninizdən çıxarıb, sizə öz geyiminizi verəcəyik. Sizi isə buraya alt paltarında gətiriblər. Buna baxmayaraq, siz öz mənzilinizə heç də getmək fikrində deyilsiniz, ancaq mən buna eyham vurmuşdum. Sonra Pilatdan danışacaqsınız... və məsələ aydındır!

Bu vaxt İvan Nikolayeviç qəribə bir hal keçirdi. Elə bil, iradəsi sındı, hiss etdi ki, gücsüzdür, məsləhətə ehtiyacı var.

–Bəs onda nə edim? – bu dəfə artıq ürəksiz soruşdu.

–Di çox gözəl! – Stravinski dedi, – bu, məntiqli sualdır. Mən indi sizin başınıza, əslində, nə gəldiyini deyəcəyəm. Dünən sizi kimsə bərk qorxudub, Ponti Pilat haqqında söhbətlərlə, başqa şeylərlə qanınızı qaraldıb. Siz isə əsəbiləşmiş, sarsıntı keçirmiş adam, Ponti Pilat haqqında danışa-danışa şəhəri dolaşmısınız. Tamamilə təbiidir ki, sizi

dəli biliblər. Sizin xilasınızın indi yalnız bir yolu var – tam sakitlik. Siz hökmən burada qalmalısınız.

–Axı onu mütləq tutmaq lazımdır! – İvan artıq, az qala, yalvardı.

–Yaxşı, gərək elə özünüz onun arxasınca düşəsiniz? Bu adama qarşı bütün şübhələrinizi, ittihamlarınızı kağıza yazın. Sizin ərizənizi lazımi yerə göndərməkdən asan nə ola bilər və əgər siz güman etdiyiniz kimi, bu adam cinayətkardırsa, hər şey çox tezliklə aydınlaşar. Ancaq bir şərtlə: beyninizi zora salmayın, Ponti Pilat haqqında mümkün qədər az fikirləşin. Adama çox şey danışarlar! Ancaq hər sözə inanmaq lazım deyil.

–Başa düşdüm! – İvan qətiyyətlə dedi, – xahiş edirəm, mənə kağız-qələm versinlər.

–Kağız və gödək karandaş verin, – Stravinski kök qadına əmr etdi, İvana isə dedi: – Ancaq məsləhət görürəm ki, bu gün yazmayasınız.

– Yox, yox, elə bu gün, hökmən bu gün, – İvan həyəcanla dedi.

–Di yaxşı, bircə beyninizi yormayın. Bu gün bir şey alınmaz, sabah alınar.

–O aradan çıxacaq!

–Əsla, – Stravinski inamla dedi, – sizi əmin edirəm ki, o, heç hara gedə bilməz. Və bilin ki, burada sizə hərtərəfli kömək edəcəklər, bunsuz isə sizin işlər alınmaz. Məni eşidirsiniz? – Stravinski birdən mənalı-mənalı soruşub, İvan Nikolayeviçin hər iki əlini tutdu. Onun əllərini öz əllərinin arasına alaraq, İvanın gözünün içinə xeyli baxıb təkrar etdi: – Sizə burada kömək edəcəklər... məni eşidirsiniz?.. Sizə burada kömək edəcəklər... sizə burada kömək edəcəklər... Siz rahat olacaqsınız. Burada sakitlikdir, hər şey rahatdır... Sizə burada kömək edəcəklər...

İvan Nikolayeviç birdən əsnədi, üzünün ifadəsi mülayimləşdi.

–Bəli, bəli, – o, astadan dedi.

–Çox gözəl! – Stravinski söhbəti öz adəti üzrə yekunlaşdırıb ayağa durdu, – hələlik! – İvanın əlini sıxıb, qapıdan çıxhaçıxda saqqallıya tərəf dönüb dedi: – Hə, oksigen də verin... vannalar da qəbul etsin.

Bir neçə saniyədən sonra İvanın qarşısında nə Stravinski, nə də onun başının dəstəsi var idi. Qarşı sahildəki şam meşəsi günorta günəşinin işığında pəncərə barmaqlıqları arasından göz oxşayırdı, yaxınlıqda isə çay parıldayırdı.

IX fəsil

KOROVYEVİN HOQQALARI

Moskvanın Sadovaya küçəsindəki mərhum Berliozun yaşadığı 302-bis №-li binanın mənzil yoldaşlığının sədri Nikanor İvanoviç Bosoy cümə axşamına keçən gecədən əməlli-başlı cəncələ düşmüşdü.

Artıq bildiyiniz kimi, gecəyarısı Jeldıbinin iştirakı ilə binaya gələn komissiya Nikanor İvanoviçi çağırıb, Berliozun öldüyünü ona xəbər verdi və birlikdə 50 №-li mənzilə getdilər.

Orada mərhumun əlyazmaları və əşyaları möhürləndi. Həmin vaxt qulluqçu Qrunya və əhlikef Stepan Boqdanoviç

mənzildə yox idi. Komissiya Nikanor İvanoviçə bildirdi ki, mərhumun əlyazmaları araşdırılmaq üçün götürülür, mərhumun mənzil sahəsi, yəni üç otağı (zərgər arvadının kabineti, qonaq və yemək otaqları) mənzil yoldaşlığının sərəncamına keçir, əşyaları isə varisləri tapılana qədər mənzildə qalacaq.

Berliozun ölüm xəbəri qeyri-adi bir sürətlə bütün binaya yayıldı və cümə axşamı səhər saat yeddidən Bosoya telefonla zəng vurmağa, sonra isə mərhumun mənzil sahəsinə iddia edən ərizələrlə şəxsən gəlməyə başladılar. İki saatın içində Nikanor İvanoviç otuz iki belə ərizə qəbul etdi.

Bu ərizələrdə yalvarış, hədə, böhtan, xəbərçilik, mənzili öz hesabına təmir etdirəcəyinə vəd vardı, dözülməz darısqallıq, quldurlarla bir mənzildə yaşaya bilməmək səbəb göstərilirdi. Bunların arasında 31 №-li mənzildə bilavasitə pencəyin cibinə qoyulan pelmenin oğurlanması təsvir olunmuş ərizənin bədii məziyyətlərinə heyran qalmaya bilmirdin, iki nəfər özünü öldürəcəyini deyirdi, biri isə gizli hamiləliyini etiraf edirdi.

Nikanor İvanoviçi evinin dəhlizinə çağırırdılar, qolundan tuturdular, nəsə pıçıldayırdılar, göz vururdular və borclu qalmayacaqlarını deyirdilər.

Bu işgəncə gündüz saat birə işləmişə qədər davam etdi, axırda Nikanor İvanoviç öz mənzilindən idarənin həyət qapısının böyründəki otağına qaçdı, ancaq görəndə ki burada da onu gözləyirlər, oradan da qaçdı. Asfalt döşənmiş həyətdən keçib, dabanqırma arxasınca gələnlərdən birtəhər canını qurtararaq, binanın altıncı çöl qapısından girdi və murdar 50 №-li mənzilin yerləşdiyi beşinci mərtəbəyə qalxdı.

Kök Nikanor İvanoviç qapının ağzında nəfəsini dərib zəngi basdı, ancaq qapını açan olmadı. Zəngi bir neçə dəfə də basıb donquldanmağa və astadan söyməyə başladı. Ancaq yenə açmadılar. Nikanor İvanoviçin səbri tükəndi, evlər idarəsinə məxsus açar dublikatlarının topasını cibindən çıxarıb, qapını hökmlə açdı və içəri keçdi.

– Ay ev qulluqçusu! – Nikanor İvanoviç yarıqaranlıq dəhlizdə qışqırdı. – Adın nədir sənin? Qrunyasan-nəsən? Yoxsan?

Heç kim cavab vermədi.

Onda Nikanor İvanoviç kabinetin qapısındakı möhürü qopartdı, qatlama metrəni portfelindən çıxarıb kabinetə girdi.

Girməyinə girdi, ancaq qapının ağzında heyrətdən quruyub qaldı, hətta diksindi.

Mərhumun stolunun arxasında əynində dama-dama pencək, başında jokey papağı, gözündə eynək arıq, uzun bir adam oturmuşdu... bir sözlə, həmin şəxs.

–Siz kimsiniz, vətəndaş? – Nikanor İvanoviç qorxa-qorxa soruşdu.

–Bah! Nikanor İvanoviç, – yad adam xırıltılı tenor səslə qışqırıb yerindən sıçradı, zorla sədrin əlini tutub silkələdi. Bu salamlaşma Nikanor İvanoviçin heç də xoşuna gəlmədi.

–Bağışlayın, – o, şübhə ilə dedi, – siz kimsiniz? Siz rəsmi şəxssiniz?

–Eh, Nikanor İvanoviç! – naməlum adam səmimiyyətlə cavab verdi. – Nə deməkdir, rəsmi şəxs, ya qeyri-rəsmi şəxs? Bunlar qarşınızdakı adama sizin necə baxmağınızdan asılıdır, Nikanor İvanoviç, bütün bunlar şərti və qeyri-

müəyyən şeylərdir. Bu gün mən qeyri-rəsmi şəxsəm, sabah bir də gördün oldum rəsmi şəxs! Əksinə də olur, Nikanor İvanoviç. Özü də necə olur!

Bu mühakimə evlər idarəsinin sədrini qətiyyən qane etmədi. Ümumiyyətlə, hər şeydən şübhələnən adam olduğuna görə belə nəticəyə gəldi ki, qarşısındakı bu dil-boğaza qoymayan adam məhz qeyri-rəsmi şəxsdir, deməli, avaranın biridir.

–Axı siz kimsiniz? Soyadınız nədir? – Sədr get-gedə səsini qaldırmağa və hətta naməlum adamı sıxışdırmağa başladı.

–Mənim soyadım... – vətəndaş bu kobudluğu vecinə də almadı, – deyək ki, Korovyevdir. Qəlyanaltı eləmək istəmirsiniz, Nikanor İvanoviç? Çəkinməyin! Hə?

–Bağışlayın, – Nikanor İvanoviç artıq hirsini boğa bilmədi, – indi qəlyanaltı yeridir! (Nə qədər acı olsa da, etiraf etmək lazımdır ki, Nikanor İvanoviç bir az kobud adam idi.) Mərhuma aid hissədə oturmaq qadağandır! Siz burada nə edirsiniz?

–Siz bir oturun, Nikanor İvanoviç, – vətəndaş heç halını pozmadı, yaltaqcasına sədrə kreslo təklif etdi.

Nikanor İvanoviç lap özündən çıxdı, kresloya yaxın durmayıb bağırdı:

–Axı siz kimsiniz?

–Əgər bilmək istəyirsinizsə, mən bu mənzildə iqamətgah salan xaricdən gəlmiş şəxsin tərcüməçisiyəm, – özünü Korovyev adlandıran kəs silinməmiş sarı çəkmələrinin dabanlarını bir-birinə vurub, özünü təqdim etdi.

Mikanor İvanoviçin ağzı açıla qalmışdı. Hansısa bir əcnəbinin, üstəlik də, tərcüməçiylə birlikdə bu mənzildə olması onun üçün əməlli-başlı sürpriz idi və o, izahat istədi.

Tərcüməçi həvəslə izahat verdi. Əcnəbi artist cənab Voland Varyetenin direktoru Stepan Boqdanoviç Lixodeyev tərəfindən lütfkarlıqla dəvət olunub ki, qastrolları müddətində, təxminən, bir həftə onun mənzilində yaşasın və Yaltaya getməli olduğu üçün Lixodeyev hələ dünən xarici qonağı qeydiyyata almaq xahişilə Nikanor İvanoviçə məktub yazıb.

–O, mənə heç nə yazmayıb, – sədr təəccübləndi.

–Siz öz portfelinizi eşələyin, Nikanor İvanoviç, – Korovyev təbəssümlə təklif etdi.

Nikanor İvanoviç çiynini çəkib portfeli açdı və Lixodeyevin məktubunu tapdı.

–Necə olub ki, mən bunu unutmuşam? – Nikanor İvanoviç ağzı açılmış məktuba key-key baxıb mızıldadı.

–Olur, olur, Nikanor İvanoviç! – Korovyev şaqqanaq çəkdi, – unutqanlıq, unutqanlıq, yorğunluq və qan təzyiqinin artması, əziz dostumuz Nikanor İvanoviç! Mən özüm dəhşətli dərəcədə huşsuzam. Nə vaxtsa içki süfrəsi arxasında öz tərcümeyi-halımdan sizə bir neçə fakt danışaram, gülməkdən ölərsiniz!

–Lixodeyev Yaltaya nə vaxt gedəcək?!

–O artıq gedib, gedib! – tərcüməçi bərkdən dedi, – bilirsinizmi, o artıq uçur. Doğrusu, kim bilir, o, indi haradadır! – Bu yerdə tərcüməçi əllərini yel dəyirmanının pərləri kimi yellətdi.

Nikanor İvanoviç bildirdi ki, mütləq əcnəbini görməlidir, ancaq tərcüməçidən rədd cavabı aldı: heç cür olmaz! Məşğuldur. Pişiyə təlim keçir.

– Əgər istəyirsinizsə, pişiyi göstərə bilərəm, – Korovyev dedi.

Bundan da, öz növbəsində, Nikanor İvanoviç boyun qaçırdı, tərcüməçi isə dərhal sədrə gözlənilməz, ancaq çox maraqlı bir təklif etdi.

Cənab Voland heç bir vəchlə mehmanxanada qalmaq istəmədiyinə görə – o, gen-bol yaşamağa öyrəşib – mənzil yoldaşlığı Volandın Moskvada qastrolları davam etdiyi bir həftə müddətində bütün mənzili, yəni mərhumun otağını da ona kirayə verə bilərmi?

–Axı mərhum üçün təfavütü yoxdur, – Korovyev pıçıldadı, – Nikanor İvanoviç, razılaşın ki, indi bu mənzil ona lazım deyil.

Nikanor İvanoviç bir az çaşqınlıqla etiraz etdi ki, əcnəbilər heç də şəxsi mənzillərdə yox, "Metropol"da qalmalıdırlar...

–Sizə deyirəm ki, yaman dəymədüşərdir! – Korovyev astadan dedi, – istəmir də! Mehmanxananı xoşlamır! Bu əcnəbilər məni, bax, bura yığıblar! – Korovyev barmağını damarları görünən boğazına toxundurub, dostcasına şikayətləndi, – inanırsınızmı, məni cana doydurublar! Gəlirlər... İt uşaqları ya casusluq edirlər, ya da adamın əsəbləriylə oynayırlar: bu elə deyil, o belə deyil!.. Sizin idarəyə isə, Nikanor İvanoviç, o, əməlli-başlı mənfəət gətirərdi. Pula da qızırqalanmaz, – Korovyev böyür-başına baxıb, sədrin qulağına pıçıldadı: – milyonerdir!

Tərcüməçinin təklifində aydın praktik məna var idi, çox abırlı təklifdi, di gəl tərcüməçinin danışıq tərzində, geyimində və heç nəyə yaramayan iyrənc eynəyində nəsə bir abırsızlıq vardı. Buna görə də anlamadığı bir şey sədrin ürəyini sıxırdı, buna baxmayaraq, o, təklifi qəbul etmək qərarına gəldi. Çünki mənzil yoldaşlığı, əfsuslar ki, pul sarıdan çox böyük korluq çəkirdi. Buxar qızdırıcısı üçün payıza kimi neft almaq lazım idi, ancaq nəylə – məlum deyildi. Əcnəbinin pulu hesabına isə bəlkə də, vəziyyətdən birtəhər çıxmaq olardı. Ancaq işgüzar və ehtiyatlı Nikanor

İvanoviç bildirdi ki, bu məsələ, hər şeydən əvvəl, əcnəbi turist bürosu ilə razılaşdırılmalıdır.

–Başa düşürəm, – Korovyev dedi, – bunsuz olmaz ki, mütləq lazımdır. Bu da sizin üçün telefon, Nikanor İvanoviç, təcili əlaqə saxlayın. Pula görə isə utanıb eləməyin, – sədri dəhlizdəki telefona tərəf çəkə-çəkə pıçıltı ilə əlavə etdi, – ondan da almayıb, kimdən alacaqsınız! Siz onun Nitsadakı villasını görəsiniz! Gələn yay xaricdə olanda qəsdən gedib baxın – ağzınız açıla qalar!

Əcnəbi turist bürosu ilə məsələ telefonla, özü də sədri heyrətləndirəcək dərəcədə tez yoluna qoyuldu. Məlum oldu ki, cənab Volandın Lixodeyevin şəxsi mənzilində qalmaq istəyindən orada artıq xəbərdardırlar və buna heç bir etirazları yoxdur.

–Di lap gözəl! – Korovyev bağırdı.

Onun hay-küyündən azca karıxmış sədr bildirdi ki, mənzil yoldaşlığı 50 №-li mənzili bir həftəliyə cənab Volanda verməyə razıdır... – Nikanor İvanoviç bir az duruxub dedi:

–Günü beş yüz rubla.

Bu yerdə Korovyev sədri lap çaşdırdı. Ağır pişiyin yumşaq sıçrayışları eşidilən yataq otağına işarə edib, xırıltılı səslə dedi:

–Bir həftəsi üç min beş yüzə?

Nikanor İvanoviç fikirləşdi ki, o, yəqin, indi əlavə edəcək: "İştahanız böyükdür, Nikanor İvanoviç!" Ancaq Korovyev tamam başqa şey dedi:

–Məgər bu puldur! Beş min istəyin, verəcək.

Çaşqın-çaşqın gülümsəyən Nikanor İvanoviç özü dəhiss etmədi ki, Korovyevin üstündə görünməmiş sürət və cəldliklə iki nüsxədə müqavilə yazdığı mərhumun yazı stolunun yanına necə gedib çıxıb. Sonra Korovyev əlində müqavilə yataq otağına cumub qayıtdı, özü də hər iki nüsxə artıq əcnəbi tərəfindən səliqəsiz şəkildə imzalanmışdı. Müqaviləyə sədr də qol çəkdi. Bu yerdə Korovyev ondan beş min üçün qəbz istədi...

–Sözlə, sözlə yazın, Nikanor İvanoviç!.. beş min rubl... – və bu ciddi işə uyuşmayan sözlərlə: – Eyn, svey, drey! – Bankdan çıxmış beş paçka təptəzə pulu sədrin qarşısına qoydu.

Korovyevin bir ucdan üyüdüb tökdüyü "Pul düzgünlüyü sevir", "öz gözünə inan" kimi zarafatları, zərb-məsəlləri ilə pul sayılıb qurtardı.

Sədr pulu sayıb, müvəqqəti qeydiyyat üçün əcnəbinin pasportunu Korovyevdən aldı, onu, müqaviləni, pulu portfelə qoydu və özünü saxlaya bilməyib utana-utana kontramarka istədi...

–Bu nə sözdür! – Korovyev nərildədi, – sizə neçə bilet lazımdır, Nikanor İvanoviç, on iki, on beş?

Son dərəcə karıxmış sədr izah etdi ki, ona vur-tut iki kontramarka lazımdır – özünə və arvadı Pelageya Antonovnaya.

Korovyev o saat bloknotunu çıxarıb, canla-başla Nikanor İvanoviç üçün birinci sıraya ikinəfərlik kontramarka yazdı. Və tərcüməçi bu kontramarkanı sol əliylə cəld Nikanor İvanoviçə verdi, sağ əliylə isə şax pul paçkasını sədrin o biri əlinə dürtdü. Nikanor İvanoviç pula nəzər salıb qızardı və onu geri itələməyə çalışdı.

–Bu olmaz... – o mızıldadı.

–Eşitmək belə istəmirəm, – Korovyev lap onun qulağına pıçıldadı, – bizdən olmaz, əcnəbilərdən isə olar. Siz onun xətrinə dəyərsiniz, Nikanor İvanoviç, yaxşı düşməz. Zəhmət çəkmisiniz...

–Ciddi cəzalandırılır, – sədr zorla eşidiləcək səslə pıçıldayıb, yan-yörəsinə baxdı.

–Şahid-zad var? – Korovyev onun o biri qulağına pıçıldadı, – sizdən soruşuram, var? Nə olub sizə?

Sonralar sədrin israrla dediyi kimi, bu vaxt möcüzə baş verdi: paçka özü sürüşüb onun portfelinə girdi. Sonra isə sədr üzgün, hətta heysiz vəziyyətdə mənzildən çıxdı. Başında cürbəcür fikirlər dolaşırdı. Nitsadakı villa, təlim görmüş pişik, həqiqətən də, şahidlərin olmaması, Pelageya Antonovnanın kontramarkaya sevinəcəyi fikri də başında fırlanırdı. Bunların bir-birilə əlaqəsi olmasa da, hər halda, xoş fikirlər idi. Buna baxmayaraq, sədrin ürəyinin lap dərinliyinə, elə bil, iynə batırırdılar. Bu, narahatlıq iynəsi idi. Üstəlik də, elə pilləkəndəcə ağlına gələn bir fikir sədri sarsıtdı: "Əgər qapıda möhür var idisə, tərcüməçi kabinetə necə girmişdi?! Və necə oldu ki, o – Nikanor İvanoviç bunu

soruşmadı?" Sədr bir müddət pilləkənlərə baxıb qoyun kimi gözlərini döydü, sonra qərara aldı ki, tüpürsün buna və qəliz suallarla özünə əziyyət verməsin...

Sədr mənzili tərk edən kimi yataq otağından zəif bir səs eşidildi:

–Bu Nikanor İvanoviç mənim xoşuma gəlmədi. O, hiyləgər və haramzadadır. Elə etmək olmazmı ki, o bir də gəlməsin?

–Messir, əmrinizə müntəzirəm!.. – Korovyevin artıq xırıltılı yox, təmiz və gur səsi haradansa eşidildi.

O saat da lənətə gəlmiş tərcüməçi dəhlizdə peyda oldu, telefonun nömrəsini yığıb, nədənsə, ağlamsına-ağlamsına dəstəyə dedi:

–Alo! Özümə borc bilirəm xəbər verəm ki, bizim Sadovaya küçəsində yerləşən 302-bis nömrəli binanın mənzil yoldaşlığının sədri Nikanor İvanoviç Bosoy valyuta alveri edir. Hal-hazırda onun otuz beş nömrəli mənzilində, tualetin havaçəkənində qəzetə bükülmüş dörd yüz dollar var. Danışan həmin binanın on bir nömrəli mənzilinin sakini

Timofey Kvastsovdur. Sizi and verirəm, adımı gizli saxlayın. Sədrin intiqam alacağından qorxuram.

Və əclaf dəstəyi asdı.

50 №-li mənzildə daha nələrin baş verdiyi məlum deyil, ancaq Nikanor İvanoviçin evində nələr baş verdiyi bəllidir. O, tualetə girib cəftəni vurandan sonra tərcüməçinin zorla verdiyi pul paçkasını portfeldən çıxarıb, dörd yüz rubl olduğunu yəqin etdi. Bu paçkanı Nikanor İvanoviç qəzetə büküb, ventilyasiyanın deşiyinə qoydu.

Beş dəqiqədən sonra sədr öz kiçik qonaq otağındakı stolun arxasında oturmuşdu. Arvadı mətbəxdən onun üçün səliqə ilə doğranmış, üstünə bolluca göy soğan səpilmiş siyənək balığı gətirdi. Nikanor İvanoviç bir qədəh araq süzüb içdi, ikinci qədəhi içdi, çəngələ üç parça siyənək balığı keçirdi... və bu zaman qapının zəngi çalındı, Pelageya Antonovna isə buğlanan qazanı gətirdi, bircə dəfə baxmaq kifayətdi ki, bu qatı, qaynar borşun içində dünyanın ən dadlı nemətinin – kəllə sümüyünün olduğunu dərhal biləsən.

Nikanor İvanoviç ağzının suyunu udub, it kimi mırıldadı:

–Sizi görüm lənətə gələsiniz! Yeməyə də qoymurlar. Heç kimi içəri buraxma, mən yoxam. Yoxam. Mənzilə görə, denən, zəhlə tökməsinlər. Bir həftədən sonra iclas olacaq...

Arvadı dəhlizə qaçdı, Nikanor İvanoviç isə od püskürən göldən çömçə ilə uzununa çatlamış sümüyü çıxartdı. Elə həmin vaxt yemək otağına iki adam girdi, onların da arxasınca nəyə görəsə ağappaq ağarmış Pelageya Antonovna. Adamları görəndə Nikanor İvanoviçin də rəngi qaçdı və o ayağa qalxdı.

–Tualet haradadır? – ağ yaxalıqh köynəkdə olan təşvişlə soruşdu.

Nəsə yemək stoluna dəyib taqqıldadı (Nikanor İvanoviç qaşığı əlindən müşəmbənin üstünə salmışdı.).

–Buradadır, buradadır, – Pelageya Antonovna cəld dilləndi.

Gələnlər tələsik dəhlizə cumdular.

–Axı nə olub? – Nikanor İvanoviç gələnlərin arxasınca gedə-gedə astadan soruşdu, – bizim evdə elə bir şey ola bilməz... Bəs sizin sənədləriniz... üzr istəyirəm...

Ağ köynəkli gedə-gedə sənədini Nikanor İvanoviçə göstərdi, o biri isə həmin vaxt tualetdə kətilin üstünə çıxıb, əlini ventilyasiyaya soxmuşdu. Nikanor İvanoviçin gözlərinə qaranlıq çökdü. Qəzeti açdılar, ancaq paçkadakılar rubl yox, üzərində qoca bir kişinin şəkli olan, indiyə qədər görmədiyi yaşıl, ya göy pullar idi. Burası da var ki, Nikanor İvanoviç bütün bunları düz-əməlli görə bilmədi, gözlərinin qabağında dairələr oynaşırdı.

–Ventilyasiyada dollarlar, – ağ köynəkli flkirli halda dedi və Nikanor İvanoviçdən mülayimcəsinə, nəzakətlə soruşdu: – Sizin bağlamadır?

–Yox! – Nikanor İvanoviç vahiməli səslə cavab verdi, – düşmənlər atıblar!

–Belə şeylər olur, – ağköynəkli razılaşdı və yenə mülayimcəsinə əlavə etdi:– Neyləyək, qalanlarını da təhvil vermək lazımdır.

–Yoxumdur! Allah haqqı yoxdur, indiyə qədər əlimə də almamışam! – sədr bağırdı.

O, əlaqəsiz sözlər qışqıra-qışqıra kamoda tərəf atıldı, hay-küylə siyirməni çəkib, içindən portfeli çıxartdı.

–Budur müqavilə... alçaq tərcüməçi atıb... Korovyev... eynəkli!

Portfeli açıb baxdı, əlini içinə soxdu, sifəti göyərdi və portfel əlindən borşun içinə düşdü. Portfeldə heç nə yox idi: nə Styopanın məktubu, nə müqavilə, nə əcnəbinin pasportu, nə pul, nə kontramarka. Bir sözlə, qatlama metrədən başqa heç nə.

–Yoldaşlar! – sədr qəzəblə qışqırdı, – onları tutun! Bizim binada cin-şəyatin var!

Bu yerdə Pelageya Antonovnanın gözünə nə göründüsə, əllərini şappıldadıb çığırdı:

–Təqsirini boynuna al, İvaniç! Güzəşt edərlər!

Gözlərinə qan sağılmış Nikanor İvanoviç yumruqlarını arvadının başı üzərinə qaldırıb xırıldadı:

– Ax, lənətəgəlmiş səfeh!

O, halsız halda stula çökdü, görünür, taleyilə barışmalı oldu.

Bu vaxt pilləkənin meydançasında maraqdan alışıb-yanan Timofey Kondratyeviç Kvastsov sədrin mənzilinin açar yerinə gah qulağını, gah gözünü dirəyirdi.

Beş dəqiqə keçmiş binanın həyətindəki sakinlər sədrin iki şəxsin müşayiətilə darvazaya tərəf getdiyini gördülər. Danışırdılar ki, Nikanor İvanoviç ağappaq ağarıbmış, yeriyəndə kefli kimi yırğalanır, nəsə mızıldayırmış.

Bir saatdan sonra isə on bir nömrəli mənzilə naməlum bir adam gəldi, Timofey Kondratyeviç başqa sakinlərə sədri necə yaxaladıqlarını ləzzətlə danışdığı vaxt, onu barmağı ilə mətbəxdən dəhlizə çağırıb nəsə dedi və birlikdə yoxa çıxdılar.

X fəsil
YALTADAN XƏBƏRLƏR

Nikanor İvanoviçin başına bədbəxt hadisə gəldiyi vaxt elə həmin Sadovaya küçəsindəki 302-bis №-li binanın yaxınlığında yerləşən Varyetenin maliyyə direktoru Rimskinin kabinetində iki nəfər var idi: Rimski özü və Varyetenin inzibatçısı Varenuxa.

Teatrın ikinci mərtəbəsindəki böyük kabinetin iki pəncərəsi Sadovaya küçəsinə, maliyyə direktorunun oturduğu yazı stolunun arxasındakı pəncərə isə Varyetenin sərinləşdirici içkilər satılan bufet, tir və açıq estrada yerləşən yay bağına baxırdı. Kabinetin bəzək-düzəyi yazı stolundan savayı divardan asılmış bir qalaq köhnə afişadan, balaca masaya qoyulmuş su dolu qrafindən, dörd kreslodan və üstünə hansısa tamaşanın çoxdan toz basmış maketi qoyulan küncdəki altlıqdan ibarət idi. Söz yox, bundan başqa, boyası qopub tökülmüş köhnə-köşkül kiçik bir seyf də var idi ki, Rimskinin sol tərəfində, yazı stolunun böyründə yerləşmişdi.

Masa arxasında oturan Rimskinin səhərdən kefi yoxdu, Varenuxa isə, əksinə, həyəcanlı və olduqca işgüzar görkəmdə idi. Bununla belə, enerjisini sərf etməyə yer tapmırdı.

Varenuxa xüsusilə də proqramın dəyişdiyi günlərdə zəhləsini tökən – indi məhz elə bir gün idi – kontramarka istəyənlərin əlindən maliyyə direktorunun kabinetində gizlənmişdi.

Telefon zəng çalan kimi Varenuxa dəstəyi götürüb yalandan dedi:

–Kimi? Varenuxanı? Yoxdur. Teatrdan çıxıb.

–Zəhmət olmasa, Lixodeyevə bir də zəng vur, – Rimski əsəbi halda dedi.

–Əşi, yoxdur evdə. Karpovu da yollamışam. Evdə heç kim yoxdur.

–Bu nə işdir qanmıram, – Rimski hesab makinasını şaqqıldada-şaqqıldada donquldandı.

Qapı açıldı və kapeldiner yenicə çap olunmuş bir yığın əlavə afişa ilə içəri girdi. Yaşıl vərəqədə iri qırmızı hərflərlə yazılmışdı:

Bu gün ve hər gün Varyete teatrında proqramdan əlavə:

PROFESSOR VOLAND

Qara magiya seansları tam ifşası ilə

Varenuxa maketin üstünə atılmış afişalara kənardan göz gəzdirib, kapeldinerə tapşırdı ki, bütün nüsxələri təcili yapışdırsınlar.

–Yaxşıdır, diqqəti cəlb edəndir, – kapeldiner gedəndən sonra Varenuxa fikrini bildirdi.

–Mənimsə bu həngamə heç xoşuma gəlmir, – Rimski buynuz sağanaqlı eynəyinin arxasından afişalara acıqla baxaraq deyindi, – ümumiyyətlə, mən təəccüb edirəm, kim buna icazə verib!

–Yox, Qriqori Daniloviç, elə demə, bu, çox incə gedişdir. Bunun bütün dadı-duzu ifşadadır.

–Bilmirəm, bilmirəm, bunun heç bir dadı-duzu yoxdur, o, həmişə özündən belə hoqqalar çıxarır! Heç olmasa, bu cadugəri göstərəydi. Barı sən onu görmüsən? Kim bilir, haradan eşələyib tapıb!

Aydın oldu ki, Rimski kimi Varenuxa da cadugəri görməyib. Dünən Styopa artıq qaralaması yazılmış müqavilə ilə maliyyə direktorunun üstünə (Rimskinin təbirincə desək, "dəli kimi") cummuşdu ki, təcili onun üzünü çıxarıb pulu versin. Cadugər isə əkilmişdi, Styopadan başqa onu görən olmamışdı.

Rimski saatını çıxarıb baxdı, üçə beş dəqiqə işlədiyini görüb lap hirsləndi. Hirslənməyib neyləsin! Lixodeyev,

təxminən, saat on birdə zəng elədi ki, yarım saata gəlir, gəlmədiyi bir yana, evindən də yoxa çıxdı!

–Axı işlərim tökülüb qalıb! – Rimski barmağı ilə bir yığın imzalanmamış kağız göstərib nərildədi.

–Görəsən, o da Berlioz kimi tramvay altına düşməyib ki? – Varenuxa kəsik-kəsik, davamlı və ümidsizlik dolu siqnallar eşidilən dəstəyi qulağına tutaraq dedi.

–Ancaq nə yaxşı olardı... – Rimski astadan acıqla dedi.

Elə bu vaxt kabinetə əynində formalı gödəkcə, qara yubka, başında furajka, ayağında çəkələk bir qadın girdi. Qadın belindəki balaca çantadan kvadratşəkilli ağ kağız və dəftər çıxarıb soruşdu:

–Varyete buradır? Sizə təcili teleqram var. Qol çəkin.

Varenuxa qadının dəftərinə əyri-üyrü bir qol çəkib,yalnız qapı onun arxasınca örtüləndən sonra kvadratşəkilli kağızı açdı.

Teleqramı oxuyub gözlərini döydü və kağızı Rimskiyə verdi.

Teleqramda yazılmışdı: "Yaltadan Moskvaya. Varyete. Bu gün saat on ikinin yansında cinayət axtarış idarəsinə gecə

köynəyində, şalvarda, çəkməsiz, ruhi xəstəyə oxşayan şabalıdı saçlı bir adam gəlib Varyetenin direktoru Lixodeyev olduğunu deyib Direktor Lixodeyevin harada olduğu barədə Yaltaya təcili teleqram vurun".

–Hoqqabaz! – Rimski bərkdən dedi və əlavə etdi: – Bu da bir sürpriz!

–Yalançı Dmitri, – Varenuxa qalan sözləri telefonun dəstəyinə dedi: – Teleqrafdır? Varyetenin hesabına. Təcili teleqram qəbul edin... Eşidirsiniz?.. "Yalta, cinayət axtarış idarəsinə... Direktor Lixodeyev Moskvadadır. Maliyyə direktoru Rimski..."

Yaltalı fırıldaqçı haqqındakı xəbərə baxmayaraq, Varenuxa Styopanı telefonla harada gəldi axtarmağa başladı və əlbəttə, heç yerdə tapmadı. Varenuxa dəstək qulağında, özgə hara zəng vurmaq barədə düşündüyü vaxt bayaq teleqram gətirən qadın içəri girib, Varenuxaya yeni bir kağız verdi. Varenuxa kağızı tələsik açıb oxuyandan sonra fit çaldı.

–İndi nə olub? – Rimski əsəbi halda gözlərini qırpdı.

Varenuxa teleqramı dinməzcə ona uzatdı və maliyyə direktoru bu sözləri oxudu: "Yalvarıram inanın Volandın hipnozu ilə Yaltaya atılmışam cinayət axtarış idarəsinə şəxsiyyətimi təsdiq edən təcili teleqram vurun Lixodeyev".

Rimski və Varenuxa başları bir-birinə toxuna-toxuna teleqramı təkrar oxudular, oxuyub dinməzcə baxışdılar.

–Vətəndaşlar! – qadın birdən hirsləndi, – qol çəkin, sonra nə qədər istəsəniz, susarsınız! Axı mən teleqram daşıyıram.

Varenuxa teleqramdan gözünü ayırmadan dəftərə əyri-üyrü bir qol çəkdi və qadın getdi.

–Sən axı onunla saat on ikiyə işləmiş telefonla danışmısan? – inzibatçı çaşqınlıq içində dilləndi.

–Demək də gülüncdür! – Rimski bağırdı, – danışdım, ya danışmadım, o, indi Yaltada ola bilməz! Bunu düşünmək belə gülüncdür!

–O, keflidir... – Varenuxa dedi.

–Kim keflidir? – Rimski soruşdu və yenə bir-birinə baxdılar.

Yaltadan hansısa fırıldaqçının, ya dəlinin teleqram vurduğuna şübhə yoxdur; ancaq bir şey qəribə idi: vur-tut dünən Moskvaya gəlmiş Volandı yaltalı kələkbaz axı haradan tanıyırdı? Lixodeyevlə Volandın əlaqəsi olduğunu haradan bilirdi?

–"Hipnozla..." – Varenuxa teleqramdakı sözü təkrar etdi, – axı Voland haqqında o, haradan bilir? – gözlərini döydü və birdən qətiyyətlə bərkdən dedi: – Ola bilməz, cəfəngiyatdır, cəfəngiyatdır, cəfəngiyatdır!

–Bu lənətə gəlmiş Voland harada qalır? – Rimski soruşdu.

Varenuxa dərhal əcnəbi turist bürosu ilə əlaqə saxladı və Rimskinin təəccübünə rəğmən xəbər verdi ki, VolandLixodeyevin mənzilində qalır. Sonra Lixodeyevin evinin telefon nömrəsini yığıb, dəstəkdən gələn kəsik-kəsik siqnallara bir xeyli qulaq asdı. Bu siqnalların arasında uzaqdan ağır-ağır, dərdli-dərdli oxuyan bir səs eşidilirdi: "qayalar yurdum mənim..." – Varenuxa düşündü ki, telefon şəbəkəsinə radionun səsi qarışıb...

–Ev cavab vermir, – Varenuxa dəstəyi yerinə qoydu, – bəlkə, bir də zəng vurum...

Sözü ağzında qaldı. Qapıda yenə həmin qadın göründü və hər ikisi – Rimski də, Varenuxa da onun qabağına getdilər, o isə bu dəfə çantasından ağ yox, tünd rəngli vərəqə çıxartdı.

–Artıq məsələ maraqlı şəkil alır, – Varenuxa tələsik uzaqlaşan qadını baxışları ilə ötürərək acıqla dedi. Vərəqəni ilk olaraq Rimski götürdü.

Fotoqrafiya kağızının tünd fonunda qara sətirlər aydınca seçilirdi:

"Sübut üçün mənim xəttim, mənim imzam Teleqramla təsdiq edin Volandı gizlicə nəzarətə götürün, Lixodeyev".

Teatrlarda işlədiyi iyirmi il ərzində Varenuxa çox şeylər görmüşdü, ancaq bu yerdə hiss etdi ki, başı tormozlanıb və adi, üstəlik də, mənasız sözdən başqa heç nə deyə bilmədi:

–Bu ola bilməz!

Rimski isə başqa cür hərəkət etdi. O, ayağa qalxdı, qapını açıb kətildə oturmuş xidmətçi qadına qışqırdı:

–Poçtalyonlardan başqa heç kimi içəri buraxma! – və kabineti açarla bağladı.

Sonra yazı stolunun siyirməsindən bir qalaq kağız çıxarıb, fotoqramdakı sola əyilmiş qara hərfləri Styopanın dərkənarlarındakı və əyri-üyrü xətlərlə bəzədiyi imzasındakı hərflərlə diqqətlə tutuşdurmağa başladı. Masanın üstünə əyilmiş Varenuxanın isti nəfəsi Rimskinin sifətini vururdu.

–Bu, onun imzasıdır, – nəhayət, maliyyə direktoru qətiyyətlə dedi, Varenuxa isə əks-səda kimi cavab verdi:

–Onundur.

Rimskinin üzünə baxanda inzibatçı bu sifətdəki dəyişikliyə mat qaldı. Onsuz da, arıq olan maliyyə direktoru, elə bil, lap üzülmüşdü, hətta qocalmışdı, buynuz sağanaqlı eynəyinin altından baxan gözləri isə öz kəskinliyini itirmişdi və bu baxışlarda təkcə həyəcan yox, həm də, elə bil, kədər var idi.

Adam son dərəcə heyrətləndiyi anda nə edirsə, Varenuxa da onu elədi. Kabinetdə oyan-buyana qaçdı, çarmıxa çəkiblərmiş kimi iki dəfə əllərini yuxarı qaldırdı və qrafindəki sarımtıl sudan düz bir stəkan içib bərkdən dedi:

–Başa düşmürəm! Başa düşmürəm!

Rimski isə pəncərəyə baxa-baxa gərgin halda nə haqdasa düşünürdü. Maliyyə direktoru çox çətin vəziyyətdə qalmışdı. Elə indi, yerindən tərpənmədən qeyri-adi hadisənin adi izahını tapmalı idi.

Maliyyə direktoru gözlərini qıyıb, Styopanı bu gün, təxminən, saat on ikinin yarısında hansısa misli görünməmiş, həddən artıq sürətli təyyarəyə gecə köynəyində və çəkməsiz minən təsəvvür etdi, sonra isə elə həmin Styopanı yenə on ikinin yansında ayağında corab Yalta aerodromunda gözünün qabağına gətirdi... Gəl indi bundan baş çıxar!

Bəlkə, bu gün onunla öz evindən telefonla danışan Styopa deyilmiş? Yox, Styopa idi! Styopanın səsini tanımırdımı! Bir də heç Styopa olmasın, uzağı, dünən axşama yaxın Styopa öz kabinetindən bu səfeh müqavilə ilə həmin bu kabinetə gəlib, öz yelbeyinliyilə maliyyə direktorunu əsəbiləşdirmişdi. Teatrda heç nə demədən o necə gedə, ya uça bilərdi? Əgər lap elə dünən axşam uçsa da, bu gün günortaya çatmazdı. Yoxsa çatardı?

–Yaltaya neçə kilometrdir? – Rimski soruşdu.

Varenuxa vurnuxmağını dayandırıb bağırdı:

–Mən bunu artıq götür-qoy etmişəm! Dəmiryolla Sevastopola qədər, təxminən, min beş yüz kilometrdir. Yaltaya qədər də üstünə səksən kilometr gəl. Ancaq hava ilə, əlbəttə, azdır.

Hm... Bəli... Qatardan söz belə gedə bilməz. Bəs onda necə? Qırıcı təyyarə? Styopanı qırıcı təyyarəyə kim və necə buraxar, özü də çəkməsiz? Niyə? Bəlkə, o, çəkmələrini Yaltaya çatandan sonra çıxarıb? Yenə həmin şey: niyə? Elə çəkməli də onu qırıcı təyyarəyə buraxmazlar! Əşi, qırıcı təyyarənin də bu məsələyə dəxli yoxdur. Axı yazılıb ki, cinayət axtarış idarəsinə gündüz saat on ikinin yarısında gəlib, Moskvada isə telefonla danışıb... icazənizlə... bu yerdə Rimskinin gözünün qabağına saatının siferblatı gəldi... O, əqrəblərin harada durduğunu xatırladı. Dəhşətdir! On ikiyə iyirmi dəqiqə işləmişdi. Bəs onda nə alınır? Əgər fərz etsək ki, Styopa telefonla danışandan sonra elə həmin an aerodroma cumub, beş dəqiqəyə, deyək, oraya çatıb, yeri gəlmişkən, bu da ağlabatan deyil, belə çıxır ki, havaya

qalxan həmin təyyarə beş dəqiqənin içində min kilometrdən artıq yol qət edib? Deməli, o, bir saatda on iki min kilometr yol gedir. Belə şey ola bilməz, deməli, o, Yaltada deyil.

Daha nə qalır? Hipnoz? Dünyada elə bir hipnoz yoxdur ki, adamı min kilometr uzağa ata! Yəqin, ona elə gəlir ki, Yaltadadır! Bəlkə də, ona elə gəlir, bəs Yalta cinayət axtanş idarəsinə də elə gəlir?! Yox, bağışlayacaqsınız, belə şey ola bilməz!.. Ancaq onlar axı teleqramı oradan vururlar!

Maliyyə direktorunun sifəti dəhşətli hala düşmüşdü. Bu vaxt qapının dəstəyini bayırdan dartdılar və qapının arxasında dayanmış xidmətçi qadının qışqırığı eşidildi:

–Olmaz! Buraxmaram! Oldürsələr də, qoymaram! İclasdır!

Rimski bacardığı qədər özünü ələ alıb, telefonun dəstəyini götürdü:

–Məni təcili Yalta ilə calaşdırın.

"Ağılllı hərəkətdir!" – Varenuxa fikrindən keçirdi.

Ancaq Yalta ilə danışıq alınmadı. Rimski dəstəyi yerinə qoyub dedi:

–Tərslikdən xətt xarab olub.

Hiss olunurdu ki, xəttin xarablığı, nədənsə, onun qanını xüsusilə möhkəm qaraldıb, hətta onu düşünməyə də vadar etdi. Bir az fikirləşib yenə dəstəyi götürdü, o biri əliylə dəstəyə dediklərini yazmağa başladı.

–Təcili teleqram qəbul edin. Varyete. Bəli. Yalta. Cinayət axtarış idarəsinə. Bəli. "Bu gün, təxminən, saat on ikinin yarısında Lixodeyev Moskvada mənimlə telefonla danışıb, nöqtə. İmzasını təsdiqləyirəm, nöqtə. Adı çəkilən artisti nəzarətə götürmək üçün tədbir görürəm. Maliyyə direktoru Rimski".

"Çox ağıllı hərəkət etdi!" – Varenuxa düşündü, ancaq düz-əməlli düşünməyə macal tapmamış başımdan bu sözlər keçdi: "Axmaqlıqdır! O, Yaltada ola bilməz!"

Rimski isə həmin vaxt bu işləri gördü: gələn bütün teleqramları və özü vurduğu teleqramların surətini səliqə ilə bir yerə yığıb zərfə qoydu, zərfin ağzını yapışdırdı, üstünə bir neçə söz yazıb Varenuxaya verdi.

–İvan Savelyeviç, – dedi, – elə indi şəxsən özün apar. Qoy orada araşdırsınlar.

"Bax, bu, doğrudan da, ağıllı hərəkətdir!" – Varenuxa fıkrindən keçirib, zərfi portfelinə dürtdü. Sonra hər ehtimala qarşı Styopanın mənzilinin telefon nömrəsini yığıb dinlədi və sevincək göz vurub ağız-burnunu əydi. Rimski boğazını uzatdı.

–Artist Volandı olar? – Varenuxa nəzakətlə dedi.

–Məşğuldur, – dəstəkdəki adam xırıltılı səslə cavab verdi, – kimdir soruşan?

–Varyetenin inzibatçısı Varenuxa.

–İvan Savelyeviç? – dəstəkdəki adam sevincək qışqırdı, – sizin səsinizi eşitməkdən çox məmnunam! Kefiniz necədir?

–Mersi, – Varenuxa təəccüblə cavab verdi, – mən kiminlə danışıram?

–Köməkçisidir, onun köməkçisi və tərcüməçi Korovyev, – dəstəkdəki adam dil-boğaza qoymurdu, – canla-başla qulluğunuzdayam, əzizim İvan Savelyeviç! Əmrinizə müntəzirəm. Nə buyurursunuz?

–Bağışlayın, Stepan Boqdanoviç Lixodeyev evdədir?

–Əfsus ki, yoxdur! Yoxdur! – dəstəkdəki adam qışqırdı, – gedib.

–Bəs hara gedib?

–Şəhər kənarına, maşınla gəzməyə.

–N... necə? Gə... gəzməyə?.. Bəs nə vaxt qayıdacaq?

–Dedi ki, təmiz hava alıb qayıdacaq!

–Belə... – Varenuxa çaşdı, – mersi. Zəhmət olmasa, müsyö Volanda çatdırın ki, onun çıxışı bu gün üçüncü hissədədir.

–Baş üstə. Əlbəttə. Mütləq. Təcili. Hökmən. Çatdıraram, – dəstəkdəki adam sözləri bir-birinin dalınca üyüdüb-tökdü.

–Sağ olun, – Varenuxanın matı-qutu qurudu.

–Xahiş edirəm, – dəstəkdəki adam dedi, – mənim ən xoş, ən odlu-alovlu salamlarımı, arzularımı qəbul edəsiniz! Müvəffəqiyyətlər! Uğurlar. Xoşbəxtlik. Salamat qalın!

–Əlbəttə! Mən axı demişdim! – inzibatçı həyəcanla qışqırdı.– Yalta-zad nədir, o, şəhər kənarına gedib!

–Əgər belədirsə, – hirsindən rəngi qaçmış maliyyə direktoru dedi, – bu artıq, doğrudan da, murdarlıqdır, buna başqa ad vermək olmaz!

–Xatırladım! Xatırladım! Puşkində "Yalta" adında ətqutabı satılan bir yer açılıb! Hər şey aydındır! Oraya gedib, keflənənə qədər içib, indi oradan teleqram vurur!

–Bu daha ağ oldu, – Rimskinin yanağı səyridi, hirsindən gözləri alışıb-yanırdı, – eybi yox, bu gəzinti ona baha başa gələcək, – birdən duruxub əlavə etdi: – Bəs onda cinayət axtarış idarəsi...

–Boş şeydir! Onun öz hoqqalarıdır, – coşmuş inzibatçı onun sözünü kəsib soruşdu: – Məktubu aparım?

–Hökmən, – Rimski cavab verdi.

Yenə qapı açıldı və həmin qadın içəri girdi... "Odur!" – Rimski nədənsə qüssə ilə fikirləşdi. Və hər ikisi poçtalyonun qarşısına getdi.

Bu dəfə teleqramda belə yazılmışdı:

"Təsdiqə görə sağ olun təcili mənim üçün cinayət axtarış idarəsinə beş yüz rubl yollayın sabah Moskvaya uçuram Lixodeyev".

–O, dəli olub... – Varenuxa mızıldadı.

Rimski isə açarlarını cingildədib seyfdən pul çıxardı, beş yüz rubl saydı, zəng vurub, pulu xidmətçiyə verdi və onu teleqrafa yolladı.

–Bağışla, Qriqori Daniloviç, – Varenuxa öz gözünə inanmadı, – məncə, nahaq yerə pul göndərirsən.

–Pul geri qayıdacaq, – Rimski astadan dedi, – ancaq o, bu gəzintiyə görə cavab verməli olacaq, – sonra Varenuxanın portfelinə işarə etdi, – get, İvan Savelyeviç, ləngimə.

Varenuxa qoltuğunda portfel qaçaraq kabinetdən çıxdı.

O, aşağı mərtəbəyə düşdü, kassanın ağzında uzun növbə düzüldüyünü görüb, kassir qadından bir saat sonra anşlaq olacağını öyrəndi, çünki camaat əlavə vurulan afişaları görən kimi axışıb gəlməyə başlamışdı; kassirə tapşırdı ki, loja və parterdəki otuz ən yaxşı yerə bilet satmasın, kassadan tələsik çıxıb, yolüstü zəhlətökən kontramarkaçılardan canını birtəhər qurtarıb, kepkasını götürmək üçün öz kabinetinə baş vurdu. Bu vaxt telefon zəng çaldı.

–Bəli! – Varenuxa qışqırdı.

–İvan Savelyeviç? – dəstəkdəki adam burnunda danışaraq, iyrənc bir səslə soruşdu.

–O, teatrda yoxdur! – Varenuxa elə bunu demişdi ki, dəstəkdəki adam onun sözünü kəsdi:

–Özünüzü gicliyə vurmayın, İvan Savelyeviç, mənə qulaq asın. O teleqramları heç hara aparmayın və heç kimə göstərməyin.

–Kimdir danışan? – Varenuxa bağırdı, – vətəndaş, bu hoqqalara son qoyun! Sizi elə bu saat taparlar! Sizin nömrəniz?

–Varenuxa, – həmin iyrənc səs dedi, – sən rus dilini bilirsən? Teleqramları heç hara aparma.

–Aha, demək, siz sakitləşmək istəmirsiniz? – inzibatçı hirslə qışqırdı, – di özünüzdən küsün! Bunun altını çəkərsiniz, – o, yenə hərbə-zorba gəlmək istədi, ancaq susdu, çünki hiss etdi ki, dəstəkdə onu daha eşidən yoxdur.

Bu vaxt kabinet, nədənsə, çox tez qaranlıqlaşmağa başladı. Varenuxa qapını arxasınca çırpıb, yan qapıdan yay bağına tərəf qaçdı.

İnzibatçı həyəcanlı idi və enerjisi aşıb-daşırdı. Bu həyasız zəngdən sonra şübhə etmirdi ki, xuliqan dəstəsi nəsə hoqqa çıxarır və bu murdar hoqqalar Lixodeyevin qeyb olması ilə bağlıdır. İnzibatçı yaramazlan ifşa etmək istəyilə alışıb-yanırdı, nə qədər qəribə olsa da, içində xoş bir duyğu yaranmışdı. Adam diqqət mərkəzində olmağa, hara isə sensasiyalı xəbər aparmağa can atanda belə olur.

Yolunu kəsirmiş kimi, xəbərdarlıq edirmiş kimi bağda külək əsib qumu onun gözünə doldurdu. İkinci mərtəbədə pəncərə elə çırpıldı ki, az qaldı şüşələri tökülsün, ağcaqayın və cökə ağaclarının başı həyəcanla yırğalandı. Hava qaraldı və sərinləşdi. İnzibatçı gözlərini silib baxdı ki, Moskvanın üstü ilə aşağıdan qara, ortası sarımtıl bulud sürünür. Uzaqlardan xırıltı, gurultu eşidildi.

Varenuxa nə qədər tələssə belə, montyorun lampaya tor çəkib-çəkmədiyini yoxlamaq istəyi onu bir saniyəlik də olsa, yay tualetinə tərəf qaçmağa məcbur etdi.

Varenuxa tirin yanından ötüb, sıx yasəmən kollarının arasındakı mavi rəngli tualetə girdi. Montyor səliqəli adammış, kişi bölməsinin tavanındakı lampaya metal tor

çəkilmişdi, ancaq inzibatçının əhvalı pozuldu, çünki havanın hətta tufanqabağı qaralmasına baxmayaraq, divarların artıq kömürlə, karandaşla yazıldığını görmək olurdu.

–Bu nə murdarlıqdır!.. – inzibatçı elə bu sözləri demişdi ki, qəfil arxadan mırıltı eşitdi.

–Sizsiniz, İvan Savelyeviç?

Varenuxa diksinib çevrildi və qarşısında sifətdən pişiyə oxşayan tösmərək bir adam gördü.

–Tutaq ki, mənəm, – Varenuxa kinli-kinli cavab verdi.

–Çox, çox xoşdur, – pişiyə bənzər gonbul adam cır səslə dedi və qəfil dönüb Varenuxanın qulağının dibinə nə təhər vurdusa, kepkası başından uçub, tualetin deşiyində yoxa çıxdı.

Gonbulun zərbəsindən tualet bir anlığa işıqlandı, ildırım çaxdı. Sonra bir də göy guruldadı və inzibatçının qarşısında balacaboy, ancaq enlikürək, bir gözü titəli, köpək dişləri uzun, kürən bir adam peyda oldu, həmin adam, görünür, solaxay idi və inzibatçının o biri qulağının dibindən ilişdirdi. Yenə göy guruldadı, tualetin taxta damına şıdırğı yağış tökdü.

–Siz nə edirsiniz, yoldaşla... – ağlı başından çıxan inzibatçı ümumi tualetdə adama hücum edən quldurlara "yoldaşlar" sözünün heç cür uyğun gəlmədiyini o dəqiqə anlayıb xırıldadı: – vətənda... – bu cür adlandırılmağa da layiq olmadıqlarını başa düşdü və hansınınsa üçüncü zərbəsi ona nə təhər dəydisə, burnunun qanı büzməli üst köynəyinə fışqırdı.

–Portfelindəki nədir, müftəxor? – pişiyə oxşayan bağırdı, – teleqramlardır? Bəs sənə xəbərdarlıq etməmişdilər ki, onları heç hara aparmayasan? Səndən soruşuram, xəbərdarlıq etmişdilər?

–Etmişdələ... dilər... dələr... – nəfəsi boğula-boğula cavab verdi.

–Buna baxmayaraq, dabanına tüpürdün? Portfeli bura ver, alçaq! – sonradan peyda olan adam telefonda eşitdiyi həmin tın-tın səslə qışqırdı və portfeli Varenuxanın titrəyən əlindən dartıb aldı.

Hər ikisi inzibatçının qoltuğuna girdi, onu bağdan çıxardıb Sadovaya küçəsi ilə qaçmağa başladılar. Əməllicə tufan qalxmışdı, navalçalardan, damlardan şırıltı ilə axan

köpüklü su gurultu-uğultu qopararaq kanalizasiya deşiklərinə tökülürdü, darvazaların altından sel gedirdi. Sadovaya küçəsində heç kim gözə dəymirdi, İvan Savelyeviçin köməyinə çatası adam yox idi. Şimşəyin işıqlandırdığı quldurlar bulanıq sel-suyun üstündən atıla-atıla, bir saniyənin içində yarımcan inzibatçını sürüyüb 302-bis №-li binaya gətirdilər, öz tuflilərini və corablarını əllərində tutan iki ayaqyalın qadının divara sığındığı həyət darvazasından içəri soxuldular. Sonra altıncı çöl qapısına tərəf götürüldülər və az qala, havalanmış Varenuxanı beşinci mərtəbəyə qaldırıb, onun yaxşı bələd olduğu Styopa Lixodeyevin mənzilinin yanqaranlıq dəhlizinə atdılar.

Hər iki quldur o saat yoxa çıxdı, onların əvəzinə dəhlizdə kürən, gözləri fosfor kimi işıq saçan lümlüt bir qız peyda oldu.

Varenuxa anladı ki, başına gələnlərin ən dəhşətlisi elə budur və inildəyib divara tərəf sıçradı. Qız isə inzibatçıya lap yaxınlaşıb, əlini onun çiyninə qoydu. Varenuxanın saçları biz-biz oldu, çünki hətta islanmış soyuq köynəyin üstündən belə bu əlin buz kimi soyuq olduğunu duydu.

– Qoy bir səni öpüm, – qız nəvazişlə dedi və o, işıq saçan gözləri düz öz gözlərinin önündə gördü. Bu vaxt Varenuxa huşunu itirdi və öpüşü hiss etmədi.

XI fəsil
İVANIN İKİLƏŞMƏSİ

Hələ bir saat əvvəl may günəşinin işığında göz oxşayan şam meşəsi bozardı, qaraldı və yoxa çıxdı.

Bayırda selləmə yağış tökürdü. Hərdən-hərdən şimşək çaxırdı, göy guruldayırdı, xəstənin otağı ani olaraq işıqlanırdı.

İvan çarpayıda oturub, köpüklənən bulanıq çaya baxa-baxa sakitcə ağlayırdı, hər dəfə ildırım çaxanda yanıqlı-yanıqlı inildəyib, əlləriylə üzünü örtürdü. Tufandan əvvəl otağa dolan külək İvanın yazdığı vərəqləri döşəməyə dağıtmışdı.

Şairin qorxunc məsləhətçi haqqında ərizə yazmaq cəhdi boşa çıxdı. Praskovya Fyodorovna adlı gonbul feldşerdən

karandaş qırığı və kağız alan kimi işgüzarcasına əlini-əlinə sürtüb, tələsik masanın arxasına keçdi. Əvvəlini çox cəld yazdı:

"Milisə. Massolitin üzvü İvan Nikolayeviç Bezdomnı tərəfindən. Ərizə. Dünən axşam mən mərhum M.A.Berliozla Patriarx gölünə gəldim..."

O saat da şair dolaşıb qaldı, ən başlıcası da "mərhum" sözünə görə. Nəsə cəfəng bir şey alınırdı: necə axı – mərhumla gəldim? Mərhumlar gəzmir! Doğrudan da, nə desən olar, elə bilərlər dəliyəm!

İvan Nikolayeviç belə düşünüb, yazdıqlarını düzəltməyə başladı. Bu cür alındı: "...sonradan ölmüş M.A.Berliozla..." Yenə müəllif razı qalmadı. İkinci dəfə üstündə işləyəsi oldu, bu, əvvəlkilərdən də pis çıxdı: "...tramvayın ahına düşən Berliozla..." – bu yerdə heç kimin tanımadığı eyni soyadlı bəstəkar Berlioz yada düşdü, əlavə etməli oldu: "...bəstəkarla yox..."

Bu iki Berliozun arasında girinc qalan İvan hamısını qaralayıb, oxucunun diqqətini tez çəkmək üçün nəsə ən təsirli yerdən başlamaq qərarına gəldi və yazdı ki, pişik

tramvaya mindi, sonra kəsilmiş başla bağlı epizoda qayıtdı. Baş məsləhətçinin əvvəlcədən hər şeyi xəbər verməsi Ponti Pilatı onun yadına saldı və daha artıq inandırıcı olması üçün İvan qərara aldı ki, prokuratorun qan-qırmızı astarlı ağ plaşda İrodun sarayının sütunları arasına daxil olduğu andan hər şeyi büsbütün yazsın.

İvan cidd-cəhdlə işləyirdi, yazdığını pozurdu, yeni sözlər əlavə edirdi, hətta Ponti Pilatın, daha sonra dal ayaqları üstündə duran pişiyin şəklini çəkməyə çalışdı. Amma şəkillər də kömək etmədi, nə qədər yazırdısa, şairin ərizəsi bir o qədər dolaşıq və anlaşılmaz olurdu.

Uzaqdan kənarları tüstü kimi burulan qorxunc bulud görünüb şam meşəsini örtəndə, külək qalxanda İvan hiss etdi ki, heydən düşüb, ərizənin öhdəsindən gələ bilməyəcək, səpələnən vərəqləri yığmadı və sakitcə acı-acı ağladı.

Tufan qalxanda rəhmdil feldşer Praskovya Fyodorovna şairə baş çəkdi, onun ağladığını görüb narahat oldu, şimşək xəstəni qorxutmasın deyə pərdəni çəkdi, vərəqləri döşəmədən yığıb həkim dalınca qaçdı.

Həkim gəldi, İvanın qoluna iynə vurub onu əmin etdi ki, daha ağlamayacaq, indi hər şey keçib-gedəcək, hər şey unudulacaq.

Həkimin sözləri düz çıxdı. Tezliklə çayın o tayındakı şam meşəsi əvvəlki görkəmini aldı, buludlardan təmizlənib yenə durulan göyün altında son ağacına kimi göründü, çay da sakitləşdi. İynə vurulan kimi İvanın qüssəsi dağılmağa başladı və şair indi rahatca uzanıb göy qurşağına baxırdı.

Axşama qədər beləcə davam elədi, o hətta göy qurşağının yoxa çıxdığını, şər qarışdığını, şam meşəsinin qaraldığını da bilmədi.

İsti süddən içib İvan yenə uzandı və fikirlərinin dəyişdiyinə özü də məəttəl qaldı. Lənətə gəlmiş cüvəllağı pişik daha ona idbar görünmürdü, kəsik baş onu qorxutmurdu və bunları fikrindən çıxarıb düşündü ki, əslində, klinika heç də pis deyil. Stravinski ağıllı və məşhur adamdır, onunla iş görmək çox xoşdur. Üstəlik də, tufandan sonra hava ləzzətli və təmizdir.

Xəstəxana yatırdı. Səssiz dəhlizlərdə tutqun ağ lampalar sönmüşdü, onların əvəzinə, qaydaya uyğun olaraq, zəif mavi

gecə lampaları yanırdı və dəhlizdəki rezin ayaqaltıların üstü ilə ehtiyatla gəzən feldşer qadınların ayaq səsləri qapının arxasında get-gedə seyrəlirdi.

İndi İvan xoş bir üzgünlüklə uzanıb, gah tavandan yumşaq işığı süzülən abajurunaltındakı lampaya, gah da qaralmış şam meşəsindən qalxan aya baxa-baxa özüylə söhbət edirdi.

– Əslinə qalanda, Berlioz tramvayın altına düşdüyünə görə axı mən niyə belə həyəcanlanmalı idim? – şair fikirləşdi. – İndi də cəhənnəmə ki, ölüb! Bir yana baxanda, nəyimdir mənim, əmim oğludur, dayım oğludur? Dərindən götürsək, mərhumu heç düz-əməlli tanımırdım da. Doğrudan, axı onun haqqında mən nə bilirdim? Heç nə, bircə onu ki, keçəldir və son dərəcə bəlağətli danışmağı var. Sonra, vətəndaşlar, – İvan kiməsə müraciətlə öz çıxışını davam etdirdi, – bir şeyi aydınlaşdıraq: mənə izah edin görüm, bomboş qara gözü olan bu müəmmalı məsləhətçiyə, cadugərə, professora nəyə görə hirslənmişdim? Tuman-köynəkdə, əlimdə şam boş yerə onun dalınca düşməyim nəyə lazımdı, hələ restorandakı hoqqabazlıq nəydi?

–Amma axı, – qəfil içindən, ya qulağının dibindən gələn acıqlı bir səslə əvvəlki İvan yeni İvana dedi, – Berliozun başının kəsiləcəyini o, əvvəlcədən bilirdi? Necə həyəcanlanmayasan?

–Bu nə söhbətdir, yoldaşlar! – yeni İvan köhnə, əvvəlki İvana etiraz etdi, – hətta uşağa da aydındır ki, burada bir əmma var. O, yüz faiz qeyri-adi və müəmmalı bir adamdır. Ancaq ən maraqlısı da elə budur! Bu adam Ponti Pilatı şəxsən tanıyır, bundan da maraqlı nə ola bilər? Patriarx gölündə hay-küy qaldırmaqdansa, Ponti Pilatın və həbs edilmiş Qa-Nosrinin sonra başına nələr gəldiyini ondan nəzakətlə soruşmaq daha ağıllı iş olmazdımı?

Ancaq gör mən neylədim! Əslində, ciddi hadisədir – jurnal redaktoru tramvay altına düşüb! Amma buna görə jurnalı bağlamayacaqlar ki! Axı neyləyəsən: insan əbədi deyil, çox düzgün deyiblər ki, qəflətən ölə də bilər. Di Allah rəhmət eləsin ona! Başqa bir redaktor qoyacaqlar, hətta, ola bilsin, əvvəlkindən də bəlağətli danışacaq.

Yeni İvan bir az mürgüləyib, istehza ilə köhnə İvandan soruşdu:

–Onda mənə nə ad vermək olar?

–Axmaq! – İvanların heç birinə aid olmayan, məsləhətçinin yoğun səsinə çox bənzəyən kişi səsi aydınca dedi.

İvan nəyə görəsə "axmaq" sözündən inciməmdi, hətta buna yarıyuxulu halda gülümsədi. Yuxu İvanı aparırdı, artıq fil ayaqlı palmaları görürdü, pişik də yanından keçdi, ancaq qorxunc deyildi, şən idi və İvan artıq yuxuya gedirdi ki, birdən dəmir barmaqlıq səssizcə yana sürüşdü və ay işığından gizlənən müəmmalı bir adam eyvanda peyda olub, İvana barmağını silkələdi.

İvan qorxub çəkinmədən çarpayıda dikəldi və eyvanda dayanan kişini gördü. Bu kişi barmağını dodağına aparıb pıçıldadı:

–Ssss!

XII fəsil

QARA MAGİYA VƏ ONUN İFŞASI

Başına deşikli sarı şlyapa qoymuş, armudşəkilli tünd-qırmızı burun taxmış dama-dama şalvarlı, laklanmış çəkməli balaca bir adam adi ikitəkərli velosipedlə Varyetenin səhnəsinə çıxdı. O, fokstrot sədaları altında dövrə vurub qalib kimi hayqırdı və velosipedi şahə qaldırdı. Balaca adam velosipedi bir az dal təkər üstündə sürüb, çevrilərək ayaqlarını mil qaldırdı, sürə-sürə qabaq təkəri açıb səhnənin arxasına diyirlətdi, sonra pedalı əllərilə fırlada-fırlada bir təkərlə yoluna davam etdi.

Əynindəki triko və yubkaya gümüşü ulduzlar səpələnmiş kök sarışın qadın oturacağı yüksəkdə olan birtəkərli uzun metal dirəyin üstündə səhnəyə çıxıb dövrə vurmağa başladı. Onunla qarşılaşanda balaca adam qışqıraraq salamlaşır və yumru şlyapasını ayağı ilə başından çıxarırdı.

Nəhayət, səkkiz yaşlarında qoca sifətli bir uşaq çox iri avtomobil siqnalı bərkidilmiş bapbalaca velosipedlə səhnəyə çıxıb, böyüklərin arasında sapma vurmağa başladı.

Bir neçə dövrədən sonra orkestr barabanlarının həyəcanlı sədaları altında bütün dəstə sürətlə səhnənin lap kənarına yaxınlaşdı və birinci cərgədə oturanlar qışqırışıb geri dartındılar, tamaşaçılara elə gəldi ki, indi onların hər üçü öz velosipedilə orkestrin üstünə aşacaq.

Ancaq qabaq təkərlər boşluqda sürüşüb çalğıçıların başına düşhadüşdə velosipedlər dayandı. Velosipedçilər "hop!" deyə yerə atılaraq baş əydilər, sarışın qadın tamaşaçılara hava öpüşü göndərdi, uşaq isə öz məzəli avtomobil siqnalı ilə camaatın baş-qulağını dəng elədi.

Alqışlar binanı titrətdi, mavi pərdə hər iki tərəfdən sürüşüb velosipedçiləri görünməz etdi, qapının üstündə "Çıxış" sözləri yazılmış yaşıl işıqlar söndü, hörümçək toru kimi iplər sallanan günbəzin altında isə günəş kimi ağ şarlar yandı. Sonuncu hissədən əvvəl fasilə elan olundu.

Culli ailəsinin velosipedlə göstərdiyi möcüzələrə heç bir maraq göstərməyən yeganə adam Qriqori Daniloviç

Rimski idi. O, tək-tənha öz kabinetində oturub nazik dodaqlarını gəmirirdi, hərdən-hərdən sifəti səyriyirdi. Lixodeyevin qeyri-adi şəraitdə itkin düşməsinin ardınca inzibatçı Varenuxa da tamam gözlənilmədən yoxa çıxmışdı.

Rimski bilirdi o hara gedib, ancaq o getmişdi və... geri qayıtmamışdı! Rimski çiyinlərini çəkib, öz-özünə pıçıldadı:

– Axı nəyə görə?!

Qəribə işdir: maliyyə direktoru kimi işgüzar adam üçün Varenuxanın getdiyi yerə zəng vurub, orada nə baş verdiyini öyrənmək, əlbəttə, asan bir şeydi, di gəl, axşam saat ona qədər özünü buna məcbur edə bilmədi.

Saat onda isə Rimski özünü əziyyətə salıb telefonun dəstəyini qaldırdı və əmin oldu ki, telefon işləmir. Xidmətçi məlumat verdi ki, binadakı başqa aparatlar da xarab olub. Əlbəttə, bu xoşagəlməz, ancaq heç bir qeyri-adiliyi olmayan hadisə, nədənsə, maliyyə direktorunu lap sarsıtdı, intəhası, həm də sevindirdi: zəng vurmaq məcburiyyətindən canı qurtarmışdı.

Fasilənin başlandığını bildirən qırmızı lampa maliyyə direktorunun başı üstündə yanıb-sönəndə xidmətçi daxil

olub əcnəbi artistin gəldiyini xəbər verdi. Maliyyə direktorunun nəyə görəsə bədəni ürpəşdi və bulud kimi qaralıb, qastrolçunu qəbul etmək üçün səhnə arxasına keçdi, çünki onu qarşılayası başqa adam yoxdu.

Dəhlizin başındakı, artıq xəbərdarhq zənginin cingildədiyi iri geyinmə otağına maraq üçün müxtəlif bəhanələrlə boylananlar çox idi. Parıltılı xalat geyinmiş, çalma qoymuş fokusçular, ağ toxunma gödəkcədə konkisürən, pudradan rəngi ağarmış hekayəçi və qrimçi buraya yığışmışdılar.

Təşrif buyuran məşhur adam olduqca gözəl parçadan tikilmiş frakının uzunluğu və qara yarımmaskası ilə hamını heyrətə saldı. Ancaq ən qəribəsi cadugərin iki yoldaşı idi: eynəyinin şüşəsi çatlamış dama-dama paltarlı uzundraz və dal ayaqlarının üstündə geyinmə otağına girən kimi saymazyana divanda oturub, gözlərini qıyaraq əlvan qrim fanarlarına baxan qara kök pişik.

Rimski özünü gülümsəməyə məcbur etsə də, sifətində acıqlı, turşumuş bir ifadə yarandı və divanda pişiklə yanaşı dinməzcə oturmuş cadugəri başla salamladı. Əl verib

görüşmədilər. Di gəl, dama-dama paltarlı sırtıq "onların köməkçisi" deyərək, özünü maliyyə direktoruna təqdim etdi. Maliyyə direktoru buna təəccübləndi, heç xoşagələn hal deyildi: müqavilədə köməkçi adı çəkilmirdi.

Qriqori Daniloviç gözlənilmədən peyda olmuş dama-dama paltarlıdan, çox rəsmi və soyuq tərzdə artistin aparaturasının harada olduğunu xəbər aldı.

–Gözümüzün ağı, qarası, başımızın tacı, çox qiymətli direktor, – cadugərin köməkçisi xırıltılı səslə cavab verdi, – bizim aparaturamız həmişə üstümüzdədir. Bax, budur! Eyn, svey, drey! – Və düyünlü barmaqlarını Rimskinin gözü qarşısında oynadıb, maliyyə direktorunun bir az əvvəl qabağı düymələnmiş pencəyinin altındakı jiletin cibində olan, zənciri ilgəyə keçirilmiş qızıl saatı birdən pişiyin qulağının dibindən çıxardı.

Rimski əlini qeyri-ixtiyari qarnına tərəf apardı, ətrafdakılar heyrətdən içlərini çəkdilər, qapıdan baxan qrimçi isə məmnunluqla güldü.

–Sizin saatdır? Buyurun alın, – dama-dama paltarlı sırtıqcasına gülümsəyərək, çirkli ovcunda tutduğu saatı karıxmış Rimskiyə uzatdı.

–Beləsi ilə tramvaya minmə, – hekayəçi astadan və şən-şən qrimçiyə pıçıldadı.

Ancaq pişik özgə saatı ilə göstərilən nömrəni kölgədə qoydu. Qəfil divandan durub, dal ayaqlarının üstündə güzgü qoyulan stola yaxınlaşdı, pəncəsiylə qrafinin ağzından tıxacı çıxardı, stəkana su töküb içdi, tıxacı yerinə qoyub qrim əsgisiylə bığlarını sildi.

Hamının matı-mutu qurumuşdu, qrimçi isə heyranlıqla pıçıldadı:

–Ax, əladır!

Bu yerdə zəng üçüncü dəfə bərkdən çalındı və hamı maraqlı nömrə görmək həvəsiylə geyinmə otağından çölə axışdı.

Bir dəqiqə sonra tamaşa zalında şarlar söndü, lampadan pərdənin aşağısına qırmızımtal işıq düşdü və pərdənin işıq gələn arasından tamaşaçıların qarşısına əzik frakda, köhnə köynəkdə, üzü qırxılmış, kök, uşaq kimi şən bir adam çıxdı.

Bu, bütün Moskvada yaxşı tanınan konferansye Jorj Benqalski idi.

–Beləliklə, vətəndaşlar, – Benqalski uşaq kimi gülümsədi, – indi sizin qarşınızda çıxış edəcək... – bu yerdəBenqalski sözünü kəsdi və başqa intonasiya ilə danışdı:

–Görürəm ki, üçüncü hissədə tamaşaçıların sayı daha da artıb. Bu gün şəhərin yarısı buradadır! Bu yaxınlarda bir tanışımla görüşəndə ona dedim: "Niyə bizə gəlmirsən? Dünən şəhərin yarısı bizdə idi". O isə mənə cavab verdi: "Mənsə o biri yarısında yaşayıram!" – Benqalski pauza verdi ki, indi hamı güləcək, ancaq heç kim gülmədiyinə görə sözünə davam etdi: – ... Beləliklə, qara magiya seansları ilə çıxış edir xaricdən gəlmiş məşhur artist müsyö Voland! Amma biz, əlbəttə, sizinlə birlikdə başa düşürük ki, – bu yerdə Benqalski müdrik bir təbəssümlə gülümsədi, – dünyada belə bir şey yoxdur və bu, mövhumatdan başqa bir şey deyil, sadəcə, maestro Voland fokus texnikasına yüksək səviyyədə yiyələnib, bunu da, yəni həmin texnikanın ifşasını ən maraqlı hissədə görəcəksiniz, bizsə hamılıqla həm bu

texnikanın, həm də onun ifşasının tərəfində olduğumuza görə buyursun cənab Voland!

Bütün bu naqqallıqdan sonra Benqalski əllərini qoşalayıb, salamlaşırmış kimi pərdə tərəfə yellədi və pərdə xışıltı ilə yanlara sürüşdü.

Cadugərlə uzun köməkçisinin və dal ayaqlarının üstündə yeriyən pişiyin səhnəyə çıxması tamaşaçılara ləzzət elədi.

–Kreslo verin, – Voland astaca əmr etdi və elə həmin saniyə səhnədə kreslo peyda oldu, – əzizim Faqot, mənə de görüm, – kresloda oturan Voland, görünür, "Korovyev"dən də başqa soyadı olan dama-dama paltarlı oyunbazdan xəbər aldı, – sənə elə gəlmirmi ki, Moskva camaatı xeyli dəyişib?

Cadugər havadan kreslonun peyda olmasına heyrətlənib susmuş tamaşaçılara göz gəzdirdi.

–Elədir, messir, – Faqot-Korovyev astadan cavab verdi.

–Doğru deyirsən. Şəhər camaatı çox dəyişib, görkəmlərini nəzərdə tuturam, yeri gəlmişkən, şəhərin özü kimi. Geyimlərdən danışmağa belə dəyməz, ancaq bu... adları nədir... tramvaylar, avtomobillər peyda olub...

–Avtobuslar, – Faqot hörmətlə dedi.

Tamaşaçılar diqqətlə qulaq asdıqları bu söhbətinqeyri-adi fokuslara giriş olduğunu düşünürdülər. Səhnənin arxası artistlərlə, fəhlələrlə dolu idi və onların arasında Rimskinin rəngi qaçmış narahat sifəti görünürdü.

Səhnənin yan tərəfinə sığınmış Benqalskinin sifətindən çaşqınlıq oxunurdu. O, yaranmış pauzadan istifadə edib, qaşlarını azca qaldıraraq dedi:

–Xaricdən gəlmiş artist texniki baxımdan inkişaf etmiş Moskvaya, həmçinin moskvalılara heyran qaldığını bildirir, – bu yerdə Benqalski iki dəfə gülümsədi, əvvəlcə parterə, sonra isə yuxarı yarusa.

Voland, Faqot və pişik başlarını konferansye tərəfə döndərdilər.

–Məgər mən heyran qaldığımı dedim? – cadugər Faqotdan soruşdu.

–Əsla yox, messir, siz heyran olduğunuzu demədiniz, – o cavab verdi.

–Bəs onda bu adam nə deyir?

–O, sadəcə, yalan danışdı! – dama-dama paltarlı köməkçi bütün teatrın eşidəcəyi gur səslə dedi və Benqalskiyə müraciətlə əlavə etdi: – Təbrik edirəm sizi, vətəndaş yalan-palan!

Yuxarı yarusda gülüşdülər, Benqalski isə diksinib gözlərini bərəltdi.

–Ancaq məni, əlbəttə, avtobuslardan, telefonlardan və başqa...

–Aparaturalardan! – dama-dama paltarlı pıçıldadı.

–Tamamilə doğrudur, minnətdaram, – cadugər yoğun səslə aram-aram danışırdı, – daha əhəmiyyətli məsələlər maraqlandırır: bu şəhər camaatı daxilən dəyişibmi?

–Bəli, cənab, bu, çox əhəmiyyətli məsələdir.

Səhnə arxasındakılar döyüküb bir-birinin üzünə baxırvə çiyinlərini çəkirdilər, Benqalski pörtmüşdü, Rimskinin isə rəngi qaçmışdı. Bu vaxt, sanki, yaranan həyəcanı hiss edən cadugər dedi:

–Başımız söhbətə qarışıb, əzizim Faqot, tamaşaçılar isə darıxmağa başlayıblar. Əvvəl-əvvəl bizə sadə bir şey göstər.

Zal rahat nəfəs aldı. Faqot və pişik səhnənin müxtəlif tərəflərinə çəkildilər. Faqot çırtıq çalıb bağırdı:

–Üç, dörd! – havadan bir dəst kart tutub qarışdırdı və lent kimi pişiyə tərəf atdı. Pişik lenti tutub, onu geri atdı.

Atlas kartlar pırıltı ilə uçdu. Faqot quş balası kimi ağzını açıb bir-bir kartın hamısını uddu.

Bundan sonra pişik sağ ayağını yerə vurub baş əydi və sürəkli alqış qazandı.

–Əla, əla! – səhnənin arxasındakılar heyranlıqla qışqırdılar.

Faqot isə barmağı ilə parteri göstərib elan etdi:

–Hörmətli vətəndaşlar, kart dəsti indi yeddinci sırada oturmuş vətəndaş Parçevskinin cibində, üç manatlıqla vətəndaş Zelkovaya aliment ödənməsiylə bağlı məhkəməyə çağırış vərəqinin arasındadır.

Parterdə qımıldandılar, yerlərindən qalxmağa başladılar və nəhayət, soyadı, doğrudan da, Parçevski olan heyrətdən pörtmüş bir adam pul kisəsindən kart dəstini çıxarıb, onunla nə edəcəyini bilmədən əlində yuxarı qaldırdı.

–Qoy sizə yadigar qalsın! – Faqot qışqırdı. – Dünən şam yeməyi vaxtı nahaq yerə demirdiniz ki, əgər poker olmasaydı, Moskvada həyatınız lap dözülməz olardı.

–Köhnə hoqqadır, – yuxarı yarusdan kimsə dedi, – bu parterdəki də onlarla eyni dəstədəndir.

–Siz belə hesab edirsiniz? – Faqot gözlərini qıyıb, yuxarı yarusa baxa-baxa bağırdı, – onda siz də bizim dəstədənsiniz, çünki o, sizin cibinizdədir.

Yuxarı yarusdakılar hərəkətə gəldilər və kimsə sevincək dedi:

–Düzdür! Ondadır! Burada, burada... Dayan! Bu ki onluqlardır!

Parterdə oturanlar başlarını çevirdilər. Yuxarı yarusda həyəcanlanmış bir adam cibindən bankda bağlanmış, üstünə "Min rubl" yazılmış pul dəsti tapmışdı.

Qonşuları onun üstünə tökülüşdülər, o isə heyrət içində dırnağı ilə bağlamanı didişdirirdi ki, görsün əsl onluqlardır, yoxsa yox.

–Allah haqqı, həqiqidir! Onluqlardır! – yuxarı yarusda sevinclə qışqırırdılar.

–Mənimlə də bu cür kart oynayın, – parterin ortalarından gonbul bir adam şən-şən xahiş etdi.

–Avek plezir! – Faqot cavab verdi, – ancaq niyə təkcə sizinlə? Hamı həvəslə iştirak edəcək! – və əmr etdi: – Hamı yuxarı baxsın!.. Bir! – əlində tapança peyda oldu.

– İki! – tapançanı qaldırdı. – Üç! – gurultu eşidildi və elə həmin an günbəzin altından, idman alətləri asılmış iplərin arası ilə zala ağ kağızlar tökülməyə başladı.

Kağız pullar fırlana-fırlana yuxarı yarusa tökülürdü, uçuşub orkestr oturan yerə, səhnəyə düşürdü. Bir neçə saniyədən sonra pul yağışı lap sıxlaşıb kreslolara çatdı və tamaşaçılar kağız pulları göydə tutmağa başladılar.

Yüzlərlə əl qalxmışdı, tamaşaçdar kağız pulları işıqlı səhnəyə tərəf tutub, bütün nişanlarının doğru-düzgün olduğunu görürdülər. Qoxusu da heç bir şübhə yeri qoymurdu: bu, yenicə çap olunmuş pulun gözəlliyi heç nə ilə müqayisəyə gəlməyən qoxusu idi. Əvvəlcə sevinc, sonra heyrət bütün zalı bürüdü. "Onluqlar, onluqlar" sözü hər yanı başına götürmüşdü, "ah, ah!" nidaları, şən gülüşlər eşidilirdi. Kimlərsə artıq keçidlərdə dizin-dizin sürünüb, kresloların

altını axtarırdı. Çoxları oturacağın üstünə çıxıb, yellənə-yellənə, nazlana-nazlana düşən onluqları havada tuturdular.

Milis nəfərlərinin sifətində çaşqınlıq hiss olunurdu, artistlər isə utanıb çəkinmədən başlarını səhnə arxasından çıxarmağa başlamışdılar.

Beletajdan səs eşidildi: "Nə qapırsan? Bu mənimdir! Mənim üstümə uçurdu!" O biri səs dedi: "İtələyib eləmə, səni elə itələyərəm ki!" Birdən şapalaq səsi gəldi. Dərhal beletajda milisioner dəbilqəsi göründü, kimisə beletajdan apardılar.

Həyəcan get-gedə artırdı və əgər Faqot qəfil havaya üfürüb pul yağışını kəsməsəydi, bunun axırının nə ilə qurtaracağını bilmək olmazdı.

İki cavan oğlan çoxmənalı, şən baxışlarla bir-birinə baxıb, yerindən durdu və birbaş bufetə yollandı. Teatr uğuldayırdı, tamaşaçıların gözü həyəcanla parıldayırdı. Bəli, bəli, bunun nəylə qurtaracağını bilmək olmazdı, əgər Benqalski özündə güc tapıb hərəkətə gəlməsəydi. Özünü ələ almağa çalışaraq, vərdiş etdiyi kimi, əllərini bir-birinə sürtüb gur səslə dedi:

– Budur, vətəndaşlar, biz indi sizinlə, necə deyərlər, kütləvi hipnozun şahidi olduq. Heç bir möcüzənin və cadugərliyin olmadığını hər şeydən gözəl sübut edən düzgün elmi təcrübə idi. Maestro Volanddan xahiş edək, bu təcrübəni bizim üçün ifşa eləsin. Vətəndaşlar, siz indi, guya, pul olan bu kağızların qəfil peyda olduğu kimi, qəfil də yoxa çıxdığını görəcəksiniz.

Bu yerdə o əl çaldı, ancaq tamamilə təklikdə, sifətində özünə əminlik ifadəsi vardı, di gəl, gözlərində bu əminlikdən əsər-əlamət yox idi, daha doğrusu, gözlərindən yalvarış oxunurdu.

Benqalskinin çıxışı tamaşaçılann xoşuna gəlmədi. Çökən sükutu dama-dama paltarlı Faqot pozdu.

–Bu, necə deyərlər, növbəti yalandır, – o çığırdı, – vətəndaşlar, pullar həqiqidir!

–Bravo! – yoğun kişi səsi yuxarıdan qışqırdı.

–Yeri gəlmişkən, bu, – Faqot, Benqalskini göstərdi, – məni bezdirib. Dəqiqədəbir hara gəldi burnunu soxur, yalan fikirləriylə seansı pozur! Onunla nə edək?

–Başı qoparılsın! – kimsə yuxarı yarusdan ciddi şəkildə dedi.

–Necə dediniz? Nə? – Faqot bu biabırçı təklifə o saat hay verdi, – başı qoparılsın? Bu, yaxşı ideyadır! Begemot! – o, pişiyə qışqırdır – əməl et! Eyn, svey, drey!!!

Görünməmiş hadisə baş verdi. Qara pişiyin tükləri biz-biz oldu, dəhşətli bir səslə miyoldadı. Sonra bəbir kimi yığılıb Benqalskinin sinəsinə, oradan da başına sıçradı. Mırıldayıb koppuş pəncələrilə konferansyenin seyrək saçlarından yapışdı və vəhşicəsinə miyoldayıb, iki dəfə burmaqla başı yoğun boyundan qopardı.

Teatrdakı iki min beş yüz adam bir nəfər kimi qışqırdı. Qırılmış boyun arteriyalarından qan fəvvarə vurub köynəyi, frakı batırdı. Başsız bədənin ayaqları yöndəmsiz şəkildə qatlandı və o, döşəməyə oturdu. Zaldan qadınların isterik çığırtıları eşidildi. Pişik başı Faqota verdi, o, saçından tutub başı tamaşaçılara göstərdi və baş ümidsizcəsinə qışqırdı:

–Həkim çağırın!

–Sən yenə ağzına gələni danışacaqsan? – Faqot ağlayan başdan hirslə soruşdu.

–Daha danışmayacam! – baş xırıldadı.

–Allah xatirinə, ona əzab verməyin! – lojadakı hay-küyün içindən qəfil qadın səsi eşidildi və cadugər həmin səsə tərəf çevrildi.

–Nə deyirsiz, vətəndaşlar, bağışlayaq onu? – Faqot zaldan soruşdu.

–Bağışlansın! Bağışlansın! – əvvəlcə yer-yerdən, ən çox da qadın səsləri eşidildi, sonra kişi səsləri də onlara qoşuldu.

–Nə buyuracaqsınız, messir? – Faqot maskalıdan xəbər aldı.

–Nə etməli, – o, fikirli halda cavab verdi, – necə olsalar da, insandırlar. Pulu sevirlər, ancaq axı həmişə belə olub... Bəşəriyyət pulu sevir – dəridən, kağızdan, tuncdan, ya qızıldan, nədən hazırlanır-hazırlansın, fərqi yoxdur. Yelbeyindirlər... amma nə olsun... hərdən ürəkləri rəhmə də gəlir... adi adamlardır... ümumiyyətlə, əvvəlkiləri xatırladırlar... təkcə mənzil məsələsi onları korlayıb... – və bərkdən əmr etdi, – başı yerinə yapışdırın.

Pişik diqqətlə nişan alıb başı zərblə boyuna basdı və baş düz yerinə oturdu, elə bil, heç bədəndən ayrılmamışdı. Ən əsası da, boyunda hətta çapıq belə qalmamışdı. Pişik pəncəsini Benqalskinin frakına, nişastalı yaxalığına çəkdi və qan izi yoxa çıxdı. Faqot oturmuş Benqalskini ayağa qaldırdı, frakının cibinə bir paçka onluq qoyub, səhnədən bu sözlərlə yola saldı:

–Əkilin buradan! Sizsiz daha şən keçər.

Konferansye ətrafına key-key baxa-baxa, səndələyə-səndələyə yanğınsöndürmə postuna qədər gedə bildi və orada halı pisləşdi. O, yazıq-yazıq qışqırdı:

–Başım mənim, başım mənim!

Ona tərəf atılanların içində Rimski də var idi. Konferansye ağlayırdı, əllərini havada gəzdirirdi, donquldanırdı:

–Mənim başımı verin! Başımı qaytarın! Mənzilimi alın, tablolarımı alın, təkcə başımı qaytarın!

Xidmətçi həkim dalınca qaçdı. Benqalskini geyinmə otağında divana uzatmağa çalışdılar, ancaq o, əl-qol atmağa başladı. Karet çağırası oldular. Bədbəxt konferansyeni

aparandan sonra Rimski yenə səhnəyə tərəf qaçdı və gördü ki, orada yeni möcüzələr baş verir. Hə, yeri gəlmişkən, həmin vaxt, ya ondan bir az əvvəl cadugər öz rəngi bozarmış kreslosu ilə səhnədən yox olmuşdu, onu da demək lazımdır ki, Faqotun səhnədə çıxartdığı qeyri-adi oyunlara tamaşaçıların başı qarışdığından, bunu heç kim hiss eləmədi.

Faqot isə xəsarət almış konferansyeni yola salıb, tamaşaçılara elan etdi:

–Bu zəhlətökəni bitişdirdik, indi gəlin qadın geyimləri mağazası açaq!

Səhnə dərhal İran xalıları ilə döşəndi, kənarlarından yaşılımtıl borucuqlarla işıqlandırılmış iri güzgülər, güzgülərin arasında vitrinlər peyda oldu, sevincdən ağızları açıla qalmış tamaşaçılar vitrinlərdə Parisdən gətirilmiş müxtəlif rəngdə və fasonda qadın paltarları gördülər. Bu, tək bir vitrində idi, o birilərinə yüzlərlə lələkli, lələksiz, toqqalı, toqqasız şlyapa, dəridən, atlazdan, zamşadan həm qayışlı, həm də cürbəcür daşlarla bəzədilmiş yüzlərlə qara, ağ, sarı tufli düzülmüşdü. Tuflilərin arasına qoyulan futlyarlardakı

büllur ətir şüşələrinin naxışları işıqda bərq vururdu. Antilop və maral dərisindən, ipək parçadan hazırlanan əl çantaları, onların yanında içində dodaq boyası olan qızılı naxışlı uzunsov balaca futlyarlar dağ kimi qalaqlanmışdı.

Haradansa peyda olmuş, boynundakı əcaib çapığı gözəlliyini korlayan kürən qız qara ziyafət paltarında vitrinlərin yanında dayanıb, ixtiyar sahibi kimi gülümsəyirdi.

Faqot qımışaraq elan etdi ki, firma tamamilə pulsuz olaraq köhnə qadın paltarlarını, ayaqqabılarını Paris modeli olan paltar və ayaqqabılara dəyişir. Eyni sözləri əl çantaları, ətirlər və başqa şeylər haqqında da dedi.

Pişik ayaqlarını, pəncələrini yerə vurub, gələnləri qarşılayan qapıçıya xas hərəkətlər etdi.

Qız xırıltılı səslə olsa da, avazla, düzgün tələffüz etmədən nəsə az anlaşılan sözlər deməyə başladı, ancaq parterdəki qadınların sifətindən bunların çox şirnikdirici sözlər olduğu hiss edilirdi.

–Qerlen, Şanel nömrə beş, Mitsuko, Narsis Nuar, axşam paltarları, kokteyl paltarlar...

Faqot əzilib-büzüldü, pişik təzim etdi, qız şüşə vitrinləri açdı.

–Utanıb çəkinmədən buyurun! – Faqot bağırdı.

Tamaşaçılar həyəcanlanmışdı, ancaq hələ heç kimsəhnəyə çıxmağa ürək eləmirdi. Nəhayət, parterdə onuncu sırada oturan qarasaç bir qadın, heç nəyin vecinə olmadığını göstərmək üçün, saymazyana gülümsəyərək durub yan pilləkənlə səhnəyə qalxdı.

–Bravo! – Faqot qışqırdı, – ilk müştərini salamlayıram! Begemot, kreslo ver! Ayaqqabıdan başlayaq, madam.

Qarasaç qadın kresloda oturdu və Faqot həmin dəqiqə onun qarşısındakı xalının üstünə bir yığın tufli tökdü.

Qarasaç qadın tuflisinin sağ tayını çıxardı, yasəmən rəngdə olanı geyinib baxdı, ayağını xalıya döydü, dabanına baxdı.

–Sıxmaz ki? – tərəddüdlə soruşdu.

Faqot bundan inciyərək bərkdən dedi:

–Nə danışırsınız, nə danışırsınız! – və pişik pərtlikdən miyoldadı.

–Mən bir cüt götürürəm, müsyö, – qarasaç qadın özünü sındırmadan deyib, tuflinin ikinci tayını da geyindi.

Qarasaç qadının köhnə tuflilərini pərdənin arxasına tulladılar, kürən qızın və bir neçə paltar nümunəsini çiyninə atmış Faqotun müşayiətilə qadın özü də oraya keçdi. Pişik vurnuxurdu, kömək edirdi və daha ciddi görünmək üçün boynundan dərzi metrəsi asmışdı.

Bir dəqiqə sonra qarasaç qadın pərdənin arxasından elə bir paltarda çıxdı ki, bütün parter köks ötürdü. Heyrətli dərəcədə gözəlləşmiş cəsarətli qadın güzgünün qarşısında dayanıb, çılpaq çiyinlərini oynatdı, boynunun ardındakı saçlarına toxundu və paltarın arxasına baxmaq üçün geri əyildi.

–Firma xahiş edir ki, bunu xatirə kimi qəbul edəsiniz, – Faqot içində ətir şüşəsi olan açıq futlyarı qadına verdi.

–Mersi, – qadın təkəbbürlə cavab verib, pilləkənlə parterə doğru getdi. O getdiyi vaxt tamaşaçılar yerlərindən durub futlyara toxunurdular.

Daha heç kimi saxlamaq mümkün deyildi, hər tərəfdən qadınlar səhnəyə axışdı. Həyəcanlı danışıqların, gülüşlərin,

ah-ufların içindən kişi səsi eşidildi: "Mən sənə icazə vermərəm!" – və qadın səsi cavab verdi: "Zalım, meşşan, əlimi qırmayın!" Qadınlar pərdə arxasında yox olub, öz paltarlarını orada qoyaraq, təzə paltarda çıxırdılar. Ayaqları qızıl suyuna çəkilmiş kətillərdə yan-yana oturan qadınlar təzə geyindikləri tufliləri cidd-cəhdlə xalıya çırpırdılar. Faqot diz üstə durub buynuz dabankeşlə işləyirdi, pişik bir yığın əl çantasını, tuflini vitrindən kətillərin yanına və geriyə daşımaqdan üzülmüşdü, boğazı eybəcər hala salınmış qız gah görünürdü, gah yoxa çıxırdı və iş o yerə gəlib çatdı ki, tamam-kamal fransızca qırıldatmağa başladı, ən təəccüblüsü isə bütün qadınların, hətta fransızca bir kəlmə bilməyənlərin də onu ağzını açan kimi başa düşməsi idi.

Səhnəyə soxulan bir kişi hamını heyrətləndirdi. O bildirdi ki, həyat yoldaşı qripdir və xahiş edir, arvadı üçün ona nə isə versinlər. Vətəndaş, doğrudan da, evli olduğunu sübut etməkdən ötrü pasportunu göstərməyə hazır idi. Qayğıkeş ərin sözləri qəhqəhəyə səbəb oldu, Faqot bağırdı ki, pasportsuz da ona özü kimi inanır və həmin adama iki cüt

ipək corab verdi, pişik öz tərəfindən içində dodaq boyası olan futlyar əlavə etdi.

Gecikən qadınlar səhnəyə cumurdular, bal paltarlarında, əjdaha rəsmi olan pijamalarda, rəsmi mərasimlər üçün kostyumlarda, bir qaşının üstünə endirilmiş şlyapalarda səhnədən xoşbəxtlər enirdilər.

Faqot elan edəndə ki gec olduğu üçün düz bir dəqiqədən sonra mağaza sabah axşama kimi bağlanır, səhnədə vur-çatlasın başladı. Qadınlar geyinib baxmadan tez-tələsik tufliləri qapırdılar. Biri yel kimi özünü pərdənin dalına saldı, kostyumunu atıb əlinə ilk keçəni – üstündə şapan-şapan gülləri olan ipək xalatı əyninə taxdı, bundan başqa, iki ətir şüşəsi də götürməyə macal tapdı.

Düz bir dəqiqə keçmiş tapançadan atəş açıldı, güzgülər, vitrinlər, kətillər yoxa çıxdı, xalılar da pərdələr kimi havada əridi. Sonda dağ kimi qalaqlanmış köhnə paltarlar, ayaqqabılar yoxa çıxdı və səhnə yenə öz ciddi, boş, çılpaq görkəmini aldı.

Bax, bu yerdə yeni iştirakçı məsələyə qarışdı.

Xoş, gur, bariton səsli adam 2 №-li lojadan israrla dedi:

– Vətəndaş artist, hər halda, yaxşı olardı siz təcili surətdə tamaşaçılar qarşısında öz fokuslarınızın, xüsusilə də kağız pullarla göstərdiyiniz fokusun texnikasını ifşa edəsiniz. Konferansyeni də səhnəyə qaytarmağınız yaxşı olardı. Onun taleyi tamaşaçıları narahat edir.

Bariton səs başqa birisinə yox, məhz gecənin fəxri qonağı, Moskva teatrlarının akustika komissiyasının sədri Arkadi Apollonoviç Sempleyarova məxsus idi.

Arkadi Apollonoviç lojada iki xanımın arasında oturmuşdu: yaşlı olan bahalı və dəblə, cavan, qəşəng olan isə sadə geyinmişdi. Birincisi, protokol bağlananda tezliklə aydınlaşdığı kimi, Arkadi Apollonoviçin həyat yoldaşı, ikincisi isə onun uzaq qohumu, Saratovdan gəlib Arkadi Apollonoviçlə həyat yoldaşının mənzilində yaşayan, yaradıcılığa yeni başlamış ümidverici aktrisa idi.

–Pardon! – Faqot cavab verdi, – üzr istəyirəm, burada ifşa olunası bir şey yoxdur, hər şey aydındır.

–Yox, bağışlayın! İfşa olduqca vacibdir. Bunsuz sizin çox gözəl nömrələriniz ağır təəssürat yaradacaq. Tamaşaçı kütləsi izah tələb edir.

–Tamaşaçı kütləsi, – həyasız oyunbaz Sempleyarovun sözünü kəsdi, – deyəsən, heç nə bildirməyib. Ancaq qoy belə olsun, Arkadi Apollonoviç, sizin böyük istəyinizi nəzərə alıb ifşa edərəm. Bunun üçün, icazənizlə, bir dənə də kiçik nömrə göstərərdim.

–Niyə də yox, – Arkadi Apollonoviç təkəbbürlə dedi, – ancaq mütləq ifşası da olsun!

–Baş üstə, baş üstə. Beləliklə, icazənizlə sizdən soruşum, dünən axşam harada olmusunuz, Arkadi Apollonoviç?

Bu yersiz, hətta, ola bilsin, ədəbsiz sualdan Arkadi Apollonoviçin sifəti dəyişdi, həm də olduqca çox dəyişdi.

–Dünən axşam Arkadi Apollonoviç akustika komissiyasının iclasında olub, – Arkadi Apollonoviçin həyat yoldaşı təkəbbürlə dedi, – ancaq mən anlamıram, bunun magiyaya nə dəxli var?

–Ax, madam, təbii ki, dəxli var, – Faqot təsdiq etdi, – siz anlamırsınız. İclasa gəlincə, siz tamamilə yanılırsınız. Həmin iclasa getmək adıyla evdən çıxan – sözgəlişi deyim ki, dünənə belə bir iclas təyin olunmamışdı – Arkadi

Apollonoviç akustika komissiyasının Çistıy gölü sahilindəki binasının yaxınlığında öz sürücüsünü buraxıb (bütün teatr susmuşdu), avtobusla Yeloxovskaya küçəsinə, səyyar rayon teatrının artisti Militse Andreyevna Pokobatkoya qonaq gedib və təxminən, dörd saat onun yanında olub.

–Oy! – çökmüş sükutda kimsə iztirab dolu bir səslə bərkdən dedi.

Arkadi Apollonoviçin gənc qohumu isə birdən vahiməli bir qəhqəhə çəkdi.

–Hər şey aydındır! – o dedi, – mən çoxdan bundan şübhələnmişdim. Bu fərsizin Luiza rolunu necə aldığı indi mənə aydın oldu!

Və gözlənilmədən bənövşəyi rəngli qısa, yoğun çətiri qaldırıb Arkadi Apollonoviçin başına çırpdı.

Həm də Korovyev olan əclaf Faqot qışqırdı:

–Hörmətli vətəndaşlar, bu da Arkadi Apollonoviçin israrla görmək istədiyi ifşalardan biri!

–Yaramaz qız, sən nə cürət edib Arkadi Apollonoviçə toxunursan? – Arkadi Apollonoviçin həyat yoldaşı ayağa qalxıb, öz nəhəng bədənini əsdirə-əsdirə qəzəblə soruşdu.

Gənc qohum ikinci dəfə iblisanə qəhqəhə çəkdi.

–Başqalarını deyə bilmərəm, – o güldü, – ancaq mənim toxunmağa cürətim çatır! – və ikinci dəfə Arkadi Apollonoviçin başına çırpılan çətirin şappıltısı eşidildi.

–Milis! Tutun onu! – Sempleyarovun həyat yoldaşı elə dəhşətli səslə çığırdı ki, çoxlarının ürəyi qopdu.

Bu yerdə pişik də rampaya sıçrayıb, birdən insan səsi ilə bağırdı:

–Seans bitdi! Maestro! Marş guppuldat!!!

Havalanmış dirijor nə etdiyini özü də bilmədən çubuğunu yellədi və orkestr çalmadı, hətta guruldamadı, məhz pişiyin iyrənc şəkildə ifadə etdiyi kimi ağla gəlməyən, ədəbsizlikdə tayı-bərabəri olmayan bir marş guppuldatdı.

Hamıda bir an elə təsəvvür oyandı ki, haçansa cənub səmasındakı ulduzların altında, kafeşantanda bu marşın mənasız, ancaq ovqat yaradan sözləri ətrafa yayılıb:

Cənab zati-aliləri

Sevirdi ev quşlarını,

Alırdı himayəsinə

Gözəl-göyçək qızları!!!

Bəlkə də, heç bu sözlər olmamışdı, elə bu musiqiylə başqa, lap ədəbsiz sözlər oxunmuşdu. Əsas bu deyildi, əsas o idi ki, bütün bunlardan sonra Varyetedə qiyamət qopdu. Sempleyarovun lojasında milisionerlər qaçışırdı, hər şeyi bilmək istəyənlər məhəccərə dırmaşırdılar, orkestr sinclərinin cingiltisində batan dəli qəhqəhələr, hirsli qışqırıqlar eşidilirdi.

Səhnə birdən-birə boşaldı, yaramaz pişik Begemot kimi kələkbaz Faqot da havada əriyib itdi, necə ki bir az əvvəl üzlüyü bozarmış kreslosu ilə birlikdə cadugər yoxa çıxmışdı.

XIII fəsil
QƏHRƏMANIN GƏLİŞİ

Deməli, naməlum adam İvanı barmağı ilə hədələyib pıçıldadı: "Sss!"

İvan ayağını çarpayıdan sallayıb boylandı. Üzü qırxıq, gözləri iztirablı, topa saçları alnına tökülmüş otuz səkkiz yaşlarında qarasaç, sivriburun bir adam ehtiyatla eyvandan otağa baxırdı.

İvanın tək olduğuna inanandan və ətrafı dinləyəndən sonra sirli qonaq ürəklənib otağa girdi. İvan onun xəstəxana paltarında olduğunu gördü. Əynində alt paltarı vardı, çəkələyi yalın ayağına keçirmişdi, boz xalatı çiyninə atmışdı.

Gələn adam İvana göz vurdu, açar topasını cibində gizlədib astadan dedi: "Oturmaq olar?" – başla razılıq işarəsi alıb kresloya çökdü.

–Siz bura necə gəldiniz? – quru barmağın hədəsinə tabe olan İvan pıçıltı ilə soruşdu, – axı eyvanın barmaqlığı qıfıllıdır?

–Barmaqlıq qıfıllıdır, – qonaq təsdiq etdi, – Praskovya Fyodorovna yaxşı insandır, ancaq əfsus ki, huşsuzdur. Bir ay əvvəl açar topasmı ondan çırpışdırmışam, buna görə də bütün mərtəbə boyu uzanan ümumi eyvana çıxıb, hərdən qonşulara baş çəkirəm.

–Siz ki eyvana çıxırsınız, onda buradan qaça da bilərsiniz. Yoxsa hündürdür? – İvan maraqlandı.

–Yox, – qonaq qətiyyətlə dedi, – mən buradan qaça bilmərəm, hündür olduğuna görə yox, ona görə ki, qaçmağa yerim yoxdur. – Bir az susub əlavə etdi: – İlişmişik, hə?

–İlişmişik, – İvan yad adamın narahat qonur gözlərinə baxaraq cavab verdi.

–Bəli... – qonaq birdən təşvişə düşdü, – ancaq mən əminəm ki, siz coşub özünüzdən çıxmırsınız. Yoxsa bilirsinizmi, mənim səs-küy, zorakılıq və buna bənzər şeylərlə aram yoxdur. Xüsusilə də insan çığırtısından zəhləm gedir, istər əzabdan, istər qəzəbdən – nədən olur-olsun. Məni sakitləşdirin, deyin, siz özünüzdən çıxmırsınız?

–Dünən restoranda bir tipin sifətinə ilişdirdim, – dəyişmiş şair kişi kimi boynuna aldı.

–Səbəb? – qonaq ciddi surətdə soruşdu.

–Boynuma alıram ki, səbəbsiz yerə, – İvan pərt oldu.

–Biabırçılıqdır, – qonaq İvanı qınadı, – bilirsinizmi, yumruqla... Yox, yaxşısı budur, belə şeyləri birdəfəlik tərgidin.

İvanı məzəmmətləyəndən sonra qonaq xəbər aldı:

–Sənətiniz?

–Şair, – İvan, nədənsə, həvəssiz etiraf etdi.

Yad adam kədərləndi.

–Of, bəxtim necə də gətirmir! – ucadan dedi və o saat da özünü yığışdırıb üzr istədi. – Bəs soyadınız?

–Bezdomnı.

–Heyif... – qonaq üz-gözünü qırışdırdı.

–Nədir, olmaya şeirlərim xoşunuza gəlmir? – İvan maraqlandı.

–Özü də son dərəcə.

–Bəs siz hansıları oxumusunuz?

–Sizin şeirlərin heç birini oxumamışam! – yad adam əsəbi halda dedi.

–Onda niyə belə deyirsiniz?

–Burada nə var ki, – qonaq cavab verdi, – guya, başqalarınınkını oxumamışam? Təəccüblü nə ola bilər? Yaxşı, mən sizin sözünüzə inanmağa hazıram. Özünüz deyin, sizin şeirlər yaxşıdır?

–Dəhşətdir! – İvan birdən cəsarətlə etiraf etdi.

–Daha yazmayın! – yad adam, az qala, yalvardı.

–Söz verirəm, and içirəm! – İvan təntənəli şəkildə dedi.

Əl verməklə andı möhkəmləndirdilər, bu vaxt dəhlizdən asta addım səsləri və danışıq eşidildi.

–Sss, – qonaq pıçıldadı və eyvana atılıb barmaqlığı arxasınca bağladı.

Praskovya Fyodorovna otağa baş çəkib, İvanın özünü necə hiss etdiyini, qaranlıqda, ya işıqda yatmaq istədiyini soruşdu. İvan xahiş etdi ki, işığı söndürməsin və Praskovya Fyodorovna xəstəyə şirin yuxu arzulayıb getdi. Sakitlik çökəndə qonaq təzədən qayıtdı.

O, pıçıltı ilə İvana xəbər verdi ki, 119-cu otağa yenicə kök, qırmızısifət bir adam gətiriblər, elə hey ventilyasiyadakı valyutadan nəsə qırıldadır və and içir ki, onların Sadovıdakı binasında cin-şəyatin peyda olub.

–Puşkin haqqında ağzına gələni deyir, elə hey qışqırır: "Kurolesov, bis, bis!" – qonaq narahat halda dedi. Bir az sakitləşib oturdu. – Əşi, Allah bilən məsləhətdir, – və İvanla söhbətini davam etdirdi: – Bəs siz nəyə görə buraya düşmüsünüz?

–Ponti Pilata görə, – İvan qaşqabağını sallayıb, döşəməyə baxa-baxa cavab verdi.

–Necə?! – qonaq ehtiyatlı olmağı unudub qışqırdı və əliylə ağzını tutdu, – təsadüfə bax! Yalvarıram, yalvarıram, danışın!

Yad adama nəyə görəsə ürəyi qızdığından, İvan Patriarx gölündə dünən baş verən əhvalatı əvvəlcə duruxa-duruxa, sıxıla-sıxıla, sonra isə cəsarətə gəlib yerli-yataqlı danışmağa başladı. Bəli, müəmmalı açar oğrusunun şəxsində İvan Nikolayeviç qədirbilən dinləyici tapmışdı! Qonaq İvanı dəli saymırdı, danışılanlara çox böyük maraq göstərirdi və əhvalatın qızğın yerində, nəhayət, vəcdə gəldi. Tez-tez İvanın sözünü kəsməyə başladı:

–Di danışın! Yalvarıram sizə, sonra, sonra. Sizi and verirəm, heç nəyi unutmayın!

İvan heç nəyi unutmadı, danışmaq onun özünə də asan gəlirdi və tədricən Ponti Pilatın qan-qırmızı astarlı ağ mantiyada eyvana çıxdığı yerə çatdı.

Qonaq bu vaxt dua edirmiş kimi əllərini qoşalayıb pıçıldadı:

–Ah, mən necə də duymuşdum! Ah, mən necə də hamısını duymuşdum!

Berliozun dəhşətli ölüm səhnəsini qonaq müəmmalı qeydlərlə müşayiət etdi, gözləri həm də qəzəblə alışıb-yandı:

–Bircə ona heyifsilənirəm ki, bu Berliozun yerində tənqidçi Latunski, ya ədəbiyyatçı Mstislav Lavroviç olmayıb, – qəzəbini içində boğaraq dedi: – Sonra!

Konduktor qadına yolpulu verən pişik qonağı xeyli əyləndirdi və öz söhbətinin ləzzət elədiyini görüb, ikişahılığı bığının yanında tutan pişiyi yamsılayaraq həyəcanlanmış İvanın çömbəlib yavaşca hoppandığına baxa-baxa uğunub getdi.

–Bax beləcə, – Qriboyedovdakı əhvalatı da danışan İvan kədərlənərək, dalğın halda söhbətini bitirdi, – gəlib bura düşdüm.

Qonaq canıyananlıqla əlini yazıq şairin çiyninə qoydu.

–Bədbəxt şair! Ancaq əzizim, günah sizin özünüzdədir. Özünüzü onlarla bu qədər sərbəst, hətta həyasızcasına aparmamalıydınız. Bu da nəticəsi. Hələ şükür eləyin ki, canınızı nisbətən salamat qurtara bilmisiniz.

–Axı o kimdir belə? – İvan hirslə yumruqlarını silkələdi.

Qonaq İvanı süzüb, suala sualla cavab verdi:

–Bəs siz təşvişə düşməyəcəksiniz ki? Burada heç hansımıza etibar yoxdur... Həkim, iynə, ya başqa şey gərək olmayacaq?

–Yox, yox! – İvan ucadan dedi, – söyləyin, o kimdir?

–Di yaxşı, – qonaq qəti və aydın şəkildə dedi: – Dünən siz Patriarx gölündə şeytana rast gəlmisiniz.

İvan, söz verdiyi kimi, təşvişə düşmədi, ancaq hər halda, yamanca karıxdı.

–Bu ola bilməz! Şeytan yoxdur.

–Əfv edərsiniz! Başqaları yenə heç, gərək siz bunu deməyəsiniz. Görünür, siz ondan ilk ziyan çəkənlərdən birisiniz. Özünüz də başa düşürsünüz ki, dəlixanadasınız, ancaq hələ də deyirsiniz, şeytan yoxdur. Doğrudan, qəribədir!

İvan karıxdığından dillənmədi.

–Siz onu təsvir etməyə başlayan kimi, – qonaq sözünə davam etdi, – mən artıq duydum ki, siz dünən kiminlə

söhbət etmək şərəfinə nail olmusunuz. Doğrusu, mən Berlioza təəccüb edirəm! Siz, əlbəttə, xam adamsınız, – bu yerdə qonaq yenə üzr istədi, – ancaq o, haqqında eşitdiklərimə görə, hər halda, nəsə oxuyub! Həmin professorun elə ilk söhbəti bütün şübhələrimi dağıtdı. Dostum, onu tanımamaq mümkün deyil! Amma siz... siz məni yenə bağışlayın, axı mən yanılmıramsa, siz cahil adamsınız, eləmi?

–Şübhəsiz, – tanınmaz dərəcədə dəyişmiş şair razılaşdı.

–Görürsünüz... hətta sizin təsvir etdiyiniz sifət... müxtəlif gözlər, qaşlar! Bağışlayın, bəlkə, sizin heç "Faust" operasından da xəbəriniz yoxdur?

İvan nəyə görəsə son dərəcə utandı və alışıb-yanan sifətiylə Yalta sanatoriyasına hansısa səfərindən qırıldatmağa başladı...

–Görürsünüz, görürsünüz... Təəccüblü deyil! Ancaq təkrar edirəm, Berlioza heyrətlənirəm. O, nəinki oxumuş adamdır, həm də çox bicdir. Ancaq onu müdafiə üçün deməliyəm ki, Voland, əlbəttə, hər bir adamı suya susuz aparıb susuz gətirər.

–Necə?! – İvan qışqırdı.

– Sakit!

İvan əlini şappıltı ilə alnına çırpıb fısıldadı:

–Başa düşürəm, başa düşürəm. Onun vizit kartında "V" hərfi var idi. Vay-vay-vay, əcəb işdir! – O, bir müddət çaşqınlıq içində susub, barmaqlığın arasından görünən aya baxdı. – Deməli, o, doğrudan da, Ponti Pilatın yanında ola bilərmiş? Məgər o, həmin vaxt artıq doğulmuşdu? Mənə isə dəli deyirlər! – İvan hiddətlə qapıya işarə etdi.

Qonaq acı-acı gülümsədi.

–Həqiqətin gözünün içinə düz baxaq, – qonaq üzünü buludların arası ilə üzən aya çevirdi. – Niyə danaq, siz də, mən də – dəliyik! Görürsünüzmü, o, sizi sarsıdıb, siz də havalanmısınız, yəqin, bunun üçün sizdə münasib zəmin varmış. Ancaq danışdıqlarınız, şübhəsiz, həqiqətən, olub. Di gəl, bu, o qədər qeyri-adidir ki, hətta Stravinski kimi dahi psixiatr da, əlbəttə, sizə inanmayıb. O, sizi müayinə etdi? (İvan başı ilə təsdiqlədi.) Sizin həmsöhbətiniz Pilatın yanında da olub, Kantla səhər yeməyi də yeyib, indi də Moskvaya təşrif buyurub.

–Allah bilir, o, burada nələr törədəcək! Onu necəsə tutmaq lazımdır. – Yeni İvanda hələ nəfəsi tamam kəsilməmiş əvvəlki İvan, inamsız da olsa, yenə baş qaldırdı.

–Siz cəhd etdiniz, kifayətdir, – qonaq kinayə ilə dedi, – başqalarına məsləhət görmürəm. Törətməyə gəlincə, buna şübhəniz olmasın. Ah, ah! Çox təəssüflənirəm ki, onunla mən yox, siz rastlaşmısınız! Baxmayaraq ki hər şey artıq keçib-gedib, ancaq and içirəm, bu görüş üçün Praskovya Fyodorovnanın açar topasını verərdim, çünki verməyə başqa heç nəyim yoxdur. Mən yoxsulam!

–O, sizin nəyinizə lazımdır ki?

Qonaq gözünü qırpa-qırpa bir xeyli qüssələndikdən sonra dilləndi:

–Bilirsinizmi, qəribə işdir ki, mən də sizin kimi, məhz Ponti Pilata görə buradayam, – bu yerdə qonaq qorxa-qorxa böyür-başına baxdı. – Məsələ belədir, bir il əvvəl mən Pilat haqqında roman yazmışam.

–Siz yazıçısınız? – şair maraqla soruşdu.

Qonaq tutuldu və İvanı yumruğu ilə hədələdi.

–Mən masterəm, – o, qaşqabağını sallayıb, xalatının cibindən tamam kirli, üstünə sarı ipək sapla "M" hərfi tikilmiş qara papaq çıxardı. Həmin papağı geyinib, master olduğunu sübut etmək üçün özünü yandan və qabaqdan İvana göstərdi. – O, bunu mənim üçün öz əllərilə tikib, – müəmmalı tərzdə əlavə etdi.

–Bəs sizin soyadınız nədir?

–Mənim daha soyadım yoxdur, – qəribə qonaq nifrətlə cavab verdi, – mən ondan, ümumiyyətlə, həyatda hər şeydən imtina etmişəm. O haqda danışmayaq.

–Heç olmasa, roman haqqında danışın, – İvan nəzakətlə dedi.

–İcazənizlə. Mənim tarixçəm, həqiqətən, elə də adi deyil, – qonaq söhbətə başladı.

...Tarixçi təhsili alan bu adam hələ iki il əvvəl Moskva muzeylərinin birində işləyirmiş, həm də tərcümə ilə məşğul olurmuş.

–Hansı dildən? – İvan maraqlandı.

–Mən ana dilindən başqa beş dil bilirəm, – qonaq cavab verdi, – ingilis, alman, fransız, latın və yunan. Az-maz italyan dilində də oxuyuram.

–Gör ha! – İvan həsədlə pıçıldadı.

Heç yerdə qohumu, Moskvada, demək olar, tanışı olmayan tarixçi tək yaşayırmış. Və təsəvvür edin, bir dəfə yüz min rubl udur.

–Heyrətimi gözünüzün qabağına gətirin, – qarapapaqlı qonaq pıçıldadı, – əlimi kirli alt paltarları yığılmış zənbilə soxub nə görsəm yaxşıdır: qəzetdəki nömrə ilə bu eynidir. İstiqraz vərəqəsini, – izah etdi, – mənə muzeydə vermişdilər.

İvanın yüz min udan müəmmalı qonağı belə hərəkət edib: kitablar alıb, Myasnitskayadakı mənzilini atıb...

– Ax, lənətəgəlmiş ucqar! – qonaq mızıldadı.

... və Arbat yaxınlığındakı dalanda evtikənlərdən[18] bir yer kirayələyib...

[18] Evtikən – yeni iqtisadi siyasət dövründə kiçik bina tikməyə hüququ olan adamlar sonradan həmin binaların sahibinə çevrildilər.

–Siz bilirsinizmi, evtikən nə deməkdir? – qonaq İvandan soruşdu və dərhal da izah etdi: – Bu, bir ovuc fırıldaqçıdır ki, hansı yollasa Moskvada salamat qalıb...

Evtikəndən bağçası olan kiçik evin zirzəmisində iki otaq kirayələyib. Muzeydəki işini atıb, Ponti Pilat haqqında roman yazmağa başlayıb.

–Ah, bu, qızıl dövr idi, – o, gözləri parıldaya-parıldaya pıçıldadı, – ayrıca mənzil, üstəlik, artırma və orada su dolu əlüzyuyan, – nəyə görəsə bunu çox fəxrlə vurğuladı, – doqqazdan gələn ensiz səkinin lap bərabərində xırda pəncərələr. Qarşı tərəfdə, dörd addımlıqda, hasarın dibində yasəmən, cökə, bir də ağcaqayın. Bəh, bəh, bəh! Qışda az-az olardı ki, pəncərədən kiminsə çirkli ayaqqabılarını görəydim, ayaq altda qalan qarın xırçıltısını eşidəydim. Sobam həmişə gurhagur yanırdı. Ancaq qəfil yaz girdi, pəncərələrin tutqun şüşəsindən mən əvvəlcə çılpaq, sonra isə yaşıllaşan yasəmən kolunu gördüm. Bax, elə onda, ötən yaz, yüz min rubl udmaqdan daha valehedici bir hadisə baş verdi. Yüz min isə, razılaşın ki, çox böyük məbləğdir!

–Elədir, – diqqətlə qulaq asan İvan etiraf etdi.

–Mən xırda pəncərələri açıb ikinci, lap kiçik otağa yığışdım, – qonaq əliylə göstərməyə başladı, – belə... burada divan, qarşı tərəfdə o biri divan, onların arasında masa, masanın üstündə qəşəng gecə lampası, pəncərənin böyründə kitablar, burada kiçikyazı stolu, on dörd metrlik birinci böyük otaqda isə – kitablar, kitablar, bir də soba. Ax, necə gözəl şəraitim var idi!

Yasəmənin ətri adamı bihuş edir! Başım yorğunluqdan yüpyüngül, Pilat haqqında roman isə sona yaxınlaşır...

–Ağ mantiya, qırmızı astar! Başa düşürəm! – İvan bərkdən dedi.

–Tamamilə doğrudur! Pilat axıra yaxınlaşırdı və mən artıq bilirdim ki, romanın son cümləsi belə olacaq: "...İudeyanın beşinci prokuratoru, süvari Ponti Pilat". Təbii ki, gəzməyə də çıxırdım. Yüz min böyük məbləğdi, mənim əla kostyumum vardı. Hərdən hansısa bir ucuz restorana nahar etməyə yollanırdım. Arbatda gözəl restoran var idi, bilmirəm, indi dururmu?

Bu yerdə qonağın gözləri geniş açıldı və o, aya baxa-baxa pıçıldadı:

–O, əlində ürək sıxan xoşagəlməz sarı güllər tutmuşdu. Adını da bilmirəm, ancaq nədənsə Moskvada ilk dəfə o güllər peyda olur. Bu güllər onun qara yaz paltosunun fonunda çox seçilirdi. Əlində sarı güllər tutmuşdu! Xoşagələn rəng deyil. O, Tverskoydan dalana buruldu və geri boylandı. Tverskoya bələdsiniz də? Tverskoydan minlərlə adam keçir, ancaq sizi əmin edirəm, o təkcə məni gördü, tələşla deməzdim, ağrı ilə, əzabla mənə baxdı. Onun gözəlliyindən çox, gözlərindəki qeyri-adi, heç kimin sezmədiyi tənhalıq məni sarsıtdı.

Bu sarı əlamətə boyun əyib, mən də dalana buruldum və onun arxasınca getdim. Əyri-üyrü, cansıxıcı dalanla dinməzcə gedirdik. Mən küçənin biri tərəfində, o isə əks tərəfində. Təsəvvür edin, dalanda heç kim yox idi. Mən əzab çəkirdim, çünki mənə elə gəlirdi onunla mütləq danışmaq lazımdır və narahat olurdum ki, ağzımı açıb bir 144 kəlmə deyə bilməyəcəyəm, o isə çıxıb gedəcək, bir daha onu görməyəcəm...

İnanmazsınız, qəfildən o özü danışdı:

–Mənim güllərim xoşunuza gəlirmi?

Onun səsini aydın xatırlayıram, nə qədər mənasız olsa da, mənə elə gəldi ki, qırıq-qırıq dediyi sözlər dalanın çirkli sarı hasarına dəyib əks-səda verdi. Tələsik onun getdiyi tərəfə keçib cavab verdim:

–Yox.

O, mənə təəccüblə baxdı, mən isə birdən, tamam gözlənilmədən başa düşdüm ki, bütün ömrüm boyu məhz bu qadını sevmişəm! Əcəb işdir, hə? Siz, əlbəttə, deyəcəksiniz ki, dəliyəm.

–Mən heç nə demirəm, – İvan bərkdən dedi və əlavə etdi: – Yalvarıram, danışın!

Qonaq söhbətinə davam elədi:

–Bəli, o, təəccüblə mənə baxıb soruşdu:

–Siz, ümumiyyətlə, gülləri sevmirsiniz?

Mənə elə gəldi, onun səsində bir ədavət çaları var. Onunla ayaqlaşmağa çalışaraq yanınca gedirdim və nə qədər təəccüblü olsa da, özümü çox sərbəst hiss edirdim.

–Yox, mən gülləri sevirəm, ancaq beləsini yox, – dedim.

–Bəs necəsini?

–Qızılgülü sevirəm.

O saat da dediyimə peşman oldum, çünki o, günahkarcasına gülümsəyib, öz güllərini qanova atdı. Bir az karıxsam da, gülləri qaldırıb ona uzatdım, ancaq o, gülümsəyərək gülləri itələdi və mən onları əlimdə aparası oldum.

Bir müddət dinməzcə getdik, sonra gülləri əlimdən alıb, daş döşənmiş küçəyə atdı, qara əlcəkli əlini qoluma keçirdi və biz yanaşı addımladıq.

–Sonra, – İvan dedi, – xahiş edirəm, hər şeyi danışın.

–Sonra? – qonaq sualı təkrar etdi, – nə olasıdır ki, sonrasını özünüz də başa düşə bilərdiniz. – O, qəfil axan göz yaşını paltarının sağ qolu ilə sildi. – Qatil tində qarşına necə qəfil çıxırsa, eşq də eləcə, qəfil qarşımıza çıxıb, hər ikimizin ürəyindən vurdu!

İldırım belə vurur, ölüm adamı bu cür qəfil yaxalayır.

Amma sonralar o danışırdı ki, elə deyil, biz, əlbəttə, bir-birimizi lap çoxdan, tanımadan, görmədən sevmişik. Onda hələ başqa adamla yaşayırdı, mən isə o vaxt onunla, adı nəydi...

–Kiminlə? – Bezdomnı soruşdu.

–Di... onunla... onunla... – qonaq çırtma çaldı.

–Siz evli olmusunuz?

–Hə də, mən elə çalışıram yadıma salam... onunla... Varenka, Maneçka... yox, Varenka... zolaqlı da paltarı var idi... muzeydə... nə isə, yadımdan çıxıb.

...Hə, o deyirdi, əlindəsarı güllər həmin gün ona görə evdən çıxıb ki, mən, nəhayət, onu tapam və əgər bu baş verməsəydi, özünü zəhərləyəcəkmiş, çünki həyatı mənasızmış.

Bəli, eşq bizi bir anda yaxaladı. Mən bunu elə həmin gün bir saatdan sonra, şəhəri hiss etmədən gedib çıxdığımız çay qırağında, Kreml divarlarının yanında başa düşdüm.

Biz elə danışırdıq, sanki, dünən ayrılmışdıq, sanki, bir-birimizi çoxdan tanıyırdıq. Razılaşdıq ki, sabah yenə həmin yerdə, Moskva çayının kənarında görüşək; elə görüşdük də. May günəşi başımıza nur ələyirdi. Və tezliklə, tezliklə bu qadın mənim gizlin arvadım oldu.

O, hər gün yanıma gəlirdi, mən isə onu səhər tezdən gözləməyə başlayırdım. Bu gözləmək özünü stolun

üstündəki əşyaların yerini dəyişməklə büruzə verirdi. Gəlməyinə on dəqiqə qalmış balaca pəncərənin qarşısında oturub,qulaq kəsilirdim ki, görüm, köhnə doqqaz qapısı tıqqıldayacaqmı? İşin tərsliyinə bax: onunla görüşənə qədər bizim həyətə az adam gələrdi, daha doğrusu, heç kim gəlməzdi, ancaq indi elə bilirdin bütün şəhər buraya axışır. Doqqazın qapısı tıqqıldayırdı, ürəyim tıqqıldayırdı və təsəvvür edin, sifətim bərabərindəki kiçik pəncərədə hökmən kiminsə çirkli çəkmələri görünürdü. Bıçaqitiləyən. Axı bizim binada bıçaqitiləyən kimə lazımdı? Nə itiləyəcək? Hansı bıçağı?

O, doqqazın qapısını bir dəfə açırdı, ancaq buna qədər ürəyim, ən azı, on dəfə çırpınırdı. Yalan demirəm. Sonra isə, onun gəlmək vaxtı yetişəndə, saatın əqrəbləri günortanı göstərəndə, qara dəri bantları polad toqqa ilə bərkidilmiş tufli doqqazın qapısı çırpılmadan, demək olar, səssizcə pəncərədə görünənə qədər ürəyimin çırpıntısı kəsmirdi.

O, hərdən şıltaqlıq edirdi, ikinci pəncərədə ləngiyib, tuflinin ucu ilə şüşəni tıqqıldadırdı. Mən dərhal həmin

pəncərəyə qaçırdım, ancaq tufli də, işığın qabağını kəsən qara ipək də yoxa çıxırdı, mən qapını açmağa gedirdim.

Sizi əmin edirəm ki, bizim əlaqəmizdən heç kimin xəbəri yox idi, ancaq heç vaxt belə olmur. Nə əri bilirdi, nə tanışları. Zirzəmisi mənə məxsus olan köhnə binada, əlbəttə, yanıma hansısa qadının gəldiyindən xəbərləri vardı, görmüşdülər, ancaq adını bilmirdilər.

– Bəs o kim idi? – məhəbbət tarixçəsiylə son dərəcə maraqlanan İvan soruşdu.

Qonaq əlinin işarəsiylə bildirdi ki, o, heç vaxt heç kimə bunu deməyəcək və söhbətinə davam etdi.

İvana məlum oldu ki, master və naməlum qadın bir-birini elə möhkəm seviblər, ayrı dura bilmirlərmiş. Yasəmən koluna və hasara görə həmişə alaqaranlıq olan zirzəmidəki iki otağı İvan artıq aydınca təsəvvür edirdi; köhnə qırmızı mebel, yazı stolu, onun üstündə hər yarım saatdan bir zəng vuran saat, rənglənmiş döşəmədən qurum bağlamış tavana qədər yığılmış kitablar, bir də soba.

İvan bildi ki, qonaq və onun gizli arvadı Tverskaya ilə dalanın tinində onları taleyin rastlaşdırdığına, həmişəlik bir-

biri üçün yarandıqlarına görüşlərinin elə ilk günündən inanıblar.

Qonağın söhbətindən İvan sevgililərin günlərini necə keçirdiyini bildi. O gələn kimi ilk növbədə önlük taxıb, yazıq xəstənin nəyə görəsə fəxr etdiyi həmin əlüzyuyan olan dar artırmada, ağacdan düzəldilmiş masanın üstündəki ağ neftlə işləyən pilətəni yandırır, səhər yeməyi hazırlayıb birinci otaqda, ovalşəkilli stolda süfrə açırmış. May ayında leysan yağışlar başlayanda, sel-su gurhagurla tutqun pəncərələrin yanından qapının ağzına axaraq, sonuncu sığınacağı basmaq təhlükəsi yaradanda sevgililər sobanı qalayıb, kartof bişirirmişlər. Buğu qalxan kartofun qabığının qarası əllərini bulayırmış. Zirzəmidən gülüş eşidilirmiş, yağış bağdakı ağacların sınmış körpə budaqlarını, ağ salxımlarını torpağa tökürmüş.

Tufanlar səngiyib bürkülü yay gələndə, güldanda çoxdan həsrətində olduqları, hər ikisinin sevdiyi qızılgüllər peyda olub. Özünü master adlandıran adam qızğın surətdə öz romanı üzərində işləyir, naməlum qadın da bu romanla nəfəs alırmış.

–Doğrusu, mən hərdən romanı ona qısqanırdım, – İvanın aylı eyvandan gələn gecə qonağı pıçıldadı.

Qadın uzun dırnaqları olan nazik barmaqlarını saçının arasına salıb yazılanları təkrar-təkrar oxuyur, oxuya-oxuya həmin bu papağı tikirmiş. Hərdən aşağıdakı rəflərin yanında domuşub, ya stula çıxıb, əsgiylə yüzlərlə kitabın tozunu alırmış. Qadın ona şöhrətə çatacağını deyir, onu tələsdirirmiş və elə həmin vaxt onu master adlandırmağa başlayıb. Qadın artıq İudeyanın beşinci prokuratoru haqqındakı son sözləri gözləyirmiş, xoşuna gələn ayrı-ayrı cümlələri uzada-uzada hündürdən təkrar edir və həyatının bu romanla bağlı olduğunu deyirmiş.

Avqustda başa çatan romanı tanımadıqları bir makinaçı qadına veriblər, o isə əsəri beş nüsxədə çap edib. Nəhayət, gizli sığınacağı tərk eləyib, həyata çıxmağın zamanı yetişib.

–Və mən roman əlimdə həyata çıxdım, elə onda da həyatım sona çatdı, – master pıçıldayıb başını aşağı dikdi və sarı hərflərlə üstünə "M" yazılmış qara papaq bir xeyli hüznlə yırğalandı. Sonra danışdıqları bir az əlaqəsiz idi.

Bircə onu anlamaq olurdu ki, o vaxt İvanın qonağının başına nəsə bədbəxt hadisə gəlib.

–Mən ilk dəfəydi ədəbiyyat aləminə qədəm qoyurdum, artq hər şey qurtarıb, məhv olduğum aydındır, ancaq onu yenə dəhşətlə xatırlayıram! – master ağır-ağır pıçıldayıb əlini qaldırdı. – Bəli, o, məni yaman heyrətə saldı, özü də necə saldı!

–Kim? – İvan həyəcanlanmış müsahibinin sözünü kəsməkdən ehtiyat edərək, zorla eşidiləcək bir səslə pıçıldadı.

–Əşi, redaktor, axı deyirəm, redaktor. Həmin o redaktor romanı oxudu. Mənə elə baxırdı, guya, dişim şişib, ağzım-gözüm əyilmişdi, baxışlarını yayındırıb hətta altdan-altdan qımışdı. Səbəbsiz yerə kağızlan əzişdirib xısın-xısın güldü. Mənə gic-gic suallar verməyə başladı. Roman haqqında heç nə danışmadan kimliyimi, haradan peyda olduğumu, çoxdanmı yazdığımı, haqqımda əvvəllər niyə heç nə eşidilmədiyini soruşdu, hətta, mənim fikrimcə, lap axmaq bir sual da verdi: bu qəribə mövzuda roman yazmağı kim mənim ağlıma salıb?

Nəhayət, məni bezdirdi, birbaşa soruşdum ki, romanı çap edəcək, ya yox?

Bu vaxt başladı vurnuxmağa, nəsə mızıldadı, sonra bildirdi ki, bu məsələni təkbaşına həll eləyə bilməz, gərək mənim əsərimlə redaksiya kollegiyasının başqa üzvləri, tənqidçilər Latunski, Ariman və ədəbiyyatçı Mstislav Lavroviç də şəxsən tanış olsun.

İki həftə sonra gəldim və yalan danışmaqdan gözləri burnuna sarı çəpləşmiş bir qız məni qəbul etdi.

–Lapşyonnikovadır, redaksiyanın katibi, – qonağın qəzəblə təsvir etdiyi aləmi yaxşı tanıyan İvan gülümsədi.

–Ola bilsin, – qonaq onun sözünü kəsdi, – nə isə, artıq kifayət qədər çirklənmiş və əzilmiş romanımı qız mənə qaytardı. Gözlərimə baxmamağa çalışaraq Lapşyonnikova bildirdi ki, redaksiya ikiillik materialla təmin olunub, ona görə də mənim romanımın çapı, onun sözü ilə desək, mümkünsüzdür.

–Bundan sonra mən nə xatırlayıram? – master gicgahlanı sıxaraq mızıldadı, – hə, titul səhifəsini bəzəyən

qırmızı ləçəkləri, bir də sevgilimin gözlərini. Hə, o gözləri mən xatırlayıram.

Qonağın söhbəti get-gedə lap dolaşıq olurdu, fikrini axıra çatdırmırdı. Əyri yağışlardan, zirzəmidəki ümidsizlikdən nələrsə danışdı, yenə harasa getdiyini dedi. Astadan qışqırdı ki, onu mübarizə aparmağa təhrik etdiyinə görə qadını, az da olsa, günahlandırmır, yox, günahlandırmır!

–Yadımdadır, qəzetdəki lənətə gəlmiş əlavə vərəq yadımdadır, – qonaq iki barmağı ilə havada qəzet vərəqi çəkərək mızıldadı və İvan başa düşdü ki, hansısa başqa redaktor özünü master adlandıran adamın romanından böyük bir parçanı çap edib.

Onun sözlərinə görə, üstündən heç iki gün keçməmiş başqa bir qəzetdə tənqidçi Arimanın "Düşmən redaktorun qanadı altında" məqaləsi çap olunub. Məqalədə yazılıbmış ki, İvanın qonağı redaktorun başısoyuqluğundan və nadanlığından istifadə edərək, mətbuata İsa Məsih haqqında mədhiyyə dürtüşdürməyə cəhd göstərib.

–A, yadımdadır, yadımdadır! – İvan qışqırdı. – Ancaq sizin soyadınızı unutmuşam!

–Təkrar edirəm, mənim soyadımı bir kənara qoyaq, o daha yoxdur, – qonaq cavab verdi. – Məsələ onda deyil. Bir gün sonra başqa qəzetdə Mstislav Lavroviç imzası ilə başqa məqalə peyda oldu. Müəllif öz məqaləsində piratçılığa və onu mətbuata dürtüşdürmək (yenə lənətə gəlmiş həmin söz!) fikrinə düşən bu ikona çəkənə zərbə endirməyi, həm də möhkəm zərbə endirməyi təklif edirdi.

Bu "piratçılıq" sözündən yerimdə quruyub üçüncü qəzeti açdım. Burada iki məqalə var idi: biri – Latunskinin, o biri – "Ü.E." hərfləriylə imzalanmışdı. Sizi inandırıram, Ariman və Lavroviçin yazıları Latunskinin məqaləsinin yanında toya getməli idi. Təkcə onu demək kifayətdir ki, Latunskinin məqaləsi "Barışmaz köhnə təriqətçi" adlanırdı. Haqqımda yazılan məqaləyə elə aludə olmuşdum, onun (qapını bağlamağı unutmuşdum) əlində islanmış çətir və qəzetlə qarşımda dayandığını hiss etmədim. Gözləri alışıb-yanırdı, titrəyən əlləri soyuq idi. O, əvvəlcə məni öpmək

üçün üstümə atıldı, sonra əllərini stola döyə-döyə xırıltılı səslə dedi ki, Latunskini zəhərləyəcək.

İvan tutulmuşdu, ancaq heç nə demədi.

–Fərəhsiz, sevincsiz payız günləri gəldi. Roman yazılmışdı, daha başqa bir işimiz yox idi, sobanın böyründəki xalırun üstündə oturub, alova baxmaqla günümüzü keçirirdik. İndi bir yerdə əvvəlkindən az olurduq. O, gəzməyə gedirdi. Mənim isə həyatımda, çox vaxt olduğu kimi, yenə qəribə hadisə baş verdi... Gözlənilmədən özümə dost tapdım. Bəli, bəli, təsəvvür edin, mən, ümumiyyətlə, adamayovuşmazam, qəribə xasiyyətim var: adamlarla çətin dil tapıram, heç kimə inanmıram, hamıdan şübhələnirəm. Ancaq təsəvvür edin, bununla belə, heç fərqinəvarmadığım düz-əməlli görkəmi də olmayanın biri qəfildən ürəyimə yol tapır və hamıdan da çox xoşuma gəlir.

Hə, bax, o lənətə gəlmiş vaxtlarda bağçamızın qapısı açıldı, yadımdadır, xoş payız havası idi. O, evdə deyildi. Doqqazdan bir adam girdi. Hansı iş üçünsə mənim evtikənimin yanına gəlmişdi, sonra bağçaya düşdü və necə oldusa, söhbətimiz tutdu. Özünü jurnalist kimi təqdim elədi.

Təsəvvür edin, bu adam o qədər xoşuma gəldi ki, yenə hərdən onu xatırlayıram, ondan ötrü darıxıram. Getdikcə lap tez-tez yanıma gəlməyə başladı. Bildim ki, subaydır, yaxınlıqda, təxminən, belə bir mənzildə yaşayır, 150 yeri darısqaldır və sairə. Nədənsə məni öz evinə dəvət etmirdi. Arvadımın ondan heç xoşu gəlmədi. Ancaq mən onun tərəfini saxladım. Arvadım isə dedi:

– Özün bilərsən, ancaq sənə deyirəm ki, bu adam məndə çox pis təəssürat oyadır.

Mən güldüm. Hə, əslində, ondan niyə xoşum gəlmişdi? Məsələ belədir ki, ümumiyyətlə, içində, öz qutusunda sürprizi olmayan adam maraqsızdır. Aloizinin (hə, yadımdan çıxmışdı deyəm ki, yeni tanışımın adı Aloizi Moqanç idi) öz qutusunda belə sürprizi var idi. O vaxta qədər də görməmişdim, əminəm ki, bundan sonra da Aloizi kimi ağıllı adama rast gəlməyəcəyəm. Qəzetdə hansısa məqalənin məğzini başa düşmürdümsə, Aloizi bir anın içində izah eləyirdi, özü də hiss olunurdu ki, bu, onun üçün adi bir şeydir. Həyati hadisələr və məsələlər barədə yenə onun kimi. Ancaq bunlar heç, Aloizi ədəbiyyata olan həvəsi ilə məni

məftun etmişdi. O, romanı əvvəldən axıradək mənə oxutmayana qədər rahat olmadı, özü də roman haqqında xeyli tərifli fikirlər söylədi, ancaq redaktorun roman barədəki bütün qeydlərini, orada iştirak edibmiş kimi, çox dəqiqliklə təkrar elədi. Bu qeydlər yüzə-yüz eyni idi. Bundan başqa, o, tamamilə dəqiq izah etdi ki, niyə romanım çap oluna bilməz, mən də onun düz dediyini anladım. O, açıq-aydın deyirdi: filan fəsil gedə bilməz...

Məqalələrin ardı-arası kəsilmirdi. Əvvəl-əvvəl gülürdüm. Ancaq məqalələrin sayı artdıqca, mənim onlara münasibətim də dəyişməyə başladı. İkinci mərhələ təəccüb mərhələsi idi. Sərt, hədələyici tərzdə yazılmasına baxmayaraq, bu məqalələrin, demək olar, hər sətrində riyakarlıq, inamsızlıq hiss olunurdu. Mənə elə gəlirdi – və mən bu fikri özümdən qova bilmirdim – məqalə müəllifləri demək istədiklərini demirlər, onların qəzəbi də məhz buna görədir. Sonra isə, təsəvvür edin, üçüncü – qorxu mərhələsi gəldi. Məqalələrdən yox, başa düşün, başqa şeylərdən, bu məqalələrə, romana qətiyyən dəxli olmayan şeylərdən qorxmağa başladım. Misal üçün, qaranlıqdan qorxmağa

başladım. Bir sözlə, ruhi xəstəlik mərhələsi başladı. Yatmazdan əvvəl kiçik otaqda işığı söndürən kimi mənə elə gəlirdi pəncərədən – halbuki pəncərə bağlı idi – çox uzun və soyuq caynaqları olan sprut[19] sürünüb içəri girir. Beləcə, işıqda yatası oldum.

Sevgilim çox dəyişmişdi (əlbəttə, sprut haqqında ona danışmamışdım, ancaq halımın yaxşı olmadığını görürdü), arıqlamışdı, rəngi solmuşdu, gülməyi yadırğamışdı və elə hey xahiş edirdi ki, romandan parça çap etdirməyi məsləhət gördüyü üçün onu bağışlayım. Deyirdi ki, hər şeyi atıb, yüz mindən qalan pulla cənuba, Qara dənizə gedim.

O, dediyindən əl çəkmirdi, mən isə mübahisə etməmək üçün (ürəyimə dammışdı ki, Qara dənizə gedə bilməyəcəyəm) yaxın günlərdə gedəcəyimə söz verdim. Ancaq o dedi ki, bileti özü alacaq. Mən bütün pullarımı, yəni on min rubla yaxın pulu çıxarıb ona verdim.

– Niyə belə çox? – o təəccübləndi.

[19]Sprut – başıayaqlılar sinfinə aid dəniz heyvanı

Dilimi sürüdüm ki, oğrulardan qorxuram və xahiş edirəm, mən gedənə qədər pulları saxlasın. O, pulu götürüb əl çantasına qoydu, məni öpüşlərə qərq edərək dedi ki, belə vəziyyətdə məni qoyub getməkdənsə, ölmək yaxşıdır, ancaq onu gözləyirlər, getməyə məcburdur, sabah gələcək. Yalvardı ki, heç nədən qorxmayım.

Oktyabrın ortaları idi. Şər qarışmışdı. O getdi. Mən divana uzanıb, işığı yandırmadan yatdım. Sprutun içəridə olduğu duyğusu ilə oyandım. Qaranlıqda əl havasına axtarıb, işığı birtəhər yandırdım. Cib saatı gecə ikini göstərirdi. Üzgün yatıb xəstə oyanmışdım. Mənə birdən elə gəldi ki, payız zülməti şüşəni sındırıb otağa axır və indi bu zülmətdə boğulacağam. Artıq özümü idarə eləyə bilmirdim. Qışqırdım, ağlıma gəldi ki, kiminsə, heç olmasa, yuxarıdakı evtikənin yanına qaçım. Dəli kimi özümlə mübarizə aparırdım. Sobanın yanına çatıb, ocağı qalamağa güc tapdım. Odunlar çırtıldamağa başlayanda, elə bil, bir az yüngülləşdim... Artırmaya qaçaraq işığı yandırdım, bir şüşə ağ çaxır tapıb ağzını açdım, şüşəni başıma çəkdim. Qorxum bir balaca azaldı – o qədər ki, evtikənin üstünə qaçmayıb,

sobanın yanına qayıda bildim. Qapını açdım, çünki istidən sifətim, əllərim alışıb-yanırdı və pıçıldadım:

–Hiss elə ki, mənə bədbəxtlik üz verib. Gəl, gəl, gəl!

Ancaq heç kim gəlmirdi. Soba guruldayırdı, pəncərəyə yağış çırpılırdı. Bu vaxt son əhvalat baş verdi. Mən siyirmədən ağır, qalın romanı və qaralama dəftərlərimi çıxarıb yandırmağa başladım. Bunu etmək çox çətindi, çünki yazılı kağızlar pis yanır. Dırnaqlarım sına-sına dəftərləri cırıb, odunların arasına dürtürdüm və odçəkənlə vərəqləri qurdalayırdım. Arada kül məni əldən saldı, alov üzümü qarsaladı, ancaq mən geri çəkilmədim və roman var gücü ilə müqavimət göstərsə də, axır ki, məhv oldu. Tanış sözlər gözümə dəyirdi, alov səhifə boyunca aşağıdan-yuxarı qalxırdı, ancaq sözlər yenə də üzə çıxırdı. Yalnız kağız yanıb qaralanda sözlər itirdi və mən odçəkənlə amansızcasına onların axırına çıxırdım.

Bu vaxt kimsə astadan pəncərəni tıqqıldatdı. Ürəyim çırpındı və mən sonuncu dəftəri oda atıb, qapını açmağa cumdum. Kərpic pillələr zirzəmidən həyətə açılan qapıya

çıxırdı. Ayaqlarım dolaşa-dolaşa qapıya qaçıb yavaşdan soruşdum:

–Kimdir?

Və səs, onun səsi cavab verdi:

–Mənəm.

Zənciri, kilidi necə açdığımı xatırlamıram. O, otağa keçən kimi sinəmə sıxıldı, saçları dağınıq, üz-gözü, pal-paltarı tamam suyun içində idi, özü də titrəyirdi. Mən ancaq bu sözləri deyə bildim:

–Sənsən... sənsən? – səsim tutuldu və biz aşağı qaçdıq. O, artırmada paltosunu çıxardı, tez-tələsik birinci otağa keçdik. Astadan qışqıraraq, yanan sonuncu kağız qalağını yalın əllə sobadan çıxarıb döşəməyə atdı. O saat otağı tüstü bürüdü. Mən odu tapdaladım, o isə divana yıxılıb hönkürtü ilə ağladı.

O sakitləşəndə mən dedim:

–Bu romanı görməyə gözüm yoxdur, mən xəstəyəm. Mən qorxuram.

O, ayağa qalxdı:

–İlahi, sən nə yaman xəstəsən. Axı nəyə görə, nəyə görə? Ancaq mən səni xilas eləyəcəyəm, xilas eləyəcəyəm. Bu nə işdir belə!

Mən onun tüstüdən və ağlamaqdan şişmiş gözlərini görürdüm, soyuq əllərinin alnımı sığalladığını hiss edirdim.

–Mən səni sağaldacağam, sağaldacağam, – kürəyimə sığınıb mızıldandı, – sən onu bərpa edərsən. Niyə, niyə mən özümdə bir nüsxə saxlamadım!

O, hirsindən dişlərini qıcayıb yenə nələrsə dedi. Sonra dodaqlarını bir-birinə sıxaraq, qarsalanmış vərəqləri toplayıb qaydaya salmağa başladı. Romanın ortalarından hansısa fəsil idi, dəqiq yadımda deyil. Qarsalanmış vərəqləri səliqə ilə üst-üstə yığıb kağıza bükdü, lentlə bağladı. Onun bütün hərəkətləri artıq özünü ələ aldığından, qətiyyətindən xəbər verirdi. O, çaxır istəyib, içəndən sonra sakitcə dedi:

–Yalanın axırı, bax, belə olur, ona görə daha yalan danışmaq istəmirəm. Mən elə indi sənin yanında qala bilərəm, ancaq bu cür etmək istəmirəm. İstəmirəm həmişəlik onun yadında qalsın ki, yanından gecə qaçmışam. O, heç vaxt mənə pislik etməyib. Onu qəfil çağırdılar, zavodlarında

yanğın baş verib. Ancaq tez qayıdacaq. Onunla sabah tezdən danışacağam, deyəcəyəm ki, başqasını sevirəm və həmişəlik sənin yanına gələcəyəm. Cavab ver, bəlkə, sən bunu istəmirsən?

–Zavallım mənim, zavallım, – dedim, – qoymaram ki, sən belə eləyəsən. Məni yaxşı heç nə gözləmir, istəmirəm ki, sən də mənimlə bir yerdə məhv olasan.

–Səbəb təkcə budur? – o, gözlərimin içinə baxdı.

–Təkcə budur.

O, coşqunluqla sinəmə sıxıldı, boynumu qucaqlayıb dedi:

–Mən sənlə bir yerdə məhv olmaq istəyirəm. Səhər sənin yanındayam.

Həyatımdan son yadımda qalan – artırmadan düşən işıq zolağı, bu işıq zolağında onun dağınıq saçları, bereti və qətiyyət dolu baxışlarıdır. Bir də çöl qapının kandarındakı qara silueti və ağ bağlamanı xatırlayıram.

–Mən səni ötürərdim, ancaq geri tək qayıtmaq halında deyiləm, mən qorxuram.

–Qorxma. Bir neçə saat döz. Səhər tezdən yanında olacağam. – Bu, ondan eşitdiyim son sözlər oldu.

–Sss! – Xəstə sözünü qəfil kəsib barmağını qaldırdı, – bu gün nəsə narahat aylı gecədir.

O, eyvanda gözdən itdi. İvan dəhlizdən gələn təkər səsini eşitdi, kimsə hıçqırdı, ya astaca qışqırdı.

Sakitlik çökəndə qonaq qayıtdı və xəbər verdi ki, 120-ci otağa yeni adam gətiriblər. Gətirilən adam başının qaytarılmasını xahiş edir. Hər iki həmsöhbət narahat halda susdu, sakitləşəndən sonra yarımçıq söhbəti davam etdirdilər. Qonaq ağzını açıb danışmaq istədi, ancaq doğrudan da, narahat gecə idi. Dəhlizdən hələ də səslər eşidilirdi və qonaq İvanın qulağına elə astadan pıçıldamağa başladı ki, şair ilk kəlməni eşitmədi:

–O, məni tərk eləyəndən on beş dəqiqə sonra pəncərəm döyüldü...

Pıçıldadıqları, görünür, xəstəni çox həyəcanlandırırdı. Sifəti tez-tez səyriyirdi. Gözlərində qorxu və qəzəb yanıb-sönürdü. Çoxdan eyvandan uzaqlaşmış ay səmti əliylə

göstərirdi. Yalnız dəhlizdə səs tamam kəsiləndən sonra qonaq İvandan aralanıb hündürdən danışdı.

–Hə, nə isə, yanvarın ortalarında elə həminki, ancaq düymələri qırıq paltoda öz həyətimdə gecə soyuqdan büzüşmüşdüm. Arxamda yasəmən kolunu basmış qar təpəsi, qarşımda, aşağıda isə – pərdələri örtülü, o üzündən zəif işıq süzülən pəncərələrim idi, mən onlardan birinə yaxmlaşıb qulaq verdim – otağımda patefon oxuyurdu. Bircə bunu eşitdim. Ancaq heç nə görə bilmədim. Bir az dayanıb, həyət qapısından çıxdım. Küçədə çovğun tüğyan edirdi. Ayağıma dolaşan it məni qorxutdu, onun əlindən küçənin o biri tərəfinə qaçdım. Daimi yoldaşıma çevrilmiş şaxta və qorxu məni bezdirmişdi. Getməyə yerim yox idi, ən yaxşısı, əlbəttə, dalanın çıxdığı küçədən keçən tramvaym altına atılmaqdı. İçərisi işıqlı bu donmuş qutular uzaqdan görünürdü və şaxtada onların iyrənc qıcırtısını eşidirdim. Ancaq mənim əziz qonşum, məsələ onda idi ki, qorxu bütün bədənimi sarmışdı. İtdən qorxduğum kimi tramvaydan da qorxurdum. Bəli, sizi inandırıram ki, bu binada mənim xəstəliyimdən betəri yoxdur.

–Siz ki ona xəbər göndərə bilərdiniz, – İvan biçarə xəstənin halına acıdı, – bundan başqa, axı sizin pullarınız da ondadır? Yəqin, saxlamış olar.

–Buna şübhəniz olmasın, əlbəttə, saxlayıb. Ancaq siz, deyəsən, məni başa düşmürsünüz. Ya mən nəyisə təsvir etmək bacarığımı, görünür, artıq itirmişəm. Bir yana qalanda, ayrılmağımıza elə də təəssüflənmirəm, çünki o daha mənə lazım olmayacaq. Onun qarşısına, – qonaq həsrətlə gecənin qaranlığına baxdı, – dəlixanadan göndərilmiş məktub qoyulur. Məgər belə ünvandan məktub göndərmək olar? Ruhi xəstə? Zarafat edirsiniz, mənim dostum! Yox, onu bədbəxt etmək? Mən bunu bacarmaram.

İvan deməyə söz tapmadı, ancaq qonağa ürəyi yanırdı, dərdinə şərik olurdu. O isə öz xatirəsinin əzabından qara papaqlı başını yırğalaya-yırğalaya danışırdı:

–Zavallı qadın. Amma ümid eləyirəm ki, o, məni unudub!

–Ancaq siz sağala bilərsiniz... – İvan çəkinə-çəkinə dedi.

–Mənim xəstəliyimin əlacı yoxdur, – qonaq sakitcə cavab verdi, – Stravinski deyəndə ki məni həyata qaytaracaq, ona inanmadım. O, insaflı adamdır, sadəcə, məni sakitləşdirmək istəyir. Amma etiraf edim ki, əvvəlkindən yaxşıyam. Hə, harada qalmışdım? Şaxta, şütüyüb keçən tramvaylar. Bu klinikanın açıldığını artıq bilirdim, şəhərin bir başından o biri başına piyada getdim. Ağılsızlıq! Şəhər kənarında, yəqin ki, donardım, ancaq məni təsadüf xilas etdi. Yük maşınının nəyisə xarab olmuşdu, sürücüyə yaxınlaşdım, zastavadan dörd kilometr aralı olardı, təəccüblü də olsa, sürücünün mənə ürəyi yandı. Maşın buraya gəlirdi. Məni də götürdü. Sol ayaq barmaqlarımı dondurmaqla canımı qurtardım. Ancaq onu sağaltdılar. İndi dörd aydır buradayam. Özü də bilirsinizmi, bura heç də pis yer deyilmiş. Doğrusu, böyük planlar qurmağa dəyməz, əziz qonşum! Misal üçün, mən bütün yer kürəsini dolaşmaq istəyirdim. Neyləyəsən, görünür, qismət deyilmiş. Mən bu kürənin yalnız çox kiçik bir hissəsini görürəm. Düşünürəm ki, heç də ən yaxşı hissəsi deyil, ancaq təkrar edirəm, lap elə pis də deyil. Budur, yay gəlir, Praskovya Fyodorovna söz

verib ki, eyvanda sarmaşıq əkəcək. Açarlar əl-qolunu açıb. Gecələr ay doğacaq. Ah, o daha görünmür! Hava soyuyur. Gecəyarıdan keçir. Getmək vaxtıdır.

–Deyin, İeşua ilə Pilatın axırı nə oldu, – İvan xahiş etdi, – yalvarıram, mən bilmək istəyirəm.

–Yox, yox, – qonaq diksinən kimi oldu, – mən öz romanımı həyəcansız xatırlaya bilmirəm. Sizin Patriarx gölündəki dostunuz isə bunu məndən yaxşı bacarardı. Söhbətə görə sağ olun. Hələlik.

İvan özünə gələnə qədər dəmir barmaqlıq cingiltiylə bağlandı və qonaq yoxa çıxdı.

XIV fəsil
YAŞASIN XORUZ!

Rimskinin, necə deyərlər, əsəbləri dözmədi və protokolun tərtib olunmasını sonacan gözləmədən öz kabinetinə qaçdı. O, masa arxasında oturub, qızarmış

gözlərini sehrli onluqlara dikmişdi. Maliyyə direktorunun ağlı başından çıxmışdı. Bayırdan uğultu gəlirdi. Tamaşaçılar Varyete binasından küçəyə axışırdılar. Qulağı darı dələn maliyyə direktoru birdən çox aydınca milis fitinin cəh-cəhini eşitdi. Təbii ki, bu fit heç vaxt yaxşı şeydən xəbər vermir. Fit təkrar olunanda, üstəlik, daha hökmlü və davamlı fit səsi onun köməyinə çatanda, sonra isə hırıltı, hətta kiminsə ələ salındığı eşidiləndə maliyyə direktoru o dəqiqə anladı ki, küçədə yenə biabırçı və ədəbsiz nəsə baş verib. Nə qədər çalışdısa buna fikir verməsin, cadugərlə köməkçilərinin göstərdiyi iyrənc seansla baş-başa qalsın – xeyri olmadı. Həssas maliyyə direktoru heç də yanılmamışdı.

Sadovaya küçəsinə baxan pəncərədən boylanan kimi üz-gözü əyilən Rimski donquldandı:

–Belə də bilirdim!

O, küçə fənərlərinin gur işığında pəncərənin altındakı səkidə, əynində bircə köynək və bənövşəyi dizlik olan qadını gördü. Hərçənd, qadının başında şlyapa, əlində isə çətir var idi. Özünü tamamilə itirmiş, gah domuşan, gah harasa qaçmaq istəyən qadının ətrafına hırıltılan maliyyə

direktorunu ürpəndirən xeyli adam yığışmışdı. Qadının yanında əynindəki yay paltosunu soyunmağa çalışan və həyəcandan qolunu dartıb çıxara bilməyən bir adam vurnuxurdu.

Qışqırıqlar, qəhqəhələr başqa səmtdən – məhz binanın sol girişindən də gəlirdi və Qriqori Daniloviç başını döndərib, çəhrayı alt paltarında olan ikinci qadını gördü. Qadın binanın girişində daldalanmaq üçün daş döşənmiş yoldan səkiyə keçmək istəyirdi, ancaq tamaşaya duranlar onun yolunu kəsirdi və öz sadəlövhlüyünün, paltar hərisliyinin bədbəxt qurbanı, murdar Faqotun firması tərəfindən aldadılan zavallı yalnız bir şeyi arzulayırdı – yer yarılsın, yerə girsin. Milisioner fitini püfləyə-püfləyə yazıq qadına tərəf yüyürürdü, milisionerin arxasınca isə kepkalı əhlikef gənclər düşmüşdü. Şaqqanaq çəkən, məsxərə çıxaran da onlar idi.

Arıq, bığlı faytonçu atını birinci yarıçılpaq qadının üstünə səyirdib, sümükləri çıxmış ələngəsinin başını birdən çəkdi. Bığlının ağzı qulağının dibinə getdi.

Rimski öz başına qapaz salıb, tüpürərək pəncərədən çəkildi.

O, bir müddət stolun arxasında oturub, küçəyə qulaq verdi. Fit səsləri müxtəlif yerlərdə lap zilə çıxıb sonra zəiflədi. Rimskinin təəccübünə rəğmən qalmaqal çox tez aradan qaldırıldı.

Hərəkət etməyin, məsuliyyətin acısını dadmağın vaxtı yetişmişdi. Üçüncü hissə oynananda aparatlar işləyirdi, zəng edib hadisə haqqında xəbər vermək, kömək istəmək, hər şeyi Lixodeyevin üstünə yıxıb, özünü təmizə çıxarmaq lazım idi. Lənət sənə, şeytan! Əhvah pozulmuş direktor iki dəfə əlini dəstəyə apardı, ikisində də əlini çəkdi. Birdən kabinetin ölü sükutunda aparatın özü elə haray qopardı ki, maliyyə direktoru diksindi, onu soyuq tər basdı. "Deyəsən, əsəblərim tamam pozulub", – dəstəyi qaldırıb, həmin an da geri sıçradı, rəngi kağız kimi ağardı. Sakit, eyni zamanda hiyləgər və həyasız qadın səsi pıçıltı ilə dedi:

– Rimski, heç yerə zəng eləmə, axırı pis olar!

Səs dərhal kəsildi. Əti ürpəşən maliyyə direktoru dəstəyi yerinə qoyub, nəyə görəsə öz arxasındakı pəncərəyə

sarı qanrıldı. Ağcaqayın ağacının yenicə yarpaqlayan seyrək budaqları arasından, ağappaq buludun içində üzən ayı gördü. Nə üçünsə Rimski gözlərini budaqlardan çəkə bilmirdi və nə qədər baxırdısa, qorxu onu bir o qədər bürüyürdü.

Nəhayət, maliyyə direktoru gözünü aylı pəncərədən zorla çəkib ayağa qalxdı. Zəng vurmaq barədə daha söhbət belə ola bilməzdi, indi maliyyə direktoru ancaq bir şey haqqında fikirləşirdi – teatrdan tezcə getsin.

O qulaq verdi: teatr binasında sakitlikdi. Rimski anladı ki, çoxdandır bütün bu ikinci mərtəbədə təkdir və həmin fikirdən uşaq kimi qorxdu. İndi kimsəsiz dəhlizlə tək-tənha getməli olduğunu, pilləkənləri düşəcəyini düşünəndə onu vahimə basdı. Stolun üstündən hipnozçunun onluqlarını tez-tələsik götürüb, portfelinə dürtdü, azacıq da olsa, özünü ürəkləndirmək üçün öskürdü. Öskürəyi xırıltılı və zəif çıxdı.

Bu vaxt ona elə gəldi ki, kabinetin qapısı altından içəri üfunət qoxuyan rütubətli hava dolur. Maliyyə direktorunun bədənindən gizilti keçdi. Üstəlik, bu yerdə qəfildən saat on ikini vurdu. Zəngin səsi də maliyyə direktorunun canına titrətmə saldı. Ancaq qapının ingilis kilidinin açarla sakitcə

burulduğunu eşidəndə onun lap ürəyi düşdü. Tərli, soyuq əllərilə portfeldən bərk-bərk yapışan maliyyə direktoru hiss etdi ki, əgər açarın şıqqıldamağı bir az da çəksə, dözməyib bağıracaq.

Axır ki, qapı kiminsə səyi nəticəsində açıldı və Varenuxa sakitcə kabinetə girdi. Rimski necə dayanmışdısa, eləcə də kresloya çökdü, çünki dizləri qatlanmışdı. Havanı sinəsinə çəkib yaltaqcasına gülümsədi və astadan dedi:

–İlahi, məni necə də qorxutdun!

Bəli, bu gözlənilməz gəliş kimi desən qorxudardı, ancaq bu həm də böyük sevinc idi. Dolaşıq düşən işdə kələfin, heç olmasa, bir ucu görünmüşdü.

–Di tez danış! Dillən! Dillən! – kələfin həmin ucundan yapışan Rimski xırıldadı, – bütün bunlar nə deməkdir?!

–Xahiş edirəm, bağışla, – gələn adam qapını örtərək, boğuq səslə cavab verdi, – dedim, yəqin, artıq getmisən.

Varenuxa kepkasını çıxarmadan kresloya sarı gedib, stolun o biri tərəfində oturdu.

Demək lazımdır ki, Varenuxanın cavabında azacıq qəribəlik vardı, həssaslıqda dünyanın ən yaxşı

stansiyalarının seysmoqraflarından geri qalmayan maliyyə direktorunun dalağı sancdı. Bu nə deməkdir? Əgər Varenuxa onun burada olmadığını güman edirdisə, maliyyə direktorunun kabinetinə niyə gəlirdi? Axı onun öz kabineti var. Bu – birinci. İkincisi: Varenuxa binaya hansı qapıdan girir-girsin, gecə növbətçilərindən birilə mütləq rastlaşmalı idi, onların da hamısına deyilmişdi ki, Qriqori Daniloviç öz kabinetində bir müddət ləngiyəcək.

Ancaq bu qəribəliklə bağlı maliyyə direktoru çox baş sındırmadı. O halda deyildi.

–Axı niyə zəng eləmədin? Yalta ilə bağlı bütün bu hoqqabazlıq nə deməkdir?

–Elə mən söylədiyimdir, – ağrıyan dişi onu narahat edirmiş kimi inzibatçı ağzını marçıldadaraq cavab verdi, – onu Puşkindəki yeməkxanada tapıblar.

–Necə yəni Puşkində?! Moskva ətrafındakı? Bəs Yaltadan vurulan teleqramlar?!

–Yalta-zad nədir! Puşkindəki teleqrafçını içirdib, başlayıblar ikisi də şuluqluq salmağa, həm də "Yalta" ünvanı ilə teleqramlar yollamağa.

–Aha... Aha... Yaxşı, yaxşı... – Rimski, elə bil, danışmadı, oxudu. Onun gözləri parıldadı. Styopanın rüsvayçılıqla işdən çıxarılması səhnəsini həvəslə təsəvvürünə gətirdi. Qurtuluş! Maliyyə direktorunun Lixodeyev adlı bəladan çoxdan gözlədiyi qurtuluş! Bəlkə, Stepan Boqdanoviçin halı işdən çıxarılmaqdan da betər olacaq... – Ətraflı danış! – Rimski suçəkəni stola çırpdı.

Varenuxa ətraflı danışmağa başladı. Maliyyə direktorunun göndərdiyi yerə çatan kimi onu qəbul edib diqqətlə dinləyiblər. Əlbəttə, heç kim Styopanın Yaltada olduğu fikrini ağlına belə gətirməyib. Hamı o saat Varenuxanın fərziyyəsilə razılaşıb ki, Lixodeyev, əlbəttə, Puşkindəki "Yalta"dadır.

–O axı indi haradadır? – həyəcanlanmış maliyyə direktoru inzibatçının sözünü kəsdi.

–Harada olmalıdır ki, – inzibatçı riyakarcasına gülümsədi, – əlbəttə, ayıltma məntəqəsində.

– Gör ha! Ay sağ ol!

Varenuxa isə söhbətinə davam edirdi. Danışdıqca Lixodeyevin ədəbsizliyi, yaramazlığı zəncir kimi uzanıb

gedirdi və bu yaramazlıqlar zəncirinin hər sonuncu halqası əvvəlkindən betər olurdu. Təkcə elə Puşkində teleqrafın qarşısındakı çəmənlikdə hansısa veyl qarmonçunun çalğısına kef havasına teleqrafçı ilə qol-qola rəqs etməyi nəyə desən dəyərdi! Hələ qorxudan ciyildəyən qadınların arxasınca qaçmağı! "Yalta"nın özündə bufetçiylə dalaşmağa cəhd göstərməyi! Elə həmin "Yalta"da göy soğanı döşəməyə səpələməyi! Səkkiz şüşə sındırılan "Ay-Danila" çaxırı. Maşına minməyə qoymayan taksi sürücüsünün sayğacını qırmağı. Styopanın murdar hərəkətlərinin qarşısını almaq istəyən adamları həbslə hədələməyi. Bir sözlə, iyrənclik.

Styopa Moskvanın teatr mühitində yaxşı tanınırdı və hamı bilirdi ki, bu adamdan nə desən, gözləmək olar. Buna baxmayaraq, inzibatçının danışdıqları hətta Styopa üçün də həddindən artıq idi. Bəli, həddindən artıq idi. Hətta çox artıq idi...

Rimskinin dəlib keçən baxışları stolun üstündən inzibatçının sifətinə zillənmişdi və o nə qədər danışırdısa, bu baxışlar bir o qədər qəmginləşirdi. İnzibatçının öz söhbətini bəzədiyi iyrənc təfərrüatlar nə qədər həyati və canlı

olurdusa, maliyyə direktoru ona bir o qədər az inanırdı. Varenuxa deyəndə ki Styopa elə azğınlaşıb, onu Moskvaya qaytarmaq üçün arxasınca gələnlərə müqavimət göstərməyə çalışıb, maliyyə direktoru artıq əmin oldu ki, gecəyarısı qayıtmış inzibatçının danışdıqlarının hamısı yalandır! Başdan ayağa yalandır.

Varenuxa Puşkinə getməyib, Styopa özü də Puşkində olmayıb. Kefli teleqrafçı olmayıb, yeməkxanada şüşə sınmayıb, Styopanı kəndirlə sarımayıblar... – bunların heç biri olmayıb.

Maliyyə direktoru inzibatçının yalan danışdığına əmin olan kimi, qorxu ayağından başlayıb bütün bədəninə yayıldı və yenə iki dəfə ona elə gəldi ki, döşəmədən üfunət qoxuyan rütubətli hava qabarır. Elə hey kresloda qurcuxan, stolüstü lampanın mavi kölgəsindən çıxmamağa çalışan, guya, ona mane olan lampanın işığından qəzetlə qəribə tərzdə qorunan inzibatçıdan bir an belə gözünü çəkməyən maliyyə direktoru bircə şey haqqında fikirləşirdi – bütün bunlar axı nə deməkdir? Gecənin bu vaxtı onun yanına gələn inzibatçı sükut çökmüş bu kimsəsiz binada niyə belə həyasızcasına

yalan danışırdı? Təhlükəni – naməlum, ancaq dəhşətli təhlükəni hiss etməsi maliyyə direktorunun ürəyini sıxmağa başladı. İnzibatçının kələyini, qəzetlə çıxartdığı fokusu sezmirmiş kimi, maliyyə direktoru özünü o yerə qoymayıb, Varenuxanın nə uydurduğuna, demək olar, artıq qulaq asmadan zənlə onun sifətinə baxırdı. Puşkindəki sərgüzəştlər barədə uydurulmuş əhvalatlardan daha anlaşılmaz olan nəsə vardı və həmin "nəsə" inzibatçının görkəmindəki, hərəkətlərindəki dəyişiklik idi.

O, kepkasının ördək dimdiyi kimi uzun günlüyünü üzünə kölgə düşsün deyə gözünün üstünə nə qədər bassa da, qəzeti nə qədər fırlatsa da, sifətinin sağ tərəfində, burnunun düz yanındakı iri qançırı maliyyə direktoru görə bildi. Bundan başqa, adətən, gümrah görünən inzibatçı indi xəstə kimi solğundu, boynuna isə bu bürkülü gecədə, nədənsə, zolaqlı köhnə şərf dolamışdı. Əgər burada olmadığı müddətdə inzibatçıda dodağını sormaq, marçıldatmaq kimi iyrənc vərdişlərin əmələ gəldiyini, səsinin birdən-birə dəyişib kallaşdığını, oğrun baxışlarını və gözlərindəki

qorxunu da buraya əlavə etsək, cəsarətlə demək olardı ki, İvan Savelyeviç Varenuxa tanınmaz dərəcədə dəyişib.

Maliyyə direktorunu yenə nəsə bərk narahat edirdi, ancaq şişmiş beynini nə qədər zora salsa da, Varenuxaya nə qədər zənlə baxsa da, bunü başa düşə bilmirdi. Bircə onu əminliklə söyləyə bilərdi: inzibatçı ilə yaxşı bələd olduğu kreslo bir yerdə tutmurdu, bunda qeyri-təbii, qeyri-adi nəsə vardı.

– Amma axır ki, öhdəsindən gəlib maşına basdılar, – Varenuxa qəzetin arxasından baxa-baxa və əliylə qançırı örtərək, dil-boğaza qoymurdu.

Rimski qəfil əlini uzadıb, barmağını stola döyəcləyə-döyəcləyə, eyni vaxtda ovcu ilə elektrik zənginin düyməsini, guya, qeyri-ixtiyari basıb özünü qurutdu.

Kimsəsiz binada zəngin gur səsi hökmən eşidilərdi. Ancaq zəng çalmadı, düyməcik stolun taxtasına batıb qaldı. Düymə işləmirdi, zəng xarab olmuşdu.

Maliyyə direktorunun bicliyi Varenuxanın gözündən yayınmadı. Sifətini turşutdu, gözləri açıq-aşkar qəzəblə parıldadı:

–Niyə zəngi basırdın?

–Əlim dəydi, – maliyyə direktoru əlini çəkib, boğuq səslə cavab verdi və tərəddüdlə soruşdu: – Sifətinə nə olub?

–Maşın yırğalandı, qapının dəstəyinə dəydim, – Varenuxa baxışlarını yayındırdı.

"Yalan deyir!" – maliyyə direktoru ürəyində dedi. Birdən gözləri böyüyüb, az qaldı hədəqəsindən çıxsın və baxışlarını kreslonun söykənəcəyinə zillədi.

Kreslonun arxasında, döşəmədə iki kəsişən kölgə var idi, biri qatı və qara, o biri zəif və boz. Kreslonun söykənəcəyinin arxa tərəfinin və nazik ayaqlarının kölgəsi döşəmədə aydın görünürdü, ancaq söykənəcəyin üst tərəfində Varenuxanın başının kölgəsi görünmürdü, eləcə də kreslonun altına inzibatçının ayaqlarının kölgəsi düşməmişdi.

"Onun kölgəsi yoxdur!" – Rimski ürəyində ümidsizcəsinə qışqırdı. Onu əsməcə tutdu.

Rimskinin heyrətli baxışlarını izləyərək, Varenuxa ehmalca kreslonun arxasına boylandı və başa düşdü ki, işin üstü açılıb.

O, kreslodan qalxdı (maliyyə direktoru da belə etdi) və portfelini əlində sıxıb, stoldan bir addım geri çəkildi.

–Məlun... Başa düşdü! Həmişə fərasətli olub, – Varenuxa hirsindən maliyyə direktorunun düz üzünə istehza ilə gülümsəyib, birdən kreslodan qapıya tərəf atıldı və ingilis kilidinin düyməsini tez aşağı basdı. Maliyyə direktoru bağa baxan pəncərəyə tərəf çəkilərək ümidsizliklə geri boylandı və ay işığının düşdüyü pəncərədə çılpaq bir qızın şüşəyə yapışmış sifətini, nəfəslikdən içəri uzatdığı, alt sürgüsünü açmağa çalışan çılpaq əlini gördü. Yuxarı siyirtmə artıq açıq idi.

Rimskiyə elə gəldi ki, stolüstü lampa sönür və yazı masası aşır. Onu, sanki, buz kimi soyuq dalğa vurdu, ancaq xoşbəxtlikdən, özünü ələ alıb yıxılmadı. Gücü pıçıldamağa çatdı:

–Kömək edin...

Varenuxa qapını kəsdirib oyan-buyana tullanır, havada bir xeyli asılı qalıb yırğalanırdı. O, qıc olmuş barmaqları ilə Rimski tərəfə işarə eləyir, donquldanır, muşqurur, pəncərədəki qıza göz vururdu.

Qız tələsdi, kürən başını nəfəsliyə soxub, əlini bacardığı qədər uzatdı, pəncərənin alt sürgüsünü cırmaqladı, çərçivəni silkələdi. Əli uzanıb, meyit rəngi aldı. Nəhayət, ölünün göyümtül barmaqları sürgüdən yapışıb çəkdi və pəncərə açılmağa başladı. Rimski astadan qışqırıb divara söykəndi, portfelini qalxan kimi irəli tutdu. Başa düşdü ki, ölümü çatıb.

Pəncərə taybatay açıldı, ancaq gecənin sərinliyi, cökə ağaclarının ətri yerinə otağa zirzəmi qoxusu doldu. Meyit pəncərənin qabağına çıxdı. Rimski onun sinəsindəki çürüntü ləkələrini aydınca gördü.

Elə bu vaxt bağdan, proqramlarda iştirak edən quşların saxlandığı tirin arxasındakı alçaq binadan xoruz banı eşidildi. Təlim görmüş xoruz Moskvanın şərqində dan yerinin ağardığını hündürdən xəbər verirdi.

Qızın sifəti qəzəbdən əyildi, xırıldayaraq nəsə söydü, Varenuxa isə qapının ağzında zingildəyib, havadan döşəməyə yıxıldı.

Xoruz yenə banladı, qız dişlərini şaqqıldatdı, kürən saçları vız durdu. Üçüncü xoruz banında qız dönüb bayıra

atıldı. Onun arxasınca Varenuxa tullanıb, uçan kupidon kimi üfüqi vəziyyət aldı və yazı stolunun üstündən keçərək, yavaşca sürüşüb pəncərədən yoxa çıxdı.

Bir az əvvəl hələ Rimski olan, saçları qar kimi ağarmış qoca yüyürüb, kilidin düyməsini yuxarı qaldırdı və qaranlıq dəhlizlə qaçmağa başladı. Pilləkənlə dönən yerdə qorxudan inildəyə-inildəyə elektrik açarını tapdı və pilləkən işıqlandı. Əsən, titrəyən qoca pilləkəndə yıxıldı, çünki ona elə gəldi ki, Varenuxa yuxarıdan üstünə düşdü.

Rimski aşağı cumub vestibüldə, kassanın yanındakı stulda yatan növbətçini gördü. Barmaqlarının ucunda onun yanından ötüb əsas qapıdan çıxdı. Küçədə bir az özünə gəldi. O qədər toxtadı ki, başını tutub şlyapasının kabinetdə qaldığını xatırlaya bildi.

Aydındır ki, onun arxasınca qayıtmadı, enli küçəni tövşüyə-tövşüyə qaçaraq keçib, kinoteatrın tinində uzaqdan görünən qırmızımtıl işığa tərəf getdi. Bir dəqiqə sonra artıq özünü oraya yetirmişdi. Maşın boş idi.

–Leninqrad sürət qatarına, çaypulu da verəcəyəm, – qoca ürəyini tutub, zorla nəfəs ala-ala dedi.

–Qaraja gedirəm, – sürücü nifrətlə cavab verib üzünü döndərdi.

Rimski portfelini açıb əlli rubl çıxartdı və qabaq pəncərədən sürücüyə uzatdı.

Bir az sonra maşın şaqqıltı sala-sala yel kimi Sadovaya dairəsiylə uçurdu. Maşın sərnişini atıb-tuturdu, Rimski sürücünün qarşısındakı sınıq güzgüdə gah onun şən, gah özünün heyrət dolu gözlərini görürdü.

Vağzal binasının qarşısında Rimski maşından atılıb, ilk rastına çıxan nömrəli ağ önlük taxmış adama qışqırdı:

–Birinci dərəcəliyə, bir dənə, otuz rubl verəcəyəm, – onluqları bürmələyib portfeldən çıxartdı, – birə olmasa, ikiyə, o da olmasa, ümumi vaqona al.

Nömrəli adam işıqsaçan saata baxıb, Rimskinin əlindən onluqları qapdı.

Beş dəqiqə sonra sürət qatarı vağzalın şüşə günbəzinin altından tərpənib, qaranlıqda gözdən itdi. Rimski də onunla birlikdə yoxa çıxdı.

XV fəsil

NİKANOR İVANOVİÇİN YUXUSU

Klinikanın 119 nömrəli otağına yerləşdirilən qırmızı sifətli gonbul adamın Nikanor İvanoviç Bosoy olduğunu təxmin etmək elə də çətin deyildi.

Ancaq o, professor Stravinskinin qəbuluna düşməzdən əvvəl başqa yerdə olmuşdu.

Həmin başqa yerdən Nikanor İvanoviçin xatirində az şey qalmışdı. Yadına vur-tut yazı masası, dolab və divan gəlirdi.

Həyəcandan və qanı sifətinə vurduğundan gözləri qaralan Nikanor İvanoviçlə orada söhbət apardılar, ancaq bu söhbət nəsə qəribə, dolaşıq alındı, daha doğrusu, heç alınmadı.

Nikanor İvanoviçə verilən ilk sual belə oldu:

–Siz, Nikanor İvanoviç Bosoy, Sadovıdakı 302-bis nömrəli binanın evlər komitəsinin sədrisiniz?

Nikanor İvanoviç hündürdən qəhqəhə çəkib cavab verdi:

–Nikanor olmağına, əlbəttə, Nikanoram! Ancaq məndən nə sədr!

–Necə yəni? – gözlərini qıyıb Nikanor İvanoviçdən soruşdular.

–Elə o cür, – o cavab verdi, – əgər mən sədr olsaydım, gərək həmin an başa düşəydim ki, o, cin-şəyatindir! Özgə nə olasıydı? Gözlüyünün şüşəsi çatlayıb... başdan-ayağa da cındırın içində... Onun harası tərcüməçiydi!

–Kim haqqında danışırsınız? – Nikanor İvanoviçdən soruşdular.

–Korovyev haqqında! – Nikanor İvanoviç qışqırdı, – bizim əllinci mənzilə soxulub. Yazın: Korovyev. Onu təcili tutmaq lazımdır! Yazın: altıncı qapı, oradadır.

–Valyuta sizdə haradandır? – Nikanor İvanoviçdən səmimiyyətlə soruşdular.

–Allah haqdır, Allah böyükdür, – Nikanor İvanoviç dedi, – hər şeyi görür, mənim də yolum orayadır. Heç vaxt əlimdə tutmamışam, valyutanın nə olduğunu da bilməmişəm! Pis işlərimə görə Allah məni cəzalandıracaq, – Nikanor İvanoviç köynəyinin yaxasını gah açıb, gah

bağlayıb, gah da xaç çevirib hissiyyatla sözünə davam etdi, – almışam! Almışam, ancaq öz sovet pulumuzla! Pulla qeydiyyata götürmüşəm, danmıram, olub. Bizim katib Prolejnyov da az aşın duzu deyil! Açığını desək, bütün oğrular evlər idarəsindədir. Ancaq mən valyuta almamışam!

Özünü axmaq yerinə qoymayıb, dollarların ventilyasiyada necə peyda olduğunu danışmasını ondan tələb edəndə Nikanor İvanoviç diz çöküb, parket taxtasım udacaqmış kimi ağzını açaraq yırğalandı.

–İstəyirsiniz, – o böyürdü, – torpaq yeyərəm, almamışam. Korovyev isə şeytandır.

Səbrin də bir həddi var və masa arxasındakılar artıq səslərini qaldırıb, Nikanor İvanoviçi qandırdılar ki, adam dilində danışmağın vaxtıdır.

Bu zaman yerdən sıçrayıb qalxan Nikanor İvanoviçin bağırtısı otağı doldurdu:

–Odur! Odur, dolabın arxasındadır! İstehza ilə gülümsəyir! Gözlüyü də... Tutun onu! Otağa müqəddəs su çiləyin!

Nikanor İvanoviçin rəngi ağardı, əsə-əsə havada xaç çəkdi, qapıya qaçıb geri qayıtdı, hansısa duanı oxudu, sonra ağzına gələni çərənləməyə başladı.

Tamamilə aydın oldu ki, Nikanor İvanoviçlə söhbət etməyə dəyməz. Onu çıxarıb ayrı otağa saldılar, orada nisbətən sakitləşdi, yalnız hıçqıra-hıçqıra dua oxuyurdu.

Əlbəttə ki, Sadovıya getdilər və 50 №-li mənzilə baş çəkdilər. Ancaq Korovyev adlı adamı tapmadılar, bu adda adamı binada heç kim tanımırdı və görməmişdi. Mərhum Berliozun və Yaltaya getmiş Lixodeyevin yaşadığı mənzil tamamilə boş idi, kabinetdəki şkafların üstünə vurulmuş surğuclu möhürlərə əl dəyməmişdi. Sadovıdan eləcə də qayıtdılar, amma karıxmış və məyuslaşmış evlər idarəsinin katibi Prolejnyovu da özləriylə apardılar.

Nikanor İvanoviçi axşam Stravinskinin klinikasına gətirdilər. Orada çox narahatlıq yaratdığına görə, ona Stravinskinin resepti əsasında iynə vurdular və yalnız gecəyarıdan keçmiş Nikanor İvanoviç hərdən iztirabla inildəyərək 119 №-li otaqda yuxuya getdi.

Ancaq vaxt ötdükcə qurcuxmağı, inildəməyi kəsdi, rahat, aramla nəfəs almağa başladı və onu otaqda tək qoydular.

Nikanor İvanoviç gün ərzində keçirdiyi həyəcanların təsiriylə yuxu gördü. Əlində qızıl şeypur olan adamlar onu çox təntənəylə iri, laklanmış qapılara tərəf aparırdılar. Həmin qapıların ağzında Nikanor İvanoviçi müşayiət edənlər onun şərəfinə tuş çaldılar, sonra göydən gələn gur, yoğun kişi səsi sevincək dedi:

–Xoş gəlmisiniz, Nikanor İvanoviç! Valyutanı təhvil verin.

Xeyli təəccüblənmiş Nikanor İvanoviç başının üstündəki qara səsgücləndiricini gördü.

Sonra birdən özünü qızıl suyuna çəkilmiş tavanından büllur çilçıraqlar, divarlanndan kenketlər[20] asılmış teatr zalında gördü. Hər şey kiçik, ancaq çox zəngin teatrlarda olduğu kimi idi. Məxmər pərdələri örtülü, tünd-qırmızı

[20]Kenket – odluğu yağla doldurulmuş çəndən aşağıda olan lampa

fonda ulduzlar kimi səpələnmiş iri qızıl onluqlar təsvir olunan səhnəsi, suflyor budkası, hətta tamaşaçılar da var idi.

Nikanor İvanoviç ona təəccübləndi ki, tamaşaçıların hamısı kişi, hamısı da nəyə görəsə saqqallı idi. Bundan başqa, teatr zalında stulların olmamasına və bütün tamaşaçıların tərtəmiz silinmiş sürüşkən döşəmədə oturmasına heyrətləndi.

Adamların çoxluğundan və düşdüyü mühitin qəribəliyindən çaşmış Nikanor İvanoviç bir az tərəddüddən sonra hamı kimi döşəmədə bardaş qurub, sağlam görkəmi olan saqqallı kürən adamla solğun sifətli, saç-saqqal basmış vətəndaşın arasında özünə yer elədi. Oturanların heç biri təzə gələn tamaşaçıya fikir vermədi.

Bu vaxt zınqırovun cingiltisi eşidildi və zalın işığı söndü, pərdə yanlara çəkildi, kreslo, üstünə qızıl zınqırov qoyulmuş stol olan arxası qara məxmər örtüklü səhnə işıqlandı.

Səhnənin dalından smokinq geyinmiş, üzü tərtəmiz qırxılmış, saçını ortadan ayırmış xoş sifətli gənc artist çıxdı. Tamaşaçılar arasında canlanma əmələ gəldi, hamı səhnəyə

tərəf çevrildi. Artist budkaya yaxınlaşıb əllərini bir-birinə sürtdü.

–Oturmusunuz? – yumşaq bariton səslə soruşub zala gülümsədi.

–Oturmuşuq, oturmuşuq, – tenor və bas səslər zaldan xorla cavab verdi.

–Hm... – artist fikirli halda pıçıldadı, – başa düşmürəm, necə də bezmirsiniz. Hamı indi adam kimi küçələrdə gəzir, siz isə bürkülü zalın döşəməsinə mıxlanıb qalmısınız! Doğrudanmı, proqram belə maraqlıdır? Amma hərənin bir şeydən xoşu gəlir, – artist fikrini filosofcasına tamamladı.

Sonra səsinin tembrini və tonunu dəyişib uca, şən səslə elan etdi:

–Beləliklə, proqramımızın növbəti nömrəsi evlər komitəsinin sədri və pəhriz yeməkxanasının müdiri Nikanor İvanoviç Bosoydur. Buyursun Nikanor İvanoviç!

Artistin cavabı aramsız alqışlar oldu. Nikanor İvanoviçin heyrətdən gözləri bərəldi, lampanın işığından əliylə qorunan konferansye isə baxışları ilə onu oturanların

arasından tapıb, barmağı ilə mehribancasına səhnəyə çağırdı. Nikanor İvanoviç səhnəyə necə çıxdığını özü də bilmədi.

Qabaqdan, aşağıdan gözlərinə rəngbərəng lampaların işığı düşdüyündən, zal tamaşaçılarla birlikdə o saat qaranlığa qərq oldu.

–Beləliklə, Nikanor İvanoviç, bizə nümunə göstərin, – gənc artist səmimiyyətlə dedi, – valyutanı təhvil verin.

Sükut çökdü. Nikanor İvanoviç nəfəsini dərib astadan dilləndi:

–Allaha and olsun ki...

Ancaq o, bu sözləri deməyə macal tapmamış bütün zal hiddətlə uğuldadı. Nikanor İvanoviç özünü itirib susdu.

–Sizi doğru anladımsa, – proqramın aparıcısı dedi, – Allahaand içmək istəyirdiniz kı, sizdə valyuta yoxdur?

–O, mərhəmətlə Nikanor İvanoviçə baxdı.

–Elədir ki var, yoxdur, – Nikanor İvanoviç cavab verdi.

–Belə, – artist dilləndi, – nəzakətsizliyə görə üzr istəyirəm: vur-tut sizinlə arvadınızın yaşadığı mənzildəki ayaqyolundan tapılan dörd yüz dollar oraya bəs necə düşüb?

–Möcüzədir! – qaranlıqdan kimsə açıq-aydın kinayə ilə dedi.

–Elədir ki var, möcüzədir, – Nikanor İvanoviç qeyri-müəyyən ünvana, artistə, ya da qaranhq zala çəkinə-çəkinə cavab verdi. – Cin-şəyatin, dama-dama paltarlı tərcüməçi gizlicə qoyub.

Yenə qəzəbli uğultu zalı başına götürdü. Sakitlik çökəndə artist dedi:

–Gör necə nağıllar dinləməli oluram! Dörd yüz dolları gizlicə qoymaq! Bax, siz hamınız valyuta möhtəkirlərisiniz! Sizə bir mütəxəssis kimi müraciət edirəm – bu iş ağlabatandırmı?

–Biz valyuta möhtəkirləri deyilik, – teatrda incik səslər eşidildi, – ancaq bu iş ağlabatan deyil.

–Sizinlə büsbütün şərikəm, – artist qətiyyətlə dedi, – sizdən soruşuram: nəyi gizlicə qoyarlar?

–Uşağı! – kimsə zaldan qışqırdı.

–Tamamilə doğrudur, – proqramın apancısı təsdiq etdi, – uşağı, anonim məktubu, bəyannaməni, saat mexanizmi ilə işləyən bombanı, gizlicə qoyulan çox şey var, ancaq dörd

yüz dolları heç kim gizlicə qoymaz, çünki dünyada o cür gicbəsər yoxdur, – artist üzünü Nikanor İvanoviçə tutub narazılıqla və məyus halda əlavə etdi:

–Məni dilxor elədiniz, Nikanor İvanoviç! Ancaq mən sizə güvənirdim. Beləliklə, bizim nömrəmiz baş tutmadı.

Nikanor İvanoviçi zaldan fitə basdılar.

–O, valyuta möhtəkiridir! – zaldan qışqırdılar, – belələrinin ucbatından biz nahaq yerə əziyyət çəkirik!

–Onu söyməyin, – konferansye mülayimcəsinə dedi, – o, peşman olacaq. – Və yaş dolu mavi gözlərlə Nikanor İvanoviçi süzdü. – Di öz yerinizə gedin, Nikanor İvanoviç!

Bundan sonra artist zınqırovu çalıb hündürdən elan etdi:

–Fasilə, yaramazlar!

Gözlənilmədən hansısa teatr proqramının iştirakçısına çevrilən Nikanor İvanoviç sarsılmış halda yenə döşəmədə öz yerini tutdu. Bu vaxt zala qaranlıq çökdü və divarlarda od tutub yanan qırmızı sözlər peyda oldu: "Valyutaları təhvil verin!" Sonra yenə pərdə çəkildi və konferansye dəvət etdi:

–Sergey Qerardoviç Dunçil səhnəyə buyursun.

Dunçil əlli yaşlannda yaraşıqlı, ancaq düşkün görkəmlibir kişi idi.

–Sergey Gerardoviç, – konferansye ona müraciət etdi, – artıq ay yarımdır burada oturub, sizdəki valyutanın qalan hissəsini verməkdən boyun qaçırırsınız, hansı ki, ölkənin buna ehtiyacı var, sizə isə o heç lazım deyil, ancaq yenə tərslik edirsiriniz. Ziyalı adamsınız, hər şeyi gözəl başa düşürsünüz, ancaq yenə mənə kömək etmək istəmirsiniz.

–Təəssüf ki, heç nə eləyə bilmərəm, çünki daha valyutam yoxdur, – Dunçil sakitcə cavab verdi.

–Heç olmasa, brilyantın da yoxdur? – artist soruşdu.

–Brilyantım da yoxdur.

Artist başını sallayıb fikrə getdi, sonra əlini əlinə çırpdı. Pərdənin arxasından səhnəyə orta yaşlarında, son dəblə geyinmiş, yəni yaxalıqsız paltoda və xırda şlyapada bir qadın çıxdı. Qadının narahat görkəmi var idi, ancaq Dunçil onu vecinə almadı.

–Bu qadın kimdir? – proqramın aparıcısı Dunçildən soruşdu.

–Mənim arvadım, – Dunçil ləyaqətlə cavab verdi və qadının uzun boğazına ikrahla baxdı.

–Sizi, madam Dunçil, – konferansye qadına müraciət etdi, – bir məsələyə görə narahat etmişik: istəyirik sizdən soruşaq, ərinizdə yenə valyuta varmı?

–O vaxt hamısını təhvil verdi, – madam Dunçil həyəcanla bildirdi.

–Belə, – artist dedi, – indi ki belədir, qoy belə olsun. Əgər hamısını təhvil veribsə, neyləmək olar, Sergey Qerardoviçdən dərhal ayrılmalıyıq! Əgər istəyirsinizsə, teatrı tərk eləyə bilərsiniz, Sergey Qerardoviç, – artist təmtəraqlı bir jest elədi.

Dunçil sakitcə və ləyaqətlə dönüb pərdənin arxasına tərəf getdi.

–Bir dəqiqə! – Konferansye onu dayandırdı, – icazə verin, xudahafizləşməzdən əvvəl sizə proqramımızdan bir nömrə də göstərim, – və əlini əlinə vurdu.

Arxadakı qara pərdə aralandı, əlindəki qızıl məcməyidə lentlə bağlanmış qalın bağlama və göy, sarı, qırmızı

parıltılarla bərq vuran brilyant boyunbağı olan gözəl gənc qadın bal paltarında səhnəyə çıxdı.

Dunçil bir addım geri çəkildi, ağappaq ağardı. Zal donub-qalmışdı.

–On səkkiz min dolları və qiyməti qızıl pulla qırx min olan boyunbağını, – artist təmtəraqla elan etdi, – Sergey Qerardoviç Xarkov şəhərində öz məşuqəsi, qarşınızda görməkdən məmnunluq duyduğunuz İda Gerkulanovna Vorsun mənzilində saxlayırdı və bu qiymətli, ancaq şəxsi əldə faydasız olan xəzinəni tapmaqda o, bizə lütfkarlıqla yardım etdi. Çox sağ olun, İda Gerkulanovna.

Gözəl qız dişlərini parıldadaraq gülümsədi və onun uzun kirpikləri titrədi.

–Sizin ləyaqət yağan çöhrənizin arxasında isə, – artist Dunçilə müraciət etdi, – acgöz, tamahkar, yalançı gizlənib. Siz öz mənasız tərsliyinizlə hamını ay yarımdır üzürsünüz. İndi çıxın gedin evinizə, qoy arvadınızın başınıza açacağı oyun sizin cəzanız olsun.

Dunçil yırğalandı, az qaldı yıxılsın, ancaq kiminsə əli onun köməyinə çatdı. Bu yerdə ön pərdə düşdü və səhnədəkilərin hamısını görünməz etdi.

Gurultulu alqışlar gah titrətdi, hətta Nikanor İvanoviçə elə gəldi ki, çilçırağın işıqları tərpəndi. Öndəki qara pərdə qalxanda isə səhnədə artistdən başqa artıq heç kim yox idi. Onu ikinci alqış dalğası qarşıladı və o, təzim edərək sözə başladı.

–Bu Dunçilin şəxsində sizin qarşınızda burunlu-qulaqlı eşşək çıxış elədi. Axı valyutanı gizlətməyin mənasız olduğunu dünən demişdim. Sizi inandırıram, heç kim heç bir vəchlə ondan istifadə eləyə bilməz. Götürək elə Dunçili. O, çox yaxşı məvacib alır, heç nəyə də ehtiyacı yoxdur. Gözəl mənzili, aıvadı və gözəl məşuqəsi var. Ancaq yox, valyutanı, daş-qaşı verib rahat, qulağı dinc yaşamaq əvəzinə, bu tamahkar axmaq işi gətirib o yerə çatdırdı ki, hamının yanında ifşa olundu, üstəlik də, ailəsində xoşagəlməz vəziyyət yaratdı. Beləliklə, kim təhvil verir? Heç kim? Onda bizim proqramın növbəti nömrəsi – tanınmış, istedadlı artist Kurolesov Savva Potapoviç şair Puşkinin "Xəsis

cəngavər"indən bir parçanı ifa etmək üçün xüsusi olaraq dəvət edilib.

Kurolesov özünü çox gözlətmədi, frakda və ağ qalstukda hündür, gonbul, üzü qırxılmış bir kişi səhnəyə çıxdı.

Girişsiz-filansız sifətini turşudub qaşlarını çatdı və zınqırova baxa-baxa saxta səslə danışmağa başladı:

–Hiyləgər bir cananın görüşünə tələsən gənc şorgöz kimi...

Və Kurolesov özü haqqında xeyli xoşagəlməz şeylər danışdı. Kurolesovun etirafından Nikanor İvanoviç bildi ki, hansısa bədbəxt dul qadın nalə çəkərək, yağışın altında onun qarşısında diz çöküb, ancaq artistin ürəyini rəhmə gətirə bilməyib. Nikanor İvanoviç bu yuxuya qədər şair Puşkinin əsərlərindən xəbərsizdi, ancaq onun adı dilinin əzbəri idi və hər gün buna oxşar kəlmələr işlədirdi: "Bəs mənzil pulunu Puşkin verəcək?" Yaxud "Pilləkəndəki lampanı, yəqin, Puşkin çıxarıb?" "Nefti, yəqin, Puşkin alacaq?"

İndi onun bir əsəriylə tanışlıqdan sonra Nikanor İvanoviç kədərləndi, qadını yetimləriylə yağışın altında diz

çökmüş təsəvvür eləyib, qeyri-ixtiyari düşündü: "Bu Kurolesov lap zırramadır ki!"

O isə hey səsini qaldıraraq hələ də günahlarını etiraf eləyirdi və Nikanor İvanoviçi əməlli-başlı dolaşdırdı, çünki birdən səhnədə olmayan kiməsə müraciət etməyə və olmayan adamın əvəzinə özü özünə cavab verməyə başladı,həm də özünə gah "hökmdar", gah "baron", gah "ata", gah "oğul", gah "siz", gah "sən" deyirdi.

Nikanor İvanoviç bircə onu anladı ki, artist: "Açarlar! Mənim açarlarım!" – qışqırıb xırıldaya-xırıldaya və ehmalca qalstukunu çıxararaq, döşəməyə yıxılıb əzabla öldü.

Kurolesov öləndən sonra qalxıb, frakının şalvarından tozu çırpdı, saxta təbəssümlə gülümsəyib baş əydi və seyrək alqışların müşayiətilə səhnədən getdi. Konferansye isə dedi:

–Biz sizinlə Savva Potapoviçin çox gözəl ifasında "Xəsis cəngavər"ə qulaq asdıq. Bu cəngavər ümid eləyirdi ki, şux məleykələr uçub yanına gələcəklər və bu cür xoş şeylər hələ çox baş verəcək. Ancaq gördüyünüz kimi, belə şey baş vermədi, məleykələr onun yanına uçub gəlmədilər, ilham pəriləri ona vergi vermədilər və özü üçün heç bir

imarət ucaltmadı, əksinə, valyuta və daş-qaş dolu sandığın üstündə iflicdən cəhənnəmə vasil oldu. Sizi xəbərdaredirəm, əgər valyutanı təhvil verməsəniz, sizin də başınıza bu cür, bəlkə, bundan da betər işlər gələcək.

Puşkin poeziyasınınmı, konferansyenin bayağı çıxışınınmı təsirindən birdən zaldan kimsə çəkinə-çəkinə dedi:

–Mən valyutanı təhvil verirəm.

–Buyurun səhnəyə! – Konferansye qaranlıq zala göz gəzdirərək nəzakətlə dəvət etdi.

Səhnəyə balacaboy, sarışın, sifətindən üç həftəyə yaxındı üzünü qırxmadığı hiss olunan bir adam çıxdı.

–Bağışlayın, soyadınız necədir? – konferansye xəbər aldı.

–Kanavkin Nikolay, – səhnəyə çıxan adam utana-utana cavab verdi.

–Aha! Çox xoşdur, vətəndaş Kanavkin, deməli?

–Təhvil verirəm, – Kanavkin sakitcə dedi.

–Nə qədər?

–Min dollar və iyirmi qızıl onluq.

–Bravo! Hamısıdır?

Proqramın aparıcısı Kanavkinin düz gözlərinin içinə baxdı və Nikanor İvanoviçə hətta elə gəldi ki, artistin gözləri Kanavkini rentgen şüası kimi dəlib keçdi. Zalda hamı nəfəsini içinə çəkmişdi.

–İnanıram! – nəhayət, artist bərkdən deyib baxışlarını çəkdi, – inanıram! Bu gözlər yalan demir. Axı mən sizə dönə-dönə demişəm ki, başlıca səhviniz insan gözünün əhəmiyyətini qiymətləndirməməyinizdir. Başa düşün, dil həqiqəti gizlədə bilər, göz isə – heç vaxt! Sizə qəfil sual verirlər, sizin tükünüz də tərpənmir, bir anın içində özünüzü ələ alıb bilirsiniz ki, həqiqəti gizlətmək üçün nə demək lazımdır və çox inamla onu deyirsiniz, üzünüzün bir cizgisi də tərpənmir, ancaq əfsuslar, sualın tərpətdiyi həqiqət bir anın içində ürəyinizin dərinliyindən gözünüzə sıçrayır və hər şey bitir. O sezilib, yalanınızın üstü açılıb!

Artist bu çox inandırıcı, alovlu çıxışını başa vurub, mehribanlıqla Kanavkindən xəbər aldı:

–Harada gizlədilib?

–Preçistenkada, xalam Poroxovnikovagildə...

–Aha! Bu... dayanın... yoxsa Klavdiya İliniçnanı deyirsiniz?

–Bəli.

–Hə, hə, hə! Xudmani ev? Qarşı tərəfdə də kiçik bağça? Əlbəttə, tanıyıram! Bəs siz əmanəti haraya dürtmüsünüz?

–Zirzəmidə Eynem[21] qutusundadır...

Artist əllərini bir-birinə vurdu.

–Belə şeyə rast gəlmisiniz? – o, pərt halda qışqırdı.

–Axı pullar kiflənər, nəmlənər! Belə adamlara valyuta etibar eləmək olarmı? Hə? Vallah, uşaq kimi safsınız!

Kanavkin qəbahət iş gördüyünü özü də anlayıb, kəkilli başını aşağı dikdi.

–Pul, – artist sözünə davam etdi, – gərək dövlət bankında, quru və yaxşı qorunan xüsusi yerdə saxlana, daha xalanın zirzəmisində yox, onları hətta siçovul da korlaya bilər! Doğrudan, ayıbdır, Kanavkin! Axı siz uşaq deyilsiniz!

[21]Eynem – Moskvada konditer fabrikinin sahibi; metal monpası qutusu

Kanavkin bilmirdi başını hara soxsun, elə hey pencəyinin ətəyini didişdirirdi.

–Di yaxşı, – artist yumşaldı, – keçmişi yada salanın...

–Və birdən əlavə etdi, – hə, yeri gəlmişkən, maşını boş yerə sürməmək üçün birdəfəyə həll eləyək... yəqin, xalanın da varıdır, hə?

Məsələnin belə şəkil alacağını gözləməyən Kanavkin diksindi və teatra sükut çökdü.

–Eh, Kanavkin, – konferansye tənə ilə dedi, – mən hələ onu təriflədim də! Gör bir, heç nədən yenə korladı! Mənasız şeydir, Kanavkin! Axı mən indicə göz barədə danışdım. Axı bilinir ki, xalanın da var. Bizi nahaq yerə niyə incidirsiniz?

–Var! – Kanavkin dəli kimi bağırdı.

–Bravo! – konferansye qışqırdı.

–Bravo! – zal uğuldadı.

Sakitlik çökəndə konferansye Kanavkini təbrik etdi, əlini sıxdı, maşınla şəhərə, evinə aparmağı təklif etdi, pərdənin arxasındakı adama tapşırdı ki, elə həmin maşınla xalanın dalınca gedib, qadın teatrındakı proqrama gəlməsini xahiş etsin.

–Hə, soruşmaq istəyirəm, xalan özününküləri harada gizlətdiyini deməyib? – konferansye ona nəzakətlə papiros və yanan kibrit çöpü uzatdı. O, papiros çəkə-çəkə,nədənsə, qüssə ilə gülümsədi.

–İnanıram, inanıram, – Artist köks ötürdü, – bu simic qarı nəinki qohumuna, heç şeytana da bunu deməz. Amma neyləməli, onda insani hisslər oyatmağa cəhd göstərək. Bəlkə, onun sələmçi ürəyində hələ bütün tellər çürüməyib. Yaxşı yol, Kanavkin!

Və xoşbəxt Kanavkin getdi. Artist özgə kimin valyuta təhvil vermək istədiyini soruşdu, ancaq cavabı sükut oldu.

–Qəribə adamlardır, vallah– artist çiyinlərini çəkdi və pərdə onu gizlətdi.

Lampalar söndü, bir müddət qaranlıq oldu, əsəbi tenor səslə kimsə uzaqda oxuyurdu.

"Orada bir yığın qızıl var, hamısı da mənimdir!"

Sonra uzaqdan iki dəfə alqış səsləri eşidildi.

–Qadın teatrında bir xanım təhvil verir, – Nikanor İvanoviçin kürən saqqallı qonşusu qəfil dilləndi və köks ötürərək əlavə etdi, – eh, əgər qazlarımın dərdi olmasaydı!

Əzizim, mənim Lianozovda döyüşkən qazlarım var. Qorxuram mənsiz qırılarlar. Qazlar zərif olur, onlara qulluq lazımdır... Eh, əgər qazlarımın dərdi olmasaydı! Puşkinlə isə məni heyrətləndirmək olmaz, – o, yenə köks ötürdü.

Bu vaxt zal işıqlandı və qapıların hamısından içəri ağ qalpaqlı, əli çömçəli aşpazlar doluşdu. Aşpazlar zala şorba dolu çən və doğranmış qara çörək yığılmış tabaq gətirdilər.

Tamaşaçılar arasında canlanma əmələ gəldi. Şən aşpazlar teatr həvəskarlarının arasında şütüyərək, kasalara şorba töküb, çörək paylayırdılar.

–Yeyin, uşaqlar, – aşpazlar qışqırırdılar, – valyutaları da təhvil verin! Boş yerə burada niyə otururs unuz? Bu yalı hortdatmaq elə vacibdir? Get evə, necə lazımdır gillət, ye, olsun əla!

–Məsələn, sən niyə burada qalmısan, dədə? – gonbul qırmızıpeysər aşpaz bilavasitə Nikanor İvanoviçə müraciət edərək, içində vur-tut bircə kələm yarpağı üzən şorba kasasını ona uzatdı.

–Yoxdur! Yoxdur! Mənim yoxumdur! – Nikanor İvanoviç dəhşətli səslə qışqırdı, – başa düşürsən, yoxdur!

–Yoxdur? – aşpaz hirslə bağırdı, – yoxdur? – o, mehriban qadın səsiylə soruşdu, – yoxdur, yoxdur, – o, feldşer Praskovya Fyodorovnaya çevrilib təskinlik verdi.

Praskovya Fyodorovna yuxudan ayılmaq bilməyən Nikanor İvanoviçin çiyinlərindən tutub, mehribancasına silkələdi. Aşpazlar yoxa çıxdılar, teatr pərdələriylə bir yerdə uçulub dağıldı. Nikanor İvanoviç göz yaşlarının arasından müalicəxanadakı otağını, iki ağ xalatlını, ancaq öz məsləhətləriylə adamı təngə gətirən sırtıq aşpazları yox, həkimi və əlində kasa yox, içində şpris olan tənziflə örtülü boşqab tutmuş yenə həmin Praskovya Fyodorovnanı süzdü.

–Axı bu nə deməkdir, – iynə vurulana qədər Nikanor İvanoviç acı-acı dedi, – mənim yoxumdur, yoxumdur! Qoy valyutanı Puşkin təhvil versin. Yoxdur!

–Yoxdur, yoxdur, – mərhəmətli Praskovya Fyodorovna onu sakitləşdirdi, – yoxa çarə də yoxdur.

İynədən sonra Nikanor İvanoviç rahatlandı və heç bir yuxu görmədən yatdı.

Ancaq onun qışqırıqlarının yaratdığı həyəcan 120-ci otağa da sirayət elədi, xəstə oyanıb öz başını axtarmağa

başladı, 118-ci otaqda isə naməlum master narahat oldu, barmaqlarını qəmli-qəmli şaqqıldadıb, aya baxa-baxa ömrünün sonuncu dərdli payız gecəsini, zirzəmidə qapının altından düşən işıq zolağını və pərişan saçları xatırladı.

Həyəcan 118-ci otaqdan eyvanla uçub İvana çatdı və o, yuxudan oyanıb ağladı.

Ancaq həkim narahat olmuş bu dərdli-ələmli adamları tez sakitləşdirdi və onlar yuxuya getdilər. İvan hamıdan gec, çayın üzərində dan söküləndə yuxuladı. Bütün bədənini suvaran dərmanlardan sonra rahatlıq dalğa kimi onu ağuşuna aldı. Bədəni yüngülləşdi, mürgü başını dumanlandırdı. O, yuxuya getdi və son eşitdiyi sübh çağı meşədəki quşların civiltisi oldu. Ancaq quşlar da tezliklə susdu və İvan yuxuda gördü ki, günəş artıq Keçəl Dağın arxasına enir və bu dağ ikiqat mühasirəyə alınıb...

XVI fəsil

EDAM

Günəş artıq Keçəl Dağın arxasına enirdi və bu dağ ikiqat mühasirəyə alınmışdı.

Günortaya yaxın prokuratorun yolunu kəsən həmin süvari ala löhrəm yerişlə şəhərin Hevrov qapısından çıxdı. Artıq onun üçün yol hazırlanmışdı. Kappadokiya koqortasının piyadaları adamları, qatır və dəvələri kənara sıxışdırmışdılar və ala, göyə toz qaldıraraq löhrəm yerişlə yolayrıcına – Vifleyemə və şimal-qərbə – Yaffaya aparan yola çıxdı. Ala şimal-qərbə doğru çapdı. Həmin kappadokiyalılar yol kənarına səpələnmişdilər və Yerşalaimə bayrama tələsən bütün karvanları əvvəlcədən yolun qırağına çəkmişdilər. Kappadokiyalıların arxasında yalnız otun üstündəcə qurduqları müvəqqəti çadırlarından çıxan zəvvarlar dayanmışdılar. Təxminən, bir kilometr gedəndən sonra ala İldırımsürətli legionun ikinci koqortasını ötüb, daha bir kilometr yol qət edərək Keçəl Dağın ətəyinə çatdı. Burada atdan tökülüşdülər. Komandir alanı taqımlara böldü və onlar Yaffadan qalxan bircə yolu açıq saxlayıb, təpənin ətəyini mühasirəyə aldılar.

Bir müddət keçmiş alanın arxasınca ikinci koqorta təpəyə yetişdi və onlardan bir az hündürə qalxıb, dağı üzük kimi dövrəyə aldı.

Nəhayət, Mark Siçovulqıranın komandanlığı altında kenturiya gəlib çatdı. Kenturiya yolun kənarlarına düzülüb cərgə ilə addımlayırdı, bu iki cərgənin arasında isə boynundan ağ lövhə asılmış üç məhkum məxfi keşikçi dəstəsinin mühafizəsi altında arabada gətirilirdi. Lövhələrin hər birinə arami və yunan dillərində "Quldur və qiyamçı" yazılmışdı. Məhkum arabasının arxasınca təzə yonulmuş dar ağacları, kəndirlər, bellər, vedrələr və baltalar yüklənmiş arabalar irəliləyirdi. Bu arabalarda altı cəllad oturmuşdu. Onlardan arxada at belində kenturion Mark, Yerşalaim məbədlərinin mühafizə rəisi və sarayın qaranlıq otağında Pilatın ötəri görüş keçirdiyi həmin o başlıqlı şəxs gəlirdi. Mərasimi əsgər cərgəsi tamamlayırdı, dəhşətli istinin qorxutmadığı və maraqlı hadisəni görmək həvəsində olan iki minə yaxın adam isə onların arxasınca düşmüşdü.

Şəhərdən gələn həvəskarlara indi izdihamın sonuna maneəsiz buraxılan, marağını saxlaya bilməyən zəvvarlar da

qoşulmuşdular. Qafiləni müşayiət eləyən və Pilatın günortaya yaxın dediklərini təkrarlayan carçıların qışqırıqları altında mərasim Keçəl Dağa doğru uzanıb gedirdi.

Ala ikinci qata hamını buraxdı, kenturiya isə ikinci qatdan yuxarıya yalnız edama dəxli olanları buraxdı, sonra cəld manevr edərək izdihamı təpənin dövrəsi boyunca dağıdıb seyrəltdi və kütlə yuxarıdan piyadaların, aşağıdan süvari dəstəsinin arasında qaldı. İndi kütlə edamı piyadaların seyrək cərgəsi arasından görə bilərdi.

Beləliklə, mərasim əhlinin dağa qalxmasından üç saatdan çox vaxt keçmişdi, günəş artıq Keçəl Dağın arxasına enmişdi, ancaq hələ də dözülməz isti idi və hər iki cərgədə dayanan əsgərlər bu istidən əziyyət çəkirdilər, darıxmaqdan bezmişdilər, ürəklərində hər üç quldura lənətlər yağdırıb, onların tezliklə ölməyini arzulayırdılar.

Təpənin aşağısında, açıq saxlanmış yolda dayanan balacaboy, köynəyinin arxası tərdən qaralmış ala komandiri tez-tez birinci taqımdakı dəri vedrəyə yaxınlaşıb, sudan ovuclayıb içir, çalmasını isladırdı. Bir az yüngülləşib geri

qayıdır və dikə qalxan tozlu yolu yenə obaş-bubaşa ölçürdü. Uzun qılıncı qaytanla bağlanmış çəkmələrini döyəcləyirdi. Komandir öz süvarilərinə dözüm nümunəsi göstərmək istəyirdi, ancaq əsgərlərə yazığı gəldiyindən, yerə sancılmış nizələrdən piramida düzəldib, üstünə ağ plaş atmağa icazə vermişdi. Suriyalılar amansızcasına yandırıb-yaxan günəşdən elə bu örtüyün altında daldalanırdılar. Vedrə tez boşalırdı və müxtəlif taqımlardan olan süvarilər su dalınca növbə ilə dağın ətəyindəki qobuya, bu cəhənnəm istisində sısqa tut ağaclarının aladəmgil kölgəsində qurumaqda olan bulanıq çaya tərəf yollanırdılar. Süstləşmiş atları saxlayan atabaxan əsgərlər də başlarını kölgəyə soxub darıxa-darıxa elə burada dayanmışdılar.

Əsgərlərin üzgünlüyü, onların quldurları söyməyi anlaşılan idi. Nifrət etdiyi Yerşalaim şəhərində edam zamanı qarışıqlıq düşəcəyindən ehtiyatlanan prokuratorun qorxusu, xoşbəxtlikdən, çin çıxmadı. Edamdan dörd saat keçəndən sonra yuxarıdakı piyadalar və aşağıdakı atlılar cərgəsinin arasında, gözlənildiyinin əksinə olaraq, bir adam da qalmamışdı. Kütlə günün istisindən qaçıb, təzədən

Yerşalaimə qayıtmışdı. İki Roma kenturiyasının mühasirə xəttindən kənarda təpəyə necə, hardan gəlib çıxdığı məlum olmayan vur-tut iki sahibsiz it var idi. Ancaq isti onları da təntitmişdi və onlar yerə uzanıb, qızmış daşların, torpaqda qıvrılan iri tikanlı bitkilərin arası ilə şütüyən, günəşdən qorxmayan yeganə canlı olan yaşıl belli kərtənkələlərə fikir vermədən dil çıxarıb ləhləyirdilər.

Nə ordu yeridilmiş Yerşalaimdə, nə burada – mühasirəyə alınmış təpədə heç kim məhkumları qaçırmağa cəhd göstərmədi və kütlə şəhərə qayıtdı, çünki doğrudan da, bu edamda maraqlı bir şey yox idi, şəhərdə isə axşam girəcək Pasxa bayramına artıq hazırlıq gedirdi.

Süvarilərdən çox ikinci qatdakı Roma piyadaları əziyyət çəkirdi. Kenturion Siçovulqıran əldə nizə, ayaq üstə saxladığı əsgərlərə yalnız dəbilqəni çıxarıb, suda isladılmış ağ sarğı örtməyə icazə vermişdi. Özü də elə o cür, intəhası, islanmamış sarğıda, hətta köynəyinin üstündəki gümüş şir başlarını, ayaq sipərini, qılınc və xəncərini çıxarmadan cəllad dəstəsinin yaxınlığında gəzişirdi. Təpəsini deşən günəş kenturionun eyninə də gəlmirdi və günün altında

qaynayan gümüş parıltısı kimi göz deşən şir başlarına baxmaq olmurdu.

Siçovulqıranın eybəcər hala salınmış sifətində yorğunluq, narazılıq sezilmirdi və elə görünürdü ki, nəhəng kenturion bütün günü, bütün gecəni – bir sözlə, nə qədər desən, beləcə gəzişmək gücündədir. Elə beləcə, əlini nömrəli ağır mis qurşağına qoyub gəzsin, beləcə, qaşqabaqlı baxışlarla gah dar ağacında çarmıxa çəkilmiş məhkumları, gah cərgədəki əsgərləri süzsün, qarşısına çıxan insan sümüklərini, ya xırda daş-kəsəyi tüklü çəkmələrinin burnu ilə yenə o cür soyuqqanlılıqla kənara atsın.

Başlıqlı adam dar ağacından bir az aralıda, üçayaqlı kətildə laqeyd görkəmdə oturub, bikarçılıqdan hərdənbir əlindəki çubuqla qumu eşirdi.

Legionerlərin mühasirə cərgəsinin arxasında bircə adamın da olmadığını söyləmək düzgün deyildi. Bir adam var idi, sadəcə, onu hamı görmürdü. O, edama baxmaqdan ötrü daha əlverişli olan, dağa qalxmaq üçün açıq saxlanan yol tərəfdə dayanmamışdı, təpənin dik, keçilməz uçurumlu,

göyün lənətlədiyi susuz yarğandan bərk-bərk yapışan sısqa əncir ağacının yaşamağa çalışdığı quzey üzündə dayanmışdı.

Edamın iştirakçısı yox, yeganə tamaşaçısı lap əvvəldən, yəni dörd saatdı məhz heç bir kölgəsi olmayan bu ağacın altındakı daşın üstündə oturmuşdu. Bəli, edamı görmək üçün o, pis mövqe seçmişdi. Ancaq hər halda, oradan da dar ağacları, mühasirə xəttindən içəridə dayanan kenturionun sinəsindəki iki gümüş şir başının parıltısı görünürdü, bu da, yəqin, gözə çarpmaq və heç kimin onu narahat etməsini istəməyən adam üçün tamamilə kifayət idi.

Ancaq dörd saat bundan əvvəl, edamın başlanğıcında bu adam özünü heç də belə aparmamışdı və çox tez nəzərə çarpa bilərdi, ona görə indi bir kənarda daldalanmağa üstünlük vermişdi.

İzdiham cərgəni keçib yüksəkliyə təzəcə qalxmışdı ki, o, özünü yetirdi. Nəfəsi təngiyirdi, adamları itələyə-itələyə təpəyə doğru qaçırdı və mühasirə zəncirinin onun, eləcə də hamının qarşısında qapandığını görəndə əsəbi qışqırıqları eşitməzliyə vurub, əsgərlərin arasından məhkumların artıq arabadan endirildiyi edam yerinə keçməyə sadəlövhcəsinə

cəhd göstərdi. Buna görə nizənin küt tərəfiylə sinəsindən möhkəm zərbə aldı və ağrıdan yox, ümidsizlikdən qışqırıb geri sıçradı. Onu vuran legioneri can ağrısını hiss etməyən adam kimi dumanlı və tamamilə laqeyd baxışlarla süzdü.

Sinəsini tutub, şimal tərəfdən keçməyə cərgədə bir aralı yer tapmaq üçün öskürə-öskürə, nəfəsi kəsilə-kəsilə qaçıb təpəni dolandı. Ancaq gec idi. Dairə qapanmışdı. Və dərddən sir-sifəti əyilmiş adam artıq arabadan düşürülən dar ağaclarının göründüyü yerə adlamaq cəhdlərindən əl çəkəsi oldu. Bu cəhdlərdən heç nə alınmayacaqdı. Üstəlik də, onu tuta bilərdilər, bu gün həbs olunmağı isə heç cür ona sərf eləmirdi.

Beləcə, o, yarğana tərəf getdi, ora sakitlik idi, heç kim də ona mane olmurdu.

Günəşdən və yuxusuzluqdan gözləri qızarmış bu qarasaqqal adam indi daşın üstündə oturub darıxırdı. O, sərgərdan dolaşmaqdan köhnəlmiş, mavi rəngi bozarmış tallifinin[22] yaxasını açıb gah köks ötürür, nizənin zədələdiyi,

[22]Tallif – kişilərin ibadət zamanı paltarın üstündən geyindiyi büründcək

çirkli tərin islatdığı sinəsinə baxır, gah dözülməz ağrı ilə gözlərini göyə qaldırıb, leş havasına yüksəklikdə artıq çoxdandı dövrə vuran üç quzğunu süzür, gah ümidsiz baxışlarını sarı torpağa, yarıçürümüş it kəlləsinə və onun ətrafında qaçışan kərtənkələlərə zilləyirdi.

Bu adamın əzabı elə çox idi ki, hərdən öz-özünə danışırdı.

– Of, mən axmağam! – oturduğu yerdə dərdli-dərdli yırğalanıb, qaramtıl sinəsini cırdı, – axmaq, arvad, qorxaq! Leşəm mən, adam deyiləm!

O susub başını aşağı dikdi, sonra taxta mehtərədəki ilıq sudan içib yenə dirçəldi, əlini gah tallifin altından sinəsində gizlətdiyi bıçağa, gah da qarşısındakı daşın üstünə qoyduğu mürəkkəbqabıyla nazik çubuğun yanındakı perqamentə uzatdı.

Bu perqamentdə artıq bəzi qeydlər edilmişdi:

"Dəqiqələr ötür, mən Levi Matvey Keçəl Dağdayam, ancaq ölüm hələ yoxdur!"

Sonra:

"Gün əyilir, ölüm isə yoxdur".

İndi Levi Matvey nazik çubuqla ümidsizcəsinə belə yazırdı:

"Allah! Nə üçün ona qəzəbin tutub? Ona ölüm göndər".

Bunları yazıb, içini çəkə-çəkə yenə sinəsini cırdı.

Levinin ümidsizliyi İeşuaya və ona üz verən dəhşətli uğursuzluqla, bundan başqa, Levinin fikrincə, onun buraxdığı ağır səhvlə bağlı idi. Srağagün gündüz İeşua və Levi, Yerşalaim ətrafındakı Vifaniyada bir bostançının qonağı olmuşdular və İeşuanın moizələri onun son dərəcə xoşuna gəlmişdi. Hər iki qonaq gündüz bostanda işləyib ev sahibinə kömək etdi, axşamın sərinində isə Yerşalaimə getmək fikrində idilər. Ancaq İeşua nəyə görəsə tələsdi, dedi ki, onun şəhərdə təcili işi var və günortaya yaxın çıxıb getdi. Levi Matveyin ilk səhvi bax elə bunda idi. Niyə, niyə onu tək getməyə qoydu!

Axşam Matvey Yerşalaimə gedə bilmədi. Dəhşətli bir xəstəlik onu qəfil yaxaladı. Titrədirdi, bədəni od tutub yanırdı, dişi dişinə dəyirdi, hər dəqiqə su istəyirdi. Heç hara gedə bilmədi. Bostanın çardağında çulun üstünə yıxılıb, cümə günü səhər açılana, xəstəlik qəfil necə yaxalamışdısa,

eləcə də qəfil ondan əl çəkənə qədər orada sərələnib qaldı. Taqəti olmasa da, ayaqları əssə də, nəsə bir bədbəxtlik üz verəcəyi ürəyinə damdığından, ev sahibiylə xudahafizləşib Yerşalaimə yollandı. Orada bildi ki, ürəyi onu aldatmayıb. Bədbəxtlik baş vermişdi. Prokurator hökmü elan edəndə Levi izdihamın arasında idi.

Məhkumlar dağa aparılanda Levi Matvey camaatın arasında əsgər cərgəsinin böyrü ilə qaçaraq, heç olmasa, burada olduğunu, onu son dəqiqəsində atmadığını, onun tez ölməyi üçün dua etdiyini ətrafdakılara sezdirmədən nə yolla isə İeşuaya çatdırmağa çalışırdı. Ancaq uzaqlara, onu apardıqları yerə baxdığından İeşua, əlbəttə, Levini görmürdü.

Kütlə yarım verst getmişdi ki, əsgər cərgəsinin lap böyründə izdihamın təntitdiyi Matveyin ağlına birdən sadə və dahiyanə bir fikir gəldi, tezqızışan olduğundan o saat da özünə lənət yağdırdı ki, niyə bu fikir ağlına əvvəl gəlməyib. Əsgərlərin cərgəsi sıx deyildi. Aralarında məsafə var idi. Cəld tərpənsə, hesabını düzgün götürsə, iki legionerin

arasından sivişib qaçaraq arabaya sıçraya bilərdi. Onda İeşua əzabdan qurtulardı.

Bir saniyə kifayətdi ki, bıçaqla İeşuanın kürəyindən vurub qışqırsın: "İeşua! Mən səni xilas edib, sənlə birlikdə ölürəm! Mən, Matvey – sənin sadiq və yeganə şagirdin!"

Əgər Allah ona daha bir saniyə bəxş etsə, özünü də bıçaqla vurmağa macal tapıb, dar ağacında ölməkdəncanını qurtarardı. Amma sonuncu fikir Levini, keçmiş vergiyığanı az maraqlandırırdı. Necə ölməyin onun üçün heç təfavütü yox idi. İstədiyi bircə şeydi: ömründə kimsəyə, az da olsa, pislik etməyən İeşuanın işgəncədən canı qurtarsın.

Plan çox yaxşı idi, ancaq Levinin üstündə bıçaq olmaması məsələni qəlizləşdirirdi. Üstəlik, bir qəpik pulu da yoxdu.

Özünü yamanlayan Levi camaatın arasından çıxıb, təzədən şəhərə doğru qaçdı. Qaynayan beynində bircə fikir fırlanırdı: nə yolla olur-olsun, şəhərdən bıçaq tapıb, tezcə izdihama yetişmək.

O, şəhərə girən karvanların arasından sivişib, özünü şəhər darvazasına çatdırdı və sol tərəfdə kiçik çörək

dükanının açıq olduğunu gördü. Qızmar yolla qaçmaqdan təngnəfəs olmuş Levi özünü toxtadıb, çox təmkinlə dükana girdi, piştaxta arxasındakı sahibəni salamladı, nəyə görəsə daha çox xoşuna gələn üst taxçadakı kömbəni verməsini xahiş etdi və qadın dönəndə ürəyincə olan ülgüc kimi iti uzun çörək bıçağını ehmalca piştaxtadan götürüb, o saat da dükandan çölə atıldı. Bir neçə dəqiqədən sonra o yenə Yaffa yoluna çıxmışdı. Ancaq izdiham artıq görünmürdü. O, qaçmağa başladı. Hərdən tozun içinə sərələnib, nəfəsini dərmək üçün hərəkətsiz uzanmalı olurdu. Beləcə uzanıb, qatırla və piyada Yerşalaimə gedən adamları heyrətə salırdı. Ürəyinin təkcə sinəsində yox, başında və qulaqlarında da vurduğunu eşidə-eşidə uzanıb qalırdı. Bir az nəfəsini dərib, sıçrayaraq yenə qaçmağa davam eləyirdi, ancaq get-gedə taqətdən düşürdü. Nəhayət, toz qaldırıb gedən izdihamı uzaqdan görəndə onlar artıq təpənin ətəyində idi.

– Ax, Allah... – Levi gecikdiyini anlayaraq zarıdı. Və gecikdi.

Edamdan dörd saat keçəndə Levinin əzabı ən yüksək həddə çatdı və o qeyzləndi. Daşın üstündən qalxıb, indi

faydasız saydığı oğurluq bıçağı yerə tulladı, mehtərəni tapdalayıb özünü susuz qoydu, kefisini[23] başından atdı, seyrək saçlarını yolub özünə lənətlər yağdırdı.

O, mənasız sözlər qışqıraraq özünü lənətləyirdi, bağırırdı, tüpürürdü, dünyaya axmaq gətirən ata-anasını söyürdü.

Görəndə ki and-aman və söyüşlər təsir etmir, günün altında heç nə dəyişmir, gözlərini qıyıb, düyünlənmiş yumruqlarını göyə, Aralıq dənizində batmaq üçün kölgələri uzadaraq, lap aşağı enən günəşə doğru qaldırdı, Allahdan möcüzə göstərməsini istədi. Tələb etdi ki, Allah İeşuaya dərhal ölüm göndərsin.

Gözünü açıb əmin oldu ki, təpədə heç nə dəyişməyib, təkcə kenturionun sinəsindəki gümüş şir başlarının parıltısı sönüb. Günəş öz şüalarını üzü Yerşalaimə edam olunanların kürəyinə sancırdı. Onda Levi qışqrdı:

–Lənət olsun sənə, Allah!

[23]Kefi – çiyinlik

O, xırıltılı səslə qışqırırdı ki, Allahın ədalətsizliyinə əmin olub, daha ona inanmaq fikrində deyil.

–Sən karsan! – Levi bağırdı, – kar olmasaydın, məni eşidərdin, onu dərhal öldürərdin.

Levi gözlərini qıyıb, göydən yağaraq onun özünü öldürəcək odu gözləyirdi. Bu da baş vermədi və Levi gözlərini açmadan göyə acı töhmətlər yağdırmaqda davam etdi. O, qışqıra-qışqıra hər şeydən ümidini üzdüyünü, başqa allahların, dinlərin də olduğunu deyirdi. Bəli, başqa allahlar imkan verməzdi, heç vaxt imkan verməzdi ki, İeşua kimi adam günün altında dar ağacında yanıb qovrulsun.

–Mən yanılmışam! – şəsi batmış Levi qışqırdı, – sən şər allahısan! Ya da sənin gözlərini məbəddə yanan ətirli tüstü tamam tutub, qulaqların isə ruhanilərin zil səslərindən başqa heç nə eşitmir. Sən hər şeyə qadir Allah deyilsən. Sən qəlbi qaranlıq allahsan. Qulldurların allahı, onların hamisi və ruhu, səni lənətləyirəm!

Bu vaxt keçmiş vergiyığanın qulağına nəsə bir hənir dəydi, ayağının altında nəsə xışıldadı. Bir hənir də dəyəndə Levi gözünü açıb gördü ki, onun lənətlərinin təsirindən, ya

başqa bir səbəbdən dünyada hər şey dəyişib. Günəş hər axşam batdığı dənizə çatmadan yoxa çıxmışdı. Onu udan qara bulud günbatandan vahimə ilə durmadan yaxınlaşırdı. Buludun kənarları artıq köpüklənirdi, qara ortası sarımtıl işıq saçırdı. Guruldayan, xırıldayan buludun içini hərdən odlu xətlər doğrayırdı. Yaffa yolunda, çılpaq Gion vadisində zəvvar çadırlarının üstü ilə qəfil qalxmış küləyin qovduğu toz sütunları uçuşurdu.

Levi dinməzcə dayanıb, indicə Yerşalaimi ağzına alacaq tufanın bədbəxt İeşuanın taleyində nəyisə dəyişib-dəyişməyəcəyini anlamağa çalışdı. Və buludları doğrayan şimşəkdən gözünü çəkmədən yalvardı ki, İeşuanın çəkildiyi çarmıxı ildırım vursun. Levi buludların hələ tamam örtmədiyi, tufandan yayınmaq üçün quzğunların qanad gərib, sakitcə süzdüyü təmiz göyə peşmançılıqla baxaraq, lənətlər yağdırmaqda çox tələsdiyini düşündü. İndi Allah onu eşitməyəcəkdi.

Baxışlarını təpənin ətəyində gəzdirəndə süvari alayın səpələndiyi yer Levinin diqqətini çəkdi – orada əməlli-başlı dəyişiklik baş vermişdi. Əsgərlərin nizələri torpaqdan

çıxarıb necə vurnuxduqlarını, plaşa necə büründüklərini, atabaxan əsgərlərin qara atları yedəkləyib yolla necə qaçdıqlarını Levi yüksəklikdən yaxşı görürdü. Alay yola düşürdü, burası aydındı. Levi üzünə çırpılan tozdan əliylə qorunaraq, tüpürə-tüpürə düşündü ki, görəsən, atlı dəstənin getməyə hazırlaşmağı nə deməkdir? O, baxışlarını yuxarı qaldırdı və tünd-qırmızı hərbi ləbbadədə edam meydançasına qalxan adamı görə bildi. Xoşbəxt sonluğun havası keçmiş vergiyığanın ürəyini sərinlətdi.

Quldurların əzabının beşinci saatında dağa qalxan adam Yerşalaimdən buyruqçusunun müşayiətilə çapıb gələn koqorta komandiri idi. Əsgər cərgəsi Siçovulqıranın əlinin işarəsiylə aralandı və kenturion tribuna rəsmi təzim etdi. O, Siçovulqıranı kənara çəkib nəsə pıçıldadı. Kenturion ikinci dəfə rəsmi təzim edib, dar ağaclarının dibindəki daşların üstündə oturmuş cəlladlara tərəf getdi. Tribun isə üçayaqlı kətildə oturan adama doğru yönəldi və bu adam hörmətlə ayağa qalxıb tribuna qarşı gəldi. Tribun ona da astadan nəsə dedi və hər ikisi dar ağaclarına tərəf getdi. Məbəd keşikçilərinin rəisi də onlara qoşuldu.

Siçovulqıran dar ağaclarının yanında yerə atılmış, bir az əvvəl cinayətkarların paltarı olan, cəlladların götürməkdən imtina etdiyi cır-cındıra iyrənə-iyrənə göz gəzdirərək, cəlladlardan ikisini çağırıb əmr etdi:

– Arxamca!

Yaxınlıqdakı dar ağacından xırıltılı səslə oxunan mənasız bir mahnı eşidilirdi. Dar ağacında çarmıxa çəkilən Hestas edamdan üç saat keçəndə milçəkdən və günün istisindən ağlını itirmişdi, indi üzüm barədə sakitcə nəsə zümzümə eləyirdi və çalma ilə örtülmüş başını hərdən tərpədəndə milçəklər həvəssiz-həvəssiz onun sifətindən qalxıb yenidən qayıdırdılar.

İkinci dar ağacındakı Dismas o birilərdən artıq əziyyət çəkirdi, çünki huşunu itirməmişdi və qulağını çiyninə toxundurmaq üçün başını hərdən ağır-ağır gah sağa, gah sola döndərirdi.

O ikisinə baxanda İeşua bəxtəvər idi. Elə ilk saatda bayılmağa başladı, sonra çalmalı başını sallayıb huşunu tamam itirdi. Buna görə də milçəklər, böyənəklər ona elə daraşmışdılar, qaynaşan qara həşərat topasından üzü

görünmürdü. İri böyənəklər paçasının arasına, qarnına, qoltuğunun altna qonub, çılpaq sarı bədənini sorurdu.

Başlıqlı adamın işarəsinə tabe olub, cəlladın biri əlinə nizə götürdü, o biri isə dar ağacının yanına vedrə və süngər gətirdi. Cəllad nizəni qaldıraraq, İeşuanın dartılıb dar ağacının köndələn taxtasına kəndirlə bağlanan əllərinə vurdu. Qabırğaları irəli çıxmış bədən titrədi. Cəllad nizənin ucunu onun qarnında gəzdirdi. İeşua başını qaldırdı və milçəklər vızıltı ilə uçdu, çarmıxa çəkilən adamın şişib tanınmaz hala düşmüş sifəti, süzülən gözləri göründü.

Qa-Nosri kirpiklərini aralayıb aşağı baxdı. Adətən, aydın olan gözləri indi bulanmışdı.

–Qa-Nosri! – cəllad dedi.

Qa-Nosri şişmiş dodaqlarını tərpədib, xırıltılı boğuq səslə cavab verdi:

–Nə istəyirsən? Niyə mənə yaxınlaşmısan?

–İç! – cəllad dedi və su hopdurulmuş süngər nizənin ucunda İeşuanın dodaqlarına sarı uzandı. Onun gözlərində sevinc işartıları göründü, dodaqlarını süngərə yapışdırıb

acgözlüklə sormağa başladı. Qonşu dar ağacından Dismasın səsi eşidildi:

–Ədalətsizlikdir! Mən də onun kimi qulduram.

Dismas dartındı, ancaq tərpənə bilmədi, əlləri üçyerdən kəndirlə köndələn vurulmuş taxtaya bağlanmışdı. O, qarnını çəkdi, dırnaqlarını taxtanın uclarına ilişdirdi, başını İeşuanın çəkildiyi çarmıxa tərəf döndərdi; Dismasın gözlərindən kin yağırdı.

Meydançanı toz bürüdü, əməllicə qaranlıq oldu. Toz burulğanı ötüb-keçəndən sonra kenturion qışqırdı:

–İkinci dar ağacındakı danışmasın!

Dismas susdu. İeşua süngərdən dodaqlarını aralayıb sözünü mehribancasına, həm də hökmlə deməyə çalışdı, ancaq bunu bacarmadı və xırıltılı səslə cəlladdan xahiş etdi:

–Ona da ver içsin!

Get-gedə qaranlıqlaşırdı. Yerşalaimə tələsən buludlar artıq göyün yarısını tutmuşdu, qara su və odla dolu buludların qabağınca qaynayan ağ buludlar gəlirdi. Təpənin lap üstündə şimşək çaxıb göy guruldadı. Cəllad süngəri nizədən çıxardı.

–Yaşasın alicənab igemon! – o, təntənəli səslə astadan deyib, nizəni yavaşca İeşuanın ürəyinə sancdı. İeşua titrəyib pıçıldadı:

– İgemon...

Qan qarnı ilə aşağı axdı, alt çənəsi əsdi və başı sallandı.

İkinci dəfə ildırım çaxanda cəllad artıq Dismasa su içirdirdi və eyni qaydada:

–Yaşasın igemon! – deyərək onu da öldürdü.

Ağlını itirmiş Hestas cəlladı yanında görcək qorxudanqışqırdı, ancaq süngər dodaqlarına toxunanda nəsə bağırıb, dişləriylə ondan bərk-bərk yapışdı. Bir neçə saniyədən sonra onun da bədəni kəndirlərin imkan verdiyi qədər aşağı sallandı.

Cəlladların və kenturionun arxasınca başlıqlı adam, onun dalınca isə məbəd keşikçilərinin rəisi gəlirdi. Başlıqlı adam birinci dar ağacının yanında ayaq saxlayıb, qana bələnmiş İeşuanı diqqətlə süzdü, ağ əlini onun pəncəsinə toxundurub böyründəkilərə dedi:

–Ölüb.

Eyni şey digər iki dar ağacının yanında da təkrar olundu.

Sonra tribun kenturiona işarə edib, məbəd keşikçilərinin rəisi və başlıqlı adamla birlikdə dönərək zirvədən enməyə başladı. Yarıqaranlıq oldu, şimşək qara səmanı şırımladı. Göydən qəfil od yağdı və kenturionun: "Mühasirə götürülsün!" – qışqırığı göy gurultusuna qarışdı. Əsgərlər dəbilqələrini çıxarıb sevincək təpə aşağı qaçdılar.

Yerşalaimi zülmət bürüdü.

Qəfil tökən leysan kenturiyanı təpənin ortasında haqladı. Elə bərk yağırdı ki, aşağı qaçan əsgərlərin arxasınca artıq sel gəlirdi. Təpədən dırnağa qədər islanmış, yağışdan zorla görünən atlı dəstənin Yerşalaimə getdiyi düz yola tələsən əsgərlər palçıqda sürüşüb yıxılırdılar. Bir neçə dəqiqədən sonra bu tufanda, ildırımın, yağışın altında təpədə yalnız bir adam qalmışdı. O sürüşüb yıxılır, nədən gəldi yapışır, hərdən dizin-dizin sürünür, boş yerə oğurladığı bıçağı silkələyə-silkələyə dar ağaclarına doğru can atırdı. Bu adam gah zülmətdə yoxa çıxır, gah qəfil çaxan şimşəyin titrək işığında görünürdü.

O, topuğa qədər suyun içində özünü dar ağaclarına çatdırdı, islanıb ağırlaşmış tallifi əynindən çıxarıb, bircə köynəkdə qaldı və İeşuanın ayaqlarına tərəf əyildi. Onun baldırlarından kəndiri kəsib, dar ağacının aşağısından köndələn vurulan taxtaya çıxdı, İeşuanı qucaqlayıb əllərinin bağını açdı. İeşuanın çılpaq yaş bədəni Levinin üstünə aşıb, onu yerə yıxdı. Levi tez-tələsik cəsədi çiyninə atmaq istədi, ancaq nəsə onu bu fikirdən daşındırdı. Bədəni suyun içində sərili qoyub, palçığa bata-bata o biri dar ağaclanna tərəf qaçdı. Onların da kəndirlərini kəsdi və hər iki cəsəd torpağa düşdü.

Bir neçə dəqiqədən sonra təpənin başında yalnız bu iki cəsəd və üç boş dar ağacı qaldı. Sel cəsədləri oyan-buyana çevirirdi.

Bu vaxt təpənin başında artıq nə Levi, nə də İeşuanın cəsədi vardı.

XVII fəsil

NARAHAT GÜN

Cümə günü səhər, yəni lənətə gəlmiş tamaşadan bir gün sonra Varyetenin işçiləri – mühasib Vasili Stepanoviç Lastoçkin, iki hesabdar, üç makinaçı, hər iki kassir qadın, xidmətçilər, bilet yoxlayanlar və süpürgəçilər – bir sözlə, heç kim öz işiylə məşğul deyildi, hamı Sadovıya baxan pəncərənin qabağında oturub, Varyetenin çölündə nə baş verdiyinə baxırdı. Çöldə bir ucu Kudrin meydanındaolan iki cərgə çoxminlik növbə yaranmışdı. Bu cərgələrin başında Moskvanın teatr aləmində yaxşı tanınan iyirmiyə yaxın alverçi dayanmışdı.

Növbədə dünənki görünməmiş qara magiya seansı haqqında qızğın söhbətlər gedirdi və bu həyəcan yoldan keçənlərin diqqətini çəkirdi. Elə həmin söhbətlər bir gün əvvəl tamaşada olmayan mühasib Vasili Stepanoviçi əməllicə çaşdırmışdı. Bilet yoxlayanlar, Allah bilir, nələr danışırdılar, o cümlədən məşhur seans bitəndən sonra bəzi qadınların biabırçı görkəmdə küçə ilə qaçmalarını və buna oxşar şeylər söyləyirdilər. Ciddi və sakit adam olan Vasili

Stepanoviç bütün bu möcüzələr barədə danışılanlara qulaq asıb, yalnız gözlərini döyürdü və nə edəcəyini qətiyyən bilmirdi. Ancaq məhz o nəsə etməli idi, çünki Varyetedə böyüklərdən indi bircə o qalmışdı.

Səhər saat ona işləyəndə bilet arzulayanların növbəsi o qədər böyüdü ki, bu haqda xəbər milisə çatdı və çox tez bir vaxtda piyada, eləcə də atlı milis dəstəsi göndərildi, onlar da növbədə bir balaca qayda-qanun yaratdılar. İntəhası, uzunluğu bir kilometrə çatan növbə özlüyündə çox cəlbedici idi və Sadovıdakı adamları əməlli-başlı heyrətə gətirirdi.

Bunlar çöldə baş verirdi, Varyetenin içində də işlər yaxşı deyildi. Ertədən zəng vurmağa başlamışdılar və Lixodeyevin, Rimskinin kabinetində, mühasibatda, kassada, Varenuxanın kabinetində telefonlar susmaq bilmirdi. Əvvəl-əvvəl Vasili Stepanoviç, kassir qadın telefona cavab verirdilər, nəsə deyirdilər, biletyoxlayanlar nəsə mızıldayırdılar, sonra, ümumiyyətlə, dəstəyi götürmədilər, çünki Lixodeyev, Varenuxa və Rimskinin harada olduğunu soruşanlara deməyə bir söz yox idi. Əvvəl "Lixodeyev evindədir" deməklə başdan eləməyə çalışırdılar, şəhərdən isə

cavab verirdilər ki, evə zəng vurublar, deyirlər, Lixodeyev Varyetedədir.

Bir qadın zəng vurub həyəcanla Rimskini tələb etdi, ona məsləhət gördülər arvadına zəng vursun, cavabında dəstəyin o başındakı hönkürərək cavab verdi ki, danışan elə arvadıdır və Rimski heç yerdə yoxdur. Nəsə gic-gici müəmmalı işlər baş verirdi. Süpürgəçi artıq hamıya danışmışdı ki, maliyyə direktorunun kabinetini yığışdırmağa gələndə görüb qapı taybatay açıqdır, lampa yanır, bağa baxan pəncərənin şüşəsi sınıb, kreslo yanı üstədir və heç kim yoxdur.

Saat on birə işləyəndə Rimskinin xanımı başılovlu özünü Varyeteyə çatdırdı. O, hönkürə-hönkürə barmaqlarını şaqqıldadırdı. Vasili Stepanoviç özünü tamam itirmişdi, bilmirdi ona nə məsləhət versin. On birin yarısında isə milis gəldi. İlk və tamamilə yerində verilən sualı belə oldu:

– Vətəndaşlar, burada nə baş verir? Nə məsələdir?

Hamı geri çəkilib, rəngi ağarmış və həyəcanlanmış Vasili Stepanoviçi irəli verdi. O da məcbur oldu hər şeyi olduğu kimi desin, etiraf etsin ki, direktorun, maliyyə

direktorunun və inzibatçının şəxsində Varyetenin müdiriyyəti itib, harada olduqları bilinmir, dünənki tamaşadan sonra konferansye psixiatriya müalicəxanasına aparılıb və qısası, dünən biabırçı bir tamaşa olub.

Rimskinin zar-zar ağlayan xanımını bacardıqları qədər sakitləşdirib, evə göndərdilər və maliyyə direktorunun kabinetini nə vəziyyətdə gördüyü barədə süpürgəçinin söhbətinə daha çox maraq göstərdilər. İşçilərdən xahiş etdilər ki, yerlərinə gedib öz işləriyiə məşğul olsunlar və az sonra Varyetenin binasına şeşəqulaq, qıvraq, çox ağıllı gözləri olan kül rəngində bir itin müşayiətilə əməliyyatçılar gəldi. Varyetenin əməkdaşları arasında o saat pıçhapıç gəzdi ki, bu, elə-belə it deyil,məşhur Tuzbubendir. Doğrudan da, o idi. Hərəkətləri hamını heyrətləndirdi. Maliyyə direktorunun kabinetinə soxulan kimi Tuzbuben iri sarımtıl dişlərini qıcayıb mırıldadı, sonra yerə sinərək, gözlərində nəsə bir qüssə, eyni zamanda qəzəb, şüşəsi sınmış pəncərəyə tərəf süründü. Öz canındakı qorxuya üstün gəlib, birdən pəncərənin qabağına sıçradı, başını irəli uzadıb vəhşicəsinə,

qəzəblə uladı. O, pəncərədən çəkilmək istəmirdi, zingildəyir, titrəyir, aşağı tullanmağa can atırdı.

İti kabinetdən çıxarıb vestibülə buraxdılar. O, giriş qapısından küçəyə cumub, arxasınca gələnləri taksi dayanacağına gətirdi. Dayanacağın yanında izi itirdi. Bundan sonra Tuzbubeni apardılar.

Əməliyyatçılar Varenuxanın kabinetində oturdular və dünənki seans zamanı baş verənlərin şahidlərini növbə ilə oraya çağırmağa başladılar. Demək lazımdır ki, istintaqaddımbaşı gözlənilməz çətinliklərlə rastlaşırdı. Tez-tez kələfin ucunu itirirdilər.

Afişalar olmuşdumu? Olmuşdu. Ancaq gecə üstündən təzələrini yapışdırıblar, indi lap özünü öldür, birini də tapa bilməzsən. Bu sehrbaz haradan çıxıb belə? Bilən var ki? Belə çıxır, onunla müqavilə bağlanıb?

–Ola bilsin, – həyəcanlanmış Vasili Stepanoviç cavab verdi.

–Bağlanıbsa, sənəd mühasibatdan keçməlidirmi?

–Hökmən, – Vasili Stepanoviç narahat halda dedi.

–Onda hanı müqavilə?

–Yoxdur, – rəngi get-gedə ağaran mühasib əllərini yellədi. Doğrudan da, nə mühasibatın, nə maliyyə direktorunun, nə Lixodeyevin, nə Varenuxanın qovluqlannda müqavilədən əsər-əlamət yox idi.

Bu sehrbazın soyadı necəydi? Vasili Stepanoviç bilmir, o, dünənki tamaşada olmayıb. Biletyoxlayanların xəbəri yoxdur, kassir qadın alnını qırışdırıb düşündü, düşündü, nəhayət, dedi:

–Vo... Deyəsən, Volanddır.

Bəlkə, Voland deyil? Ola bilsin, Voland deyil. Ola bilsin, Falanddır.

Aydın oldu ki, əcnəbi turist bürosunda sehrbaz Voland, eləcə də Faland haqqında heç nə eşitməyiblər.

Xidmətçi Karpov bildirdi ki, guya, həmin bu sehrbaz Lixodeyevin mənzilində qalır. Əlbəttə, mənzilə dərhal baş çəkdilər. Orada heç bir sehrbaz tapmadılar. Lixodeyevin özü də yox idi. Qulluqçu Qrunya yoxdu, hara getdiyini də heç kim bilmirdi. İdarənin rəisi Nikanor İvanoviç yoxdu, Prolejnyov yoxdu!

Tamamilə cəfəng bir şey alınırdı: bütün müdiriyyət yoxa çıxmışdı, dünən qeyri-adi, biabırçı tamaşa olmuşdu, bunu kim eləmişdi, kimin təhrikiylə eləmişdi – məlum deyildi.

Günortaya isə az qalırdı, kassa açılmalı idi. Ancaq əlbəttə, bundan söhbət gedə bilməzdi! İri karton parçasına "Bu gün tamaşa olmayacaq" yazıb, Varyetenin qapısından asdılar. Baş tərəfdən başlanan narazılıq bütün növbəyə yayıldı, ancaq narazılıq eləyib, yavaş-yavaş dağılışmağa başladılar və təxminən, bir saat sonra Sadovıda növbədən əsər-əlamət qalmadı. Əməliyyatçılar öz işlərini başqa yerdə davam etdirmək üçün növbətçilərdən savayı bütün işçiləri evə buraxıb, Varyetenin qapılarını bağladılar və çıxıb getdilər.

Mühasib Vasili Stepanoviç iki məsələni təcili həll etməli idi. Birinci, dünənki hadisələr barədə məruzə etmək üçün sadə formalı tamaşalar və əyləncələr komissiyasına, ikinci də, dünən yığılan 21711 rubl pulu təhvil vermək üçün tamaşalar komissiyasının maliyyə şöbəsinə getməliydi.

Səliqəli və çalışqan Vasili Stepanoviç pulu qəzetə büküb, kəndirlə çalın-çarpaz sarıdı, bağlamanı portfelə qoydu və təlimatı gözəl bildiyindən, əlbəttə, avtobus, ya tramvay yox, taksi dayanacağına tərəf yollandı.

Hər üç maşının sürücüsü portfeli dolu səmişinin dayanacağa tələsdiyini görən kimi, nəyə görəsə hirslə ona baxa-baxa maşını boş sürüb getdi.

Heyrətlənmiş mühasib bunun nə demək olduğunu anlamaq üçün durduğu yerdə bir xeyli quruyub qaldı.

Üç dəqiqə keçmiş boş maşın yaxınlaşdı və sərnişini görən kimi sürücü sifətini turşutdu.

–Maşın boşdur? – Vasili Stepanoviç boğazını antlayıb soruşdu.

–Pulunuzu göstərin, – sərnişinə baxmadan sürücü acıqla dedi.

Mühasib get-gedə lap heyrətlənərək, qiymətli portfelini qoltuğunun altında bərk-bərk sıxıb, pul kisəsindən onluq çıxartdı və sürücüyə göstərdi.

–Getmirəm! – sürücü qısaca dedi.

–Bağışlayın... – mühasib danışmağa başlamışdı ki, sürücü onun sözünü kəsdi:

–Üçlüyün var?

Özünü əməlli-başlı itirmiş mühasib pul kisəsindən iki üçlük çıxarıb, sürücüyə göstərdi.

–Oturun, – o qışqırıb sayğaca elə ilişdirdi, az qaldı sındırsın. – Getdik.

–Xırdan yoxdur ki? – mühasib çəkinə-çəkinə soruşdu.

–Xırda bir anbar! – sürücü bağırdı və güzgüdə onun qan sağılmış gözləri göründü, – bu gün üçüncü hadisədir başıma gəlir. Eyni şey başqalarının da başına gəlib. Köpəyoğlunun biri onluq verdi, mən də xırdasını – dörd yarım qaytardım... əclaf düşdü! Beş dəqiqə sonra baxıram:onluq əvəzinə narzan şüşəsinin kağızı! – Bu yerdə sürücü bir neçə nalayiq söz işlətdi. – O biri hadisə Zubovski ətrafında baş verdi. Onluq uzatdı. Üç rubl qaytardım. Getdi! Pul kisəsinə əlimi soxdum, barmağımı arı vurdu! Ay sənin!.. – sürücü yenə söydü, – onluq da ki yoxdu. Dünən həmin Varyetedə (söyüş) bir murdar fokusçu onluqlarla tamaşa çıxarıb (söyüş).

Mühasib qorxusundan büzüşdü, elə görkəm aldı ki, guya, "Varyete" sözünü ilk dəfədir eşidir və düşündü: "İşə bax ha!"

Lazım olan yerə çatanda mühasib rahatca hesablaşdı, binaya girib dəhlizlə müdirin kabinetinə yönəldi və elə yolda başa düşdü ki, vaxtında gəlməyib. Tamaşalar komissiyasının dəftərxanasında qarışıqlıq hökm sürürdü. Yaylığı boynuna sürüşmüş, gözləri bərəlmiş xidmətçi qadın qaçaraq mühasibin qarşısından keçdi.

– Yoxdur, yoxdur, mənim əzizlərim, yoxdur! – kimədediyi anlaşılmadan qışqırırdı, – pencəyi, şalvarı yerindədir, ancaq pencəyinin içində heç nə yoxdur!

Xidmətçi qadın hansısa qapının arxasında görünməz oldu və qırılan qab-qacağın səsi eşidildi. Mühasibin tanışı olan komissiyanın birinci bölməsinin müdiri qəbul otağından qaçaraq çıxdı, ancaq elə halda idi ki, onu tanımadı və harasa yox oldu.

Bütün bunlara mat qalan mühasib komissiya sədrinin kabinetinin girəcəyindəki qəbul otağına çatanda lap sarsıldı.

Bağlı qapının arxasından, heç şübhəsiz, komissiya sədri Proxor Petroviçə məxsus olan zəhmli səs eşidilirdi. "Görən, kimi danlayır?" – karıxmış mühasib fikirləşdi və boylanıb başqa şey gördü: Proxor Petroviçin katibəsi gözəl Anna Riçardovna əlində islanmış dəsmal ayaqlarını, az qala, qəbul otağının ortasına qədər uzadıb, dəri kresloya sərələnmişdi və başını söykənəcəyə qoyub hönkürürdü.

Anna Riçardovnanın dodaqlarının boyası çənəsinə yayılmışdı, kirpiklərindən süzülən yaş isə şaftalı rəngli yanaqlarına qara zolaqlar salmışdı.

Kiminsə içəri girdiyini görən Anna Riçardovna sıçrayıb, mühasibin üstünə cumdu, pencəyinin yaxasından yapışıb, onu silkələyə-silkələyə qışqırdı:

–Allaha şükür! Heç olmasa, bir qoçaq adam tapıldı! Hamı qaçıb. Hamı xəyanət eləyib! Gedək, gedək onun yanına, mən nə edəcəyimi bilmirəm! – O, ağlaya-ağlaya mühasibi kabinetə sarı dartdı.

Kabinetə girən mühasib ilk əvvəl portfeli əlindən yerə saldı və gözləri kəlləsinə çıxdı. Bu da səbəbsiz deyildi.

Ağır, iri mürəkkəbqabı qoyulmuş böyük yazı stolunun arxasında içi boş kostyum oturub, mürəkkəbə batırılmamış qələmi kağızın üstündə gəzdirirdi. Kostyum qalstukda idi, döş cibindən avtomat qələmin ucu çıxmışdı, ancaq pencəyin yaxasından yuxarıda nə boyun, nə baş var idi, eləcə də əlləri görünmürdü. Kostyum məşğul idi və ətrafındakı qarışıqlıqdan tamamilə xəbərsizdi. Kiminsə içəri girdiyini eşidib, kostyum kresloya söykəndi və yaxanın yuxarısından Proxor Petroviçin mühasibə yaxşı tanış olan səsi eşidildi.

–Nə olub? Axı qapının üstünə yazılıb ki, heç kimi qəbul etmirəm.

Gözəl katibə zığıldayıb, barmaqlarını şaqqıldada-şaqqıldada əsəbi halda dedi:

–Siz görürsünüz? Görürsünüz?! O yoxdur! Yoxdur! Onu qaytarın, qaytarın!

Bu vaxt kimsə başını kabinetə soxub, ufuldayaraq geri qaçdı. Mühasib ayaqlarının əsdiyini hiss edib, stulun bir küncündə oturdu, ancaq portfelini yerdən qaldırmağı unutmadı. Anna Riçardovna mühasibin böyür-başında vurnuxub, pencəyini dartışdıra-dartışdıra qışqırırdı:

–Hər şeyə görə zarıyırdı, deyirdim, zarıma! Bu da zarımağın axırı, – gözəlçə yazı stoluna sarı qaçıb məlahətli səslə, ancaq ağlamaqdan bir az burnunda danışaraq ucadan dedi: – Proşa! Siz haradasınız?

–Sizin üçün mən haradan "Proşa" oldum? – kostyum təkəbbürlə soruşdu və kresloda lap yayxandı.

–Tanımır! Məni tanımır! Başa düşürsünüz? – Katibə hönkürdü.

–Xahiş edirəm kabinetdə ağlamayın! – tündxasiyyət zolaqlı kostyum artıq hirslə dedi və ağ kağız dəstini dərkənar qoymaq üçün pencəyin qolu ilə özünə tərəf çəkdi.

–Yox, mən buna baxa bilmirəm, baxa bilmirəm! – Anna Riçardovna qışqırıb qəbul otağına qaçdı, mühasib də güllə kimi onun aıxasınca çıxdı.

–Təsəvvür edin, oturduğum yerdə, – Anna Riçardovna yenə mühasibin qolundan yapışıb, həyəcandan əsə-əsə danışmağa başladı, – pişik girdi içəri. Qara, begemot kimi iri. Mən, əlbəttə, "pişt" deyib üstünə qışqırdım. O rədd oldu, əvəzində pişik sifətli gonbulun biri içəri girib dedi: "Vətəndaş, nə üçün gələnlərin üstünə "pişt" deyə

qışqırırsınız?" Və birbaşa Proxor Petroviçin kabinetinə tərəf getdi, mən də, əlbəttə, onun dalınca gedib qışqırdım: "Siz dəli olmusunuz?" Bu sırtıq isə Proxor Petroviçin kabinetinə keçib, kresloda onunla üzbəüz oturdu! O da... o, mehriban insandır, ancaq əsəbidir. Özündən çıxdı! Razıyam. Əsəbi adamdır, öküz kimi işləyir – özündən çıxdı. "Siz, – dedi, – niyə icazəsiz soxulursunuz?" O ədəbsiz isə, təsəvvür edin, kresloda yayxanıb gülümsəyərək dedi: "Mən sizinlə bir iş barədə danışmağa gəlmişəm". Proxor Petroviç yenə hirsləndi: "Mən məşğulam!" Bir görün o nə dedi: "Siz məşğul-zad deyilsiniz..." Aaa! Bu yerdə, əlbəttə, Proxor Petroviçin səbri tükəndi və o qışqırdı: "Bu nə deməkdir? Rədd eləyin bunu, şeytan kələyinə düşmüşəm də!" O isə, təsəvvür edin, gülümsəyib dedi: "Şeytan kələyinə düşmüsən? Nə deyirəm, olar!" Və taraqq, qışqırmağa da macal tapmadım, baxdım ki, bu pişiksifət yoxdur və ot.. oturub... kosiyum... Heee! – Zarıyan Anna Riçardovnanın ağzı qulağının dibinə getdi.

O, hönkürtüsünə ara verib nəfəsini dərərək, tamam cəfəng şeylər danışmağa başladı:

–Elə yazır, yazır, yazır! Adam dəli olar! Telefonla danışır! Kostyum! Hamı dovşan kimi qaçıb getdi!

Mühasib durduğu yerdə əsirdi. Amma bəxti gətirdi. Qəbul otağına işgüzar görkəmdə iki milis nəfəri daxil oldu. Gözəlçə onları görəndə barmağı ilə kabineti göstərib lap betər zarıdı.

–Gəlin ağlamağı yığışdıraq, vətəndaş, – onlardan biri sakitcə dedi, mühasib isə burada tamamilə artıq olduğunu hiss edib, qəbul otağından çıxdı və bir dəqiqə sonra artıq təmiz havada idi. Başında yellər oynayırdı, beyni boru kimi uğuldayırdı və dünənki tamaşada iştirak edən pişik haqqında bilet paylayanların qırıq-qırıq söhbətləri bu uğultuda eşidilirdi. "Aha! Yoxsa bu bizim pişikdir?"

Burada heç nəyə nail olmayan vicdanlı Vasili Stepanoviç komissiyanın Vaqankov döngəsində yerləşən filialına baş çəkmək qərarına gəldi. Və bir az sakitləşmək üçün filiala qədər piyada getdi.

Tamaşalar komissiyasının şəhər filialı həyətin dərinliyində, vestibülündəki porfir[24] sütunları ilə məşhur olan köhnə malikanədə yerləşirdi.

Ancaq həmin gün filiala gələnləri sütunlar yox, onun altında baş verənlər heyrətə salmışdı.

Gələnlərin bir neçəsi mat-mat dayanıb, tamaşalara aid xüsusi ədəbiyyat qoyulmuş masanın arxasında oturub ağlayan qıza baxırdı. Qız həmin vaxt bu ədəbiyyatı heç kimə təklif etmirdi və halına yananların suallarına fikir vermirdi, bu zaman isə yuxarıdan, aşağıdan, yanlardan, filialın bütün şöbələrindən özünü didib-dağıdan, ən azı, iyirmi telefon aparatının cingiltisi aləmi başına götürmüşdü.

Qız birdən diksinib ağlamağını kəsdi və əsəbi halda qışqırdı:

– Yenə başlandı! – və gözlənilmədən titrək zil səslə oxumağa başladı:

[24]Porfir – tikintidə işlədilən qırmızı rəngli vulkanik süxur

Var olsun bu dəniz, şanlı Baykalım...

Pilləkəndə görünən xidmətçi kiməsə yumruq qıcayıb, qızla birlikdə zəif, tutqun bariton səslə oxudu:

Var olsun bu gəmi, balıq çəlləyi!..

Xidmətçinin səsinə səs verdilər, xor get-gedə böyüdü və nəhayət, mahnı fılialın bütün guşələrini bürüdü. Hesablama-yoxlama şöbəsinin yerləşdiyi yaxınlıqdakı 6 №-li otaqda kiminsə əzəmətli, xırıltılı səsi xüsusilə seçilirdi. Xoru telefon aparatlarının artan cingiltiləri müşayiət eləyirdi.

Ey, Barquzin... tərpət suları!.. –

xidmətçi pilləkəndə bağırdı.

Qızın gözlərindən yaş axırdı, çalışırdı dişlərini bir-birinə sıxsın, ancaq ağzı öz-özünə açılırdı və o, xidmətçidən bir oktava yüksək oxuyurdu:

Sahilin nə yaxın, igid ürəyi!

Filiala gələn dinməzcə dayanmış adamları heyrətləndirən o idi ki, müxtəlif yerlərə səpələnmiş xor iştirakçıları çox düzgün oxuyurdular, elə bil, bütün xorun gözü hansısa gözəgörünməz dirijorda idi.

Vaqankovdan keçib-gedənlər filialdakı şənliyə təəccüblənib, həyətin dəmir çəpərinin yanında ayaq saxlayırdılar.

Birinci bənd sona çatan kimi, elə bil, yenə dirijor çubuğunun işarəsiylə mahnı qəfildən kəsildi. Xidmətçi astadan söyüb gözdən itdi. Bu vaxt giriş qapısı açıldı və yay paltosunun altından ağ xalatının ətəyi çıxmış bir adam, onun arxasınca isə milisioner göründü.

–Bir əlac edin, həkim, yalvarıram, – qız əsəbi halda qışqırdı.

Filialın katibi yüyürüb pilləkənə çıxdı və yəqin, utandığından, karıxdığından kəkələdi:

–Bilirsiniz, həkim, bizdə nəsə kütləvi hipnoz baş verib... Ona görə də mütləq... – onun sözü ağzında qaldı və birdən tenor səslə oxudu:

Şilka və Nerçinsk...

–Axmaq! – qız qışqırmağa macal tapdı, ancaq kimi söydüyü bilinmədi, bunun əvəzində, istəməsə də, özü Şilka və Nerçinsk haqqında oxumağa başladı.

–Özünüzü ələ alın! Oxumağı yığışdırın! – həkim katibə müraciətlə dedi.

Hər şeydən görünürdü ki, oxumamaq üçün katibin özü nə desən verər, ancaq dayana bilmirdi və meşənin dərinliyində acgöz heyvanların onu yemədiyini, atılan güllələrin onu tutmadığını xorla birlikdə küçədən keçənlərə xəbər verirdi.

Bənd sona çatan kimi həkimdən ilk əvvəl qız öz valerian payını aldı, sonra həkim dərman içirmək üçün katibin və başqalarının üstünə qaçdı.

–Bağışlayın, vətəndaş, – Vasili Stepanoviç birdən qıza müraciət etdi, – buraya qara pişik gəlmişdi?

–Pişik nədir? – qız hirslə çığırdı, – eşşək oturub bizim filialda, eşşək! – və səsini lap qaldırdı: – Qoy hamı eşitsin! Hər şeyi danışacağam, – doğrudan da, nə baş verdiyini danışdı.

Demə, şəhərin "axır ki, xaraba qalan kiçik tamaşalar" (qızın sözlərinə görə) filialının müdiri hər cür dərnək təşkil eləmək xəstəliyinə tutulubmuş.

–Müdiriyyətin gözünə kül üfürürdü! – qız bağırdı.

Müdir il ərzində Lermontovu öyrənmə dərnəyi, şahmat-dama, stolüstü tennis və at çapma dərnəkləri yaratmağa macal tapmışdı. Yaya qədər çayda avarçəkmə və alpinistlər dərnəyi yaradacağına da söz veribmiş.

Bax, elə bu gün nahar fasiləsində müdir içəri girib...

–Hansısa bir it oğlunu da yanına salıb gətirib, – qız danışırdı, – Allah bilir haradan tapıb, dama-dama şalvarda, eynəyinin şüşəsi çat, sifətinə də tüpürməzsən!

Qızın dediyinə görə, müdir elə filialın yeməkxanasındaca onu nahar edənlərə xor dərnəyinin təşkili üzrə görkəmli mütəxəssis kimi təqdim eləyib.

Gələcək alpinistlər qaşqabaq sallayıblar, ancaq müdir hamını ürəkli olmağa çağırıb, mütəxəssis isə zarafat eləyib, məzələnib və and içib ki, oxumağı öyrətmək üçün lap az pul alacaq, ancaq oxumaqdan gələn xeyiri yığıb-yığışdıra bilməyəcəklər.

Qızın sözlərinə görə, hamıdan əvvəl, əlbəttə, filialın tanınmış yaltaqları Fanovla Kosarçuk yerdən sıçrayıblar ki, onlar yazılırlar. Qalanlar da başa düşüblər ki, nəğməsiz keçinmək mümkün olmayacaq, onlar da dəməyə yazılıblar. Nahar fasiləsində oxumaq qərara alınıb, çünki qalan vaxt Lermontov, bir də dama ilə məşğul idilər. Müdir nümunə göstərmək üçün elan edib ki, onun tenor səsi var, sonra isə hər şey pis yuxuda olduğu kimi baş verib. Dama-dama paltarlı xormeyster bağırıb:

–Do-mi-sol-do! – Oxumaqdan can qurtarmaq üçün dolabın arxasında gizlənənləri dartıb çıxarıb, Kosarçuka deyib, onun əməlli-başlı musiqi duyumu var, sızıldayıb, zingildəyib, xahiş edib, qoca regent-müğənnini saysınlar, barmaqlarını kamertona döyəcləyib, yalvarıb ki, "Məşhur dəniz"i oxusunlar.

Oxuyublar. Çox qəşəng də oxuyublar. Dama-dama paltarlı, doğrudan da, öz işini bilirmiş. İlk bəndi oxuyublar. Bu vaxt regent üzr istəyib ki: "Bir dəqiqəyə qayıdıram!" – və... yoxa çıxıb. Fikirləşiblər ki, həqiqətən, bir dəqiqədən sonra qayıdar. Ancaq on dəqiqə keçsə də, qayıtmayıb. Filialın əməkdaşları sevincək olublar ki, qaçıb.

Və durduqları yerdə birdən ikinci bəndi oxumağa başlayıblar, elə bir musiqi duyumu olmayan, ancaq kifayət qədər xoşagəlimli yüksək səsi olan Kosarçuk hamını arxasınca aparıb. Oxuyublar. Regent yoxdur! Hərə öz yerinə dağılışıb, di gəl oturmağa macal tapmamış, özlərindən asılı olmadan oxumağa başlayıblar. Dayana bilmirlərmiş. Üç dəqiqə susub, yenə oxuyublar! Susublar – oxuyublar! Bu

vaxt anlayıblar ki, fəlakət baş verib. Müdir biabırçılıqdan qaçıb öz kabinetində gizlənib.

Bu yerdə qızın söhbəti yarımçıq qaldı. Valerian da kömək etmədi.

İyirmi dəqiqə keçmiş Vaqankovun hasarına üç yük maşını yaxınlaşdı və müdir başda olmaqla, filialın bütün əməkdaşlannı maşınlara mindirdilər.

Birinci yük maşını darvazanın ağzında yırğalanıb küçəyə çıxmışdı ki, bir-birinin çiynindən yapışıb dayanan işçilər ağızlarını açdılar və məşhur mahnı küçəni başına götürdü. İkinci maşındakılar, sonra da üçüncü maşındakılar onlara qoşuldular. Beləcə də getdilər. İş-güc dalınca tələsən adamlar təəccüblənmədən yük maşınlarına vur-tut ötəri göz gəzdirirdilər, elə bilirdilər, şəhər kənarına gəzintiyə gedirlər. Doğrudan da, şəhər kənarına gedirdilər, ancaq ekskursiyaya yox, professor Stravinskinin klinikasına.

Başını tamam itirmiş mühasib dövlət pulundan, axır ki, canını qurtaracağı ümidiylə yarım saatdan sonra tamaşalar müəssisəsinin maliyyə şöbəsinə çatdı. Təcrübə qazandığından ilk əvvəl işçilərin oturduğu, tutqun şüşələrinə

qızılı hərflərlə sözlər yazılmış uzunsov zala ehtiyatla göz gəzdirdi. Mühasib burada narahatlıqdan və qarmaqarışıqlıqdan əsər-əlamət görmədi.

Müəssisəyə xas olan sakitlik hökm sürürdü.

Vasili Stepanoviç başını "Pul qəbulu" yazılmış balaca pəncərəyə uzatdı, tanımadığı xidmətçiylə salamlaşıb, nəzakətlə gəlir sənədini istədi.

–Nəyinizə lazımdır? – pəncərədəki xidmətçi soruşdu.

Mühasib təəccübləndi.

–Pul təhvil vermək istəyirəm. Varyetedən gəlmişəm.

–Bir dəqiqə, – xidmətçi tələsik şüşədəki gözlüyü torla örtdü.

"Qəribədir!" – mühasib düşündü. Onun təəccübü tamamilə təbii idi. Ömründə ilk dəfə bu cür hala rast gəlirdi. Pul almağın necə çətin olduğu hamıya məlumdur: buna həmişə maneçilik törədən nəsə tapıla bilər. Ancaq on üç illik təcrübəsi ərzində mühasib kiminsə, – hüquqi, ya fiziki şəxs olsun, dəxli yoxdur – pul götürməyə çətinlik çəkdiyini görməmişdi.

Nəhayət, tor kənara çəkildi və mühasib üzünü yenə balaca pəncərəyə yapışdırdı.

–Çoxdur? – xidmətçi soruşdu.

–İyirmi bir min yeddi yüz on bir rubl.

–Oho! – xidmətçi nəyə görəsə kinayə ilə deyib, mühasibə yaşıl vərəq uzatdı.

Qaydasını yaxşı bildiyindən mühasib kağızı bir anın içində doldurub, bağlamanın ipini açmağa başladı. Bağlama açılanda gözləri qamaşdı və ağrı ilə nəsə mızıldadı.

Gözlərinin qabağında xarici pullar oynaşırdı. Burada dəst-dəst Kanada dollarları, ingilis funtları, holland quldenləri, latviya latları, eston kronları var idi...

–Varyetedəki kələkbazlardan biri də, bax, budur, – quruyub qalmış mühasibin başı üstündə zəhmli bir səs eşidiidi. Vasili Stepanoviçi elə oradaca həbs etdilər.

XVIII fəsil

BƏXTSİZ QONAQLAR

Çalışqan mühasib öz-özünə yazan kostyumla rastlaşmaq üçün taksidə getdiyi vaxt, Moskvaya gələn 9 №-li Kiyev qatarının yumşaq yerli vaqonundan əlində kiçik taxta çamadan olan, səliqə ilə geyinmiş bir sərnişin də düşdü. Bu sərnişin məhz mərhum Berliozun dayısı, Kiyevin keçmiş İnstitut küçəsində yaşayan iqtisadçı-planlaşdırıcı Maksimilian Andreyeviç Poplavski idi. Maksimilian Andreyeviçin Moskvaya gəlişinin səbəbi srağagün axşamdan xeyli keçmiş bu məzmunda aldığı teleqram olmuşdu:

"Məni bir az əvvəl Patriarşidə tramvay basdı.

Dəfn cümə günü gündüz saat üçdədir. Gəl. Berlioz".

Maksimilian Andreyeviç haqlı olaraq Kiyevin ən ağıllı adamlarından sayılırdı. Ancaq bu cür teleqram ən ağıllı adamı da çaşdıra bilər. Əgər kimsə teleqram vururs onu tramvay basıb, aydındır ki, o adam ölməyib. Onda dəfn nə deməkdir? Ya vəziyyəti çox pisdir, bilir ki, öləcək? Bu da mümkündür, ancaq belə dəqiqliyin özü təəccüblüdür – o,

haradan bilir ki, onu cümə günü düz saat üçdə dəfn edəcəklər? Mat qalınası teleqramdır!

İntəhası, ağıllı adamlar elə dolaşıq vəziyyətdən baş çıxara bildiklərinə görə ağıllıdırlar. Məsələ çox sadədir. Səhv olub, teleqramı düzgün yazmayıblar. "Məni" sözü, şübhəsiz, buraya başqa teleqramdan düşüb, əvəzində "Berliozu" getməliydi, o da "Berlioz" şəkli alaraq teleqramın sonuna düşüb. Belə düzəlişlə teleqramın məğzi anlaşıqlı, ancaq əlbəttə, faciəli olurdu.

Maksimilian Andreyeviçin arvadını sarsıdan dərd-qəm səngiyəndən sonra o, təcili Moskvaya getməyə hazırlaşdı.

Maksimilian Andreyeviçin bir sirrini açmaq yerinə düşər. Sözsüz ki, arvadının bacısı oğlunun cavan yaşında ölməsinə təəssüflənirdi. Ancaq dəfndə iştirakının elə də vacib olmadığını, əlbəttə, bir iş adamı kimi yaxşı başa düşürdü. Buna baxmayaraq, Maksimilian Andreyeviç Moskvaya çox tələsirdi. Nə idi buna səbəb? Bir şey – mənzil. Moskvada mənzil? Bu, ciddi məsələdir. Kiyev nəyə görəsə Maksimilian Andreyeviçin xoşuna gəlmirdi və Moskvaya köçmək fikri son vaxtlar onun hətta yuxusunu

qaçırmışdı. Yazbaşı Dneprin daşıb alçaq sahillərdəki adaları basması, suyun üfüqlə qovuşması onu sevindirmirdi. Knyaz Vladimirin heykəlinin ayağından baxanda açılan son dərəcə gözəl mənzərə onun könlünü açmırdı. Yazda Vladimir təpəsinin kərpic cığırlarında oynaşan gün işığı onu şadlandırmırdı. O, bunları istəmirdi, istədiyi bircə şey vardı – Moskvaya köçmək.

Kiyevin İnstitut küçəsindəki mənzili Moskvada daha kiçik sahəsi olan evə dəyişmək barədə qəzetlərdə verdiyi elanların bir nəticəsi olmamışdı. Arzulayan tapılmırdı, hərdən rast düşəndə də şərtləri ağır olurdu.

Teleqram Maksimilian Andreyeviçi sarsıtdı. Bu, elə bir məqam idi ki, onu əldən buraxmaq günah olardı. Belə məqamların hər saat ələ düşmədiyini işgüzar adamlar yaxşı bilirlər.

Bir sözlə, heç bir çətinliyə baxmayaraq, bacıoğlunun Sadovıdakı mənzilini ələ keçirmək lazım idi. Bəli, bu çətindi, çox çətindi, ancaq gərək hər vəchlə bu çətinliyin öhdəsindən gələydi. Təcrübəli Maksimilian Andreyeviç bunun üçün ilk növbədə, nəyin bahasına olur-olsun, mərhum

bacıoğlunun üçotaqlı mənzilinə, heç olmasa, müvəqqəti qeydiyyata düşməyin vacibliyini dərk eləyirdi.

Cümə günü gündüz Maksimilian Andreyeviç evlər idarəsinin Moskvanın Sadovaya küçəsinin 302-bis №-li binasında yerləşən otağına girdi.

Divarından çayda batanları xilas etməyin üsulları təsvir olunan bir neçə köhnə-köşkül şəkil asılmış darısqal otaqda, ağacdan qayrılmış stolun arxasında orta yaşlarında, gözlərindən narahatlıq oxunan üzü tüklü bir adam tək-tənha oturmuşdu.

–İdarənin rəisini görə bilərəmmi? – iqtisadçı-planlaşdırıcı şlyapasını çıxarıb, çamadanını boş stulun üstünə qoyaraq, nəzakətlə soruşdu.

İlk baxışdan adi görünən bu sual oturan adamın, nədənsə, kefini pozdu, hətta sifəti də dəyişdi. O, narahat gözlərini döyərək mızıldadı ki, sədr yoxdur.

–O evindədir? – Poplavski soruşdu, – mənim təcili işim var.

Oturan adam dodağının altında yenə nəsə mızıldadı. Ancaq hər halda, sədrin evdə olmadığı başa düşüldü.

–Bəs nə vaxt gələcək?

Oturan adam cavab verməyib, qüssə ilə pəncərəyə baxdı.

"Aha!" – ağıllı Poplavski özlüyündə dedi və katibi xəbər aldı.

Stolun arxasındakı qəribə adam gərginlikdən hətta qızardı və yenə dilini sürüyüb dedi ki, katib də yoxdur... nə vaxt gələcəyi məlum deyil, çünki katib xəstədir.

"Aha!.." – Poplavski ürəyində dedi, – bəs axı idarədə kim var?

–Mən, – oturan adam zəif səslə cavab verdi.

–Bilirsinizmi, – Poplavski səsini qaldırdı, – mən mərhum Berliozun, bacıoğlunun yeganə varisiyəm; o, bildiyiniz kimi, Patriarx gölü tərəfdə həlak olub və mən qanuna görə, bizim əlli nömrəli mənzildəki mirası qəbul etməyə borcluyam...

–Yoldaş, mənim bu işdən xəbərim yoxdur, – oturan adam kədərli-kədərli onun sözünü kəsdi.

–Necə yəni, – Poplavski bərkdən dedi, – axı siz idarə heyətinin üzvüsünüz, borcunuzdur ki...

Bu vaxt otağa bir adam girdi. İçəri girəni görəndə stolun arxasındakı adamın rəngi ağardı.

–İdarə heyətinin üzvü Pyatnajko? – gələn adam oturandan soruşdu.

–Mənəm, – o, zorla dilləndi.

Gələn adam oturan adama pıçıltı ilə nə dedisə, o, tamam kefsiz halda stuldan qalxdı və bir neçə saniyədən sonra Poplavski idarənin boş otağında artıq tək qalmışdı.

"Paho, nə yaman qəlizləşdi! Gərək elə hamısını birdənmi..." – Poplavski asfalt döşənmiş həyəti keçib, 50 №-li mənzilə tələsə-tələsə heyifsiləndi.

İqtisadçı-planlaşdırıcı zəngi basan kimi qapı açıldı və Maksimilian Andreyeviç yarıqaranlıq dəhlizə girdi. Qapını kimin açdığının aydın olmaması onu bir az təəccübləndirdi: stulda oturmuş nəhəng qara pişikdən savayı dəhlizdə heç kim yox idi.

Maksimilian Andreyeviç öskürdü, ayağını yerə döydü, bu vaxt kabinetin qapısı açıldı və Korovyev dəhlizə çıxdı. Maksimilian Andreyeviç nəzakətlə, lakin ləyaqətlə ona təzim edib dedi:

– Mənim soyadım Poplavskidir. Mən onun dayısıyam...

Sözünü bitirməyə macal tapmamış Korovyev cibindən çirkli dəsmal çıxarıb burnuna sıxdı və ağladı...

–...mərhum Berliozun...

–Əlbəttə, əlbəttə, – Korovyev dəsmalı üzündən aralayıb, onun sözünü kəsdi. – Görən kimi başa düşdüm ki, bu sizsiniz! – Bu yerdə o hönkürüb qışqırmağa başladı: – Bədbəxtçiliyə bir bax! Gör başımıza nə iş gəldi!

–Tramvay basıb? – Poplavski pıçıltı ilə soruşdu.

–Yaman, – Korovyev qışqırdı və göz yaşları eynəyinin altından sel kimi axdı, – yaman! Özüm şahid oldum. İnanırsınız, bir dəfəyə başı qopub düşdü! Sağ ayağı xırt yarı bölündü! Sol ayağı xırt yarı bölündü! Gör bu tramvaylar nələrə bais olur! – Və yəqin, özünü saxlaya bilmədiyindən Korovyev üzünü güzgünün yanındakı divara söykəyib, çiyinləri əsə-əsə hönkürdü.

Yad adamın hərəkəti Berliozun dayısını, həqiqətən, mat qoymuşdu. "Özü də deyirlər bizim dövrdə ürək dostu olmur!" – o fikirləşdi və hiss etdi ki, özünün də gözləri acışır. Di gəl həm də dalağı sancdı, beynindən qara-qura

fikirlər keçdi: görən, bu ürək dostu artıq mərhumun mənzilinə qeydiyyata düşməyib ki? Çünki həyatda belə şeylər də olur.

–Bağışlayın, siz mənim mərhum Mişamın dostu olmusunuz? – o, nəmlənməmiş sol gözünü pencəyinin qolu ilə silib, sağ gözü ilə dərddən sarsılmış Korovyevi öyrənə-öyrənə soruşdu. Ancaq o elə hönkürürdü ki, təkrarlanan "xırt yarı bölündü!" sözlərindən başqa heç nə anlamaq olmurdu. Korovyev doyunca ağlayıb, nəhayət, divardan aralandı.

–Yox, daha dözə bilmirəm! Gedim üç yüz damcı pişikotu içim! – və göz yaşlarına qərq olmuş sifətini Poplavskiyə tərəf döndərib əlavə etdi: – Bu da sənə tramvay!

–Bağışlayın, mənə siz teleqram vurmusunuz? – Maksimilian Andreyeviç ağlağan adamın kim olduğunu tapmağa çalışaraq soruşdu.

–O! – Korovyev barmağı ilə pişiyi göstərdi.

Poplavski səhv eşitdiyini düşünərək gözlərini bərəltdi.

–Yox, dözə bilmirəm, taqətim yoxdur, – Korovyev burnunu çəkə-çəkə sözünə davam etdi, – indi də gözümün

qabağındadır: təkər ayağının üstündə... bir təkər on pud olar... Xırt! Gedim uzanım; yatsam, bəlkə, unudam, – və dəhlizdən yoxa çıxdı.

Pişik isə qımıldanıb stuldan atıldı, dal ayaqları üstündə durub, əllərini belinə qoydu və ağzını açıb dedi:

–Tutaq ki, teleqramı mən vurmuşam. Sonra?

Maksimilian Andreyeviçin o saat başı gicəlləndi, əli-ayağı keyidi, çamadanı əlindən yerə salıb, pişiklə üzbəüz stula çökdü. '

–Mən, deyəsən, rus dilində soruşuram, – pişik acıqla dedi, – sonra?

Ancaq Poplavski heç bir cavab vermədi.

–Pasport! – pişik mırıldadı və koppuş pəncəsini uzatdı.

Heç nə anlamadan, pişiyin gözlərindəki bir cüt qığılcımdan başqa heç nə görmədən Poplavski pasportu cibindən xəncər kimi sivirdi. Pişik güzgünün altındakı tumbanın yeşiyindən yoğun sağanaqlı qara eynək çıxarıb gözünə taxdı, bu da ona daha zəhmli görkəm verdi və Poplavskinin titrəyən əlindən pasportu dartıb aldı.

"Maraqlıdır: görəsən, özümdən gedib yıxılacağam, ya yox?" – Poplavski düşündü. Uzaqdan Korovyevin hıçqırığı eşidilirdi, pişikotunun və özgə nəyinsə murdar qoxusu dəhlizi doldurmuşdu.

–Sənədi hansı şöbə verib? – pişik səhifələri çevirə-çevirə soruşdu. Cavab gəlmədi.

–Dörd yüz on ikinci, – pəncəsini baş-ayaq tutduğu pasportda gəzdirə-gəzdirə pişik öz-özünə dedi, – aydındır! Bu şöbəni yaxşı tanıyıram! Orada kimə gəldi pasport verirlər! Mən isə, məsələn, sizin kimi adama pasport verməzdim! Qətiyyən verməzdim! Üzünə bir dəfə baxan kimi qovardım! – Pişik elə hirsləndi ki, pasportu döşəməyə fırlatdı. – Sizin dəfndə iştirakınız ləğv olunur, – pişik rəsmi tonda sözünə davam etdi, – zəhmət çəkib öz yaşayış yerinizə gedin. – Və qapıya tərəf bağırdı: – Azazello!

Onun səsinə dəhlizə balaca, axsaq, qara trikoda, dəri kəmərinə bıçaq taxılmış, kürən, köpək dişi saralmış, sol gözündə ağ ləkə olan birisi qaçıb gəldi.

Poplavski hiss etdi ki, havası çatmır, stuldan qalxıb ürəyini tutaraq dalı-dalı getdi.

–Azazello, yola sal! – Pişik əmr edib, dəhlizdən çıxdı.

–Poplavski, – gələn adam astadan mızıldadı, – yəqin ki, artıq hər şey aydındır.

Poplavski başı ilə təsdiqlədi.

–Dərhal Kiyevə qayıt, – Azazello sözünə davam etdi, – kirimişcə otur, Moskvada ev-zad arzulama, aydındır?

Öz köpək dişi, bıçağı və çəp gözləriylə Poplavskinin canına qorxu salan bu balaca adamın boyu iqtisadçının çiyninə zorla çatırdı, ancaq o, çox çevik və qətiyyətli idi.

Ən əvvəl pasportu yerdən qaldırıb, Maksimilian Andreyeviçə uzatdı və o, heysiz əliylə pasportu aldı. Sonra Azazello deyilən kəs bir əliylə çamadanı qaldırdı, o biri əliylə qapını açdı və Berliozun dayısının qolundan tutub pilləkənə çıxartdı. Poplavski divara söykəndi. Azazello açarsız-filansız çamadanı açdı, yağı qəzetə çıxmış, bir budu olmayan qızardılmış iri toyuğu götürüb yerə qoydu. Sonra iki dəst tuman-köynək, ülgüc itiləmək üçün qayış, bir kitab və futlyar çıxarıb, toyuqdan başqa hamısmı ayağı ilə pilləkənin arasından aşağı tökdü. Boşalmış çamadan da

onların arxasınca uçdu. Onun yerə necə tappıltı ilə dəydiyi eşidildi və çıxan səsdən qapağının qopduğu hiss olundu.

Sonra kürən quldur toyuğun qılçasından tutub, onu Poplavskinin peysərinə nə təhər ilişdirdisə, Azazellonun əlində toyuğun ancaq budu qaldı. Məşhur yazıçı Lev Tolstoy çox doğru deyib ki, Oblonskilərin evində aləm qarışmışdı. O, indi də məhz belə deyərdi. Bəli! Poplavskinin gözünün qabağında hər şey qarışdı. Gözlərindən qığılcım çıxdı, sonra gözlərinə çökən qaranlıq may gününü bir anlığa görünməz etdi və Poplavski əlində pasport pilləkənlə aşağı diyirləndi. Növbəti meydançada ayağı ilə pəncərənin şüşəsini sındırıb pilləkəndə oturdu. Qılçasız toyuq onun yanında yerə dəyib, pilləkənin arasına düşdü. Yuxarıda qalmış Azazello bir anda toyuq budunu gəmirib, sümüyünü trikonun yan cibinə dürtdü və mənzilə girib qapını zərblə çırpdı. Bu vaxt aşağıdan asta-asta qalxan adamın addım səsləri eşidildi.

Poplavski tələsik bir mərtəbə də enib, meydançadakı kiçik taxta divanda oturaraq nəfəsini dərdi.

Köhnə çesunça kostyumda, başına yaşıl lentli şax həsir şlyapa qoymuş, çox kədərli sifəti olan balaca, yaşlı bir kişi pilləkənləri qalxıb, Poplavskinin yanında ayaq saxladı.

–Vətəndaş, xahiş edirəm deyəsiniz, – çesunça kostyumlu kişi qüssə ilə soruşdu, – əlli nömrəli mənzil haradadır?

–Yuxarıda! – Poplavski qısaca cavab verdi.

–Çox minnətdaram, vətəndaş, – balaca adam yenə qüssə ilə deyib yuxarı qalxdı, Poplavski isə durub aşağı qaçdı.

Sual olunur, yoxsa Maksimilian Andreyeviç günün günorta çağı ona qarşı vəhşicəsinə zorakılıq edən quldurlardan şikayət eləmək üçün milisə tələsirdi? Yox, heç vəchlə, buna əmin ola bilərsiniz. Gedib milisə desin ki, eynəkli pişik indicə mənim pasportumu oxuyurdu, sonra triko geyinmiş bıçaqlı adam... yox, vətəndaşlar, Maksimilian Andreyeviç, həqiqətən, ağıllı adamdı!

Aşağı çatmışdı ki, çöl qapının lap yanında xırda bir otağa açılan qapı gördü. Qapının şüşəsi sınmışdı. Poplavski pasportu cibinə soxub, atılmış əşyalarını görmək ümidiylə

boylandı. Ancaq onlardan əsər-əlamət yox idi. Bunun onu nə qədər az kədərləndirdiyinə Poplavskinin özü də mat qaldı. Onu başqa bir maraqlı, cəlbedici fikirməşğul edirdi: bu balaca adamın şəxsində lənətəgəlmiş mənzili bir daha sınasın. Doğrudan da, əgər mənzilin yerini soruşurdusa, demək, oraya ilk dəfə gedirdi. Çox güman, 50 №-li mənzildə yuva qurmuş dəstənin cənginə düşəcəkdi. Poplavskinin ürəyinə dammışdı ki, bu balaca adam tezliklə həmin mənzildən çıxacaq. Hansısa bacıoğlunun dəfninə Maksimilian Andreyeviç, əlbəttə, artıq hazırlaşmırdı, Kiyevə gedən qatarın vaxtına isə çox qalmışdı. İqtisadçı ətrafına boylanıb, özünü xırda otağa verdi. Bu vaxt lap yuxarıda qapı çırpıldı. "O içəri keçdi!" – Poplavski ürəyi əsə-əsə düşündü. Otaq soyuq idi, siçan və çəkmə qoxuyurdu. Maksimilian Andreyeviç ağac kötüyünün üstündə oturub, gözləmək qərarına gəldi. Yaxşı mövqe seçmişdi, balaca otaqdan altıncı blokun çöl qapısı aydınca görünürdü.

İntəhası, düşündüyündən çox gözləyəsi oldu. Nədənsə pilləkəndə kimsəsizlik hökm sürürdü. Səs-səmir yaxşı eşidilirdi və nəhayət, beşinci mərtəbədə qapı çırpıldı.

Poplavski nəfəsini içinə çəkdi. "Hə, onun addım səsidir; aşağı enir". Bir mərtəbə aşağıda qapı açıldı. Addım səsi kəsildi. Qadın səsi. Kədərli adamın səsi... hə, onun səsi idi... "Allah xatirinə, əl çək"ə oxşar bir şey dedi. Poplavskinin qulağı şüşənin qırıq yerindən çıxmışdı. Bu qulaq qadın gülüşünü aldı. Aşağı enən yeyin, cəld addım səsləri və budur, qadının çiyni göründü. Əlində müşəmbədən yaşıl əl çantası olan bu qadın çöl qapısından həyətə çıxdı. Balaca adamın addım səsləri isə təzədən eşidildi. "Qəribədir, o geri, mənzilə qayıdır. Budur, bax, yenə yuxarıda qapı açıldı. Neyləyək, bir az da gözləyək".

Bu dəfə çox gözləməli olmadı. Qapının səsi. Addımlar. Addım səsləri kəsildi. Bərk qışqırıq. Pişik miyoltusu. Aşağı enən cəld, xırda addım səsləri!

Poplavski, axır ki, onu gördü. Şlyapasız, keçəlində cırmaq yerləri və şalvarını tamam islatmış kədərli adam dəli sifətində xaç çəkə-çəkə, donquldana-donquldana şütüyüb keçdi. O, qorxudan hara – içəri, ya çölə – açıldığını dərk etmədən çıxış qapısının dəstəyini dartışdırdı, nəhayət, qapını birtəhər açıb, özünü günəşli həyətə atdı.

Mənzilin sınağı başa çatmışdı, daha heç bir bacıoğlu və mənzil barədə düşünməyən, üzləşdiyi təhlükəni yadına saldıqca canına vicvicə düşən Maksimilian Andreyeviç yalnız üçcə kəlmə: "Hər şey aydındır! Hər şey aydındır!" – pıçıldaya-pıçıldaya həyətə qaçdı. Bir neçə dəqiqədən sonra trolleybus iqtisadçı-planlaşdırıcını Kiyev vağzalına doğru aparırdı.

İqtisadçı aşağıdakı xırda otaqda oturduğu vaxt isə balaca adamın başına xoşagəlməz əhvalat gəlmişdi. Balaca adam Varyetenin bufetçisi Andrey Fokiç Sokov idi. Varyetedə istintaq getdiyi zaman Andrey Fokiç bir kənarda dayanıb heç nəyə qarışmırdı, vur-tut həmişəkindən bir az artıq kədərləndiyi hiss olunurdu, bundan əlavə, o, xidmətçi Karpovdan gəlmə sehrbazın harada qaldığını soruşmuşdu.

Beləliklə, mərtəbənin meydançasında iqtisadçıdan ayrılan bufetçi beşinci mərtəbəyə qalxıb, 50 №-li mənzilin zəngini basdı.

Qapını tez açdılar, ancaq bufetçi diksinib geri çəkildi və içəri tərəddüdlə girdi. Bunu anlamaq olardı. Qapını əynində krujevalı önlükdən və başında ağ sancaqdan savayı heç nə

olmayan bir qız açmışdı. Yeri gəlmişkən, qızın ayağında qızılı rəngdə tuflilər var idi. Boy-buxunu gözəl olan qızın boğazındakı qırmızı çapığı onun yeganə qüsuru saymaq olardı.

–Nəyi gözləyirsiniz, zəngi basmısınızsa, keçin! – qız həyasız yaşıl gözlərini bufetdən çəkmədən dedi.

Andrey Fokiç ufuldadı, gözlərini döydü və şlyapasını çıxarıb dəhlizə keçdi. Elə bu vaxt dəhlizdə telefon zəng çaldı. Utanmaz qulluqçu bir ayağını stula qoyub dəstəyi götürdü.

–Alo!

Bufetçi bilmirdi gözlərini harada gizlətsin, ayağının birini götürüb o birini qoyaraq düşündü: "Ay səni, əcnəbinin qulluqçusuna bir bax! Tfu, ədəbsiz!" Və bu ədəbsizliyi görməmək üçün ətrafına baxmağa başladı.

İri, yarıqaranlıq dəhliz qeyri-adi əşyalarla, geyimlərlə dolu idi. Stulun başına astarı qumaşdan olan dəfn plaşı atılmışdı, güzgülü tumbanın üstünə qızıl dəstəyi parıldayan uzun qılınc qoyulmuşdu. Gümüş dəstəkli üç qılınc isə çətir,

ya əlağacı kimi elə-belə, bir küncdə dururdu. Maral buynuzlarından qartal lələkli beretlər asılmışdı.

–Bəli, – qulluqçu telefonla danışırdı, – necə? Baron Maygel? Eşidirəm. Bəli! Cənab artist bu gün evdədir. Bəli, sizi görməyə şad olar. Bəli, qonaqlar... Frak, ya qara pencək. Nə? Gecə on ikidə. – Qulluqçu söhbətini bitirib dəstəyi yerinə qoydu və bufetçidən soruşdu: – Sizə nə lazımdır?

–Mən mütləq vətəndaş artisti görməliyəm.

–Necə? Elə şəxsən özünü?

–Özünü, – bufetçi qüssə ilə cavab verdi.

–Soruşaram, – qulluqçu, görünür, tərəddüd edirdi və mərhum Berliozun kabinetinin qapısını açıb məlumat verdi: – Cəngavər, balaca bir adam gəlib, deyir, messiri görməliyəm.

–Qoy gəlsin, – kabinetdən Korovyevin yoğun səsi eşidildi.

–Qonaq otağına keçin, – qız elə adi tərzdə dedi, guya, adam kimi geyinmişdi, qonaq otağının qapısını açıb özüdəhlizdən getdi.

Dəvət olunan yerə keçən bufetçini otağın bəzək-düzəyi o qədər heyrətləndirdi ki, hətta nə üçün gəldiyini də unutdu. İri pəncərələrin rəngli şüşələrindən (izsiz-soraqsız itmiş zərgər arvadının fantaziyası) kilsə işığına oxşayan qeyri-adi bir işıq süzülürdü. İsti yaz havasına baxmayaraq, böyük, qədim buxarıda odun yanırdı. Ancaq otaq heç də isti deyildi, əksinə, içəri girən adamı zirzəmi nəmişliyi vururdu. Qara pişik buxarının qabağındakı pələng dərisinin üstündə oturub, gözlərini qıyaraq, sakitcə alova baxırdı. Allahdan qorxan bufetçi masaya baxanda diksindi: stola kilsə zərxarası salınmışdı. Süfrəyə çoxlu yumru, toz basmış butulka düzülmüşdü. Butulkaların arasında boşqab parıldayrdı, o saat hiss olunurdu ki, təmiz qızıldandır. Qurşağında bıçaq olan balaca kürən adam buxarının yanında dayanıb, əlindəki uzun polad qılınca taxdığı ət tikələrini qızardırdı, ətin yağı ocağa damcılayırdı, tüstü bacadan çıxırdı. Otaqdan təkcə qızardılan ətin yox, həm də tünd ətir və buxur qoxusu gəlirdi, buna görə də qəzetlərdən artıq Berliozun öldüyünü, onun harada yaşadığını bildiyindən, bufetçinin ağlına gəldi

ki, ola bilsin, Berlioz üçün yas mərasimi keçirilib, amma cəfəng bir fikir kimi bunu dərhal da başından qovdu.

Karıxmış bufetçi qəfil yoğun kişi səsi eşitdi:

–Mənə görə bir qulluğunuz?

Bu vaxt bufetçi ona lazım olan adamı qaranlıqda arayıb tapdı.

Cadugər üstünə döşəkçələr atılmış alçaq, ancaq çox enli bir divanda uzanmışdı. Bufetçiyə göründüyü kimi, artistin əynində yalnız qara tuman-köynək, ayaqlarında isə şişburun qara tuflilər vardı.

–Mən, – bufetçi ağlamsındı, – Varyete teatrında bufetin müdiriyəm...

Artist barmaqlarında qiymətli daşlar bərq vuran əlini irəli uzadıb, sanki, bufetçini danışmağa qoymamaq üçün qızğıncasına danışmağa başladı:

–Yox, yox, yox! Daha danışma! Heç vəchlə və heç vaxt! Sizin bufetdə ağzıma heç nə almaram! Canım-ciyərim, mən dünən sizin piştaxtanın yanından keçirdim, hələ də oradakı nərə balığını, qoyun pendirini unuda bilmirəm. Mənim əzizim! Qoyun pendiri göy rəngdə olmur, sizi kimsə

aldadıb. Pendir ağ olmalıdır. Bəli, bəs çay? Axı bu çirkab suyudur! Mən öz gözlərimlə gördüm ki, pinti bir qız sizin böyük samovara vedrə ilə qaynamamış su tökür, di gəl bu vaxt çay süzməyə davam edirdilər. Yox, əzizim, belə yaramaz!

–Üzr istəyirəm, – bu gözlənilməz hücumdan çaşan Andrey Fokiç dilləndi, – mən bu məsələyə görə gəlməmişəm, nərə balığının bu söhbətə dəxli yoxdur.

–Əgər balıq xarab olubsa, necə yəni dəxli yoxdur!

–Bizə azacıq vaxtı ötmüş nərə balığı göndərmişdilər, – bufetçi dedi.

–Əzizim, bu cəfəngiyatdır!

–Nədir cəfəngiyat?

–Azacıq deməyin – budur cəfəngiyat! Azacıq ötmüş olmur. Nərə balığının müddəti az da olsa ötdüsə, demək, köhnədir, demək, iylənib!

–Bağışlayın... – onunla öcəşən artistdən canını necə qurtarmağı bilməyən bufetçi yenə ağzmı açdı.

–Bağışlaya bilmərəm, – o, sərt şəkildə dedi.

–Mən bu məsələyə görə gəlməmişəm! – Bufetçinin qanı lap qaralmışdı.

–Buna görə gəlməmisiniz? – əcnəbi sehrbaz təəccübləndi. – Sizi başqa nə iş mənim yanıma gətirə bilər?

Əgər yaddaşım məni aldatmırsa, sizin sənətə yaxın olan şəxslərdən yalnız bir markitant[25] qadınla dostluq etmişəm, ancaq bu da elə çoxdan olub ki, onda siz hələ dünyada yox idiniz. Amma mən şadam. Azazello! Cənab bufet müdirinə kətil ver.

Ət qızardan adam dönüb, öz köpək dişləriylə bufetçini dəhşətə gətirdi və alçaq palıd kətillərdən birini cəld ona verdi. Oturmaq üçün otaqda başqa bir şey yox idi.

Bufetçi:

–Çox minnətdaram, – deyib oturanda kətilin dal ayağı xırçıltı ilə qırıldı, bufetçi arxası üstə döşəməyə dəyib ağrıdan ufuldadı. Yıxılanda qarşıdakı kətilə toxundu və onun üstündəki qırmızı çaxırla dolu badəni şalvarına dağıtdı.

Artist ucadan dedi:

---

[25]Markitant – XVIII-XIX əsrlərdə orduya qoşulub hərbiçilərə ərzaq və xırdavat satmaqla məşğul olan mülki şəxs

–Ay! Əzilmədiniz ki?

Azazello bufetçiyə qalxmağa kömək edib, ona başqa kətil verdi. Ev sahibinin şalvarı çıxarıb ocağın qırağında qurutmaq təklifindən bufetçi dərd dolu səslə imtina etdi və yaş tuman-köynəkdə, yaş paltarda özünü çox pis hiss edərək, ehtiyatla başqa kətildə oturdu.

–Mən alçaqdan oturmağı xoşlayıram, – artist dedi, – alçaqdan yıxılmaq elə də qorxulu deyil. Hə, deməli, sözümüz nərə balığında qaldı? Mənim əzizim! Təzə, təzə və təzə, hər bir bufetçinin şüarı, bax, bu olmalıdır. Hə, buyurun, dadına baxın...

Bu vaxt bufetçinin qarşısında buxarıdan düşən qıpqırmızı işıqda qılınc bərq vurdu və Azazello qızıl boşqaba cızıldayan tikə qoydu, üstünə limon suyu sıxıb, bufetçiyə ikidiş qızıl çəngəl uzatdı.

–Minnətdaram... mən...

–Yox, yox, dadına baxın!

Bufetçi nəzakət xatirinə tikəni ağzına qoydu və o saat hiss etdi ki, doğrudan da, çox təzə, ən əsası da, çox dadlı bir tikə yeyir. Ancaq dadlı, şirəli əti çeynədiyi yerdə bufetçi az

qaldı boğulub ikinci dəfə yıxılsın. Qonşu otaqdan iri qara bir quş uçub, qanadını yavaşca bufetçinin keçəlinə toxundurdu. Buxarının yanındakı saat qoyulmuş rəfə qonanda quşun bayquş olduğu bilindi. "Allah, sən saxla!" – bütün bufetçilər kimi əsəbi olan Andrey Fokiç düşündü, – "mənzilə bax da!"

–Bir badə çaxır! Ağ, qırmızı? Günün bu vaxtında hansı ölkənin çaxırına üstünlük verirsiniz?

–Minnətdaram... mən içmirəm...

–Çox nahaq! Onda, bəlkə, zər ataq? Yoxsa başqa oyunları xoşlayırsınız? Domino, kart?

–Oynayan deyiləm, – bufetçi artıq yorulmuşdu.

–Lap pis, – ev sahibi nəticə çıxartdı, – özünüz bilin, içkidən, qumardan, gözəl qadınlarla təmasdan, yemək-içmək məclislərindən qaçan kişilərə şübhə ilə baxıram. Belə adamlar ya ağır xəstədirlər, ya da ətrafdakılara gizlicə nifrət edirlər. Hərçənd, istisnalar da var. Ziyafətdə mənimlə bir yerdə oturan adamlar arasında əclaflar da olub! Yaxşı, nə məsələ ilə bağlı gəlmisiniz?

–Dünən siz fokus göstərmisiniz...

–Mən? – sehrbaz heyrətləndi, – insafınız olsun! Bu, heç mənə yaraşmaz!

–Bağışlayın, – bufetçi özünü itirdi, – axı qara magiya seansı...

–Hə, əlbəttə, əlbəttə! Mənim əzizim! Sizə bir sirr açım: mən heç də artist deyiləm, mən, sadəcə, moskvalıları elliknən görmək istəyirdim, bunun üçün də ən münasib yer teatr idi. Elə mənim, dəstəm də, – o, pişiyi göstərdi, – bu seansı təşkil etdi, mən isə vur-tut oturub moskvalılara baxdım. Həyəcanlanmayın, bəs sizi bu seansla bağlı mənim yanıma nə gətirib?

–Bilirsiniz, tavandan tökülənlərin arasında pullar da var idi, – bufetçi səsini yavaşıdıb, çəkinə-çəkinə ətrafına boylandı, – onların hamısını göydəcə tuturdular. Bir də gördüm, cavan bir adam bufetə gəlib onluq uzatdı, mən də ona səkkiz rubl yarım qaytardım... Sonra bir başqası gəldi.

–Yenə cavan adam?

–Yox, yaşlı. Üçüncü, dördüncü. Hamısına qalıq qaytardım. Bu gün isə kassaya baxdım, gördüm, pul adına

aldığımın hamısı kağızdır. Bufet yüz doqquz rubl ziyanda qalıb.

–Ay-ay-ay! – artist bərkdən dedi, – doğrudanmı, onlar pulun kağız olduğunu biliblər? Mən düşünmürəm ki, onlar bunu bilərəkdən ediblər.

Bufetçi qüssə ilə yan-yörəsinə baxıb heç nə demədi.

–Doğrudanmı, sizə rast gələn fırıldaqçılarmış? – sehrbaz həyəcanla qonaqdan soruşdu, – doğrudanmı, moskvalıların arasında fınldaqçı var?

Bunun cavabında bufetçi elə acı-acı gülümsədi ki, şübhə yeri qalmadı: bəli, moskvalıların arasında fırıldaqçılar var.

–Alçaqlıqdır! – Voland hiddətləndi, – siz kasıb adamsınız... siz axı kasıbsınız, eləmi?

Bufetçi başını çiyninə qısdı, bəlli oldu ki, o, kasıbdır.

–Sizin nə qədər saxlancınız var?

Sual canıyananlıqla verilmişdi, ancaq hər halda, belə sualı nəzakətli saymaq olmazdı. Bufetçi duruxdu.

–Beş əmanət kassasında iki yüz qırx doqquz min rubl, – qonşu otaqdan xırıltılı səs cavab verdi, – evdə isə döşəmənin altında iki yüz dənə onluq qızıl.

Bufetçi, elə bil, oturduğu kətilə yapışdı.

– Əlbəttə, bu elə bir məbləğ deyil, – Volandın qonağa ürəyi yandı, – ancaq əslində, o da sizə lazım olmayacaq. Siz nə vaxt öləcəksiniz?

Bu yerdə bufetçi hiddətləndi.

–Bu heç kimə məlum deyil, heç kəsə bunun dəxli də yoxdur, – o dedi.

–Əlbəttə, məlum deyil, – yenə kabinetdən həmin murdar səs eşidildi, – böyük işdir, guya, mənim üçün Nyutonun binomu olub! O, doqquz ay sonra, gələn ilin fevralında Birinci MDU-nun klinikasının dördüncü palatasında qaraciyər xərçəngindən öləcək.

Bufetçinin rəngi saraldı.

–Doqquz ay, – Voland fikrində hesabladı, – iki yüz qırx doqquz min... Yuvarlaqlaşdırsaq, aya iyirmi yeddi min düşür? Azdır, ancaq sadə yaşamaq üçün kifayət edər. Hələ onluq qızıllar da var.

–Onluqları xərcləməyə imkan olmayacaq, – yenə həmin səs söhbətə qarışıb, bufetçinin ürəyinə üşütmə saldı, – Andrey Fokiç ölən kimi evi sökəcəklər, onluq qızıllar Dövlət Bankına veriləcək.

–Klinikada yatmağı heç sizə məsləhət görməzdim, – artist sözünə davam etdi, – əlacsız xəstələrin iniltisi, xorultusu altında palatada ölməyin nə mənası? Bu iyirmi yeddi minə kef məclisi qurub, zəhər içib sərxoş gözəllərin, zirək dostların əhatəsində, musiqi sədaları altında bu dünyadan o dünyaya köçmək yaxşı olmazmı?

Sakitcə oturan bufetçi çox qocalmışdı. Gözlərinin altı qaralmış, yanaqları, çənəsi sallanmışdı.

–Deyəsən, fikrə getmisiniz, – ev sahibi ucadan dedi, – işə keçək. Həmin kağızları göstərin.

Bufetçi həyəcanlı halda cibindən bağlamanı çıxartdı və quruyub qaldı. Qəzetin arasındakı onluqlar idi.

– Mənim əzizim, siz, doğrudan da, xəstəsiniz, – Voland çiyinlərini çəkərək dedi.

Bufetçi dəli kimi gülümsəyərək kətildən qalxdı.

–Bəs... – o kəkələdi, – bəs onlar yenə dönüb...

–Hm... – artist fikrə getdi, – onda yenə yanımıza gəlin. Göz üstə yeriniz var! Tanış olmağımıza şadam.

Bu yerdə Korovyev kabinetdən sıçradı və bufetçinin qolundan yapışıb, silkələyə-silkələyə yalvardı ki, hamıya, hamıya salam çatdırsın. Bir şey anlamayan bufetçi dəhlizə tərəf getdi.

–Gella, yola sal! – Korovyev qışqırdı.

Çılpaq kürən qız yenə dəhlizdə göründü. Bufetçi qapıdan sivişib, "sağ olun" deyərək, kefli kimi getdi. Bir az aşağı düşüb dayandı, pilləkəndə oturub bağlamanı çıxartdı, yoxladı – onluqlar yerində idi.

Bu vaxt həmin meydançaya açılan qapıdan yaşıl çantalı bir qadın çıxdı. Pilləkəndə oturub onluqlara key-key baxan adamı görəndə gülümsəyərək dalğın halda dedi:

–Belə də bina olar! Səhərin gözü açılmamış bu da keflənib. Yenə pilləkənin şüşəsini sındırıblar, – bufetçiyə diqqətlə baxıb əlavə etdi: – Ey, vətəndaş, nə çox onluğunuz var. Mənimlə bölüşdürəydin! Hə?

–Əl çək məndən, Allah xatirinə, – bufetçi qorxusundan pulu tələsik gizlətdi. Qadın güldü:

–Cəhənnəm ol, simic! Mən zarafat eləyirdim, – deyib aşağı düşdü.

Bufetçi yavaşca qalxdı, şlyapasını düzəltmək üçün əlini yuxarı qaldıranda bildi ki, şlyapa başında yoxdur. Heç geri qayıtmaq istəmirdi, ancaq şlyapaya heyfi gəldi. Bir az tərəddüddən sonra geri qayıdıb zəngi basdı.

–Yenə nə istəyirsiniz? – lənətə gəlmiş Gella ondan soruşdu.

–Şlyapamı unutmuşam, – bufetçi keçəlini göstərib pıçıldadı. Gella dönəndə bufetçi fikrində tüpürüb, gözlərini yumdu. Gözünü açanda Gella ona şlyapasını, bir də qara dəstəkli qılınc uzatdı.

–Mənim deyil, – bufetçi qılıncı geri itələyib, tez şlyapasını geyinərək yavaşdan dedi.

–Məgər siz qılıncsız gəlmişdiniz? – Gella təəccübləndi.

Bufetçi nəsə donquldanıb tez aşağı düşdü. Başında nəyə görəsə narahatlıq hiss etdi, həm də şlyapa da çox isti idi; o, şlyapanı çıxartdı və qorxudan hoppanıb astadan qışqırdı. Əlində didilmiş xoruz lələkli məxmər beret var idi. Bufetçi xaç çəkdi. Elə o an beret miyoldayıb, qara pişiyə çevrildi,

təzədən Andrey Fokiçin başına sıçrayıb, caynaqlarını onun keçəlinə ilişdirdi. Bufetçi dəhşətli bir qışqırıq qoparıb, aşağı qaçmağa başladı, pişik isə onun başından düşüb, pilləkənlə yuxarı götürüldü.

Bufetçi havaya çıxıb, cəld darvazaya tərəf qaçdı və şeytan yuvası olan 302-bis №-li lənətəgəlmiş binanı həmişəlik tərk etdi.

Sonra onun başına nə gəldiyi yaxşı məlumdur. Bufetçi darvazadan çıxıb, nəsə axtarırmış kimi döyükdü. Bir dəqiqə keçmiş o artıq küçənin əks tərəfindəki aptekdə idi. Elə ağzını açıb: "Xahiş edirəm, deyin..." – söyləmişdi ki, piştaxta arxasındakı qadın qışqırdı:

–Vətəndaş! Sizin ki başınız tamam yarıq-yarıqdır!..

Beş dəqiqə sonra başı tənziflə sarınmış bufetçi bildiki, ciyər xəstəlikləri üzrə ən yaxşı mütəxəssislər professor Bernadski və Kuzmin hesab edilir, kimin daha yaxınlıqda olduğunu soruşub, Kuzminin bir həyət o yandakı balaca ağımsov malikanədə yerləşdiyini eşidəndə sevincək oldu və iki dəqiqə keçmiş artıq həmin malikanəyə çatmışdı. Qədim, ancaq çox səliqə-sahmanlı bir bina idi. Bufetçinin qarşısına

ilk çıxan ondan şlyapasını almaq istəyən, ancaq qonağın şlyapası olmadığından dişsiz ağzını marçıldada-marçıldada aralanıb gedən qoca dayə oldu.

Onun əvəzinə güzgünün yanında, tağın altında orta yaşlarında bir qadın peyda oldu, o saat da bildirdi ki, növbədə on doqquzuncu olacaq, ondan tez mümkün deyil. Bufetçi xilas yolunun nədə olduğunu dərhal anladı. Üzgün baxışlarla sütunun arxasına, üç adamın dayandığı dəhlizə tərəf boylanıb pıçıldadı:

–Ölümcül xəstəyəm...

Qadın bufetçinin sarğılı başına şübhə ilə baxıb, tərəddüd edərək dedi:

–Nə olar, keçin... – və bufetçini sütunun arxasına buraxdı.

Elə həmin an qarşı tərəfdəki qapının arasından qızılı sağanaqlı eynək parıldadı və xalatlı qadın dedi:

–Vətəndaşlar, bu xəstə növbəsiz keçəcək.

Bufetçi göz açıb yumunca özünü professor Kuzminin kabinetində gördü. Bu uzunsov otaqda qorxulu, təntənəli və tibbə aid heç nə yox idi.

–Sizə nə olub? – professor Kuzmin məlahətli bir səslə soruşub, onun sarıqlı başına bir qədər həyəcanla baxdı.

–İndicə mötəbər bir mənbədən öyrəndim ki, – bufetçi şüşənin altındakı dəstə halında çəkilmiş fotoşəkilə qorxa-qorxa baxdı, – gələn ilin fevralında qaraciyərxərçəngindən öləcəyəm. Yalvarıram, əlac edin.

Professor Kuzmin kreslonun dəri örtüklü, qotik üslublu hündür söykənəcəyinə yayxandı.

–Bağışlayın, sizi anlamıram... siz həkim yanından gəlirsiniz? Başınız niyə sarıqlıdır?

–Nə həkim?.. Həkimə min şükür!.. – birdən dişləri şaqqıldadı. – Başıma isə fikir verməyin, onun dəxli yoxdur, – bufetçi dedi, – baş cəhənnəm olsun, onluq heç nə yoxdur. Xahiş edirəm, ciyər xərçənginə əlac edin.

–Bağışlayın, axı bunu kim sizə deyib?

–Ona inanın,– bufetçi coşqunluqla xahiş etdi,– o bilir.

–Heç nə anlamıram, – professor çiyinlərini çəkib, kreslosunu stoldan geri sürüşdürdü. – Sizin haçan öləcəyinizi o necə bilərdi? Üstəlik də, həkim deyil!

–Dördüncü palatada, – bufetçi cavab verdi.

Bu yerdə professor xəstəyə, onun başına, yaş şalvarına baxıb düşündü: "Bircə bu çatmırdı! Dəlidir!" Soruşdu:

–Siz araq içirsiniz?

–Dilimə də dəyməyib, – bufetçi dedi.

Bir dəqiqə sonra o soyunub, müşəmbəli soyuq taxta uzanmışdı və professor onun qarnını əlləşdirirdi. Demək lazımdır ki, bu da bufetçinin kefini xeyli açdı. Professorqəti surətdə bildirdi ki, indi, hər halda, indiki məqamda bufetçidə xərçəng xəstəliyinin heç bir əlaməti yoxdur. Ancaq əgər belədirsə... əgər qorxursa, hansısa bir fırıldaqçı onu qorxudubsa, bütün analizləri verməlidir... Hara gedəcəyini, nə aparacağını izah edə-edə professor kağız parçalarına nəsə yazdı. Bundan başqa, bufetçiyə əsəblərinin tamam pozulduğunu deyib, professor-nevropatoloq Burenin yanına getməsi üçün ona məktub verdi.

–Sizə nə qədər verməliyəm, professor? – bufetçi qalın pul kisəsini çıxararaq məlahətli və titrək səslə soruşdu.

–Kefiniz nə qədər istəyir, – professor qısaca dedi.

Bufetçi otuz rubl çıxarıb masanın üstünə qoydu, sonra isə cingildəyən qəzet bükülüsünü, pişik kimi ehmalca onluqların üstünə qoydu.

–Bəs bu nədir? – Kuzmin bığının ucunu burdu.

–Çəkinməyin, vətəndaş professor, – bufetçi astadan dedi, – yalvanram, xərçəngə əlac edin.

–Qızılınızı götürün buradan, – professor məğrurcasına dedi, – yaxşı olar əsəblərinizi qoruyasınız. Elə sabah sidik analizi verin, çox çay içməyin, yeməyi də tamam duzsuz eləyin.

–Hətta şorbaya da duz tökməyim? – bufetçi soruşdu.

–Heç nəyə tökməyin, – Kuzmin bərk-bərk tapşırdı.

–Ehh!.. – bufetçi qüssə ilə professora baxa-baxa onluq qızılları götürüb, dalı-dalı qapıya tərəf getdi.

Həmin axşam professorun xəstəsi az oldu və şər qarışanda axırıncını yola saldı. Professor xalatını soyunanda bufetçinin onluqları qoyduğu yerə baxdı və onluqlar əvəzinə "Abrau-Dürso" şüşəsinin üç dənə etiketini gördü.

–Gəl indi baş çıxar! – Kuzmin xalatını döşəmə ilə sürüyərək, kağızı əliylə yoxlaya-yoxlaya mızıldadı, – demə,

o, təkcə şizofrenik yox, üstəlik də oğru imiş! Ancaq başa düşmürəm, məndən nə istəyirdi? Doğrudanmı, sidik analizi üçün kağız? Ax! O, paltomu oğurlayıb! – Xalatının bir qolu eləcə geyinəkli dəhlizə cumdu. – Kseniya Nikitişna! – qapının ağzında bağırdı, – görün palto yerindədirmi?

– Aydın oldu ki, palto yerindədir. Ancaq professor, nəhayət, xalatını soyunub stolun yanına qayıdanda ayaqları, elə bil, parketə mıxlandı. Etiketlərin olduğu yerdə kimsəsiz, zavallı bir pişik balası büzüşüb, süd tökülmüş boşqabın böyründə miyoldayırdı.

–Bağışlayın, bu nə deməkdir?! Bu artıq... – hiss etdi ki, peysəri buzlayıb.

Professorun astadan çəkdiyi fəryada Kseniya Nikitişna qaçıb gəldi və pişik balasını, əlbəttə, xəstələrin hansınınsa qoyub getdiyini, professorların başına belə əhvalatların tez-tez gəldiyini deməklə onu tamam sakitləşdirdi.

–Yəqin, kasıb yaşayırlar, – Kseniya Nikitişna izah etdi, – bizim isə, əlbəttə...

Pişiyi kimin qoyub getdiyini fıkirləşib tapmağa çalışdılar. Mədəsində yara olan qandan şübhələndilər.

–Əlbəttə, odur, – Kseniya Nikitişna dedi, – yəqin, belə düşünüb: mən, onsuz da, ölürəm, pişik yazıqdır.

–Dayanın görüm! – Kuzmin qışqırdı, – bəs süd?! Südü də o gətirib? Özü də boşqabda?!

–Şüşədə gətirib, burada boşqaba töküb, – Kseniya Nikitişna izah etdi.

–Hər halda, pişiyi də, boşqabı da götürün, – Kuzmin özü Kseniya Nikitişnanı qapıya qədər ötürdü. O qayıdanda vəziyyət dəyişmişdi.

Xalatı mismardan asanda professor həyətdə gülüş səsi eşidib boylandı və təbii ki, quruyub qaldı. Bircə alt köynəyində olan qadın qarşı tərəfdəki fligelə qaçıb girdi. Professor hətta onun adını da bilirdi – Marya Aleksandrovna. Balaca oğlan uğunub getmişdi.

–Bu nə deməkdir? – Kuzmin ikrahla dedi.

Bu vaxt qızının divarın o üzündəki otağında patefon "Alliluyya" fokstrotu çaldı və elə həmin an professorun arxasında sərçə cikkildədi. O dönüb stolun üstündə hoppanıb-düşən iri sərçəni gördü.

"Hm... sakit... – professor düşündü, – mən pəncərənin qarşısından çəkiləndə o içəri girib. Hər şey qaydasındadır", – professor özünü inandırmağa çalışdı, ancaq hiss etdi ki, elə bu sərçənin ucbatından heç nə qaydasında deyil. Professor ona diqqətlə baxıb, o saat əmin oldu ki, bu, elə də adi sərçə deyil. Murdar sərçə əməllicə ədabazlıq edərək, sol ayağının üstünə əyilir, ayağını sürüyüb duruxur, bir sözlə, piştaxta arxasındakı sərxoş kimi patefonda çalınan musiqi sədaları altında fokstrot oynayırdı. Həyasızcasına professora baxa-baxa əməllicə ədəbsizlik edirdi. Kuzmin əlini telefonun dəstəyinə uzatdı ki, kurs yoldaşı Bureyə zəng edib soruşsun, adamın altmış yaşında belə sərçə görməsi və başın qəfil gicəllənməsi nə deməkdir?

Sərçə isə bu vaxt hədiyyə edilmiş mürəkkəbqabına qonub, onu murdarladı (zarafat etmirəm), sonra qalxıb havada dayandı və sanki, poladdan olan dimdiyini universitetin 94-cü il buraxılışının fotoşəklinə zərblə çırparaq şəklin şüşə üzlüyünü sındırdı və pəncərədən uçub getdi. Professor başqa nömrə yığdı, Burenin əvəzinə zəli

kontoruna zəng vurub dedi ki, danışan Kuzmindir və xahiş etdi, indicə onun evinə zəli göndərsinlər.

Professor dəstəyi yerinə qoyub, yenə masaya sarı çevrildi və çığırdı. Masa arxasında çantasının üstünə "Zəlilər" yazılmış başıyaylıqlı şəfqət bacısı oturmuşdu. Baxışlarını qadının ağzından çəkmədən professor çığırırdı. Qulağın dibinə çatan, bir köpək dişi olan əyriağız – kişi ağzı idi. Tibb bacısının gözləri cansızdı.

– Pulları mən yığışdıraram, – tibb bacısı yoğun kişi səsiylə dedi, – burada tökülüb qalmasına ehtiyac yoxdur. – Quş caynağına bənzər əlləri ilə etiketləri yığışdırıb, havada əriyərək yox olmağa başladı.

İki saat keçdi. Professor yataq otağındakı çarpayıda oturmuşdu, gicgahlarından, qulaqlarının dalından və boynundan zəlilər asılmışdı. Kuzminin ipək üz çəkilmiş adyala bükülü ayaqlarının ucunda bığı ağarmış Bure oturub, canıyananlıqla ona baxırdı və təskinlik verirdi ki, bunlar hamısı boş şeydir. Bayırda artıq qaranlıq düşmüşdü.

Həmin gecə Moskvada özgə hansı əcaib-qəraib işlər baş verdiyini biz bilmirik və əlbəttə, öyrənmək fikrində də

deyilik, üstəlik, bu doğruçu söhbətimizin ikinci hissəsinə keçmək vaxtı yetişib. Ardımca, oxucum!

İkinci hissə

XIX fəsil

MARQARİTA

Ardımca, oxucu! Kim sənə deyib ki, dünyada həqiqi, möhkəm, əbədi məhəbbət yoxdur? Yalançının murdar dili kəsilsin!

Ardımca, oxucum, yalnız mənim ardımca, mən sənə belə məhəbbəti göstərəcəyəm!

Yox! Gecə yarıdan keçmiş xəstəxanada İvanuşkaya deyəndə ki o, məni unudub, master səhv eləyirdi. Belə şey ola bilməzdi. O, masteri, əlbəttə, unutmamışdı.

Ən əvvəl masterin İvanuşkadan gizlətdiyi sirri açaq. Onun sevgilisinin adı Marqarita Nikolayevna idi. Marqarita haqqında masterin bədbəxtşairə dediklərinin hamısı həqiqət idi. Bura bir şeyi də əlavə etmək lazımdır: əminliklə demək olar ki, qadınların əksəriyyəti öz həyatını Marqarita Nikolayevnanın həyatına dəyişmək üçün çox şeydən keçərdi. Otuzyaşlı, sonsuz Marqarita görkəmli, üstəlik də, dövlət əhəmiyyətli mühüm bir kəşf etmiş mütəxəssisin arvadı idi. Onun əri gənc, yaraşıqlı, xeyirxah, vicdanlı adamdı və öz arvadını hədsiz sevirdi. Marqarita Nikolayevna ilə əri Arbat yaxınlığındakı dar küçələrin birində, bağın içində yerləşən gözəl malikanənin üst mərtəbəsini başdan-başa tutmuşdular. Füsunkar yerdi! Həmin bağa getmək istəyən hər bir adam buna əmin ola bilər! Qoy mənə müraciət etsin, mən ona ünvanı deyərəm, yolu göstərərəm – malikanə hələ də öz yerində durur.

Marqarita Nikolayevnanın pula ehtiyacı yox idi. Marqarita Nikolayevna ürəyi istədiyi hər şeyi ala bilərdi. Ərinin tanışları arasında maraqlı adamlara da rast gəlinirdi. Marqarita Nikolayevna əlini ağdan-qaraya vurmamışdı.

Marqarita Nikolayevna kommunal mənzildə yaşamağın dəhşətlərindən xəbərsizdi. Əlqərəz... o, xoşbəxtdimi? Zərrə qədər də! On doqquz yaşında ərə gedib malikanəyə köçəndən xoşbəxtlik nə olduğunu bilməmişdi. Allahlar, ey allahlar! Axı bu qadına nə lazımdı?! Gözləri həmişə anlaşılmaz bir işartı ilə yanan bu qadına, o yaz əlində küsdüm ağacının güllərini tutmuş, bir gözü azca çəp olan bu ifritəyə nə lazımdı? Bilmirəm. Mənə məlum deyil. Görünür, o, düz demişdi, ona nə qotik üslubda tikilmiş malikanə, nə ayrıca bağ, nə də pul lazımdı, ona təkcə master lazımdı. O, düz deyirdi, o, masteri sevirdi.

Dediyi vaxt qayıtmayan əri ilə danışmağa, xoşbəxtlikdən, macal tapmayan Marqaritanın səhərisi masterin evinə gedərək, onu görməyəndə hansı hisslər keçirdiyi hətta mənim, yad adamın, ancaq doğruçu hekayətçinin belə ürəyini sıxır.

O, master haqqında nəsə öyrənmək üçün əlindən gələni etdi və əlbəttə, heç nə öyrənə bilmədi. Malikanəyə qayıdıb yenə əvvəlki yerində yaşamağa başladı.

– Hə, hə, hə, yenə həminki səhvdir! – Marqarita qışda sobanın böyründə oturub, alova baxa-baxa deyirdi, – niyə mən həmin gecə onun yanından getdim? Niyə? Axı bu, ağılsızlıqdır! Söz verdiyim kimi səhərisi qayıtdım, ancaq artıq gec idi. Hə, bədbəxt Levi Matvey kimi mən çox gec qayıtdım!

Əlbəttə, bu sözlərin hamısı mənasız idi, guya, həmin gecə masterin yanında qalsaydı, nə dəyişəcəkdi? Onu qurtara biləcəkdimi? Gülməlidir! – deyərdik, ancaq ümidsiz vəziyyətə salınan qadının qarşısında bunu etmərik.

Marqarita Nikolayevna bütün qışı bu əzablarla keçirib yaza çıxdı. Cadugərin gəlişiylə Moskvada min cür həngamənin baş verdiyi həmin gün, Berliozun dayısının təzədən Kiyevə qovulduğu, mühasibin həbs olunduğu və bir çox başqa səfeh, anlaşılmaz hadisənin baş verdiyi cümə günü Marqarita malikanənin qülləsinə baxan yataq otağında günortaya yaxın yuxudan oyandı.

Çox vaxt olduğu kimi, Marqarita yuxudan oyanıb ağlamadı, çünki bu gün, axır ki, nəsə baş verəcəyi ürəyinə

dammışdı. Bu duyğunun yoxa çıxacağından qorxub, onu ürəyində əzizləməyə, bəsləməyə başladı.

– Mən inanıram – Marqarita həyəcanla pıçıldadı, – mən inanıram! Nəsə olacaq! Olmaya bilməz, mən axı nəyə görə ömrüm boyu əzab çəkməliyəm? Boynuma alıram ki, yalan danışmışam, aldatmışam, adamlardan gizlin həyatım olub, ancaq buna görə adamı belə qəddarcasına cəzalandırmaq olmaz. Mütləq nəsə baş verəcək, çünki heç nə əbədi olaraq davam eləyə bilməz. Bundan başqa, mənim yuxum çin olur, buna inanıram.

Marqarita Nikolayevna gün işığı süzülən qırmızı qumaş pərdələrə baxaraq qısa, buruq saçlarını üçlaylı güzgünün qabağında daraya-daraya narahat halda pıçıldayırdı.

Bu gecə Marqarita, doğrudan da, qəribə yuxu görmüşdü. Məsələ onda idi ki, əzab içində keçən qış günlərində o, heç vaxt masteri yuxuda görməmşdi. Master gecələr onu rahat buraxırdı və o yalnız gündüzlər əzab çəkirdi. İndi isə yuxusuna girmişdi.

Marqarita yuxusunda erkən yazın tutqun göyü altında qəmli, cansıxıcı, naməlum bir yer görmüşdü. Bozumtul

səmanı topa-topa buludlar bürümüşdü, buludlardan aşağıda isə zağcalar səssizcə uçuşurdu. Əyri bir körpü idi. Körpünün altından kiçik, bulanıq çay axırdı. Kədərli, solğun, yarıçılpaq ağaclar, tənha ağcaqovaq, uzaqda, hansısa bostanın arxasında, ağacların arasında tirdən tikilmiş ev, – ya ayrıca bir mətbəx idi, ya hamam, ya Allah bilir nə. Ətraf o qədər cansız, o qədər qəmli idi ki, körpünün yanındakı ağcaqovaqdan adamın özünü asmağı gəlirdi. Nə bir udum meh var, nə buludlar tərpənir, nə də bir insan var. Canlı adam üçün əsl cəhənnəm!

Ancaq təsəvvür edin, ağacdan tikilən bu evin qapısı açılır və o peyda olur. Çox uzaqdadır, amma onu aydınca görür. Üst-başı cırıq-cındır, bilmək olmur əyninə nə geyinib. Saçları pırtlaşıq, üzünü tük basıb. Qızarmış gözləri narahatdır. Ona əl edir, çağırır. Havasızlıqdan boğula-boğula ona tərəf qaçdığı yerdə Marqarita oyandı.

"Bu yuxu yalnız iki şeydən birini bildirir, – Marqarita Nikolayevna düşündü, – o əgər ölübsə və məni çağırırsa, demək, mənim arxamca gəlib və mən tezliklə öləcəyəm. Burası çox yaxşıdır, çünki onda əzablarım sona çatar. Yox,

sağdırsa, onda yuxu onu bildirir ki, o, özünü mənim yadıma salır! O, demək istəyir ki, biz hələ görüşəcəyik. Hə, biz çox tezliklə görüşəcəyik".

Marqarita həmin həyəcanlı vəziyyətdə də geyinib, özünü inandırmağa çalışdı ki, əslində, hər şey çox uğurlu alınır və belə uğurlu məqamlardan bacarıb istifadə etmək lazımdır. Əri üçgünlüyə ezamiyyətə getmişdi. Üç gün onun ixtiyarı özündə idi, kefi istədiyini düşünməyə, xoşladığı şey haqqında xəyala dalmağa heç kim ona mane olmayacaqdı. Malikanənin üst mərtəbəsindəki beş otaq – Moskvada on minlərlə adamın qibtə eləyə biləcəyi bütün bu mənzil onun tam ixtiyarındaydı.

Ancaq üç gün sərbəstlik qazanan Marqarita bu dəbdəbəli mənzildə heç də ən yaxşı yeri seçmədi. Çay içib, iki böyük dolabda çamadanların və müxtəlif köhnə-köşkülün saxlandığı pəncərəsiz, qaranlıq otağa keçdi. Çömbəlib onlardan birinin alt siyirməsini çəkdi və ipək parça qırıqlarının altından həyatda ona ən əziz olan şeyi çıxartdı. Marqaritanın əlindəki masterin fotoşəkli, onun adına on min rubl qoyulan əmanət kitabçası, papiros kağızlarının arasında

qurumuş qızılgül ləçəkləri və aşağısı yanmış dəftər olan qəhvəyi üzlü köhnə albom idi.

Marqarita Nikolayevna bu sərvətlə öz yataq otağına qayıtdı, fotoşəkli üçlaylı güzgüyə söykəyib, alovun korladığı dəftəri dizinin üstündə tutaraq, yanandan sonra əvvəli, axırı olmayan səhifələri oxuya-oxuya bir saata yaxın beləcə oturdu: "...Aralıq dənizi tərəfdən gələn qaranlıq prokuratorun nifrət etdiyi şəhəri örtdü. Məbədi qorxunc Antoni qalasının bürclərriyiə birləşdirən asma körpülər yoxa çıxdı, çökən zülmət hippodrom üzərindəki qanadlı allahları, bürclü Xasmoney sarayını, bazarları, karvansaraları, küçələri, nohurları görünməz etdi... Yerşalaim – böyük şəhər dünyada heç olmayıbmış kimi yoxa çıxdı..."

Marqarita arxasını da oxumaq istəyirdi, ancaq yanıb qaralmış səhifədə daha heç nə oxunmurdu.

Marqarita Nikolayevna göz yaşını silərək, dəftəri kənara qoyub, dirsəklərini güzgünün altındakı masaya söykədi və gözünü şəkildən çəkmədən bir xeyli oturdu. Sonra göz yaşları qurudu. Marqarita öz var-dövlətini səliqə ilə yığışdırdı, bir neçə dəqiqə keçmiş onun sərvəti yenə ipək

parçaların altında gizlədildi və qaranlıq otaqda qəfil şıqqıltı ilə bağlandı.

Marqarita Nikolayevna gəzməyə getmək üçün dəhlizdə paltosunu geyindi. Ev qulluqçusu gözəl Nataşa günortaya nə bişirəcəyini soruşub, fərqi olmadığı cavabını aldı və əylənmək xatirinə evin xanımı ilə söhbətə girişib, ağzına gələni danışmağa başladı; guya, dünən teatrda fokusçu elə fokuslar göstərib ki, hamının ağzı açıla qalıb; hamıya pulsuz iki şüşə xarici ətir və corab paylayıb, sonra isə seans qurtarıb, küçəyə çıxanlar bir də görüblər ki, lütdülər! Marqarita Nikolayevna özünü dəhlizdə güzgünün altındakı stula yıxıb qəhqəhə çəkdi.

–Nataşa! Heç utanırsınız, – Marqarita Nikolayevna dedi, – savadlı, ağıllı qadınsınız; növbələrdə ağızlarına gələn yalanı danışırlar, siz də təkrar edirsiniz!

Nataşa pörtdü və coşqunluqla etiraz etdi ki, yalan-zad danışmırlar, bu gün özü şəxsən Arbatdakı qastronoma tufli ilə gələn bir qadın görüb, qadın kassanın qabağında dayanıb pul verəndə ayaqlarındakı tuflilər yoxa çıxdı, qadın bircə

corabda qaldı. Gözləri bərəlmişdi! Corabların dabanı cırıqdı. Tuflilər isə həmin tamaşadan qalan sehrli tuflilərdi.

–Elə də getdi?

–Elə də getdi! – Nataşa ona inanmadıqları üçün lap qızardı, – dünən, Marqarita Nikolayjevna, milis gecə yüz adam tutub. Bu seansdan çıxan qadınlar bircə darbalaqda Tverskoyla qaçırmışlar.

–Eh, əlbəttə, bunu Darya danışıb, – Marqarita Nikolayevna dedi, – onun gopçu olduğunu çoxdan hiss etmişəm.

Məzəli söhbət Nataşa üçün xoş sürprizlə bitdi. Marqarita Nikolayevna yataq otağına keçib, əlində bir cüt corab, bir şüşə odekolonla qayıtdı. O da fokus göstərmək istədiyini deyərək, Nataşaya corab və ətir şüşəsi verib dedi ki, ondan bircə şey xahiş edir – Tverskoyla corabda qaçmasın və Daryaya qulaq asmasın. Evin xanımı ilə qulluqçu öpüşüb ayrıldılar.

Marqarita Nikolayevna Arbat küçəsi ilə gedən trolleybusun rahat, yumşaq kreslosuna söykənib, gah xəyala

dalır, gah da ondan irəlidə oturan iki adamın astadan danışdığına qulaq asırdı.

Onlar isə kiminsə eşidəcəyindən ehtiyatlanıb, hərdən boylanaraq, nəsə cəfəng bir şey haqqında pıçıldaşırdılar. Pəncərənin yanında oturan zorba, kök, xırda gözləri oyur-oyur oynayan adam öz balacaboy qonşusuna deyirdi ki, tabutun üstünə qara örtük salası oldular...

–Elə şey ola bilməz... – Balacaboy heyrətləndi, – nəsə görünməmiş şeydir... Bəs Jeldıbin neylədi?

Trolleybusun aram uğultusunda pəncərə tərəfdən eşidildi:

–Cinayət axtarış idarəsi... qalmaqal... bir sözlə, mistika!

Eşitdiyi bu qırıq-qırıq sözlərdən Marqarita Nikolayevna bəzi şeylər anlaya bildi. Bu iki vətəndaş adını çəkmədikləri hansısa mərhumun bu gün səhər tabutdan başının oğurlandığı barədə danışırdı! Bax, elə buna görə də həmin o Jeldıbin indi belə həyəcanlanır. Trolleybusda pıçıldaşan bu iki nəfərin də soyğunçuluğa məruz qalmış mərhuma necəsə aidiyyatı vardı.

–Gül dalınca getsək, gecikmərik ki? – balacaboy narahat oldu, – deyirsən, kremasiya saat ikidədir?

Tabutdan oğurlanan baş haqqındakı bu müəmmalı boşboğazlığa qulaq asmaq, axır ki, Marqarita Nikolayevnanı bezdirdi və düşmək vaxtı çatdığına sevindi.

Bir neçə dəqiqə sonra Marqarita Nikolayevna artıq Kreml divarının dibindəki skamyaların birində üzü manejə oturmuşdu.

Marqarita gündən gözünü qıyıb, gördüyü yuxunu, düz bir il əvvəl, bu günün bu saatında elə bu skamyada onunla yanaşı oturduğunu xatırladı. Ovaxtkı kimi qara çantasını da böyrünə qoymuşdu. Bu gün o, yanında olmasa da, Marqarita Nikolayevna fikrində yenə onunla danışırdı: "Əgər sürgün olunmusansa, niyə özün haqqmda bir xəbər göndərmirsən? Axı adamlar xəbər göndərir. Sən məni daha sevmirsən? Yox, nəyə görəsə mən buna inanmıram. Deməli, sən sürgündə ölmüsən... Onda səndən xahiş edirəm, məni rahat burax, nəhayət, imkan ver, azad yaşayım, nəfəs alım". Marqarita Nikolayevna özü onun yerinə cavab verdi: "Sən azadsan... Məgər səni tutub saxlayıram?" Sonra ona etiraz

etdi: "Yox, bu nə cavabdır! Yox, sən mənim yaddaşımdan get, mən onda azad olaram".

Marqarita Nikolayevnanın yanından adamlar ötüb-keçirdi. Qəşəng geyinmiş qadını gözəlliyinə və tək olduğuna görə bir kişinin gözü aldı. O, öskürüb Marqarita Nikolayevnanın oturduğu skamyanın bir küncündə əyləşdi. Özünü ürəkləndirib dedi:

– Şübhəsiz, bu gün hava yaxşıdır...

Ancaq Marqarita elə tərs-tərs baxdı ki, o qalxıb getdi.

"Bu da nümunə, – Marqarita fikrində ona hakim olan adama dedi, – əslində, mən bu adamı niyə qovdum? Mən darıxıram, bu arvadbaz da, bircə sarsaq "şübhəsiz" sözünü nəzərə almasaq, elə də pis deyildi. Niyə divarın dibində bayquş kimi tək oturmuşam? Niyə mən özümü həyatdan təcrid etmişəm?"

O lap kədərlənib, başını aşağı dikdi. Ancaq bu vaxt səhər hiss etdiyi ümid və həyəcan ürəyini titrətdi. "Hə, baş verəcək!" Ürəyi yenə əsdi və başa düşdü ki, buna səbəb səs dalğasıdır. Şəhərin hay-küyü içindən yaxınlaşan təbil və bir

az yanlış notlar duyulan şeypur səsləri get-gedə aydınca eşidildi.

İlk olaraq bağın dəmir çəpərinin yanı ilə gedən bir atlı, ardınca üç piyada milisioner, sonra musiqiçilərin mindiyi, yavaş-yavaş gedən yük maşını, ondan sonra əkillərin tamam örtdüyü tabutu aramla aparan, künclərində dörd adamın: üç kişi və bir qadının dayandığı təzə, üstüaçıq dəfn maşını göründü. Mərhumu son mənzilə yola salan dəfn maşınındakı adamların sifətindəki qeyri-adi çaşqınlığı Marqarita hətta uzaqdan sezdi. Maşının sol arxa küncündə dayanmış qadında bu daha çox hiss olunurdu. Qadının ətli yanaqlarını içəridən, elə bil, daha çox hansısa maraqlı bir sirr şişirtmişdi, süzülən gözlərində eyhamlı işartılar oynayırdı. Sanki, qadın bu saat dözməyib, mərhuma işarə vuraraq deyəcəkdi: "Belə bir şey görmüşdünüz? Əməlli-başlı mistikadır!" Dəfn maşınının arxasınca yavaş-yavaş irəliləyən üç yüzə yaxın piyadanın sifətində də eyni çaşqınlıq var idi.

Marqarita uzaqlaşan izdihamı gözləriylə ötürərək, türk təbilinin get-gedə zəifləyən kədərli, yeknəsəq "bum, bum, bum" səsinə qulaq asa-asa fikirləşdi: "Necə qəribə dəfndir...

Bu "bum" səsi də qüssə doğurur! Ah, doğrusu, onun sağ olub-olmadığını bilmək üçün qəlbimi şeytana belə satardım! Bu cür qəribə sifətlə kimi dəfn etdiklərini bilmək maraqlı olardı".

–Mixail Aleksandroviç Berliozu, – lap böyründə burnunda danışan kişi səsi eşidildi, – Massolitin sədrini.

Marqarita Nikolayevna təəccüblə çevrilib skamyada oturan adamı gördü, yəqin, bu adam onun başı mərasimə qarışanda hiss olunmadan gəlib əyləşmişdi və ola bilsin, fikri dağınıq olduğundan son sualı bərkdən vermişdi.

Bu vaxt izdiham, yəqin, qarşıdakı işıqfora görə yavaşımışdı.

–Bəli, – naməlum adam sözünə davam etdi, – onların qəribə ovqatı var. Mərhumu dəfn etməyə aparırlar, ancaq bircə o haqda düşünürlər ki, görən, onun başı hanı!

–Nə baş? – Marqarita göziənilməz qonşunu süzərək soruşdu. Qonşusu balacaboy, köpək dişli, əyninə kraxmallı köynək, zolaqlı qəşəng kostyum geyinmiş, ayağında laklı tufli, başında yumru şlyapa olan kürən bir adam idi. Qalstukunun şux rəngi vardı. Təəccüblü idi ki, kişilərin,

adətən, cib dəsmalı, avtomat qələm qoyduğu kostyumun döş cibindən gəmirilmiş toyuq sümüyü çıxmışdı.

–Bilirsinizmi, – kürən adam izah etdi, – bu gün səhər Qriboyedov zalında mərhumun başını tabutdan çırpışdırıblar.

–Bu necə ola bilər? – Marqarita qeyri-ixtiyari soruşdu və eyni zamanda trolleybusdakı söhbəti xatırladı.

–Kim bilir! – kürən adam sırtıqcasına dedi. – Mənə elə gəlir, bu haqda, hər halda, Begemotdan soruşmaq pis olmazdı. Çox məharətlə çırpışdırıblar. Lap biabırçılıqdır! Ən başlıcası, məlum deyil, axı bu baş kimə lazımdır, nə üçün lazımdır!

Marqarita Nikolayevna öz aləmi ilə nə qədər məşğul olsa da, bu adamın hətərən-pətərən danışığı onu heyrətləndirdi.

–Bağışlayın! – o, birdən bərkdən dedi. – Hansı Berliozu? Bu gün qəzetlərin yazdığı...

Əlbəttə, əlbəttə...

–Onda belə çıxır ki, tabutun arxasınca gedənlər ədəbiyyatçılardır? – Marqarita dişlərini bir-birinə sıxdı.

–Təbii ki, onlardır!

–Siz onları üzdən tanıyırsınız?

–Bir nəfər kimi, – kürən adam cavab verdi.

–Deyin, – Marqaritanın səsi boğuq çıxdı, – tənqidçi Latunski onların arasındadır?

–Necə olmaya bilər? – kürən adam dedi, – odur, dördüncü sıranın ucunda.

–O sarışın? – Marqarita gözünü qıydı.

–Kül rəngində... Görürsünüz, gözünü göyə zilləyib.

–Keşişə oxşayan?

–Özüdür ki var!

Marqarita gözünü Latunskiyə dikib, daha heç nə soruşmadı.

–Görürəm, – kürən adam gülümsədi, – bu Latunskiyə nifrət edirsiniz.

–Mən hələ bəzi başqalarına da nifrət edirəm, – Marqarita dilucu cavab verdi, – ancaq bu haqda danışmaq maraqsızdır.

İzdiham bu vaxt yerindən tərpəndi, piyadaların arxasınca əksəriyyəti boş olan avtomobillər gedirdi.

–Əlbəttə, burada maraqlı heç nə yoxdur, Marqarita Nikolayevna!

Marqarita təəccübləndi:

–Siz məni tanıyırsınız?

Kürən adam cavab əvəzinə yumru şlyapasını çıxarıb, başını tərpətdi.

"Əməllicə quldur sifəti var" – Marqarita öz həmsöhbətini süzərək düşündü.

–Mən isə sizi tanımıram, – Marqarita soyuq tərzdə dedi.

–Məni haradan tanıya bilərsiniz! Buna baxmayaraq, məni sizin yanınıza bir məsələ üçün göndəriblər.

Marqaritanın rəngi ağardı və geri çəkildi.

–Birbaşa elə bundan başlamaq lazım idi, – o dedi, – yoxsa kəsilən baş haqqında ağzınıza gələni danışmağa dəyməzdi! Məni həbs etmək istəyirsiniz?

–Heç də yox, – kürən adam tezcə dilləndi, – bu nə məsələdir: ağzımı açıb danışdımsa, deməli, mütləq həbs etməliyəm! Sadəcə, sizinlə işim var.

–Heç nə anlamıram, nə iş?

Kürən adam ətrafa boylanıb, müəmmalı tərzdə dedi:

–Məni göndəriblər ki, sizi bu axşama qonaq çağıram.

–Nə sayıqlayırsınız, kimə qonaq?

–Əsil-nəcabətli bir əcnəbiyə, – kürən adam gözlərini qıyıb, mənalı-mənalı dedi.

Marqarita əməllicə hirsləndi.

–Təzə peşə peyda olub: küçə oğraşı, – o, getmək üçün ayağa durdu.

–Belə tapşırıqlar üçün bu da mənim "sağ ol"um! – kürən adam incidi və uzaqlaşan Marqaritanın arxasınca donquldandı: – Axmaq!

–Əclaf! – o, geri çönərək cavab verdi və həmin an da arxadan kürən adamın səsini eşitdi:

–Aralıq dənizi səmtdən gələn qaranlıq prokuratorun nifrət etdiyi şəhəri örtdü. Məbədi qorxunc Antoniya qalası ilə birləşdirən asma körpülər görünməz oldu... Yerşalaim – böyük şəhər dünyada heç olmayıbmış kimi yoxa çıxdı... Sizi görüm, yanmış dəftərinizlə, qurudulmuş qızılgülünüzləyoxa çıxasınız! Bu skamyada tək oturub ona yalvarın ki, sizi

sərbəst buraxsın, nəfəs almağa imkan versin, yaddaşınızdan getsin!

Rəngi ağarmış Marqarita skamyaya tərəf qayıtdı. Kürən adam gözlərini qıyıb ona baxırdı.

–Mən heç nə anlamıram, – Marqarita Nikolayevna astadan dilləndi, – qızılgül ləçəkləri barədə yenə nəsə bilmək olar... gizlicə girərlər, baxarlar... Nataşa satın alınıb? Hə? Ancaq siz mənim fikrimi necə oxuya bildiniz? – üz-gözünü əzabla qırışdırıb əlavə etdi: – Deyin, siz kimsiniz? Hansı təşkilatdansınız?

–Azara düşmüşük də, – kürən adam mızıldanıb bərkdən dedi: – Bağışlayın, axı mən sizə dedim ki, heç bir təşkilatdan deyiləm! Xahiş edirəm, oturun.

Marqarita deyilənə dinməzcə əməl etdi, ancaq otura-otura yenə soruşdu:

–Siz kimsiniz?

–Di yaxşı, mənim adım Azazellodur, ancaq onsuz da, bu, sizə heç nə demir.

–Bəs siz deməzsiniz, qızılgül ləçəkləri barədə haradan bildiniz, fikirlərimi necə oxudunuz?

–Deməyəcəyəm, – Azazello soyuq tərzdə dilləndi.

–Bəs onun haqqında nəsə bilirsiniz? – Marqarita yalvarışla pıçıldadı.

–Tutaq ki, bilirəm.

–Yalvanram, bircə şeyi deyin, o sağdır? Mənə əzab verməyin.

–Di sağdır, sağdır, – Azazello həvəssiz-həvəssiz cavab verdi.

–İlahi!

– Xahiş edirəm, həyəcanlanmayın, qışqırmayın, – Azazello üz-gözünü turşutdu.

–Bağışlayın, bağışlayın, – Marqarita itaətkarcasına mızıldadı, – əlbəttə, mənim sizə acığım tutdu. Razılaşın ki, küçədə qadını harasa qonaq dəvət edəndə... Sizi əmin edirəm, mən heç nədən çəkinib-eləmirəm, – Marqarita kədərlə gülümsədi, – ancaq mən əcnəbilərlə rastlaşmamışam, onlarla görüşməyə də heç bir həvəsim yoxdur... bundan başqa, mənim ərim... Mənim faciəm ondadır ki, sevmədiyim adamla yaşayıram, ancaq onun

həyatını korlamağı ləyaqətsizlik sayıram. Mən ondan xeyirxahlıqdan savayı heç nə görməmişəm...

Bu rabitəsiz çıxış Azazellonu açıq-aşkar darıxdırdı və o, sərt şəkildə dedi:

–Xahiş edirəm, bir dəqiqə susun.

Marqarita itaətkarcasına susdu.

–Mən sizi tamamilə təhlükəsiz olan əcnəbinin yanına dəvət edirəm. Onun yanına getməyinizdən bircə adam da xəbər tutmayacaq. Bax, mən sizi buna əmin edirəm.

–Bəs mən onun nəyinə lazımam? – Marqarita ehtiyatla soruşdu.

–Bunu sonra biləcəksiniz.

–Başa düşürəm... Mən özümü ona təslim etməliyəm, – Marqarita fikirli-fikirli dedi.

Azazello təkəbbürlə gülümsədi.

–Sizi əmin edirəm ki, dünyanın istənilən qadını bunu arzulayardı, – Azazellonun sifəti gülüşdən əyildi, – ancaq sizi məyus edəcəyəm: bu olmayacaq.

–Nə əcnəbidir elə?! – Marqarita həyəcanla elə bərkdən dedi ki, skamyanın yanından keçənlər çönüb ona baxdılar, – onunla görüşə getməkdə axı mənim nə marağım var?

Azazello ona tərəf əyilib, müəmmalı tərzdə pıçıldadı:

–Çox böyük marağınız var... Fürsətdən istifadə edin...

–Nə? – Marqarita çığırdı və gözləri böyüdü, – əgər sizi düzgün başa düşürəmsə, buna eyham vurursunuz ki, orada ondan xəbər tuta bilərəm?

Azazello dinməzcə başını tərpətdi.

–Gedirəm! – Marqarita qışqırıb Azazellonun əlindən yapışdı, – hara lazımsa, gedirəm!

Azazello rahat nəfəs alıb skamyaya yayxandı, iri hərflərlə cızılmış "Nyura" sözünü kürəyilə örtərək, istehza ilə dedi:

–Bu qadınlar çətin məxluqdurlar! – o, əlini cibinə soxub, ayaqlarını xeyli irəli uzatdı, – niyə, məsələn, bu işindalınca məni göndəriblər? Gərək Begemot gələydi, o cazibədardır...

Marqarita süni bir təbəssümlə yazıq-yazıq gülümsəyərək dedi:

–Yetər başımı aldatdınız, öz tapmacalarınızla əzab verdiniz... Mən axı bədbəxt adamam, siz də bundan istifadəedirsiniz. Hansısa qəribə bir işə baş qoşuram, ancaq and içirəm, yalnız onun haqqında söz deməklə məni tovladınız! Bütün bu anlaşılmazlıqlardan başım gicəllənir...

–Yaxşı, yaxşı, faciəyə döndərməyin, – Azazello üz-gözünü qırışdırdı, – mənim də vəziyyətimi nəzərə almaq lazımdır. İnzibatçının sifətinə ilişdirmək, ya dayını evdən qovmaq, ya kimisə güllələmək, ya bunlara oxşar xırda məsələlər mənim birbaşa ixtisasımdır, ancaq eşqə düşmüş qadınlarla söhbət etmək – bəndənizi bağışlayacaqsınız. Düz yarım saatdır sizi yola gətirməyə çalışıram. Nədir, gedirsiniz?

–Gedirəm, – Marqarita Nikolayevna adicə bir söz kimi dedi.

–Onda zəhmət çəkib götürün, – Azazello cibindən yumru qızıl qutu çıxardıb Marqaritaya uzatdı. – Gizlədin də, yoldan keçənlər baxır. Bu, sizə lazım olacaq, Marqarita Nikolayevna. Siz son altı ayda dərddən əməllicə qocalmısınız (Marqarita pörtdü, ancaq heç nə demədi,

Azazello isə sözünə davam etdi.). Bu gün axşam, düz saat onun yarısında, zəhmət çəkin, çılpaq soyunub bu məlhəmi sifətinizə, bədəninizə sürtün. Sonra nə istəyirsiniz edin, ancaq telefonun yanından aralanmayın. Saat onda sizə zəng vurub, nə lazımsa, hamısını deyəcəyəm. Heç nəyinfikrini çəkməyin, sizi lazım olan yerə çatdıracaqlar, heç bir narahatlıq hiss etməyəcəksiniz. Aydındır?

Marqarita bir az susub dedi:

–Aydındır. Ağırlığından bilinir ki, bu qutu xalis qızıldandır. Eybi yox, yaxşı başa düşürəm ki, məni satın alırlar, sonradan altını çəkəcəyim hansısa şübhəli oyuna qoşurlar.

–Bu nə deməkdir, – Azazello, az qala, fısıldadı, – yenə başladınız?

–Yox, dayanın!

–Məlhəmi geri qaytarın.

Marqarita qutunu əlində bərk-bərk tutdu.

–Yox, dayanın... Nəyə baş qoşduğumu bilirəm. Ancaq bütün bunları onun xatirinə eləyirəm, çünki dünyada daha heç nəyə ümidim qalmayıb. Ancaq sizə deyirəm, əgər məni

məhv etsəniz, sizə ayıb olacaq! Hə, ayıb olacaq! Mən eşq yolunda məhv oluram! – Marqarita əlini sinəsinə vurub, günəşə baxdı.

–Geri qaytarın, – Azazello hirslə donquldandı, – geri qaytarın, rədd olsun hamısı. Qoy Begemotu yollasınlar.

–Ah, yox! – Marqaritanın qışqırığı yoldan ötənləri heyrətləndirdi, – hər şeyə razıyam, məlhəm sürtmək hoqqabazlığına da, cəhənnəmin dibinə getməyə də razıyam. Qaytarmıram!

–Boy! – Azazello birdən bağırdı və gözlərini bərəldib, bağın dəmir çəpərinə tərəf baxaraq, barmağını hara isə tuşladı.

Marqarita Azazellonun göstərdiyi səmtə çevrildi, ancaq orada fövqəladə bir şey görmədi. Azazello tərəfə dönüb, onun bu mənasız "Boy!" sözünü izah etməsini istəyirdi ki, izah edəsi bir bəndə görmədi: Marqarita Nikolayevnanın sirli qonağı yoxa çıxmışdı. Marqarita əlini tezcə bağırtıdan qabaq qutunu gizlətdiyi çantaya soxdu və qutunun orada durduğuna əmin oldu. Marqarita daha heç nə düşünmədən tələsik Aleksandrov bağından qaçdı.

XX fəsil

AZAZELLONUN MƏLHƏMİ

Ağcaqayın ağacının budaqları arasından axşamın buludsuz səmasında bədirlənmiş ay görünürdü. Cökə və ağcaqayınların kölgəsi bağı qarmaqarışıq ləkələrlə naxışlamışdı. Gur elektrik işığı açıq, ancaq pərdəsi çəkilmiş üçlaylı pəncərəni işıqlandırmışdı. Marqarita Nikolayevnanın yataq otağında bütün işıqlar yanırdı və otaqdakı səliqəsizliyi işıqlandırırdı. Çarpayıdakı adyalın üstünə gecə köynəkləri, corablar və alt paltarları sərilmişdi, bükmələnmiş alt paltarları isə, sadəcə, döşəməyə, ayaq altda qalıb əzilmiş papiros qutusunun yanına atılmışdı. Tuflilər dolabçanın üstünə, sona qədər içilməmiş qəhvə fincanının və içində papiros kötüyü tüstülənən külqabının böyrünə qoyulmuşdu, stulun söykənəcəyindən qara ziyafət paltarı asılmışdı. Otaq ətir qoxuyurdu, bundan başqa, haradansa qızmış ütü iyi gəlirdi.

Marqarita Nikolayevna çılpaq bədəninə atdığı hamam xalatında və ayağındakı qara dəri tuflilərdə bədənnüma

güzgünün qarşısında oturmuşdu. Saatlı qızıl qolbaq Marqarita Nikolayevnanın önündə, Azazellodan aldığı qutunun böyründə dururdu və Marqarita gözünü saatın siferblatından çəkmirdi. Hərdən ona elə gəlirdi ki, saat xarab olub və əqrəblər tərpənmir. Ancaq onlar can çəkə-çəkə də olsa hərəkət edirdi və nəhayət, uzun əqrəb ona iyirmi doqquz dəqiqə işlədiyini göstərdi. Marqaritanın ürəyi elə şiddətlə çırpındı ki, hətta qutunu dərhal götürə bilmədi. Özünü ələ alıb qutunu açdı və oradakı yağlı, sarımtıl məlhəmi gördü. Ona elə gəldi ki, məlhəm bataqlıq iyi verir. Marqarita barmağının ucu ilə qutudan azacıq məlhəm götürüb ovcuna qoydu, bataqlıq otlarının, meşənin kəskin qoxusu gəldi, sonra məlhəmi əliylə alnına və yanaqlarına sürtməyə başladı. Məlhəm dəriyə asan hopurdu və Marqaritaya elə göründü ki, məhlul dərhal buxarlanır. Bir neçə dəfə məlhəmdən sürtüb güzgüyə baxdı və qutu əlindən saatın şüşəsinin üstünə düşdü, şüşə çat-çat oldu. Marqarita gözlərini yumdu, sonra bir də güzgüyə baxıb qəhqəhə çəkdi.

Ucları maqqaşla alınaraq nazildilmiş qaşları sıxlaşıb, yaşıllaşmış gözlərinin üstündə qara qövs şəkli aldı.

Qaşlarının ortasından keçən, oktyabrda master itəndən sonra yaranan nazik şaquli qırışlar izsiz-tozsuz yoxa çıxdı. Gicgahlarındakı sarımtıl ləkələr, gözlərinin kənarlarında zorla sezilən iki xırda qırış da itdi. Yanaqları allandı, alnı ağarıb hamarlaşdı, bərbərxanada burulmuş saçlarının qıvrımları bir az açıldı.

Güzgüdən otuzyaşlı Marqaritaya anadangəlmə qıvrım saçları olan, dişlərini ağardaraq gülməkdən uğunub gedən iyirmiyaşlı qadın baxırdı.

Marqarita gülməyini kəsib, bir hərəkətlə xalatı çiynindən atdı və məlhəmdən bir xeyli götürüb bərk-bərk bədəninə sürtməyə başladı. Bədəni gündən yanıbmış kimi dərhal qızardı. Aleksandrov bağındakı görüşdən sonra bütün axşamı ona rahatlıq verməyən gicgahlarındakı ağrı, beynindən iynəni çıxarıblarmış kimi, bir anın içində yox oldu, qollarının, ayaqlarının əzələsi bərkidi, daha sonra Marqarita öz bədəninin ağırlığını hiss etmədi.

O, xalçadan yuxarı tullanıb havadan asılı qaldı, sonra yavaş-yavaş aşağı endi.

– Məlhəmə bax ha! Məlhəmə bax ha! – Marqarita kresloya atılıb qışqırdı.

Məlhəm onun yalnız xarici görkəmini dəyişməmişdi. İndi bədəninin hər hüceyrəsində həyəcan dolu sevinc qaynayıb köpüklənirdi. Marqarita özünü tamam azad hiss etdi. Bundan başqa, bütün aydınlığı ilə başa düşdü ki, məhz hələ səhər ürəyinə daman şey baş verib; o, malikanəni və öz əvvəlki həyatını həmişəlik tərk edir. Ancaq elə əvvəlki həyatından da bir fikir qopdu ki, onu yuxarı, havaya dartan qeyri-adi, yeni nəyəsə başlamazdan öncə son borcunu verməlidir. Və yenə çılpaq vəziyyətdə, hərdən havada süzərək, yataq otağından ərinin kabinetinə qaçdı, işığı yandırıb, yazı stoluna tərəf atıldı. Bloknotdan qopardığı vərəqə karandaşla birnəfəsə iri hərflərlə yazdı:

"Məni bağışla və bacardığın qədər tez unut. Səni həmişəlik tərk edirəm. Boşyerə məni axtarma. Məni məhv edən kədərdən, dərddən ifritəyə çevrildim. Getmək vaxtıdır. Əlvida.

Marqarita".

Ürəyi tam rahatlanan Marqarita yataq otağına uçdu, qucağı şey-şüylə dolu Nataşa da dabanqırma qaçaraq içəri girdi. Dərhal da qucağında nə vardısa, hamısı – taxta asılqana keçirilmiş paltar, krujevalı yaylıqlar, qəlibli, kəmərcikli, göy rəngli ipək tuflilər döşəməyə töküldü və Nataşa yükdən azad olmuş əllərini şappıldatdı.

–Xoşunuza gəlirəm? – Marqarita Nikolayevna kallaşmış səslə qışqırdı.

–Bu nə olan şeydir? – Nataşa geri çəkilə-çəkilə pıçıldadı, – Marqarita Nikolayevna, siz bunu necə eləmisiniz?

–Bunu məlhəm eləyib! Məlhəm, məlhəm, – Marqarita bərq vuran qızıl qutunu göstərərək, güzgünün önündə fırlandı.

Nataşa döşəmədəki əzik paltarları unudub, bədənnüma güzgüyə tərəf qaçdı, parıldayan gözlərini hərisliklə məlhəmin qalığına dikdi. Dodaqlarının altında nəsə pıçıldayırdı. O, yenə Marqaritaya sarı çevrilib pərəstişlə dedi:

–Siz bir dəriyə baxın! Marqarita Nikolayevna, sizin dəriniz işıq saçır.

Ancaq bu yerdə ayılan kimi olub, paltara tərəf qaçdı, onu qaldırıb çırpdı.

–Atın! Atın! – Marqarita onun üstünə çığırdı, – cəhənnəm olsun, hamısını atın! Ancaq yox, onu məndən xatirə olaraq götürün. Deyirəm, xatirə kimi götürün. Otaqdakıların hamısını götürün.

Nataşa yerində donub, bir müddət key-key Marqaritaya baxdı, sonra onun boynundan sallanıb öpə-öpə qışqırdı:

–Atlaz kimidir! İşıq saçır! Atlaz kimidir! Hələ qaşlar, qaşlar!

–Bütün pal-paltarı götürün, ətirləri götürün, sandığınızda gizlədin, – Marqarita qışqırdı, – ancaq qızıllarıma dəyməyin, yoxsa sizi oğurluqda günahlandırarlar.

Nataşa əlinə keçən paltarları, tufliləri, corab və alt paltarlannı düyünçələyib, qaçaraq yataq otağından çıxdı.

– Bu vaxt küçənin qarşı tərəfindəki açıq pəncərələrin hansındansa məharətlə çalınan vals guruldadı və doqqazın ağzında əylənən maşının tırıltısı eşidildi.

–İndi Azazello zəng edəcək! – Marqarita küçəyə yayılan valsı dinləyə-dinləyə ucadan dedi, – o zəng edəcək!

Əcnəbi isə təhlükəsiz adamdır. Hə, mən indi başa düşürəm ki, o, təhlükəsiz adamdır!

Maşın tırıltı ilə darvazadan uzaqlaşdı. Doqqaz çırpıldı və kərpic döşənmiş cığırda addım səsləri eşidildi.

"Bu, Nikolay İvanoviçdir, ayaq səsindən tanıyıram, – Marqarita fikrindən keçirdi, – getməmişdən nəsə çox gülməli, maraqlı bir şey eləmək lazımdır".

Marqarita pərdəni yana çəkib, dizlərini qucaqlayaraq, pəncərənin qabağında yanpörtü oturdu. Ay işığı onun sağ tərəfini işıqlandırmışdı. Marqarita başını aya sarı qaldırıb, düşüncəli və şairanə bir görkəm aldı. Addım səsi iki dəfə də eşidilib qəfil kəsildi. Marqarita ayı bir az da seyr edib, girdiyi rolu davam etdirmək xatirinə köks ötürdü və üzünü bağa döndərib, həmin bu malikanənin aşağı mərtəbəsində yaşayan Nikolay İvanoviçi ay işığında aydınca gördü. Hiss

olunurdu ki, skamyaya qəfildən çöküb. Gözündəki pensnesi yana əyilmişdi, portfelini əlində tutmuşdu.

–A...a, salam, Nikolay İvanoviç, – Marqarita həzin bir səslə dedi, – axşamınız xeyir! İclasdan gəlirsiniz?

Nikolay İvanoviç cavab vermədi.

–Mən isə, – Marqarita bir az da bağa sarı əyildi, – gördüyünüz kimi, tək oturub darıxıram, aya baxıb, valsa qulaq asıram.

Marqarita sol əliylə saçlarına sığal çəkib hirslə dedi:

–Bu nəzakətsizlikdir, Nikolay İvanoviç! Hər halda, mən qadınam! Axı sizinlə danışan adama cavab verməməyiniz kobudluqdur!

Ay işığında boz jiletindəki sonuncu düyməsinə, sivri ağ saqqalındakı sonuncu tükünə qədər görünən Nikolay İvanoviç birdən key-key gülümsəyərək, skamyadan qalxdı, görünür, karıxdığından özünü itirib, şlyapasını çıxartmaq əvəzinə portfelini yellədi və çömbələcəkmiş kimi ayaqlarını qatladı.

–Ax, siz necə darıxdırıcı adamsınız, Nikolay İvanoviç, – Marqarita dedi, – ümumiyyətlə, hamınız məni elə

bezdirmisiniz ki, bunu sözlə deyə bilmirəm, sizlərdən ayrıldığıma görə də özümü çox xoşbəxt hiss edirəm! Əşi, hamınız cəhənnəm olun başımdan!

Bu vaxt yataq otağında telefon cingildədi. Marqarita pəncərənin qabağından tullanaraq, Nikolay İvanoviçi unudub, telefonun dəstəyini qapdı.

–Danışan Azazellodur, – xəttin o ucundakı adam dedi.

–Əzizim, əzizim Azazello! – Marqarita çığırdı.

–Vaxtdır! Uçun, – Azazellonun səsindən hiss olunurdu ki, Marqaritanın sevinci, coşqunluğu ona xoş gəlir, – darvazanın üstündən uçanda deyin: "Görünməzəm!" Öyrəşmək üçün əvvəlcə şəhərin üstündə, sonra isə cənuba uçun, şəhərdən çıxıb çaya doğru istiqamət götürün. Sizi gözləyirlər!

Marqarita dəstəyi asdı, bu vaxt qonşu otaqda nəsə taxta qapıya çırpılmağa başladı. Marqarita qapını açdı və döşəmə süpürən şotka tükləri yuxarıda oynaya-oynaya yataq otağına cumdu. Taxtasını döşəməyə döyəcləyərək, şıllaqlaya-şıllaqlaya pəncərəyə sarı dartındı. Marqarita coşqunluqdan qıyya çəkərək, sıçrayıb şotkanı mindi. Yalnız bu vaxt ağlına

gəldi ki, qarışıqlıqda geyinməyi yadından çıxarıb. Çaparaq çarpayıya sıçrayıb, ilk əlinə keçən mavi gecə köynəyini götürdü. Onu bayraq kimi yelləyib, pəncərədən atıldı. Bağın üzərində vals daha bərkdən guruldadı.

Marqarita pəncərədən aşağı tullanıb, skamyada oturan Nikolay İvanoviçi gördü. O, yerində quruyub, üstdə yaşayan sakinlərin yataq otağından gələn çığırtılara və hay-küyə heyrətlə qulaq asırdı.

–Əlvida, Nikolay İvanoviç! – Marqarita Nikolay İvanoviçin qarşısında oynaya-oynaya qışqırdı.

O ufuldayıb, əlləri ilə skamyadan tuta-tuta süründü və portfelini yerə saldı.

–Əlvida! Mən uçuram, – Marqaritanın qışqırığı valsı batırdı. O, bu yerdə anladı ki, gecə köynəyi ona lazım deyil və məşumcasına qəhqəhə çəkərək, köynəyi Nikolay İvanoviçin başına atdı. Gözləri heç nə görməyən Nikolay İvanoviç skamyadan kərpic döşənmiş cığıra sərildi.

Marqarita uzun müddət əzab çəkdiyi malikanəyə son dəfə baxmaq üçün döndü və gur işıqda heyrətdən sifəti əyilmiş Nataşanı gördü.

–Əlvida, Nataşa! – Marqarita qışqırıb, şotkanı yuxarı dartdı, – görünməzəm, görünməzəm, – o lap bərkdən qışqırdı və üzünə çırpılan ağcaqayın budaqları arasından darvazanı keçib küçəyə uçdu. Daha da coşmuş vals onu müşayiət etdi.

XXI fəsil
UÇUŞ

Görünməzəm, azadam! Görünməzəm, azadam! Marqarita öz küçələrilə uçub, onu kəsən başqa küçəyə adladı. Ağ neftin dolça ilə, parazitlərə qarşı mayenin flakonlarda satıldığı əyri qapılı neft dükanının yerləşdiyi bu yamaqlı, köndələn uzun küçəni bircə anda kəsib keçdi və elə burada anladı ki, hətta tamamilə azad və görünməz olsa da, ləzzət alanda gərək, heç olmasa, bir az ehtiyatlı olsun. Yalnız hansısa möcüzə nəticəsində küncdəki əyilmiş köhnə

fənərə çırpılmadı. Marqarita fənərdən yayınıb, şotkanı bərk-bərk sıxaraq elektrik məftillərinə, səkidə köndələninə asılan lövhələrə baxa-baxa yavaşca uçdu.

Üçüncü küçə birbaşa Arbata aparırdı. Burada Marqarita şotkanı idarə etməyə əməlli-başlı öyrəşdi, bildi ki, əl-ayağın azacıq təmasına belə tabe olur, şəhərin üstü ilə uçanda çox diqqətli olmalıdır və çox da şıltaqlıq etməməlidir. Bundan başqa, artıq küçədə tamamilə aydın oldu ki, yoldan ötənlər onu görmürlər. Heç kim başını qaldırıb, "baxın, baxın!" deyə qışqırmırdı, kənara sıçramırdı, çığırıb özündən getmirdi, dəli kimi qəhqəhə çəkmirdi.

Marqarita çox yavaş və aşağıdan, təxminən, ikinci mərtəbə səviyyəsində səssizcə uçurdu. Ancaq hələ yavaş uçduğu halda, Arbatın gur işıqlandırılan girişində bir az yanıldı və çiyni ox çəkilmiş işıqlı yumru lövhəyə dəydi. Marqarita hirsləndi. Üzüyola şotkanı əyləyib dala çəkildi, sonra lövhəyə tərəf sıçrayıb, şotkanın küpü ilə onu çilik-çilik etdi. Qəlpələr gurultu ilə yerə töküldü, yoldan ötənlər kənara atıldılar, haradasa fit çaldılar, bu lazımsız hərəkəti edən Marqarita isə uğunub getdi. "Arbatda lap ehtiyatlı olmaq

lazımdır, – Marqarita düşündü, – burada elə qarışıqlıqdır ki, çətin baş çıxarasan". O, məftillərin arasından keçməyə başladı. Marqaritadan aşağıda trolleybusların, avtobus və avtomobillərin damları üzürdü, səkiyləsə, Marqaritaya yuxarıdan elə göründü ki, kepkalardan ibarət çay axır. Bu çaydan ayrılan qollar gecə mağazalarının işıqlı ağzına tökülürdü. "Eh, qarışıqlığa bax, – Marqarita hirsləfikirləşdi, – burada qımıldanmağa da imkan yoxdur". O, Arbatı keçib yuxarı, dördüncü mərtəbəyə qədər qalxdı, küncdəki teatr binasının gözqamaşdıran borularının yanından ötüb, hündür binaları olan dar küçəyə buruldu. Binaların pəncərələri açıq idi, hamısından radioda verilən musiqi eşidilirdi. Maraq xatirinə Marqarita pəncərələrin birindən boylandı. Mətbəx gördü. İki primus gurultu ilə yanırdı, onların yanında əllərində qaşıq olan iki qadın ağızlaşırdı.

–Pelageya Petrovna, sizə deyirəm ki, tualetdən çıxanda işığı söndürmək lazımdır, – ağzından buğ çıxan yemək qazanının qarşısındakı qadın deyinirdi, – yoxsa sizin köçürülməyinizi tələb edəcəyik!

–Özünüz elə çox yaxşısınız, – o biri qadın cavab verdi.

–Hər ikiniz yaxşısınız, – pəncərədən mətbəxə keçən Marqarita ucadan dedi. Ağızlaşan qadınların ikisi də səsədönüb, əllərində bulaşıq qaşıq quruyub qaldılar. Marqarita əlini onların arasından ehtiyatla uzadaraq, hər iki primusun kranını burub keçirdi. Qadınların heyrətdən ağızları açıla qaldı. Marqarita isə mətbəxdə dayanmaqdan bezib küçəyə uçdu.

Küçənin sonunda onun diqqətini yenicə tikilmiş əzəmətli, gözəl səkkizmərtəbəli bina çəkdi. Marqarita aşağı enəndə gördü ki, binanın fasadına qara mərmərdən üzlük çəkilib, qapıları enlidir, qapı şüşəsinin arxasından qapıçının qızılı baftalı furajkası və düymələri görünür, qapının üstünə isə qızlı hərflərlə "Dramlit[26] Evi" yazılıb.

Marqarita gözlərini yazıya zilləyib, "Dramlit" sözünün nə demək olduğunu anlamağa çalışdı. Şotkanı qoltuğuna vurdu, qapını itələyib, qapıçını təəccübləndirərək içəri girdi və liftin böyründəki divarda iri qara lövhəni, bu lövhədə mənzillərin ağ hərflərlə yazılmış nömrələrini, sakinlərin

[26]Qısaldılmış: dramaturq və ədəbiyyatçılar (rus.)

soyadlarını gördü. Siyahının başında yazılan "Dramaturq və Ədəbiyyatçılar Evi" Marqaritanı nərildəməyə məcbur etdi. Havada bir az yuxarı qalxıb, acgözlüklə soyadları oxumağa başladı: Xustov, Dvubratski, Kvant, Beskudnikov, Latunski...

–Latunski! – Marqarita çığırdı. – Latunski! Bu ki odur! Masteri o məhv edib.

Qapıçı gözlərini bərəldərək, hətta təəccübündən hoppanıb qara lövhəyə baxdı, baş verən möcüzəni, sakinlərin siyahısının niyə çığırdığını anlamağa çalışdı.

Marqarita isə bu vaxt pilləkənlə sürətlə qalxaraq, ləzzətlə təkrar edirdi:

– Latunski – səksən dörd... Latunski – səksən dörd...

Budur, solda – 82, sağda – 83, bir az yuxarıda, solda – 84. Buradır. Bu da qapının üstündəki yazılı lövhəcik – "O. Latunski".

Marqarita sıçrayıb şotkadan düşdü və daş meydança ayaqlarının altını xoşhallıqla sərinlətdi. Zəngi bir neçə dəfə basdı. Ancaq heç kim qapını açmadı. Marqarita düyməni bərk-bərk basmağa başladı və Latunskinin mənzilində

səslənən zəngi özü eşitdi. Bəli, 84 №-li mənzilin sakini ölənəcən mərhum Berlioza minnətdar olmalı idi ki, Massolitin sədri tramvayın altına düşmüşdü və dəfn komissiyasının iclasını məhz bu axşama təyin etmişdilər. Tənqidçi Latunski xoşbəxt ulduz altında doğulmuşdu. Həmin ulduz onu bu cümə günü ifritəyə çevrilmiş Marqarita ilə görüşdən xilas etmişdi.

Heç kim qapını açmadı. Onda Marqarita birnəfəsə aşağı cumdu, mərtəbələri saya-saya uçub küçəyə çıxdı, yuxarı baxaraq Latunskinin pəncərəsinin məhz hansı olduğunu bilmək üçün mərtəbələri bayırdan saydı. Şübhəsiz ki, səkkizinci mərtəbənin küncündəki beş qaranlıq pəncərə onunku idi. Marqarita buna əmin olub, bir neçə saniyə sonra uçaraq açıq pəncərədən ayın gümüşü cığır saldığı qaranlıq otağa girdi. Marqarita bu cığırla qaçıb, işıq düyməsini əl havasına axtardı. Bir dəqiqədən sonra bütün mənzil işıqlanmışdı. Şotka bir küncdə dururdu. Evdə heç kimin olmadığına inanıb, Marqarita çöl qapısını açdı, qapının üstündəki lövhənin yerində olub-olmadığını yoxladı.

Lövhə yerində idi, Marqarita lazım olan yerə gəlmişdi.

Hə, deyilənə görə, bu dəhşətli axşamı xatırlayanda hələ də tənqidçi Latunskinin rəngi ağarır və hələ də Berliozun adını ehtiramla çəkir. Bu axşamın hansı iyrənc, qatı cinayətlə yadda qalacağı qətiyyən məlum deyildi – mətbəxdən qayıdanda Marqaritanın əlində ağır çəkic var idi.

Çılpaq və gözəgörünməz Marqarita özünü zorla saxlayırdı, səbirsizlikdən əlləri əsirdi. O, dəqiq nişan ahb, royalındillərinə çəkiclə zərbə vurdu və ilk yanıqlı fəryad bütün mənzilə yayıldı. Heç bir günahı olmayan bekker[27] kabinet aləti hiddətlə qışqırdı. Toxmacıqlar xıncım-xıncım oldu, sümük dillər ətrafa səpələndi. Alət uğuldayır, ulayır, xırıldayır, cingildəyirdi. Çəkicin zərbəsindən royalın cilalanmış üst taxtası partıltıyla qopdu. Marqarita tövşüyə-tövşüyə çəkiclə simləri əzib qoparırdı. Nəhayət, yorularaq nəfəs dərmək üçün kresloya sərildi.

Vanna otağında və mətbəxdə su bərk uğuldayırdı. "Deyəsən, artıq döşəməyə tökülür", – Marqarita düşünüb ucadan əlavə etdi:

[27]David Bekker – royal istehsal edən firmanın qurucusu

– Ancaq oturmaq vaxtı deyil.

Artıq mətbəxdən dəhlizə sel axırdı. Marqarita yalın ayaqlarını suda şappıldada-şappıldada mətbəxdən suyu vedrələrlə tənqidçinin kabinetinə daşıyıb, yazı stolunun siyirmələrinə tökürdü. Sonra həmin kabinetdəki dolabın qapılarını çəkiclə qırıb, yataq otağına cumdu. Şüşəli şkafı sındıraraq, tənqidçinin kostyumunu çıxarıb vannaya soxdu. Kabinetdən götürdüyü dolu mürəkkəb qabını yataq otağındakı səliqə ilə yığılmış ikinəfərlik çarpayıya boşaltdı.

Vurub-dağıtmaqdan hədsiz ləzzət alırdı, ancaq ürəyi yenə sakitləşmirdi.

Buna görə nə gəldi eləməyə başladı. Royal olan otaqdakı fikus dibçəklərini vurub sındırdı. Bunu axıra çatdırmamış yataq otağına qayıdıb, mətbəx bıçağı ilə döşək ağlarını doğradı, şüşəli fotoşəkli çiliklədi. Yorğunluq hiss eləmirdi, yalnız tər canından su kimi axırdı.

Bu vaxt Latunskinin mənzilinin altındakı 82 №-li mənzildə dramaturq Kvantın ev qulluqçusu mətbəxdə çay içə-içə yuxandan eşidilən səs-küyün, vurnuxmanın səbəbini tapmaq üçün baş sındınrdı. Baxışlarını tavana doğru

qaldıranda gördü ki, tavan gözü qarşısında öz ağ rəngini dəyişib, göyümtül rəng alır. Ləkələr gözü görə-görə böyüdü və birdən damcılar əmələ gəldi. Qulluqçu bu hadisəyə məəttəl qalıb, tavandan su döşəməyə yağış kimi tökülənə qədər iki dəqiqə beləcə oturdu. Sonra yerindən sıçrayıb, su şırnağının altına ləyən qoydu, ancaq bu heç kömək etmədi, çünki yağış artıb qaz pilətəsinə, qab-qacaq stoluna tökülməyə başlamışdı. Onda Kvantın ev qulluqçusu qışqırıb, pilləkənə qaçdı, dərhal da Latunskinin mənzilində zəng çalmağa başladı.

–Hə, zəngi çaldılar, getmək vaxtıdır, – Marqarita dedi. Qadının açar deşiyindən necə qışqırdığını eşidə-eşidə şotkaya mindi.

–Açın, açın! Dusya, aç! Sizdənmi su axır? Bizi batırdı.

Marqarita bir metr yuxarı qalxıb, çəkiclə çilçırağailişdirdi. İki lampa partladı, asmalar ətrafa səpələndi. Açar deşiyindəki qışqırıq kəsildi, pilləkəndə tappıltı eşidildi. Marqarita pəncərədən keçib, çöl tərəfdə dayandı, yüngülcə qolaylanıb çəkici şüşəyə çırpdı. Şüşə çilikləndi və qırıntılar divara çəkilmiş mərmərin üzüylə

dalğa-dalğa aşağı axdı. Marqarita növbəti pəncərəyə keçdi. Lap aşağıda adamlar səkiylə qaçışırdılar, binanın girişində dayanan maşınlardan biri tırıldayıb getdi. Latunskinin pəncərələriylə haqq-hesab çəkib, Marqarita qonşu mənzilə adladı. Birinci girişdən çıxan qapıçı yuxarı boylandı, bir az tərəddüd elədi, görünür, nə etmək lazım olduğunu dərhal kəsdirmədiyindən, fiti ağzına soxub bərkdən çaldı. Marqarita bu fitin sədalarıaltında səkkizinci mərtəbədəki sonuncu pəncərə şüşəsini böyük həvəslə çilikləyib, yeddinci mərtəbəyə endi və onun şüşələrini sındırmağa başladı.

Girişin güzgülü qapısı arxasında bikar dayanmaqdan bezmiş qapıçı bütün gücünü fitə vermişdi, özü də, elə bil, Marqaritaya züy tuturdu. Marqaritabir pəncərədən o birinə uçduğu vaxt yaranan fasilədə qapıçı güc yığırdı, onun hər zərbəsində isə yanaqlarını şişirdib, öz fiti ilə gecənin bağrını dəlirdi.

Onun səyi hirslənmiş Marqaritanın səyilə bir yerdə böyük nəticələr verdi. Binaya çaxnaşma düşmüşdü. Hələ bütöv olan pəncərələr açılır, adamların başı görünüb, tez də yoxa çıxırdı, açıq pəncərələr isə, əksinə, bağlanırdı. Qarşı

tərəfdəki binaların işıqlı pəncərələri fonunda Dramədəbin yeni binasındakı pəncərələrin durduğu yerdə niyə sındığını anlamağa çalışan adamların qaraltısı görünürdü.

Camaat küçə ilə Dramədəbin binasına tərəf qaçırdı, binanın içində isə heç nə anlamayan adamlar pilləkənlə üzüaşağı yüyürürdülər. Kvantın ev qulluqçusu qaçışanlara qışqırırdı ki, onlann evinə su axır. Tezliklə ona Kvantın mənzilinin altında yaşayan 80 №-li mənzilin yiyəsi Xustovun qulluqçusu da qoşuldu. Xustovlarda su mətbəxin və tualetin tavanından axırdı. Nəhayət, Kvantların mətbəxinin tavanından çox böyük suvaq qatı qoparaq, bütün çirkli qabları sındırdı, sonra əməllicə sel axdı: sallanmış yaş, dama-dama çilləkənlərdən, elə bil, vedrə ilə su tökürdülər. Bu vaxt birinci girişin pilləkənlərində qışqırıq qopdu. Dördüncü mərtəbənin sondan əvvəlki pəncərəsi önündən uçanda Marqarita içəri boylandı və karıxdığından başına əleyhqaz keçirmiş adamı gördü. Marqarita çəkiclə şüşəni tıqqıldadıb onu qorxutdu və həmin adam otaqdan yoxa çıxdı.

Bu vəhşicəsinə dağıntı qəfil dayandı. Üçüncü mərtəbədən sürüşüb keçən Marqarita tünd rəngli nazik pərdə asılmış küncdəki otağa boylandı. Otaqda stolüstü lampa zəifcə yanırdı. Məhəccərli balaca çarpayıda, təxminən, dörd yaşında bir oğlan uşağı oturub, qorxa-qorxa ətrafı dinşəyirdi. Otaqda böyüklərdən kimsə yox idi. Görünür, hamı evdən qaçmışdı.

–Pəncərələri sındırırlar, – deyib oğlan çağırdı: – Ana!

Heç kim cavab vermədi.

–Ana, mən qorxuram.

Marqarita pərdəni yana çəkib, pəncərədən içəri uçdu.

–Mən qorxuram, – oğlan titrəyirdi.

–Qorxma, qorxma, balaca, – Marqarita küləkdən xırıldayan səsini bir az yumşaltmağa çalışdı, – uşaqlar pəncərə sındırırdılar.

–Quşatanla? – oğlan titrəməyini kəsib soruşdu.

–Quşatanla, quşatanla, – Marqarita təsdiqlədi, – sən yat!

–Bu, Sitnikin işidir, – oğlan dedi, – onun quşatanı var.

–Əlbəttə, odur!

Oğlan bic-bic kənara baxıb soruşdu:

–Bəs sən haradasan, xala?

–Mən yoxam, – Marqarita cavab verdi, – mən sənin yuxuna girmişəm.

– Mən elə də fikirləşirdim, – oğlan dedi.

–Sən uzan, – Marqarita təpindi, – əlini başının altına qoy, mənsə yuxuna girəcəyəm.

–Hə, yuxuma gir, yuxuma gir, – uşaq razılaşdı və dərhal uzanıb, əlini başının altına qoydu.

–Mən sənə nağıl danışacağam, – Marqarita isti əllərini uşağın qırxılmış başına qoydu, – biri var idi, biri yox idi, dünyada bir xala var idi. Onun uşağı yox idi, o heç xoşbəxt də deyildi. O, əvvəlcə çoxlu-çoxlu ağladı, sonra qəddar oldu... – Marqarita susub əlini çəkdi – uşaq yatmışdı.

Marqarita çəkici sakitcə pəncərənin qabağına qoyub uçdu. Binanın ətrafında qarmaqarışıqlıq idi. Şüşə qırıqları səpələnmiş asfalt səkiylə adamlar ora-bura qaçıb qışqırırdılar. Artıq onların arasında milisionerlər gözə dəyirdi. Qəfildən zəng səsi eşidildi və Arbatdan küçəyə pilləkənli qırmızı yanğınsöndürən maşın girdi...

Sonrası daha Marqarita üçün maraqlı deyildi. Məftillərə toxunmamaq üçün dəqiq hesablayıb, şotkanı bərk-bərk sıxdı və bir göz qırpımında başıbəlalı binadan hündürə qalxdı. Altındakı küçə yana əyilib, aşağı yuvarlandı. Onun əvəzində küncləri parıldayan cığırlarla kəsişən bir yığın dam peyda oldu. Qəfildən binaların hamısı yana getdi və zəncirvari işıq yayılıb qarışdı.

Marqarita bir sıçrayış da etdi, onda damların hamısı harasa itdi, əvəzində aşağıda sayrışan işıq dənizi peyda oldu və bu dəniz birdən dik qalxıb, Marqaritanın başı üzərində göründü, ayaqları altında isə ay parıldadı. Kəlləmayallaq durduğunu başa düşüb adi vəziyyət aldı və döndü ki, artıq dəniz də yoxdur, arxada yalnız üfüq qızarır. Bu qızartı da bir an sonra itdi və Marqarita sol tərəfdə, ondan yuxarıda uçan ayla tək qaldığını gördü. Marqaritanın saçları çoxdan pırtlaşmışdı, ay işığı isə vıyıltı ilə onun bədənini yuyurdu. Aşağıdakı iki seyrək işıq cərgəsinin iki işıqlı xəttə çevrilməsindən, onların arxada göz qırpımında itməsindən Marqarita başa düşdü ki, son dərəcə böyük sürətlə uçur və təngnəfəs olmadığına heyrətləndi.

Bir neçə saniyə keçəndən sonra lap aşağıda, zülmətdə yeni işıq dənizi alışıb, onun ayaqları altına sərildi, ancaq dərhal da fırlanaraq yoxa çıxdı. Daha bir neçə saniyə keçdi – yenə bu cür hadisə təkrar olundu.

–Şəhərlər! Şəhərlər! – Marqarita qışqırdı.

Bundan sonra iki-üç dəfə qara qınında işıldayan qılınc gördü və bunların çay olduğunu anladı.

Marqarita başını yuxarı və sola döndərərək, ayın dəli kimi geri, Moskvaya tərəf çapdığına tamaşa eləyirdi. Ay, eyni zamanda, qəribə bir tərzdə yerində dayanmışdı, onun üstündə uzunsov sifəti tərk edilmiş şəhərə doğru olan, əjdahaya, ya qozbel ata oxşayan qəribə bir şey aydınca görünürdü.

Bu yerdə Marqaritanın ağlından keçdi ki, əslində, şotkanı çox nahaq belə bərk qovur, ətrafına doyunca baxmaqdan, uçuşdan ləzzət almaqdan özünü məhrum edir. Ürəyinə dammışdı ki, orada, uçduğu yerdə onu gözləyəcəklər və bu dəlisov sürətdən, yüksəklikdən bezməyə dəyməz.

Marqarita şotkanı aşağı əydi, sürəti azaldıb yerə tərəf istiqamət götürdü. Aşağıya doğru bu uçuş kirşə ilə sürüşürmüş kimi ona xeyli ləzzət verdi. Yer yuxarı qalxdıqca qaranlığın sirləri, gözəllikləri aylı gecədə onun üçün açılırdı. Yer ona sarı gəlirdi və yaşıllaşan meşələrin qoxusu artıq Marqaritanı bürüyürdü. Marqarita şehli biçənəklərin dumanı üstündən, sonra gölün üstündən uçdu. Ondan aşağıda qurbağalar xorla quruldayırdı, haradasa uzaqda isə qatar taqqıltı salaraq gedirdi və nəyə görəsə bu səs onun ürəyini titrədirdi. Marqarita tezliklə qatarı gördü. O, havaya qığılcım səpələyərək, tırtıl kimi sürünürdü. Marqarita onu ötüb, üzündə ay güzgülənən daha bir gölü ayağından aşağıda qoyub keçdi, bir az da enib, ayaqları, az qala, şam ağaclarının başına toxuna-toxuna uçdu.

Arxadan eşidilən vıyıltı səsi Marqaritanı haqlamağa başladı. Mərmi kimi uçanın səs-küyünə çox uzaqlara yayılan qadın qəhqəhəsi də qarışdı. Marqarita geri baxdı və nəyinsə ona yaxınlaşdığını gördü. Get-gedə həmin şey aydınlaşdı, məlum oldu ki, kimsə nəyinsə üstündə uçur. Nəhayət, o,

tamam göründü: Marqaritaya çatan Nataşa sürətini yavaşıtdı.

Pırtlaşıq saçları havada uçuşan çılpaq Nataşa, qabaq ayaqlarıyla portfeli sıxıb, dal ayaqlarıyla havanı döyəcləyən kök axta donuzu minmişdi. Burnundan sürüşüb qaytanından sallanan pensnesi hərdən ay işığında parıldayaraq axta donuzun böyrüncə uçurdu, şlyapası gahdanbir gözünün üstünə düşürdü. Marqarita diqqətlə baxıb, axta donuzun Nikolay İvanoviç olduğunu gördü və onun qəhqəhəsi Nataşanın qəhqəhəsinə qarışıb meşənin üstündə guruldadı.

– Nataşka! – Marqarita çığırdı, – özünə məlhəm sürtmüsən?

–Əzizim! – Nataşanın qışqırığı yatmış şam meşəsini oyadırdı. – Mənim fransız kraliçam, onun keçəlinə də sürtmüşəm!

–Şahzadə! – üstündəki qadını dördnala çaparaq aparan axta donuz ağlamsına-ağlamsına bağırdı.

–Əzizim! Marqarita Nikolayevna! – Nataşa Marqarita ilə yanaşı çapıb qışqırırdı. – Boynuma alıram, məlhəmi götürmüşəm! Axı biz də yaşamaq, uçmaq istəyirik! Məni

bağışlayın, məlikə, mən qayıtmayacağam, dünyasında qayıtmaram! Ah, nə yaxşıdır, Marqarita Nikolayevna!.. Bu gör... – Nataşa tövşüyən, utanıb gözlərini gizlədən axta donuzun peysərini dürtmələdi, – mənə nə təklif edib! Sən məni necə adlandırırdın, hə? – əyilib axta donuzun qulağına qışqırdı.

–İlahə! – o böyürdü. – Mən belə sürətlə uça bilmirəm! Əhəmiyyətli kağızları itirə bilərəm. Natalya Prokofyevna, mən etiraz edirəm.

–Cəhənnəm ol kağızlarınla bir yerdə! – Nataşa qəhqəhə çəkib kobudcasına qışqırdı.

–Bu nə sözdür, Natalya Prokofyevna! Bizi eşidən olar! – axta donuz yalvardı.

Nataşa onunla yanaşı çaparaq, Marqarita uçub gedəndən sonra malikanədə nə baş verdiyini gülə-gülə danışdı.

Nataşa etiraf etdi ki, bağışlanan şeylərin heç birinə toxunmadan paltarı əynindən çıxarıb və məlhəmi tez-tələsik bədəninə sürtüb. Xanımın başına gələn onun da başına gəlib. Sevincindən gülərək güzgü qarşısında öz füsunkar

gözəlliyindən ləzzət aldığı vaxt qapı açılıb və Nataşanın önündə Nikolay İvanoviç peyda olub. O həyəcanlıymış, əlində Marqarita Nikolayevnanın köynəyini və öz şlyapasını, portfelini tutubmuş. Nataşanı görəndə Nikolay İvanoviç yerindəcə quruyub. Özünü toplayıb xərçəng kimi qızarmış halda deyib ki, köynəyi şəxsən gətirməyi özünə borc bilib...

–Nə deyirdin, yaramaz! – Nataşa ciyildəyir, uğunub gedirdi. – Nə deyirdin, nəylə başımı aldatmaq istəyirdin! Nə qədər pul vəd eləyirdin! Deyirdi, Klavdiya Petrovna heç nə bilməyəcək. Nədir, yoxsa yalan danışıram? – Nataşa axta donuzun üstünə qışqırırdı, o isə pərtliklə üzünü yana döndərirdi.

Nataşa yataq otağında şıltaqlıq eləyib Nikolay İvanoviçə də məlhəm sürtmüşdü və heyrətdən çaşıb qalmışdı. Aşağı mərtəbədə yaşayan hörmətli sakinin sifətindən donuz burnu çıxmışdı, əli, ayaqları dırnağa çevrilmişdi. Nikolay İvanoviç güzgüdə mat-mat özünə baxıb ümidsizcəsinə ulamışdı, ancaq artıq gec idi. Bir neçə saniyə

sonra dərddən hönkürə-hönkürə belində Nataşa harasa, Moskvadan kənara uçurdu.

– Əvvəlki görkəmimin qaytarılmasını tələb edirəm! – Birdən axta donuz yarıqəzəb, yarıyalvarışla xortuldadı.

–Mən qanunsuz yığıncağa uçmaq fikrində deyiləm! Marqarita Nikolayevna, öz qulluqçunuzu yola gətirmək sizin borcunuzdur.

–Ax, mən indi sənin üçün ev qulluqçusu oldum? Ev qulluqçusu? – Nataşa axta donuzun qulağını çimdiklədi. – Bəs ilahə deyildim? Sən məni necə adlandırırdın?

– Venera! – daşların arasından qıjıltıyla axan çayın üstündən uçanda dırnağı fındıq kollarına toxunan axta donuz ağlamsına-ağlamsına cavab verdi.

–Venera! Venera! – Nataşa bir əlini belinə qoyub, o biri əlini aya uzadaraq qalib kimi qışqırdı. – Marqarita! Kraliça! Xahiş elə, mən də ifritə kimi qalım! Sizin sözünüzü eşidərlər, sizə hakimiyyət verilib!

Marqarita razılaşdı.

–Yaxşı, söz verirəm!

–Sağ ol! – Nataşa ucadan dedi və birdən kobudcasına, həm də nə üçünsə qüssəylə qışqırdı: – Hey! Hey! Tez! Tez! Di bərkit görüm! – Axta donuzun dəli kimi çapılmaqdan batmış böyürlərini dabanları ilə sıxdı və o, elə sıçradı ki, bir an sonra Nataşa irəlidə qara nöqtə kimi görünürdü, sonra isə gözdən tamam itdi, havadakı uğultu da əriyib yoxa çıxdı.

Marqarita tanımadığı boş, naməlum yerlərin, iri şam ağaclarının arasından dikələn qayalıqların üstüylə yenə əvvəlki kimi yavaş-yavaş uçurdu. Ona elə gəlirdi ki, Moskvadan çox-çox uzaqlardadır. Şotka artıq aşağıdan, gövdəsinin bir tərəfi ayın gümüşü rənginə boyanan şam ağaclarının arası ilə uçurdu. Marqaritanın kölgəsi torpağın üstü ilə ondan irəlidə süzürdü – indi ay Marqaritanı arxadan işıqlandırırdı.

Marqarita suyun yaxında olduğunu hiss edib başa düşdü ki, hədəf yaxındadır. Şam ağacları geridə qaldı və Marqarita sakitcə tabaşirli yarğana yaxınlaşdı. Yarğandan aşağıda, kölgədə çay axırdı. Duman sıldırımdakı kollardan yapışıb sallanmışdı, qarşı sahil isə ovalıq idi. Ayrıca bitmiş bir topa qollu-budaqlı ağacın altında ocaq işarırdı, vurnuxan

qaraltılar gözə dəyirdi. Marqaritaya elə gəldi ki, ürəkaçan, şən musiqi sədaları eşidilir. Göz işlədikcə uzanan gümüş çöldə nə bir ev, nə bir adam görünürdü.

Marqarita uçurumdan tullanıb cəld çayın kənarına endi. Uçuşdan sonra su onu özünə çəkirdi. Şotkanı atıb qaçaraq suya baş vurdu. Bədəni ox kimi suya sancıldı, su, az qala, aya qədər sıçradı. Hamamda olduğu kimi su isti idi, Marqarita suyun üzünə çıxıb, gecənin tənhalığında doyunca üzdü.

Marqaritanın yaxınlığında heç kim yox idi, ancaq bir az aralıda kolların arxasından şappıltı, fınxırtı eşidilirdi, orada da kimsə çimirdi.

Marqarita sahilə qaçdı. Çimməndən sonra bədəni alışıb-yanırdı. Heç bir yorğunluq hiss etmirdi və şehli çəmənlikdə şən-şən oynayırdı. Birdən oynamağı dayandırıb qulaq kəsildi. Fınxırtı yaxınlaşırdı və keçisöyüdü kollarının arxasından qara ipək silindri peysərinə sürüşmüş çılpaq gonbul adam çıxdı. Dabanları lilə batdığından, elə bil, qara çəkmə geyinmişdi. Tövşüməyindən, hıçqırmağından

əməllicə içdiyi bilinirdi, çayın birdən konyak qoxusu verməsi də bunu təsdiqlədi.

Gonbul onu diqqətlə süzüb sevincək bağırdı:

–Baho! Kimi görürəm! Klodina, bu ki sənsən, ruhdan düşməyən dul qadın! Sən də buradasan? – O, salamlaşmaq üçün qabağa yeridi.

Marqarita geri çəkilib, ona layiqli cavab verdi:

–Rədd ol cəhənnəmə! Mən haradan Klodina oldum?! Bax gör kiminlə danışırsan, – və ani götür-qoydan sonra öz çıxışına uzun-uzun ədəbsiz söyüşlər əlavə etdi. Bu da dəmdəməki gonbulu ayıltdı.

–Oy! – diksinib astadan qışqırdı. – Alicənabhq edib bağışlayın, təmiz qəlbli kraliça Marqo! Mən yanılmışam. Günah konyakdadır, lənətə gəlsin onu! – Gonbul bir dizini yerə qoydu, silindrini yana aparıb təzim etdi, rus sözlərini fransızcaya qarışdıraraq, Parisdəki dostu Gessarın qanlıtoyundan, konyakdan və etdiyi bağışlanmaz səhvə görə üzüldüyündən uzun bir sicilləmə qırıldatdı.

– Köpək oğlu, heç olmasa, şalvarını geyin, – Marqarita yumşalaraq dedi.

Marqaritanın hirslənmədiyini görüb, gonbul dişlərini ağartdı və bura gəlməzdən əvvəl çimdiyi Yenisey çayında yaddan çıxartdığı üçün hazırda şalvarsız qaldığını coşqunluqla xəbər verdi, intəhası, indi oraya uçur, xoşbəxtlikdən, lap yaxındadır və sonra onun etibarını, himayəsini qazanmaq istəyərək geri-geri getdi, o qədər ki, axırda ayağı sürüşüb arxası üstə suya düşdü. Ancaq yıxılanda da kiçik bakenbardlarının haşiyələdiyi sifətində heyranlıq və sadiqlik dolu təbəssümünü qoruyub saxladı.

Marqarita isə bərkdən fit çaldı və uçub gələn şotkaya minib qarşı sahilə keçdi. Tabaşir dağının kölgəsi bura çatmırdı, bütün sahil ay işığına qərq olmuşdu.

Marqaritanın ayağı şehli çəmənliyə toxunan kimi pişpişi ağaclarının altından gələn musiqi daha bərkdən səsləndi, ocaqdan daha gur qığılcım topası səpələndi. Zərif, tüklü sırğaları sallanan pişpişi ağacının altında ovurdu havayla dolu qurbağalar ay işığında iki cərgə düzülüb, rezin kimi şişərək tütəkdə təmtəraqlı marş çalırdılar. Söyüd ağacının musiqiçilərin qarşısında sallanan çubuqlarından

asılı çürümüş yarpaqların işıltısı notu işıqlandırırdı, ocağın solğun işığı qurbağaların ağzında oynaşırdı.

Marş Marqaritanın şərəfinə çalınırdı. Onun üçün ən təntənəli qəbul təşkil edilmişdi. Şəffaf su pəriləri xor oxumaqlarını dayandırıb, yosunlarla Marqaritaya əl elədilər, onların salamları kimsəsiz yaşılımtıl sahildən uzaqlara yayıldı. Çılpaq ifritələr pişpişi ağacının arxasından sıçrayıb cərgəyə düzüldülər, sarayda olduğu kimi dizlərini büküb baş əydilər. Keçiayaq birisi uçub gələrək onun əlini öpdü, otluğa ipək parça salıb xəbər aldı ki, kraliça yaxşımı çimib və ona uzanıb dincəlməyi təklif etdi.

Marqarita deyilən kimi də etdi. Keçiayaq ona bir qədəh şampan şərabı verdi, Marqarita şərabı içən kimi canı isindi. O, keçiayaqdan Nataşanı xəbər alıb öyrəndi ki, Nataşa artıq çimib və Marqaritanın tezliklə gələcəyini xəbər vermək, ondan ötrü paltar hazırlamağa kömək etmək üçün öz axta donuzunun üstündə irəli, Moskvaya uçub.

Marqaritanın pişpişi ağaclarının altında olduğu qısa vaxt bir hadisəylə yadda qaldı. Havada vıyıltı eşidildi və qara bir şey, çox şübhəsiz ki, yanılaraq çaya düşdü. Bir neçə

saniyə keçmiş o biri sahildə özünü uğursuz təqdim eləyən həmin bakenbardlı gonbul Marqaritanın qarşısında dayandı. O, görünür, Yeniseyə dəyməyə macal tapmışdı, çünki əynində frak var idi, ancaq təpədən-dırnağa islanmışdı. Konyak ikinci dəfə onu pis günə qoymuşdu: enəndə yenə suya düşmüşdü. Di gəl bu acınacaqlı hadisə zamanı da öz təbəssümünü itirməmişdi və Marqarita gülərək ona əlini öpməsinə icazə verdi.

Sonra hamı yığışmağa başladı. Su pəriləri öz rəqslərini axıra çatdırıb, ay işığında əriyib yoxa çıxdılar. Keçiayaq Marqaritanın çaya nəylə gəldiyini ehtiramla xəbər aldı. Şotkanın üstündə gəldiyini biləndə dedi:

– A-a, nə üçün, belə yaramaz, – bir anın içində iki çubuqdan, guya, telefon düzəldib, kimdənsə tələb etdi ki, elə bu dəqiqə maşın göndərsin və doğrudan da, həmin dəqiqə bu tələb yerinə yetirildi. Adaya göydən üstüaçıq maşın düşdü, ancaq sürücünün yerində başına dama-dama furajka qoymuş, əlinə genboğaz əlcək geyinmiş, dimdiyi uzun qara zağca oturmuşdu. Ada boşalırdı. Uçub gedən ifritələri ayın hərarəti əritdi. Ocaq sönmüş, yerində boz külü qalmışdı.

Bakenbardlı ilə keçiayaq Marqaritanı maşına mindirdilər. O, geniş arxa oturacaqda əyləşdi. Maşın uğuldadı, tullandı və az qala, aya qədər qalxdı. Ada, çay gözdən itdi, Marqarita Moskvaya üz tutdu.

XXII fəsil
ŞAM İŞIĞINDA

Yerdən çox yüksəkdə uçan maşının rəvan uğultusu Marqaritaya yuxu gətirirdi, ay işığı isə ləzzətlə canını qızdırırdı. Gözlərini yumub sifətini küləyə tutmuşdu və bir daha görməyəcəyi çay qırağını qüssəylə xatırlayırdı. Bu axşamkı möcüzələrdən, sehrbazlıqlardan sonra artıq kimə qonaq getdiyini başa düşürdü, ancaq bundan qorxmurdu. Oradaöz xoşbəxtliyini qaytara biləcəyinə olan ümidi ona cəsarət vermişdi. Amma bu xoşbəxtlik barədə xəyallara çox dala bilmədi. Zağcamı işinin ustası idi, maşınmı yaxşı idi, Marqarita bir də gözünü açıb aşağıda meşənin zülmətini

yox, Moskvanın titrəşən işıq dənizini gördü. Sürücü qara quş sağ qabaq təkəri göydə açıb, maşını Doroqomilov rayonundakı kimsəsiz bir qəbiristanlığa endirdi.

Zağca heç nə soruşmayan Marqaritanı şotkası ilə birlikdə hansısa başdaşının yanında düşürüb, maşını qəbiristanlığın arxasındakı dərəyə buraxdı. Maşın gurultuyla dərəyə yuvarlanıb darmadağın oldu. Zağca əlini gicgahına aparıb hərbi qaydada ehtiramla salam verdi və təkəri minərək uçdu.

Həmin saat abidələrin birinin dalından qara plaş göründü. Köpək dişi ay işığında parıldadı və Marqarita Azazellonu tanıdı. O, əlinin işarəsiylə Marqaritanı şotkanı minməyə dəvət elədi, özü isə uzun rapiraya sıçradı, hər ikisi göyə qalxıb, heç kimin gözünə görünmədən bir neçə saniyə sonra Sadovaya küçəsindəki 302-bis №-li binanın yanında endilər.

Yol yoldaşları qoltuqlarında şotka və rapira darvazadan keçəndə Marqarita, yəqin ki, kimisə gözləyən uzunboğaz çəkmə geyinmiş, kepkalı yorğun bir adam gördü. Azazello ilə Marqarita nə qədər asta yerisələr də, bu yalqız adam

addım səslərini eşidib, onların kimə aid olduğunu anlamadan narahat halda döyükdü.

Heyrətli dərəcədə əvvəlkinə oxşayan ikinci adamla binanın altıncı girişində rastlaşdılar. Eyni əhvalat yenə təkrar olundu. Addımlar... Adam narahat halda çevrilib sifətini turşutdu. Qapı açılıb-örtüləndə isə gözəgörünməzlərin arxasınca cumub girişə boylandı, ancaq əlbəttə, heç kimi görmədi.

İkinci adamın, bəlkə, elə ondan əvvəlkinin də dəqiq oxşarı üçüncü mərtəbənin meydançasında növbə çəkirdi. O, tünd papiros tüstülədirdi. Marqarita onun yanından keçəndə öskürdü. Papiros çəkən adam iynə batırıblarmış kimi skamyadan sıçrayıb döyükdü, məhəccərə yaxınlaşıb aşağı baxdı. Marqarita bu vaxt öz müşayiətçisilə artıq 50 №-li mənzilin qarşısında idi. Zəngi basmadılar, Azazello öz açarıyla qapını səssizcə açdı.

Marqaritanı ilk olaraq düşdüyü zülmət heyrətləndirdi. Zirzəmi kimi qaranlıq idi. O, büdrəməkdən qorxub qeyri-ixtiyari Azazellonun plaşından yapışdı. Bu vaxt uzaqda, yuxarıda çıraq işığı titrəyib yaxınlaşmağa başladı. Azazello

gedə-gedə Marqaritanın qoltuğundan şotkanı çıxartdı və şotka qaranlıqda səssizcə yox oldu. Enli pilləkənlə qalxanda Marqaritaya elə gəldi ki, pillələr bitib-tükənməyəcək. Adi bir Moskva mənzilinin girəcəyində belə qeyri-adi, gözəgörünməz, ancaq aydın hiss olunan uzun pilləkənin yerləşə biləcəyi onu çox təəccübləndirdi. Ancaq yoxuş sona çatdı və Marqarita meydançada dayandığını başa düşdü. İşıq lap yaxınlaşanda Marqarita əlində həmin bu çırağı tutmuş qara paltarlı hündür kişinin sifətini gördü. Bu günlərdə onun yoluna çıxmaq bədbəxtliyinə düçar olmuş adamlar çırağın zəif işığında belə onu, əlbəttə, dərhal tanıyardılar. Bu həm Korovyev, həm də Faqot adlanan o məxluq idi.

Doğrudur, Korovyevin xarici görünüşü xeyli dəyişmişdi. Titrək işıq çoxdan zibilliyə atılmalı olan şüşəsi çatlamış pensnesində yox, monoklunda əks olunurdu, hərçənd onun da şüşəsi çatlamışdı. Korovyevin görünüşcə qara olmasının izahı da çox sadə idi – frak geyinmişdi. Bircə sinəsi ağarırdı.

Cadugər, regent, sehrbaz, tərcüməçi, əslində isə kimliyi özündən başqa heç kimə bəlli olmayan Korovyev təzim

edib, çırağı havada gəzdirərək onu arxasınca çağırdı. Azazello yoxa çıxdı.

"Çox qəribə gecədir, – Marqarita fikirləşdi, – hər şey gözləyirdim, bircə bunu yox! Elektrik işığı sönüb-nədir? Ən təəccüblüsü də mənzilin sahəsidir. Bütün bunlar bir Moskva mənzilinə necə sığışa bilər? Heç cür mümkün deyil!"

Korovyevin çırağı nə qədər zəif işıq salsa da, Marqarita anladı ki, çox geniş, üstəlik, sütunlu, qaranlıq və ilk təəssürata görə ucu-bucağı olmayan bir zaldadır. Korovyev balaca bir divanın yanında dayanıb, çırağını tumbanın üstünə qoydu, əliylə Marqaritaya yer göstərdi, özü isə şairanə görkəmdə tumbaya söykənib onun böyründə oturdu.

– İcazənizlə özümü təqdim edim, – o, xırıltıyla dedi, – Korovyev. İşığın olmaması sizi təəccübləndirir? Yəqin, qənaət edildiyini düşündünüz? Yox, yox, qətiyyən yox!

Əgər belədirsə, qoy ilk rastımıza çıxan cəllad, elə günü bu gün, bir az sonra sizin dizinizi öpmək şərəfinə nail olacaq cəlladlardan biri bax bu tumbanın üstündə başımı vursun! Sadəcə, messir elektrik işığını xoşlamır, biz onu ən sonda

verəcəyik. İnanın ki, onda işıq bol olacaq. Ancaq bir qədər az olsa, daha yaxşı olardı.

Korovyev Marqaritanın xoşuna gəldi və regentin boşboğazlığı onu sakitləşdirdi.

–Yox, – Marqarita cavab verdi, – daha çox bütün bunların harada yerləşdiyinə mat qalmışam. – Zalın böyüklüyünü nəzərə çatdırmaq üçün əlini hərlədi.

Korovyev ləzzətlə gülümsəyəndə burnunun yanındakı qırışlarda kölgələr tərpəşdi.

–Hər şeydən asanı budur! – o cavab verdi. – Beşinci ölçüdən yaxşı başı çıxan adamın əlində mənzili istədiyi qədər böyütmək heç nədir. Hətta kim bilir hansı həddəqədər, hörmətli xanım! Yeri gəlmişkən, – Korovyev çərənləməyə davam elədi, – adam tanıyıram, nəinki beşinci ölçü barədə, ümumiyyətlə, heç nə barədə təsəvvürü olmadan öz mənzilini böyütmək üçün əsl möcüzələr göstərər. Məsələn, mənə danışıblar ki, Torpaq Səddə üçotaqlı mənzil alan bir şəhərli beşinci ölçüsüz-filansız otaqlardan birini arakəsmə ilə yarı bölüb, onu bir anın içində dördotaqlıya çevirib. Sonra onu Moskvanın müxtəlif rayonlarında biri üç, biri ikiotaqlı iki

mənzilə dəyişib. Razılaşın ki, otaqların sayı beş oldu. Üçotaqlını da iki ayrı-ayrı ikiotaqlıya dəyişib, mənzillər bütün Moskvaya səpələnsə də, gördüyünüz kimi, altı otağa sahib olub. Artıq son parlaq fırıldağını eləməyə, Moskvanın müxtəlif rayonlarındakı altı otağı Torpaq Səddə bir beşotaqlıya dəyişdirməklə bağlı qəzetdə elan verməyə hazırlaşırmış ki, özündən asılı olmayan səbəbdən fəaliyyəti dayanıb. Ola bilsin, indi də nəsə bir otağı var, ancaq sizi əmin eləyirəm ki, bu otaq Moskvada deyil. Görürsünüz, necə bic adamlar var, siz də beşinci ölçüdən dəm vurursunuz.

Marqarita beşinci ölçüdən dəm vuran Korovyevin söhbətinə qoşulmasa da, mənzil fırıldaqçısının sərgüzəştlərinə ürəkdən güldü. Korovyev isə sözünə davam elədi:

–Ancaq Marqarita Nikolayevna, məsələyə keçək. Siz son dərəcə ağıllı qadınsınız, bizim sahibimizin kim olduğunu da, əlbəttə, artıq başa düşmüsünüz.

Marqaritanın ürəyi çırpındı və başını tərpətdi.

–Bəs belə, – Korovyev dedi, – biz üstüörtülü danışmağı, müəmmaları sevmirik. Hər il messir bir ziyafət verir. O, baharın bədr gecəsi, ya da yüz kral ziyafəti adlanır. Xalq üçün təşkil edilir!.. – Bu yerdə Korovyev sifətini tutdu, sanki, dişi ağrımışdı. – Buna əmin olacağınıza inanıram. Məsələ belədir: əlbəttə, başa düşürsünüz, messir subaydır. Ancaq ev sahibəsi lazımdır, – Korovyev əllərini yana açdı, – razılaşın ki, sahibəsiz...

Marqarita dinməzcə Korovyevə qulaq asırdı, nəsə olacağını hiss eləyirdi, xoşbəxtliyə olan ümidi başını gicəlləndirirdi.

–Belə bir ənənə yaranıb, – Korovyev sonra dedi, – birinci, ev sahibəsi mütləq Marqarita adını daşımalıdır, ikinci, yerli olmalıdır. Biz isə, gördüyünüz kimi, səyahət eləyirik, hal-hazırda da Moskvadayıq. Moskvada yüz iyirmi bir Marqarita aşkar eləmişik, inanırsınızmı, – bu yerdə Korovyev əlini buduna çırpdı, – heç biri yaramır! Nəhayət, taleyin xoşbəxtliyindən...

Korovyev qəddini əyib mənalı tərzdə gülümsədi və nəsə baş verəcəyini Marqarita yenə hiss elədi.

–Qısası! – Korovyev bərkdən dedi. – Sözün kəsəsi: siz bu vəzifəni öz üzərinizə götürməyə razısınızmı?

–Razıyam, – Marqarita qətiyyətlə dedi.

–Vəssalam! – Korovyev çırağı qaldırıb əlavə elədi:

–Rica edirəm arxamca gəlin.

Onlar sütunların arasından keçib, limon qoxuyan, xışıltılar eşidilən və Marqaritanm başına nəyinsə toxunduğu başqa zala daxil oldular. O diksindi.

–Qorxmayın, – Korovyev Marqaritanın qoluna girib onu sakitləşdirdi, – Begemotun ziyafət hoqqabazlıqlarından savayı bir şey deyil. Marqarita Nikolayevna, sizə məsləhət verməyə cəsarət eləyirəm, ümumiyyətlə, heç vaxt heç nədən qorxmayın. Bu, ağılsızlıqdır. Sizdən nə gizlədim, çox möhtəşəm ziyafət olacaq. Bir vaxtlar hakimiyyətinin hüdudu olmayan şəxslər görəcəyik. Ancaq müşayiətçisi olmaqdan şərəf duyduğum kəsin imkanlarıyla müqayisədə onların imkanlarının nə qədər cüzi olduğunu düşünəndə, doğrusu, gülməyim gəlir, mən deyərdim hətta kədərlənirsən... Elə siz də kral nəslindənsiniz.

–Niyə kral nəslindən? – Marqarita Korovyevə sığınıb qorxa-qorxa pıçıldadı.

–Ah, kraliça, – Korovyev şuxluqla dedi, – nəsil məsələsi dünyada ən mürəkkəb məsələdir! Əgər bəzi, xüsusilə də fağır kimi tanınmış ulu nənələri sorğu-suala tutsaq, olduqca qəribə sirlər açılardı, hörmətli Marqarita Nikolayevna. Dünyanın çox əcaib işləri olduğunu desəm, heç də günah işlətmərəm. Elə şeylər var ki, silk bölgüləri, hətta dövlətlər arasındakı sərhədlər ona təsir etmir. Eyham vururam: on altıncı əsrdə yaşamış fransız kraliçasına kimsə desəydi ki, illər keçəndən sonra nəvəsinin nəvəsinin nəvəsinin qoluna girib, Moskvada ziyafət salonuna aparacağam, yəqin, çox təəccüblənərdi. Artıq çatdıq!

Korovyev çırağı üfürüb söndürdü. Əlindəki çıraq yoxa çıxdı və Marqarita qarşısındakı qapının altından gələn işıq zolağını gördü. Korovyev həmin qapını astadan döydü. Bu vaxt Marqarita o qədər həyəcanlandı ki, dişi dişinə dəydi, canından üşütmə keçdi.

Qapı açıldı. Kiçik bir otaq idi. Marqarita əzik-üzük çirkli mələfələrin, balıncların necə gəldi atıldığı iri palıd

çarpayı gördü. Çarpayının önündəki ayaqları oymalı palıd masanın üstünə quş caynaqları formasında oyuqları olan şamdan qoyulmuşdu. Bu yeddi qızıl caynaqda yoğun mum şamlar yanırdı. Bundan başqa, fiqurları çox nəfis şəkildə düzəldilmiş iri şahmat taxtası var idi. Bozarmış kiçikxalçanın üstünə alçaq skamya qoyulmuşdu. Üstündə qızıl piyalə və qolları ilan formasında başqa şamdan olan bir masa da var idi. Otaqdan kükürd və qətran qoxusu gəlirdi. Çıraqların işığının yaratdığı kölgələr döşəmədə kəsişirdi.

Çarpayının baş tərəfində duran, indi əyninə frak geyinmiş Azazellonu otaqdakıların arasında Marqarita o saat tanıdı. Bəzənib-düzənmiş Azazello daha Aleksandrov bağında Marqaritanın qarşısına çıxan quldura oxşamırdı və ona çox nəzakətlə təzim etdi.

Varyetenin hörmətli bufetçisini utandıran o çılpaq ifritə, məşhur seans gecəsi xoşbəxtlikdən xoruzun qorxutduğu həmin o Gella çarpayının qarşısına atılmış xalçanın üstündə oturub, kükürd qoxulu buğ qalxan qazanı qarışdırırdı.

Otaqda bunlardan başqa şahmat stolunun arxasındakı hündür kətildə oturub, sağ pəncəsində at fiquru tutmuş nəhəng pişik də var idi.

Gella ayağa qalxıb Marqaritaya təzim etdi. Kətildən sıçrayan pişik də baş əydi. Sağ ayağını qatlayan pişik atı əlindən salıb, onu tapmaq üçün çarpayının altına girdi.

Qorxudan quruyub qalmış Marqarita şam işığının saldığı məkrli kölgələrin içindən bütün bunları zorla seçə bildi. Onun nəzərini lap bu yaxınlarda bədbəxt İvanın Patriarx gölünün qırağında şeytanın yoxluğuna inandırmağa çalışdığı şəxs cəlb elədi. Elə həmin olmayanın özü çarpayıda oturmuşdu.

İki göz Marqaritanın sifətinə zillənmişdi. İstənilən adamın ürəyini deşən, dibində qızılı qığılcım oynaşan sağ göz və iynə ucu kimi, zülmət və kölgələrin dibsiz quyusunun dar ağzı kimi mənasız qara sol göz. Volandın sifəti yana əyilmişdi, ağzının sağ küncü aşağı dartılmışdı, saçı qabaqdan töküldüyündən lap iri görünən alnını dərin qırışlar sivri qaşlarına paralel şırımlamışdı. Sifətinin dərisi, sanki, əbədi olaraq gündən yanmışdı.

Voland yatağa yayxanmışdı, əynində çirkli, sol çiyni yamaqlı uzun gecə köynəyi var idi. Çılpaq ayağının birini altına qoymuşdu, o birini skamyaya uzatmışdı. Buğlanan məlhəmi Gella elə bu qaramtıl ayağa sürtürdü.

Volandın tüksüz sinəsində Marqarita tünd rəngli daşdan məharətlə düzəldilmiş, belində yazı olan qızıl zəncirli böcək də gördü. Çarpayıda, Volandın yanında ağır postamentdə bir tərəfini günəşin işıqlandırdığı qəribə, sanki, canlı qlobus durmuşdu.

Sükut bir neçə saniyə sürdü. "O, məni öyrənir", – Marqarita fıkirləşdi və özünü toplayıb ayağının əsdiyini gizlətməyə çalışdı.

Voland, axır ki, sözə başlayıb gülümsədi, bu təbəssümdən də qığılcım saçan gözü, elə bil, od tutub alışdı.

–Sizi salamlayıram, kraliça! Xahiş eləyirəm, ev paltarında olduğuma görə məni bağışlayasınız.

Onun səsi elə zəif idi ki, bəzi sözlər xırıltıyla çıxırdı.

Voland yatağın üstündən uzun qılıncı götürüb, əyilərək çarpayının altında gəzdirdi.

–Çıx! Oyun təxirə salınır. Qonaq gəlib.

–Heç bir vəchlə, – Korovyev suflyor kimi oğruncasına Marqaritanın qulağına pıçıldadı.

–Heç bir vəchlə... – Marqarita dilləndi.

–Messir... – Korovyev onun qulağına dedi.

–Heç bir vəchlə, messir, – Marqarita özünü ələ alıb astadan, ancaq aydın cavab verdi və gülümsəyərək əlavə etdi: – Yalvarıram, oyunu dayandırmayın. Bu oyunu çap eləmək imkanları olsaydı, şahmat jurnalları, yəqin ki, yaxşı pul verərdilər.

Azazello razılıqla sakitcə boğazını arıtladı, Voland isə diqqətlə Marqaritanı süzüb, sanki, öz-özünə dedi:

–Hə, Korovyev haqlıdır. Dünyanın çox qəribə işləri var! Nəsil, qan!

O, əlini uzadıb Marqaritanı işarəylə yanına çağırdı. Marqarita yalın ayaqları altındakı döşəməni hiss eləmədən yaxınlaşdı. Voland daş kimi ağır, eyni zamanda, od kimi isti əlini Marqaritanın çiyninə qoyub, onu özünə sarı çəkərək çarpayıda yanında oturtdu.

–Əgər siz bu qədər lütfkarsınızsa, – o dedi, – başqa cür də gözləmirdim, onda rəsmiyyəti bir kənara qoyaq. – Yenə

çarpayının kənarına tərəf əyilib qışqırdı: – Çarpayının altındakı bu hoqqabazlıq çoxmu davam eləyəcək? Çıx, məlun Hans!

–Atı tapa bilmirəm, – pişik çarpayının altında yalandan sızıldadı, – harasa çapıb getdi, onun əvəzinə əlimə qurbağa keçir.

–Bura sənin üçün bazar deyil! – Voland özünü hirslənmiş kimi göstərdi. – Çarpayının altında qurbağa yoxdur! Bu bayağı fokusları Varyeteyə saxla. Əgər bu saat çıxmasan, hesab eləyəcəyik ki, təslim olmusan, lənətə gəlmiş fərari.

–Heç vaxt, messir! – pişik bağırdı, dərhal da pəncəsində at, çarpayının altından çıxdı.

–Sizə təqdim edim... – Voland sözünü yanmçıq kəsdi, – yox, mən bu təlxəyə baxa bilmirəm. Çarpayının altında görün özünü nə günə qoyub!

Toza batmış pişik bu vaxt dal ayaqlarının üstündə durub Marqaritaya təzim edirdi. İndi pişiyin boğazında ağ bant, sinəsində isə qayışlı gümüşü qadın binoklu var idi. Bundan başqa, bığları zərlənmişdi.

–Bu nə hoqqadır! – Voland səsini qaldırdı. – Niyə bığını zərləmisən? Hələ bu qalstuk nəyinə lazımdır, əgər şalvarın yoxdursa?

–Pişiyə şalvar geyinmək olmaz, messir, – pişik ləyaqətlə cavab verdi. – Bəlkə, mənə çəkmə geyinməyi də əmr edəsiniz? Çəkməli pişik ancaq nağıllarda olur, messir. Ziyafətdə qalstuksuz adama heç rast gəlmisiniz? Mən gülməli vəziyyətə düşmək fikrində deyiləm, özümü boynumdan tutulub çölə atılmaq təhlükəsi altında qoya da bilmərəm! Hamı bacardığı qədər bəzənir. Hesab eləyin ki, dediyim binokla da aiddir, messir!

–Bəs bığların?..

–Anlamıram, – pişik etiraz etdi, – niyə Azazello ilə Korovyev bu gün üzlərini qırxanda pudra vura bilirlər, axı onun harası zərdən yaxşıdır? Mən də bığlarımı pudralamışam, vəssalam! Əgər üzümü qırxsaydım, başqa məsələ! Qırxılmış pişik, doğrudan da, biabırçılıqdır, bunu etiraf etməyə hazıram. Ancaq, – bu yerdə pişiyin səsində inciklik duyuldu, – görürəm mənə bəzi iradlar tuturlar, onu da görürəm ki, qarşımda ciddi problem durur: ümumiyyətlə,

ziyafətdə olmağım lazımdırmı? Bu barədə mənə nə deyə bilərsiniz, messir?

Özünə qarşı olan haqsızlıqdan pişik elə şişdi ki, deyərdin bu saat partlayacaq.

–Ax, dələduz, dələduz, – Voland başını yırğaladı, – hər dəfə oyunu ümidsiz vəziyyətdə olanda körpüyə yığışan ən murdar fırıldaqçılar kimi baş aldatmağa çalışır. Cəld otur, çərənləmə.

–Oturaram, – deyərək pişik oturdu, – ancaq sonuncu fikrinizə etirazımı bildirirəm. Mənim nitqim xanımın yanında ifadə elədiyiniz kimi heç də çərənçilik deyil, bir-birinə möhkəm bağlanan sillogizmlər düzümüdür, bunu Sekst Empirik, Marsian Kapella kimi bilicilər, hətta ola bilsin, Aristotel özü də layiqincə qiymətləndirərdi.

–Şah, – Voland dedi.

–Buyurun, buyurun, – pişik cavab verib, binoklla şahmat taxtasına baxmağa başladı.

–Hə, – Voland Marqaritaya müraciət elədi, – donna, sizə müşayiətçilərimi təqdim edim. Özünü gicliyə qoyan bu pişik Begemotdur. Azazello və Korovyevlə artıq

tanışsınız,qulluqçum Gellanı təqdim edim. Zirək və fərasətlidir, elə bir iş yoxdur bacarmasın.

Gözəl Gella məlhəmdən ovuclayıb Volandın dizinə yaxaraq, yaşıl gözlərini Marqaritaya dikib gülümsədi.

–Vəssalam, – Voland sözünü tamamladı və Gella dizini bərk sıxdığına görə üz-gözünü qınşdırdı, – gördüyünüz kimi kiçik, ürəyiaçıq bir cəmiyyətimiz var. – O susub qarşısındakı qlobusu fırlamağa başladı. Qlobus o qədər məharətlə düzəldilmişdi ki, göy okeanlar tərpəndi, qütbdəki buz dağları da, elə bil, həqiqi idi.

Şahmat taxtasında isə bu vaxt təlaş hökm sürürdü. Ağ mantiyalı pəjmürdə şah məyus, ümidsiz halda əllərini yuxarı qaldırıb xanasında vurnuxurdu. Qılıncını sivirib irəlini, Volandın iki yanaşı ağ-qara xanada dırnaqlarıyla yer eşən qızğın atların üstündəki süvarilərinin göründüyü səmti göstərən zabitə, təbərzinli üç ağ piyada çaşqınlıqla baxırdı.

Şahmat fiqurlarının canlı olması Marqaritanı heyrətləndirdi və çox maraqlandırdı.

Pişik binoklu gözündən ayırıb öz şahını xəlvətcə arxasında gizlətdi. Şah ümidsiz halda üzünü əllərilə örtdü.

–Məsələ qəlizdir, əziz Begemot, – Korovyev astadan ona sataşdı.

–Vəziyyət ciddidir, amma heç də ümidsiz deyil, – Begemot cavab verdi, – üstəlik də, mən qələbəyə əminəm. Vəziyyəti yaxşı-yaxşı təhlil eləmək lazımdır.

Təhlili çox qəribə tərzdə apardı, yəni öz şahına göz-qaş eləməyə başladı.

–Heç nəyin xeyri yoxdur, – Korovyev bildirdi.

–Ay! – Begemot çığırdı. – Necə demişdim, elə də oldu, tutuquşular uçub getdi!

Doğrudan da, uzaqdan qanad pırıltıları eşidildi. Korovyev və Azazello bayıra sıçradı.

–Sizin bu ziyafət həngamələriniz başınıza dəysin! – Voland qlobusdan gözünü çəkmədən deyindi.

Korovyevlə Azazello gözdən itən kimi Begemotun göz-qaş eləməyi həddini aşdı. Ağ şah, axır ki, ondan nə istənildiyini başa düşdü. Mantiyasını çıxarıb xanaya ataraq şahmat taxtasından qaçdı. Şah libasını çiyninə salan zabit onun yerini tutdu.

Korovyev və Azazello qayıtdı.

–Həmişə olduğu kimi gopa basır, – Azazello Begemota tərs-tərs baxıb söyləndi.

–Yəqin, qulağım səsə düşübmüş, – pişik dedi.

–Nədir, bu çoxmu davam eləyəcək? – Voland soruşdu. – Şah.

–Deyəsən, səhv eşidirəm, ustadım, – pişik cavab verdi, – şah deyil, ola da bilməz.

–Təkrar eləyirəm: şah.

–Messir, – pişik, guya, həyəcanlandı, – siz çox yorulmusunuz, şah ola bilməz!

–Şah g-iki xanasındadır, – Voland şahmat taxtasına baxmadan dedi.

–Messir, mən dəhşət içindəyəm! – pişik sifətinə dəhşət ifadəsi verib zığıldadı. – Həmin xanada şah yoxdur!

–Nə məsələdir? – Voland çaşqınlıqla şahmat taxtasına göz gəzdirdi. Şah xanasındakı zabit çönərək üzünü əlləriylə qapadı.

–Ax, əclaf, – Voland fikirli-fikirli dedi.

–Messir! Mən yenə məntiqə müraciət eləyirəm, – pişik pəncələrini sinəsinə sıxdı. – Əgər oyunçu şah elan edirsə,

şahın isə bu vaxt şahmat taxtasında izi-tozu da yoxdursa, şah sayılmır.

–Təslim olursan, ya yox? – Voland qorxunc səslə qışqırdı.

–İcazənizlə fikirləşim, – pişik fağır-fağır cavab verib, dirsəklərini stola dirədi, qulaqlarını pəncələrinin altında gizlədərək düşünməyə başladı. Birxeyli düşünüb, nəhayət, dilləndi: – Təslim oluram.

–Bu tərs əclafı öldürəsən, – Azazello pıçıldadı.

–Bəli, təslim oluram, – pişik dedi, – ancaq yalnız ona görə təslim oluram ki, paxılların atmacaları altında oynaya bilmirəm! – O ayağa qalxdı və şahmat fiqurları qutuya doluşdular.

–Gella, vaxtdır, – Voland dedi və Gella otaqdan çıxdı.

–Ayağım ağrıyır, bir yandan da bu ziyafət...

–İcazə verin, mən eləyim, – Marqarita astadan dedi.

Voland diqqətlə onu süzüb, dizini irəli verdi.

Lava kimi isti maye əlini yandırsa da, Marqarita sifətini turşutmadan, ağrıtmamağa çahşaraq onun dizini yağlamağa başladı.

–Yaxın adamlar deyirlər kı, revmatizmdir, – Voland gözünü Marqaritadan çəkmədən dilləndi, – ancaq çox güman, dizimdəki bu ağrı min beş yüz yetmiş birinci ildə Broken dağlarında, Şeytan Kafedrasında tanış olduğum füsunkar ifritədən yadigar qalıb.

–Oy, bu mümkündürmü?! – Marqarita dedi.

–Boş şeydir! Üç yüz ildən sonra keçib-gedəcək. Mənə çox dərmanlar məsləhət görüblər, ancaq nənəmin üsullarına əməl eləyirəm. Mənim nənəm, murdar qan, əla otlar qoyub gedib! Yeri gəlmişkən, siz nədənsə əziyyət çəkmirsiniz ki? Bəlkə, nəsə bir dərdiniz var, nəyinsə xiffətini eləyirsiniz?

–Yox, messir, elə bir şey yoxdur, – ağıllı Marqarita cavab verdi, – sizin yanınızda isə özümü lap yaxşı hiss eləyirəm.

–Qan güclü şeydir, – nədənsə, Voland şən-şən dedi və əlavə elədi: – Görürəm, qlobusum sizi çox maraqlandırır.

–Bəli, mən ömrümdə belə şey görməmişəm.

–Yaxşı şeydir. Açığını deyim ki, radioda son xəbərləri dinləməyi xoşlamıram. Yerlərin adını düzgün tələffüz eləməyən qızlar xəbər oxuyurlar. Bundan başqa, onların hər

üç nəfərindən biri pəltəkdir, sanki, qəsdən belələrini seçirlər. Qlobusum daha əlverişlidir, həm də mən hadisələri daha dəqiq bilməliyəm. Misal üçün, bir yanını okean yuyan torpaq parçasını görürsünüz? Baxın, onu alov bürüyür. Orada müharibə başlayıb. Yaxından baxsanız, incəliklərinə kimi görərsiniz.

Marqarita qlobusa tərəf əyiləndə torpaq dəfələrlə böyüdü, çoxrəngli yazılar peyda oldu, elə bil, əyani xəritəyə çevrildi. Sonra çay zolağı, onun yanında kənd gördü. Noxud xırdalığında ev böyüyüb kibrit qutusu boyda oldu. Birdən həmin evin damı qara tüstü ilə birlikdə səssizcə göyə sovruldu, divarları uçdu, ikimərtəbəli kibrit qutusundan qara tüstü çıxan qalaqlar qaldı. Marqarita gözünü bir az da yaxınlaşdıranda torpağa sərilmiş qadını, onun yanında qan gölməçəsində əllərini yana açmış balaca uşağı sezdi.

–Vəssalam, – Voland gülümsədi, – o, günah işlətməyə macal tapmadı. Abadonnanın işinə söz ola bilməz.

–Mən Abadonnaya qarşı olan tərəfdə olmaq istəməzdim, – Marqarita dedi, – o, kimin tərəfindədir?

–Sizinlə nə qədər danışıramsa, – Voland mehribancasına dedi, – ağıllı olduğunuza bir o qədər əmin oluram. Sizə təskinlik verim. O, qərəzsizdir, hər iki döyüşən tərəfə eyni dərəcədə ürəyi yanır. Bu səbəbdən də hər iki tərəf üçün nəticə həmişə eyni olur. Abadonna! – Voland astadan çağırdı və divardan qara eynəkli arıq bir adam çıxdı. Bu eynək Marqaritaya elə güclü təsir elədi ki, astadan qışqırıb üzünü Volandın ayağına söykədi. – Özünüzü ələ alın! – Voland qışqırdı. – Bu müasir adamlar necə əsəbidirlər! – Əlini şappıltı ilə Marqaritanın kürəyinə elə vurdu, bütün bədəni gizildədi. – Axı görürsünüz eynək taxıb. Bundan başqa, heç elə şey olmayıb, heç olmayacaq da ki, Abadonna kiminsə qarşısında vaxtından əvvəl peyda olsun. Üstəlik, mən buradayam. Siz mənim qonağımsınız! Sadəcə, onu sizə göstərmək istədim.

Abadonna hərəkətsiz dayanmışdı.

–Olarmı ki, bir anlığa eynəyini çıxarsın? – Volanda sığınan Marqarita bu dəfə maraqdan titrəyərək soruşdu.

–Bax bu olmaz, – Voland ciddi şəkildə dedi və əlinin işarəsiylə Abadonna yoxa çıxdı. – Sən nəsə demək istəyirsən, Azazello?

–Messir, – Azazello cavab verdi, – icazənizlə deyim. Bizə iki yad adam təşrif buyurub: xanımın yanında qalmaq üçün sızıldayıb yalvaran gözəl bir qadındır, ondan başqa, üzr istəyirəm, qadının axta donuzudur.

–Gözəllər özünü qəribə apanr, – Voland dedi.

–Bu Nataşadır, Nataşadır! – Marqarita çığırdı.

–Di qoyun xanımın yanında qalsın. Axta donuzu isə aşpazlara verin.

–Kəsmək üçün? – Marqarita qorxaraq qışqırdı. – Əfv eləyin, messir, bu Nikolay İvanoviçdir, aşağı mərtəbədə yaşayan. Burada anlaşılmazlıq olub, bilirsinizmi, Nataşa ona da məlhəm sürtüb...

–Müsaidə edin, – Voland dedi, – axı onu kəsmək kimə lazımdır? Qoy aşpazlarla birlikdə otursun, vəssalam! Razılaşın ki, onu ziyafət salonuna buraxa bilmərəm.

–Əlbəttə... – Azazello əlavə eləyib məlumat verdi: – Messir, gecəyarıya az qalıb.

–Yaxşı. – Voland üzünü Marqaritaya tutdu, – xahiş edirəm buyurasınız... Bəri başdan sizə minnətdarlığımı bildirirəm. Özünüzü itirməyin və heç nədən qorxmayın. Sudan başqa heç nə içməyin, yoxsa əldən düşərsiniz, sizin üçün çətin olar. Vaxtdır!

Marqaritaxalçanın üstündən qalxanda qapının ağzında Korovyev göründü.

XXIII fəsil
İBLİSİN MÖHTƏŞƏM ZİYAFƏTİ

Gecəyarıya az qaldığından tələsməli oldular. Marqarita ətrafındakıları aydın görmürdü. Şamlar və əlvan hovuz yadında qaldı. Bu hovuzun dibinə ayaq basanda Gella və ona kömək eləyən Nataşa Marqaritanın üstünə isti, qatı, qırmızı maye tökdülər. Marqarita dodaqlarında duz tamı hiss elədi və onu qanla çimizdirdiklərini anladı. Qanlı duşu qatı,

şəffaf, açıq-çəhrayı duş əvəz elədi və qızılgül yağı Marqaritanın başını gicəlləndirdi. Sonra Marqaritanı büllur taxtın üstünə atıb, iri yaşıl yarpaqlarla dərisi parıldayana qədər sürtdülər. Bu yerdə pişik özünü yetirib kömək eləməyə başladı. Marqaritanın ayağı altında çömbəlib, onun dabanlarını elə tərzdə sürtdü ki, guya, küçədə çəkmə silirdi.

Solğun qızılgül rəngində ləçəklərdən onun üçün kimin tufli tikdiyi və bu tuflinin qızıl toqqalarının öz-özünə necə bağlandığı Marqaritanın yadında qalmadı. Hansısa bir qüvvə Marqaritanı qaldırıb güzgünün qabağında oturtdu və almaz qaşlı kraliça tacı onun başında bərq vurdu. Korovyev haradansa peyda olub, yoğun zəncirdən asılmış, içində qara pudel[28] təsviri olan ovalşəkilli ağır çərçivəni Marqaritanın boynuna keçirdi. Bu bəzək əşyası kraliçanı xeyli əziyyətə saldı. Zəncir boynunu sürtdü, çərçivə boynunu əydi. Ancaq qara pudelli zəncirin verdiyi əziyyətin əvəzində onu mükafatlandırdı. Korovyevlə Begemot ona ehtiramla yanaşmağa başladılar.

[28]Pudel – it cinsi

– Eybi yox, eybi yox, eybi yox! – Korovyev hovuz olan otağın qapısı ağzında mızıldadı. – Çarə nədir, lazımdır, lazımdır, lazımdır... Kraliça, icazənizlə sizə son məsləhətimi verim. Qonaqlar arasında çox, ax, çox müxtəlif adamlar olacaq, ancaq kraliça Marqo, heç kimə üstünlük verməyin! Kimsə xoşunuza gəlməsə də... başa düşürəm, siz, əlbəttə, bunu büruzə verməyəcəksiniz... Yox, yox, bunu ağlınıza belə gətirməyin! O saat hiss eləyər, duyar! Onu sevmək lazımdır, kraliça, sevmək! Ziyafət sahibəsinə bunun əvəzi yüzqat artıq qaytarılacaq. Bir də heç kimi gözdən qaçırmayın! Söz deməyə imkanınız olmasa, heç olmasa, bir təbəssüm, heç olmasa, başın bir hərəkəti. Hər şey olar, diqqətsizlikdən savayı. Bu, onlara pis təsir eləyir...

Bu vaxt Marqarita Korovyevin və Begemotun müşayiətilə hovuzdan qaranlığa addımladı.

–Mən, mən, – pişik pıçıldadı, – mən işarə verəcəyəm!

–Başla! – qaranlıqdan Korovyevin səsi eşidildi.

–Ziyafət! – pişik bərkdən vığıldadı və Marqarita qışqırıb bir neçə saniyə gözünü yumdu. O, ziyafəti işığıyla, səsi və qoxusuyla hiss elədi. Korovyevin əlindən tutduğu

Marqarita özünü tropik meşədə gördü. Qırmızısinə, yaşılquyruq tutuquşular lianadan yapışıb ağacdan-ağaca tullana-tullana qışqırırdılar: "Mən heyran olmuşam!" Ancaq meşə tez qurtardı və onun hamam bürküsünü daş sütunları sarımtıl işıq saçan ziyafət salonunun sərinliyi əvəz elədi. Meşə kimi, salon da tamam boş idi, yalnız sütunların yanında başına gümüşü sarğı bağlamış çılpaq zəncilər sakitcə dayanmışdılar. Haradasa Azazellonun da qoşulduğu müşayiətçiləriylə Marqarita uçub salona girəndə, onların sifəti həyəcandan qızardı. Korovyev burada Marqaritanın əlini buraxıb pıçıldadı:

–Birbaş zanbaqlara tərəf!

Ağ zanbaqlar alçaq çəpər kimi Marqaritanın önündə bitmişdi, o, çəpərin arxasında üstü qapaqlı saysız-hesabsız lampa, onların qarşısında isə frak geyinmiş adamların ağ sinələrini və qara çiyinlərini gördü. Ziyafət səsinin haradan gəldiyini Marqarita indi anladı. Onu şeypurların gurultusu qarşıladı, skripkaların bu gurultudan sıyrılıb yüksələn səsi isə qan kimi bədəninə axdı. Yüz əlli adamdan ibarət orkestr polonez çalırdı.

Marqaritanı görəndə orkestrin qarşısında yüksəkdə dayanmış fraklı adamın rəngi ağardı, gülümsədi və birdən əlini yelləyib bütün orkestri ayağa qaldırdı. Orkestr biran da olsun, çalğısına ara vermədən ayaq üstə dayanıb Marqaritanı musiqi sədalarına qərq elədi. Orkestrdən hündürdə duran adam dönərək əllərini yana açıb təzim etdi, Marqarita da gülümsəyib ona əl elədi.

–Yox, azdır, azdır, – Korovyev pıçıldadı, – o, bütün gecəni yatmayacaq. Ona ucadan deyin: "Sizi salamlayıram, valslar kralı!"

Marqarita öz səsinin orkestrin gurultusunu batırdığına heyrətləndi. Həmin adam ona nəsib olan bu xoşbəxtlikdən diksindi və sağ əlindəki ağ metal çubuğu orkestrə yellədə-yellədə sol əlini sinəsinə qoydu.

–Azdır, azdır, – Korovyev pıçıldadı, – sola, birinci skripkalara baxın, başınızla elə salam verin ki, hər biri ayrılıqda onu tanıdığınızı düşünsün. Burada yalnız dünya şöhrətli musiqiçilərdir! Bax, onu salamlayın, birinci pultdakını, bu, Vyetandır. Belə, çox yaxşı. İndi o birini.

_ – Dirijor kimdir? – Marqarita uçaraq soruşdu.

–İohann Ştraus! – pişik çığırdı. – Əgər hansısa ziyafətdə haçansa belə orkestr çalıbsa, qoy məni tropik meşədə lianadan assınlar! Onu mən dəvət eləmişəm! Fikir verin ki, heç biri xəstələnməyib, heç biri də boyun qaçırmayıb.

O biri zalda sütunlar yox idi, onların əvəzində bir tərəfdə qırmızı, çəhrayı, süd kimi ağ qızılgüllər, o biri tərəfdə çoxləçəkli yapon kameliyaları cərgələnmişdi. Bu cərgələrin arasında fışıltıyla fəvvarələr püskürürdü, açıq-bənövşəyi, yaqut rəngli və büllur kimi şəffaf hovuzlarda şampan şərabı pıqqıldayırdı. Al-qırmızı sarğılı zəncilər bu hovuzların böyründə vurnuxaraq, gümüşü çömçələrlə dayaz piyalələri doldururdular. Qızılgül cərgəsində açıq yer var idi, qırmızı frakının arxası qaranquş quyruğuna bənzəyən adam bu açıq səhnədə cuşa gəlmişdi. Onun qarşısındakı cazın gurultusundan qulaq tutulurdu. Dirijor Marqaritanı görən kimi önündə elə əyildi ki, əli döşəməyə toxundu, sonra qəddini düzəldib bərkdən qışqırdı:

–Alliluyya!

O, əliylə bir dizini, sonra o biri dizini şappıldatdı və qıraqdakı musiqiçinin əlindən sinci alıb sütuna çırpdı.

Marqarita uçarkən arxadan hələ də küləyi onu vuran polonezin səsini batırmaq istəyən virtouz cazistin öz sincini cazistlərin başına vurduğunu, onların isə, guya, qorxub yerə çökdüyünü gördü.

Nəhayət, meydançaya uçub gəldilər, Marqarita başa düşdü ki, bura Korovyevin əldə çıraq onu qarşıladığı yerdir. İndi həmin meydançada büllur üzüm salxımlarından süzülən gur işıq göz qamaşdırırdı. Marqaritanı əyləşdirdilər; sol tərəfində alçaq ametist sütun var idi.

–Əgər yorulsanız, əlinizi ona söykəyə bilərsiniz, – Korovyev pıçıldadı.

Qaradərililərdən biri Marqaritanın ayağı altına qızılı pudel təsviri tikilmiş döşəkçə atdı və kiminsə əlinə tabe olub, sağ ayağını bükərək onun üstünə qoydu.

Marqarita ətrafına göz gəzdirdi. Korovyev və Azazello onun böyründə şəstlə durmuşdu. Azazellonun yanında nəyləsə Abadonnanı xatırladan üç gənc də dayanmışdı. Marqaritanın kürəyini soyuq vururdu. Boylananda gördü ki,

arxadakı mərmər divardan fışıltıyla çaxır axıb soyuq hovuza tökülür. Sol ayağının dibində nəsə isti və tüklü bir şey hiss elədi. Begemot idi.

Marqarita yüksəkdə oturmuşdu, ayağının altından aşağıya doğru xalçalarla örtülmüş böyük pilləkən uzanırdı. Binoklun o biri tərəfindən baxırmış kimi Marqarita aşağıda, çox uzaqda soyuq qara ağzından beştonluq yük maşınının rahatca keçə biləcəyi buxarılı geniş girişi gördü. Gur işıqlandırdmış girəcəkdə və pilləkəndə heç kim yox idi. Şeypurların səsini indi uzaqdan eşidirdi. Bir dəqiqəyə yaxın beləcə hərəkətsiz dayandılar.

–Bəs qonaqlar hanı? – Marqarita Kofovyevdən soruşdu.

–Gələcəklər, kraliça, indi gələcəklər. Kifayət qədər qonaq olacaq. Doğrusu, onları bu meydançada qarşılamaqdansa, odun doğramağı üstün tutardım.

–Odun doğramaq nəmənədir, – gəvəzə pişik sözü göydə qapdı, – mən tramvayda konduktor işləyərdim, dünyada bundan pis iş yoxdur!

–Hər şey gərək əvvəlcədən hazır olsun, kraliça, – korlanmış monoklun arxasından Korovyevin gözləri parıldadı. – İlk gələn qonağın nə eləyəcəyini bilməyib girinc qalmağından, acıdil arvadının isə hamıdan tez gəldiklərinə görə onun abrını tökməyindən də pis şey yoxdur. Belə ziyafətləri zibilliyə atmaq lazımdır, kraliça.

–Əlbəttə, zibilliyə, – pişik təsdiq elədi.

–Gecəyarısına on saniyədən az qalıb, – Korovyev əlavə elədi, – indi başlayacaq.

Bu on saniyə Marqaritaya çox uzun gəldi. On saniyə artıq keçsə də, görünür, heç nə baş verməmişdi. Ancaq qəfil aşağıdakı buxarıda nəsə guruldadı, oradan üstündə yarıdağılmış meyit yellənən dar ağacı çıxdı. Meyit kəndirdən qopub döşəməyə çırpıldı və əynində frak, ayağında laklı tufli olan qarasaç bir oğlan sıçrayıb ayağa qalxdı. Buxarıdan elə də iri olmayan yarıçürümüş tabut çıxıb tappıltıyla yerə dəydi, tabutun qapağı qopdu və oradan başqa meyit düşdü. Gözəl oğlan ona sarı atılıb ehtiramla əlini uzatdı, ikinci meyit qara tuflili, başında qara lələk olan

çılpaq yelbeyin qadına çevrildi və hər ikisi pilləkənlə yuxarı dırmaşdılar.

–İlk qonaqlar! – Korovyev bərkdən dedi. – Cənab Jak öz xanımıyla. Sizə təqdim edirəm, kraliça, ən maraqlıkişilərdən biridir. Qəlp pulkəsən, dövlət xaini, yaxşı da kimyagər. Ona görə məşhurlaşıb ki, – Marqaritanın qulağına pıçıldadı, – kralın məşuqəsini zəhərləyib. Belə şey heç də hər adamın başına gəlmir! Baxın, nə gözəldir!

Rəngi qaçmış Marqarita ağzını açıb girəcəkdəki yan qapıdan dar ağacının və tabutun necə yox olduğuna baxırdı.

–Mən heyran qalmışam! – pişik pilləkənlə qalxan cənab Jakın düz sifətinə bağırdı.

Bu vaxt buxarıdan başsız, bir əli qopmuş skelet çıxdı, yerə dəyib fraklı kişiyə çevrildi.

Cənab Jakın xanımı artıq bir dizini yerə qoyub Marqaritanın qarşısında dayanmışdı və həyəcandan rəngi qaçmış halda Marqaritanın dizini öpürdü.

–Kraliça... – cənab Jakın xanımı mızıldadı.

–Kraliça heyran olub! – Korovyev qışqırdı.

–Kraliça... – gözəl cənab Jak astadan dedi.

–Biz heyran olmuşuq, – pişik vığıldadı.

Azazellonun gənc yoldaşları cansız, ancaq nəvazişkartəbəssümlə gülümsəyərək, cənab Jakla xanımını əlində şampan badəsi tutmuş zəncilərə tərəf sıxışdırdılar. Frak geyinmiş bir adam pilləkəni qaça-qaça qalxırdı.

–Qraf Robert, – Korovyev Marqaritaya pıçıldadı, – hələ də qəşəngdir. Kraliça, fikir verin, necə də gülməlidir, bayaqkının əksi olan hadisə: bu adam kraliçanın oynaşı olub və öz arvadını zəhərləyib.

–Sizi görməyimizə şadıq, qraf, – Begemot qışqırdı.

Buxarıdan bir-birinin ardınca üç tabut düşüb yerədəyərək parçalandı, sonra kimsə, qara əbalı bir adam çıxdı, qara əbalının arxasınca buxarının qara ağzından çıxan başqa birisi onun kürəyinə bıçaq sapladı. Aşağıdan boğuq qışqırıq səsi eşidildi. Buxarıdan tamamilə dağılmış meyit qaçaraq çıxdı. Marqarita üz-gözünü qırışdırdı və kimsə onun burnuna içində ağ duz olan flakon tutdu. Marqaritaya elə gəldi ki, bu, Nataşanın əlidir. Pilləkən adamla dolmağa başladı. Artıq hər pillədə uzaqdan bir-birinə oxşayan frak geyinmiş kişilər, onların yanında isə yalnız başındakı lələyin

və ayaqlarındakı tuflinin rəngiylə fərqlənən çılpaq qadınlar var idi.

Rahibə kimi gözünü yerdən qaldırmayan arıq, ədəbli və nəyə görəsə boynuna enli yaşıl sarğı dolamış qadın qəribə taxta çəkmə geyindiyi sol ayağını sürüyə-sürüyə Marqaritaya yaxınlaşdı.

–Bu yaşıl sarğılı kimdir? – Marqarita qeyri-ixtiyari soruşdu.

–Füsunkar və hörmətli xanım Tofana, – Korovyev pıçıldadı. – Gənc, gözəl neapollu xanımların, həmçinin palermolu qadınların, xüsusən də ərindən bezənlərin arasında çox məşhurdur. Axı, kraliça, olur ki, ərdən bezirsən...

–Hə, – Marqarita bir-birinin dalınca qarşısında baş əyib dizini və əlini öpən frak geyinmiş iki kişiyə gülümsəyərək sakitcə cavab verdi.

–Bax belə, – Korovyev eyni vaxtda Marqaritaya pıçıldamağı və kiməsə qışqırmağı bacardı: – Hersoq! Bir qədəh şampan! Mən heyran qalmışam!.. Hə, bəs belə, xanım Tofana bu yazıq qadınların halına yanıb, içində suya oxşar

nəsə olan dərman şüşəsini onlara satırdı. Qadın həmin suyu ərinin şorbasına tökürdü, şorbanı yeyib kefi kökələn ər qayğıkeşliyinə görə arvadına minnətdarlıq eləyirdi. Düzdür, bir neçə saatdan sonra çoxlu su içmək istəyirdi, sonra yatağa uzanırdı və bir gün sonra ərinə şorba yedizdirən gözəl neapollu qadın yaz küləyi kimi azaddı.

–Bəs ayağındakı nədir? – ayağını sürüyən xanım Tofananı ötüb-keçən qonaqlara əl verməkdən yorulmayanMarqarita soruşdu. – Boynundakı yaşıl sarğı nəyə görədir? Boynu qırışıb?

–Mən heyran olmuşam, knyaz! – Korovyev qışqırdı və eyni vaxtda Marqaritaya pıçıldadı: – Gözəl boyundur, ancaq həbsxanada bədbəxtlik üz verib. Ayağındakı, kraliça, ispan çəkməsidir, sarğı isə ona görədir ki, uğursuz ailə qurmuş beş yüzə yaxın kişinin Neapol və Palermonu həmişəlik tərk etdiyini bilən həbsxana gözətçiləri hirslənərək xanım Tofananı boğublar.

–Kraliça, mənə belə şərəf nəsib olduğu üçün xoşbəxtəm, – xanım Tofana dizi üstə çökməyə çalışaraq rahibəutancaqlığıyla pıçıldadı. İspan çəkməsi ona mane

olurdu. Korovyev və Begemot ona ayağa qalxmağa kömək elədilər.

–Mən şadam, – Marqarita başqalarına əl verərək dedi. İndi pilləkənlə üzüyuxarı insan axını gəlirdi. Marqaritagirəcəkdə nələr baş verdiyini daha görmürdü. O, qeyri-ixtiyari əlini qaldırıb-endirirdi və dişlərini ağardaraq qonaqlara eyni cür gülümsəyirdi. Meydança uğuldayırdı, Marqaritanın tərk elədiyi ziyafət zallarından dənizin gurultusu kimi musiqi sədaları eşidilirdi.

–Bax bu darıxdırıcı qadın, – uğultuda onu eşitməyəcəklərini bildiyindən Korovyev artıq bərkdən danışırdı, – ziyafətləri xoşlayır, elə hey öz dəsmalından gileylənir.

Marqarita yuxarı qalxanların içində Korovyevin göstərdiyi qadını baxışlarıyla axtarıb tapdı. Çox gözəl qəddqaməti olan iyirmi yaşlarında qadının narahat gözləri oyur-oyur oynayırdı.

–Nə dəsmal? – Marqarita soruşdu.

–Ona xidmətçi təhkim olunub, – Korovyev izah elədi, – otuz ildir gecə onun stolunun üstünə cib dəsmalı qoyur.

Yuxudan ayılan kimi dəsmalı görür. Dəsmalı sobada da yandırıb, çaya da tullayıb, ancaq heç nə kömək eləmir.

–Nə dəsmaldır elə? – Marqarita əlini qaldırıb-endirərək pıçıldadı.

–Kənarları göy haşiyəli dəsmal. Məsələ belə olub: o, kafedə işləyəndə kafenin sahibi onu tovlayaraq anbara çağırıb və doqquz ay sonra bu qadın oğlan uşağı doğub, uşağı meşəyə aparıb, ağzına dəsmal soxub, torpağa basdırıb. Məhkəmədə deyib ki, uşağı yedizdirməyə heç nəyi yoxdur.

–Bəs kafenin sahibi hanı? – Marqarita soruşdu.

–Kraliça, – qəfil aşağıdan pişik vığıldadı, – icazənizlə soruşum: kafe sahibinin bura nə dəxli? Axı körpəni meşədə o boğmayıb!

Marqarita gülümsəməyindən və sağ əlini yelləməyindən qalmayıb, sol əlinin iti dırnaqlarını Begemotun qulağına batırdı:

–Əclaf, əgər bir də söhbətə qarışsan...

Begemot ciyildəsə də, ağrıyana heç oxşamırdı.

–Kraliça... qulağım şişəcək... indi bir qulağa görə ziyafət niyə korlansın?.. Mən hüquq... hüquq nöqteyi-

nəzərindən deyirdim... Susuram, susuram... Hesab eləyin ki, pişik deyiləm, balığam, ancaq qulağımı buraxın.

Marqarita Begemotun qulağını buraxdı və narahat, ağrılı gözlər onun qarşısında peyda oldu.

–Mənim kraliçam, möhtəşəm bədr gecəsi ziyafətinə dəvət olunduğuma görə xoşbəxtəm.

–Mən də, – Marqarita cavab verdi, – sizi görməyimə şadam. Çox şadam. Şampan şərabı xoşlayrsınızmı?

–Siz nə eləmək istəyirsiniz, kraliça? – Korovyev Marqaritanın qulağına sakitcə dedi. – Basırıq yaranacaq!

–Xoşlayıram, – qadın pərəstişlə dedi və birdən qeyri-ixtiyari təkrarlamağa başladı: – Frida! Frida! Frida! Kraliça, mənim adım Fridadır!

–Siz bu gün keflənənə qədər için, Frida, heç nə haqda fikirləşməyin, – Marqarita dedi.

Frida hər iki əlini Marqaritaya sarı uzatdı, ancaq Korovyevlə Begemot cəld onun qoltuğuna girdilər və o, adamların arasında gözdən itdi.

Marqaritanın durduğu meydançaya hücum çəkirlərmiş kimi aşağıdan adamlar indi yığın-yığın gəlirdi. Frak

geyinmiş kişilərin arasından çılpaq qadın bədənləri görünürdü. Onların əsmər, ağ, qəhvəyi və qapqara bədənləri Marqaritaya tərəf axışırdı. Sarı, qara, şabalıdı və kətan kimi ağ saçlardakı qiymətli daşlar işıq selində parıldayıb bərq vururdu. Hücum çəkən kişi cərgəsinə kimsə, elə bil, işıq zərrəcikləri səpmişdi – sinələrindəki taxma brilyant düymələr alışıb-yanırdı. İndi Marqarita hər saniyə dizinə toxunan dodaqları hiss eləyirdi, öpülmək üçün hər saniyə əlini irəli uzadırdı, üzündə "salam!" ifadəsi donmuşdu.

–Mən heyranam, – Korovyev yeknəsəq səslə deyirdi, – biz heyranıq... Kraliça heyrandır.

–Kraliça heyrandır... – arxada dayanmış Azazello burnunda danışaraq dedi.

–Mən heyranam, – pişik qışqırdı.

–Markiza... – Korovyev mızıldadı, – mirasa görə atasını, iki qardaşını, iki bacısını zəhərləyib... Kraliça heyrandır!.. Xanım Minkina... Ah, necə qəşəngdir! Bir az əsəbidir. Ev qulluqçusunun sifətini saçburanla dağlamaq nəyə lazımdır? Əlbəttə, buna görə bıçaqlayarlar... Kraliça heyrandır!.. Kraliça, bir an diqqət eləyin! İmperator Rudolf,

sehrbaz və kimyagər... Daha bir kimyagər – asılıb... Ah, bu da o! Ax, Strasburqda bu qadının necə gözəl fahişəxanası var idi!.. Biz heyranıq!.. Moskvalı dərzi qadın! Tükənməz fantaziyasına görə hamımız onu sevirik... onun atelyesi var idi və orada çox gülməli hoqqabazhq eləmişdi: divardaniki deşik açmışdı...

–Bəs qadınlar bunu bilmirdi? – Marqarita soruşdu.

–Hamısı bir nəfər kimi bilirdi, kraliça, – Korovyev cavab verdi. – Mən heyranam!.. İyirmi yaşlı bu xəyalpərəst və qəribə oğlancığaz uşaqlıqdan öz fantaziyasıyla fərqlənirdi. Bir qız ona vurulmuşdu, o isə qızı fahişəxanaya satdı...

Aşağıdan insan axını gəlirdi. Bu axının sonu görünmürdü. Onun mənbəyi olan nəhəng buxarı bu axını təchiz eləyirdi. Bir saat belə keçdi, ikinci saata adladı. Bu vaxt Marqarita boynundakı zəncirin ağırlaşdığını hiss elədi. Qoluna da nəsə olmuşdu. İndi əlini qaldırmazdan əvvəl üzünü turşutmalı olurdu. Korovyevin maraqlı mülahizələri daha onu əyləndirmirdi. Qıyıqgöz monqol sifətləri, ağ və qara üzlər əhəmiyyətini itirmişdi, hərdən bu sifətlər bir-

birinə qarışırdı, onların arasındakı hava, elə bil, titrəyib axırdı. Kəskin ağrı birdən iynə kimi sağ qolunu sancdı və Marqarita dişlərini bir-birinə sıxıb dirsəyini tumbaya söykədi. Arxadakı zaldan divarlara toxunan qanad xışıltısı kimi bir səs eşidilirdi, aydındı ki, orada bır yığın qonaq rəqs eləyir və Marqaritaya elə gəldi, bu möcüzəli zalda hətta mərmər, büllur, mozaikalı döşəmələr də ritmik olaraq döyünür.

Nə Qay Qeysər Kaliqula, nə Messalina, heç bir kral, hersoq, kavaler, intihar eləyən, adam zəhərləyən, dar ağacından asılan, aradüzəldən, dustaqxana gözətçisi, qumarbaz, cəllad, çuğul, xain, divanə, xəfiyyə, əxlaqsız artıq Marqaritanı maraqlandırmırdı. Hamısının adı başında qarışmışdı, sifətlər iri bir kündəyə dönmüşdü, yaddaşında yalnız Malyuta Skuratovun saqqalı, doğrudan da, yanan sifəti qalmışdı. Marqaritanın ayaqları bükülürdü, hər dəqiqə ağlayacağından qorxurdu. Öpülən sağ dizi ona daha çox əziyyət verirdi. Dizi şişmişdi, Nataşanın əli bir neçə dəfə süngərlə peyda olub, ətirli nəyləsə silsə də, dizi göyərmişdi. Üçüncü saatın sonunda Marqarita tamam ümidsiz baxışlarla

aşağı boylanıb, sevincək geri çəkildi: qonaqların axını seyrəlmişdi.

–Ziyafətə gəlişin qaydası eynidir, kraliça, – Korovyev pıçıldadı, – indi gələnlərin axını azalacaq. Səbir edək, and içirəm ki, son dəqiqələrdir. Bu da brokenli kefcillər dəstəsi. Onlar həmişə axırda gəlirlər. Hə, onlardır. İki sərxoş vampir... vəssalam? Yox, yox, bu da biri. Yox, iki nəfərdir!

Sonuncu iki qonaq pilləkənlə qalxırdı.

–Bu kimdirsə təzə adamdır, – Korovyev şüşənin arxasından gözünü qıyaraq dedi. – Hə, hə. Bir dəfə Azazello ona baş çəkmişdi və konyak içə-içə onu ifşa eləyəcəyindən çox qorxduğu adamdan necə yaxa qurtarmaq barədə məsləhət vermişdi. O da həmin adamın tabeliyində olan tanışına tapşırmışdı ki, kabinetin divarlarına zəhər çiləsin.

–Onun adı nədir? – Marqarita soruşdu.

–Doğrusu, özüm də hələ bilmirəm, – Korovyev cavab verdi, – Azazellodan soruşmaq lazımdır.

–Bəs yanındakı kimdir?

–Bu elə həmin adamın tabeliyindəki icraçıdır. Mən heyranam! – Korovyev sonuncu iki adama qışqırdı.

Pilləkən boşaldı. Hər ehtimala görə bir az da gözlədilər. Ancaq buxarıdan daha heç kim çıxmadı.

Bir an sonra bunun necə baş verdiyini başa düşmədən Marqarita özünü hovuz olan həmin otaqda gördü və o saat da əllərinin, ayaqlarının sızıltısından ağlayıb döşəməyə sərildi. Ancaq Qella və Nataşa ona təskinlik verərək yenə qanlı duşun altına çəkib apardılar, yenə bədənini ovuşdurdular və Marqarita təzədən cana gəldi.

–Kraliça Marqo, – yanında peyda olmuş Korovyev pıçıldadı, – hörmətli qonaqlar tərk edildiklərini düşünməsinlər deyə, zalda yenə görünmək lazımdır.

Marqarita hovuzlu otaqdan yenə uçub çıxdı. Valslar kralının orkestrinin zanbaqların arxasında çaldığı səhnədə indi meymunların cazı cuşa gəlmişdi. Əlində şeypur olan pırtlaşıq bakenbardlı qorilla ayaqlarını ağır-ağır oynadaraq dirijorluq eləyirdi. Cərgə ilə düzülmüş oranqutanlar parıldayan şeypurları püfləyirdilər. Şən şimpanzelər əllərində qarmon, onların çiyninə minmişdi. Şir kimi yallı iki qamadrila royalda çalırdı və hibbonların, mandrillərin, əntərlərin əllərindəki saksafonların, skripka və barabanların

gurultusu, ciyiltisi, guppultusu royalın səsini batırırdı. Hərəkətlərinin cəldliyi və mükəmməlliyilə heyrət doğuran saysız-hesabsız cütlüklər qaynayıb-qarışıb güzgü kimi parıldayan döşəmənin üstündə bir istiqamətdə fırlana-fırlana sıx cərgə ilə elə gəlirdilər, sanki, qabaqlarına çıxan hər şeyi silib-süpürəcəkdilər. Atlaz kəpənəklər rəqs eləyənlərin başı üzərində dəstəylə uçuşurdu, tavandan çiçəklər səpələnirdi. Elektrik işığı sönəndə sütunların kapitelində minlərlə işıldaböcək parıldadı, havada isə bataqlıq cücüləri işıldaşaraq uçuşurdu.

Sonra Marqarita sütunlarla dövrələnmiş çox iri hovuzda idi. Nəhəng qara Neptunun ağzından çəhrayı fəvvarə fışqırırdı. Hovuzdan şampan şərabının bihuşedici qoxusu qalxırdı. Burada şənlik hökm sürürdü. Qadınlar gülə-gülə tuflilərini atıb, çantalarını öz kavalerlərinə, ya əllərində mələfə vurnuxan zəncilərə verib, qışqıraraq hovuza baş vururdular. Köpüklü sütunlar göyə yüksəlirdi. Hovuzun büllur dibində yanan işıq şərab qatını yarıb keçirdi və üzən gümüşü bədənlər bu işıqda görünürdü. Qadınlar hovuzdan

əməlli-başlı kefli çıxırdılar. Gülüş sədaları sütunların altında hamamda olduğu kimi guruldayırdı.

Bütün bu həngamədən ancaq mənasız sifətində yalvarış dolu gözləri olan tamamilə sərxoş bir qadın yadında qaldı və yalnız bir sözü xatırladı – "Frida!"

Şərabın qoxusundan Marqaritanın başı fırlanmağa başladı və o getmək istədi, ancaq elə bu vaxt pişiyin hovuzda göstərdiyi nömrə onu saxladı. Begemot Neptunun ağzını ovsunladı, dərhal da dalğalanan şampan şərabı fışıltı və gurultuyla hovuzdan axıb getdi, Neptunun püskürdüyü dalğa isə tünd-sarı rəngli və köpüksüz oldu. Xanımlar hay-həşir qopartdılar.

–Konyak! – deyə hovuzun kənarından sütunların arxasına qaçışdılar. Bir neçə saniyədən sonra hovuz konyakla dolmuşdu və pişik göydə üç dəfə mayallaq vurub dalğalanan konyakın içinə atıldı. O, büzüşmüş qalstukla, bığının zəri tökülmüş və binoklu itmiş halda fınxırıb hovuzdan çıxdı. Begemotun hərəkətini təkrarlamağa yalnız həmin oyunbaz dərzi qadın və onun naməlum gənc mulat kavaleri ürək elədi. Hər ikisi konyakın içinə atıldı, ancaq bu

yerdə Korovyev Marqaritanın əlindən tutdu və onlar çimənlərdən ayrıldılar.

Marqarita uçduğu yerdə qalaq-qalaq istirdiyyə ilə dolu böyük daş nohurlar gördü. Sonra altında cəhənnəm ocaqları qalanmış, bu ocaqların arasında aşpaz şeytanların vurnuxduğu şüşə döşəmənin üstü ilə uçdu. Sonra daha heç nə dərk etməyərək çıraqların işıqlandırdığı, qızların közərmiş kömürdə cızhacız bişən əti payladığı, onun sağlığına iri parçlarla içildiyi qaranlıq zirzəmilər gördü. Sonra qarmon çalan və açıq səhnədə kamarinski rəqsi oynayan ağ ayıları, buxarıda yanmayan fokusçu səməndər quşunu gördü... Və ikinci dəfə onun gücü tükənməyə başladı.

–Sonuncu çıxış, – Korovyev təşvişlə pıçıldadı, – və biz azadıq.

Korovyevin müşayiəti ilə yenə ziyafət zalına gəldi, ancaq burada indi rəqs eləmirdilər, saysız-hesabsız qonaqlar zalın ortasını boş qoyub, sütunların arasına sığınmışdılar. Marqarita bilmədi ki, zalın həmin boşalmış hissəsində peyda olan hündür yerə qalxmasına kim kömək elədi. Bura

qalxanda haradasa saatın gecəyarı vurduğunu eşidib təəccübləndi, onun hesabına görə, gecəyarısı çoxdan keçmişdi. Saatın haradan eşidildiyi bilinməyən son zərbəsiylə qonaqların arasına qəfil sükut çökdü.

Marqarita o zaman Volandı yenə gördü. O, Abadonnanın, Azazellonun və Abadonnaya oxşayan bir neçə qara geyimli gəncin əhatəsində gəlirdi. Əks tərəfdə Voland üçün də başqa bir hündür yer hazırlandığını Marqarita indi gördü. Ancaq Voland bu yerdən istifadə eləmədi. Volandın ziyafətə sonuncu möhtəşəm gəlişində də yataq otağındakı elə həmin görkəmdə olması Marqaritanı heyrətləndirdi. Əynindəki həmin yamaqlı çirkli köynək, ayağındakı isə həmin əyilmiş şap-şaplardı. Volandm əlində qılınc var idi, ancaq bu sıyrılmış qılıncdan çəlik kimi istifadə eləyirdi.

Voland axsaya-axsaya gəlib ona məxsus hündür yerin yanında dayandı, dərhal da Azazello əlində nimçə onun qarşısında peyda oldu və Marqarita bu nimçədə dişləri sındırılmış kəsik baş gördü. Hələ də sükut hökm sürürdü, bu

sükutu yalnız bir dəfə uzaqdan eşidilən, belə şəraitdə anlaşılmayan, giriş qapısındakı kimi bir zəng səsi pozdu.

–Mixail Aleksandroviç, – Voland astadan başa müraciət elədi, ölmüş adamın göz qapaqları açıldı və Marqarita ölünün canlı, düşüncəli, əzabla dolu gözlərini görüb diksindi. – Deyilənlər oldu, doğrudurmu? – başın gözünün içinə baxa-baxa Voland sözünə davam elədi. – Başı qadın kəsdi, iclas olmadı, mən də sizin mənzildə yaşayıram. Bu faktdır. Faktı isə heç bir şey dəyişə bilməz. Ancaq indi bizi artıq bu fakt yox, sonrakı işlər maraqlandınr. Sizin həmişə qızğın tərəfdarı olduğunuz nəzəriyyəyə görə, başın kəsilməyi ilə insanın həyatına son qoyulur, o, külə dönübyox olur. Tamam başqa fikirdə olsalar da, öz qonaqlarımın yanında sizə xəbər verməkdən məmnunam ki, nəzəriyyəniz əsaslı və qeyri-adidir. Yeri gəlmişkən, bütün nəzəriyyələr eyni şeydir. Onların birinə əsasən, hər kəsə öz əqidəsinə görə veriləcək. Qoy elə də olsun! Siz heçliyə qovuşursunuz, sizin çevrildiyiniz piyalədən varlığın şərəfinə içmək isə mənə xoş olacaq!

Voland qılıncı qaldırdı. O saat başın dərisi qaralıb yığıldı, sonra parça-parça qopdu, gözlər itdi və az sonra Marqarita nimçədə yaqut gözlü, mirvari dişli, qızıl ayağın üstündə sarımtıl kəllə gördü. Kəllənin şarnirli qapağı açıldı.

–Messir, bu dəqiqə, – Volandın sual dolu baxışlarını sezən Korovyev dedi, – o, sizin qarşınızda dayanacaq. Mən bu sükutda onun laklı tuflilərinin cırıltısını, bu həyatda son dəfə şampan içəndən sonra stola qoyduğu qədəhin cingiltisini eşidirəm. Bax bu da o.

Təzə qonaq zala girib Volanda sarı yönəldi. Qalan çoxsaylı kişi qonaqlardan görkəmcə o, heç nəylə fərqlənmirdi, bir şeydən başqa: qonaq həyəcandan, az qala, səndələyirdi, bu hətta uzaqdan sezilirdi. Yanaqları alışıb-yanırdı, narahat gözləri bir yerdə bənd almırdı. Qonaq karıxmışdı, bu da çox təbii idi: onu hər şey, ən başlıcası da, əlbəttə, Volandın geyimi heyrətləndirmişdi.

Ancaq qonaq çox mehribanlıqla qarşılandı.

–Aha, əziz baron Meygel, – Voland nəvazişlə gülümsəyib, gözü kəlləsinə çıxmış qonağa müraciət elədi. – Tamaşalar komissiyasında paytaxtın görməli yerləriylə

xariciləri tanış eləyən çox hörmətli baron Meygeli, – Voland üzünü qonaqlara tutdu, – sizə təqdim eləməkdən məmnunam.

Bu yerdə Marqarita duruxdu, çünki birdən Meygeli tanıdı. Moskvanın teatr və restoranlarında bir neçə dəfə onunla rastlaşmışdı. "Müsaidə edin... – Marqarita düşündü, – yoxsa o da ölüb?" Ancaq məsələ dərhal aydınlaşdı.

–Əziz baron, – Voland şən-şən gülümsədi, – Moskvaya gəlişimdən o qədər məmnun olmuşdu ki, dərhal mənə zəng vurub öz ixtisasına uyğun, yəni görməli yerləri göstərmək üçün xidmətini təklif elədi. Əlbəttə, aydındır ki, onu evimə dəvət etdiyimə görə xoşbəxtəm.

Marqarita bu vaxt Azazellonun kəllə olan nimçəni Korovyevə verdiyini gördü.

–Hə, baron, yeri gəlmişkən, – Voland səsini qısıb dostcasına dedi, – sizin hər şeyi bilməyə son dərəcə böyük həvəs göstərməyiniz haqqında şayiələr dolaşır. Deyilənə görə, möhkəm söhbətcilliyinizlə birlikdə bu həvəs hamının diqqətini çəkməyə başlayıb. Üstəlik, dedi-qoduçular artıq söz də buraxıblar – çuğul və casus. Bundan əlavə, belə

ehtimal var ki, bir aydan gec olmayaraq bu həvəsin acı nəticəsini dadacaqsınız. Məhz nə mümkünsə görmək və eşitmək məqsədilə qonaq çağırmağımı israrla istəməyinizdən istifadə eləyib, sizi üzücü intizardan qurtarmaq üçün köməyinizə yetişmək qərarına gəldik.

Baronun rəngi qaçdı, öz təbiətinə görə son dərəcə ağ olan Abadonnadan da ağappaq oldu, sonra isə qəribə bir şey baş verdi. Abadonna baronun qarşısında peyda olub, bir anlığa öz eynəyini çıxartdı. Elə həmin an Azazellonun əlində nəsə şimşək kimi çaxdı, nəsə astadan şappıldadı, baron arxası üstə yıxılmağa başiadı, al-qan sinəsindən fışqırıb kraxmallı köynəyini və jiletini batırdı. Korovyev piyaləni fışqıran qanın altına tutub, dolu piyaləni Volanda verdi. Baronun cansız bədəni artıq döşəməyə sərilmişdi.

–Sizin sağlığınıza içirəm, cənablar, – Voland astadan deyib piyaləni dodaqlarına toxundurdu.

Bu vaxt metamorfoza baş verdi. Yamaqlı köynək və əyilmiş çəkələklər yoxa çıxdı. Volandın əynində qara ləbbadə və qurşağında polad qılınc peyda oldu. O, cəld Marqaritaya yaxınlaşıb piyaləni ona uzatdı və hökmlə dedi:

– İç!

Marqaritanın başı hərləndi, o yırğalandı, ancaq piyalə artıq dodaqlarına toxunurdu və kimlərsə – kim olduqlarını ayırd eləyə bilmədi – hər iki qulağına pıçıldadılar:

–Çəkinməyin, kraliça... Çəkinməyin, kraliça, qan çoxdan torpağa hopub. O töküldüyü yerdən artıq üzüm bitir.

Marqarita gözlərini açmadan bir qurtum aldı, damarlarından şirin bir gizilti keçdi, qulaqları cingildədi. Ona elə gəldi ki, xoruzlar bərkdən banlayır, haradasa marş çalınır. Qonaqlar öz görkəmini itirməyə başladı. Frak geyinmiş kişilər, qadınlar külə döndü. Marqaritanın gözü qarşısında zaldakılar çürüdü, ətrafa sərdabə qoxusu yayıldı. Sütunlar dağıldı, işıqlar söndü, hər şey itdi, fəvvarələr, zanbaqlar, kameliyalar yoxa çıxdı. Hər şey əvvəlki kimi idi – zərgər arvadının sadə qonaq otağı və onun aralı qapısından düşən işıq zolağı. Marqarita bu aralı qapıdan içəri girdi.

XXIVfəsil

MASTERİN QURTARILMASI

Volandm yataq otağında hər şey ziyafətə qədər olduğu kimi idi. Voland əynində köynək çarpayıda oturmuşdu, ancaq indi Gella onun ayağını ovxalamırdı, şahmat oynanılan stolun üstündə isə şam süfrəsi açılmışdı. Korovyevlə Azazello masanın arxasında əyləşmişdi, çirkli əsgiyə dönsə də, öz qalstukundan ayrılmaq istəməyən pişik isə, əlbəttə, onların yanında oturmuşdu. Marqarita səndirləyə-səndirləyə yaxınlaşıb stola söykəndi. Voland o vaxt olduğu kimi Marqaritanı işarəylə çağırıb yanında yer göstərdi.

–Nədir, sizi çox yorublar? – Voland soruşdu.

–Yox, messir, – Marqaritanın səsi zorla eşidildi.

–Nobless oblij[29]– deyib pişik Marqarita üçün şərab stəkanına nəsə şəffaf maye süzdü.

–Araqdır? – Marqarita ehtiyatla soruşdu.

Pişik incidiyindən stuldan sıçradı.

[29]Nobless onlij – vəzifə öhdəlik yaradır (fr. noblesse onlige).

–Əfv edərsiniz, kraliça, – o xırıldadı, – məgər mən xanıma araq süzməyi özümə rəva görərdim? Xalis spirtdir!

Marqarita gülümsəyərək stəkanı özündən uzaqlaşdırıb kənara çəkməyə cəhd etdi.

–Ürəkli için, – Voland dedi və Marqarita stəkanı dərhal əlinə götürdü. – Gella, otur, – Voland sonra Marqaritaya izah elədi: – Bədr gecəsi bayram gecəsidir, mən də yaxınlarımla, xidmətçilərimlə şam eləyirəm. Hə, özünüzü necə hiss eləyirsiniz? Bu yorucu ziyafət necə keçdi?

–Əla! – Korovyev ciyildədi. – Hamı məftun olub, aşiq olub, məhv olub! Nə qədər nəzakət, nə qədər bacarıq, mələhət və lətafət!

Voland dinməzcə stəkanı qaldırıb Marqaritayla toqquşdurdu. Marqarita spirtin bu saat onun axırına çıxacağını düşünərək itaətkarlıqla içdi. Ancaq pis bir şey baş vermədi. Qarnına xoş bir istilik axdı, arağın havası yüngülcə başına vurdu, gücü qayıtdı, sanki, xeyli yatıb yuxudan gümrah oyanmışdı, bundan başqa, dəhşətli aclıq hiss elədi. Dünən səhərdən heç nə yemədiyini də xatırlayanda aclığı lap şiddətləndi. Acgözlüklə kürüyə girişdi.

Begemot bir dilim ananas kəsdi, üstünə duz, istiot töküb yedi, sonra ikinci qədəhi birnəfəsə elə başına çəkdi ki, hamı onu alqışladı.

Marqaritanın içdiyi ikinci qədəhdən sonra qəndillərdəki şamlar daha gur yandı, buxarıda alov yüksəldi. Marqarita heç bir keflilik hiss eləmirdi. Ağappaq dişlərini ətə batırıb, onun şirəsindən ləzzət ala-ala Begemotun istirdiyyəyə necə xardal yaxmasına baxırdı.

–Üstünə üzüm də qoy, – Begemotun böyrünü dürtmələyib, Gella astadan dedi.

–Xahiş eləyirəm, məni öyrətməyin, – Begemot cavab verdi, – süfrə arxasında oturmağa vərdiş eləmişəm, heç narahat olmayın!

–Ax, bax bu cür, buxarının qarşısında yaxın dostlarla sıxılmadan şam eləmək, – Korovyev ciyildədi, – necə də xoşdur...

–Yox, Faqot, – pişik etiraz elədi, – ziyafətin öz gözəlliyi, öz vüsəti var.

–Heç bir gözəlliyi, vüsəti yoxdur, bu gic ayıların donqultusundan, bardakı pələnglərin nəriltisindən az qalmışdı başım ağrısın, – Voland dedi.

–Oldu, messir, – pişik tezcə dilləndi, – hesab eləyirsinizsə ki vüsəti yoxdur, dərhal mən də həmin fikrə qoşuluram.

–Buna bir bax! – Voland başını yellədi.

–Zarafat eləyirəm, – pişikyaltaqlıqla dedi, – pələnglərə gəlincə, tapşıraram onları qızartsınlar.

–Pələngi yemək olmaz, – Gella dedi.

–Siz belə düşünürsünüz? Onda xahiş eləyirəm, qulaq asın, – pişik gözlərini ləzzətlə qıyıb, bir dəfə on doqquz gün səhrada tək qaldığından və yediyi yeganə şeyin öldürdüyü pələngin əti olduğundan danışdı. Hamı bu məzəli əhvalata maraqla qulaq asdı, Begemot söhbətini qurtaranda isə hamı xorla qışqırışdı:

–Yalandır!

–Bu yalanın ən maraqlı tərəfi odur ki, – Voland dedi, – əvvəldən axıra kimi yalandır.

–Belə oldu? Yalandır? – pişik qışqırdı və hamı düşündü ki, indi etiraz eləməyə başlayacaq, ancaq vur-tut astadan dedi, – tarix ayırd eləyər.

–Bəs söyləyin görüm, – araqdan sonra canlanmış Marqo Azazelloya müraciət elədi, – siz o keçmiş baronu güllələdiniz?

–Təbii, – Azazello cavab verdi, – onu necə də güllələməyəsən? Onu mütləq güllələmək lazım idi.

–Mən elə həyəcanlandım! – Marqarita bərkdən dedi.

–Bu elə gözlənilməz oldu ki...

–Burada gözlənilməz heç nə yoxdur, – Azazello etiraz elədi, Korovyev isə zığıldadı:

–Axı necə də həyəcanlanmayasan? Mənim dizlərim əsdi! Gup! Tap! Baron aşdı!

–Mənim az qaldı ürəyim yatsın, – pişik kürü dolu qaşığı yalaya-yalaya əlavə elədi.

–Bax mən bir şeyi anlamıram, – büllurun qızılı parıltısı Marqaritanın gözündə oynadı, – necə olur ki, musiqinin səsi, ümumiyyətlə, ziyafətin bu hay-küyü bayırdan eşidilmir?

–Əlbəttə, eşidilməyib, kraliça, – Korovyev izah elədi, – bunu elə eləmək lazımdır ki, eşidilməsin. Bunu səliqəli eləmək lazımdır.

–Düzdür, düzdür... Məsələ ondadır ki, pilləkəndəki o adam... Biz Azazello ilə gələndə... Girişdə biri də vardı... Məncə, o, bizim mənzili güdürdü...

–Doğrudur, doğrudur! – Korovyev qışqırdı. – Doğrudur, əziz Marqarita Nikolayevna! Siz mənim şübhələrimi təsdiqləyirsiniz! Bəli, o, mənzili güdürdü! Mən özüm az qalmışdım onu huşsuz privat dosent, ya pilləkəndə iztirab çəkən aşiq biləm. Ancaq yox, yox! ürəyimə damdı! Ax, o, mənzili güdürdü! Girişdəki də onun kimi! Darvazanın ağzındakı da eləcə!

–Maraqlıdır, birdən sizi həbs eləməyə gəldilər? – Marqarita soruşdu.

–Hökmən gələcəklər, gözəl kraliça, hökmən! – Korovyev cavab verdi. – Ürəyimə damıb ki, gələcəklər. Əlbəttə, indi yox, vaxtı çatanda mütləq gələcəklər. Ancaq güman eləyirəm ki, maraqlı heç nə baş verməyəcək.

–Ah, baron yıxılanda mən necə də həyəcanlandım, – Marqarita həyatında ilk dəfə gördüyü qətlin, ola bilsin, hələ də təsiri altında idi. – Siz, yəqin, yaxşı güllə atırsınız?

–Babat, – Azazello dedi.

–Bəs hansı məsafədən? – Marqarita Azazelloya o qədər də aydın olmayan sual verdi.

–Baxır nəylə və hara, – Azazello məntiqlə dedi, – bir var çəkiclə tənqidçi Latunskinin düz eynəyinin şüşəsindən vurasan, bir də var ürəyindən.

–Ürəyindən! – Marqarita, nədənsə, əlini öz ürəyinin üstünə qoyub qışqırdı. – Ürəyindən! – boğuq səslə təkrar elədi.

–Tənqidçi Latunski kimdir? – Voland gözlərini qıyıb Marqaritaya baxdı.

Azazello, Korovyev və Begemot nəyə görəsə utanıb başlarını aşağı dikdilər, Marqarita isə pörtərək cavab verdi:

–Belə bir tənqidçi var. Mən bu axşam onun mənzilini darmadağın elədim.

–Əcəb işdir! Bəs niyə?

–Messir, – Marqarita dedi, – o bir masteri məhv eləyib.

–Axı özünüz niyə zəhmət çəkirdiniz? – Voland soruşdu.

–Mənə izin verin, messir! – pişik yerindən sıçrayıb sevincək qışqırdı.

–Otur yerində, – Azazello ayağa dura-dura donquldandı, – mən özüm indi gedərəm...

–Yox! – Marqarita qışqırdı. – Yox, messir, sizə yalvarıram, lazım deyil!

–Necə istəyirsiniz, necə istəyirsiniz, – Voland dedi və Azazello öz yerində oturdu.

–Sözümüz harada qaldı, əziz kraliça Marqo? – Korovyev dilləndi. – Hə, ürəkdə. Ürəyi vura bilir, – Korovyev uzun barmağını Azazelloya tərəf tuşladı, – özün seç, ürəyin istənilən qulaqcığından, ya ürəyin istənilən mədəciyindən.

Marqarita o saat anlamadı, anlayanda isə təəccüblə dedi:

–Axı onlar örtülüdür!

–Əzizim, – Korovyev ciyildədi, – iş elə ondadır ki, örtülüdür! Bütün ləzzəti də bundadır! Açıq əşyanı hamı vurar!

Korovyev stolun siyirməsindən qaratoxmaq yeddiliyi çıxarıb Marqaritaya verdi, xahiş elədi ki, ürəyin birini dırnağıyla işarələsin. Marqarita yuxarıdan sağ küncdəkini işarələdi. Cella kartı yastığın altında gizlədib qışqırdı:

– Hazırdır!

Arxası yastığa tərəf olan Azazello frakın şalvar cibindən qara avtomat tapança çıxarıb lüləsini çiyninə qoydu və çarpayıya sarı çevrilmədən atəş açaraq Marqaritanı diksindirib güldürdü. Gülləylə vurulmuş yastığın altından yeddiliyi çıxartdılar. Marqaritanın işarələdiyi ürək deşilmişdi.

–Əlinizdə tapança olanda sizinlə qarşılaşmağı arzulamazdım, – Marqarita nazla Azazelloya baxdı. Hansısa bir işi əla bacaran adamlara o pərəstiş eləyirdi.

–Əziz kraliça, – Korovyev mızıldadı, – mən heç kimə onunla qarşılaşmağı məsləhət görməzdim, hətta əlində tapança olmayanda belə! Keçmiş regent və solist kimi

vicdanıma and içirəm ki, heç kim onun qarşısına çıxan adamın yerində olmaq istəməzdi.

Atıcılıq yarışı zamanı mısmırığını sallayıb oturmuş pişik birdən dedi:

–Yeddiliyi mən ondan da yaxşı vuraram.

Azazello bunun cavabında nəsə mırıldadı. Ancaq pişik inadından dönmədi və bir yox, iki tapança tələb elədi. Azazello şalvarının o biri dal cibindən ikinci tapançanı çıxarıb, ağzını nifrətlə əyişdirərək, ikisini bir yerdə özünü öyən pişiyə uzatdı. Yeddilikdə iki ürək nişanladılar. Pişik arxası yastığa tərəf xeyli hazırlaşdı. Marqarita əliylə qulaqlarını tutub, buxarının üstündə mürgüləyən bayquşa baxırdı. Pişik hər iki tapançadan atəş açan kimi Gella çığırdı, ölmüş bayquş buxarıdan yerə düşdü və sınan saatın əqrəbləri dayandı. Əli qanayan Gella fəryad qoparıb pişikdən, o isə Gellanın saçından yapışdı və əlbəyaxa olub döşəmədə yumbalandılar. Qədəhin biri stoldan düşüb sındı.

–Bu qudurmuş məlunu məndən aralayın! – sinəsində oturmuş Gellanın əlindən qurtarmağa çalışan pişik vığıldadı.

Dalaşanları ayırdılar, Korovyev Gellanın güllə dəymiş barmağına üfürdü və yara sağaldı.

–Əlimin üstündə danışanda atəş aça bilmirəm! – Begemot kürəyindən qoparılmış bir cəngə tükü yerinə qoymağa çalışdı.

–Mərc gəlirəm ki, – Voland Marqaritaya baxaraq gülümsədi, – o, bunu qəsdən elədi. O, yaxşı güllə atır.

Gella pişiklə barışdı və barışıq əlaməti olaraq öpüşdülər. Yastığın altından kartı çıxarıb baxdılar. Azazellonun vurduğu ürəkdən başqa hamısı salamat idi.

–Bu ola bilməz, – şam işığına tutduğu karta baxa-baxa pişik israrla dedi.

Şənliklə keçən şam yeməyi davam eləyirdi. Qəndillərdəki şamlar əriyirdi, buxarının ətir qoxulu xoş istisi dalğa-dalğa otağa yayılırdı. Yeməkdən sonra Marqaritanın kefi durulmuşdu. O, Azazellonun siqarından buxarıya tərəf uçan gömgöy dairələri pişiyin qılıncın ucuna necə keçirdiyinə baxırdı. Gec olduğunu düşünsə də, heç hara getmək istəmirdi. Hər şeydən belə görünürdü ki, səhər saat

altıya az qalıb. Marqarita yaranan fasilədən istifadə eləyib çəkinə-çəkinə Volanda dedi:

–Daha gedim... Gecdir...

–Siz hara tələsirsiniz? – Voland nəzakətlə, ancaq soyuq tərzdə soruşdu. Qalanları susub özlərini elə göstərirdilər ki, guya, başları siqardan çıxan tüstü dairələrinə qarışıb.

–Bəli, vaxtdır, – Marqarita lap karıxıb bürüncək, ya plaş axtarırmış kimi ətrafına baxdı. Öz çılpaqlığından qəfil sıxılmağa başlamışdı. Stolun arxasından qalxdı. Voland bozarmış çirkli xalatını dinməzcə çarpayıdan götürdü və Korovyev onu Marqaritanın çiyninə atdı.

–Minnətdaram, messir, – Marqarita zorla eşidiləcək səslə deyib, sual dolu baxışlarla Volanda baxdı. Voland cavabında ona nəzakət və etinasızlıqla gülümsədi. Marqaritanı o saat qüssə bürüdü. Özünü aldadılmış hiss eiədi. Ziyafətdəki xidmətlərinin əvəzində, deyəsən, heç kim ona nə mükafat təklif eləməyə, nə də onu saxlamağa hazırlaşırdı. Halbuki getməyə artıq heç bir yeri olmadığı tamamilə aydındı. Malikanəyə qayıtmalı olacağını düşünəndə onu ümidsizlik sardı. Bəlkə, Azazello

Aleksandrov bağında çox həvəslə məsləhət gördüyü kimi, özü xahiş eləsin? "Yox, heç bir vəchlə!" – özlüyündə dedi.

–Salamat qalın, messir, – hündürdən dedi, ürəyində isə fikirləşdi: "Bircə buradan çıxım, sonra gedib özümü çaya ataram".

–Oturun bir görüm, – Voland qəfil hökmlə dedi.

Marqaritanın sir-sifəti dəyişdi və təzədən oturdu.

–Bəlkə, vidalaşmamışdan qabaq nəsə demək istəyirsiniz?

–Yox, heç nə, messir, – Marqarita vüqarla cavab verdi, – yalnız onu demək istəyirəm ki, əgər sizə bir dəlazım olsam, istədiyiniz hər şeyi həvəslə yerinə yetirməyə hazıram. Mən bir qırıq da yorulmamışam və ziyafətdə çox şənləndim. Ziyafət hələ də davam eləsəydi, minlərlə özünü asanın və qatilin dizimi öpməsinə həvəslə ixtiyar verərdim. – Marqarita Volanda, sanki, pərdə arxasından baxırdı, gözləri yaşla dolmuşdu.

–Düzdür! Siz tamamilə haqlısınız! – Voland qorxunc səslə bağırdı. – Elə də lazımdır!

–Elə də lazımdır! – Volandın ətrafındakılar da əks-səda kimi təkrar elədilər.

–Biz sizi sınayırdıq, – Voland dedi, – heç vaxt heç nə xahiş eləməyin! Heç vaxt və heç nə... Xüsusən də özünüzdən güclülərdən. Özləri təklif eləyər, özləri də hamısını verər. Oturun, məğrur qadın. – Voland ağır xalatı Marqaritanın çiynindən çəkib aldı və o yenə çarpayıda Volandın yanında oturası oldu. – Hə, Marqo, – Voland səsini yumşaltdı, – bu gün ev sahibəm olduğunuz üçün nə istəyirsiniz? Bu ziyafəti çılpaq yola verdiyiniz üçün nə arzulayırsınız? Dizinizə nə qədər qiymət qoyursunuz? Özünü asanlar adlandırdığınız qonaqlarımdın dəyən zərər nə qədərdir? Deyin! Artıq çəkinmədən deyə bilərsiniz, çünki indi mən təklif eləmişəm.

Marqaritanın ürəyi çırpındı, dərindən nəfəs alıb, nəyisə götür-qoy eləməyə başladı.

–Hə, di cəsarətli olun! – Voland onu həvəsləndirdi.

–Öz fantaziyanızı oyadın, ona qol-qanad verin! Təkcə elə islaholunmaz alçaq baronun qətl səhnəsində iştirakına

görə adamı mükafatlandırmağa dəyər, xüsusilə də həmin adam qadındırsa. Hə, nə oldu?

Marqaritanın az qalırdı nəfəsi kəsilsin və ürəyində tutduğu ən əziz sözü deməyə hazırlaşırdı ki, qəfil rəngi ağardı, ağzını açıb gözlərini bərəltdi. "Frida! Frida! Frida! – yalvarış dolu zəhlətökən bir səs qulağına qışqırdı. – Mənim adım Fridadır!" Və Marqarita dili dolaşa-dolaşa dedi:

–Deməli, mən... bir şey... xahiş eləyə bilərəm?

–Tələb eləyə bilərsiniz, tələb, mənim donnam, – Voland onun halını başa düşərək gülümsədi, – bir şey tələb eləyə bilərsiniz.

Ax... Marqaritanın öz sözünü Voland necə aydın tərzdə vurğuladı: – "bir şey!"

Marqarita yenə dərindən nəfəs alıb dedi:

–İstəyirəm ki, öz uşağını boğduğu cib dəsmalını bir də Fridaya göstərməsinlər.

Pişik gözünü göyə qaldırıb bərkdən köks ötürdü, ancaq heç nə demədi; görünür, ziyafətdə qulağının burulması yadından çıxmamışdı.

–Bu səfeh Fridadan, – Voland gülümsədi, – sizin rüşvət almaq ehtimalınız, əlbəttə, tamamilə istisna olunduğundan – bu axı sizin kraliça ləyaqətinizə yaraşmazdı – mən artıq nə eləyəcəyimi bilmirəm. Bircə o qalır ki, əsgi tapıb yataq otağımdakı bütün dəlmə-deşikləri tutam!

–Siz nə haqda danışırsınız, messir? – həqiqətən, anlaşılmaz olan bu sözlər Marqaritanı heyrətləndirdi.

–Sizinlə tam razıyam, messir, – pişik söhbətə qarışdı, – məhz əsgiylə! – Pəncəsini hirslə stola çırpdı.

–Mərhəmət haqqında danışıram, – Voland odlu gözünü Marqaritadan çəkmədən dediyini izah elədi. – Hərdən tamamilə gözlənilmədən və hiyləgərcəsinə o hər cür dəlmə-deşikdən içəri soxulur. Buna görə də əsgi barədə danışıram.

–Elə mən də bunu deyirəm! – pişik qışqırıb çəhrayı krem yaxılmış pəncələriylə sivri qulaqlarını örtərək, hər ehtimala qarşı Marqaritadan kənara çəkildi.

–İtil buradan, – Voland dedi.

–Mən hələ qəhvə içməmişəm, – pişik cavab verdi, – axı necə gedə bilərəm? Messir, məgər bayram axşamı süfrə arxasında qonaqları iki növə ayırırlar? Kimlərsə – birinci,

başqaları isə, o kədərli, simic bufetçi demiş, azacıq vaxtı ötmüş nərə balığı kimi – ikinci?

–Sus, – Voland ona əmr eləyib, Marqaritadan soruşdu:

–Belə çıxır ki, siz son dərəcə xeyirxah adamsınız? Yüksək mənəviyyatlı adamsınız?

–Yox, – Marqarita dilini sürüdü, – bilirəm ki, sizinlə ancaq açıq danışmaq olar və sizə açıq deyirəm: mən dəmdəməki adamam. Yalnız ona görə sizdən Fridanın xahişini elədim ki, ehtiyatsızlıq edib onda ümid oyatmışdım. O gözləyir, messir, o, mənim gücümə inanır. Əgər o aldanmış olsa, mən dəhşətli vəziyyətə düşərəm, ömür boyu rahatlığım olmaz. Daha neyləyəsən! Belə alındı.

–Aha, – Voland dedi, – aydındır.

– Siz bunu eləyərsiniz? – Marqarita astadan soruşdu.

–Heç bir vəchlə, – Voland cavab verdi, – əziz kraliça, məsələ belədir ki, burada xırda bir dolaşıqlıq baş verib. Hər idarə gərək öz işiylə məşğul olsun. Mübahisə etmirəm, bizim imkanlarımız yetərincədir, burnundan uzağı görməyən adamların güman elədiyindən də xeyli çoxdur...

–Hə, doğrudan, çoxdur, – görünür, bu imkanla fəxr eləyən pişik dözməyib dedi.

–Sus, lənətə gəimiş! – Voland onun üstünə çəmkirib, yenə Marqaritaya müraciət elədi: – Sadəcə, bayaq ifadə elədiyim kimi, başqa idarəyə aid işi görməyin nə mənası var? Mən bunu etməyəcəyəm, özünüz eləyin.

–Məgər mən eləyə bilərəm?

Azazello çəp gözünü istehzayla qıyıb Marqaritaya baxaraq, kürən başını hiss edilmədən döndərib fınxırdı.

–Eləyin də,yordunuz ki bizi,– Voland donquldandı və qlobusu fırlayıb nəyəsə diqqətlə baxdı; görünür, Marqaritayla danışdığı vaxt başqa işlə də məşğul olurdu.

–Hə, Frida... – Korovyev xəlvətcə ona pıçıldadı.

–Frida! – Marqarita çığırdı.

Qapı açıldı, saçları pırtlaşıq, ancaq kefliliyindən artıq əsər-əlamət qalmamış, ətrafına dəli kimi heyrətli gözlərlə baxan çılpaq qadın qaçaraq otağa girib əllərini Marqaritaya uzatdı, o isə vüqarla dedi:

–Səni bağışlayırlar. Daha sənə dəsmal göstərməyəcəklər.

Frida hönkürdü, üzü üstə döşəməyə sərilib Marqaritanın qarşısında qollarını yana açdı. Voland əlini yellədi və Frida gözdən itdi.

–Sizə minnətdaram, əlvida, – Marqarita ayağa qalxdı.

–Neyləyək, Begemot, – Voland dilləndi, – deyirəm, bayram axşamı insanın təcrübəsizliyindən bəhrələnməyək, – o, Marqaritaya tərəf çevrildi, – hə, belə, bu, hesabdan deyil, mən axı heç nə eləməmişəm. Özünüz üçün nə istəyirsiniz?

Sükut çökdü və bu sükutu Korovyevin pıçıltısı pozdu:

–Mənim almaz donnam, məsləhət görürəm bu dəfə ağıllı olasınız! Yoxsa qismətiniz sizdən üz döndərə də bilər.

–İstəyirəm bu saat, elə bu an sevgilim masteri mənə qaytarsınlar, – Marqaritanın sifəti həyəcandan dəyişib tanınmaz hala düşdü.

Bu vaxt otağa külək doldu, qəndillərdəki şamların alovu dalğalandı, pəncərənin ağır pərdələri aralandı, pəncərə açıldı, lap uzaqda, yüksəklikdə bədirlənmiş ay göründü, ancaq bu, sübh çağının yox, gecəyarının ayı idi. Pəncərədən döşəməyə gecə işığının yaşılımtıl örpəyi sərildi və İvanuşkanın özünü master adlandıran gecə qonağı bu işığın

üstündə peyda oldu. Master xəstəxana geyimindəydi – əynində xalat, ayağında şap-şap, başında heç vaxt ayrılmadığı qara papaq. Onun tüklü sifəti səyridi, bərk qorxmuş halda çəp-çəp şamların işığına baxdı, ətrafında isə ay seli aşıb-daşırdı.

Marqarita onu dərhal tanıdı, inildəyib əllərini bir-birinə vuraraq ona sarı qaçdı. Masterin alnından, dodaqlarından öpdü, üzünü onun tüklü cod sifətinə söykədi, göz yaşlarını daha saxlaya bilmədi. O heç nə düşünmədən elə hey bir sözü təkrar eləyirdi:

–Sənsən... sənsən... sənsən...

Master onu özündən aralayıb boğuq səslə dedi:

–Ağlama, Marqo, mənə əzab vermə. Mən ağır xəstəyəm. – Tullanıb qaçmaq istəyirmiş kimi pəncərənin qabağından yapışdı, oturanlara göz gəzdirib dişlərini qıcırdadaraq bağırdı: – Mən qorxuram, Marqo! Yenə qarabasma başladı...

Marqarita hönkürtüdən boğulurdu və boğula-boğula da pıçıldadı:

–Yox, yox, yox... heç nədən qorxma... mən səninləyəm... mən səninləyəm...

Korovyev hiss etdirmədən cəld masterin altına stul çəkdi və o, stula çökdü, Marqarita isə diz çöküb xəstənin böyrünə sığındı. Keçirdiyi həyəcandan çılpaqlığının qəfil yoxa çıxdığını duymamışdı, indi onun əynində qara ipək plaş var idi. Xəstə başını aşağı salıb, qaşqabağını tökərək iztirablı baxışlarını yerə dikdi.

–Hə, – Voland sükutu pozdu, – onu yaman günə qoyublar. – O, Korovyevə əmr elədi: – İgid, bu adama içməyə bir şey ver.

Marqarita titrək səslə masterə yalvardı:

–İç, iç! Sən qorxursan? Yox, yox, mənə inan, sənə kömək eləyəcəklər!

Xəstə stəkanı götürüb içdi, ancaq əli əsdiyindən boşalmış stəkan ayağının altına düşüb sındı.

–Xeyirliyədir! Xeyirliyədir! – Korovyev Marqaritaya pıçıldadı. – Baxın, o artıq özünə gəlir.

Doğrudan da, xəstənin gözlərindəki qorxu, narahatlıq bir qədər azalmışdı.

–Bu sənsən, Marqo? – ay qonağı soruşdu.

–Narahat olma, mənəm, – Marqarita cavab verdi.

–Bir də süz! – Voland əmr etdi.

Master ikinci stəkanı da boşaldandan sonra baxışları sərrastlaşdı.

–Bax bu, başqa məsələ, – Voland gözlərini qıydı, – indi söhbətimizi eləyək. Siz kimsiniz?

–Mən indi heç kiməm, – master kinayəylə gülümsədi.

–İndi haradan gəlirsiniz?

–Ələm evindən. Mən ruhi xəstəyəm, – gələn adam dedi.

Marqarita bu sözlərə dözməyib yenə ağladı. Sonra göz yaşlarını silib qışqırdı:

–Dəhşətli sözlərdir! Dəhşətli sözlərdir! Messir, o masterdir, sizi bu barədə xəbərdar eləyirəm! Onu sağaldın, o, buna layiqdir!

–Siz indi kiminlə danışdığınızı, – Voland gələn adamdan soruşdu, – kimin qarşısında olduğunuzu bilirsinizmi?

–Bilirəm, – master cavab verdi, – o uşaq, İvan Bezdomnı dəlixanada mənim qonşum idi. Sizin barənizdə o, mənə danışıb.

–Əlbəttə, əlbəttə, – Voland dedi, – Patriarx gölündə o cavan oğlanla görüşmək mənə nəsib olub. Mənə sübut eləməyə çalışırdı ki, mən yoxam, az qalmışdı mənim özümü dəli eləsin! Bəs siz inanırsınızmı ki, həqiqətən, bu mənəm?

–İnanmaq lazım gəlir, – gələn adam dedi, – ancaq əlbəttə, sizi qarabasmanın nəticəsi hesab eləmək daha yaxşı olardı. Bağışlayın məni, – master birdən ayılan kimi olub əlavə elədi.

–Eybi yox, əgər bu cür rahatdırsa, elə də hesab eləyin, – Voland nəzakətlə cavab verdi.

–Yox, yox! – Marqarita qorxmuş halda masterin çiynindən tutub silkələdi. – Özünə gəl! Qarşındakı, doğrudan da, odur!

Pişik söhbətə qarışdı:

–Mənsə, doğrudan da, qarabasmaya oxşayıram. Ay işığında mənim profilimə nəzər salın. – Pişik özünü ay işığının altına verib, yenə nəsə demək istədi, ancaq ondan

susmasını xahiş elədilər, o isə: – Yaxşı, yaxşı, susmağa hazıram. Mən danışmayan qarabasma olacağam, – deyib susdu.

–Deyin, niyə Marqarita sizi master adlandırır? – Voland soruşdu.

O, kinayəylə gülümsədi:

–Bunu bağışlamaq olar. O, mənim yazdığım roman haqqında həddən artıq yüksək fikirdədir.

–Roman nə barədədir?

–Ponti Pilat barədə.

Bu vaxt şamların alovu yenə titrəyib yırğalandı, stolun üstündəki qab-qacaq cingildədi. Voland bərkdən şaqqanaq çəkdi, ancaq göy gurultusunu andıran bu gülüş heç kimi qorxutmadı, heç kimi də təəccübləndirmədi. Begemot nədənsə əl çaldı.

–Nə haqda, nə haqda? Kimdən? – Voland gülməyini kəsib dedi. – Bu dövrdə? Mat qalınasıdır! Başqa mövzu tapa bilmirdiniz? Verin bir baxım, – Voland əlini uzatdı.

–Təəssüflər olsun ki, bunu eləyə bilməyəcəyəm, – master cavab verdi, – çünki romanı sobada yandırmışam.

–Bağışlayacaqsınız, inanmıram, – Voland dedi, – bu ola bilməz. Əlyazmalar yanmır. – O, Begemota tərəf çevrildi. – Hə, Begemot, romanı bura ver görüm.

Pişik dərhal stuldan sıçradı və hamı gördü ki, o, bir yığın əlyazmanın üstündə oturubmuş. Pişik bu qalın topadan lap üstdəki nüsxəni çəkib təzimlə Volanda verdi. Marqarita titrəyib qışqırdı, həyəcandan yenə göz yaşlarını saxlaya bilmədi.

–Odur, əlyazmadır! Odur!

Volanda sarı atılıb heyranlıqla əlavə elədi:

–Siz hər şeyə qadirsiniz! Hamıdan qüdrətlisiniz!

Voland ona təqdim olunan nüsxəni əlinə götürdü,çevirib bir kənara qoydu və dinməzcə gözünü masterə zillədi. Ancaq master nədənsə həyəcanlanıb qəm dəryasına batdı, stuldan qalxdı, əllərini şaqqıldada-şaqqıldada üzünü uzaqdakı aya tutub mızıldadi:

–_ Aylı, gecədə mənim rahatlığım yoxdur... Niyə məninarahat elədilər? Ah, allahlar, allahlar...

Marqarita xəstəxana xalatından yapışıb ona sığındı, özü də göz yaşları və qəm-qüssə içində mızıldadı:

–İlahi, axı niyə ona dərmanlar kömək eləmir?

–Eybi yox, eybi yox, eybi yox, – Korovyev masterin böyür-başına keçərək pıçıldadı, – eybi yox, eybi yox... Bir stəkan da, mən də sizə yoldaşlıq eləyərəm...

Stəkan isə göz vurdu – ay işığında bərq vurdu və bu dəfə köməyi oldu bu stəkanın. Masteri yerinə oturtdular, o, bir az sakitləşdi.

–Hə, indi hər şey aydındır, – Voland uzun barmaqlarını əlyazmaya döyəclədi.

–Tamamilə aydındır, – pişik dinməz qarabasma olacağına söz verdiyini unudub təsdiq elədi, – indi bu əsərin ana xətti mənə tam aydındır. Nə dedin, Azazello? – o, sakitcə dayanmış Azazellodan soruşdu.

–Dedim ki, – Azazello burnunda danışaraq dilləndi, – səni suda boğmaq yaxşı olardı.

–Mərhəmətli ol, Azazello, – pişik cavab verdi, – mənim hökmdarmı da bu fikrə salma. İnan ki, hər gecə bu bədbəxt master kimi ay işığına bürünüb sənin gözünə görünərəm, başımla işarə eləyərəm, arxamca çağıraram. Onda halın necə olar, Azazello?

–Hə, Marqarita, – Voland yenə söhbətə qarışdı, – deyin, sizə nə lazımdır?

Marqaritanın gözləri parıldadı və yalvarışla Volanda müraciət elədi:

–İcazə verərsinizmi onunla danışım?

Voland başını tərpətdi və Marqarita masterin qulağına nəsə pıçıldadı. Onun Marqaritaya nə dediyi eşidildi:

–Yox, gecdir. Səni görməkdən savayı həyatdan daha heç nə ummuram. Ancaq sənə yenə məsləhət görürəm, məndən əl çək. Mənimlə həyatın puç olacaq.

–Yox, səndən əl çəkmərəm, – Marqarita bunu deyib, üzünü Volanda tutdu: – Xahiş eləyirəm bizi yenə Arbat küçəsindəki zirzəmiyə qaytarın, qoy yenə işığımız yansın, hər şey əvvəlki kimi olsun.

Master gülüb onun qıvrım saçlı başını sinəsinə sıxdı.

–Ah, messir, bu zavallı qadına qulaq asmayın. Həmin zirzəmidə çoxdan başqa adam yaşayır, bir də ki, hər şeyin əvvəlki kimi olması, ümumiyyətlə, mümkün deyil. – Sevgilisini qucaqlayıb üzünü onun başına söykəyərək mızıldadı: – Zavallı qadın, zavallı qadın...

–Deyirsiniz, mümkün deyil? – Voland dedi. – Düzdür. Ancaq biz yoxlayarıq. – Və əmr elədi: – Azazello!

O saat tavandan döşəməyə çaşqın, ağlını itirmək dərəcəsinə çatmış bir adam düşdü. Alt paltarında olan bu adamın nədənsə əlində çamadan, başında kepka var idi. O, qorxudan titrəyərək yerə oturdu.

–Moqarıç? – Azazello göydən düşən adamdan soruşdu.

–Aloizi Moqarıç, – o, əsə-əsə cavab verdi.

–Tənqidçi Latunskinin bu adamın romanı haqqındakı məqaləsini oxuyub, evində qadağan olunmuş ədəbiyyat saxladığı barədə ondan şikayət yazan sizsiniz? – Azazello soruşdu.

Yenicə peyda olmuş adam göyərib, gözündən gildir-gildir peşmançılıq yaşları tökdü.

–Siz onun otağını ələ keçirmək istəyirdiniz? – Azazello mümkün qədər səmimiyyətlə mızıldadı.

Otaqda qəzəblənmiş pişiyin fısıltısı eşidildi və Marqarita ulayaraq:

–Gözün ifritə görsün! – deyib dırnaqlarını Aloizinin sifətinə keçirtdi.

Ara qarışdı.

–Sən nə eləyirsən? – master iztirabla qışqırdı. – Marqo, özünü biabır eləmə!

–Etiraz eləyirəm! Bu, biabırçılıq deyil! – pişik bağırdı.

Korovyev Marqaritanı kənara çəkdi.

–Mən vanna qoymuşam... – qana batmış Moqarıç dişləri bir-birinə dəyə-dəyə vahimə içində çərənlədi, – tək elə ağartmaq... kuporos... nəyə başa gəldi...

–Lap yaxşı eləyib vanna qoymusan, – Azazello razılıqla bildirdi, – ona elə vanna qəbul etmək lazımdır. – Və qışqırdı: – İtil!

Volandın yataq otağından Moqarıçı təpəsi üstə çıxartdılar.

Master gözlərini bərəldib pıçıldadı:

–Bu, deyəsən, İvanın danışdıqlarından beşbetər olacaq! – Sarsılmış halda ətrafına göz gəzdirib, nəhayət, pişiyə dedi: – Bağışlayın... bu sənsən... sizsiniz... – pişiyə necə müraciət eləyəcəyini bilməyib çaşdı, – siz tramvaya minən həmin pişiksiniz?

–Mənəm, – deyib məmnun olmuş pişik əlavə elədi:

–Pişiyə bu cür nəzakətlə müraciət etməyiniz çox xoşdur. Pişiyə nəyə görəsə, adətən, "sən" deyirlər, halbuki heç bir pişik dostluq əlaməti olaraq kiminləsə qollarını bir-birinə keçirib içməyib.

–Nədənsə mənə elə gəlir, siz heç də pişik deyilsiniz... – master tərəddüdlə dedi. – Onsuz da, məni xəstəxanada axtaracaqlar, – o, çəkinə-çəkinə Volanda bildirdi.

–Nəyə əsasən axtaracaqlar ki! – Korovyev onu sakitləşdirib əlində hansısa kağızlar və kitabçalar peyda oldu.

–Sizin xəstəlik tarixçənizdir?

–Bəli.

Korovyev xəstəlik tarixçəsini buxarıya atdı.

–Sənəd yoxdursa, adam da yoxdur, – Korovyev məmnunluqla dedi, – bu da sizin evtikənin ev dəftəridir?

–Hə-ə...

– Orada kim qeydiyyatdadır? Aloizi Moqarıç? – Korovyev ev dəftərinin səhifəsinə üfürdü. – Hərgah o yoxdursa, deməli, heç olmayıb. Əgər evtikən təəccüblənsə, deyin, Aloizini yuxuda görüb. Moqarıç? Moqarıç kimdir?

Moqarıç adlı adam olmayıb. – Bu vaxt qaytanlı kitabça Korovyevin əlindən yoxa çıxdı. – Kitab artıq evtikənin stolunun üstündədir.

–Siz doğru dediniz ki, – Korovyevin gördüyü işin səliqəsinə mat qalan master bildirdi, – sənəd yoxdursa, adam da yoxdur. Bax elə məhz mən də yoxam, mənim sənədim yoxdur.

–Üzr istəyirəm, – Korovyev qışqırdı, – elə məhz bu, qarabasmadır, sizin sənədiniz bax budur, – və Korovyev sənədi masterə təqdim elədi. Sonra gözünü süzdürüb məmnunluqla Marqaritaya pıçıldadı: – Bu da sizin əşyalarınız, Marqarita Nikolayevna, – o, kənarları yanmış dəftəri, qurumuş qızılgülü, fotoşəkli və əmanət kitabçasını çox ehtiyatla Marqaritaya verdi, – bu da, Marqarita Nikolayevna, sizin banka qoymaq istədiyniz on min. Özgənin pulu bizə lazım deyil.

–Özgənin bir əşyasına toxunsam, əlim quruyar, – başıbəlalı romanın bütün nüsxələrini çamadana yerləşdirmək üçün onun üstündə atılıb-düşən pişik qürurla dedi.

–Bu da sizin sənədiniz, – Korovyev sənədi Marqaritaya uzadıb, Volanda hörmətlə məlumat verdi: – Qurtardı, messir!

–Yox, qurtarmadı, – Voland qlobusdan gözünü çəkib dedi. – Mənim əziz donnam, ixtiyar sizindir, müşayiətçilərinizi neyləyək? Onlar şəxsən mənə lazım deyillər.

Bu vaxt Nataşa açıq qapıdan əvvəlki kimi çılpaq halda qaçıb gəldi, əllərini bir-birinə vurub bərkdən Marqaritaya dedi:

–Xoşbəxt olun, Marqarita Nikolayevna! – O, masterə baş əyib, yenə Marqaritaya tərəf döndü. – Sizin hara getdiyinizi mən yaxşı bilirdim.

–Ev qulluqçuları hər şeyi bilir, – pişik mənalı-mənalı pəncəsini qaldırdı, – onların kor olduğunu düşünmək səhvdir.

–Sən nə istəyirsən, Nataşa? – Marqarita soruşdu.

–Qayıt malikanəyə.

–Əzizim, canım Marqarita Nikolayevna, – Nataşa yalvarıb diz üstə çökdü, – onlardan xahiş eləyin, – o,

Volanda tərəf baxdı, – ifritə kimi qalım. Daha malikanəyə qayıtmaq istəmirəm! Nə mühəndisə, nə texnikə ərə gedəcəyəm! Cənab Jak dünən ziyafətdə mənə evlənmək təklif elədi.

–Nataşa ovcunu açdı və əlində qızıl sikkələr göründü.

Marqarita sual dolu baxışlarını Volanda dikdi. Voland başını tərpətdi. Onda Nataşa Marqaritanın boynuna atılıb marçıltıyla onu öpdü və sevincək qışqırıb pəncərədən uçdu.

Nataşanın yerini Nikolay İvanoviç tutdu. O, əvvəlki görkəmini almışdı, ancaq çox qaşqabaqlı, hətta acıqlı idi.

–Bu adam burada o qədər artıqdır ki, – Voland Nikolay İvanoviçi nifrətlə süzdü, – bax onu böyük, son dərəcə böyük məmnuniyyətlə buraxaram getsin.

– Xahiş eləyirəm, bu gecəni harada keçirdiyim barədə, – Nikolay İvanoviç heyrətlə ətrafına baxsa da, inadcıllıqla dedi, – mənə sənəd verəsiniz.

–Nə məqsədlə? – pişik acıqla soruşdu.

–Arvadıma və milisə təqdim eləmək üçün, – Nikolay İvanoviç qətiyyətlə dedi.

–Biz, adətən, belə sənəd vermirik, – pişik mısmırığını salladı, – ancaq neyləyək, sizin üçün istisna edərik.

Nikolay İvanoviç özünə gəlməyə macal tapmamış, çılpaq Gella artıq makinanın arxasında oturmuşdu, pişik isə ona diktə eləyirdi:

–Özüm təsdiq edirəm ki, bunu təqdim eləyən Nikolay İvanoviç göstərilən gecəni şeytanın ziyafətində keçirib, oraya minik vasitəsi kimi cəlb olunub... Gella, dırnaq aç! Dırnaq içində "axta donuz" yaz. İmza – Begemot.

–Bəs tarix? – Nikolay İvanoviç mızıldadı.

–Tarix qoymuruq, tarix qoyanda sənəd etibarsız sayılır, – pişik kağıza tələsik qol çəkdi, haradansa möhür çıxartdı, necə lazımsa ona hovxurdu və möhür vurub Nikolay İvanoviçə verdi. Bundan sonra Nikoiay İvanoviç izsiz-soraqsız yoxa çıxdı, onun yerində isə yeni gözlənilməz qonaq peyda oldu.

–Bu kimdir belə? – Voland şamın işığından əliylə daldalanıb iyrənə-iyrənə soruşdu.

Varenuxa başını aşağı dikdi, dərindən nəfəs alıb astadan dedi:

–Məni geri qaytarın. Vampir ola bilmərəm. Axı o vaxt Rimskini Gella ilə az qalmışdı öldürəm! Mənsə qəddar deyiləm. Buraxın gedim.

–Bu nə sayıqlayır? – Voland üz-gözünü qırışdırdı.

–Rimski kimdir? Bu nə cəfəngiyat danışır?

–Narahat olmayın, messir, – deyib Azazello Varenuxaya müraciət elədi: – Telefonda yekəbaşlıq eləmək olmaz. Telefonda yalan danışmaq olmaz. Aydındır? Belə şeylərlə daha məşğul olmayacaqsınız?

Sevincdən Varenuxanın başı gicəlləndi, gözləri parıldadı və nə dediyini anlamadan donquldandı:

–Həqiqi... əlahə... yəni demək istəyirəm... dərhal nahardan sonra... – Varenuxa əlini sinəsinə sıxıb yalvarışla Azazelloya baxdı.

–Yaxşı, evə getsin, – o dedi və Varenuxa gözdən itdi.

–İndi hamınız məni onlarla tək buraxın, – Voland masterlə Marqaritanı göstərib əmr elədi.

Volandın əmri dərhal yerinə yetirildi. Bir qədər sükutdan sonra Voland masterə müraciət elədi:

–Deməli, Arbatdakı zirzəmiyə? Bəs kim yazacaq? Bəs arzular, ilham?

–Artıq mənim heç bir arzum yoxdur, ilhamım da yoxdur, – master cavab verdi, – ətrafımda heç nə məni maraqlandırmır, ondan savayı, – əlini yenə Marqaritanın başına qoydu, – məni sındırdılar, hər şey darıxdırıcıdır, mən zirzəmiyə qayıtmaq istəyirəm.

–Bəs sizin roman? Pilat?

–Mən bu romanı görmək belə istəmirəm, – master cavab verdi, – ona görə başımçox bəlalar çəkib.

–Yalvarıram sənə, – Marqarita yanıqlı-yanıqlı xahiş elədi, – belə danışma. Niyə mənə əzab verirsən? Ozün bilirsən ki, bütün ömrümü sənin əsərinin yolunda qoymuşam. – Marqarita üzünü Volanda tutdu. – Ona qulaq asmayın, messir, o, çox əzab çəkib.

–Axı nəsə yazmaq lazımdır! – Voland dedi. – Əgər prokuratordan hər şeyi yazmısınızsa, heç olmasa, bu Aloizini başlayın təsvir eləməyə.

Master gülümsədi:

–Bunu Lapşyonnikova çap eləməz, üstəlik də, maraqsızdır.

–Bəs nəylə dolanacaqsınız? Axı korluq çəkəcəksiniz?

–Böyük məmnuniyyətlə, – master Marqaritanı özünə tərəf çəkib qucaqladı, – o ağıllanıb məndən ayrılacaq...

–Düşünmürəm, – Voland ağızucu deyib sözünə davam elədi: – Deməli, Ponti Pilatın tarixçəsini yazan adam lampanınböyründə oturub yoxsulluq içində yaşamaq üçün zirzəmiyə gedir?

Marqarita masterdən aralanıb coşqunluqla dedi:

–Mən nə bacarıramsa, etdim, ən şirnikdirici şeylər dedim. Ancaq o, bunlardan imtina elədi.

–Ona nələr pıçıldadığınızı bilirəm, – Voland dedi, – ancaq bunlar ən şirnikdirici şeylər deyil. Mənsə deyə bilərəm ki, – gülümsəyib masterə müraciət elədi, – romanınız sizə hələ sürprizlər bəxş eləyəcək.

–Bu çox kədərlidir, – master cavab verdi.

–Yox, yox, kədərli deyil, – Voland dedi, – daha qorxulu heç nə olmayacaq. Hə, Marqarita Nikolayevna, hər şey həll olundu. Mənə bir iradınız yoxdur ki?

–Ah, bu nə sözdür, messir, bu nə sözdür!

–Onda bunu məndən yadigar olaraq götürün, – Voland yastığın altından üstünə almaz qaşlar düzülmüş elə də böyük olmayan qızıl nal çıxartdı.

–Yox, yox, yox, nə münasibətlə?!

–Siz mənimlə mübahisə eləmək istəyirsiniz? – Voland gülümsəyərək soruşdu.

Plaşın cibi olmadığı üçün Marqarita nalı salfetə büküb düyünlədi. Bu vaxt nəsə onu təəccübləndirdi. Ayın işıq saçdığı pəncərəyə boylanıb dedi:

–Bir şeyi başa düşmürəm... Bu nə deməkdir, elə hey gecədir, axı çoxdan səhər açılmalıydı.

–Bayram gecəsini bir az uzatmaq da xoşdur, – Voland cavab verdi. – Di sizə xoşbəxtlik arzulayıram!

Marqarita dua eləyirmiş kimi hər iki əlini Volanda uzatdı, ancaq yaxınlaşmağa cürət eləməyib astadan dedi:

–Əlvida! Əlvida!

–Hələlik, – Voland dedi.

Marqarita qara plaşda, master xəstəxana xalatında zərgər arvadının mənzilinin şamlar yanan və Volandın

əshabələrinin onlan gözlədiyi dəhlizinə çıxdılar. Dəhlizlə gedəndə içərisində Marqaritanın xırda əşyaları və roman olan çamadanı Gella götürmüşdü, pişik isə ona kömək eləyirdi. Mənzilin kandarında Korovyev baş əyib yoxa çıxdı, qalanlar yola salmaq üçün pilləkənlə düşdülər. Pilləkəndə heç kim yox idi. Üçüncü mərtəbənin meydançasında nəsə tappıldadı, ancaq buna fikir verən olmadı. Binanın altıncı giriş qapısının lap ağzında Azazello qabağa düşdü və ayın görünmədiyi həyətə yenicə çıxmışdılar ki, binanın artırmasında ölü kimi yatan çəkməli, kepkalı bir adamı və küçə qapısında fənərləri söndürülmüş iri qara maşının dayandığını gördülər. Qabaq şüşədən zağcanın tutqun silueti gözə dəyirdi.

Maşına oturmağa hazırlaşırdılar ki, Marqarita ümidsiz halda astadan qışqırdı:

–İlahi, mən nalı itirmişəm!

–Maşına oturub, – Azazello dedi, – məni gözləyin. Məsələni aydınlaşdırıb tezcə qayıdıram. – Və binaya girdi.

Məsələ isə belə olmuşdu: Marqaritayla masterin öz müşayiətçilərilə evdən çıxmasına az qalmış altdakı 48 №-li

mənzildən pilləkənə əlində bidon və zənbil olan arıq bir qadın çıxmışdı. Bu həmin Annuşka idi ki, Berliozun bədbəxtliyindən çərşənbə günü fırlanğıcın yanında günəbaxan yağını yerə dağıtmışdı.

Bu qadının Moskvada nəylə məşğul olduğunu, nəylə dolandığını heç kim bilmirdi, yəqin, heç vaxt da bilməyəcəkdi. Haqqında yalnız o məlum idi ki, onu hər gün ya bidonla, ya zənbillə, ya da hər ikisiylə gah neft satılan dükanda, gah bazarda, gah binaların girişində, gah pilləkəndə, daha çox da özünün yaşadığı 48 №-li mənzilin mətbəxində görmək olardı. Bundan başqa, məlumdu ki, Annuşka harada olur-olsun, harada görünür-görünsün, həmin yerdə dərhal qalmaqal qopurdu, məhz buna görə də ona "Taun" ləqəbi qoymuşdular.

Taun-Annuşka yuxudan çox tez dururdu, bu gün isə lap vaxtsız, birə işləyəndə nəsə onu oyatdı. Qapının açarı fırlandı, Annuşkanın burnu, sonra özü göründü, qapını arxasınca örtdü və artıq harasa getməyə hazırlaşırdı ki, üst meydançada qapı çırpıldı, kimsə pilləkənlə aşağı

yumbalandı və Annuşkayla toqquşub onu elə kənara atdı ki, peysəri zərblə divara dəydi.

–Tuman-köynəkdə hansı cəhənnəmə tələsirsən, hə? – Annuşka boynunu tutub zingildədi. Alt tuman-köynəyində, əlində çamadan, başında kepka olan adam gözləri yumulu halda yuxulu, kal səslə Annuşkaya cavab verdi:

–Kolonka! Kuporos! Tək elə ağartmaq nəyə başa gəlmişdi. – Və hıçqırıb bağırdı: – Rədd ol!

O, pilləkənlə aşağı yox, yuxarıya – iqtisadçının ayağıyla şüşəsini vurub sındırdığı pəncərəyə tərəf açıldı və bu pəncərədən təpəsi üstə həyətə uçdu. Annuşka hətta peysərindəki ağrını da unudub, ufuldayaraq pəncərəyə tərəf cumdu. Pəncərədən sallanıb başını həyətə uzatdı ki, küçə fənərinin işıqlandırdığı asfaltda xurd-xəşil olmuş əli çamadanlı adamı görəcək. Ancaq bu adamın asfaltda izi-tozu da yox idi.

Bircə güman etmək olardı ki, bu yuxulu və qəribə adam özündən sonra heç bir iz qoymadan binadan quş kimi uçub. Annuşka xaç çəkib düşündü: "Doğrudan da, əlli nömrə! Əbəs yerə demirlər!.. Mənzilə bax e!"

Əməlli-başlı düşünməyə macal tapmamış yuxarıda qapı yenə çırpıldı və yenə kimsə aşağı qaçdı. Annuşka divara sıxılıb, kifayət qədər mötəbər, ancaq sifətdən donuza bənzəyən saqqallı adamın yanından ötərək, bayaqkı adam kimi asfalta çırpılıb öləcəyini ağlına belə gətirmədən pəncərədən abldığını gördü. Annuşka harasa getdiyini unudub xaç çəkə-çəkə, ufuldaya-ufuldaya, öz-özüylə danışa-danışa pilləkəndə quruyub qaldı.

Az sonra uzun köynək geyinmiş, sifəti tərtəmiz qırxılmış yumrusifət üçüncü adam yuxarıdan qaçaraq gəlib, o birilər kimi pəncərədən uçub-getdi.

Annuşkanı fərqləndirən xüsusiyyətlərdən biri də hər şeylə maraqlanması idi və yeni möcüzələrin olub-olmayacağını bilmək üçün bir az da gözləmək qərarına gəldi. Yuxarıdakı qapı yenə açıldı, bu dəfə qaça-qaça yox, bütün adamlar kimi adi yerişlə böyük bir dəstə pilləkənlə enməyə başladı. Annuşka pəncərədən çəkilib öz mənzilinin qabağına gəldi, tezcə qapını açıb arxasında gizləndi və maraqdan bərəlmiş gözləri azca aralı saxladığı qapının arasından parıldadı.

Saç-saqqal basmış, solğun sifəti, qara papaqlı və əynində xalat olan xəstəhal qəribə bir adam addımlarını ehmalca ataraq aşağıya enirdi. Qara əba geyinmiş – yarıqaranlıqda Annuşkaya belə göründü – bir qadın ehtiyatla onun qolundan tutmuşdu. Qadın ayaqyalındı, ya da ayağında bu üzündən o üzü görünən – yəqin, xariciydi – didik-didik tufli var idi. Tfu! Tuflinin içindəki nədir? Qadın çılpaq imiş ki! Hə də, əbanı birbaşa çılpaq bədəninə geyinib! "Mənzilə bax e!" Səhər qonşulara danışacaqlarını xəyalına gətirdikcə Annuşkanın ləzzətdən çiçəyi çırtlayırdı.

Qəribə tərzdə geyinmiş qadının aıxasınca əlində çamadan tutmuş tamam çılpaq bir qız gəlirdi, çamadanın böyründə isə nəhəng qara pişik vurnuxurdu. Annuşka gözlərini silə-silə az qalmışdı bərkdən ciyildəsin.

Dəstənin sonunda pencəksiz, ağ frak jiletli və qalstuklu axsaq, balacaboy, bir gözü çəp əcnəbi gəlirdi. Dəstə Annuşkanın yanından keçib aşağı düşdü. Bu vaxt meydançada nəsə tappıldadı.

Addım səslərinin zəiflədiyini eşidən Annuşka ilan kimi qapının dalından sivişib çıxdı, bidonu divarın yanına qoydu,

meydançaya sərilib əlini ətrafına gəzdirdi. Əlinə salfetə bükülü nəsə ağır bir şey keçdi. Bağlamanı açanda gözü kəlləsinə çıxdı. Qiymətli əşyanı lap gözünə yaxınlaşdırdı və bu gözlər canavar gözü kimi parıldadı. Annuşkanın başında hər şey qarışmışdı:

"Heç nə bilmirəm, heç nədən xəbərim yoxdur!.. Qardaşoğluna verim? Ya parça-parça doğrayım?.. Qaşları oyub çıxarmaq olar... Hərəsinə bir qaş: birini Petrovkaya, birini Smolenskiyə... Heç nə bilmirəm, heç nədən də xəbərim yoxdur!"

Annuşka tapdığını qoynunda gizlədib bidondan yapışdı ki, şəhərə səfərini təxirə salıb yenə mənzilinə girsin, həmin o pencəksiz, ağ sinəli adam haradansa peyda olub qarşısını kəsdi.

–Nalı, salfeti bəri ver.

–Nə salfet, nə nal? – Annuşka çox məharətlə özünü bilməzliyə vurdu. – Salfet-zad görməmişəm. Vətəndaş, siz keflisiniz-nədir?

Pencəksiz adam daha heç nə demədən avtobus tutacağı kimi möhkəm, o qədər də soyuq barmaqlarıyla Annuşkanın

boğazını nə təhər sıxdısa, sinəsinə gedən havanın yolunu tamam kəsdi. Bidon Annuşkanın əlindən yerə düşdü. Pencəksiz əcnəbi onu bir az havasız saxlayandan sonra əlini boğazından araladı. Annuşka dərindən nəfəs alıb gülümsədi.

–Hə-ə, nalı? – o dilləndi. – Bu dəqiqə! Demək, sizin naldır? Mənsə gördüm salfetə bükülü durub... Qəsdən götürdüm ki, heç kimin əlinə keçməsin, yoxsa sonra gəl düş azara!

Əcnəbi nalı, salfeti alıb ayaqlarını bir-birinə vuraraq Annuşkaya təzim etdi, əlini bərk-bərk sıxıb aksentlə danışa-danışa qızğıncasına ona öz təşəkkürünü bildirməyə başladı:

–Sizə dərindən minnətdaram, madam. Bu nal mənə xatirə kimi əzizdir. Onu saxladığınız üçün icazənizlə sizə iki yüz rubl verim. – Və dərhal jiletin cibindən pul çıxarıb Annuşkaya verdi.

O isə sevincək halda yalnız bu sözləri deyə bildi:

–Ah, sizə necə də minnətdaram! Mersi! Mersi!

Səxavətli əcnəbi pilləkənləri bir anda düşdü, ancaqtamam gözdən itməmiş aşağıdan bu dəfə aksentsiz qışqırdı:

–Qoca ifritə, əgər bir də başqasının əşyasını tapsan, onu milisə təhvil ver, qoynunda gizlətmə!

Pilləkəndəki bütün bu hadisələrdən beyni qarışmış Annuşka ixtiyarsız olaraq hələ bir müddət qışqırmağına davam elədi:

–_ Mersi! Mersi! Mersi! – Əcnəbi isə artıq çoxdan yoxolmuşdu.

Həyətdə maşınlar da yox idi. Volandın hədiyyəsini Marqaritaya qaytarıb Azazello onunla xudahafizləşdi, yerinin rahat olub-olmadığını soruşdu, Gella isə Marqaritayla şirin-şirin öpüşdü, pişik onun əlini öpdü, yola salanlar arxa oturacaqda halsız uzanmış masterə, zağcaya əl elədilər və pilləkənlə qalxmağa ərinib o saat havada əridilər. Zağca maşının işığını yandırıb darvazanın ağzında ölü kimi yatan adamın yanından sürərək həyətdən çıxdı. Və iri qara maşının işığı yuxusuz, hay-küylü Sadovıda başqa işıqların içində itib batdı.

Bir saat sonra Arbat dalanlarından birindəki kiçik evin zirzəmisində, hər şeyin keçən ilin dəhşətli payız gecəsində olduğu kimi qaldığı qabaq otaqda Marqarita məxmər süfrə

salınmış, üstündə inciçiçəyi qoyulmuş güldan və abajurlu lampa olan masanın arxasında oturub, keçirdiyi sarsıntıdan, duyduğu xoşbəxtlikdən için-için ağlayırdı. Alovun korladığı dəftər qarşısında idi, salamat qalmış o biri dəftərlər üst-üstə qalanmışdı. Evdə sükut hökm sürürdü. Qonşu kiçik otaqdakı divanda master xəstəxana xalatına bürünüb dərin yuxuya getmişdi. O, aramla nəfəs alırdı.

Marqarita doyunca ağlayandan sonra salamat qalmış dəftərlərə girişdi və Kreml divarının dibində Azazello ilə görüşdən əvvəl təkrar oxuduğu yeri tapdı. Marqaritanın yuxusu gəlmirdi. Əlyazmanı sevimli pişiyi kimi sığallayır, çevirib hər tərəfinə baxır, gah titul vərəqinə göz gəzdirir, gah da son səhifəsini açırdı. Qəfil ağlından dəhşətli bir fikir keçdi ki, bütün bunlar sehrbazlıqdır, indi dəftərlər yoxa çıxacaq, gözünü açıb malikanədəki yataq otağında olduğunu görəcək və özünü çayda batırmaqdan başqa yolu qalmayacaq. Ancaq bu sonuncu dəhşətli fikir idi, çoxdan çəkdiyi əzabların əks-sədası idi. Heç nə yoxa çıxmadı, qüdrətli Voland, doğrudan da, qüdrətli idi, Marqarita istədiyi qədər, lap səhər açılana kimi dəftərlərin səhifəsini çevirə,

onlara göz gəzdirə, öpə və bu sözləri təkrar-təkrar oxuya bilərdi:

– Aralıq dənizi tərəfdən gələn qaranlıq prokuratorun nifrət etdiyi şəhəri örtdü... Hə, qaranlıq...

XXV fəsil

KİRİAFLI İUDANI PROKURATOR NECƏ XİLAS ETMƏYƏ ÇALIŞDI

Aralıq dənizi tərəfdən gələn qaranlıq prokuratorun nifrət etdiyi şəhəri örtdü. Məbədi qorxunc Antoni qalasının bürclərilə birləşdirən asma körpülər yoxa çıxdı; çökən zülmət hippodrom üzərindəki qanadlı allahları, mazğallı Xasmoney sarayını, bazarları, karvansaraları, küçələri, nohurları görünməz etdi... Yerşalaim – böyük şəhər dünyada heç olmayıbmış kimi yoxa çıxdı. Yerşalaimdə və onun ətrafında bütün canlıları qorxudan zülmət hər şeyi uddu.

Günün sonunda, yaz ayı – nisanın on dördündə dəniz tərəfdən qəribə buludlar göründü.

Edam olunanları cəlladların tələsik nizələdiyi Keçəl Kəllənin, Yerşalaim məbədinin üstünə çökən buludlar təpədən axın-axın sürünərək Aşağı Şəhəri basdı. Bulud pəncərələrdən içəri doldu, adamları əyri küçələrdən evlərə qovdu. O, yağmağa tələsmirdi, yalnız işıq saçırdı. Şimşək qara buludları doğrayanda pulcuqlu dam örtüyü bərq vuran mərmər yığınından ibarət nəhəng məbəd zülmətdən boy göstərirdi. Ancaq şimşək bir andaca yoxa çıxırdı və məbəd qaranlığa qərq olurdu. Məbəd bir neçə dəfə zülmətdən boy göstərib yenə itdi və hər yoxa çıxanda fəlakətdən xəbər verən gurultuyla müşayiət olundu.

Qərb tərəfdəki təpədə məbədlə üzbəüz yerləşən Böyük İrodun sarayı, əllərini qapqara səmaya uzatmış gözsüz qorxunc qızıl heykəllər titrək işıqda zülmətdən sivrilib çıxdı. Ancaq şimşək yenə gizləndi və ildırımın ağır zərbələri qızıl bütləri qaranlığa gömdü.

Leysan birdən tökdü, tufan qasırğaya çevrildi. Prokuratorla baş ruhaninin günorta söhbət elədikləri mərmər

skamyanın yanındakı sərv ağacını, elə bil, top mərmisi qamış kimi yan böldü. Dolu, yağış sütunların altındakı eyvana çırpıldı, qopmuş qızılgüllər, maqnoliya yarpaqları, xırda budaqlar qum döşəməyə səpələndi. Qasırğa bağa divan tuturdu.

Bu zaman sütunların altında yalnız bir adam vardı, bu adam prokurator idi.

O, indi kresloda oturmamışdı, üstünə cürbəcür təamlar, çaxır bardaqları düzülmüş balaca alçaq masanın yanındakı taxtda uzanmışdı. Bir taxt da masanın o biri tərəfində idi. Prokuratorun ayağının altında qan kimi qırmızı gölməçə əmələ gəlmişdi, sınmış bardağın qırıntıları tökülüb qalmışdı. Tufandan əvvəl prokurator üçün süfrə açan nökər onun baxışlarından özünü itirib, nəyisə yarıtmadığını düşünərək həyəcanlanmışdı və prokurator hirslənib bardağı mozaikalı döşəməyə çırpmışdı.

– Yemək gətirəndə adamın üzünə niyə baxmırsan? Məgər nəsə oğurlamısan?

Afrikalının qara sifəti bozarmışdı, gözündə qorxu peyda olmuşdu, titrəyib, az qala, ikinci bardağı da sındıracaqdı,

ancaq prokuratorun hirsi tezcə də soyumuşdu. Afrikalı qırıntıları yığmaq, gölməçəni qurulamaq üçün yerindən tərpənmək istəyəndə prokurator əlini yelləmişdi və qul qaçıb getmişdi.

İndi afrikalı bu qasırğada lazımsız yerə gözə görünməkdən qorxub, həm də prokurator onu çağıran məqamda özünü yetirə bilməyəcəyindən ehtiyatlanıb, başını aşağı dikmiş çılpaq ağ qadın heykəlinin qoyulduğu taxçanın yanında gizlənmişdi.

Yarıqaranlıqda taxta uzanan prokurator özü piyaləyə çaxır süzüb qurtum-qurtum içirdi, hərdən çörəkdən xırda-xırda qoparıb ağzına qoyurdu, hərdən istirdiyyə sorub limon çeynəyərək yenə içirdi.

Əgər suyun şırıltısı, sanki, bu saat sarayın damına düşəcək ildırımın gurultusu, eyvanı döyəcləyən dolunun tappıltısı olmasaydı, prokuratorun nəsə mızıldayıb öz-özünə danışdığını eşitmək olardı. Və əgər göyün ani titrək parıltısı daimi işığa çevrilsəydi, kənardan baxan adam prokuratorun son günlərin yuxusuzluğundan və çaxırdan qızarmış gözlərində səbirsizlik oxuyardı, prokuratorun nəinki qırmızı

gölməçəyə düşmüş iki ağ qızılgülə baxdığını, hətta üzünü tez-tez yağış tozu və qum çırpılan bağ səmtə döndərib kimisə gözlədiyini, səbirsizliklə gözlədiyini anlayardı.

Bir müddət keçdi və prokuratorun gözü qarşısındakı yağış pərdəsi seyrəlməyə başladı. Qasırğa nə qədər şiddətli olsa da, get-gedə zəifləyirdi. Budaqlar daha qopub tökülmürdü. Şimşək çaxması, göy gurultusu azalmışdı. Yerşalaimin üstüylə artıq kənarları ağ-bənövşəyi buludlar yox, adi boz buludlar pərən-pərən olub uçuşurdu. Tufan Ölü dənizə tərəf gedirdi.

Yağışın və navalçalardan axıb prokuratorun gündüz meydana hökmü elan etməyə getdiyi pilləkənə tökülən suyun şırıltısını indi ayrı-ayrılıqda eşitmək olurdu. Nəhayət, indiyə qədər susan fəvvarənin də səsi eşidildi. Hava açılırdı. Qərbə üz tutmuş boz buludların arasında göy pəncərələr yaranırdı.

Bu vaxt uzaqdan, lap zəifləmiş yağışın şırıltısı arasından prokuratorun qulağına şeypurların və bir neçə yüz at ayağının zəif səsi gəldi. Ala Keçəl Dağdan qayıdırdı.

Eşidilən səslərdən belə güman etmək olardı ki, ala hökmün oxunduğu həmin meydandan keçib-gedir.

Axır ki, prokurator bağın eyvanla üzbəüz yuxarı meydançasına qalxan pilləkəndə çoxdan gözlədiyi addım və şappıltı səslərini eşitdi. O, boğazını uzatdı və gözləri sevincdən parıldadı.

İki mərmər şirin arasında əvvəlcə başlıq, sonra isə plaşı islanıb bədəninə yapışmış adam göründü. Bu, hökm oxunmamışdan əvvəl sarayın qaranlıq otağında prokuratorla pıçıldaşan və edam zamanı üçayaqlı kətildə oturub çubuqla oynayan həmin adam idi.

Başlıqlı adam gölməçələrə fikir vermədən bağın meydançasını keçib, eyvanın mozaikalı döşəməsinə ayaq basdı və əlini qaldırıb məlahətli bir səslə ucadan dedi:

–Prokuratora salamlar olsun! – Gələn adam latın dilində danışırdı.

–Allahlar! – Pilat həyəcanla dedi. – Siz ki təpədən-dırnağa islanmısınız! Yaman qasırğadı ha! Xahiş eləyirəm dərhal bura keçin. Buyurun, paltarınızı dəyişin.

Gələn adam başlığı geri atdı və islanıb alnına yapışmış saçları göründü. Qırxılmış sifətinə mehriban təbəssüm verib, paltarını dəyişməkdən imtina elədi ki, yağışdan ona heç nə olmaz.

–Eşitmək belə istəmirəm, – deyib Pilat əlini əlinə çırpdı. Bu hərəkətiylə ondan gizlənən nökərləri çağırıb, gələn adamın qayğısına qalmağı, sonra isə dərhal isti xörək vermələrini tapşırdı. Saçını qurulamaq, paltarını, ayaqqabısını dəyişmək, bir sözlə, özünü qaydaya salmaq üçün gələn adama çox az vaxt lazım oldu və tezliklə ayağında səndəl, əynində tünd-qırmızı hərbi plaş, saçları daranmış halda eyvanda göründü.

Həmin vaxt günəş Yerşalaimə qayıtdı, Aralıq dənizində batmağa getməzdən əvvəl prokuratorun nifrət elədiyi şəhərə vida şüalarını yollayıb eyvanın pillələrini qızılı rəngə boyadı. Fəvvarə var gücüylə şırıldadı, göyərçinlər qumda gəzişdilər, quruldayaraq sınmış budaqların üstündən tullanıb yaş qumda nəyisə dimdikləməyə başladılar. Qırmızı gölməçə silinmiş, saxsı qırıqları yığışdırılmışdı, stolda ət buğlanırdı.

–Prokuratorun əmrini gözləyirəm, – gələn adam masaya yaxınlaşaraq dedi.

–Oturub çaxır içməyənə qədər məndən heç nə eşitməyəcəksiniz, – Pilat mehribanlıqla cavab verib, o biri taxtı göstərdi.

Gələn adam uzanıb dirsəkləndi, nökər onun piyaləsinə tünd-qırmızı çaxır süzdü. O biri nökər Pilatın arxasından ehtiyatla əyilib piyaləsini doldurdu. Bundan sonra prokurator əlinin hərəkətiylə hər iki nökəri uzaqlaşdırdı.

Gələn adam yeyib-içənə qədər Pilat çaxırdan qurtumlaya-qurtumlaya gözlərini qıyıb öz qonağına baxırdı. Qonaq orta yaşlarındaydı, onun mülayim sifəti, ətli burnu var idi. Saçının rəngi qeyri-müəyyəndi, indi quruduqca açıq rəng alırdı. Milliyyətini təyin etmək çətindi. Sifətini, əsasən, fərqləndirən, ola bilsin, üzünün mehriban ifadəsi idi ki, onu da gözləri, daha doğrusu, həmsöhbətinə baxmaq tərzi pozurdu. Gələn adam, adətən, gözlərini qıyıb baxırdı, sanki, göz qapaqları şişmişdi. Onda bu qıyılmış gözlərdə qərəzsiz bir biclik sezilirdi. Güman etmək olardı ki, prokuratorun qonağı yumora meyillidir. Ancaq qıyılmış gözlərində

işıldayan bu yumor hərdən itirdi, göz qapaqlarını geniş açaraq qəfil dimdik həmsöhbətinə zillənirdi, sanki, həmsöhbətinin burnundakı hansısa zorla sezilən ləkəyə tezcə baxmaq istəyirdi. Bu, bir an çəkirdi, sonra göz qapaqları yenə enirdi, gözləri qıyılırdı və onlardan xeyirxahlıq, biclik oxunurdu.

Gələn adam ikinci piyalədən də imtina eləmədi, ləzzətlə bir neçə istirdiyyə uddu, suda bişmiş tərəvəzlərin dadına baxdı, bir tikə ət yedi.

Doyandan sonra çaxırı tərifladi:

–Əla növ üzümdən çəkilib; "Falerno" deyil ki, prokurator?

–Otuzillik "Tsekuba"dır, – prokurator mehribanlıqla cavab verdi.

Qonaq əlini sinəsinə qoyub doyduğunu, daha heç nə yemək istəmədiyini bildirdi. Onda Pilat öz piyaləsini doldurdu, qonaq da bu cür hərəkət elədi. Hər ikisi öz piyaləsindən ət olan boşqaba bir az çaxır tökdü və prokurator piyaləsini qaldırıb ucadan dedi:

–Bizim sağlığımıza, sənin, qeysər, romalıların atası, adamların ən əzizi, ən yaxşısının sağlığına!

Çaxırı axıra kimi içəndən sonra afrikalılar süfrədən yemək̇ləri yığışdırıb meyvələrə, bardaqlara toxunmadılar. Prokurator əlinin hərəkətiylə yenə nökərləri uzaqlaşdırıb, sütunların altında öz qonağıyla tək qaldı.

–Belə, – Pilat astadan sözə başladı, – bu şəhərdəki əhvali-ruhiyyə barədə mənə nə deyə bilərsiniz?

O, baxışlarını qeyri-ixtiyari bağın meydançalarının arxasında, aşağıda qürub günəşinin qızıla boyadığı sütunlara, yastı damlara dikdi.

–Prokurator, güman eləyirəm ki, – qonaq cavab verdi, – Yerşalaimdə əhvali-ruhiyyə indi qənaətbəxşdir.

–Demək, qarışıqlıq təhlükəsinin sovuşduğuna zəmanət vermək olar?

–Dünyada yalnız, – qonaq mehribanlıqla prokuratora baxdı, – bir şeyə, böyük qeysərin gücünə zəmanət vermək olar.

–Qoy allahlar ona uzun ömür, – prokurator onun sözünə qüvvət verdi, – hamıya da sülh bəxş eləsin. – Susub

sonra sözünə davam elədi: – Demək, sizcə, indi qoşunları geri çəkmək olar?

–Məncə, İldırımsürətli koqorta gedə bilər, ancaq yaxşı olardı gedəndə şəhərdən təntənəylə keçsin.

–Çox yaxşı fikirdir, – prokurator bəyəndi, – birisigün koqortanı buraxıb özüm də gedəcəyəm və on iki allaha, xeyirxah ruhlara and olsun ki, bunu günü bu gün etmək üçün çox şeydən keçərdim.

–Prokurator Yerşalaimi sevmir? – qonaq sadədilliklə soruşdu.

–Mənə rəhminiz gəlsin, – prokurator gülümsədi, – dünyada buradan ümidsiz yer yoxdur. Hələ təbiətini demirəm!Buraya hər gələndə xəstələnirəm. Bu hələ dərdin yarısıdır. Ancaq bu bayramlar – maqlar, sehrbazlar, cadugərlər, zəvvarlar dəstəsi... Fanatiklər, fanatiklər! Qəfildən bu il gözləməyə başladıqları məsih elə nələrə başa gəldi! Hər dəqiqə iyrənc qırğınların şahidi olacağını gözləyirsən. Tez-tez qoşunların yerini dəyiş, donos, böhtan oxu, üstəlik də, yarısı elə səndən yazılıb! Razılaşın ki, darıxdırıcı işdir. Eh, əgər bu imperator qulluğu olmasaydı!..

–Bəli, burada bayramları yola vermək çətindir, – qonaq razılaşdı.

–Ürəkdən arzulayıram ki, tezliklə bu bayramlar qurtarsın, – Pilat qızğınlıqla əlavə elədi. – Nəhayət, Qeysəriyyəyə qayıtmaq imkanım olardı. İnanırsınızmı, İrodun bu sərsəm tikilisi, – prokurator əlini sütunlar boyu yellədi, aydın oldu ki, sarayı nəzərdə tutur, – məni əməllicə dəli edir. Bu sarayda gecələyə bilmirəm. Dünyada belə qəribə memarlıq üslubu görünməyib!.. Nəsə, mətləbə qayıdaq. Hər şeydən əvvəl onu soruşum: bu lənətəgəlmiş Var-ravvan sizi narahat eləmir?

Bu yerdə qonaq özünə xas olan baxışlarını prokuratorun yanağına zillədi. Ancaq o, iyrənirmiş kimi üz-gözünü qırışdırıb qüssəylə uzaqlara, ayağı altına sərilmiş, üstünə qaranlıq çökən şəhərə tamaşa eləyirdi. Qonağın da baxışlarının parıltısı söndü və göz qapaqları endi.

–Düşünmək olar ki, Var-ravvan indi quzu kimi təhlükəsizdir, – qonaq dedi və girdə sifətində qırışlar əmələ gəldi. – Üsyan edib iğtişaş salmaq indi onun üçün münasib deyil.

–Çox məşhurlaşıb? – Pilat kinayəylə gülümsədi.

–Prokurator həmişə olduğu kimi məsələni incəliyilə anlayır!

–Ancaq hər halda, – prokurator fikirli-fikirli bildirdi və qara qaşlı üzük taxılmış nazik uzun barmağı yuxarı qalxdı, – lazım gələcək ki...

–Prokurator əmin ola bilər ki, nə qədər mən İudeyadayam, Varın hər addımına göz qoyulacaq.

–Daha mən rahatam, ümumiyyətiə, siz burada olanda həmişə rahat olmuşam.

–Prokurator çox xeyirxahdır!

–İndi mənə edam barədə məlumat verin, – prokurator dedi.

–Prokuratoru məhz nə maraqlandırır?

–Kütlə tərəfindən qiyama cəhd olmadı ki? Əlbəttə, əsas budur.

–Heç bir cəhd olmadı, – qonaq cavab verdi.

–Çox yaxşı. Öldüklərini özünüz müəyyən etdiniz?

–Prokurator buna əmin ola bilər.

–Deyin görüm... çarmıxa çəkilməmişdən onlara içki verildimi?

–Bəli. Ancaq o, – qonaq bu vaxt gözünü yumdu, – içməkdən imtina elədi.

–Şəxsən kim? – Pilat soruşdu.

–Üzr istəyirəm, igemon! – qonaq ucadan dedi. – Adını demədim? Qa-Nosri.

–Divanə! – Pilat üzünü turşutdu. Sol gözünün altı səyridi. – Günvurmadan ölmək! Qanunla verilən şeydən niyə imtina olunsun? Nə deyib imtina elədi?

–Dedi ki, – qonaq yenə gözünü yumdu, – onun həyatına son qoyduqlarına görə günahlandırmır, üstəlik də, minnətdardır.

–Kimi günahlandırmır? – Pilat boğuq səslə soruşdu.

–İgemon, o, bunu demədi.

–Əsgərlər qarşısında nəyisə təbliğ eləməyə cəhd göstərmədi?

–Yox, igemon, o, bu dəfə çox danışmadı. Bircə onu dedi ki, qorxaqlığı insana xas olan nöqsanlardan ən başlıcası sayır.

–Nəyə görə belə dedi? – Pilatın səsi qəfil xırıldadı.

–Bunu başa düşmək olmadı. O, ümumiyyətlə, həmişə olduğu kimi özünü qəribə aparırdı.

–Qəribəliyi nədəydi?

–Çalışırdı ətrafındakı adamların gözünün içinə baxsın və elə hey çaşqın-çaşqın gülümsəyirdi.

–Başqa heç nə? – xırıltılı səs soruşdu.

–Heç nə.

Prokurator özü üçün çaxır süzəndə bardaq piyaləyə toxundu. Çaxırı başına çəkib dedi:

–Məsələ belədir: biz onun hər hansı pərəstişkarını, ya tərəfdarını, ən azı, indiki məqamda aşkar eləyə bilməsək də, onların heç olmadığına da zəmanət verə bilmərik.

Qonaq başını aşağı salıb diqqətlə qulaq asırdı.

–Ona görə sizdən xahiş eləyirəm, hər hansı sürprizlə qarşılaşmamaq üçün, – prokurator sözünə davam elədi, – edam olunanların üçünün də meyitini hay-küy salmadan təcili oradan götürüb gizlicə elə basdırasınız ki, bir daha onları gördüm deyən olmasın.

–Oldu, igemon, – deyib qonaq ayağa durdu. – Məsələnin çətinliyini və məsuliyyətini nəzərə alıb dərhal yola düşməyimə icazə verin.

–Yox, hələ oturun, – Pilat əlinin hərəkətiylə qonağını saxladı, – iki məsələ də var. Birincisi, İudeya prokuratorunun yanında məxfi idarənin rəisi kimi çətin işdə sizin böyük xidmətləriniz mənə imkan yaradır ki, bu barədə Romada məruzə eləyim.

Bu vaxt qonağın sifəti qızardı və ayağa qalxıb prokuratora baş əydi:

–Mən imperator qulluğunda yalnız öz borcumu yerinə yetirirəm!

–Ancaq xahiş eləyirəm, – igemon dedi, – əgər sizə daha yüksək vəzifə təklif eləsələr, boyun qaçırıb burada qalasınız.

–Sizin rəhbərliyiniz altında xidmət eləmək mənim üçün xoşbəxtlikdir, igemon.

–Bunu eşitmək çox xoşdur. Keçək ikinci məsələyə. Bu, ona aiddir, adı nədir... Kiriaflı İuda.

Bu yerdə qonaq prokuratora zənlə baxıb, dərhal da baxışlarını çəkdi.

–Deyilənə görə o, – prokurator səsini alçaldıb sözünə davam elədi, – guya, pulu divanə filosofu öz evində mehriban qəbul etdiyinə görə alıb.

–Alacaq, – məxfi idarənin rəisi astadan Pilatın sözünə düzəliş verdi.

–Bəs məbləğ böyükdürmü?

–Bunu heç kim bilmir, igemon.

–Hətta siz də? – İgemon bu təəccübüylə onun çox şeyə qadir olduğuna işarə vurdu.

–Əfsus, hətta mən də, – qonaq sakitcə cavab verdi.

–Ancaq pulu bu axşam alacağını bilirəm. Axşam onu Kaifanın sarayına çağıracaqlar.

–Ax, kiriaflı acgöz qoca, – prokurator gülümsədi.

–Yəqin, o qocadır?

–Prokurator heç vaxt yanılmır, ancaq bu dəfə yanılır, – qonaq mehribanlıqla dedi, – o, gəncdir.

–Onun xüsusiyyətlərini mənə deyə bilərsinizmi? Fanatikdir?

–Yox, prokurator.

–Belə. Başqa nə deyə bilərsiniz?

–Çox yaraşıqlıdır.

–Daha nə? Bəlkə, nəyəsə həvəs göstərir?

–Bu böyük şəhərdə hamını dəqiq tanımaq çətindir, prokurator.

–Yox, yox, Afrani! Öz xidmətlərinizi azaltmayın.

–Onun bir şeyə həvəsi var, prokurator. – Qonaq azca fasilə verdi. – Pula hərisdir.

–Bəs nəylə məşğul olur?

Afrani gözünü qaldırıb fikirləşərək cavab verdi:

–Öz qohumlarından birinin yanında pul xırdalayan dükanda işləyir.

–Aha, belə de, belə de, belə de, belə de. – Prokurator susdu, eyvanda kiminsə olub-olmadığını bilmək üçün dönərək ətrafına baxdı, sonra isə astadan dedi: – məsələ belədir, bu gün məlumat almışam ki, bu gecə onu bıçaqlayıb öldürəcəklər.

Bu yerdə qonaq zənlə prokuratora baxdı, hətta gözlərini bir az ondan çəkmədi.

–Prokurator, siz mənim haqqımda həddindən artıq xoş sözlər dediniz. Mənə elə gəlir, sizin məruzənizə layiq deyiləm. Məndə belə məlumat yoxdur.

–Siz ən yüksək mükafata layiqsiniz, – prokurator cavab verdi, – ancaq belə məlumat var.

–Soruşmağa cürət eləyirəm, bu məlumatı kim verib?

–Mümkünsə, hələ bunu deməyim, üstəlik də, bu məlumat dəqiq deyil, yoxlanmayıb. Ancaq qabaqcadan tədbir görmək borcumdur. Mənim vəzifəm belədir, hər şeydən də çox hissiyyatıma inanıram, çünki o, hələ məni aldatmayıb. Məlumat belədir ki, Qa-Nosrinin pul xırdalayanın satqınlığından hiddətlənən gizli dostlarından biri öz yoldaşlarıyla onu bu gecə öldürməyə hazırlaşır, satqınlığa görə aldığı pulu isə xəlvətcə baş ruhaninin sarayına atacaqlar, bir kağıza da yazacaqlar: "Lənətə gəlmiş pulu qaytarıram".

Məxfi idarənin rəisi igemona daha zənlə baxmırdı,gözlərini qıyıb ona qulaq asırdı, Pilat isə danışırdı:

–Təsəvvür eləyin, bayram gecəsi belə bir hədiyyə almaq baş ruhaninin xoşuna gələrmi?

–Xoşuna gəlmək nədir, – qonaq gülümsədi, – prokurator, güman eləyirəm, bu, çox böyük qalmaqal yaradar.

–Mən də bu fikirdəyəm. Ona görə də sizdən xahiş eləyirəm, bu məsələylə məşğul olasınız, yəni kiriaflı İudanın qorunması üçün bütün tədbirləri görəsiniz.

–İgemonun əmri yerinə yetiriləcək, – Afrani dedi, – ancaq igemonu sakitləşdirim ki, yaramazların öz niyyətini həyata keçirməsi çox çətindir. Heç ağlabatan deyil, adamı izləyəsən, bıçaqlayasan, üstəlik, nə qədər pul aldığını öyrənəsən, hələ pulu Kaifaya qaytarmağı da bacarasan, hamısını da bir gecədə, bu gün eləyəsən.

–Bütün bunlara baxmayaraq, onu bu gün bıçaqlayıb öldürəcəklər, – Pilat israrla təkrar elədi, – sizə deyirəm ürəyimə damıb! Elə şey olmayıb ki, hissiyatım məni aldada, – bu yerdə prokuratorun sifəti səyridi və o, əlini ovuşdurdu.

–Oldu, – qonaq itaətkarlıqla cavab verib ayağa qalxdı, qəddini düzəltdi və birdən ciddi şəkildə soruşdu: – Demək, bıçaqlayıb öldürəcəklər, igemon?

–Hə, – Pilat cavab verdi, – və bütün ümid sizin hamını heyrətə salan icraçılıq bacarığınızdır.

Qonaq plaşının altından toqqasını düzəldib dedi:

–Sağlıqla qalın.

–Bah, – Pilat həyəcanla astadan dedi, – tamam unutmuşdum! Axı mən sizə borcluyam!..

Qonaq təəccübləndi.

–Doğrusu, prokurator, siz mənə heç nə borclu deyilsiniz.

–Necə yəni borclu deyiləm! Yerşalaimin girəcəyindəki dilənçilər yadınızdadır?.. Mən onlara pul atmaq istədim, ancaq üstümdə pul olmadığından sizdən aldım.

–Prokurator, bu, boş şeydir!

–Boş şeyi də yadda saxlamaq lazımdır.

Pilat geri çevrilərək kreslodan plaşını götürdü, altındakı dəri kisəni qonağına uzatdı. Qonaq pulu alıb təzim elədi və plaşının altında gizlətdi.

–Mən, – Pilat dedi, – dəfn barədə, bir də kiriaflı İudanın məsələsiylə bağlı elə bu gecə, eşidirsən, Afrani, bu

gün məlumat gözləyirəm. Keşikçilərə tapşırılacaq ki, siz gələn kimi məni oyatsınlar. Sizi gözləyirəm.

–Sağlıqla qalın, – deyib məxfi idarənin rəisi dönərək eyvandan çıxdı. Meydançadakı yaş qum xırçıldadı, sonra şirlərin arasındakı mərmərdə çəkmələrin tappıltısı eşidildi, əvvəl ayaqlar, sonra bədən, nəhayət, başlıq yoxa çıxdı. Prokurator yalnız bu vaxt gördü ki, günəş batıb, şər qarışıb.

XXVI fəsil
DƏFN

Prokuratorun görkəminin kəskin dəyişməsinə, bəlkə, elə bu toranlıq səbəb olmuşdu. O, sanki, bir anda qocalmışdı, beli bükülmüşdü, həm də həyəcanlı görünürdü. Söykənəcəyinə plaş atılmış boş kresloya baxanda nədənsə diksindi. Bayram gecəsi yaxınlaşırdı, axşam kölgələri öz oyununu oynayırdı və yorğun prokuratora, yəqin, elə gəlmişdi ki, boş kresloda kimsə oturub. Prokurator uşaq

sadəlövhlüyülə plaşı tərpətdi, sonra ayağa qalxıb eyvanda vurnuxmağa başladı; gah əllərini ovuşdururdu, gah stola sarı qaçıb piyalədən yapışırdı, gah da hansısayazını oxumağa çalışırmış kimi dayanıb key-key mozaikalı döşəməyə baxırdı.

Bu gün artıq ikinci dəfəydi qüssədən ürəyi sıxılırdı. Prokurator səhərki dəhşətli ağrıdan yalnız küt sızıltı qalmış gicgahlarını ovuşduraraq, nə üçün əzab çəkdiyini anlamağa çalışdı. Tez də anladı, ancaq özünü aldatmaq istədi. Aydındır ki, bu səhər nəyisə biryolluq əldən vermişdi və indi onu xırda, cüzi, ən başlıcası, gecikmiş hərəkətlərlə düzəltməyə çalışırdı. Prokurator inanmaq istəyirdi ki, indiki, dünənki hərəkətləri səhərki hökmdən heç də əhəmiyyətsiz deyil. Ancaq bu, ona elə də müyəssər olmurdu.

O, qəfil dayanıb fit çaldı. Fitə cavab olaraq alaqaranlıqda bərkdən it hürdü və bağdan eyvana xaltasında qızıl suyuna çəkilmiş lövhəcik olan şeşəqulaq nəhəng boz it sıçradı.

– Banqa, Banqa, – prokurator zəif səslə çağırdı.

İt dal ayaqlarının üstünə qalxıb, pəncələrini sahibininçiyninə elə qoydu ki, az qaldı onu döşəməyə yıxsın və üzünü yaladı. Prokurator kresloya çökdü, Banqa isə sahibinin ayağı altında uzanıb ləhlədi. İtin gözündəki sevinc qorxduğu yeganə şey olan tufanın keçdiyindən, həm də dünyada ən güclü, bütün insanların hökmranı saydığı sevimli adamın yanında olduğundan xəbər verirdi, bu adamın sayəsində it özünü də imtiyazlı, yüksək, böyük hesab eləyirdi. Ancaq sahibinin ayağı altında uzanıb, hətta ona baxmadan, get-gedə qaralan bağa tamaşa eləyə-eləyə sahibinə bədbəxtlik üz verdiyini it dərhal anladı. Durub yandan keçərək pəncələrini və başını prokuratorun dizinə qoyub, plaşının ətəyini yaş quma buladı. Banqanın hərəkəti, yəqin, o deməkdi ki, sahibinə təsəlli verir və bəlanı onunla birlikdə qarşılamağa hazırdır. O, bunu sahibinə dikilmiş gözləriylə, şəklənmiş qulaqlarıyla ifadə eləməyə çalışırdı. Bir-birini sevən it və insan bayram gecəsini beləcə eyvanda qarşıladılar.

Prokuratorun qonağı isə bu vaxt çox qayğılıydı. Eyvanın qarşısındakı bağın yuxarı meydançasını tərk eləyib,

pilləkənlə bağın növbəti terrasına düşdü, sağa dönüb sarayın həyətindəki kazarmalara tərəf çıxdı. Prokuratorla birlikdə Yerşalaimə bayrama gəlmiş həmin iki kenturiya, həmçinin qonağın başçılıq etdiyi prokuratorun gizli mühafizə dəstəsi bu kazarmalarda yerləşmişdi. Qonaq kazarmalarda heç on dəqiqə qalmadı, ancaq bu on dəqiqə ərzində kazarmaların həyətindən səngər ləvazimatları və su dolu çəllək yüklənmiş üç araba çıxdı. Arabaları boz plaş geyinmiş on beş atlı müşayiət eləyirdi. Onların müşayiətilə arabalar sarayın arxa qapısından qərbə üz tutaraq şəhər darvazasından keçib, əvvəl cığırla Vifleyem yoluna çıxdı, sonra bu yolla şimala gedərək Hevron darvazası yanındakı yolayrıcına çatıb, məhkumların gündüz edama aparıldığı Yaffa yoluyla hərəkət elədi. Bu vaxt artıq qaranlıq düşmüşdü və üfüqdə ay görünürdü.

Arabalar və onları müşayiət eləyən dəstənin ardınca prokuratorun, əyninə nimdaş xiton geyinmiş qonağı da at belində sarayın həyətindən çıxdı. Qonaq şəhərdən kənara yox, şəhərə getdi. Az keçmiş onun şimalda, böyük məbədin yaxınlığında yerləşən Antoni qalasına yaxınlaşdığını görmək

olardı. Qonaq qalada da çox az qaldı, sonra Aşağı şəhərin əyri-üyrü, dolanbac küçələrində peyda oldu. Buraya qonaq artıq qatırla gəlmişdi.

Şəhəri yaxşı tanıdığından özünə lazım olan küçəni asanlıqla tapdı. Burada yunanların işlətdiyi bir neçə dükan, bir dənə də xalça alış-verişiylə məşğul olan dükan yerləşdiyindən bu küçə Yunan küçəsi adlanırdı. Qonaq məhz həmin dükanın yanında qatırını saxlayıb düşdü və noxtanı qapının halqasına keçirtdi. Dükan artıq bağlanmışdı. Qonaq dükan qapısının böyründəki alaqapıdan içəri girib damların yan-yana düzüldüyü kvadratşəkilli kiçik həyətə daxil oldu. Həyətdə tini dönüb sarmaşıq bürümüş yaşayış evinin daş artırmasında dayanaraq boylandı. Ev və damlar qaranlıq içində idi, hələ çıraqları yandırmamışdılar. Qonaq astadan çağırdı:

–Niza!

Səsə qapı cırıldadı və axşamın alaqaranlığında artırmada başı örtüksüz gənc qadın göründü. O, kimin gəldiyini bilmək üçün məhəccərə söykənib həyəcanla ətrafa

göz gəzdirdi. Gələn adamı tanıyıb mehribancasına başını tərpədərək əlini yellədi.

–Təksən? – Afrani yunanca astadan soruşdu.

–Təkəm, – artırmadakı qadın pıçıldadı. – Ərim tezdən Qeysəriyyəyə gedib. – Bu yerdə qadın qapıya tərəfboylanıb pıçıltıyla əlavə elədi: – Ancaq qulluqçu evdədir. – Qadın əliylə "gəl" işarəsi verdi. Afrani ətrafına baxıb daş pilləkənlə yuxarı qalxdı. Onlar evə girdilər.

Bu qadının evində Afrani lap az – cəmi beş dəqiqə qaldı. Sonra evi və artırmanı tərk edib, başlığı gözünün üstünə endirərək küçəyə çıxdı. Artıq evlərdə çıraqlar yanmağa başlamışdı, bayram ərəfəsi olduğundan küçədə hələ əməlli-başlı tünlük idi. Afrani öz qatırında yoldan keçənlərə və atlılara qarışdı. Onun sonra hara getdiyi heç kimə məlum deyil.

Afraninin Niza adlandırdığı qadın tək qalan kimi tələsə-tələsə paltarını dəyişməyə başladı. Qaranlıq otaqda lazım olan şeyləri tapmaq nə qədər çətin olsa da, çırağı yandırmadı və qulluqçunu çağırmadı. Yalnız geyinib hazırlaşandan, başına qara örtük salandan sonra evdə onun səsi eşidildi:

– Əgər məni soruşan olsa, denən, Enantagilə qonaqgedib.

Qoca qulluqçu qaranlıqda donquldandı:

–Enantagilə? Ax, yenə bu Enanta! Axı ərin onlara getməyi qadağan eləmişdi! Sənin Enantan aradüzəldəndir! Bax ha, ərinə deyəcəyəm...

–Di bəsdir, sus, – deyib Niza evdən kölgə kimi səssizcə çıxdı. Onun səndəlləri daş döşənmiş həyətdə taqqıldadı. Qulluqçu donquldana-donquldana artırmaya açılan qapını örtdü. Niza öz evini tərk elədi.

Elə həmin vaxt Aşağı şəhərdəki əyri-üyrü, nohurların birinə pillə-pillə enən başqa küçədən, pəncərələri həyətə, arxası küçəyə baxan görkəmsiz evin doqqazından saqqalı səliqəylə vurulmuş, təmiz ağ kefisi çiyinlərinə düşən, ətəyi qotazlı təzə mavi bayram tallifi və cırıldayan təzə səndəl geyinmiş cavan oğlan çıxdı. Bayrama görə bəzənmiş donqarburun qəşəng oğlan bayram süfrəsinə çatmaq üçün evə tələsən adamları qıvraq yerişlə ötərək, pəncərələrdə bir-birinin ardınca yanan işıqlara baxırdı. Bu cavan oğlan

bazarın böyründən keçən yolla baş ruhani Kaifanın məbəd olan təpənin ətəyində yerləşən sarayına tərəf gedirdi.

Bir müddət keçmiş onu Kaifanın sarayının darvazasından içəri girən, bir qədər sonra isə oradan çıxan gördülər.

Çıraqların və məşəllərin artıq yandığı, bayram canlanması hiss olunduğu saraya baş çəkəndən sonra cavan oğlan daha gümrah, daha şad yeriyərək geri, Aşağı şəhərə tələsdi. Küçənin bazar meydanına qovuşduğu tində qara örtüyü gözlərinə qədər çəkmiş bir qadın basabasda oynaq yerişlə onu ötdü. Bu qadın qəşəng oğlanı ötəndə bir anlığa örtüyü yuxarı çəkib, ona tərəf gözlərini süzdürdü, ancaq yavaşımaqdansa, ötdüyü adamdan gizlənmək istəyirmiş kimi sürətini artırdı.

Cavan oğlan bu qadını görmək nədi, hətta tanıyıb diksindi, dayanaraq çaşqın halda qadının arxasınca baxdı və dərhal da ona çatmaq üçün addımlarını yeyinlətdi. Tələsdiyindən az qalmışdı əlində bardaq yoldan keçənin birini vurub yıxsın, axır ki, qadına çatıb həyəcandan tövşüyə-tövşüyə çağırdı:

–Niza!

Qadın çevrilib gözlərini qıydı, onun sifətindən dilxorçuluq oxundu və soyuq tərzdə yunanca cavab verdi:

–Ah, sənsən, İuda? Səni o saat tanımadım. Amma belə olmağı yaxşıdır. Bizlərdə deyim var ki, kimi tanımadılaro, dövlətli olacaq...

Həyəcandan qara paltarın altında ürəyi quş kimi çırpınan İuda yoldan keçənlərin eşitməməsi üçün səsini qısıb soruşdu:

–Hara gedirsən, Niza?

–Nəyinə lazım? – Niza addımını yavaşıdıb təkəbbürlə İudaya baxdı.

İuda uşaq kimi özünü itirdi:

–Necə axı?.. Biz ki şərtləşmişdik. Mən sənə baş çəkmək istəyirdim. Bütün axşamı evdə olacağını demişdin...

–Eh, yox, yox, – Niza şıltaqlıqla alt dodağını büzdü və İudaya elə gəldi ki, həyatında gördüyü bu ən gözəl sifət daha da gözəlləşdi, – mən darıxdım. Sizin bayramdır, bəs mən nə etməliyəm? Oturub sənin artırmada necə köks ötürdüyünə qulaq asım? Həm də qorxum ki, qulluqçu bunu ərimə

deyəcək? Yox, yox, mən də qərara aldım, şəhər kənarına çıxıb bülbüllərə qulaq asım.

–Necə yəni şəhər kənarına? – İuda çaşqınlıqla soruşdu. – Tək?

–Əlbəttə, tək, – Niza cavab verdi.

–İcazə ver, səni müşayiət eləyim, – İuda nəfəsi kəsilə-kəsilə dedi. Başında hər şey bir-birinə qarışmışdı, dünyada hər şeyi unutmuşdu və yalvarış dolu baxışlarla Nizanın mavi, indi qara görünən gözlərinə baxdı.

Niza dinməyib addımını yeyinlətdi.

–Nəyə görə susursan, Niza? – İuda onunla yanaşı yeriyərək yazıq-yazıq soruşdu.

–Bəs sənlə darıxdırıcı olmayacaq? – Niza birdən ayağını saxladı. İuda lap karıxdı.

–Di yaxşı, – Niza, nəhayət, yumşaldı, – gedək.

–Bəs hara, hara?

–Dayan... bu həyətə girib şərtləşək, yoxsa qorxuram tanışlardan kimsə məni məşuqumla küçədə gördüyünü ərimə deyə.

Nizayla İuda bazardan çıxdılar. Onlar hansısa bir həyətin darvazası qarşısında pıçıldaşırdılar.

–Kedronun arxasına, Hefsimandakı zeytunluğa get, – Niza örtüyü gözlərinin üstünə çəkib, əlində vedrə darvazadan girən adamdan üzünü kənara çevirdi, – başa düşdün?

–Hə, hə, hə.

–Mən irəlidə gedəcəyəm, – Niza sözünə davam elədi, – ancaq sən arxamca dabanbasma gəlmə, məndən aralan. Mən qabaqda gedəcəyəm... Çayı keçəndən sonra... bilirsən mağara haradadır?

–Bilirəm, bilirəm...

–Zeytun məngənəsinin yanından yuxarı qalxıb mağaraya tərəf dön. Mən orada olacağam. Ancaq dərhal arxamca gəlməyə cürət eləmə, hövsələni basıb burada gözlə. – Niza bu sözləri deyib darvazanın altından çıxdı, guya, heç İudayla danışmamışdı.

İuda bir müddət tək-tənha dayanıb fikrini toplamağa çalışdı. Narahatlığının biri də o idi ki, bayram süfrəsində olmadığını doğmalarına necə izah eləyəcək. Ancaq

həyəcandan düz-əməlli bir şey düşünə bilmədi və özündən asılı olmadan darvazadan uzaqlaşdı.

O indi yolunu dəyişib Aşağı şəhərə yox, yenidən Kaifanın sarayına tərəf qayıtdı. Artıq şəhərə bayram gəlmişdi. Ətrafdakı pəncərələrdə işıqlar yanırdı, dua-sənalar, cürbəcür söhbətlər eşidilirdi. Bayram süfrəsinə gecikənlər qamçılaya-qamçılaya, qışqıra-qışqıra eşşəklərini qovurdular. İuda fikirli halda getdiyindən mamır basmış qorxunc Antoni qala bürclərinin arxada qaldığını hiss eləmədi, qaladan gələn şeypur səslərini eşitmədi, yoluna işıq salan məşəlli Roma patruluna məhəl qoymadı.

İuda qala bürclərini ötüb geri dönəndə məbədin üstündə, çox yüksəklikdə ayrı-ayrı iki nəhəng şamdanda beş şamın yandığını gördü. Ancaq İuda şamlara ötəri baxdı, ona elə gəldi ki, Yerşalaim üzərində get-gedə yüksələn yeganə işıqla – ay işığıyla bəhsləşən on çox böyük çıraq işıq saçır.

İndi İudanı heç nə maraqlandırmırdı, şəhəri tezcə tərk eləmək üçün Hefsiman darvazasına tərəf üz tutmuşdu. Hərdən ona elə gəlirdi ki, irəlidə yoldan keçənlərin kürəyi və sifətləri arasından şux, oynaq bədən gözünə görünüb, onu

arxasınca aparır. Ancaq bu, aldanış idi, İuda başa düşürdü ki, Niza onu xeyli ötüb. İuda pul xırdalayan dükanların yanından keçib, nəhayət, Hefsiman darvazasına çatdı. Səbirsizlikdən alışıb-yansa da, darvazanın ağzında ləngiməli oldu. Şəhərə dəvələr, onların arxasınca İudanın ürəyində lənətlədiyi hərbi suriya patrulu girirdi...

Ancaq hər şeyin sonu var. Səbirsiz İuda artıq şəhər divarlarının o üzündə idi. İuda sol tərəfdə kiçik qəbiristanlıq, onun yanında bir neçə zolaqlı zəvvar çadırı gördü. Ayın işıqlandırdığı tozlu yolu keçib, Kedron çayını adlamaq üçün o səmtə yönəldi. Su İudanın ayaqları altında şırıldayırdı. Daşdan-daşa hoppanıb, nəhayət, qarşı Hefsiman sahilinə çıxdı və bağın aşağısından keçən yolda heç kimin olmadığına sevindi. Zeytun bağının yarıuçuq qapısı artıq görünürdü.

Bürkülü şəhərdən sonra yaz gecəsinin bihuşedici qoxusu İudanı valeh elədi. Hefsiman talalarından gələn mərsin və akasiya ətri hasardan dalğa-dalğa ətrafa yayılırdı.

Darvazanı heç kim qorumurdu, heç kim görünmürdü və bir neçə dəqiqə sonra İuda artıq qollu-budaqlı zeytun

ağaclarının altındakı əsrarəngiz kölgəliklə qaçırdı. Yol dağa qabardı. İuda hərdən ay işığının Nizanın qısqanc ərinin dükanındakı xalılar kimi naxışladığı yerlərdən keçərək tövşüyə-tövşüyə yoxuşu dırmanırdı. Bir qədər sonra İudanın solundakı talada iri daş təkərli zeytun məngənəsi və çəlləkyığını gözə dəydi. Bağda heç kim yox idi. İş şər qarışanda qurtarmışdı, indi İudanın başı üzərində bülbüllər cəh-cəh vururdu.

Görüş yerinə az qalmışdı. İuda bilirdi ki, indi sağ tərəfdə, mağarada damcılayan suyun səsini eşidəcək. Elə də oldu: o, bu səsi eşitdi. Get-gedə sərinləşirdi.

İuda addımlarını yavaşıdıb astadan çağırdı:

– Niza!

Ancaq Nizanın əvəzində zeytun ağacının iri gövdəsindən enlikürək bir kişi qopub yola sıçradı və əlində nəsə parıldadı. İuda yavaşca qışqırıb geri atıldı, amma ikinci adam onun qarşısını kəsdi.

İrəlidəki adam İudadan soruşdu:

– İndicə nə qədər almısan? Ölmək istəmirsənsə, de!

İudanın ürəyində ümid yarandı və bərkdən dedi:

–Otuz gümüş pul! Otuz gümüş pul! Aldığımm hamısı üstümdədir. Pullar bax budur! Alın, ancaq mənə dəyməyin!

İrəlidəki adam pul kisəsini İudanın əlindən qapdı. Elə həmin an aşiq olmuş İudanın kürəyinə bıçaq saplandı. İuda qabağa səndələdi, əlləriylə havanı qamarladı. İrəlidəki adam bıçağı dəstəyinəcən onun ürəyinə soxdu.

İuda öz təmiz, uca səsiylə yox, zəif, tənəli səslə:

–Ni... za... – deyib guppultuyla yerə dəydi.

Bu vaxt yolda üçüncü adam göründü. Həmin adam başlıqlı plaş geyinmişdi.

–Ləngiməyin, – o əmr elədi. Qatillər pul kisəsini üçüncü adamın verdiyi kağızla birlikdə dəriyə büküb kəndirlə bağladılar. İkinci adam bağlamanı qoynunda gizlətdi və hər iki qatil yoldan çıxıb zeytunluqda qaranlığa qarışdı. Üçüncü adam isə meyitin yanında çömbəlib onun sifətinə baxdı. Qaranlıqda bu sifət başlıqlı adama tabaşir kimi ağ, gözəl və nurlu göründü.

Bir neçə saniyədən sonra yolda ins-cins qalmamışdı. Cansız bədən qolları yana açılmış halda torpağa sərilmişdi. Sol dabanına ay işığı düşdüyündən səndəlinin qayışları

aydınca görünürdü. Hefsiman bağını bülbüllərin cəhcəhi başına götürmüşdü. İudanı bıçaqlayan iki adamın hara getdiyini heç kim bilmir, ancaq başlıqlı adamın hara getdiyi məlumdur. O, yoldan çıxıb cənuba üz tutaraq zeytunluğa girdi. Əsas qapıdan aralıda, bağın cənub küncündə hörgüsünün üst daşları tökülən hasardan aşdı. Az keçmiş Kedronun sahilinə çatdı. Suya girib, uzaqda iki at və onların yanında adam qaraltısı görənə qədər suda qaldı. Atlar da suyun içində dayanmışdı. Su onların ayağını yuyurdu. Atabaxan atların birinə mindi, başlıqlı adam o birinə sıçradı və hər ikisi atları yavaş-yavaş çayla sürdü, atların ayağı altında daşların necəxırçıldadığı eşidilirdi. Sudan Yerşalaim sahilində çıxıb, atlarını şəhər divarının dibiylə sürdülər. Bu vaxt atabaxan irəli çaparaq gözdən itdi, başlıqlı adam isə kimsəsiz yolda atdan düşdü, plaşını astarına çevirdi, plaşın altından lələksiz yastı dəbilqə çıxarıb başına qoydu. İndi ata hərbi xlamidalı və budunun üstündə gödək qılınc olan adam sıçradı. O, cilovu oynatdı və qızğın süvari atı onu yırğalayaraq dördnala çapdı. Yol uzun deyildi – atlı Yerşalaimin cənub darvazasına yaxınlaşırdı.

Darvazanın tağı altında məşəllərin alovu titrəyirdi. İldırımsürətli legionun ikinci kenturiyasının keşikçi dəstəsinin əsgərləri daş skamyalarda oturub zər atırdılar. Yaxınlaşan hərbiçini görüb ayağa sıçradılar. Hərbiçi onlara əl eləyib şəhərə girdi.

Şəhər bayram işıqlarına bürünmüşdü. Pəncərələrdə çıraqların alovu titrəşirdi, hər yerdən bir-birinə qarışan dua-səna, cürbəcür söhbətlər eşidilirdi. Atlı hərdən küçəyə baxan pəncərələrə boylananda çəpiş əti qoyulmuş, göyərti boşqablarının arasına piyalələr düzülmüş bayram süfrəsi arxasında oturan adamları görürdü. O, fitlə xəfif bir mahnı çalaraq, yorğa yerişlə tələsmədən Aşağı şəhərin boş küçələrindən keçib, məbədin üstündə yanan, dünyanın heç bir yerində görünməmiş beşşama, ya beşşamdan daha yüksəkdə dayanan aya hərdən nəzər salıb, Antoni qalasına tərəf gedirdi.

Böyük İrodun sarayında təntənəli Pasxa gecəsi qeyd olunmurdu. Sarayın cənuba baxan, Roma koqortası zabitlərinin və legion leqatının yerləşdiyi yardımçı otaqlarından işıq gəlirdi, orada hərəkət və həyat hiss

olunurdu. Sarayın yeganə və məcburi sakini prokurator olan giriş hissəsi öz sütunları, qızıl heykəllərilə parlaq ay işığı altında kor olmuşdu. Sarayın içərisində zülmət və sakitlik hökm sürürdü. Afraniyə dediyi kimi, prokurator içəri keçmək istəməmişdi. Nahar elədiyi, səhər isə istintaq apardığı eyvanda yataq salınmasını tapşırmışdı. Prokurator taxtda uzanmışdı, ancaq yuxusu gəlmirdi. Buludsuz səmada ay çox yüksəkdə dayanmışdı və prokurator bir neçə saatdı ondan gözünü çəkmirdi.

Nəhayət, gecəyarısı yuxunun igemona rəhmi gəldi. O əsnədi, plaşını çıxarıb tulladı, köynəyin üstündən bağlanmış enli polad xəncər asılan qayışı açıb taxtın böyründəki kresloya qoydu, səndəli soyunub uzandı. Banqa dərhal onun yatağına dırmaşıb yanında uzandı və prokurator əlini itin boynuna qoyub, axır ki, gözünü yumdu. İt də yalnız bundan sonra yatdı.

Sütunların qarşısını kəsdiyi taxt yarıqaranlıqdaydı, ancaq artırmanın pillələrindən yatağa ay işığı uzanırdı. Prokurator ətrafında baş verənlərlə əlaqəni itirən kimi işıqlı yolun ağına düşüb, bu yolla düz aya tərəf getdi. Apaydın

mavi yolda hər şey o qədər gözəl, o qədər bənzərsiz idi ki, hətta yuxuda xoşbəxtlikdən ağladı. O, Banqanın müşayiətilə gedirdi, sərgərdan filosof da yanındaydı. Çox mürəkkəb və mühüm şeylər barədə mübahisə eləyirdilər, amma biri o birinə üstün gələ bilmirdi. Onların heç nədə sözləri düz gəlmirdi, buna görə də mübahisələri olduqca maraqlıydı və uzandıqca uzanırdı. Söz yox ki, bugünkü edam əsl anlaşılmazlıqdı, axı bütün insanların xeyirxah olması kimi cəfəng bir şey uyduran filosof onunla yanaşı addımlayırdı, deməli, o, sağıydı. Və əlbəttə, bu cür adamı edam eləməyi düşünməyin özü belə dəhşətliydi. Edam olmayıb! Olmayıb! Pilləkənlə aya səyahət eləməyin bütün gözəlliyi də elə bunda idi.

Asudə vaxt lazım olduğu qədərdi, tufan isə yalnız axşama yaxın olacaq, qorxaqlıq da, heç şübhəsiz, ən dəhşətli qüsurlardan biridir. İeşua Qa-Nosri belə deyirdi. Yox, filosof, mən sənə etiraz eləyirəm: bu ən dəhşətli qüsurdur!

Bax, misal üçün, Qız Vadisində qəzəbli germanlar Nəhəng Siçovulqıranı, az qala, parçalayanda indiki prokurator, legionun keçmiş tribunu heç qorxmamışdı.

Ancaq məni əfv edərsiniz, filosof! Doğrudanmı, sizin kimi ağlı başında olan adam fikirləşir ki, qeysər əleyhinə cinayət eləyən adama görə İudeyanın prokuratoru öz karyerasını məhv edər?

– Hə, hə, – Pilat yuxuda inildəyib hıçqırdı.

Əlbəttə, məhv edər. Səhər hələ məhv eləməzdi, ancaq indi, gecə hər şeyi ölçüb-biçəndən sonra məhv eləməyə hazırdır. Tamamilə heç bir günahı olmayan divanə xəyalpərəsti, həkimi edamdan xilas etmək üçün o, hər şeyə gedər!

–Biz indi həmişə bir yerdə olacağıq, – Qızıl Nizəli atlının yoluna çıxan üst-başı tökülmüş sərgərdan filosof yuxuda ona deyirdi. – Birimiz buradayıqsa, deməli, o birimiz də buradayıq! Məni xatırlayanda o saat səni də xatırlayacaqlar! Məni – valideynləri məlum olmayan atılmış uşağı və səni – münəccimlər şahının gözəl dəyirmançı qızı Piladan olan oğlunu.

–Hə, heç olmasa, sən məni unutma, münəccim oğlunu xatırla, – Pilat yuxuda xahiş eləyirdi. Və yanıyla gedən En-Saridli dilənçinin başını tərpətməyilə razılığını alıb,

İudeyanın qəddar prokuratoru yuxuda gah ağlayır, gah gülürdü.

Bunlar hamısı nə qədər yaxşıydısa, igemonun yuxudan oyanması bir o qədər dəhşətliydi. Banqa aya baxıb zingildədi və prokuratorun qarşısındakı yağ sürtülmüş kimi sürüşkən mavi yol uçub dağıldı. O, gözünü açdı və ilk əvvəl edamın olduğunu xatırladı. Vərdiş etdiyi kimi Banqanın xaltasından yapışdı, sonra qızarmış gözləriylə ayı axtarıb gördü ki, ay bir az uzaqlaşıb, özü də gümüşü rəng alıb. Ayın işığı eyvanda, gözü qarşısında titrəşən xoşagəlməz, həyəcan oyadan işığı soldururdu. Kenturion Sıçovulqıranın əlindəki məşəl his eləyirdi. O, tullanmağa hazırlaşan itə qorxu və qəzəblə baxırdı.

–Dəymə, Banqa, – prokurator xəstə səslə deyib öskürdü. Alovun işığından əliylə daldalanaraq sözünə davam elədi: – Gecə də, ay işığında da rahatlığım yoxdur. Allahlarım mənim! Sizin də pis vəzifəniz var, Mark. Əsgərləri şikəst eləyirsiniz...

Mark heyrətlə prokuratora baxdı və o, ayılan kimi oldu. Yuxuda söylədiyi lüzumsuz sözləri yumşaltmaq üçün dedi:

–İnciməyin, kenturion. Təkrar eləyirəm, mənim vəziyyətim daha pisdir. Sizə nə lazımdır?

–Məxfi idarənin rəisi gəlib, – Mark sakitcə xəbər verdi.

–Çağırın, çağırın, – prokurator boğazını arıtlayıb, yalın ayaqlarıyla səndəllərini axtardı. Məşəlin işığı sütunlardaoynadı, kenturionun qısaboğaz çəkmələri mozaikalı döşəmədə taqqıldadı. Kenturion bağa çıxdı.

–Aylı gecədə də rahatlığım yoxdur, – prokurator dişini xırçıldadıb deyindi.

Kenturionun əvəzinə eyvanda başlıqlı adam göründü.

–Banqa, dəymə, – prokurator yavaşdan deyib, itin boynundan basdı.

Afrani danışmazdan əvvəl öz adəti üzrə ətrafına göz gəzdirib qaranlığa çəkildi və eyvanda Banqadan başqa heç kimin olmadığma əmin olandan sonra astadan dedi:

–Prokurator, xahiş eləyirəm məni məhkəməyə verəsiniz. Sizin dediyiniz düz çıxdı. Mən kiriaflı İudanı qoruya bilmədim, onu bıçaqlayıb öldürdülər. Məhkəməyə verilməyimi və istefaya göndərilməyimi xahiş eləyirəm.

Afraniyə elə gəldi ki, ona dörd göz – bir cüt it, bir cüt də canavar gözü baxır.

Afrani xlamidanın altından iki möhür vurulmuş, qandan quruyub bərkimiş pul kisəsini çıxartdı.

–Qatillər bu pul kisəsini baş ruhaninin evinə atıblar. Bu kisədəki qan kiriaflı İudanın qanıdır.

–Maraqlıdır, nə qədərdir? – Pilat pul kisəsinə tərəf əyildi.

–Otuz gümüş pul.

Prokurator istehzayla gülümsədi:

–Azdır.

Afrani dinmədi.

–Öldürülən haradadır?

–Bunu bilmirəm, – öz başlığından heç vaxt ayrılmayan adam təmkinlə cavab verdi, – səhər axtarmağa başlayacağıq.

Prokurator heç cür bağlanmaq istəməyən səndəlinin qayışını buraxıb diksindi.

–Ancaq onun öldürüldüyünü yəqin bilirsiniz?

Bu suala prokurator soyuq tərzdə cavab aldı:

–Prokurator, mən on beş ildir İudeyada işləyirəm. Valeri Qratın vaxtında xidmətə başlamışam. Adamın öldüyünü demək üçün hökmən onun meyitini görməyim lazım deyil, indi mən də sizə bildirirəm ki, kiriaflı İuda deyilən şaxs bir neçə saat əvvəl bıçaqla öldürülüb.

–Məni bağışlayın, Afrani, – Pilat dedi, – hələ tamam ayılmamışam, ona görə belə dedim. Mən pis yatıram, – prokurator istehzayla gülümsədi, – həmişə də yuxuda ay işığı görürəm. Təsəvvür edin, çox gülməlidir. Guya, mən bu ay işığının üstüylə gəzirəm. Nəsə, bu işlə bağlı sizin ehtimallarınızı bilmək istərdim. Siz onu harada axtarmaq fikrindəsiniz? Oturun, məxfı idarənin rəisi.

Afrani baş əyib kreslonu çarpayıya yaxın çəkdi və qılıncını taqqıldadıb oturdu.

–Mən onu Hefsiman bağındakı zeytun məngənəsinin yaxınlığında axtarmaq fikrindəyəm.

–Belə, belə. Bəs niyə məhz orada?

–İgemon, mənim mülahizələrimə görə İuda nə Yerşalaimdə, nə də ondan uzaqda öldürülüb. O, Yerşalaim yaxınlığında öldürülüb.

–Sizi öz işinin ən mahir bilicilərindən biri sayıram. Romanı deyə bilmərəm, ancaq müstəmləkələrdə sizə tay yoxdur. İzah eləyin, niyə?

–Heç bir vəchlə düşünmürəm ki, – Afrani astadan dedi, – İuda hansısa şübhəli adamların əlinə şəhərin hüdudlarında keçsin. Küçədə gizlicə bıçaqlaya bilməzsən. Deməli, aldadıb hansısa zirzəmiyə aparmalıydılar. Ancaq mühafizə xidməti artıq onu Aşağı şəhərdə axtarıb; belə olsaydı, hökmən tapardı. Amma o, şəhərdə yoxdur, mən buna zəmanət verirəm. Əgər onu şəhərdən uzaqda öldürsəydilər, bu pul bağlaması belə tezliklə atılmazdı. O, şəhərin yaxınlığında öldürülüb. Onu aldadıb şəhərdən kənara apara biliblər.

–Anlaya bilmirəm, bunu necə bacarıblar.

–Bəli, prokurator, bütün işdə bu ən çətin məsələdir, hətta bunun öhdəsindən gəlib-gəlməyəcəyimi bilmirəm.

–Doğrudan da, müəmmalıdır! Mömin adam bayram axşamı Pasxa süfrəsini tərk eləyib, nə üçünsə şəhər kənarına gedir və orada öldürülür. Kim və necə onu aldadıb apara bilib? Bunu qadın etməyib ki? – prokurator birdən coşqunluqla soruşdu.

Afrani sakitcə və qəti şəkildə dedi:

–Heç bir vəchlə, prokurator. Bu, tamamilə istisna olunur. Məntiqlə düşünmək lazımdır. İudanın ölümündə kim maraqlıydı? Hansısa avara xəyalpərəstlər, hər şeydən əvvəl, qadının iştirak eləmədiyi hansısa dəstə. Prokurator, evlənmək üçün pul lazımdır, dünyaya insan gətirmək üçün yenə pul lazımdır, ancaq qadının köməyilə adam öldümıək üçün lap çox pul lazımdır, o da heç bir avarada yoxdur. Bu işdə qadın olmayıb, prokurator. Üstəlik, onu deyim ki, qətlin bu cür şərhi izi azdırar, istintaqa mane olar və məni dolaşdırar.

–Görürəm, siz tamamilə düz deyirsiniz, Afrani, – Pilat dedi, – mən yalnız öz ehtimallarımı söylədim.

–Heyif ki, onlar səhvdir, prokurator.

–Bəs onda necə olub? – Prokurator çox böyük maraqla Afraninin üzünə baxdı.

–Güman eləyirəm ki, yenə elə pul məsələsidir.

–Əla fikirdir! Ancaq kim və nə üçün gecə şəhər kənarında ona pul təklif eləyə bilər?

–Yox, prokurator, o cür yox. Mənim yeganə fərziyyəm var, əgər o səhvdirsə, ola bilsin, başqa bir səbəb tapa bilməyim. – Afrani prokuratora tərəf əyilib pıçıldadı: – İuda öz pulunu təkcə ona məlum olan xəlvət yerdə gizlətmək istəyib.

–Çox ustalıqla düşünülmüş izahdır. Görünür, əhvalat bu cür də olub. İndi sizi anlayıram: onu kimsə yox, öz düşüncəsi tora salıb. Hə, hə, belədir.

–Belədir. İuda heç kimə etibar eləməyən adam idi. O, pulunu adamlardan gizlətmək istəyib.

–Hə, Hefsimanda gizlədib dediniz. Niyə məhz orada onu axtarmaq fikrindəsiniz, etiraf eləyim ki, bunu başa düşmürəm.

–Prokurator, bu, hər şeydən sadədir. Heç kim pulunu yolda, açıq və görünən yerdə gizlətməz. İuda nə Hevrona, nə Vifaniyaya gedən yolda olub. Belə işdən ötrü təhlükəsiz, xəlvət, ağaclıq bir yer tapmalıydı. Yerşalaim ətrafında Hefsimandan başqa belə yer yoxdur. O, uzağa gedə bilməzdi.

–Siz məni tamamilə inandırdınız. Hə, bəs indi nə eləyək?

–Şəhər kənarında İudanın izinə düşən qatilləri dərhal axtarmağa başlayacağam, həm də bayaq sizə bildirdiyim kimi, məhkəməyə təslim olacağam.

–Nə üçün?

–O, Kaifanın sarayını tərk eləyəndən sonra mühafizəçilərin axşam bazarda onu gözdən qaçırıblar. Bunun necə baş verdiyini ağlıma sığışdıra bilmirəm. Həyatımda belə bir şey olmayıb. Bizim söhbətimizdən sonra o dərhal nəzarət altına alınmışdı. Ancaq bazar səmtdə izi necəsə azdıraraq yoxa çıxıb.

–Belə. Bildirirəm ki, sizi məhkəməyə verməyə lüzum görmürəm. Siz əlinizdən gələni etmisiniz, – bu yerdə prokurator gülümsədi, – heç kim də sizdən artığını eləyə bilməzdi! İudanı gözdən qaçıran xəfiyyələri cəzalandırın. Ancaq sizə xəbərdarlıq eləyim ki, cəzanın elə də ağır olmasını istəmirəm. Bir yana qalanda, bu yaramazı qorumaq üçün biz əlimizdən gələni elədik! Hə, unutdum soruşam, –

prokurator alnını ovuşdurdu, – onlar pulu Kaifanın sarayına necə ata biliblər?

–Bilirsinizmi, prokurator... Bu elə də çətin məsələ deyil. Qisasçılar həyətin dalana çıxdığı yerdə Kaifanın sarayının arxa tərəfinə keçiblər. Onlar bağlamanı hasardan içəri atıblar.

–Məktubla birlikdə?

–Bəli, prokurator, elə siz təxmin etdiyiniz kimi. Yeri gəlmişkən... – Afrani bağlamanın möhürünü qoparıb içindəkiləri Pilata göstərdi.

–Afrani, siz nə eləyirsiniz, axı, yəqin, məbədin möhürüdür!

–Buna görə prokuratorun narahat olmağına dəyməz, – deyib Afrani bağlamanı bükdü.

–Doğrudanmı, sizdə bütün möhürlər var? – Pilat güldü.

–Başqa cür ola da bilməz, prokurator, – Afrani çox ciddi tərzdə cavab verdi.

–Təsəvvür eləyirəm Kaifanın yanında nələr baş verib!

–Bəli, prokurator, bu, çox böyük təşvişə səbəb olub. Məni dərhal çağırdılar.

Pilatın gözünün necə parıldadığı hətta yarıqaranlıqda da görünürdü.

–Maraqlıdır, maraqlıdır...

–Etiraz elədiyim üçün bağışlayın, prokurator, bu heç də maraqlı deyildir. Darıxdırıcı və yorucu işdir. Kiməsə pul verildiyini Kaifanın sarayında qətiyyən boyunlarına almadılar.

–Bəs belə! Neyləyək, verilməyibsə, demək, verilməyib. Qatili tapmaq lap çətin olacaq.

–Tamamilə doğrudur, prokurator.

–Hə, Afrani, beynimə qəfil bir fikir gəldi: o, bəlkə, intihar eləyib?

–Yox, prokurator, – Afrani təəccübdən hətta geri çəkildi, – məni bağışlayın, bu qətiyyən mümkün deyil!

–Ax, bu şəhərdə hər şey mümkündür! Sizinlə mərc gəlməyə hazıram ki, bu barədə şayiələr ən qısa vaxtda bütün şəhərə yayılacaq.

Afrani prokuratora zənlə baxıb, bir az düşünəndən sonra cavab verdi:

–Ola bilər, prokurator.

Artıq hər şey aydın olsa da, görünür, prokurator kiriaflının qətliylə bağlı məsələdən hələ də ayrıla bilmirdi və hətta bir az xəyalpərəstliklə dedi:

–Mən onun necə öldürüldüyünü görmək istəyərdim.

–Çox böyük məharətlə öldürülüb, prokurator, – Afrani azacıq istehzayla prokuratora baxdı.

–Siz bunu haradan bilirsiniz?

–Zəhmət çəkib kisəyə nəzər salın, prokurator, – Afrani cavab verdi, – sizi əmin edirəm ki, İudanın qanı sel kimi axıb. Prokurator, mən ömrümdə çox qətllər görmüşəm!

–Yəqin, daha ayağa durmayacaq.

–Yox, prokurator, duracaq, – Afrani filosofcasma gülümsədi, – burada gözlədikləri Məsihin şeypuru onların üstündə çalınanda duracaq. Ancaq ondan əvvəl durmayacaq.

–Kifayətdir, Afrani! Bu məsələ aydındır. Dəfn məsələsinə keçək.

–Edam olunanlar dəfn edilib, prokurator.

–Afrani, sizi məhkəməyə vermək cinayət olardı. Siz ən yüksək mükafata layiqsiniz. Necə oldu?

Afrani danışmağa başladı və məlum oldu ki, o, İudanın məsələsiylə məşğul olduğu zaman onun köməkçisinin rəhbərlik elədiyi məxfi mühafizə dəstəsi şər qarışanda dərəyə çatıb. Ancaq çarmıxda bir meyit aşkar olunmayıb. Pilat diksinib xırıltılı səslə dedi:

–Ax, necə olub ki, mən bunu qabaqcadan düşünməmişəm!

–Narahat olmağa dəyməz, prokurator, – deyib Afrani söhbətini davam etdirdi.

Yırtıcı quşların gözlərini dimdikləyib çıxartdığı Dismas və Hestasın meyitini düşürüb, dərhal da üçüncü meyiti axtarmağa başlayıblar. Onu çox tez tapıblar. Bir adam...

–Levi Matvey, – Pilat soruşmaqdan çox təsdiqlədi.

–Bəli, prokurator...

Levi Matvey Keçəl Kəllənin şimal yamacındakı mağarada gizlənib qaranlığın düşməsini gözləyirmiş. Mühafizəçilər əllərində məşəl mağaraya girəndə Levi bərk qəzəblənib. Qışqırıb ki, heç bir cinayət törətməyib və qanuna görə hər bir şəxs edam olunmuş cinayətkarı dəfn eləyə bilər. Levi Matvey meyitdən ayrılmaq istəmədiyini

deyib. O, həyəcanlıymış, ağlına gələni qışqırıb gah xahiş eləyirmiş, gah hədələyib lənətlər yağdırırmış.

–Onu tutmalı olublar? – Pilat qaşqabaqlı soruşdu.

–Yox, prokurator, yox, – Afrani təskinedici tərzdə dedi, – bu ötkəm divanəni başa salıblar ki, meyiti dəfn eləyəcəklər.

Levi deyilənləri anlayaraq sakitləşib, ancaq heç hara getməyəcəyini, dəfndə iştirak eləmək istədiyini bildirib. Deyib ki, öldürsələr də, getməyəcək, hətta bu məqsədlə üstündəki çörək bıçağını da təklif eləyib.

–Onu qovublar? – Pilat boğuq səslə soruşdu.

–Yox, prokurator, yox. Mənim köməkçim onun dəfndə iştirakına razılıq verib.

–Hansı köməkçiniz bu işə rəhbərlik eləyib?

–Tolmay, – Afrani sonra həyəcanla əlavə elədi. – Bəlkə, o, səhv iş görüb?

–Danışın, – Pilat cavab verdi, – səhv eləməyib. Afrani, ümumiyyətlə, mən çaşıb qalıram, mən, deyəsən, heç vaxt səhv eləməyən adamla iş görürəm. Bu adam sizsiniz.

Levi Matveyi edam olunanların meyitləri yüklənmiş arabaya mindirib, iki saat sonra Yerşalaimdən şimaldakı kimsəsiz dərəyə çatıblar. Dəstə növbəylə işləyərək bir saat ərzində dərin çala qazıb, hər üç edam olunanı orada dəfn eləyib.

–Çılpaq?

–Yox, prokurator, dəstə bu məqsədlə xitonlar götürübmüş. Dəfn olunanların barmağına halqa keçirilib. İeşuanın barmağına bir halqa, Dismasa iki, Hestasa üç. Çala daşla doldurulub. Fərqləndirici nişanlar Tolmaya məlumdur.

–Ax, əgər mən bunu əvvəlcədən bilsəydim! – Pilat üz-gözünü turşutdu. – Axı mən bu Levi Matveyi görməliydim...

–O buradadır, prokurator.

Pilat gözlərini geniş açaraq bir müddət Afraniyə baxıb dedi:

–Bu işlə bağlı elədiklərinizin hamısı üçün sizə minnətdaram. Xahiş eləyirəm, sabah Tolmayı yanıma göndərin, əvvəlcədən ona mənim razılığımı çatdırın, sizdən isə, Afrani, – prokurator stolun üstündəki kəmərinin

cibindən iriqaşlı üzük çıxarıb, məxfi idarənin rəisinə verdi, – xahişeləyirəm, bunu məndən yadigar olaraq götürün.

Afrani baş əyib dedi:

–Böyük şərəfdir, prokurator.

–Xahiş eləyirəm dəfni icra eləyən dəstəni mükafatlandırasınız. İudanı gözdən yayındıran xəfiyyələrə töhmət verin. Levi Matveyi isə indi yanıma gətirsinlər. İeşuanın işiylə bağlı təfərrüatları bilməyim lazımdır.

–Oldu, prokurator, – Afrani geri çəkilə-çəkilə baş əydi, prokurator isə əlini əlinə çırpıb qışqırdı:

–Yanıma! Sütunların altına çıraq gətirilsin!

Afrani artıq bağa tərəf gedirdi, Pilatın arxasında isə nökərlərin əlində alov şölələnirdi. Üç çıraq prokuratorun qarşısındakı masanın üstünə qoyuldu və aylı gecə o saat bağa çəkildi, sanki, Afrani onu özüylə apardı. Afraninin əvəzinə eyvanda nəhəng kenturionla yanaşı balaca, arıq bir adam göründü. Prokuratorun baxışlarını hiss eləyən kimi kenturion bağa çəkilib yoxa çıxdı.

Prokurator gələn adamı ürkək və həris baxışlarla süzdü. Haqqında çox eşidib, çox da düşündüyün və nəhayət, peyda olmuş adama belə baxırlar.

Qırx yaşlarında olan bu adam qaralmışdı, əyin-başı cırcındır və qurumuş palçıq qatı halındaydı, canavar kimi acıqlı-acıqlı baxırdı. Bir sözlə, daha çox məbədin qarşısında, ya hay-küylü, çirkli Aşağı Şəhərin bazarlarında vurnuxan dilənçiyə oxşayırdı.

Sükut uzun sürdü və bu sükut Pilatın yanına gətirilən adamın qəribə hərəkətiylə pozuldu. Onun sir-sifəti dəyişdi, səndələdi, əgər çirkli əliylə stolun kənarından yapışmasaydı, yıxılardı.

–Sənə nə oldu? – Pilat soruşdu.

–Heç nə, – Levi Matvey udqundu, elə bil, nəsə uddu. Hülqumu qalxıb-düşdü.

–Sənə nə oldu, cavab ver, – Pilat təkrar soruşdu.

–Yorulmuşam, – Levi qaşqabaqlı halda döşəməyə baxdı.

–Otur, – Pilat ona kreslonu göstərdi.

Levi inamsız-inamsız prokuratora baxıb kresloya tərəf getdi, çəkinə-çəkinə qızıl qoltuqları süzərək kresloda yox, onun böyründə döşəmədə oturdu.

–Niyə kresloda oturmadın? – Pilat soruşdu.

–Mən çirkliyəm, onu bulayaram, – Levi yerə baxa-baxa dedi.

–İndi sənə yemək verərlər.

–İştaham yoxdur, – Levi cavab verdi.

–Niyə yalan danışırsan? – Pilat astadan dedi. – Sən axı bütün günü, bəlkə, daha çox vaxtdır heç nə yeməmisən. Di yaxşı, yemə. Səni ona görə çağırmışam ki, üstündəki bıçağı göstərəsən.

–Məni bura gətirəndə əsgərlər əlimdən aldılar, – Levi sonra qaşqabaqlı halda əlavə elədi. – Siz bıçağı mənə qaytarın, onu sahibinə verməliyəm, mən onu oğurlamışam.

–Niyə?

–Kəndiri kəsmək üçün, – Levi dedi.

–Mark! – prokurator çağırdı və kenturion sütunların altında göründü. – Onun bıçağını mənə verin.

Kenturion kəmərindəki iki çexolun birindən çirkli bıçağı çıxarıb prokuratora verdi və uzaqlaşıb getdi.

–Bıçağı kimdən almısan?

–Hevron darvazasının yanındakı çörək dükanından, şəhərə girən kimi soldadır.

Pilat bıçağın enli ağzına baxdı, nəyə görəsə itiliyini yoxlamaq üçün barmağını toxundurub dedi:

–Bıçaq sarıdan narahat olma, onu dükana qaytaracaqlar. İndi isə mənə başqa şey lazımdır: özünlə gəzdirdiyin İeşuanın sözləri yazılmış xartiyanı mənə göstər.

Levi nifrətlə Pilata baxdı və elə pis-pis gülümsədi ki, sifəti eybəcər hala düşdü.

–Hər şeyi almaq istəyirsiniz? Son olan-qalanı da? – o soruşdu.

–Mən demədim ki, ver, – Pilat cavab verdi, – dedim, göstər.

Levi əlini qoynuna soxub perqament bükülüsünü çıxartdı. Pilat onu alıb açdı, çıraqların arasına sərib gözünü qıyaraq mürəkkəblə yazılmış çətin oxunan hərfləri oxumağa başladı. Bu əyri-üyrü sətirləri başa düşmək çətindi və Pilat

üz-gözünü qırışdırıb perqamentə sarı əyildi, əlini sətirlərin üstündə gəzdirdi. Yazılanların bir-birinə bağlı olmayan hansısa kəlamlardan, tarixlərdən, təsərrüfat qeydlərindən və mənzum parçalardan ibarət olduğunu ayırd eləyə bildi. Pilat bəzi sözləri oxudu: "Ölüm yoxdur... Dünən dadlı yaz bakkurotaları[30] yedik..."

Pilat gərginlikdən sifətini turşudub gözünü qıyaraq oxudu: "Biz həyatın dumduru axınını görəcəyik... Bəşəriyyət günəşə şəffaf kristal arxasından baxacaq..."

Bu yerdə Pilat diksindi. Perqamentin son sətirlərində o, bu sözləri oxuya bildi: "... ən böyük qüsur... qorxaqlıqdır".

Pilat perqamenti büküb kəskin hərəkətlə onu Leviyə uzatdı.

–Götür, – bir az susub əlavə elədi: – Görürəm oxumuş adamsan, daldalanacaqsız, dilənçi kökündə tək gəzməyinə lüzum yoxdur. Qeysəriyyədə böyük kitabxanam var, mən çox varlıyam, istəyirəm səni işə götürəm. Papirusları sahmana salıb qoruyarsan, qarnın tox, canın isti olar.

[30] Bakkurota – tez yetişən əncir

Levi ayağa qalxaraq cavab verdi:

–Yox, istəmirəm.

–Niyə? – Prokurator tutuldu. – Məndən xoşun gəlmir, məndən qorxursan?

Həmin o pis təbəssüm Levinin sir-sifətini tanınmaz hala saldı.

–Yox, çünki sən məndən qorxacaqsan. Onu öldürəndən sonra mənim üzümə baxmaq səndən ötrü elə də asan olmayacaq.

–Sus, – Pilat dedi, – pul götür.

Levi başıyla rədd cavabı verdi, prokurator isə sözünə davam elədi:

–Bilirəm, özünü İeşuanın şagirdi sayırsan, ancaq onun öyrətdiklərindən heç nə anlamamısan. Anlasaydın, məndən mütləq nəsə götürərdin. Nəzərə al ki, o ölməmişdən əvvəl heç kimi günahlandırmadığını deyib, – Pilat barmağını mənalı-mənalı qaldırdı və onun sifəti səyridi. – Özü də hökmən nəsə götürərdi. Sən qəddarsan, ancaq o, qəddar deyildi. Sən hara gedəcəksən?

Levi qəfil yaxına gəlib, hər iki əliylə stoldan tutaraq alışıb-yanan gözlərini prokuratora dikdi.

–İgemon, bil ki, Yerşalaimdə bir adamı bıçaqlayıb öldürəcəyəm. Sənə demək istəyirəm biləsən, hələ qan axacaq.

–Hələ qan axacağını mən də bilirəm, – Pilat cavab verdi, – sənin bu sözlərin məni təəccübləndirmədi. Sən, yəqin, məni öldürmək istəyirsən?

–Səni öldürə bilmərəm, – Levi dişlərini qıcırdıb gülümsədi, – o qədər də axmaq deyiləm ki, buna ümid eləyəm, mən kiriaflı İudanı öldürəcəyəm, qalan ömrümü buna həsr eləyəcəyəm.

Bu vaxt prokuratorun gözlərində məmnunluq oxundu, Levi Matveyi əlinin işarəsiylə yanına çağırdı.

–Özünü üzmə, sən bunu eləyə bilməyəcəksən. İudanı artıq bu gecə öldürüblər.

Levi heyrətlə döyüküb stoldan geri sıçradı:

–Bunu kim eləyib?

–Qısqanc olma, – Pilat gülüb əllərini bir-birinə sürtdü, – qorxuram ki, səndən də başqa onun pərəstişkarları olsun.

–Bunu kim eləyib? – Levi pıçıltıyla təkrar elədi.

Pilat ona cavab verdi:

–Mən eləmişəm.

Levi ağzını açıb gözlərini prokuratora zillədi, o isə astadan dedi:

–Əlbəttə, bu azdır, ancaq hər halda, bunu mən eləmişəm. İndi nəsə götürəcəksən?

Levi düşünüb, axır ki, yumşaldı:

–Tapşır mənə təmiz perqament versinlər.

Bir saat ötdü. Levi sarayı tərk eləmişdi. İndi sökülən dan yerinin sakitliyini yalnız bağda gəzişən keşikçilərin asta addım səsləri pozurdu. Ayın rəngi solmuşdu, göyün başqa səmtində dan ulduzu ağımsov ləkə kimi görünürdü. Çıraqlar çoxdan sönmüşdü. Prokurator taxta uzanmışdı. Əlini başının altına qoyub, səssizcə nəfəs alaraq yatırdı. Banqa da böyründə yatmışdı.

İudeyanın beşinci prokuratoru Ponti Pilat nisan ayının on beşinci səhərini belə qarşıladı.

XXVII fəsil

50 №-Lİ MƏNZİLİN AQİBƏTİ

Marqarita fəslin son cümləsini: "...İudeyanın beşinci prokuratoru Ponti Pilat nisan ayının on beşinci səhərini belə qarşıladı", – oxuyanda səhər açıldı.

Ağsöyüd və cökə ağaclarındakı sərçələrin şən cikkiltisi həyəti başına götürmüşdü.

Marqarita kreslodan qalxıb gərnəşdi, əzginliyini, bərk yuxusu gəldiyini yalnız indi hiss elədi. Maraqlıdır ki, ürəyi çox rahatdı. Fikri dağınıq deyildi, keçirdiyi gecə onu qətiyyən sarsıtmamışdı. Şeytanın verdiyi ziyafətdə olması, hansı bir möcüzəyləsə masterin qaytarılması, romanın küldən peyda olması, dalandakı zirzəmidə hər şeyin yenə öz yerini alması, çuğul Aloizi Moqarıçın oradan qovulması onu həyəcanlandırmırdı. Bir sözlə, Volandla tanışlıq ruhi vəziyyətinə heç bir xələl gətirməmişdi. Sanki, hər şey elə belə də olmalıymış.

Qonşu otağa keçdi, masterin sakitcə yatdığına əmin oldu, lazımsız yerə yanan stolüstü lampanı söndürüb, qarşı tərəfdəki divara söykədilmiş, üstünə köhnə cırıq mələfə

örtülmüş divanda uzandı. Bir dəqiqə sonra artıq yuxuya getmişdi və həmin səhər daha heç bir yuxu görmədi. Zirzəmidəki otaqlarda, evtikənin balaca evində sakitlik hökm sürürdü, xəlvət dalanda da səs-səmir yox idi.

Ancaq bu vaxt, yəni şənbə günü sübhə qədər Moskva idarələrindən birinin bütöv bir mərtəbəsi yatmamışdı və xüsusi maşınların uğuldayaraq yavaş-yavaş hərlənib şotkayla təmizlədiyi asfalt döşənmiş böyük meydana baxan pəncərələrində yanan işıq doğan günəşin işığından hələ gur idi.

Bütün mərtəbə Volandın işi üzrə istintaqla məşğuluydu və onlarla kabinetdə gecə işıqlar sönməmişdi.

Əslinə qalanda, məsələ artıq dünən, cümə günü müdiriyyətin itməsindən sonra və məşhur magiya seansında baş verən cürbəcür biabırçılıqlar nəticəsində Varyeteni bağlamaq lazım gələndə aydınlaşmışdı. Ancaq iş ondaydı ki, yuxusuz mərtəbəyə ardı-arası kəsilmədən yeni-yeni məlumatlar daxil olurdu.

Tamamilə müəmmalı və hipnoz fokusları ilə bir-birinə qarışmış, üstəlik, içində açıq-aydın cinayət izləri görünən bu

qəribə işlə bağlı Moskvanın müxtəlif yerlərində baş verən bütün dolaşıq hadisələri istintaq indi bir yerə toplayıb bir yumağa sarımalıydı.

Elektrik işığına bürünmüş yuxusuz mərtəbədə ilk əvvəl Akustika komissiyasının sədri Arkadi Apollonoviç Sempleyarov oldu.

Cümə günü nahardan sonra onun Daş körpünün yaxınhğındakı mənzilində telefon zəng çaldı və kişi səsi Arkadi Apollonoviçi soruşdu. Arkadi Apollonoviçin aparata yaxınlaşan arvadı kobudluqla cavab verdi ki, Arkadi Apollonoviç xəstədir, yatmağa gedib və telefona gələ bilmir. Ancaq Arkadi Apollonoviç telefona gələsi oldu. "Arkadi Apollonoviçi haradan soruşurlar?" sualına telefondakı səs çox qısa cavab verdi.

–Bu saniyə... bu saat... bu dəqiqə... – Akustika komissiyası sədrinin, adətən, çox ötkəm olan arvadının dili dolaşdı və dünənki seansı, saratovlu qardaşı qızının qovulması ilə müşayiət olunan gecə qalmaqalını xatırlayarkən dəhşətli əzab çəkən Arkadi Apollonoviçi oyatmaq üçün yel kimi yataq otağına cumdu.

Bir saniyə çəkmədisə də, bir dəqiqə də çəkmədi, on beş saniyə sonra Arkadi Apollonoviç sol ayağına taxdığı başmaqda, alt tuman-köynəyində artıq telefonun dəstəyini götürüb kəkələyirdi:

–Bəli, mənəm... Eşidirəm, eşidirəm...

Onun arvadı vəfasızlığı üzə çıxmış bədbəxt Arkadi Apollonoviçin bütün iyrənc cinayətlərini unudub, qorxmuş halda dəhlizin qapısından boylanaraq havada başmağın o biri tayını göstərib pıçıldayırdı:

–Başmağı geyin, başmağı... Ayağın soyuqlayar, – bunun cavabında isə Arkadi Apollonoviç yalın ayağıyla onu rədd eləyib, gözünü ağardaraq telefona mızıldadı:

–Bəli, bəli, bəli, əlbəttə, başa düşürəm... Bu saat gəlirəm...

Arkadi Apollonoviç bütün axşamı istintaq aparılan həmin mərtəbədə keçirdi. Ağır, xoşagəlməz bir söhbət idi, çünki yalnız bu murdar seans və lojadakı dava-dalaş haqqında yox, eyni zamanda, doğrudan da, vacib olduğuüçün Yeloxovski küçəsində yaşayan Militsa Pokobatko, saratovlu qardaşı qızı və Arkadi Apollonoviçə

son dərəcə əzab verən bir çox başqa şeylər barədə tam çılpaqlığıyla danışmalı oldu.

Maskalı cadugərin özünü, onun iki əclaf köməkçisini gözəl təsvir eləyən, cadugərin adının məhz Voland olduğunu əla yadında saxlayan, biabırçı seansın fərasətli, təcrübəli şahidi ziyalı və mədəni Arkadi Apollonoviçin ifadəsi, aydındır ki, istintaqı xeyli irəli apardı. Seansdan sonra zərər çəkmiş bəzi xanımların (Rimskini heyrətləndirən bənövşəyi alt paltarındakı qadınla yanaşı, əfsuslar ki, bir çox başqa qadınların da) və Sadovıdakı 50 №-li mənzilə göndərilən kuıyer Karpovun ifadələrinin Arkadi Apollonoviçin ifadəsiylə tutuşdurulması isə bütün bu macəraların günahkarlarını harada axtarmaq lazım olduğunu dərhal müəyyən elədi.

50 №-li mənzildə oldular, özü də dəfələrlə oldular, sondərəcə diqqətlə araşdırmaq nədir, divarları taqqıldatdılar, daş bacalara baxdılar, hər dəlmə-deşiyi, künc-bucağı axtardılar. Di gəl, bütün bu tədbirlər bir nəticə vermədi, gəlişlərinin heç birində mənzildə kimisə tapa bilmədilər, Moskvaya gələn xarici artistlərdən nə cürsə xəbərdar olmalı

şəxslər qəti surətdə bildirsələr də ki cadugər Voland adlı şəxs Moskvada yoxdur, ola da bilməz, mənzildə kiminsə olduğu tamamilə aydın idi.

Gələndə qətiyyən heç yerdə qeydə alınmamışdı, pasportunu, ya hansısa sənədi, müqaviləni heç kimə təqdim eləməmişdi, heç kimin də ondan xəbəri yoxdu! Tamaşalar komissiyasının proqram şöbəsinin müdiri Kitaytsev and-aman eləyirdi ki, itmiş Styopa Lixodeyev hansısa Volandın tamaşa proqramını ona təsdiq üçün göndərməyib və Voland adlı adamın gəlişi barədə ona telefonla bildirməyib. Buna görə Slyopanın Varyetedə belə bir seansa necə imkan verdiyi Kitaytsevə qətiyyən aydın deyil. Deyəndə ki həmin cadugəri Arkadi Apollonoviç öz gözləriylə seansda görüb, Kitaytsev yalnız əllərini yelləyib gözlərini yuxarı dikdi. Kitaytsevin elə gözlərinə baxıb cəsarətlə demək olardı ki, o, büllur kimi safdır.

Baş tamaşalar komissiyasının sədri həmin Proxor Petroviç...

Yeri gəlmişkən,– milis onun kabinetinə girən kimi Anna Riçardovnanın böyük sevincinə, nahaq yerə narahat

edilmiş milisin böyük təəccübünə rəğmən o, dərhal öz kostyumunun içinə qayıtmışdı. Bir daha yeri gəlmişkən: Proxor Petroviç öz yerinə, zolaqlı boz kostyumunun içinə qayıdan kimi, onun olmadığı qısa müddətdə kostyumun qoyduğu dərkənarları tamamilə təsdiq eləmişdi.

...Həmin o Proxor Petroviç Voland adlı şəxs haqqında qətiyyən heç nə bilmirdi.

Nəsə cəfəng bir şey alınırdı: minlərlə tamaşaçı, Varyetenin bütün işçiləri, nəhayət, çox elmli adam olan Sempleyarov Arkadi Apollonoviç bu cadugəri, eləcə də onun lənətəgəlmiş assistentlərini görmüşdü, di gəl, onu heç harada tapmaq mümkün deyildi. İcazənizlə soruşaq: bəlkə, öz murdar seanslarından dərhal sonra yerə batmışdı, ya bəzilərinin dediyi kimi, heç Moskvaya gəlməmişdi? Əgər birincini ehtimal eləsək, şübhəsiz, yerə batarkən Varyetenin bütün müdiriyyətini özüylə aparmışdı, yox, ikincini ehtimal eləsək, belə çıxmırmı ki, talesiz teatrın müdiriyyətinin özü qabaqcadan nəsə bir ziyankarlıq eləyib (kabinetin sındırılmış pəncərəsini və Tuzabubenin hərəkətini xatırlayın!), Moskvadan izsiz-soraqsız yox olmuşdu.

Əslinə qalanda, istintaqa rəhbərlik eləyənə minnətdar olmalıyıq. İtmiş Rimskini son dərəcə tez tapdılar. Kinoteatrın yanındakı taksi dayanacağında Tuzabubenin hərəkətini seansın nə zaman qurtardığı və Rimskinin məhz nə zaman yoxa çıxa biləcəyi müddətlə tutuşdurmaq bəs elədi ki, Leninqrada təcili teleqram vursunlar. Bir saat sonra (cümə gününün axşamı) cavab gəldi ki, Rimski "Astoriya" mehmanxanasının dördüncü mərtəbəsindəki dörd yüz on ikinci otaqda, həmin vaxt Leninqradda qastrolda olan Moskva teatrlarından birinin repertuarlar şöbəsinin müdiri qalan nömrənin yanındakı, qızılı haşiyəli bozumtul-mavi mebeli və gözəl hamamı olan otaqda tapılıb.

"Astoriya"nın dörd yüz on ikinci otağının paltar dolabında gizlənən Rimski dərhal həbs olunub elə Leninqraddaca dindirilmişdi. Bundan sonra Moskvaya teleqram gəldi ki, Varyetenin maliyyə direktoru anlaqsız vəziyyətdədir, suallara ağıllı cavablar vermir, ya vermək istəmir, yalnız xahiş eləyir ki, onu zirehli kamerada gizlətsinlər, yanına da silahlı keşikçilər qoysunlar. Moskvadan teleqramla əmr olundu ki, Rimskini mühafizə

altında Moskvaya gətirsinlər və cümə günü axşam qatarıyla Rimski mühafizə altında oradan yola düşdü.

Cümə günü axşam Lixodeyevin də izinə düşdülər. Onun haqqında bütün şəhərlərə teleqram göndərilmişdi və Yaltadan cavab gəldi ki, Lixodeyev Yaltada olub, ancaq aeroplanla Moskvaya uçub.

Yalnız Varenuxanın izinə düşmək mümkün olmurdu. Bütün Moskvada tanınan məşhur teatr inzibatçısı, sanki, yoxa çıxmışdı.

Eyni zamanda Varyetedən kənarda, Moskvanın başqa yerlərində baş verən hadisələrlə də məşğul olmaq lazım gəldi. "Şanlı dəniz" oxuyan qulluqçuların (yeri gəlmişkən: professor Stravinski dəri altına iynə vurmaqla iki saat ərzində onları qaydaya sala bilmişdi), pul əvəzinə başqalarına, ya da müəssisələrə kağız-kuğuz verənlərin, həmçinin bu cür puldan zərər çəkmiş şəxslərin başına gələn qeyri-adi hadisələrə aydınlıq gətirməli oldular.

Aydındır ki, bütün bu hadisələrdən ən xoşagəlməzi, ən rüsvayçısı, ən qəlizi mərhum ədəbiyyatçı Berliozun başının

günün günorta çağı Qriboyedov zalında tabutdan oğurlanmasıydı.

İstintaqı aparan on iki nəfər bütün Moskvaya səpələnmiş bu lənətə gəlmiş mürəkkəb işi zərrə-zərrə bir yerə toplamışdılar.

Müstəntiqlərdən biri professor Stravinskinin klinikasına gəlib, ilk növbədə son üç gündə klinikaya daxil olan şəxslərin siyahısını göstərmələrini xahiş eləmişdi. Nikanor İvanoviç Bosoy və başı qopanlan bədbəxt konferansye beləcə tapılmışdı. Amma onlarla az məşğul olmuşdular. Bu iki adamın müəmmalı cadugərin başçılıq elədiyi eyni dəstənin qurbanı olduğunu müəyyən eləmək indi elə də çətin deyildi. İvan Nikolayeviç Bezdomnı isə müstəntiqi çox maraqlandırmışdı.

İvanuşkanın 117 №-li otağının qapısı cümə günü axşama yaxın açıldı və müstəntiqə heç oxşamayan, buna baxmayaraq, Moskvanın ən yaxşı müstəntiqlərindən olan mülayim rəftarlı yumrusifət bir oğlan içəri girdi. O, rəngi ağarmış, arıqlamış, ətrafında baş verənlərə gözlərində heç bir maraq hiss olunmayan, ətrafındakıların başı üstündən

gah harasa uzaqlara baxan, gah da özünə qapılan, çarpayıda uzanmış cavan oğlanı gördü.

Müstəntiq özünü mehribancasına təqdim edib, İvan Nikolayeviçin yanına srağagün Patriarx gölündə baş verən hadisə barədə danışmaq üçün gəldiyini dedi.

Ax, əgər müstəntiq onun yanına bundan əvvəl, heç olmasa, çərşənbəyə keçən gecə, Patriarx gölündəki hadisə barədə ona qulaq asmaları üçün dəridən-qabıqdan çıxdığı vaxt gəlsəydi, İvan necə də şad olardı. Məsləhətçini tutmağa kömək eləmək arzusu indi həyata keçmişdi, daha kiminsə arxasınca qaçmaq lazım deyildi, özləri onun yanına və məhz çərşənbə günü axşam nə baş verdiyini eşitmək üçün gəlmişdilər.

Ancaq əfsus, Berliozun ölümündən keçən vaxt ərzində İvanuşka tamam dəyişmişdi. Müstəntiqin bütün suallarına həvəslə, nəzakətlə cavab verməyə hazır idi, ancaq İvanın baxışlarında, danışığında biganəlik duyulurdu. Berliozun taleyi şairi artıq mütəəssir eləmirdi.

Müstəntiq gəlməmişdən İvanuşka uzanıb mürgüləyirdi və gözünün qabağından bəzi şeylər keçirdi. Yonulmuş

sütunları, mərmər parçaları, gün işığında parıldayan damları, qorxunc, amansız Antoni qalası, qərb təpəsindəki damına qədər, az qala, tropik yaşıllığa batmış sarayı və bu yaşıllığın üzərində qürub çağı alışıb-yanan tunc heykəllərilə qəribə, müəmmalı, olmayan bir şəhər gözünün qabağına gəlirdi, qədim şəhərin divarlarının dibiylə gedən zirehli Roma kenturiyalarını görürdü.

İvanın bu mürgüsündə qırxılmış sarı sifətindən əsəbilik yağan bir adam qırmızı astarlı ağ mantiyada kresloda hərəkətsiz oturub nifrətlə sıx, yad bağa baxırdı. İvan çılpaq sarı təpəlikdə dar ağacları da görürdü.

Patriarx gölündə baş verən hadisə isə şair İvan Bezdomnını daha maraqlandırmırdı.

–İvan Nikolayeviç, deyin görüm, Berlioz tramvayın altına düşəndə siz turniketdən çoxmu uzaqdaydınız?

İvanın dodaqlarında laqeyd təbəssüm sezildi:

–Mən uzaqdaydım.

–Bəs dama-dama paltarlı adam turniketin yanındaydı?

–Yox, yaxınlıqdakı skamyada oturmuşdu.

–Berlioz yıxılan anda onun turniketə yaxınlaşmadığı yaxşımı yadınızdadır?

– Yadımdadır. Yaxınlaşmadı. O, skamyayayayxanmışdı.

Bu, müstəntiqin son sualıydı. Sonra qalxıb əlini İvana uzatdı, tez sağalmasını arzulayıb, ümid elədiyini bildirdi ki, tezliklə yenə onun şeirlərini oxuyacaq.

–Yox, – İvan astadan cavab verdi, – mən daha şeir yazmayacağam.

Müstəntiq nəzakətlə gülümsədi, şairin bir az depressiyada olduğunu, lakin bunun tezliklə keçib-gedəcəyini bildirdi.

–Yox, – İvan uzaqlara, qaralan üfüqlərə baxa-baxa dedi, – bu heç vaxt keçib-getməyəcək. Mənim yazdığım şeirlər pis şeirlərdir, bunu indi başa düşmüşəm.

Müstəntiq İvanuşkanın yanından çox əhəmiyyətli məlumatla getdi. İpin ucundan tutub hadisələrin sonundan əvvəlinə gedərək, nəhayət, hadisənin başladığı mənbəyə çatmaq mümkün olmuşdu. Bu hadisələrin Patriarx gölündəki qətldən başladığına müstəntiqin şübhəsi yox idi. Əlbəttə,

Massolitin bədbəxt sədrini nə İvanuşka, nə həmin dama-dama pencəkli adam tramvayın altına itələmişdi, onun tramvayın altına düşməsinə heç kim, necə deyərlər, fiziki cəhətdən səbəb olmamışdı. Ancaq Berliozun tramvayın altına hipnoz vasitəsilə atılmasına (ya düşməsinə) müstəntiq əmindi.

Bəli, artıq kifayət qədər material vardı, kimi, harada tutmaq lazım olduğu da məlumdu. Məsələ ondaydı ki, tutmaq heç cür mümkün deyildi. Lənətə gəlmiş 50 №-li mənzildə üç dəfə kiminsə olduğuna heç şübhə yoxdu. Hərdən bu mənzildə telefon zənglərinə xırıltılı, ya tın-tın səs cavab verirdi, hərdən mənzilin pəncərələri açılırdı, hətta patefon səsi eşidilirdi. Buna baxmayaraq, gedirdilər ki, evdə heç kim yoxdur. Orada isə artıq dəfələrlə, özü də günün ayrı-ayrı vaxtlarında olmuşdular. Bunlar azmış kimi mənzildə tor gəzdirmişdilər, bütün künc-bucağı axtarmışdılar. Mənzil artıq çoxdandı göz altındaydı. Təkcə darvazadan həyətə girən yolda keşik çəkmirdilər, arxa qapını da güdürdülər; bunlar azmış kimi damda tüstü bacalarına da keşikçi qoymuşdular. Bəli, 50 №-li mənzil özünü heç yaxşı

aparmırdı, di gəl, buna bir çarə tapmaq da mümkün olmurdu.

Baron Meygelin əynində ziyafət paltarı, ayağında laklı tufli qonaq kimi təntənəli surətdə 50 №-li mənzilə gəldiyi cümə günü gecəyarısına qədər məsələ beləcə uzandı. Baronu mənzilə buraxdıqları eşidildi. Bundan düz on dəqiqə sonra zəngi çalıb-eləmədən mənzilə girdilər, ancaq evin sahibləri bir yana, əcaib işiydi ki, baron Meygeldən də əsər-əlamət tapmadılar.

Deyildiyi kimi, məsələ beləcə şənbə günü səhər açılana qədər uzandı. Bu vaxt yeni və çox maraqlı məlumatlar gəldi. Krımdan uçan altıyerlik sərnişin təyyarəsi Moskva aerodromunda yerə endi. Başqa sərnişinlərlə birlikde təyyarədən qəribə bir sərnişin də düşdü. Bu, qızarmış gözlərindən qorxu yağan, üz-gözünü tük basmış, üç gün yuyunmamış, baqajsız və bir az əcaib geyinmiş cavan adam idi. Başına papaq qoymuşdu, gecə köynəyinin üstündən çiyninə yapıncı atmışdı, ayağında yenicə alınmış göy rəngli dəri tufli vardı. Təyyarənin kabinəsindən endiyi pilləkəndən aralanan kimi ona yaxınlaşdılar. Bu vətəndaşı artıq

gözləyirdilər və bir qədər sonra Varyetenin unudulmaz direktoru Stepan Boqdanoviç Lixodeyev istintaq qarşısında dayanmışdı. O, yeni-yeni məlumatlar verdi. İndi aydın oldu ki, Voland Stepan Lixodeyevi hipnoz eləyərək Varyeteyə artist kimi girib, sonra isə həmin Styopanı Moskvadan, Allah bilir, neçə kilometr uzağa ata bilib. Beləliklə, məlumat artdı, ancaq bu, işi asanlaşdırmadı, bəlkə, hətta bir az da ağırlaşdırdı, çünki aydın oldu ki, Stepan Boqdanoviçin başına gətirdiyi sayaq hoqqabazlıqlar törədən şəxsi tutmaq elə də asan olmayacaq. Yeri gəlmişkən, Lixodeyev öz xahişiylə yaxşı qorunan kameraya salındı və iki gündü izsiz-soraqsız yoxa çıxan Varenuxa qayıtdığı mənzilində həbs olunub istintaq qarşısında dayandı.

Yalan danışmayacağı barədə Azazelloya verdiyi sözə baxmayaraq, inzibatçı məhz yalanla başladı. Ancaq buna görə onu elə də məzəmmət eləməyə dəyməz. Axı Azazello ona telefonda yalan danışmağı və həyasızlıq etməyi qadağan eləmişdi. İndiki halda isə inzibatçı bu aparatın vasitəsilə danışmırdı. İvan Savelyeviç gözlərini dolandırıb bildirdi ki, cümə axşamı gündüz Varyetedəki kabinetində təkbaşına

keflənənə qədər içib, sonra harasa gedib, hara – yadımda deyil, haradasa yenə starka içib, harada? – Yadında deyil, haradasa hasar dibində yıxılıb qalıb, harada? – Yenə yadında deyil. İnzibatçıya deyəndən sonra ki öz axmaq, ağılsız hərəkətiylə mühüm məsələdə istintaqa mane olur və buna görə, əlbəttə, cavab verəcək, Varenuxa hönkürüb ətrafına göz gəzdirərək titrək səslə pıçıldadı ki, yalnız qorxduğuna görə yalan danışır, artıq bir dəfə əlinə düşdüyü Volandın dəstəsinin qisas alacağından ehtiyatlanır və xahiş eləyir, yalvarır, çox istəyir onu zirehli kameraya salsınlar.

–Lənətə gələsiniz! Nə görüblər bu zirehli kamerada! – istintaqı aparanlardan biri deyindi.

–Bu yaramazlar onları möhkəmcə qorxudublar, – İvanuşkanın yanında olan müstəntiq dedi.

Varenuxanı bacardıqları qədər sakitləşdirib, onu kamerasız-zadsız da qoruyacaqlarını deyəndə aydın oldu ki, hasarın dibində starka içib-eləməyib, onu iki nəfər döyüb – biri kürən və yekədiş, o biri də kök...

–Hə-ə, pişiyə oxşayan?

–Bəli, bəli, bəli, – inzibatçı qorxudan duruxub yan-yörəsinə baxaraq pıçıldadı və vampir sifətiylə 50 №-li mənzildə iki günə yaxın necə yaşadığını, maliyyə direktoru Rimskinin, az qala, ölümünə bais olduğunu ətraflı danışdı...

Bu vaxt Leninqrad qatarıyla gətirilən Rimskini içəri saldılar. Ancaq qorxudan titrəyən, əvvəlki maliyyə direktorluğundan əsər-əlamət qalmamış, ruhi cəhətdən sarsılmış ağsaç qoca heç vəchlə həqiqəti demək istəmirdi və bu mənada çox inadcıllıq göstərdi. Rimski bildirdi ki, gecə kabinetin pəncərəsində Gella adlı qadını, eləcə də Varenuxanı görməyib, sadəcə, özünü pis hiss eləyib və huşsuzluğu ucbatından Leninqrada gedib çıxıb. Deməyə lüzum yoxdur ki, xəstə maliyyə direktoru öz ifadəsini onu zirehli kameraya salmaları xahişiylə bitirdi.

Annuşka Arbatdakı univermaqda kassir qadına ondollarlıq verməyə cəhd göstərərkən həbs olundu. Sadovıdakı binanın pəncərəsindən uçan adamlar və onun sözlərinə görə, milisə vermək üçün yerdən qaldırdığı nal barədəki söhbətini diqqətlə dinlədilər.

–Doğrudanmı, brilyant qaşlar düzülmüş qızıl naldı?

–Brilyantı mənəmi tanıdacaqsınız? – Annuşka cavab verdi.

–Ancaq deyirdiniz ki, sizə onluqlar verib?

–Onluğu mənəmi tanıdacaqsınız, – Annuşka cavab verdi.

–Bəs nə vaxt onlar dollara çevrilib?

–Dollar-zad bilmirəm, dollar deyilən şey də görməmişəm, – Annuşka zığıldadı, – biz qanunu pozmuruq! Bizə mükafat veriblər, biz ona çit alırıq... – və ağzına gələni danışmağa başladı ki, beşinci mərtəbəni əlindən zinhara gəldikləri cin-şəyatin yuvasına çevirmiş evlər idarəsinin əvəzinə cavab verməli deyil.

Bu yerdə müstəntiq qələmini Annuşkaya silkələdi, çünki hamını əməlli-başlı boğaza yığmışdı və ona çıxıb getməsi üçün yaşıl kağızda icazə vərəqəsi yazdı, bundan sonra Annuşkanın əlindən canlarını qurtardılar.

Sonra növbəylə bir xeyli adam dindirildi, onların arasında ərinin itdiyi barədə səhər-səhər milisə xəbər verən qısqanc arvadının axmaqlığı ucbatından yenicə həbs olunmuş Nikolay İvanoviç də vardı. Şeytanın ziyafətində

olduğu haqqında gülməli qəbzi stolun üstünə qoymaqla Nikolay İvanoviç müstəntiqləri elə də təəccübləndirmədi. Marqarita Nikolayevnanın qulluqçusunu göynən hansı cəhənnəməsə çayda çimməyə apardığını və bundan əvvəl Marqarita Nikolayevnanın pəncərədə çılpaq peyda olmasını danışanda Nikolay İvanoviç həqiqətdən bir az uzaqlaşdı. Misal üçün, atılmış gecə köynəyilə yataq otağına gəldiyini, Nataşanı Venera adlandırdığını xatırlamağı lazım bilmədi. Onun sözlərindən belə çıxdı ki, Nataşa pəncərədən uçub belinə minərək onu Moskvadan kənara aparıb...

–Zorakılığa itaət eləməyə məcbur oldum, – bu barədə arvadına bir kəlmə də deyilməməsi xahişiylə Nikolay İvanoviç sözünü bitirdi. Onlar da söz verdilər.

Nikolay İvanoviçin ifadəsi Marqarita Nikolayevnanın, həmçinin qulluqçusu Nataşanın izsiz-soraqsız yoxa çıxdığını müəyyən elədi. Onları axtarmaq üçün tədbirlər görüldü.

Şənbə gününün səhəri bir saniyə belə ara verməyən istintaqla açıldı. Bu vaxt şəhərdə çox az bir hissəsi həqiqət olan cürbəcür ağlasığmaz şayiələr dolaşmaqdaydı. Deyirdilər ki, Varyetedəki seansdan sonra iki min

tamaşaçının hamısı lümlüt küçəyə atılıb, Sadovaya küçəsində saxta pul kəsən möcüzəli mətbəə aşkarlanıb, guya, hansısa dəstə əyləncələr şöbəsinin beş müdirini oğurlayıb, ancaq milis dərhal onları tapıb və hətta təkrar eləmək istəmədiyimiz bir çox başqa şeylər də danışırdılar.

Nahara yaxın istintaq aparılan yerdə telefon zəng çaldı. Sadovıdan xəbər verdilər ki, lənətə gəlmiş mənzildə yenə həyat əlaməti hiss olunub. Dedilər ki, mənzilin pəncərəsi açılıb, içəridən pianino və oxumaq səsi eşidilib, pəncərənin qabağında oturub özünü günə verən qara pişiyi görüblər.

Qızmar gündə saat dördə yaxın mülki paltarlı kişilərdən ibarət böyük dəstə Sadovaya küçəsindəki 302-bis №-li binaya çatmağa az qalmış üç maşından tökülüşdü. Böyük dəstə burada iki kiçik dəstəyə bölündü, dəstənin biri həyətdən birbaşa altıncı giriş qapısına girdi, o biri isə mıxlanmış balaca arxa qapını açdı və hər iki dəstə ayrı-ayrı pilləkənlərlə 50 №-li mənzilə qalxdı.

Bu vaxt Korovyev və Azazello yemək otağında oturub səhər yeməyini bitirmək üzrəydilər, həm də Azazello ziyafət frakında yox, öz adi geyimində idi. Voland həmişəki kimi

yataq otağındaydı, pişiyin isə harada olduğu məlum deyildi. Ancaq qazanların taqqıltısından güman eləmək olardı ki, Begemot məhz oradadır və yenə gicliyi tutub.

–Pilləkəndəki bu ayaq səsləri nədir? – Korovyev fincandakı qara qəhvəni qaşıqla qarışdıra-qarışdıra soruşdu.

–Bizi həbs eləməyə gəlirlər, – Azazello cavab verib bir qədəh konyak içdi.

–A-a, gəlsinlər, – Korovyev dedi.

Giriş qapısından qalxanlar artıq üçüncü mərtəbənin meydançasındaydılar. Burada su idarəsinin iki işçisi istilik sisteminin batareyasıyla əlləşirdi. Pilləkənlə qalxanlar işçilərlə mənalı-mənalı baxışdılar.

–Hamı evdədir, – işçilərdən biri çəkiclə borunu döyəcləyə-döyəcləyə dedi.

Onda qabaqda gələn adam paltonun altından çəkinib-eləmədən qara mauzer, yanındakı isə kilidaçan çıxartdı. Ümumiyyətlə, 50 №-li mənzilə gələnlər necə lazımsa tədarük görmüşdülər. İkisinin cibində asan açılan zərif ipək tor, birində kəmənd, başqa birində tənzif maskalar və xloroformlu ampulalar vardı.

Bir andaca 50 №-li mənzilin əsas qapısını açdılar və gələnlər dəhlizə girdi, mətbəxin bu zaman çırpılan qapısı isə arxa qapıdan gələn ikinci dəstənin də vaxtında yetişdiyini göstərdi.

Bu dəfə tam olmasa da, hansısa uğur göz qabağındaydı. Gələnlər o saat bütün otaqlara səpələndilər və heç kimi tapmadılar, ancaq yemək otağında yenicə tərk edilmiş süfrəni gördülər, qonaq otağındakı buxarının üstündə, büllur bardağın böyründə isə nəhəng qara pişik oturmuşdu. O, pəncəsində primus tutmuşdu.

Qonaq otağına girənlər bir xeyli dinməz-söyləməz pişiyə tamaşa elədilər.

–Pa-a... bu nədi ə... – gələnlərin biri pıçıldadı.

–Nadinclik eləmirəm, heç kimə toxunmuram, primus düzəldirəm, – pişik qaş-qabağını tökərək dedi, – həm də xəbərdarlıq eləməyi özümə borc bilirəm ki, pişik qədim və toxunulmaz heyvandır.

–Heç bir iz-zad qoymayıblar, – gələnlərdən biri pıçıldadı, o biri isə bərkdən dedi:

–Hə, toxunulmaz cadugər pişik, buyur bura!

İpək tor açılıb uçdu, ancaq hamının təəccübünə rəğmən yalnız bardağa ilişdi və bardaq yerə düşüb çilik-çilik oldu.

–Remiz![31]– pişik bağırdı. – Ura! – və primusu bir kənara qoyub, arxasından brauninq çıxartdı. Cəld onu yaxınlıqdakı adama tuşladı, ancaq həmin adam daha tez atəş açdı və mauzerdən açılan atəşlə bir vaxtda pişik əlindəki brauninqi və primusu salıb, buxarının üstündən kəlləsi üstə döşəməyə dəydi.

–Hər şey bitdi, – pişik zarıyıb taqətsiz halda qan gölməçəsinə sərildi, – bir saniyə kənara çəkilin, imkan verin torpaqla vidalaşım. Ah, dostum Azazello! – pişik qanı axa-axa inildədi. – Sən haradasan? – Pişik öləziyən baxışlarını yemək otağının qapısına dikdi. – Sən bərabər olmayan döyüşdə köməyimə çatmadın. Sən yazıq Begemotu bir stəkan konyaka, düzdür, yaxşı konyaka satdın! Eybi yox, mənim ölümümə görə vicdanın qarşısında cavab verməli olacaqsan, mənsə öz brauninqimi sənə vəsiyyət eləyirəm...

[31]Remiz – qılınc təlimində xəbərdarlıq zərbəsi

–Tor, tor, tor, – pişiyin ətrafındakılar həyəcanla pıçıldaşdılar. Ancaq tor kiminsə cibinə ilişib çıxmırdı.

–Ölümcül yaralanmış pişiyi yalnız bir şey, – pişik dedi, – bir qurtum benzin xilas eləyə bilər... – Və ətrafımdakıların çaşqınlığından istifadə eləyib ağzını primusun yumru deşiyinə dirəyərək doyunca benzin içdi. Sağ pəncəsindən süzülən qan dərhal kəsdi. Pişik heç nə olmamış kimi gümrah halda döşəmədən sıçradı, primusu qoltuğuna vurub təzədən buxarının üstünə tullandı, oradan isə divar kağızını cırmaqlaya-cırmaqlaya dırmaşıb bir göz qırpımında gələnlərdən hündürə qalxaraq metal karnizdə oturdu və pərdədən yapışıb karnizlə bir yerdə qopartdı, ona görə gün işığı yarıqaranlıq otağa doldu. Ancaq nə fırıldaqla sağalmış pişik, nə də primus yerə düşmədi. Primusdan ayrılmayan pişik otağın ortasından asılmış çilçırağa tullandı.

–Nərdivan! – aşağıdan qışqırdılar.

–Duelə çağırıram! – pişik hamının başı üzərində yırğalana-yırğalana bağırdı və yenə pəncəsində brauninq göründü; primusu isə çilçırağın arasına qoymuşdu. Gələnlərin başı üzərində kəfkir kimi yırğalana-yırğalana

nişan alıb onlara atəş açdı. Gurultu evi başına götürdü. Çilçırağın büllur qırıqları döşəməyə səpələndi, buxarının üstündəki güzgü çat-çat oldu, suvağın tozu göyə qalxdı, boşalmış gilizlər yerə töküldü, pəncərələrin şüşəsi sındı, güllənin deşdiyi primusdan benzin fışqırdı. Pişiyi diri tutmaqdan daha söhbət belə gedə bilməzdi və gələnlər cavab olaraq mauzerlərdən onun başına, qarnına, sinəsinə, kürəyinə hiddətlə sərrast atəş açırdılar. Atışma həyətdə çaxnaşma yaratmışdı.

Ancaq atışma uzun sürmədi və get-gedə səngidi. Məsələ ondaydı ki, güllələrdən pişiyə, gələnlərə heç bir xətər toxunmurdu. Ölmək nədir, heç yaralanan da yox idi, hamı, o cümlədən pişik sağ-salamatdı. Gələnlərdən biri bunu qəti surətdə yoxlamaq üçün məlun heyvanın başına beş güllə sıxdı, pişik də cavabında bütün darağı ona boşaltdı. Yenə həmin şeydi – heç kim buna əhəmiyyət vermədi. Pişik çilçıraqda yellənməyini get-gedə yavaşıda-yavaşıda nəyə görəsə brauninqin lüləsinə üfürür və pəncəsinə tüpürürdü. Aşağıda dinməzcə dayananların sifətindən heyrət oxunurdu. Bu, yeganə hadisəydi, ya yeganə hadisələrdən biriydi ki,

atışmanın heç bir təsiri olmamışdı. Əlbəttə, güman eləmək olardı ki, pişiyin brauninqi oyuncaq silahdır, ancaq gələnlərin mauzeri haqqında bunu heç cür demək olmazdı. Pişiyin ilk yarası isə şübhə yoxdu ki, benzin içməyi kimi fokusdan və hiyləgərlikdən başqa bir şey deyilmiş.

Pişiyi tutmaq üçün bir cəhd də göstərdilər. Atdıqları kəmənd şamdanların birinə ilişib çilçırağı qopartdı. Yerə düşən çilçırağın zərbi bütün binanı silkələdi, ancaq bunun da bir faydası olmadı. Qırıntılar ətrafdakıların başına yağdı, pişik isə sıçrayıb tavandan azca aşağıda, buxarı güzgüsünün qızılı çərçivəsinin üstündə oturdu. O heç hara qaçana oxşamırdı, əksinə, nisbətən təhlükəsiz yerdə oturub hətta yenə nitq irad elədi.

–Mənimlə bu cür kobud rəftarın səbəbini, – o, üstdən aşağı dedi, – qətiyyən anlamıram...

Bu çıxışı haradan eşidildiyi məlum olmayan yoğun səs kəsdi:

–Mənzildə nə baş verir? İşləməyimə mane olurlar.

Xoşagəlməz tın-tın səs cavab verdi:

–Əlbəttə, lənətə gəlmiş Begemotdur!

Xırıltılı başqa bir səs dedi:

–Messir! Şənbədir. Gün əyilir. Getmək vaxtıdır.

–Bağışlayın, daha söhbət eləyə bilmərəm, – pişik güzgünün üstündən dedi, – getmək vaxtıdır. – O, brauninqini atıb pəncərənin hər iki şüşəsini sındırdı. Sonra döşəməyə benzin çilədi və öz-özünə alışan benzinin alovu tavana qədər yüksəldi.

Nədənsə mənzil qeyri-adi sürətlə alışdı, hətta benzin tökəndə də belə yanmır. Divar kağızları dərhal tüstüləndi, döşəməyə düşmüş pərdə od tutdu, sınmış pəncərələrin çərçivəsi yanmağa başladı. Pişik qıvrılıb mıyoldadı, güzgünün üstündən pəncərənin qabağına atılıb, öz primusuyla birlikdə yoxa çıxdı. Bayırda atəş səsləri eşidildi. Pişik pəncərədən-pəncərəyə tullanıb nal şəklində tikilmiş binanın küncündəki su borusuna yaxınlaşdığı vaxt zərgər arvadının pəncərəsi səviyyəsindəki yanğına qarşı dəmir pilləkəndə oturmuş adam onu atəşə tutdu. Pişik su borusuyla dama çıxdı. Tüstü bacalarınınyanında keşikçəkənlərin də, əfsuslar ki, gülləsi boşa çıxdı və batan günəşin şəhəri bürüyən şəfəqləri altında pişik yox oldu.

Bu vaxt gələnlərin ayağı altında parketdən alov qalxdı və özünü yaralılığa vurmuş pişiyin sərildiyi yerdə, get-gedə qatılaşan tüstüdə baron Meygelin çənəsi yuxarı dartılmış, gözləri donuq meyiti göründü. Daha onu çıxarmaq mümkün deyildi. Yanan parketin üstündən tullana-tullana, əllərini tüstülənən çiyinlərinə, sinələrinə çırpa-çırpa qonaq otağındakılar kabinetə və dəhlizə çəkildilər. Mətbəxdə olanlar da qaçıb dəhlizə gəldilər. Qonaq otağı artıq alova, tüstüyə bürünmüşdü. Kimsə bu çaxnaşmada yanğınsöndürən idarənin telefon nömrəsini yığıb dəstəyə qışqırmağa macal tapdı:

–Sadovaya, üç yüz iki-bis!

Daha ləngimək olmazdı. Alov dəhlizə də adlamışdı. Nəfəs almaq çətinləşmişdi.

Tilsimlənmiş mənzilin sınmış pəncərələrindən tüstü görünən kimi həyətdə çığırtı, bağırtı eşidildi:

–Yanğın! Yanğın! Yanırıq!

Binanın müxtəlif mənzillərində telefona qışqırmağa başladılar:

–Sadovaya! Sadovaya, üç yüz iki-bis!

Şəhərin hər tərəfindən sürətlə gələn uzun qırmızı maşınların ürəyi səksəkəyə salan siqnal səsləri Sadovıda eşidiləndə həyətdə vurnuxan adamlar beşinci mərtəbənin pəncərəsindən tüstüylə birlikdə üç kişi, bir çılpaq qadın qaraltısının uçduğunu gördülər.

XXVIII fəsil

KOROVYEVLƏ BEGEMOTUN SON SƏRGÜZƏŞTLƏRİ

Bunlar adam qaraltıları idi, yoxsa Sadovıdakı uğursuz binanın qorxudan heyrətə düşmüş sakinlərinin gözünə görünmüşdü? Əlbəttə, dəqiq demək olmaz. Əgər adam qaraltılarıydısa, onların hara getdiyini də heç kim bilmir. Harada ayrıldıqlarını da deyə bilmərik, ancaq bilirik ki, Sadovıdakı yanğından, təxminən, on beş dəqiqə sonra Smolenski bazarındakı Torqsinin[32] güzgülü qapıları

[32]Toqrsin – xarici valyuta ilə alver edən xüsusi mağaza

qarşısında dama-dama kostyumlu uzundraz bir adamla yekə qara pişik peyda oldu.

Həmin adam yoldan keçənlərin arasından sivişərək mağazanın qapısını açdı. Ancaq bu zaman balaca, çox arıq, üzündən zəhrimar yağan qapıçı onun qarşısını kəsib əsəbiliklə dedi:

–Pişiklə olmaz!

–Bağışlayın, – uzundraz adam ağır eşidirmiş kimi düyünlü barmaqlarını qulağına söykədi, – pişiklə deyirsiniz? Hanı pişik?

Qapıçı gözlərini bərəltdi, bu da səbəbsiz deyildi: adamın ayaqlarının yanında artıq pişik-filan yox idi, əvəzində onun arxasında başında cırıq kepka olan gonbul, doğrusu, sifətdən pişiyə oxşayanın biri mağazaya təpilməyə çalışırdı. Gonbulun əlində primus var idi.

Bu iki müştəridən adamayovuşmaz qapıçının nəyə görəsə xoşu gəlmədi.

–Bizdə ancaq valyutayladır, – elə bil, güvənin seyrəltdiyi pırpız ağ qaşlarının altından əsəbiliklə baxaraq xırıldadı.

–Mənim əzizim, – uzundraz adam sınıq pensnesinin arxasından gözlərini parıldatdı, – bəs siz haradan bilirsiniz ki, məndə valyuta yoxdur? Siz paltarıma görə belə düşünürsünüz? Heç vaxt belə etməyin, əziz keşikçi! Siz səhv eləyə bilərsiniz, özü də çox böyük səhv. Heç olmasa, məşhur xəlifə Harun ər-Rəşidin rəvayətini bir də oxuyun. Ancaq indiki məqamda bu rəvayəti müvəqqəti olaraq bir kənara qoyub demək istəyirəm ki, sizdən müdirinizə şikayət eləyəcəyəm, sizin haqqınızda ona elə şeylər danışacağam, bərq vuran güzgülü qapılar arasındakı yerinizi tərk etməli olacaqsınız.

–Bəlkə, məndə primus dolusu valyuta var, – mağazaya soxulmaq istəyən gonbul hövsələsiz halda söhbətə qarışdı.

Arxadakılar artıq hirslənib basabas salırdılar. Qapıçı bu əcaib cütlüyə nifrətlə, şübhəylə baxaraq kənara çəkildi və bizim tanışlarımız mağazaya girdilər. Onlar ilk əvvəl ətrafa göz gəzdirdilər, sonra Korovyev hamının eşidəcəyi gur səslə dedi:

–Əntiqə mağazadır! Çox, çox yaxşı mağazadır!

Mağazanı tərifləməyə tam əsası olsa da, piştaxta arxasındakı adamlar çevrilib nədənsə ona təəccüblə baxdılar.

Rəflərdə yüzlərlə top rəngbərəng çit parça gözə dəyirdi. O yanda saya çitlər, şifon və frak mahudu qalaqlanmışdı.

Bir yığın ayaqqabı qutusu sırayla düzülmüşdü və bir neçə qadın sağ ayağında köhnə ayaqqabı alçaq kətildə oturub, sol ayağındakı parıldayan təzə ayaqqabını qayğılı halda xalıya çırpırdı. Haradasa uzaq bir küncdə patefon oxuyurdu.

Ancaq Korovyevlə Begemot bütün bu gözəlliklərdən yan keçib, düz yeyinti və qənnadı şöbəsinin kəsişdiyi yerə yönəldilər. Bura genişlik idi, yaylıqlı və beretli qadınlar çit şöbəsindəki kimi piştaxta qarşısında basabas salmırdılar.

Buynuz sağanaqlı eynəkdə, hamar lentli şax şlyapada, yaşəmən rəngli paltoda, sarı layka dərisindən əlcəkdə alçaqboy, üzü tərtəmiz qırxılmış, eniylə uzunu bərabər olan bir adam piştaxta qarşısında dayanıb hökmlə nəsə donquldanırdı. Təmiz ağ xalatlı, göy papaqlı satıcı müştəriyə xidmət göstərirdi. O, Levi Matveyin oğurladığı bıçağa

oxşayan çox iti bıçaqla yağı daman çəhrayı qızılbalığın ilan kimi gümüşə çalan dərisini soyurdu.

–Bu şöbə də əladır, – Korovyev təntənəli surətdə etiraf elədi, – əcnəbi də suyuşirindir, – barmağıyla dostcasına paltolunu göstərdi.

–Yox, Faqot, yox, – Begemot fikirli-fikirli dedi, – dostum, sən yanılırsan. Paltolu centlmenin sifətində, məncə, nəsə çatışmır.

Paltolu diksindi, ancaq görünür, təsadüfən. Yoxsa rus dilində danışan Korovyevlə yoldaşını əcnəbi necə anlaya bilərdi.

–Yakşıdır? – paltolu alıcı ciddi şəkildə soruşdu.

–Söz ola blməz! – bıçağın ucunu balığın dərisi altında nazla gəzdirə-gəzdirə satıcı cavab verdi.

–Yakşını sevirəm, pisi yok, – əcnəbi soyuq tərzdə dedi.

–Bəs necə! – satıcı coşqunluqla dilləndi.

Bu vaxt bizim tanışlar əcnəbidən və onun qızıl balığından aralanıb qənnadı piştaxtasının kənarına çəkildilər.

–Bu gün istidir, – Korovyev qırmızıyanaq gənc satıcı qıza dedi və ondan heç bir cavab almayıb bu dəfə soruşdu:

–Naringi neçəyədir?

–Kilosu otuz qəpik, – satıcı qız cavab verdi.

–Hər şey od qiymətinədir, – Korovyev köks ötürdü, – eh, eh... – O, bir az da düşünüb, yoldaşına təklif elədi:

–Ye, Begemot.

Gonbul primusunu qoltuğuna vurub, piramidanın lap üstündəki naringini götürdü, qabıqlı-qabıqlı yeyib ikinciyə girişdi.

Satıcı qız dəhşətə gəldi.

–Siz dəli olmusunuz! – rəngi qaçmış halda qışqırdı. – Çek verin! Çek! – və konfet maşasını əlindən saldı.

–Əzizim, canım, gözəlim, – Korovyev satıcı qıza göz vuraraq piştaxtanın üstündən aşdı, – nə etmək olar, indi valyutamız yoxdur!.. Ancaq and içirəm, gələn dəfə, ən geci bazar ertəsi hamısını nağd ödəyərik! Biz yaxında, Sadovıda, yanğın olan yerdə yaşayırıq...

Begemot üçüncü naringini də həzm-rabedən keçirib, pəncəsini üst-üstə yığılmış şokolad plitkalarına atıb lap altdakılardan birini çəkdi, ona görə də, təbii ki, hamısı uçdu və Begemot şokoladı qızılı kağızıyla bir yerdə içəri ötürdü.

Balıq satılan piştaxtanın arxasındakı satıcılar əllərində bıçaq donub-qalmışdılar, paltolu əcnəbi soyğunçulara tərəf çevrildi və bu yerdə aydın oldu ki, Begemot düz demir: paltolu əcnəbinin üzündə nəsə çatışmır yox, daha çox nəsə artığıydı – sallanan yanaqları və döyükən gözləri.

Satıcı qız əməlli-başlı saralıb ağlar səslə mağaza boyu çığırdı:

–Palosiç! Palosiç!

Çit şöbəsindəki adamlar çığırtıya sarı axışdılar, Begemot isə qənnadı şöbəsinin cazibəsindən qopub, pəncəsini "Seçmə Kerç siyənəyi" yazılmış çəlləyə soxdu və bir cüt siyənək balığı çıxarıb udaraq quyruqlarını tüpürdü.

–Palosiç! – qənnadı piştaxtasının arxasından çığırıb təkrar olundu, balıq piştaxtasının arxasındakı qısa saqqallı satıcı isə bağırdı:

–Sən nə eləyirsən, əclaf?!

Pavel İosifoviç artıq hadisə yerinə tələsirdi. O, cərrah kimi mötəbər görkəmli, təmiz ağ xalatlı bir kişiydi, döş cibindən karandaşın ucu görünürdü. Pavel İosifoviç, yəqin, təcrübəli adam idi. Begemotun ağzında üçüncü siyənək

balığının quyruğunu görüb, bir anda vəziyyəti qiymətləndirdi, hər şeyi tam anladı və ədəbsizlərlə mübahisəyə girişməyib, əliylə uzağa işarə edərək komanda verdi:

–Fit çal!

Qapıçı güzgülü qapıdan Smolenskinin tininə yel kimi çıxıb bərkdən fit verdi. Adamlar yaramazları aralığa almağa başladılar, onda işə Korovyev qarışdı.

–Vətəndaşlar! – titrək nazik səslə qışqırdı. – Bu nə deməkdir? Hə? İcazənizlə bunu sizdən soruşum! Bədbəxt adam, – Korovyev səsinə yazıqlıq verib, dərhal ağlamsınan Begemotu göstərdi, – bədbəxt adam bütün günü primus təmir eləyir, o acıb... bəs valyutanı haradan tapsın?

Adətən, təmkinli, sakit olan Pavel İosifoviç acıqlandı:

–Qurtar görüm! – Bu dəfə uzağa artıq səbirsizliklə əl elədi. Onda qapının yanındakı fit səsləri ətrafı başına götürdü.

Ancaq Korovyev onun çıxışından təşvişə düşmədən sözünə davam elədi:

–Haradan olmalıdır? Sizdən soruşuram! O, aclıqdan, susuzluqdan üzülüb! Ona istidir. Nə böyük şeydir, dadına baxmaq üçün bu bədbəxt naringi götürüb. Həmin naringinin də qiyməti vur-tut üç qəpikdir. Di gəl, meşədəki bülbül kimi cəh-cəh vururlar, milisi narahat eləyirlər, onu işdən ayırırlar. Bəs ona olar? Hə? – Korovyev bu yerdə paltolu gonbulu göstərdi və gonbulun sifətində bərk təşviş ifadə olundu. – O kimdir elə? Hə? Haradan gəlib? Niyə gəlib? Nədir, ondan ötrü darıxmışdıq? Onu dəvət etmişik? Əlbəttə, – sabiq regent kinayəylə ağzını əyib, gücü çatdıqca bağırdı, – görürsünüz də, yasəmən rəngli şıq palto geyinib, qızılbalıq yeməkdən şişib, cibi valyutayla doludur, bəs bizimkilərin, bizimkilərin nəyi var?! Çox acınacaqlı vəziyyətdir! Acınacaqlıdır! Acınacaqlıdır! – Korovyev qədim toylardakı sağdış kimi zarıldadı.

Bütün bu gic-gici, yersiz və yəqin ki, siyasi cəhətdən ziyanlı çıxış Pavel İosifoviçi səksəndirdi, ancaq nə qədər qəribə olsa da, yığılan adamların gözlərindən bu çıxışın onların çoxunda rəğbət oyatdığı hiss olunurdu! Begemot

paltarının çirkli yırtıq qolunu gözünə sıxıb iztirabla deyəndə ki:

–Sağ ol, sadiq dost, zərərçəkənin tərəfini saxladın! – möcüzə baş verdi. Kasıb, ancaq təmiz geyinmiş, qənnadı şöbəsindən üç dənə badamlı piroq almış abırlı bir qoca birdən-birə dəyişdi. Gözləri parıldadı, qızardı, içində piroq olan kağız paketi döşəməyə atıb:

–Doğrudur! – deyə uşaq kimi nazik səslə qışqırdı. Sonra məcməyini götürdü, Begemotun məhv etdiyi şokoladdan düzəldilmiş Eyfel qülləsinin qalıqlarını atıb, sol əliylə əcnəbinin şlyapasını çıxartdı, sağ əliylə isə məcməyini zərblə əcnəbinin daz başına çırpdı. Elə səs çıxdı ki, yük maşınından yerə dəmir təbəqəsi atılanda belə səs çıxır. Gonbul ağappaq olub, arxası üstə aşaraq Kerç siyənəyi çəlləyinə düşdü və duzlu su ətrafa fontan vurdu. Bu yerdə ikinci möcüzə baş verdi. Çəlləyə düşən paltolu aksentsiz-zadsız təmiz rus dilində qışqırdı:

–Öldürürlər! Milis! Məni quldurlar öldürür! – Görünür, sarsıntı nəticəsində indiyə qədər bilmədiyi rus dilinə birdən yiyələnmişdi.

Qapıçının fiti kəsiləndə həyəcanlanmış alıcıların arasında yaxınlaşan milis dəbilqələri gözə dəydi. Ancaq məkrli Begemot hamamda suyu vedrəylə skamyaya əndərən kimi, primusdan benzini qənnadı piştaxtasının üstünə tökdü və benzin öz-özünə alışdı. Alov yuxarı qalxıb, meyvə səbətlərinin qəşəng kağız lentlərini yandıra-yandıra piştaxta boyu yayıldı. Satıcı qızlar çığırtıyla piştaxtanın arxasından götürüldülər və onlar qaçan kimi pəncərələrin kətan pərdələri, döşəmə od tutdu. Adamlar o saat hay-həşir qoparıb, daha lazım olmayan Pavel İosifoviçi ayaqlayaraq qənnadı şöbəsindən kənara sıçradılar, balıq şöbəsindəki satıcılar isə iti bıçaqları əllərində bir-birinin dalınca arxa qapıya tərəf götürüldülər. Paltolu vətəndaş siyənək həlməşiyinə bulaşmış halda piştaxtadakı qızılbalığın üstündən aşıb onların arxasınca cumdu. Xilas olmağa çalışanların basabasında giriş qapısının şüşələri sınıb cingiltiylə yerə töküldü, hər iki yaramaz – Korovyev və qarınqulu Begemot isə harasa yoxa çıxdılar, hara – bilinmədi. Torqsindəki yanğının şahidləri sonra danışırdılar ki, guya, hər iki xuliqan tavana qalxıb orada uşaq şarı kimi

partlayıb. Əlbəttə, əhvalatın məhz belə olması şübhəliydi, ancaq görmədiyimizi deyə bilmərik.

Amma bilirik ki, Smolenskidəki hadisədən düz bir dəqiqə sonra Begemotla Korovyev artıq bulvarın səkisində, elə Qriboyedovun xalası evinin yanındaydılar və Korovyev dəmir çəpərin qarşısında dayanıb dedi:

–Paho! Bu ki yazıçılar evidir! Bilirsən, Begemot, mən bu ev haqqında çox yaxşı sözlər eşitmişəm. Dostum, buevə diqqət elə. Düşünmək xoşdur ki, bu damın altında bir yığın istedad yetişir.

–Oranjereyadakı ananaslar kimi, – deyərək Begemot açıq-sarı sütunlu evə yaxşı tamaşa eləmək üçün dəmir çəpərin beton bünövrəsinə çıxdı.

–Tamamilə doğrudur, – Korovyev ayrılmaz yol yoldaşıyla razılaşdı, – düşünəndə ki indi bu evdə "Don Kixot"un, ya "Faust"un, ya lənət şeytana, "Ölü canlar"ın gələcək müəllifi yetişir, adamın ürəyi şirin duyğu ilə çırpınır! Hə?

–Adamı dəhşət basır! – Begemot təsdiq etdi.

–Bəli, – Korovyev sözünə davam elədi, – öz həyatını fədakarcasına Melpomenanın, Poliqimniyanın və Taliyanın xidmətinə verməyi qərara alan bir neçə min mücahidi bir damın altında birləşdirən bu evin parniklərindən çox qəribə şeylər gözləmək olar. Təsəvvür eləyirsən, onlardan hansısa biri başlanğıc üçün bir "Müfəttiş", aşağısı bir "Yevgeni Onegin" ortaya qoysa, necə hay-küy qopar!

–Çox sadə, – Begemot yenə təsdiq etdi.

–Bəli, – Korovyev fikirli halda barmağını qaldırdı, – ancaq! Ancaq deyirəm və bunu təkrar eləyirəm – ancaq! Əgər şüşəbənddə yetişdirilən bu zərif bitkilərə hansısa mikroorqanizm hücum eləməsə, kökünü zədələməsə, əgər onlar çürüməsə! Ananaslarda belə şeylər olur! Ay-ay-ay, özü də necə olur!

–Yeri gəlmişkən, – Begemot yumru başını dəmir çəpərdəki deşikdən içəri soxaraq xəbər aldı, – onlar eyvanda neyləyirlər?

–Çörək yeyirlər, – Korovyev izah elədi, – mənim əzizim, əlavə olaraq deyim ki, burada kifayət qədər yaxşı və ucuz restoran var. Mən isə hər bir turist kimi uzaq səfərdən

əvvəl qəlyanaltı eləyib, bir parç buz kimi pivə içmək istəyirəm.

–Mən də, – Begemot dedi və hər iki yaramaz cökə ağaclarının altındakı asfalt cığırla fəlakət hiss etməyən restoranın eyvanına doğru addımladı.

Ağ corablı, başına da ağ beret qoymuş solğun bənizli bir qadın eyvanın küncündəki sarmaşıqlı girişin ağzında Vyana stulunda kefsiz halda oturmuşdu. Onun qarşısındakı adi mətbəx stolunun üstündə kontor dəftərinə oxşar qalın dəftər vardı və restorana girənləri nəyə görəsə bu dəftərə qeyd eləyirdilər. Korovyevlə Begemotu məhz həmin qadın saxladı.

–Sizin vəsiqələriniz? – O, Korovyevin pensnesinə, Begemotun primusuna və cızılmış dirsəyinə təəccüblə baxdı.

–Sizdən çox-çox üzr istəyirəm, nə vəsiqə? – Korovyev heyrətlə soruşdu.

–Siz yazıçısınız? – öz növbəsində qadın şoruşdu.

–Sözsüz, – Korovyev ləyaqətlə cavab verdi.

–Sizin vəsiqələriniz? – qadın təkrar elədi.

–Mənim gözəlim... – Korovyev nəvazişlə sözə başladı.

–Mən gözəl deyiləm, – qadın onun sözünü kəsdi.

–Ah, çox heyif, – Korovyev məyus halda sözünə davam elədi, – neyləyək, istəmirsinizsə, olmayın, ancaq çox xoş olardı. Doğrudanmı, Dostoyevskinin yazıçılığına inanmaq üçün ondan vəsiqə tələb etmək lazımdır? Siz onun hər hansı romanından istənilən beş səhifəni götürün və vəsiqəsiz-zadsız qarşınızdakının yazıçı olduğuna inanacaqsınız. Güman eləyirəm onun heç vəsiqəsi də olmayıb! Sən necə fikirləşirsən? – Korovyev Begemotdan xəbər aldı.

–Mərc gəlirəm ki, olmayıb, – o, primusu stolun üstündəki dəftərin yanına qoyub, hisli alnının tərini əliylə sildi.

–Siz Dostoyevski deyilsiniz, – Korovyevin çaşdırdığı qadın dedi.

–Nə bilmək olar, – o cavab verdi.

–Dostoyevski ölüb, – qadın inamsızlıqla dedi.

–Etiraz eləyirəm! – Begemot qızğıncasına ucadan dedi. – Dostoyevski ölməzdir!

–Vətəndaşlar, vəsiqələriniz, – qadın dedi.

–Əfv edərsiniz, axı bu gülüncdür, – Korovyev inadından dönmürdü, – yazıçının yazıçılığını heç də vəsiqəsi yox, yazdığı müəyyən edir! Siz haradan bilirsiniz ki, mənim başımda hansı ideyalar qaynayır? Ya bu başda? – O, Begemotun başını göstərdi, sanki, qadının yaxşı-yaxşı baxması üçün Begemot da tez-tələsik kepkasını çıxartdı.

–Vətəndaşlar, imkan verin keçsin, – qadın artıq əsəbiliklə dedi.

Korovyev və Begemot kənara çəkilib boz kostyumlu, köynəyinin yaxalığı pencəyin üstünə çıxmış, qalstuksuz, ağ yay köynəyində və qoltuğunda qəzet olan hansısa yazıçıya yol verdilər. Yazıçı mehribancasına qadına başıyla salam verdi, ayaqüstü dəftərə cızma-qara eləyib, eyvana qalxdı.

–Heyif, heyif, – Korovyev dərdli-dərdli dedi, – biz sərgərdan bədbəxtlərin arzuladığı buz kimi soyuq pivə bizə yox, ona qismət olacaq. Vəziyyətimiz çox müşkül və kədərlidir, bilmirəm neyləyək.

Begemot yalnız acı-acı əllərini yellədib, kepkasını pişik tükünə çox oxşayan tüklü, yumru başına qoydu. Bu zaman qadının başı üzərində asta, ancaq hökmlü bir səs eşidildi:

–Buraxın, Sofya Pavlovna.

Dəftərli qadın heyrətləndi; sarmaşıqlı girişdə frak geyinmiş dəniz quldurunun ağ sinəsi və sivri saqqalı peyda oldu. O, bu iki şübhəli səfilə mehribanlıqla baxıb, hələ üstəlik, onları əliylə içəri dəvət elədi. İdarə etdiyi restoranda Arçibald Arçibaldoviçin hörməti böyük idi və Sofya Pavlovna itaətkarcasına Korovyevdən soruşdu:

–Soyadınız nədir?

–Panayev, – o, nəzakətlə cavab verdi. Qadın bu soyadı yazıb, sual dolu baxışlarını Begemota dikdi.

–Skabiçevski, – nəyə görəsə öz primusunu göstərib ciyildədi. Sofya Paviovna bunu da yazıb, qol çəkmək üçün dəftəri onlara sarı itələdi. Korovyev "Panayev" soyadının qarşısında "Skabiçevski", Begemot isə Skabiçevskinin qarşısında "Panayev" yazdı.

Arçibald Arçibaldoviç Sofya Pavlovnanı tamam heyrətə salıb füsunkarcasına gülümsəyərək qonaqları eyvanın ən sıx kölgəlik olan, yanında sarmaşıqların arasından düşən gün işığının oynaşdığı ən yaxşı stola tərəf apardı. Sofya

Pavlovna isə təəccübdən gözlərini döyə-döyə gözlənməz qonaqların yazılarına bir xeyli baxdı.

Arçibald Arçibaldoviç ofisiantları Sofya Pavlovnadan heç də az heyrətə salmadı. Şəxsən özü Korovyevin altına stul çəkdi, ofisiantların birinə göz vurdu, o birinə nəsə pıçıldadı və hər iki ofisiant, biri öz primusunu döşəməyə, bozarmış çəkməsinin yanına qoyan təzə qonaqların ətrafında vurnuxdu.

Sarı ləkələri olan köhnə süfrə masanın üstündən dərhal yoxa çıxdı, bədəvi əbası kimi ağappaq nişastalı süfrə havada xışıltıyla açıldı, Arçibald Arçibaldoviç isə artıq Korovyevə tərəf əyilib astadan, ancaq çox mənalı şəkildə qulağına pıçıldayırdı:

–Nəyə qonaq eləyəcəyik? Məxsusi qaxac balığım var... memarların qurultayından qoparmışam...

–Siz... e... bizə, ümumiyyətlə, qəlyanaltı verin... – Korovyev stulda yayxanaraq dostcasına mızıldadı.

–Anlayıram, – Arçibald Arçibaldoviç gözlərini yumub mənalı-mənalı dedi.

Olduqca şübhəli müştərilərlə restoranın şefinin necə davrandığını görən ofisiantlar bütün şübhələri bir kənara qoyub can-dildən işə girişdilər. Cibindən papiros kötüyü çıxarıb ağzına soxan Begemota biri artıq kibrit gətirmişdi, o biri yaşıl şüşələri cingildədə-cingildədə qaçıb süfrəyə qədəhlər, parusin örtüyün altında narzanın yaxşı içildiyi... yox, irəlicədən deyək ki, unudulmaz Qriboyedov eyvanında narzanın bir vaxtlar yaxşı içildiyi zərif bakallar düzdü.

–Qarabağır quşunun döş ətinə qonaq eləyə bilərəm, – Arçibald Arçibaldoviç, sanki, oxuya-oxuya dedi. Sınıq pensneli qonaq briq komandirinin təklifini tamamilə bəyəndi və gərəksiz şüşənin arxasından ona iltifatla baxdı.

Qonşu stolda arvadıyla oturub qızardılmış donuz ətinin axırına çıxan belletrist Petrakov-Suxovoy bütün yazıçılara xas olan müşahidə qabiliyyəti ilə Arçibald Arçibaldoviçin qulluq göstərdiyini sezib xeyli təəccübləndi. Onun mötəbər xanımı isə hətta dəniz quldurunu Korovyevə qısqanıb qaşığı tıqqıldatdı... – yəni bu nə deməkdir, bizi niyə gözlədirlər... dondurmanı da vermək vaxtıdır! Belə şey olar?

Arçibald Arçibaldoviç Petrakovaya füsunkar bir təbəssüm bəxş edib ofisiantı yanına göndərdi, ancaq özü əziz qonaqları tərk eləmədi. Ax, Arçibald Arçibaldoviç ağıllı adamdı! Müşahidə qabiliyyəti də, olsun ki, yazıçılarınkından heç də az deyildi. Varyetedəki seansdan, bu günlər baş verən bir çox hadisələrdən xəbərdardı, eşitmişdi, ancaq başqalarının əksinə olaraq "dama-dama paltarlı", "pişik" sözlərini qulaqardına vurmamışdı. Arçibald Arçibaldoviç müştərilərinin kim olduğunu dərhal anlamışdı. Anlayan kimi də, təbii ki, onlarla mübahisəyə girişmədi. Ancaq Sofya Pavlovnaya söz ola bilməz! Gör ağlına gələnə bax – durub onların qabağını kəsir! İntəhası, bundan artıq ondan daha nə gözləyəsən.

Əriyən qaymaqlı dondurmanı təkəbbürlə qurdalaya-qurdalaya Petrakova narazı baxışlarla təlxək kimi geyinmiş adamların qarşısındakı masanın, sanki, möcüzə nəticəsində dolub-daşdığına baxırdı. Parıldayana qədər yuyulmuş kahı yarpaqlarının ucu artıq təzə kürü qoyulmuş vazalardan çıxmışdı... və bir an keçmədi ki, xüsusi olaraq

yaxınlaşdırılmış ayrıca stolda tərləmiş balaca gümüş vedrə peyda oldu...

Yalnız əmin olandan sonra ki hər şey vicdanla görülüb, yalnız ofisiantların əlində ağzıbağlı tava cızıldaya-cızıldaya gələndə Arçibald Arçibaldoviç iki müəmmalı müştərini tərk etməyi özünə rəva bildi, onda da əvvəlcədən onlara pıçıldadı:

– Bağışlayın! Bir dəqiqəliyə! Fileyə şəxsən özüm nəzarət etməliyəm.

O, stoldan aralanıb restoranın içərisindəki qapıda gözdən itdi. Əgər kimsə Arçibald Arçibaldoviçin sonrakı hərəkətlərini izləsəydi, bu hərəkətlər, şübhəsiz, ona bir az müəmmalı görünərdi.

Şef filenin bişməsinə nəzarət etmək üçün mətbəxə yox, restoranın anbarına getdi. Anbarı öz açarıyla açdı, içəri girib, buz doldurulmuş sandıqçadan manjetini bulamamaq üçün ehtiyatla iki iri qaxac balıq çıxartdı, onu qəzetə bükdü, kəndirlə səliqəylə bağlayıb kənara qoydu. Sonra qonşu otağı yoxladı ki, görsün ipək astarlı yay paltosu və şlyapası

yerindədirmi, yalnız bundan sonra qonaqlara söz verdiyi döş ətini aşpazın səylə hazırladığı mətbəxə yollandı.

Demək lazımdır ki, Arçibald Arçibaldoviçin hərəkətlərində qəribə və müəmmalı heç nə yox idi, belə hərəkətləri yalnız səthi müşahidəçi qəribə hesab eləyə bilərdi. Onun hərəkətləri tamamilə əvvəlkilərin məntiqi davamıydı. Son hadisələrdən məlumatlı olmağı, ən başlıcası – müstəsna hissetmə qabiliyyəti sayəsində Qriboyedov restoranının şefinə agah olmuşdu ki, iki müştərinin naharı bol və təmtəraqlı olsa da, uzun sürməyəcək. Keçmiş dəniz quldurunu heç vaxt aldatmayan hissiyyatı bu dəfə də onu darda qoymadı.

Korovyev və Begemot iki dəfə təmizlənmiş əla soyuq Moskva arağının ikinci qədəhini toqquşduranda, hər şeyi bilməsiylə Moskvada məşhur olan salnaməçi Boba Kandalupski tərli və həyəcanlı halda eyvanda göründü, dərhal da Petrakovların yanında əyləşdi. Boba şişman portfelini stolun üstünə qoyub, dodaqlarını tezcə Petrakovun qulağına soxdu və nəsə çox həvəsləndirici şeylər pıçıldadı. Maraqdan üzülən xanım Petrakova qulağını Bobanın koppuş

yağlı dodaqlarına tərəf tutdu. O isə hərdən oğruncasına boylanaraq elə hey pıçıldayırdı və buna oxşar ayrı-ayrı sözləri eşitmək olurdu:

–Vicdanım haqqı! Sadovıda, Sadovıda, – Boba səsini bir az da alçaltdı, – güllə batmır! Güllələr... güllələr... benzin... yanğın... güllələr...

–Murdar şayiələr yayan bu yalançıları, – Petrakova hikkəsindən öz kontralto səsiylə Bobanın istədiyindən bir az bərk ciyildədi, – qandırmaq lazımdır! Eybi yox, elə də olacaq, haqlarında ölçü götürərlər! Gör necə ziyanlı yalanlardır!

–Yalan nədir, Antonida Porfiryevna! – yazıçı arvadının inanmadığından kədərlənən Boba yenə ötməyə başladı: – Sizə deyirəm ki, güllə batmır... İndi də yanğın... Onlar göynən... göynən gəlirlər, – Boba, haqqında danışdığı adamların yanındaca oturub, onun söylədiklərindən ləzzət aldıqlarını ağlına belə gətirmədən donquldandı.

Yeri gəlmişkən, bu ləzzət tezliklə bitdi. Restoranın içərisindəki qapıdan eyvana ildırım sürətilə belləri kəmərlə

tarım çəkilmiş, boğazlı dəri əlcəkdə, əllərində tapança üç kişi çıxdı. Öndə gələn gur və qorxunc səslə qışqırdı:

–Yerinizdən tərpənməyin! – Dərhal da hər üçü Korovyevlə Begemotun başını nişan alıb eyvanı atəşə tutdu. Gülləbaran olunanların hər ikisi o saat havada əridi, primusdan isə alov sütunu düz parusin örtüyə yüksəldi. Parusin örtükdə, sanki, kənarları qara ağız açıldı və hər tərəfə böyüməyə başladı. Alov parusin örtükdən yuxarı millənib, Qriboyedev evinin lap damına qədər qalxdı. İkinci mərtəbədə redaksiyanın pəncərəsi ağzındakı kağız dolu qovluqlar qəfil alışdı, ardınca pərdələr od tutdu və kimsə körükləndirirmiş kimi alov uğuldayaraq xalanın evinin içərilərinə doğru cumdu.

Bir neçə saniyə sonra bulvarın çuqun çəpərinə doğru aparan, fəlakətin çərşənbə axşamı hələ heç kimin anlamadığı ilk carçısı İvanuşkanın gəldiyi asfalt səkiylə indi yeməklərini sona çatdırmamış yazıçılar, ofisiantlar, Sofya j Pavlovna, Boba, Petrakova, Petrakov qaçırdı.

Vaxtında yan qapıdan çıxan Arçibald Arçibaldoviç yanan briqi sonuncu tərk etməyə borclu olan kapitan kimi

heç hara qaçmadan, heç hara tələsmədən iki qaxac balığı da odun kimi qoltuğuna vurub ipək astarlı yay paltosunda sakitcə dayanmışdı.

XXIX fəsil

MASTERİN VƏ MARQARİTANIN TALEYİ MÜƏYYƏNLƏŞDİ

Şəhərin yüksəkliyində, Moskvanın, təxminən, yüz əlli il əvvəl tikilmiş ən gözəl binalarından birinin daş döşənmiş meydançasında qürub çağı iki nəfər – Voland və Azazello dayanmışdı. Onlar küçədən, aşağıdan görünmürdülər, çünki gips vazalar və gips güllərlə bəzənmiş sürahi onları lazımsız baxışlardan qoruyurdu. Ancaq bütün şəhər onların ayağı altındaydı.

Öz qara əbasını geyinmiş Voland qatlanan kətildə oturmuşdu. Onun uzun, enli qılıncı meydançanın iki kəsişən plitəsinin arasına sancılıb günəş saatı əmələ gətirmişdi. Qılıncın kölgəsi yavaş-yavaş uzanıb şeytanın qara tuflilərinə

tərəf sürünürdü. Bir ayağını altına qatlayıb kətildə büzüşmüş Voland iti çənəsini yumruğuna dayayaraq, saysız-hesabsız saraylara, nəhəng binalara, sökülməyə məhkum daxmalara baxırdı.

Müasir paltarıyla, yəni pencəyi, şlyapası, laklı tuflilərilə vidalaşıb Voland kimi qara geyinmiş Azazello öz hökmdarından bir az aralıda hərəkətsiz dayanıb, onun kimi gözünü şəhərdən çəkmirdi.

Voland dilləndi:

–Çox maraqlı şəhərdir, eləmi?

Azazello qımıldanıb hörmətlə cavab verdi:

–Messir, mənim daha çox Roma xoşuma gəlir.

–Hə, zövqdən asılıdır, – Voland dedi.

Az sonra yenə onun səsi eşidildi:

–Bulvardakı o tüstü nədir?

–Qriboyedov evi yanır, – Azazello cavab verdi.

–Yəqin, ayrılmaz Korovyev-Begemot cütlüyü orada olub.

–Buna heç bir şübhə yoxdur, messir.

Yenə sükut çökdü, meydançada arxası günbatana dayanan hər ikisi günəşin nəhəng binaların yuxarı mərtəbələrində əks edib göz qamaşdırdığı pəncərələrə baxırdı. Arxası qüruba olsa da, Volandın gözü də bu pəncərələrdən biri kimi alışıb-yanırdı.

Ancaq bu yerdə nəsə Volandı üzünü şəhərdən çevirib, arxa tərəfindəki damın dairəvi qülləsinə baxmağa məcbur elədi. Qüllənin divarından əynindəki cır-cındır paltarı palçığa batmış, əldəqayırma səndəl, xiton geyinmiş qaşqabaqlı, qarasaqqal bir adam çıxdı.

–Paho! – Voland gələn adama rişxəndlə baxdı. – Səni burada görəcəyimə heç inanmazdım! Nə yaxşı təşrif buyurmusan, çağırılmamış, ancaq gözlənilən qonaq?

–Sənin yanına gəlmişəm, şər ruhlar və kölgələr hökmdarı, – gələn adam ədavətlə, acıqlı-acıqlı Volanda baxdı.

–Mənim yanıma gəlmisənsə, niyə mənimlə salamlaşmadın, keçmiş vergiyığan? – Voland soyuq tərzdə dedi.

–Çünki sənin salamatlığını istəmirəm, – gələn adam kobudcasına cavab verdi.

–Ancaq bununla barışmalı olacaqsan, – Voland istehzayla dodaqucu gülümsədi, – damda görünməyə macal tapmamış dərhal mənasız-mənasız danışdın, bu mənasızlıq sənin intonasiyandadır. Sözünü elə dedin ki, guya, kölgələri, elə şəri də qəbul etmirsən. Sən zəhmət çəkib bu sual barədə düşünə bilərsənmi ki, şər olmasa, xeyirin nə mənası vardır, kölgələr itsə, yer üzü necə görünərdi? Axı kölgələr əşyalardan, adamlardan yaranır. Bax, bu, mənim qılıncımın kölgəsidir. Ancaq ağacların, canlıların da kölgəsi olur. Çılpaq dünyadan ləzzət almaq xülyasına düşməyin ucbatından bütün ağacları, canlıları yer kürəsindən silmək istəmirsən ki? Sən axmaqsan.

–Sənlə mübahisə etməyəcəyəm, qoca sofist, – Levi Matvey cavab verdi.

–Bayaq dediyim səbəbdən mübahisə eləyə də bilməzsən: sən axmaqsan, – deyib Voland soruşdu: – Məni yorma, sözünün canını de, niyə gəlmisən?

–Məni o göndərib.

–Sənə nə deməyi hökm edib, kölə?

–Mən kölə deyiləm, – Levi Matvey lap hirslənərək cavab verdi, – mən onun şagirdiyəm.

–Biz həmişəki kimi başqa-başqa şeylərdən danışırıq, – Voland dedi, – ancaq danışdığımız şeylər bundan dəyişmir. Nə deyir?

–O, masterin əsərini oxuyub, – Levi Matvey dilləndi, – səndən xahiş edir ki, masteri özünlə götürüb ona dinclik bəxş eləyəsən. Doğrudanmı, bunu eləmək sənin üçün çətindir, şər ruh?

–Mənim üçün heç nə çətin deyil, – Voland cavab verdi, – bu da sənə yaxşı məlumdur. – O susub əlavə etdi: – Bəs siz niyə onu yanınıza, işıqlı dünyaya götürmək istəmirsiniz?

–Biz olduğumuz dünya ona düşmür, onun qazancına dinclik düşür, – Levi kədərli səslə dedi.

–De ki, əməl olunacaq, – Voland cavab verdi və gözündən od çıxdı: – Tez get buradan.

–O xahiş eləyir ki, onu sevən, yolunda əzab çəkən qadını da götürəsiniz, – Levi ilk dəfə Volanda yalvardı.

–Sənsiz heç cür ağlımıza gəlməzdi. Get.

Bundan sonra Levi Matvey yoxa çıxdı, Voland isə Azazellonu yanına çağırıb əmr etdi:

–Onların yanına uç, hər şeyi yoluna qoy.

Azazello meydançanı tərk etdi. Voland tək qaldı.

Ancaq onun təkliyi çox sürmədi. Meydançanın plitələrində addım səsləri, qızğın danışıq eşidildi və Volandın qarşısında Korovyevlə Begemot peyda oldu. İndi gonbulun primusu yox idi, başqa əşyalarla yüklənmişdi. Qoltuğunda qızılı çərçivədə balaca landşaft[33], qolunun üstündə yarısı yanmış aşpaz xalatı, o biri əlində bütöv bir qızıl balıq var idi. Korovyevlə Begemotdan yanıq iyi gəlirdi, Begemotun sifəti his içindəydi, kepkası isə yarıya qədər yanmışdı.

–Salyut, messir!– yorulmaq bilməyən cütlük qışqırışdı və Begemot əlindəki qızılbalığı yellədi.

–Nə kökdəsiniz! – Voland dedi.

–Messir, təsəvvür edin, – Begemot həyəcanlı halda sevincək qışqırdı, – məni soyğunçu bildilər!

[33]Landşaft – mənzərə, yer səthinin şəkli

–Gətirdiyin əşyaları nəzərə alsaq, – Voland landşafta göz gəzdirdi, – sən elə soyğunçusan.

–İnanırsınızmı, messir... – Begemot ürəklə danışmağa başladı.

–Yox, inanmıram, – Voland qısaca cavab verdi.

–Messir, and içirəm, qəhrəmancasına çalışdım ki, nə mümkünsə xilas eləyəm, ancaq vur-tut bunları götürə bildim.

–Yaxşısı budur de görüm, Qriboyedov niyə yandı?

–Voland soruşdu.

Hər ikisi əlini yelləyib göyə baxdı, Begemot isə qışqırdı:

–Anlaya bilmirəm! Kirimişcə oturub qəlyanaltı eləyirdik...

–Birdən – taraq, taraq! – Korovyev onun sözünü davam etdirdi. – Atəş açıldı! Qorxudan dəhşətə gəlib, Begemotla bulvara doğru qaçdıq, onlar da dalımızca, biz özümüzü Timiryazevə atdıq!..

–Ancaq vəzifə borcu, – Begemot söhbətə qoşuldu, – rüsvayçı qorxaqlığımıza üstün gəldi və biz qayıtdıq.

–Hə, qayıtdınız? – Voland dedi. – Əlbəttə, bina büsbütün yanandan sonra.

–Büsbütün! – Korovyev dərdli-dərdli təsdiqlədi. – Sizin çox dəqiq ifadə etdiyiniz kimi büsbütün, messir. Bircə külü qaldı!

–Qiymətli nəsə çıxarmaq ümidiylə mən iclas zalına cumdum, – Begemot dedi, – sütunlar olan zala, messir. Ah, messir, əgər mənim arvadım olsaydı, iyirmi dəfə dul qala bilərdi! Ancaq bəxtimdən, messir, mən evli deyiləm və sizə açıq deyim ki, evlənmədiyimə görə xoşbəxtəm. Ah, messir, məgər subaylığın azadlığını məşəqqətli boyunduruğa dəyişmək olarmı?

–Yenə cəfəngiyat başlandı, – Voland dedi.

–Eşidirəm və sözümə davam eləyirəm, – pişik cavab verdi, – bu da landşaft. Zaldan daha heç nə çıxarmaq mümkün olmadı, alov sifətimi qarsalayırdı. Mən anbara qaçıb qızılbalığı xilas elədim. Mətbəxə qaçıb xalatı xilas elədim. Messir, düşünürəm ki, bacardığımı eləmişəm,ancaq sizin hər şeyə şübhəylə yanaşmanızın səbəbini başa düşmürəm.

–Sən soyğunçuluq elədiyin vaxt bəs Korovyev nəylə məşğuluydu? – Voland soruşdu.

–Mən yanğınsöndürənlərə kömək eləyirdim, messir, – Korovyev cırılmış şalvarını göstərdi.

–Əgər belədirsə, əlbəttə, yeni bina tikmək lazım gələcək.

–Tikiləcək, messir, – Korovyev dedi, – sizi əmin edirəm.

–Nə deyim, bircə arzulamaq qalır ki, əvvəlkindən yaxşı olsun, – Voland bildirdi.

–Elə də olacaq, messir, – Korovyev dedi.

–Siz mənə inanın, – pişik əlavə etdi, – mən əsl peyğəmbərəm.

–Nə təhər olsa da, biz gəldik, messir, – Korovyev bildirdi, – sizin tapşırıqlarınızı gözləyirik.

Voland kətildən qalxıb sürahiyə yaxınlaşdı və arxası əshabələrinə durub bir xeyli dinməzcə uzaqlara baxdı. Sonra yenə geri çəkilib kətilə çökərək dedi:

–Heç bir tapşırıq olmayacaq, bacardığınızı elədiniz, hələ ki, sizin xidmətinizə ehtiyacım yoxdur. Dincələ

bilərsiniz. İndi tufan qopacaq, sonuncu tufan, o, lazım olan hər şeyi axıra çatdıracaq və biz yola düşəcəyik.

–Çox yaxşı, messir, – hər iki oyunbaz cavab verib meydançanın ortasındakı dairəvi mərkəzi olan qüllənin arxasında gözdən itdi.

Voland dediyi tufanın əlamətləri artıq üfüqdə görünürdü. Qərbdən qalxan qara bulud günəşi yarıyacan uddu. Sonra onu tamam örtdü. Meydançada hava sərinləşdi. Bir az keçmiş qaranlıq çökdü.

Qərbdən gələn qaranlıq nəhəng şəhəri örtdü. Körpülər, saraylar görünməz oldu. Dünyada heç olmayıbmış kimi hər şey yoxa çıxdı. Bütün səmanı odlu xətt yarıb keçdi. Sonra şəhəri gurultu silkələdi. Gurultu təkrar olundu və tufan qopdu. Voland tufanın zülmətində görünməz oldu.

XXX fəsil

VAXTDIR! VAXTDIR!

–Bilirsən, – Marqarita dedi, – dünən gecə sən yuxuya gedəndə mən Aralıq dənizindən gələn qaranlıq haqqında oxuyurdum... bir də bütlər, ah, qızıl bütlər! Nəyə görəsə onlar mənə rahatlıq vermir. Mənə elə gəlir, indi yağış yağacaq. Hiss eləyirsən, hava necə sərinləşir?

–Bunların hamısı xoşdur, yaxşıdır, – master əliylə papirosun tüstüsünü qovdu, – bütləri də boşla getsin... ancaq bu işlərin sonrası nə olacaq, qətiyyən məlum deyil!

Bu söhbət qürub çağı, məhz Levi Matvey meydançada Volandın yanına gəldiyi vaxt olurdu. Zirzəminin balaca pəncərəsi açıq idi və əgər kimsə içəri boylansaydı, danışanların qəribə görkəminə təəccüblənərdi. Marqarita çılpaq bədəninə qara plaş keçirmişdi, master isə xəstəxana tuman-köynəyindəydi. Ona görə beləydi ki, Marqaritanın geyinməyə heç nəyi yox idi, çünki bütün pal-paltarı malikanədə qalmışdı, hərçənd malikanə uzaqda deyildi, ancaq oraya gedib öz əşyalarını gətirməkdən danışmağa belə dəyməzdi. Heç hara getməyibmiş kimi masterin paltarlarını dolabdan tapsalar da, o, sadəcə, geyinmək istəməmişdi, elə oturub-durub deyirdi ki, indicə nəsə cəfəng şeylər baş

verəcək. Düzdür, həmin payız gecəsindən sonra master ilk dəfəydi üzünü qırxmışdı (klinikada saqqalını maşınkayla qırxırdılar).

Otağın da görkəmi qəribəydi, qarışıqlıqdan baş çıxarmaq çətin məsələydi. Xalçanın üstündə, divanda əlyazmalar vardı. Hansısa kitab kresloda ağzıüstə yarıaçıq atılıb qalmışdı. Dəyirmi masada süfrə açılmışdı, yeməklərin arasında bir neçə butulka vardı. Bu yeməklərin, içkilərin haradan peyda olduğu Marqaritaya, masterə məlum deyildi. Yuxudan ayılıb bunların hamısını süfrədə görmüşdülər.

Şənbə günü şər qarışana qədər yatan masterlə sevgilisi özlərini tam gümrah hiss eləyirdilər, dünənki sərgüzəştlərdən yalnız bir şey xəbər verirdi – sol gicgahları azca gizildəyirdi. Hər ikisinin ruhi aləmində isə böyük dəyişikliklər baş vermişdi, zirzəmidə danışılanlara qulaq asan hər kəs buna əmin olardı. Ancaq qulaq asası kimsə yox idi. Həyətin də gözəlliyi elə kimsəsizliyindəydi. Günü-gündən daha çox yaşıllaşan pəncərə önündəki cökə və ağsöyüddən ətrafa bahar qoxusu yayılırdı və əsən yel o qoxunu zirzəmiyə gətirirdi.

–Bu, şeytan əməlidir! – master qəfildən dedi. – Adam ağlına sığışdıra bilmir... – papirosu külqabında söndürüb, başını əlləriylə sıxdı. – Bir qulaq as, sən ki ağlını çaşdırmamısan... Qəti əminsən ki, biz dünən şeytanın yanında olmuşuq?

–Qəti əminəm, – Marqarita cavab verdi.

–Əlbəttə, əlbəttə, – master istehzayla dedi, – indi bir dəli əvəzinə ikisi göz qabağındadır! Ər də, arvad da. – Əlini göyə qaldırıb qışqırdı: – Yox, bu, şeytan əməlidir, şeytan əməlidir, şeytan əməlidir!

Cavab əvəzinə Marqarita özünü divana yıxıb uğundu, yalın ayaqlarını oynadıb qışqırdı:

–Oy, öldüm gülməkdən! Oy, öldüm gülməkdən! Bir özünə bax, gör nəyə oxşayırsan!

Master xəstəxana tumanını utana-utana yuxarı çəkənə qədər Marqarita gülməyini kəsib ciddiləşdi.

–Sən indi qeyri-ixtiyari düzünü söylədin, – o dedi, – şeytan əməlidir, şeytan da hər şeyi yoluna qoyacaq, inan mənə! – Gözləri birdən parıldadı, sıçrayıb yerində oynaya-oynaya qışqırdı: – Necə xoşbəxtəm, necə xoşbəxtəm ki,

onlarla razılığa gəldim! Ax, iblis, iblis!.. Mənim əzizim, ifritəylə yaşamağa məhkumsan! – Sonra masterin üstünə atılıb boynunu qucaqladı, dodaqlarından, burnundan, yanaqlarından öpməyə başladı. Pırtlaşıq qara saçları masterin üzünə dağıldı, öpüşlərdən sifəti, alnı alışıb-yandı.

–Sən elə, doğrudan da, ifritəyə oxşamağa başlamısan.

–Mən bunu heç danmıram da, – Marqarita cavab verdi, – mən ifritəyəm, bundan da çox məmnunam.

–Di yaxşı, – master dedi, – ifritə olursan, ol. Çox gözəl və çox qəşəng! Görünür, məni xəstəxanadan qaçırıblar... Bu da çox xoşdur! Fərz eləyək kı, buraya gətiriblər... Hətta güman eləyək ki, bizi axtarmayacaqlar... Ancaq Allah xatirinə, mənə de görüm, nəylə və necə dolanacağıq? İnan mənə, səni fikirləşdiyimə görə bunu deyirəm!

Bu vaxt pəncərədə enliburun çəkmələr və darboğaz şalvarın balağı göründü. Sonra bu şalvar dizdən qatlandı və kiminsə iri dalı gündüz işığının qabağını kəsdi.

–Aloizi, evdəsən? – pəncərədən görünən şalvarın yuxarısından bir səs soruşdu.

–Yenə başlandı, – master dedi.

–Aloizini soruşursunuz? – sualı ilə Marqarita pəncərəyə yaxınlaşdı. – Onu dünən həbs ediblər. Bəs kimdir onu soruşan? Sizin soyadınız nədir?

Elə həmin an diz də, dal da yoxa çıxdı, doqqaz qapısının çırpıldığı eşidildi, sonra hər şey öz əvvəlki qaydasına düşdü. Marqarita divana yıxılıb gözlərindən yaş gələnə qədər güldü. Ancaq sakitləşəndən sonra sifəti son dərəcə dəyişdi, ciddiləşərək danışa-danışa divandan sürüşüb iməkləyə-iməkləyə masterin dizinin dibinə gəldi və gözünün içinə baxa-baxa başını sığallamağa başladı.

–Sən nə qədər əzab çəkmisən, nə qədər əzab çəkmisən, mənim zavallım! Bunu təkcə mən bilirəm. Bax, sənin saçlarına dən düşüb, ağzının yanında dərin qırışlar əbədi iz salıb! Mənim bircə dənəm, mənim əzizim, heç nəyin fikrini çəkmə! Sən çox fikir çəkmisən, indi sənin əvəzinə mən düşünəcəyəm. Səni də əmin eləyirəm, əmin eləyirəm ki, hər şey son dərəcə yaxşı olacaq!

–Mən heç nədən qorxmuram, Marqo, – master birdən dillənib başını qaldırdı və Marqaritanın gözünə görmədiyi, ancaq yəqin, hadisələrdən roman yazdığı vaxtlarda olduğu

kimi göründü, – hər şeydən keçdiyim üçün qorxmuram. Məni çox qorxudublar, daha heç nə ilə qorxuda bilməzlər. Ancaq sənə yazığım gəlir, Marqo, bax, məsələ bundadır, ona görə elə eyni şeyi təkrar eləyirəm. Ağlını başına yığ! Niyə öz həyatını xəstə və kasıb adamla çürüdəsən? Oz evinə qayıt! Sənə yazığım gəldiyi üçün deyirəm.

–Ay səni, ay səni, – Marqarita pırtlaşıq saçlı başını yırğalaya-yırğalaya pıçıldadı, – ay səni, inamsız, bədbəxt adam. Mən dünən sənə görə bütün gecəni çılpaq titrəmişəm, öz xasiyyətimi dəyişmişəm, neçə ay qaranlıq otaqda oturub yalnız bir şeyi – Yerşalaim üzərindəki tufanı düşünmüşəm, ağlamaqdan gözümdə yaş qalmayıb, indi isə, xoşbəxtlik üzümüzə güləndə sən məni qovursan? Eybi yox,eybi yox, mən gedərəm, ancaq bil ki, sən qəddar adamsan! Onlar səni düşkünləşdiriblər!

Master kövrəldi və nəyə görəsə başını Marqaritanın saçlarında gizlədib ağladı. Marqarita titrək barmaqlarını onun gicgahlarında gəzdirib ağlaya-ağlaya pıçıldayırdı:

–Hə, saçlarına dən düşüb... gözüm görə-görə saçların qar kimi ağarır... ax, sənin başın nələr çəkib! Gözlərin nə

gündədir! Bomboş səhradır... Əzab-əziyyət qəddini əyib... Səni sındırıblar, sındırıblar... – Marqaritanın danışığı rabitəsiz olurdu, ağlamaqdan bədəni əsirdi.

O zaman master gözlərini silib, Marqaritanı yerdən qaldırdı, özü də ayağa qalxıb qətiyyətlə dedi:

–Kifayətdir! Sən məni utandırdın. Daha heç vaxt qorxaqlıq etməyəcəyəm, bu məsələyə bir də qayıtmayacağam, arxayın ol. Bilirəm, hər ikimiz öz ruhi xəstəliyimizin qurbanıyıq, ola bilsin, məndən sənə keçib... Neyləyək, onu elə birlikdə də çəkərik.

Marqarita dodaqlarını masterin qulağına yaxınlaşdırıb pıçıldadı:

–Sənin həyatına and içirəm, yaratdığın münəccim oğluna and içirəm, hər şey yaxşı olacaq.

–Di bəsdir, bəsdir, – master gülərək əlavə etdi: – Əlbəttə, bizim kimi əli hər şeydən üzülən adamlar nicatı fövqəltəbii qüvvələrdə axtarırlar! Nə olar, o qüvvələrdə axtarmağa razıyam.

–Bax, indi əvvəlki adamsan, indi gülürsən, – Marqarita dedi, – sənin elmli sözlərin də cəhənnəm olsun. Fövqəltəbii, ya qeyri-fövqəltəbii – nə fərqi? Mən yemək istəyirəm.

Masterin əlindən tutub masaya tərəf çəkdi.

–Bu yeməklərin indicə yerin altına getməyəcəyinə, ya pəncərədən uçmayacağına əmin deyiləm, – master tamamilə sakitləşmiş halda dedi.

–Uçmayacaq!

Elə həmin vaxt pəncərədən tın-tın səs eşidildi:

–Eşq olsun.

Master diksindi, artıq qeyri-adiliklərə öyrəşmiş Marqarita isə qışqırdı:

–Bu, Azazellodur! Ah, nə gözəl, nə yaxşı! – Və masterə: – Bax, görürsən, bizi unutmurlar! – deyə pıçıldayıb qapını açmağa qaçdı.

–Heç olmasa, əyninə bir şey at, – master onun arxasınca qışqırdı.

–Vecimə də deyil, – Marqaritanın səsi artıq dəhlizdən gəldi.

Azazello öz çəp gözünü bərəldib masterə baxaraq təzim edib salamlaşdı, Marqarita isə coşqunluqla dedi:

–Ah, necə şadam! Omrümdə heç belə şad olmamışam! Ancaq çılpaq olduğuma görə məni bağışla, Azazello!

Azazello ondan narahat olmamasını xahiş etdi, nəinki lüt, hətta dərisi büsbütün soyulmuş qadınlar gördüyünü deyərək, tünd parçaya bükülmüş nəyisə sobanın böyründə küncə qoyub, məmnuniyyətlə süfrəyə oturdu.

Marqaritanın süzdüyü konyakı Azazello həvəslə içdi. Master ondan gözünü çəkmədən stolun altında hərdən gizlicə sol biləyini çimdikləyirdi. Ancaq bu çimdiklər kömək eləmirdi. Azazello havada ərimədi, doğrusu, əslinə qalsa, buna heç ehtiyac da yox idi. Gözündəki ağ ləkəni saymasaq, balacaboy kürən adam heç də qorxunc deyildi, ancaq ağ ləkə sehr-cadusuz da olur, bir də geyimi qeyriadidir – əbadır, plaşdır-nədir, – intəhası, ciddi düşünəndə görürsən, belə şeylərə rast gəlinir. Konyakı da məharətlə içirdi, bütün xeyirxah adamlar kimi birdəfəyə başına çəkirdi, üstündən də heç nə yemirdi. Elə bu konyakdan masterin başı uğuldadı və o, düşünməyə başladı:

"Yox, Marqarita düz deyir! Əlbəttə, mənim qarşımda şeytanın elçisi oturub. Axı mən özüm də elə srağagün gecə İvana sübut eləyirdim ki, Patriarx gölündə məhz şeytana rast gəlib, indi nəyə görəsə bu fikirdən qorxub hipnozçulardan, qarabasmalardan çərənləyirəm. Hipnozçu nə gəzir burada!"

Master altdan-altdan Azazelloya göz qoymağa başladı və əmin oldu ki, onun gözlərində nəsə qeyri-təbiilik, hələ söyləmədiyi nəsə bir fikir var. "O, sadəcə, görüşməyə gəlməyib, hansısa tapşırıqla gəlib", – master fikirləşdi.

Müşahidə qabiliyyəti ona etibarsız çıxmamışdı.

Qonaq ona heç bir təsir etməyən üçüncü qədəh konyakı da içib dedi:

–Doğrusu, zirzəmiyə söz ola bilməz! Qalır bircə məsələ: bu zirzəmidə gününüzü necə keçirəcəksiniz?

–Elə mən də bunu deyirəm, – master güldü.

–Məni niyə qorxudursunuz, Azazello? – Marqarita soruşdu. – Birtəhər!

–Siz nə danışırsınız! – Azazello əsəbiləşdi. – Sizi qorxutmaq mənim heç ağlıma da gəlmir. Elə mən də deyirəm – birtəhər. Bəli! Az qalmışdı unudam... Messir

sizə salam söylədi, həm də tapşırdı çatdıram ki, sizi kiçik bir gəzintiyə dəvət eləyir, əlbəttə, əgər istəyirsinizsə. Fikriniz nədir?

Marqarita masanın altından masteri ayağıyla itələdi.

–Böyük məmnuniyyətlə, – master Azazelloya göz qoya-qoya cavab verdi, o isə sözünə davam elədi:

–Ümid edirik ki, Marqarita Nikolayevna da bundan imtina eləməz.

–Mənə qalsa, etiraz etmərəm, – Marqarita yenə masterin ayağına vurdu.

–Əla! – Azazello ucadan dedi. – Bax, buna varam! Bir anda hər şey hazırdır! Daha Aleksandrov bağındakı kimi yox.

–Ah, yadıma salmayın, Azazello! Mən onda axmağıydım. Buna baxmayaraq, məni elə də günahlandırmağa dəyməz – cin-şəyatinlə hər gün rastlaşmırsan ki!

–Əlbəttə, – Azazello təsdiqlədi,– əgər hər gün olsaydı, xoş olardı!

– Mənim də hər şeyi sürətlə eləməkdən xoşum gəlir, – Marqarita coşqunluqla dedi, – sürəti və çılpaqlığı xoşlayıram... EIə bil, mauzerdən güllə atırsan! Ax, o, necə atəş açır! – Marqarita üzünü masterə tutdu. – Balıncın altındakı yeddiliyin istənilən xalını vurur! – Marqarita keflənməyə başlamışdı, ona görə gözləri alışıb-yanırdı.

–Yenə də unutdum, – Azazello əlini alnına çırpdı, – lap başımı itirmişəm! Axı messir sizə hədiyyə yollayıb, – bu yerdə üzünü masterə çevirdi, – bir şüşə çaxır. Nəzərə alın ki, bu, İudeya prokuratorunun içdiyi çaxırdandır. Falemo çaxırıdır.

Təbii ki, belə nadir şey Marqaritanın da, masterin də böyük marağına səbəb oldu. Azazello tünd rəngli kəfənin arasından tamam kiflənmiş bardaq çıxardı. Çaxırı iylədilər, stəkanlara süzüb pəncərədən düşən, tufandan qabaq itməkdə olan işığa tutub baxdılar. Hər şeyin qan rənginə boyandığını gördülər.

–Volandın sağlığına! – Marqarita stəkanını qaldırıb qışqırdı.

Hər üçü stəkanı dodağına toxundurub iri qurtum aldı. Tufanqabağı işıq dərhal masterin gözündə sönməyə başladı, nəfəsi təngidi, hiss elədi ki, sonu çatır. Meyit kimi ağarmış Marqaritanın köməksiz halda əlini ona sarı uzadaraq başının stola düşdüyünü, sonra sürüşüb döşəməyə yıxıldığını da gördü.

–Zəhərlədin... qatil... – master qışqırmağa macal tapdı. Masanın üstündəki bıçağı götürüb Azazellonu vurmaq istədi, əli süfrədən halsız halda sürüşdü, ətrafında hər şey qara rəngə büründü, sonra isə tamam itdi. O, arxası üstə yıxıldı və yıxılarkən gicgahı yazı stolunun küncünə dəyib çapıldı.

Zəhərlənənlər süst düşəndə Azazello fəaliyyətə başladı. İlkəvvəl pəncərəyə tullanıb, bir göz qırpımında Marqarita Nikolayevnanın yaşadığı malikanədə oldu. Dəqiq və səliqəli Azazello hər şeyin lazım olduğu kimi yerinə yetirilib-yetirilmədiyini yoxlamaq istəyirdi. Hər şey qaydasında idi. Azazello gördü ki, ərinin qayıtmasını gözləyən qadın qaşqabaqlı halda öz yataq otağından çıxdı və birdən ağappaq ağararaq ürəyini tutub qışqırdı:

–Nataşa! Kimsə... yanıma gəlsin! – və kabinetə çatmamış qonaq otağının döşəməsinə yıxıldı.

–Hər şey qaydasındadır, – Azazello dedi. O, bir an sonra yerə yıxılmış sevgililərin yanında idi. Marqarita üzü üstə xalçaya uzanmışdı. Azazello güclü əllərilə oyuncaq kimi onu özünə tərəf çevirib sifətinə baxdı. Onun gözü qarşısında Marqaritanın sifəti dəyişirdi. Hətta tufanqabağı alaqaranlıqda onun müvəqqəti ifritə çəpgözlüyünün, üzündəki qəddarlığın, coşqunluğun itdiyi görünürdü. Mərhumun sifəti ağarıb, nəhayət, cizgiləri yumşaldı və üzündəki yırtıcı ifadəni qadına məxsus iztirab əvəz elədi. Azazello onun ağ dişlərini aralayıb, zəhərlədiyi həmin çaxırdan bir neçə damcı ağzına tökdü. Marqarita nəfəs alıb Azazellonun köməyi olmadan oturdu və zəif səslə soruşdu:

–Nəyə görə, Azazello, nəyə görə? Bu nə işdir başıma gətirdiniz?

O, yerə sərilmiş masteri görüb diksindi.

–Mən bunu gözləmirdim... qatil!

–Yox, yox, – Azazello dedi, – o indi qalxacaq. Ax, siz nə yaman əsəbisiniz!

Kürən iblisin səsi o qədər səmimiydi ki, Marqarita ona dərhal inandı. Gümrah halda sıçrayıb, yerə sərilmiş masterə çaxır içirtməyə kömək elədi. Master gözünü açıb nifrətlə öz son sözlərini təkrar elədi:

–Zəhərlədin... qatil...

–Ax! Adi şeydir, yaxşı işin mükafatı həmişə təhqir olub, – Azazello cavab verdi. – Doğrudanmı korsunuz? Di başa düşün!

Master qalxıb aydın baxışlarla ətrafına baxdı.

–Bu yeniliyin mənası nədir?

–Mənası odur ki, – Azazello dedi, – getmək vaxtıdır. Tufan qalxır, eşidirsiniz? Hava qaralır. Atların dırnağı yer eşir, bağça titrəyir. Zirzəmiylə vidalaşın, tez vidalaşın.

–Aha, anlayıram, – master ətrafına göz gəzdirdi, – siz bizi öldürmüsünüz, biz ölüyük. Ax, nə ağıllı hərəkətdir! Necə vaxtında edilmiş hərəkətdir! İndi hər şeyi anladım.

– İnsafınız olsun, – Azazello dedi, – bu sözləri sizsiniz deyən? Axı sevgiliniz sizi master adlandırır, axı siz düşünürsünüz, siz necə ölü ola bilərsiniz? Məgər özünü diri

hesab eləmək üçün əynində köynək, xəstəxana tumanında hökmən zirzəmidə oturmaq lazımdır? Bu gülüncdür!

–Sizi başa düşdüm, – master həyəcanla dedi, – davam etməyin! Siz min dəfə haqlısınız!

–Böyük Voland, böyük Voland! – Marqarita təkrar-təkrar dedi. – O, məndən daha yaxşı fıkirləşib. Ancaq romanı, – masterə qışqırdı, – hara uçsan da, romanı özünlə götür!

–Lazım deyil, – master cavab verdi, – mən onu əzbər bilirəm.

–Bir kəlməni... bir kəlməni belə unutmazsan? – Marqarita sevgilisinə sığınıb, onun çapılan gicgahının qanını silə-silə soruşdu.

–Narahat olma! Mən daha heç nəyi heç zaman unutmaram, – o cavab verdi.

–Onda alov! – Azazello ucadan dedi. – Hər şey alovla başlamışdı, biz də hər şeyi alovla bitiririk.

–Alov! – Marqarita qorxunc səslə bağırdı. Zirzəminin pəncərəsi çırpıldı, külək pərdələri kənara atdı. Göy guruldadı. Azazello pəncəsini sobaya soxub, tüstülənən

kösövü çıxararaq süfrəni yandırdı. Sonra divanın üstündəki bir büküm köhnə qəzeti, onun dalınca əlyazmaları və pəncərə pərdələrini yandırdı.

At çapacağı fikrindən məst olmuş master taxçadan hansısa kitabı götürüb, səhifələrini daraqlayaraq, yanan süfrəyə atdı və kitab bir anda od tutub alışdı.

–Yan, yan, əvvəlki həyat!

–Əzablanm, yan! – Marqarita qışqırdı.

Otaqda artıq qıpqırmızı alov sütunları dalğalanırdı və tüstü ilə biriikdə üç nəfər evdən qaçaraq daş pilləkənlə qalxıb həyətə çıxdı. İlk olaraq evtikənin yerdə oturan aşpazını gördülər; qadının ətrafına kartof və bir neçə dəstə soğan səpələnmişdi. Aşpaz qadının vəziyyəti aydındı. Üç qara at anbarın yanında fınxırıb dırnağıyla yer eşirdi. Marqarita, onun arxasınca Azazello, lap sonda master at belinə sıçradı. Aşpaz qadın inildəyib xaç çəkmək istədi, ancaq Azazello yəhərin üstündən ona acıqlandı:

–Əllərini kəsərəm! – Azazello fit çaldı və atlar cökə ağacının budaqlarını sındıraraq uçub aşağıdakı qara buluda

sancıldılar. O saat zirzəminin pəncərəsindən tüstü çıxmağa başladı. Aşağıdan aşpaz qadının yanıqlı zəif səsi eşidildi:

–Yanırıq!..

Atlar artıq Moskvanın üzəriylə çapırdı.

–Mən şəhərlə vidalaşmaq istəyirəm, – master irəlidə çapan Azazelloya qışqırdı. İldırım masterin cümləsinin sonunu batırdı. Azazello başı ilə razılığını bildirdi və atını dördnala çapdı. Atlılara sarı çox sürətlə bulud uçurdu, ancaq bu bulud hələ yağış çiləmirdi.

Onlar bulvarın üstü ilə uçurdular, adamların yağışdan daldalanmaq üçün necə qaçdıqlarını görürdülər. İlk damcılar düşdü. Onlar vur-tut tüstüsü qalmış Qriboyedovun üstündən keçdilər. Artıq qaranlığa bürünən şəhərin üzəriylə uçurdular. Onlardan yuxarıda şimşəklər çaxırdı. Sonra damları yaşıllıq əvəz elədi. Yalnız onda selləmə yağış tökdü və uçanları suda üç iri qovcuğa döndərdi.

Uçuş duyğusu Marqaritaya tanış idi, masterə isə yox və master vidalaşmaq istədiyi yeganə adamla görüş yerinə tez çatdıqlarına heyrətləndi. O, yağış pərdəsi arxasından Stravinskinin klinikasını, çayı və yaxşı bələd olduğu qarşı

sahildəki şamlığı dərhal tanıdı. Onlar klinikanın yaxınlığındakı talada yerə endilər.

–Mən sizi burada gözləyəcəyəm, – Azazello əlini sipər eləyib, gah şimşəkdə işıqlanaraq, gah boz pərdənin arxasında itərək qışqırdı, – vidalaşın, ancaq tez!

Master və Marqarita yəhərdən sıçrayıb suya düşən kölgələrtək arabir görünərək, klinikanın bağından uçub keçdilər. Daha bir an sonra master vərdiş etdiyi hərəkətlə 117 №-li otağın eyvan barmaqlığını kənara sürüşdürdü. Marqarita onun arxasınca gəlirdi. Onlar nəzərə çarpmadan, heç kəsin gözünə görünmədən, tufanın gurultu və uğultu sədaları altında İvanuşkanın otağına daxil oldular. Master çarpayının yanında dayandı.

İvanuşka öz istirahət evində ilk dəfə tufanı seyr eləyəndə olduğu kimi hərəkətsiz uzanmışdı. Ancaq o vaxt olduğu kimi ağlamırdı. Eyvandan soxulan qaraltıya diqqətlə baxıb dikəldi və əlini uzadaraq sevincək dedi:

–A, sizsiniz! Mən də elə hey gözləyirdim. Axır ki, gəldiniz, mənim qonşum.

Bunun cavabında master dedi:

–Hə, gəldim! Ancaq təəssüf ki, daha sizin qonşunuz ola bilməyəcəyəm. Mən həmişəlik uçub gedirəm, yalnız sizinlə vidalaşmaq üçün gəldim.

–Mən bunu bilirdim, hiss eləmişdim, – İvan astadan deyib soruşdu: – Siz onunla görüşdünüz?

–Hə, – master dedi, – gəlmişəm sizinlə vidalaşam, çünki siz son vaxtlar danışdığım yeganə adamıydınız.

İvanuşkanın kefi açıldı.

–Yaxşı ki, bura uçub gəldiniz. Mən öz sözümün üstündə durmuşam, daha şeir yazmayacağam. Məni indi başqa şey maraqlandırır, – İvanuşka gülümsəyib, divanə gözləriylə masterin yanından harasa baxdı, – mən başqa şey yazmaq istəyirəm. Bilirsiniz, burada yatandan çox şeyi başa düşmüşəm.

Master bu sözlərdən həyəcanlanıb İvanuşkanın yatağının küncündə oturdu:

–Bax, bu yaxşıdır, bu yaxşıdır. Siz onun haqqında davamını yazın!

İvanuşkanın gözləri parıldadı.

–Məgər siz yazmayacaqsınız? – Bu yerdə başını aşağı dikib fikirli-fikirli əlavə etdi: – Hə... gör nə soruşuram, – İvanuşka qorxa-qorxa döşəməyə baxdı.

–Hə, – masterin səsi İvanuşkaya uzaq və yad gəldi, – mən daha onun haqqında yazmayacağam. Mən başqa işlə məşğul olacağam.

Tufanın uğultusunu uzaqdan gələn fit səsi yarıb keçdi.

–Eşidirsiniz? – master soruşdu.

–Tufan uğuldayır...

–Yox, məni çağırırlar, getmək vaxtıdır, – deyib master ayağa durdu.

–Dayanın! Bir söz də soruşum, – İvan xahiş elədi, – bəs siz onu tapdınız? O, sizə sadiq qalmışdı?

–O qadın budur, – master divar səmti göstərdi. Ağ divardan Marqaritanın qaraltısı aralanıb yatağa yaxınlaşdı. O, uzanmış gəncə baxırdı və gözlərindən kədər oxunurdu.

–Zavallı, zavallı, – Marqarita pıçıldayaraq yatağa əyildi.

–Nə gözəldir, – İvan həsəd aparmadan, ancaq qüssəylə, mütəəssir olaraq dedi, – görürsən, hər şey sizdə nə yaxşı

alındı. Ancaq məndə elə deyil. – Bir az düşünüb fikirli halda əlavə etdi: – Ancaq bəlkə də, elədir...

–Elədir, elədir, – Marqarita pıçıldayıb ona tərəf əyildi, – bax, mən indi sizin alnınızdan öpəcəyəm, sizin bütün işləriniz yaxşı olacaq... Siz mənə inanın, mən artıq hər şeyi görmüşəm, hər şeyi bilirəm.

Yataqdakı gənc onun boynunu qucaqladı və Marqarita onu öpdü.

–Əlvida, şagird, – master zorla eşidilən bir səslə pıçıldayıb havada əriməyə başladı. Onunla bir yerdə Marqarita da yoxa çıxdı. Eyvanın barmaqlığı örtüldü.

İvanuşka həyəcanlandı. Yataqda oturub narahat halda ətrafına baxdı, hətta inildədi, özü ilə danışa-danışa qalxdı. Yəqin, güclənən tufan onu təşvişə salmışdı. Həm də sakitliyə öyrəşdiyindən qapı ağzındakı narahat ayaq səsləri, boğuq danışıqlar onu həyəcanlandırmışdı. Artıq əsəbindən titrəyərək çağırdı:

–Praskovya Fyodorovna!

Praskovya Fyodorovna otağa girib şübhəylə, təşvişlə İvanuşkanı süzdü.

–Nədir? Nə olub? – o soruşdu. – Tufan həyəcanlandırıb? Heç nə olmaz, heç nə olmaz... İndi sizə kömək eləyərik. İndi həkimi çağıraram.

–Yox, Praskovya Fyodorovna, həkimi çağırmaq lazım deyil, – İvanuşka narahat halda Praskovya Fyodorovnaya yox, divara baxdı, – mənə elə bir şey olmayıb. Qorxmayın, mən öz halımı bilirəm. Yaxşısı budur deyin, – İvan dostcasına xahiş etdi, – böyürdəki yüz on səkkiz nömrəli otaqda indicə nə baş verdi?

–On səkkizinci? – Praskovya Fyodorovna gözlərini döydü. – Orada heç nə olmayıb. – Ancaq onun səsində sünilik var idi, İvanuşka bunu dərhal sezdi.

–Eh, Praskovya Fyodorovna! Siz düz adamsınız...

– Fikirləşirsiniz dəliliyim tutar? Yox, Praskovya Fyodorovna, elə şey olmayacaq. Yaxşısı budur düzünü deyin. Mən axı divarın bu üzündən hər şeyi hiss eləyirəm.

–İndicə qonşunuz vəfat etdi, – düz danışan, mehriban Praskovya Fyodorovna öz xasiyyətinə xilaf çıxa bilməyib pıçıldadı və başdan-ayağa şimşəyin işığına bürünmüş

İvanuşkaya qorxa-qorxa baxdı. Ancaq qorxulu heç nə baş vermədi. O yalnız barmağını mənalı-mənalı qaldırıb dedi:

–Mən elə də bilirdim! Praskovya Fyodorovna, sizi inandırıram ki, indicə şəhərdə bir adam da vəfat etdi. Mən hətta onun kimliyini də bilirəm, – İvanuşka müəmmalı tərzdə gülümsədi, – o, qadındır.

XXXI fəsil
VOROBYOV DAĞLARINDA

Tufandan əsər-əlamət qalmamışdı, Moskva üzərindən tağ kimi asılmış göyqurşağı Moskva çayından su içirdi. İki meşə arasındakı təpəlikdə üç qaraltı görünürdü. Voland, Korovyev və Begemot yəhərli qara atların belində oturub, çayın o tayına səpələnmiş, qərbə baxan minlərlə pəncərəsində buludların arxasından boylanan günəşin bərq vurduğu şəhərə, Deviçi monastırın bəzəkli qüllələrinə baxırdılar.

Havadan səs gəldi, yellənən qara plaşından arxada uçan master və Marqarita ilə birlikdə Azazello onları gözləyən dəstənin yanında yerə endi.

–Marqarita Nikolayevna və master, sizi narahat eləməli olduq, – Voland bir az susandan sonra dilləndi, – ancaq məndən narazı qalmayacaqsınız. Düşünürəm ki, peşman deyilsiniz. Hə, – masterə üz tutdu, – di şəhərlə vidalaşın. Vaxtdır, – Voland genboğaz qara əlcəkli əliylə çayın o tayında günəşin saysız-hesabsız şüşələri, az qala, əritdiyi, gün ərzində qızmış şəhərin üzərində qatı dumanın, tüstünün, buxarın durduğu yeri göstərdi.

Master yəhərdən sıçrayıb atlılardan aralanaraq yarğana tərəf qaçdı. Qara plaş onun arxasınca sürünürdü. Master şəhərə baxmağa başladı. İlk anlar ürəyi qüssədən sıxıldı, ancaq çox tezliklə bu qüssəni xoş bir həyəcan, gəzərgi qaraçı narahatlığı əvəz etdi.

–Bir də heç vaxt görməyəcəyəm! Bunu dərk eləmək lazımdır, – master pıçıldayıb, çat-çat olmuş quru dodaqlarını yaladı. Ürəyində nələr baş verdiyini duymağa çalışdı. Ona

elə gəldi ki, həyəcanın yerini inciklik tutdu. Ancaq bu inciklik uzun sürməyib məğrur laqeydliklə, bu da öz növbəsində daimi dinclik hissiylə əvəz olundu.

Atlı dəstə masteri dinməzcə gözləyirdi. Onlar yarğanın kənarındakı uzun qara fiqurun əl-qol oynatdığına, bütün şəhəri, şəhər kənarını görmək istəyirmiş kimi gah başını qaldırdığına, gah da, sanki, ayağı altındakı tapdanmış quru ota tamaşa eləmək üçün gözünü aşağı dikdiyinə baxırdılar.

Sükutu darıxan Begemot pozdu.

–Ustad, icazə verin, – o dilləndi, – çapıb getməzdən əvvəl bir fit çalım.

–Sən xanımı qorxuda bilərsən, – Voland cavab verdi, – bundan başqa, unutma ki, sənin bugünkü şuluqluqların artıq sona çatıb.

–Yox, yox, messir, – amazonka kimi yəhərdə oturub əlini belinə vurmuş, paltarının ətəyi yerlə sürünən Marqarita dedi, – icazə verin fit çalsın. Hətta biləndə ki uzaq yolun sonunda səni xoşbəxtlik gözləyir, yola çıxmazdan öncə adamı kədər bürüyür. Bu da çox təbiidir, elə deyilmi,

messir? Qoy bizi güldürsün, yoxsa qorxuram göz yaşlarımı saxlaya bilməyəm, səfər üstə hər şey korlana!

Voland Begemota başı ilə işarə elədi. O, cəld yəhərdən yerə tullanıb barmaqlarını ağzına soxdu, ovurdlarını şişirdərək fit çaldı. Marqaritanın qulaqları cingildədi. At şahə qalxdı, ağacların quru budaqları yerə töküldü, qarğalar, sərçələr dəstə-dəstə pırıldayıb uçdu, toz göyə qalxıb burula-burula çaya tərəf əsdi, körpünün yanından keçən çay tramvayındakı sərnişinlərin bir neçəsinin kepkası suya düşdü.

Master fit səsindən diksindi, ancaq qanrılıb geri baxmadı, şəhəri hədələyirmiş kimi göyə qaldırdığı əllərini daha həyəcanla oynatdı. Begemot məğrurcasına ətrafına boylandı.

–Mübahisə eləmirəm, çalmağına çaldı, – Korovyev təkəbbürlə dedi, – ancaq düzünü desək, alababat çaldı!

–Axı mən regent deyiləm, – Begemot özünü dartıb, Marqaritaya göz vurdu.

–Qoy bir mən də keçən günləri yadıma salım, – deyib Korovyev əllərini bir-birinə sürtərək barmaqlarına hovxurdu.

–Amma bax ha, – atın üstündən Volandın hökmlü səsi eşidildi, – heç kimi şikəst-zad eləmək olmasın!

– Messir, inanın, – Korovyev əlini ürəyinin üstünə qoydu, – yalnız zarafat xatirinə... – Bu yerdə rezin kimi birdən yuxarı dartındı, sağ əlinin barmaqlarıyla əcaib bir fiqur düzəltdi, vint kimi burulub, sonra birdən fırlanaraq fit çaldı.

Marqarita fit səsini eşitmədi, dəlisov atı ilə birlikdə on sajın kənara atılanda onu gördü. Yaxınlıqdakı palıd ağacı kökündən qopdu, çaya qədər torpaq çat-çat oldu. Coşub yatağından çıxan çay sahili körpüsü, restoranıqarışıq basıb, çay tramvayını sağ-salamat sərnişinləriylə birlikdə nisbətən alçaq olan qarşı sahilin yaşıllığına atdı. Faqotun fitindən ölmüş dolaşa Marqaritanın fınxıran atının ayaqları altına düşdü.

Fit səsi masteri qorxutdu. Başını tutub, onu gözləyən yol yoldaşlarının yanına qaçdı.

–Nədir, – Voland atın üstündən dedi, – bütün hesabları çürütdünüz? Vidalaşma bitdi?

–Bəli, bitdi, – master cavab verib, sakitləşmiş halda düz və cəsarətlə Volandın üzünə baxdı.

Onda Volandın qorxunc səsi dağı-daşı lərzəyə saldı:

–Vaxtdır!

Begemotun bərk fiti və gülüşü də bu səsə qarışdı.

Atlar irəli sıçradı, atlılar göyə qalxıb çapdılar. Marqaritanın dəlisov atı cilov gəmirirdi. Volandın plaşı atlı dəstənin başı üzərində qabardı, bu plaş qaralmaqda olan səmanı da örtməyə başladı. Qara örtük bir anlığa kənara çəkiləndə Marqarita çapa-çapa geri dönüb gördü ki, arxada nəinki üstündən aeroplan uçan rəngbərəng qüllələr, torpağın təkinə gedib yerində yalnız duman qalmış şəhərin özü də artıq çoxdan yoxdur.

XXXII fəsil

ƏFVETMƏ VƏ ƏBƏDİ SIĞINACAQ

Allahlar, ey allahlar! Gecə yer necə kədərli görünür! Bataqlıqlar üzərindəki duman necə əsrarəngizdir. Bu dumanda dolaşan, ölümqabağı əzab içində qıvrılan, çiynində ağır dərd yükü yerin üstü ilə uçan adam bunu yaxşı bilir. Bunu yorulan bilir. Yer üzünün dumanından, bataqlıqlarından, çaylarından ayrılıb göz qırpmadan özünü ölümə təslim edir, çünki yalnız ölümün ona dinclik gətirəcəyinə inanır...

Sehrli qara atlar da əldən düşmüşdülər, özlərini zorla çəkirdilər və gecə əvvəl-axır onları haqladı. Hətta dinclik bilməyən Begemot da gecəni arxasında hiss eləyib kirimişdi, yəhərin qaşından pəpcələriylə bərk-bərk yapışıb quyruğunu qabardaraq dinməzcə uçurdu.

Gecə qara örtüyünü meşələrin, çəmənlərin üstünə çəkdi, çox-çox aşağılarda Marqaritaya, masterə daha maraqsız və lazımsız olan kədərli yad işıqları yandırdı. Qaranlıq atlı dəstəni ötüb onları bürüdü və qüssəli səmada təkəmseyrək solğun ulduzlar işardı.

Qaranlıq qatılaşıb, çapanlarla yanaşı uçurdu, onların plaşını çiyinlərindən atıb, yalanları faş eləyirdi. Üzünə sərin

külək döyəcləyən Marqarita gözünü açıb, öz məqsədlərinə doğru uçanların görkəminin necə dəyişdiyini gördü. Meşənin arxasından qarşılarına qıpqırmızı bədirlənmiş ay çıxanda isə bütün yalanlar yox oldu, cadugər paltarları bataqlığa düşüb dumanda itib batdı.

Masterin sevgilisinin sağ tərəfində Volandla yanaşı uçanı – heç bir tərcüməçiyə ehtiyacı olmayan sirli məsləhətçinin yalançı tərcüməçisi Korovyev-Faqotu indi çətintanıyardılar. Korovyev-Faqot kimi yırtıq sirk paltarında Vorobyov dağlarını tərk edənin əvəzində indi cilovun qızıl zəncirini aramla cingildədə-cingildədə qaraqabaq, heç vaxt üzü gülməyən, tünd-bənövşəyi geyimli cəngavər çapırdı. O, başını sinəsinə sıxmışdı, aya baxmırdı, yerlə maraqlanmırdı, Volandla yanaşı uça-uça öz dünyasına qapılmışdı.

–O, niyə belə dəyişib? – küləyin vıyıltısı içindən Marqarita astaca Volanddan soruşdu.

–Bu cəngavər haçansa uğursuz zarafat eləyib, – Voland üzünü Marqaritaya çevirdi, gözü işıldayırdı, – onun işıq və zülmətdən bəhs eləyən kalamburu o qədər də yaxşı deyildi. Bundan sonra cəngavər güman elədiyindən bir az çox və

uzun müddətə zarafat eləyəsi oldu. Ancaq indi haqq-hesabların kəsildiyi gecədir. Cəngavər öz hesabını çürütdü!

Gecə Begemotun yumşaq quyruğunu da qopartdı,tükünü çəngə-çəngə yolub bataqlığa tulladı. Zülmət tanrısını əyləndirən pişik indi sısqa bir oğlan, iblisin pajı[34], dünyada tayı-bərabəri olmayan təlxək idi. O da kirimişdi, üzünü aydan süzülən işığa tutub sakitcə uçurdu.

Lap yanda polad yaraq-əsləhəsi parıldayan Azazello uçurdu. Ay onun da sifətini dəyişmişdi. Yöndəmsiz köpək dişləri yoxa çıxmışdı, çəpgözlüyü də, demə, yalanmış. Azazellonun hər iki gözü eyni cür mənasız və qara, sifəti isə ağ və ifadəsiz idi. İndi Azazello özünün əsl görkəmində, susuz səhranın iblisi, qatil iblis kimi uçurdu.

Marqarita özünü görə bilməzdi, ancaq masterin necə dəyişdiyini yaxşı görürdü. Onun ay işığında ağaran saçları arxadan hörülmüşdü və külək bu hörüyü yellədirdi. Külək masterin plaşının ətəyini qaldıranda Marqarita onun çəkmələrindəki mahmızların gah sönən, gah yanan

[34]Paj – orta əsrlərdə saraylarda xidmət edən zadəgan əsilli oğlan

ulduzlarını görürdü. Master də həmin o gənc iblis kimi gözünü aydan çəkmədən uçurdu, ancaq elə bil, yaxşı tanıdığı sevimli qadına gülümsəyirdi və 118 №-li otaqda vərdiş etdiyi kimi dodaqlarının altında nəsə mızıldayırdı.

Voland da öz həqiqi görkəmində uçurdu. Onun atının cilovunun nədən hazırlandığını Marqarita deyə bilməzdi; fikirləşirdi ki, yəqin, ay işığından hörülmüş zəncirdir, atı– zülmət parçasıdır, atın yalı – buluddandır, atlının mahmızları isə solğun ulduzlardır.

Aşağıda yerin görünüşü dəyişənə qədər dinməzcə xeyli uçdular. Kədərli meşələr yerin zülmətinə qərq olub, ülgüc tiyəsi kimi tutqun-tutqun işaran çayları da özü ilə çəkib apardı. Aşağıda parıldayan qaya parçaları göründü, onların arasında isə ay işığının keçə bilmədiyi uçurumlar qaralırdı.

Voland öz atını cansıxıcı yastı daşlıq zirvədə əylədi, atların ayağı altında daş-kəsəyin çıxartdığı səsə qulaq asa-asa piyada addımladılar. Ay işığı meydançanı parlaq yaşıl rəngə boyamışdı. Marqarita çox keçməmiş boş yerdə kreslo və kresloda oturmuş adamın ağ fiqurunu gördü. Ola bilsin, kresloda oturan kar idi, ya dərin fikrə getmişdi. Atların

ağırlığı altında daşlı torpağın necə titrədiyini eşitmirdi və atlılar ehtiyatla ona yaxınlaşdılar.

Ay Marqaritanın dadına çatırdı, ən yaxşı elektrik fənərindən də yaxşı işıqlandırırdı və Marqarita kresloda oturan, kor bildiyi adamın əllərini bir-birinə sürtüb gözünü aya dikdiyini sezdi. Ay işığında qığılcımlanan ağır daş kreslonun böyründə şeşəqulaq iri qara itin uzandığını da Marqarita yalnız indi gördü, o da sahibi kimi narahat halda aya baxırdı. Kresloda oturan adamın ayağı altına sınmış bardağın qırıntıları səpələnmişdi və yerdə qara-qırmızı gölməçə yaranmışdı.

Atlılar dayandılar.

–Sizin romanı oxuyublar, – Voland üzünü masterə çevirdi, – yalnız ona təəssüfləndilər ki, yarımçıq qalıb. İstəyirəm sizə öz qəhrəmanınızı göstərim. Təxminən, iki min ildir o, bu meydançada oturub yatır, ancaq bədirlənmiş ay doğanda, gördüyünüz kimi, yuxusuzluq onu üzür. Ay təkcə ona yox, sadiq keşikçisi itə də əzab verir. Əgər qorxaqlığın ən pis qüsur olduğu düzdürsə, çox güman, itin bunda günahı yoxdur. Bu qoçaq itin qorxduğu yeganə şey

tufandır. Neyləmək olar, sevən sevdiyinin qismətini bölüşməlidir.

–O nə deyir? – Marqaritanın sakitlik yağan üzündə mərhəmət duyğusu sezildi.

–Eyni şeyi deyir, – Volandın səsi eşidildi. – Deyir ki, aylı gecələrdə dinclik tapa bilmir, deyir çox pis vəzifəsi var. Yata bilməyəndə belə deyir, yatanda isə eyni şey – ay işığından yol görür və istəyir bu yolla gedə-gedə dustaq Qa-Nosriylə danışsın, çünki dediyinə görə, çoxdan, bahar ayı nisanın on dördündə nəyisə ona deyə bilməyib. Ancaq əfsuslar olsun ki, bu yola çıxa bilmir, yanına da heç kim gəlmir. Neyləsin, məcbur olur öz-özüylə danışsın. Ancaq axı nəsə bir müxtəliflik də lazımdır, ona görə ay haqqında söhbətinə çox vaxt dünyada hər şeydən artıq öz ölümsüzlüyünə və misli görünməmiş şöhrətinə nifrət bəslədiyini də əlavə edir. Deyir ki, cır-cındır geyinmiş səfil Levi Matveylə taleyini həvəslə dəyişərdi.

–On iki min ayı nə vaxtsa bir aya dəyişmək həddindən çox olmazmı? – Marqarita soruşdu.

–Fridanın əhvalatı təkrar olunur? – Voland dedi.

–Ancaq bu yerdə özünüzü yormayın, Marqarita. Hər şey düzgün olacaq, dünya belə qurulub.

–Onu buraxın! – Marqarita ifritə olduğu vaxtlardakı kimi qəfil bərkdən çığırdı və bu çığırtıdan daş qopub dağları lərzəyə salaraq gurultuyla dərin uçuruma yuvarlandı. Ancaq Marqarita bunun uçuruma yuvarlanan daşın gurultusu, ya şeytan gülüşü olduğunu deyə bilməzdi. Nə olsa da, Voland gülə-gülə Marqaritaya baxıb dedi:

–Dağlarda qışqırmaq lazım deyil, onsuz da, uçqunlara öyrəşib, bu, onu narahat eləməz. Onun xahişini eləməyin, Marqarita, çünki danışmağa cəhd göstərdiyi adam artıq onun xahişini eləyib. – Voland üzünü yenə masterə çevirdi.

–Hə, indi romanınızı bir cümlə ilə bitirə bilərsiniz!

Master tərpənmədən dayanıb prokuratora baxdığı vaxtdan, elə bil, bunu gözləyirmiş. Əlini ağzına tutub elə qışqırdı ki, səsi kimsəsiz çılpaq dağlarda əks-səda verdi.

–Azadsan! Azadsan! O, səni gözləyir!

Dağlar masterin səsini göy gurultusuna çevirdi və elə həmin göy gurultusu da dağları uçurtdu. Lənətlənmiş qayalıqlar yıxıldı. Təkcə daş kreslolu meydança qaldı.

Qayalıqların gömüldüyü dibsiz uçurumda minlərlə ay ərzində yaşıllığa bürünmüş bağları üzərində bütləri ucalan ucsuz-bucaqsız şəhər bərq vurdu. Prokuratorun çoxdan gözlədiyi ay yolu birbaş həmin bağa uzandı və bu yolla ən əvvəl şeşəqulaq it qaçmağa başladı. Qan-qırmızı astarlı ağ plaş geyinmiş adam kreslodan qalxıb xırıltılı, batıq səslə nəsə qışqırdı. Bilmək olmurdu bu adam gülürmü, ağlayırmı, nəsə qışqırırmı. Sədaqətli köməkçisinin arxasınca onun da bu yolla cumduğu göründü.

–Mən də onların arxasınca gedim? – master narahat halda cilovu tərpətdi.

–Yox, – Voland cavab verdi, – bitmiş bir şeyin arxasınca niyə gedəsən?

–Deməli, ora? – Master arxaya dönüb bir az əvvəl tərk etdikləri, bəzəkli monastır qüllələri olan, şüşələrində günəşin çiliklendiyi şəhəri göstərdi.

–Ora da yox, – Volandın kallaşmış səsi qayalıqlara yayıldı. – Xəyalpərəst master! Sizin yaratdığınız, indicə azad etdiyiniz qəhrəmanın çox həsrətlə görmək istədiyi adam romanınızı oxuyub. – Bu yerdə Voland Marqaritaya

tərəf çevrildi. – Marqarita Nikolayevna! İnanıram ki, siz master üçün ən yaxşı gələcək arzusunda olmusunuz, ancaq mənim təklif etdiyim və İeşuanın sizdən ötrü xahiş elədiyi, doğrusu, daha yaxşıdır. Onları ikilikdə buraxın, – Voland atın üstündə masterin yəhərinə tərəf əyilib, uzaqlaşan prokuratoru göstərdi, – onlara mane olmayaq. Bəlkə də, nəsə bir nəticəyə gələ bildilər, – bu zaman Voland əlini Yerşalaimə tərəf yellədi və şəhər söndü.

–Orada da həmçinin, – Voland arxanı göstərdi, – zirzəmidə neyləyəcəksiniz? – şüşələrdə sınan günəş dərhal söndü. – Nəyinizə lazım? – Voland yumşaq tərzdə təkid etdi. – Ey xəyalpərəst master, doğrudanmı siz gündüzlər öz sevgilinizlə çiçəkləməyə başlayan gilənar ağaclarının altında gəzmək, axşamlar isə Şubertın musiqisini dinləmək istəmirsiniz? Doğrudanmı şam işığında qaz lələyilə yazmaq xoşunuza gəlməz? Doğrudanmı siz də Faust kimi yeni insan yaratmaq ümidiylə retorta[35] önündə oturmaq istəmirsiniz? Ora, ora! Orada artıq sizi ev və qoca xidmətçi gözləyir,

[35]Retorta – distillə kimi kimya təcrübələrində işlədilən odadavamlı şüşə qab (daralan və yana burulmuş boğazı olur)

şamlar artıq yanır, ancaq tezliklə sönəcək, çünki siz dərhal dan yeriylə qarşılaşacaqsınız. Bu yolla gedin, master, bu yolla! Əlvida! Mənim getmək vaxtımdır.

–Əlvida! – Marqarita və master birağızdan qışqırdılar. Onda qara geyimli Voland yola məhəl qoymadan özünü uçuruma atdı, əshabələri də hay-küylə onun arxasıncatullandılar. Qayalar, meydança, ay yolu, Yerşalaim görünməz oldu. Qara atlar da yoxa çıxdı. Master və Marqarita vəd olunan dan yerini gördülər. Gecə yarısı birdən hava işıqlaşmağa başladı. Master öz sevgilisiylə sübh şəfəqləri altında mamırlı daş körpüylə gedirdi. Onlar körpünü keçdilər. Çay vəfalı sevgililərdən arxada qaldı və onlar qumlu yola çıxdılar.

– Səssizliyə qulaq as, – Marqarita masterə dedi, qum Marqaritanın yalın ayaqları altında xırçıldayırdı, – qulaq as və həyatda sənə qismət olmayan bu səssizlikdən ləzzət al. Bax, sənə mükafat verilən əbədi evin irəlidə görünür. Venesiya üslublu pəncərələri, qıvrıla-qıvrıla dama kimi qalxan tənəyi də görürəm. Bax, bu, sənin evindir, əbədi evin. Bilirəm, axşamlar yanına səni sevən, səni maraqlandıran və

səni narahat etməyən adamlar gələcək. Onlar sənin üçün çalacaqlar, sənin üçün oxuyacaqlar, şamlar yananda otağın necə işıqlandığını görəcəksən. Həmişəki qara papağını başına qoyub yatacaqsan, dodağında təbəssüm yatacaqsan. Yuxu səni gümrahlaşdıracaq, ağıllı fikirlər yürüdəcəksən. Məni isə daha qova bilməyəcəksən. Sənin yuxunu mən qoruyacağam.

Masterlə öz əbədi evlərinə tərəf gedə-gedə Marqarita belə deyirdi, masterə elə gəlirdi ki, Marqaritanın sözləri keçib gəldikləri çay kimi şırıldayır və masterin narahat, xəstə yaddaşı sönməyə başladı. Yaratdığı qəhrəmanı indicə azadlığa buraxdığı kimi kimsə masteri də azadlığa buraxırdı. Həmin qəhrəman, münəccimlər şahının bazar gününə keçən gecə bağışlanmış oğlu, İudeyanın qəddar beşinci prokuratoru atlı Ponti Pilat həmişəlik dibsiz uçuruma gömülmüşdü.

EPİLOQ

Bəs şənbə günü qürub çağı Voland paytaxtı tərk edib, öz əshabələriylə Vorobyov dağlarında yoxa çıxandan sonra Moskvada nələr baş verdi?

Çox sürətlə əyalətlərin ən uzaq, ən ucqar yerlərinəcən yayılan ağlasığmaz şayiələrin xeyli müddət paytaxtda dolaşdığından danışmağa belə dəyməz. Bu şayiələri təkrar eləmək belə ürək bulandırır.

Şəxsən mən, bu doğru sətirlərin müəllifi Feodosiyaya gedəndə qatarda eşitdim ki, Moskvada iki min adam teatrdan, sözün əsl mənasında, lüt çıxıb, o görkəmdə də taksiylə evə yollanıb.

"Cin-şəyatin..." pıçıltısı ağartı dükanlarındakı növbələrdə, tramvaylarda, mağazalarda, evlərdə, mətbəxlərdə, bağ evlərinə, uzaq yerlərə gedən qatarlarda, stansiyalarda və yarımstansiyalarda, bağ evlərində və çimərliklərdə eşidilirdi.

Nisbətən gözüaçıq və mədəni adamlar paytaxta təşrif buyuran cin-şəyatin barəsindəki söhbətlərdə, təbii ki, iştirak etmirdilər, hətta bu danışılanlara gülürdülər, danışanların başına ağıl qoymağa çalışırdılar. Ancaq fakt, necə deyərlər,

faktlığında qalır və heç nə izah etmədən buna saymazlıq göstərmək olmaz: paytaxtda kimsə olmuşdu. Tək elə yanıb külə dönmüş Qriboyedov və bir çox başqa şeylər bunu açıq-aydın təsdiqləyirdi.

Mədəni adamlar istintaqın gəldiyi nəticə ilə razılaşırdılar: şəhərdə öz sənətini çox əla bilən hipnozçulardan və falçılardan ibarət quldur dəstəsi fəaliyyət göstərib.

Bu quldur dəstəsini tutmaq üçün Moskvada və onun hüdudlarından kənarda, əlbəttə, təcili tədbirlər görüldü, ancaq çox təəssüf ki, görülən işlər heç bir nəticə vermədi. Özünü Voland adlandıran şəxs əlaltılarıyla birlikdə yoxa çıxdı və Moskvaya bir daha qayıtmadı, ümumiyyətlə, heç yerdə görünmədi, özünü necəsə büruzə vermədi. Tamamilə təbiidir ki, onun xaricə qaçdığı barədə fərziyyələr ortaya çıxdı, ancaq oradan da səs-sorağı gəlmədi.

İstintaq çox uzun sürdü. Axı törədilən cinayətlər dəhşətliydi! Yanmış dörd bina, ağlını itirmiş yüzlərlə adam bir yana, üstəlik, öldürülənlər var idi. İkisi haqqında: Berlioz və Moskvanın görməli yerləriylə tanışlıq bürosunun bədbəxt

işçisi keçmiş baron Meygel haqqında bunu dəqiq demək olardı. Onlar ki qətlə yetirilmişdilər. İkincinin yanmış sümükləri yanğın söndürüləndən sonra Sadovaya küçəsindəki 50 №-li mənzildə tapılmışdı. Bəli, qurbanlar olmuşdu və bu qurbanlar istintaq aparılmasını tələb edirdi.

Ancaq Voland paytaxtı tərk edəndən sonra da qurbanlar olmuşdu və çox kədərli haldır ki, bu qurbanlar qara pişiklər idi.

İnsana sədaqətli və xeyirli olan bu dinc heyvanların, təxminən, yüzü ölkənin müxtəlif yerlərində güllələnmiş, ya da başqa üsullarla məhv edilmişdi. On beş pişik şikəst olunmuş halda müxtəlif şəhərlərin milis şöbəsinə gətirilmişdi. Məsələn, Armavirdə bir vətəndaş heç bir təqsiri olmayan heyvanın qabaq ayaqlarını bağlayıb milisə aparmışdı.

Pişik oğrun-oğrun (neyləyəsən, pişiklərin görkəmi belədir. Ona görə yox ki pis heyvandır, sadəcə, qorxur daha güclü bir canlı – it, ya insan – ona xətər yetirər, incidər. Döymək, incitmək asandır, ancaq sizi inandırıram ki, bu, heç kimə şərəf gətirməz. Bəli, şərəf gətirməz!), hə, pişik oğrun-

oğrun, nədənsə, pıtraqlığa cummağa hazırlaşanda həmin vətəndaş onu görüb.

Özünü pişiyin üstünə yıxaraq, onu bağlamaq üçün qalstukunu aça-aça hirslə donquldanıb:

–Aha! Deyəsən, indi də bizim Armavirə təşrif gətirmisiniz, cənab hipnozçu? Ancaq burada sizdən qorxan yoxdur. Özünüzü də lallığa vurmayın. Hansı yuvanın quşu olduğunuzu yaxşı bilirik!

Pəncələrini yaşıl qalstukla bağlayıb, yazıq pişiyi sürüyə-sürüyə milisə aparırmış, hərdən də təpik vururmuş ki, pişik hökmən dal ayaqlarının üstündə yerisin.

–Özünüzü, – uşaqların fit verə-verə dahnca düşdüyü vətəndaş qışqırırmış, – gicliyə qoymayın! Bizi aldada bilməzsiniz! Zəhmət çəkin hamı kimi yeriyin!

Qara pişik ancaq əzablı baxışlarla yazıq-yazıq baxırmış. Təbiətən danışmaq qabiliyyətindən məhrum olduğundan özünü təmizə çıxara bilmirmiş. Xilası üçün bədbəxt pişik ilk növbədə milisə, sonra da sahibi dul qarıya minnətdar olmalıdır. Pişik şöbəyə çatdırılan kimi görüblər vətəndaşdan bərk spirt qoxusu gəlir, bu səbəbdən də onun ifadəsinə

dərhal şübhəylə yanaşıblar. Bu arada pişiyinin tutulduğunu qonşularından eşidən qarı qaçaraq özünü vaxtında şöbəyə çatdırıb. Pişiyi haqqında ən tərifli sözlər söyləyib, deyib ki, onu lap balacalığından, beş ildir tanıyır, ona özü kimi inanır, ona zamin dura bilər, deyib ki, pişik indiyə qədər heç bir pis iş tutmayıb və heç vaxt Moskvaya getməyib. Armavirdə doğulub, burada böyüyüb və siçan tutmağı öyrənib.

Pəncələri açılıb sahibinə qaytarılan pişik başı daşdan-daşa dəyəndən sonra təcrübədə bilib ki, səhv və böhtan nə deməkdir.

Pişiklərdən başqa, bəzi adamlar da xoşagəlməz hadisələrlə üzləşmişdilər. Bir neçə nəfər həbs olunmuşdu. Qısa müddətə saxlananlar arasında Leninqradda vətəndaş Volman və Volper, Saratov, Kiyev və Xarkovda üç Volodin, Kazanda Volox var idi, Penzada isə qətiyyən məlum olmayan səbəbdən kimya elmləri namizədi Vetçinkeviç tutulmuşdu. Doğrudur, o, çox hündür, qarabuğdayı bir adamdı.

Bundan başqa, müxtəlif yerlərdə doqquz Korovin, dörd Korovkin və iki Karavayev ələ keçmişdi.

Sevastopol qatarından bir vətəndaşı Belqorod stansiyasında qolubağlı düşürmüşdülər. Bu vətəndaş onunla gedən sərnişinləri kartda göstərdiyi fokuslarla əyləndirmək istəyirmiş.

Yaroslavlda bir vətəndaş yenicə təmirdən götürdüyü primusla məhz nahar vaxtı restorana gəlibmiş. İki qapıçı onu paltar asılan yerdə görən kimi dabanına tüpürüb, onların da arxasınca bütün müştərilər və işçilər restorandan qaçıblar. Üstəlik, həmin vaxt kassir qadının gəlirinin hamısı müəmmalı tərzdə yoxa çıxıb.

Çox şeylər olub, hamısını xatırlamaq mümkün deyil. Hər ağızdan bir söz çıxırdı.

Bir daha istintaqa haqq qazandırmaq lazımdır. Hər şey yalnız cinayətkarları tutmaq üçün yox, həm də onların törətdiklərini izah etmək üçün edilmişdi. Bunların hamısı izah olunmuşdu, izahları da ağıllı və inandırıcı saymaq olardı.

Əməliyyatçılar və təcrübəli psixiatrlar müəyyən etdilər ki, cinayətkar dəstənin üzvləri, ya ola bilsin, onlardan hansısa (şübhə əsasən Korovyevin üstünə düşürdü) özünü

əslində olduğu yerdə yox, olmadığı yerdə göstərməyi bacaran misli görünməmiş gücə malik hipnozçudur. Bundan başqa, onlar hansısa əşyanın, ya adamın əslində olmadığı yerdə olduğunu qarşılaşdıqları adamlara asanca təlqin eləyiblər və ya əksinə, həqiqətən, göz qabağında olan əşyaları, ya adamları yoxa çıxarıblar.

Belə izahatdan sonra hər şey, hətta izaholunmaz kimi görünən, vətəndaşları ən çox həyəcanlandıran bir hadisə də – 50 №-li mənzildə həbsinə cəhd göstərilində atəşə tutulan pişiyə güllənin kar eləməməyi belə tamamilə aydındır.

Təbii ki, çilçırağa pişik-zad dırmaşmayıb, ona güllə atmaq heç kimin ağlına belə gəlməyib, havaya atəş açıblar, pişiyin çilçırağa çıxıb şuluqluq saldığını təlqin eləyən Korovyev özünün çox böyük, ancaq cinayətkarcasına yararlandığı təlqinetmə bacarığından ləzzət alaraq, ağız-burnunu əyə-əyə həmin vaxt atəş açanların arxasında çox asanca gizlənə bilərdi.

Əlbəttə, Styopa Lixodeyev Yaltaya uçmamışdı (belə şey hətta Korovyevin də qüvvəsi xaricindəydi) və oradan teleqram yollamamışdı. Göbələk turşusunu çəngələ keçirmiş

pişiyi ona göstərən Korovyevin fokusundan qorxub, zərgər arvadının mənzilində özündən gedibyıxılmışdı, sonra Korovyev onunla məzələnərək başına keçə papaq keçirib Moskva aerodromuna yollamışdı, əvvəlcədən də Styopanı qarşılayan cinayət axtarış idarəsinin nümayəndələrinə təlqin etmişdi ki, Styopa Sevastopoldan gələn təyyarədən düşəcək.

Doğrudur, Yaltanın cinayət axtarış idarəsi Styopanı ayaqyalın vəziyyətdə qəbul etdiyini, onun barəsində Moskvaya teleqram göndərdiyini təsdiqləyirdi, ancaq bu teleqramların heç birinin surəti sənədlərin arasında tapılmamışdı və belə bir kədərli, ancaq qəti fikrə gəlinmişdi ki, hipnozçular dəstəsi çox uzaq məsafədən, həm də adamları yalnız ayrı-ayrılıqda yox, qrup halında da hipnoz eləməyi bacarırmış. Bu cür imkanları olan cinayətkarlar ən möhkəm psixikaya malik adamları da dəli eləyə bilərmişlər.

Parterdə oturmuş adamın cibindən tapılan kart dəsti, yoxa çıxan qadın paltarları, miyoldayan beret və buna oxşar başqa xırda şeylərdən heç danışmağa dəyməz! Belə hoqqaları, o cümlədən konferansyenin başının qoparılması kimi sadə fokusları babat peşəkar hipnozçu istənilən

səhnədə eləyə bilərdi. Danışan pişik də xalis cəfəngiyatdı. Belə bir pişiyi adamlara göstərmək üçün cadugərliyin ilkin əsaslarını bilmək kifayətdir, Korovyevin sənətinin bu əsaslardan çox-çox irəli getdiyinə, çətin ki, şübhə eləyən tapıla.

Bəli, məsələ heç də kart dəstində, Nikanor İvanoviçin portfelindəki saxta məktublarda deyil. Bunlar xırda şeylərdir! Berliozu tramvayın altna salıb öldürən Korovyevdir. Bədbəxt şair İvan Bezdomnını o dəli eləyib, xəyallara dalaraq əzablı yuxularda qədim Yerşalaimi və üç nəfərin dar ağacından asıldığı günün qarsaladığı susuz Keçəl Dağı görməyə o məcbur edib. Marqarita Nikolayevnanın, qulluqçusu gözəl Nataşanın Moskvadan yoxa çıxmasına o və onun quldur dəstəsi səbəb olub. Yeri gəlmişkən, istintaq bu işlə xüsusi maraqlanmışdı. Aydınlaşdırmaq lazımdı: bu qadınları qatillər, yanğın törədənlər dəstəsi qaçırıb, yoxsa cinayətkar dəstəyə könüllü qoşulub gediblər? Nikolay İvanoviçin mənasız, dolaşıq ifadələrinə əsaslanıb, Marqarita Nikolayevnanın ifritə olmağa getdiyini ərinə yazdığı qəribə, gic-gici məktubunu, Nataşanın öz paltarlarını evdə qoyub

yoxa çıxdığını nəzərə alıb istintaq belə bir rəyə gəldi ki, bir çoxları kimi ev sahibəsi və qulluqçu hipnoz olunub, bu vəziyyətdə də quldur dəstəsi tərəfindən oğurlanıb. Yəqin, tamamilə doğru olaraq belə bir fikir də yarandı ki, cinayətkarları hər iki qadının gözəlliyi cəlb eləyib.

Ancaq bir şey istintaq üçün tam qaranlıq qaldı – özünü master adlandıran ruhi xəstəni psixiatriya klinikasından quldur dəstəsi nə məqsədlə oğurlamışdı. Bunu, eləcə də oğurlanan xəstənin soyadını müəyyən etmək mümkün olmadı. "Birinci korpusdan yüz on səkkiz nömrəli xəstə" adıyla həmişəlik yox olub getdi.

Beləliklə, demək olar, hər şey aydınlaşdı və ümumiyyətlə, hər şey kimi istintaq da sona çatdı.

Bir neçə il ötdü, adamlar Volandı, Korovyevi və başqalarını unutmağa başladılar. Voland və onun əlaltılarının əlindən zərər çəkənlərin həyatnda çox dəyişikliklər baş verdi, bu dəyişikliklər nə qədər xırda, əhəmiyyətsiz olsa da, hər halda, onları qeyd etmək lazımdır.

Misal üçün, Jorj Benqalski müalicəxanada üç ay yatandan sonra sağalıb çıxdı, ancaq tamaşaçıların bilet

almağa axışıb gəldiyi ən qızğın vaxtda – magiya və onun ifşası yaddaşlarda özünə möhkəm yer eləmişdi – Varyetedəki işindən getməyə məcbur oldu. Benqalski Varyeteni atdı, çünki hər gecə iki min tamaşaçı qarşısına çıxmağın, istər-istəməz hamı tərəfindən tanınmağın və özünü başlı, yoxsa başsız yaxşı hiss etdiyi barədə istehzalı sualların əlində girinc qalmağın, əlbəttə, çox əzablı oduğunu başa düşürdü.

Bəli, bundan başqa, konferansye onun sənəti üçün vacib olan şuxluğunun bir xeyli hissəsini itirmişdi. Hər yaz bədr gecəsində həyəcanlanıb birdən öz boğazından yapışmaq, qorxa-qorxa ətrafına boylanıb ağlamaq kimi onda xoşagəlməz, məşəqqətli vərdiş yaranmışdı. Bu tutmalar ötüb-keçirdi, ancaq hər halda, belə vəziyyətdə əvvəlki işlə məşğul olmaq mümkün deyildi və konferansye istirahətə çəkilib, hesablamalara görə, ən azı, on beş il ona yetəsi yığdığı pullarla yaşamağa başladı.

O getdi və hətta teatr inzibatçıları arasında da çox az təsadüf olunan qayğıkeşliyə, nəzakətli davranışa görə məşhurlaşmış, hamının məhəbbətini qazanmış Varenuxa ilə

bir daha rastlaşmadı. Məsələn, kontramarkaçılar onu məhz xeyirxah ata adlandırırdılar. Kim, nə vaxt olur-olsun, Varyeteyə zəng eləsə, dəstəkdə həmişə mülayim, ancaq kədərli bir səs eşidilirdi: "Sizi eşidirəm", – Varenuxanı telefona istəyəndə isə həmin səs tələsik cavab verirdi: "Qulluğunuzda hazıram". Di gəl, özünün belə nəzakətli olmağının İvan Savelyeviç yaman altını çəkirdi!

Styopa Lixodeyevə daha Varyetedə telefonla danışmaq lazım olmur. Səkkiz gün yatdığı klinikadan çıxan kimi Styopanı dərhal Rostovda böyük qastronoma müdir göndərdilər. Şayiələr gəzir ki, portveyn içməyi büsbütün tərgidib, yalnız qarağat arağı içir, bu da onu əməllicə gümrahlaşdırıb. Deyilənə görə, dinib-danışmır, qadınlardan uzaq durur.

Stepan Boqdanoviçin Varyetedən çıxarılması bir neçə il ərzində çox həvəslə arzuladığı sevinci Rimskiyə bəxş eləmədi. Klinikadan çıxandan və Kislovodskdan qayıdandan sonra başı əsən, çox qocalmış maliyyə direktoru Varyetedəki işindən getmək barədə ərizə verdi. Maraqlıdır ki, ərizəni Varyeteyə Rimskinin arvadı gətirmişdi. Ay işığında

pəncərənin sınmış şüşəsini və pəncərənin aşağı sürgüsünə sarı dartınan uzun əli gördüyü binaya hətta gündüz belə getməyə Qriqori Daniloviç cəsarət eləməmişdi.

Maliyyə direktoru Varyetedən çıxıb, Zamoskvoreçyedəki uşaq kukla teatrına işə düzəldi. Bu teatrda akustika ilə bağlı möhtərəm Arkadi Apollonoviç Sempleyarovla bir daha qarşılaşası olmadı. Onu əlüstü Bryanska göndərib, göbələkhazırlama məntəqəsinə müdir təyin eləmişdilər. Moskvalılar indi duzlu sarı göbələkdən və turşuya qoyulmuş ağ göbələkdən bəh-bəhlə yeyib, bu dəyişikliyə çox sevinirdilər. Olan olub, keçən keçib, akustika məsələsində Arkadi Apollonoviçin işləri düz gətirmirdi, nə qədər çalışsa da yoluna qoysun, yenə necə varsa, eləcə də qalmışdı.

Teatrla üzülüşənlər arasında Arkadi Apollonoviçdən başqa, müftə biletlərə sevgisindən savayı teatrla heç bir bağlılığı olmayan Nikanor İvanoviç Bosoy da var idi. Pullu, ya havayı teatra getməməyi bir yana, teatrdan söhbət düşəndə hətta Nikanor İvanoviçin sir-sifəti dəyişirdi. Teatrdan daha çox şair Puşkinə və istedadlı artist Savva

Potapoviç Kurolesova nifrət eləyirdi. Savva Potapoviçə o dərəcədə nifrət eləyirdi ki, keçən il ömrünün çiçəklənən çağında onun ürəyinin yatdığı barədə qəzetdə qara haşiyəli xəbəri görəndə qıpqırmızı oldu, az qaldı Savva Potapoviçin arxasınca özü də o dünyaya getsin və bağırdı: "Ona haqq olur!" Bundan başqa, məşhur artistin ölümündən acı xatirələri oyanan Nikanor İvanoviç elə həmin axşam Sadovını işıqlandıran bədirlənmiş ayla baş-başa düt deyincə içdi. İçdiyi hər qədəhlə də nifrət etdiyi adamların mənfur sırası artırdı, bu sırada Dunçil Sergey Gerardoviç, gözəlçə İda Herkulanovna, döyüşən qazların kürən sahibi və ürəyiaçıq Kanavkin Nikolay da var idi.

Bəs onların başına nə gəldi? Əfv edəcəksiniz! Onların başına qətiyyən heç nə gəlməyib, gələ də bilməzdi, çünki onlar, əslində, heç vaxt olmayıblar, elə qəşəng artist konferansye, teatrın özü, Poroxovnikovun valyutanı zirzəmidə çürüdən qoca xalası da olmayıb və əlbəttə, qızıl şeypurlar, sırtıq aşpazlar heç yerli-dibli olmayıblar. Bütün bunları Nikanor İvanoviç haramzada Korovyevin təsiriylə vur-tut yuxuda görüb. Bu yuxuda yeganə canlı adam məhz

artist Savva Potapoviç olub, o da radioda tez-tez etdiyi çıxışları sayəsində Nikanor İvanoviçin yaddaşında iz salmışdı. Artist olmuşdu, qalanları yox.

Bəlkə, Aloizi Moqarıç da olmayıb? Heç də yox! O nəinki olub, hələ indi də yaşayır, özü də Rimskinin imtina etdiyi vəzifədə, yəni Varyetedə maliyyə direktoru vəzifəsində çalışır.

Volandla görüşdüyü vaxtdan, təxminən, bir gün sonra Vyatka yaxınlığında qatarda özünə gələn Aloizi gördü ki, ağlı çaşmış halda Moskvadan gedəndə şalvarını geyinməyi unudub, di gəl evtikənin ona qətiyyən lazım olmayan ev dəftərini nə üçünsə oğurlayıb. Bələdçiyə xeyli pul verib ondan çirkli köhnə şalvar aldı və Vyatkadan geri döndü. Ancaq əfsuslar ki, evtikənin evini tapmadı. Alov köhnə evi yer üzündən tərtəmiz silmişdi. Ancaq Aloizi çox tədbirli adam idi. İki həftə keçməmiş artıq Bıyusov küçəsində gözəl birotaqlı mənzildə yaşayırdı, bir neçə aydan sonra isə Rimskinin kabinetində əyləşmişdi. Əvvəllər Rimski Styopanın əlindən necə əziyyət çəkirdisə, indi də Varenuxa Aloizinin əlindən eləcə zinhara gəlmişdi. İvan Savelyeviçin

bircə arzusu var idi: bu Aloizini Varyetedən harasa rədd eləyəydilər; hərdən dost-tanışa gizlicə pıçıldayırdı ki, Aloizi kimi əclafa ömründə rast gəlməyib, ondan nə desən çıxar.

Amma ola bilsin, inzibatçı qərəzlidir. Aloizinin elə bir əlləm-qəlləm işini görən olmamışdı, əgər bufetçi Sokovun əvəzinə başqasını qoyduğunu nəzərə almasaq, ümumiyyətlə, heç bir işini görməmişdilər. Andrey Fokiç isə Voland Moskvada peyda olandan doqquz ay sonra Birinci MDU-nun müalicəxanasında ciyər xərçəngindən vəfat etdi...

Bəli, bir neçə il ötdü və bu kitabda doğru-düzgün əks olunan əhvalat yavaş-yavaş yaddaşlardan silindi. Ancaq hamının yaddaşından yox!

Hər yaz bədr gecəsi yaxınlaşanda axşamüstü Patriarx gölünün kənarında, cökə ağaclarının altında yaşıl gözlü, sadə geyimli, otuz yaşlarında kürən bir adam peyda olur. Bu adam tarix və fəlsəfə institutunun əməkdaşı professor İvan Nikolayeviç Ponıryovdur.

Cökə ağacının altında o həmişə eyni yerdə, hamının çoxdan unutduğu, son nəfəsində ayın parça-parça olub dağıldığını görən Berliozun oturduğu skamyada əyləşirdi.

İndi ay bütövdü, axşam düşəndə ağ, sonra isə qızılı rəngə boyanıb, solğun əjdaha-atla yanaşı keçmiş şair İvan Nikolayeviçin başı üstündə üzəcəkdi, eyni zamanda öz yüksəkliyində bir yerdə dayanıb duracaqdı.

İvan Nikolayeviçə hər şey məlumdu, o, hər şeyi bilir, başa düşürdü. Bilirdi ki, gəncliyində cinayətkar hipnozçuların qurbanı olub, sonra müalicə olunaraq sağalıb. Ancaq hərdən yenə özünü ələ ala bilmirdi. Yazda bədirlənmiş ay doğanda haldan-hala düşürdü. Ay bütövləşməyə, beşşamdan yüksəkdə dayandığı vaxtlardakı kimi qızılı rəngə boyanmağa başlayanda İvan Nikolayeviç həyəcanlanırdı, əsəbiləşirdi, iştahasını və yuxusunu itirirdi, ayın bədirlənməsini gözləyirdi. Bədr gecəsində isə İvan Nikolayeviçi daha heç nə evdə saxlaya bilməzdi. Axşama yaxın evdən çıxıb Patriarx gölünə üz tuturdu.

İvan Nikolayeviç skamyada oturanda artıq açıq-aşkar öz-özünə danışırdı, papiros çəkirdi, gözlərini qıyıb gah aya, gah da heç vaxt unutmadığı turniketə baxırdı.

İvan Nikolayeviçin bir-iki saat belə keçirdi. Sonra yerindən durub, həmişə də eyni yolla – Spiridonovkadan

keçib kor kimi mənasız baxışlarla Arbatın ensiz küçələrini dolaşırdı.

Neft dükanının yanından ötüb, əyilmiş köhnə qaz fənərinə çatanda dönərək hələ yaşıllaşmamış bağın, bağın içində üçtaylı pəncərəsinin qabağa çıxan tərəfinin ay işığına, o biri tərəfinin qaranlığa qərq olduğu malikanənin göründüyü dəmir çəpərə yaxınlaşırdı.

Professor onu dəmir çəpərə tərəf nəyin çəkdiyini və bu malikanədə kimin yaşadığını bilmirdi, ancaq bilirdi ki, bədr gecəsində özü ilə mübarizə aparmağa ehtiyac qalmır. Bundan başqa, dəmir çəpərin arxasındakı bağda mütləq eyni şeyi görəcəyini də bilirdi.

O, skamyada oturan ahıl, ciddi, sifətdən bir az donuza oxşayan saqqallı adamı görürdü. Malikanənin bu sakini həmişə baxışlarını aya dikib xəyallara dalmış vəziyyətdə olurdu. İvan Nikolayeviçə məlumdu ki, skamyada oturan bu adam aya tamaşa eləyəndən sonra irəli çıxmış pəncərəyətərəf çevrilib gözlərini ora zilləyəcəkdi, sanki, pəncərə indicə açılacaq və nəsə qeyri-adi bir şey peyda olacaqdı.

Sonra nələr olacağını İvan Nikolayeviç əzbər bilirdi. Həmin vaxt dəmir çəpərin arxasında hökmən yaxşı gizlənmək lazımdı, çünki skamyada oturan adam başını oyan-buyana döndərməyə başlayacaqdı, gözləri göydə nəyisə axtaracaqdı, sevincək gülümsəyəcəkdi, sonra birdən təəssüflə əllərini bir-birinə çırpıb dodağının altında danışacaqdı:

–Venera! Venera!.. Eh, mən axmağam!..

–Allahlar, allahlar! – İvan Nikolayeviç dəmir çəpərin arxasında gizlənib, alışıb-yanan gözlərini naməlum adamdan çəkmədən pıçıldayacaqdı. – Bu da ayın daha bir qurbanı... Hə, bu da mənim kimi qurbandır.

Skamyada oturan adam isə sözünə davam eləyəcəkdi:

–Eh, mən axmağam! Axı mən niyə onunla bir yerdə uçub getmədim? Nədən qorxurdun, qoca eşşək! Sənəddüzəltdirirdim! Eh, indi döz, qoca gicbəsər!

Malikanənin qaranlıq tərəfində pəncərə açılıb nəsə ağarana, xoşagəlməz qadın səsi eşidilənə qədər beləcə davam eləyəcəkdi.

–Nikolay İvanoviç, haradasınız? Bu nə şıltaqlıqdır? Malyariya olmaq istəyirsiniz? Gəlin çay için!

Skamyada oturan adam bu vaxt, əlbəttə, özünə gəlib, yalandan cavab verəcəkdi:

–Hava almaq istəyirəm, əzizim! Hava çox yaxşıdır!

O, skamyadan durub, aşağıdakı örtülən pəncərəyə yumruq qıcayaraq ağır-ağır evə tərəf gedəcəkdi.

–Yalan deyir, yalan deyir! Ax, allahlar, o necə də yalan danışır! – İvan Nikolayeviç dəmir çəpərdən uzaqlaşaraq donquldanırdı. – Bağa onu heç də hava çəkmir, bədirlənmiş yaz gecəsində ayda və bağda, yuxarıda nəsə görür. Ax, onun sirrindən agah olmaq, əbəs yerə əlini havada gəzdirib itirdiyi hansı Veneranı axtardığını bilmək üçün çox şeydən keçərdim.

Professor evə tamam xəstə vəziyyətdə qayıdırdı. Arvadı özünü elə aparırdı, guya, onun əhvalını sezmir və tələsdirirdi ki, yatsın. Ancaq özü yatmırdı, əlində kitab lampanın yanında oturub, yatan adama ağrıyla baxırdı. O bilirdi ki, dan yeri ağaranda İvan Nikolayeviç əzab dolu qışqırıqlarla ayılacaq, ağlamağa, çırpınmağa başlayacaq. Ona görə spirtə

salınmış şpris və içində tünd çay rəngli maye olan ampula əvvəlcədən lampanın altına qoyulurdu.

Taleyini ağır xəstə ilə bağlamış yazıq qadın indi qorxmadan sakitcə yata bilərdi. İynədən sonra İvan Nikolayeviç səhərə qədər şirin-şirin yatacaq və qadının xəyalına belə gətirmədiyi ilahi, gözəl yuxular görəcəkdi.

Alimi oyatmaq isə bədr gecəsində onun ürək sızıldadan qışqırığına səbəb olmaq kimi bir şeydi. O, qeyri-adi görkəmi olan burunsuz cəlladın hıqqıltıyla tullanaraq nizəni dar ağacına sarınmış və huşunu itirmiş Hestasın ürəyinə soxduğunu görürdü. Ancaq cəllad elə də qorxunc deyildi, yalnız dünyanı sarsıdan fəlakətlər zamanı olduğu kimi köpüklənən və torpağa çökən buluddan yayılan qeyri-adi işıq qorxunc idi.

İynədən sonra yatan adamın önündə hər şey dəyişirdi. Çarpayıdan pəncərəyə enli ay yolu uzanırdı və qan-qırmızı astarlı ağ plaşda bir adam bu yolla aya doğru getməyə başlayırdı. Əynində arıq xiton, üz-gözü eybəcər hala salınmış bir gənc də onunla yanaşı gedirdi. Onlar

qızğıncasına mübahisə edərək, nə haqdasa razılığa gəlmək istəyirdilər.

–Allahlar, allahlar! – plaşlı adam təkəbbürlü sifətini yol yoldaşına döndərərək deyir. – Nə mənasız edamdır! Ancaq lütfən, mənə de, – bu vaxt sifətindəki təkəbbür yalvarışla əvəzlənir, – axı edam olmayıb! Yalvarıram, de, olmayıb?

–Əlbəttə, olmayıb, – yol yoldaşı xırıltılı səslə cavab verir, – bu, sənin gözünə görünüb.

–Sən buna and içə bilərsən? – plaşlı adam yaltaqcasına xahiş edir.

–And içirəm! – yol yoldaşı cavab verir və nəyə görəsə gözləri gülür.

–Daha mənə heç nə lazım deyil! – plaşlı adam üzgün səslə qışqırır və öz yol yoldaşı ilə üzü aya gedə-gedə lap yuxarılara qabar. İri, heybətli şeşəqulaq it sakitcə onların arxasınca gedir.

Bu vaxt ay yolu qaynamağa başlayır, ondan ay çayı fışqırıb hər yana yayılır. Ay hökmranlıq edir, oynayır, əylənir, rəqs eləyir. Ay çayından son dərəcə gözəl bir qadın çıxıb, qorxa-qorxa ətrafına baxınan saç-saqqal basmış bir

adamın əlindən tutaraq İvanın qarşısına gətirir. İvanNikolayeviç dərhal onu tanıyır. Bu, onun gecə qonağı, yüz on səkkiz nömrəli xəstədir. İvan Nikolayeviç yuxuda əlini ona uzadıb maraqla soruşur:

–Demək, hər şey bununla da bitdi?

–Bununla da bitdi, mənim şagirdim, – yüz on səkkiz nömrəli xəstə cavab verir, qadın isə İvana yaxınlaşıb deyir:

–Əlbəttə, bitdi. Hər şey sona çatdı, hər şey sona çatır... Mən indi sizin alnınızdan öpəcəyəm, bütün işləriniz yaxşı olacaq.

O əyilərək İvanın alnından öpür, İvan da ona tərəf dartınıb gözlərinə baxır, ancaq qadın geri-geri çəkilib öz yoldaşıyla aya sarı gedir...

Bu vaxt ay yolu kükrəyir, işıq selini İvanın düz üstünə yönəldir, hər yana işıq çiləyir, otaqda ay daşqını başlayır, işıq dalğalanır, yuxarı qalxıb çarpayını basır. Bax onda İvan Nikolayeviç üzündən xoşbəxtlik yağa-yağa yatır.

Səhər yuxudan oyananda dinib-danışmasa da, özünürahat, gümrah hiss edir. Onun xəstə yaddaşı sakitləşir. Gələn bədr gecəsinə qədər professoru daha heç kim narahat

eləməyəcək: nə Hestasın burunsuz qatili, nə də İudeyanın qəddar beşinci prokuratoru atlı Ponti Pilat.

1929-1940